**SƏMAYƏ MƏMMƏD qızı MUSTAFAYEVA**
**ŞƏHLA MÜZƏFFƏR qızı QURBANOVA**
**ZƏRİFƏ ŞAMİL qızı CAVADOVA**

# ABŞ-ın XARİCİ SİYASƏTİ (1945-2010-cu illər)

**DƏRS VƏSAİTİ**

*Azərbaycan Respublikasının Təhsil Nazirliyi Elmi Metodik Şurası "Tarix" bölməsinin 01.07.2011-ci il tarixli iclasının qərarına (pr№6) və Təhsil Nazirinin 07.07.2011-ci il tarixli 1252 saylı əmrinə əsasən dərs vəsaiti kimi çap olunur.*

**BAKI – 2 0 1 1**

Elmi redaktor: dos. Səmayə Məmməd qızı Mustafayeva

**Rəyçilər:** ***prof. Məmməd Fətəliyev***
***prof. Musa Həsənov***
***dos.Şubay Nuruzadə***
***dos.Ərrəhman Əhmədov***
***t.e.ü.f.d.İlhamə Məmmədova***

**Dərs vəsaitinin I, II, V hissələri dos. S.M.Mustafayeva, müəllimə Ş.M.Qurbanova, dos. Z.Ş.Cavadova, III və IV hissələri isə ancaq Ş.M.Qurbanova tərəfindən hazırlanmışdır.**

# GİRİŞ

Qloballaşmanın yeni mərhələsinə daxil olduğu müasir dövrdə Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə əlaqələri daha da inkişaf edir. Müstəqilik qazanmış respublikamız üçün bu əlaqələr çox əhəmiyyətlidir. Gənclərimizin dünya tarixinə, xüsusilə də ABŞ tarixinə marağının getdikcə artdığını nəzərə alaraq "ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər)" mövzusunda dərs vəsaiti yazmağı qərara aldıq. Dərs vəsaiti ali məktəblərimizin həm bakalavr, həm də magistr pilləsi üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdən ali məktəb müəllimləri, həmçinin tarixlə maraqlanan hər bir oxucu istifadə edə bilər.

## I. İkinci dünya müharibəsinin ABŞ üçün nəticələri

ABŞ İkinci dünya müharibəsində də ən çox qazandı və Yer kürəsində özünün birinci super dövlət olduğunu bir daha sübut etdi. Müharibədə iştirak edən digər ölkələrlə müqayisədə onun əsas üstünlüyü ərazisinin (Havay adalarından başqa)hərbi əməliyyat meydanına çevrilməməsi və heç bir dağıntıya məruz qalmaması idi. ABŞ müharibə dövründə antihitler koalisiyasının əsas cəbhəxanasına çevrildi, ölkə inhisarçılarının gəliri 87 milyard dolları ötüb keçdi. Bu dövrdə ölkədə avtomobil istehsalı dörd dəfə artdı. Onun silahlı qüvvələri döyüş texnikasına və sayına görə dünyada birinci yeri tuturdu və tərkibində 12 milyondan çox əsgər və zabit vardı. ABŞ-ın müharibədə itkisi cəmi 300 min nəfər oldu ki, bu da SSRİ ilə müqayisədə 70 dəfədən az idi. Müharibədən sonra o, dünya sənaye məhsulunun 54,6%-nı istehsal edirdi. Dünya qızıl ehtiyatlarının isə 53,3%-i bu güclü dövlətin əlində mərkəzləşmişdi. ABŞ-ın belə inkişafını həm daxili, həm də xarici amillər müəyyən edirdi. Müharibə illərində Avropanın qabaqcıl dövlətlərindən olan İngiltərə və Fransa indi ona borcu olan dövlətlərə, Almaniya və Yaponiya isə müharibədə məğlub edilərək, müvəqqəti də olsa, zəif və gücsüz rəqiblərə çevrilmişdi. Digər tərəfdən isə ABŞ-ın özündə daxili bazarın geniş tutumu, sürətli kapital yığımı və onun ixracı, həmçinin məhsuldar qüvvələrin coşqun yüksəlişi imkan verirdi ki, o, super dövlət statusunu qoruyub saxlasın.

ABŞ-ın bu dövrdə öz daxilində və dünyada 2367 hərbi bazası var idi. Əgər 1940-cı ildə ölkədə silahlanmaya 3,5 milyard dollar xərclənirdisə, 1948-ci ildə hərbi xərclər 13,4 milyard dollar təşkil edirdi.

## Harri Trumeni prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti Dünya hegemonluğuna doğru. ABŞ-SSRİ münasibətləri

İkinci dünya müharibəsi ABŞ-ın təcridçilik siyasətindən "əl çəkməsinə" səbəb olan başlıca amil oldu. 1945-ci ilin dekabrın 19-da Trumenin konqresə göndərdiyi məktubunda da bu özünü çox açıq şəkildə göstərirdi:Bu bizim xoşumuza gəlsə də, gəlməsə də biz bir şeyi etiraf etməliyik ki, əldə olunan qələbə "Amerika xal-

qının üzərinə dünyanı idarə etmək kimi bir məsuliyyəti qoymuşdur".

ABŞ-ın hegemonluğuna nail olmaq yolunda başlıca maneə isə SSRİ idi.

ABŞ xarici siyasət planında bu kimi məsələlər çoxdan bəri xüsusi metod və üsullar vasitəsilə hazırlanmışdır ki, bu onun diplomatiyasına xüsusi bir "rəng" verirdi. ABŞ heç bir vəchlə beynəlxalq əhəmiyyətli məsələlərin həllində hər hansı bir dövlətin vasitəçi və ya aparıcı bir rolda çıxış etməsinə yol vermirdi. Hətta bu məsələ hər hansı bir ölkənin daxili problemi də olsa, onun rəyini formal olaraq soruşur və digər dövlətlərin verəcəkləri rəylərlə hesablaşmırdı. ABŞ dövlət departamenti bu birtərəfli "bəyannaməni" beynəlxalq hüquq normaları çərçivəsində "təsdiq etmək" və onun "militarist görkəminə" beynəlxalq arenada "sülhpərvər görkəm" verməyə çalışırdı.

Təcridçilik siyasətindən imtina edildikdən sonra ABŞ özünün dövrün tələblərinə uyğun olaraq ətraflı şəkildə hazırlanmış və möhkəmləndirilmiş "Açıq qapılar" adı ilə məşhur olan öz doktrinasının yenidən xarici siyasət arenasına gətirdi. Vaşinqton əmin idi ki, haradakı qapılar onun üçün açıqdır, orada onun iqtisadi, maliyyə və siyasi mövqeyi daim güclü olacaqdır. Bu isə ABŞ kapitalının dünyada hökmranlığını təmin edirdi. Beləliklə, "Açıq qapılar" proqramı ABŞ-ı dünyada yeganə hegemon dövlət edəcək bir siyasi proqram idi. Müharibədən sonra cərəyan edən siyasi hadisələr göstərdi ki, bu proqram siyasi cəhətdən əlverişsiz bir xarakterə malik idi ki, bu da sonda siyasi xətdə ciddi "əyrintilərin" olduğunu göstərdi. Müharibədən sonra bunun ilk fəsadlarını biz sosializm və kapitalizm sistemləri arasında baş vermiş ziddiyyətlərin əsas faktorlarından biri kimi müşahidə etdik.

Hələ müharibə qurtarmamışdan əvvəl Vaşinqton böyük diplomatik hazırlıq işlərinə başlamaqla gələcəkdə dünyada yeganə hegemon dövlətə çevrilmək üçün bir sıra proqram layihələrini nəzərdən keçirdi. Bu planları həyata keçirmək üçün mütləq bir şəkildə hüquqi, dünyəvi və beynəlxalq bir təşkilat lazım idi ki, bu da gələcəkdə BMT ola bilərdi.

Bu proqramın əsl mahiyyətini ABŞ prezidenti Trumen 1946-ci il 23 oktyabr tarixində BMT-nin xüsusi assambleyasında qeyd etdi, beynəlxalq tribunada ABŞ-ın gücünü alqışlayaraq məcburiyyət qarşısında qalaraq bu gücün ümumbəşəri dəyərlərə və haqq-ədalət naminə istifadə olunacağını bəyan etdi. O göstərdi ki, "Dünyanın hər hansı bir yerində sülhün pozulması məqsədi ilə hərbi əməliyyatların tətbiq edilməsi qəti surətdə yol verilməzdir və bu Amerika xalqının maraqlarına qətiyyən uyğun gəlmir. Tarixin gedişi bizi dünyanın ən güclü dövlətlərindən birinə çevirdi. Bununla da bizim üzərimizə öz potensialımızı qorumaq və bu potensialı, gücü ümumbəşəri dəyərlər, ədalət naminə istifadə etmək məsuliyyəti düşür"

Hələ Trumen dünyanın "rəsmi" şəkildə idarə edilməsi ideyasını elan etməmişdən əvvəl bu proqram ABŞ imperialist dairələrində elə bir dərin kök atdı ki, bu kök vasitəsi ilə Avropada SSRİ-yə qarşı xüsusi bir siyasi kurs müəyyənləşdirdi. Bu kurs Qərbi Almaniyada sovetlərə qarşı iqtisadi, hərbi bazanın yaradılmasından ibarət idi ki, gələcəkdə baş verə biləcək hər hansı "sovet təhlükəsi" zamanı ABŞ ondan bir bufer kimi istifadə etmək fikrində idi.

Beləliklə təcridçiliyin ağır "buxovlanmış" yüklərindən qurtulmaqla ABŞ dünyada yeganə fövqəl dövlətə, yəni super dövlətə çevrilmək məqsədi ilə "ümumbəşəri dəyərlərin və beynəlxalq hüququn qorunması" bayrağı altında təcavüzkar hərbi bloklar yaratmaq, beynəlxalq hərbi bazalar sistemi yaratmağa can atmaqla özünün dünyanı yeganə hegemon dövləti olmasını göstərməyə çalışırdı.

İkinci dünya müharibəsi özü ilə çox böyük bəlalar və fəsadlar gətirmişdir ki, bu fəsadların yaraları hələ də sağalmamışdır. Bunlardan ən başlıcası və ən əsası nüvə silahıdır.

Yarandığı vaxtdan bu günə kimi nüvə silahı və onun ən qorxunc və ən təhlükəli növü olan atom silahı qorxunc ölüm təhlükəsinə çevrilib yer üzünün əşrəfi sayılan insanı kölgə kimi izləməyə başlamışdı. Onun yaranması ilə dünyamız rahatlığını itirdi, gecələr atom "yastığına" baş qoyub narahat yatmağa başladı. Ümumi evimiz Yer kürəsi çox kövrək oldu.

Nüvə silahının ərsəyə gətirilməsində və tətbiq edilməsindəABŞ-ın “xidmətləri” əvəzsizdir. Bu onun 1845-ci ilin avqustunda Yaponiyaya üzərində tətbiq edilməsində və gizli hərbi planların hazırlanmasında, atomum tətbiq ediləsi barəsində dövlət əhəmiyyətli sənədlərin ortaya çıxmasında özünü göstərir.

1941–ci ilin payızında F.Ruzvelt ABŞ-da atom enerjisinin inkişafına dair təkilflər işləyib hazırlamaq üçün xüsusi komitə təyin etdi. O komitəyə vitse-prezident Q. Uolles, hərbi nazir Q.Stimson ordu ştabının rəis generalı C.Marşall, professorlardan V. Buş, C.Konant daxil oldular.

40-cı illərin əvvəllərində ABŞ-ın müxtəlif elmi laboratoriyalarında tədqiqatlar aparılırdı. Dövlət artıq özü birbaşa bu məsələ ilə, yəni atom silahına yiyələnmə məsələsinə ciddi yanaşırdı. Bu işdə ona İngiltərə fəal surətdə köməklik edirdi. Hər iki ölkənin mütəxəssisləri xüsusi bir layihə-“Manhetten layihəsi” hazırladılar ki, bu layihə üzrə aparılan işlərə general Pesle Qrovs rəis, Robert Oppenqeymer elmi rəhbər təyin edilmişdi.

Bu plan üzrə ilk nüvə silahları kompleksləri(NSK)1942-1943-cü illərdə tikilməyə başlandı. Onlardan Riçlend istehsal kompleksi(Vaşinqton ştatı) , Okric kompleksi (Tennesi ştatı), Los-Alemos laboratoriyası (Nyu-Meksika ştatı) Sandiya və Lourens adına Livermors laborotoriyalarını misal göstərmək olar. Xüsusilə Los-Alemosda və Livermorsda 1945-ci ildə 100 çeşiddə nüvə silahı və onların modifikasiyaları hazırlanmışdı. 1945-ci ilin aprelin12-dən prezident olan Harri Trumen ictimaiyyətdən gizli surətdə saxlanılan bu silahın hazırlanmasından xəbərdar deyildi. Hərbi nazir Stimson bu haqda ona məlumat verdikdən sonra Trumen onunla ABŞ-ın dünyanın yeganə fövqəl dövləti olacağını əmin idi və onun perspektivlərinin beynəlxalq arenada, xüsusilə SSRİ-yə qarşı, necə böyük əhəmiyyətinin olacağına qətiyyən şübhə etmirdi.

Zaman artıq yetişmişdi ki, atom bombası haqqında geniş amerikan ictimaiyyətinə məlumat vermək lazım idi. Bu elə edilməli idi ki, ABŞ-ın nüvə şantajı konsepsiyası ilə qidalanan xarici siyasətinə haqq qazandırılsın. Bəs nə etməli? Trumen bu haqda çox fikirləşmədi. Dünya kapitalizm düşərgəsində, eləcə də

ABŞ-da insanların dini heysiyyatından məharətlə istifadə edildi. “Tayms” qəzetində bu haqda nəzərə çatdırıldı ki, **BİBLİYADA** atom bombasına haqq qazandırmaq üçün orada “alovlu (yanğınlı)məhv edilmə” ibarəsi var .

Öz memuarlarında Trumen etiraf edirdi” yeni silah təkcə müharibədə inqilab deyil, həm də tarixi və sivilizasiyanın axarını dəyişəcəkdir”

Bu konsepsiya ABŞ-ın müharibədən sonrakı strateji planlarında nüvə silahlarından istifadəni nəzərdə tuturdu, təşkil edirdi. Amerika diplomatiyasının veteranı C.Kennan o günləri yada salaraq yazırdı: *Biz beynəlxalq formada çıxış etdiyimiz zamanda atom silahının tərxis edilməsi barəsində güzəştlərə getməyi söz verdik. Lakin hər şey aydın idi. . . . . . ki, biz bu silah ilə öz müdafiə strukturumuzu təsis etmək və silahdan ilk olaraq istifadə etmək niyyətindəyik*”. 1945-ci ilin iyulun 16-da ABŞ özünün ilk atom silahını Los-Alemos səhralığında sınaqdan keçirdi. Bu sınaq bəşəriyyət tarixində yeni eranın - atom erasının əsasını qoydu

ABŞ 1942-1946-cı illərdə  atom bombasının hazırlanmasına 2 milyard dollar vəsait xərcləmişdi. ABŞ-ın artıq dünyada hegemonluq iddiasında olmasını bildirmək məqsədi ilə Yaponiyanın Xrosima və Naqasaki şəhərlərinə növbə ilə 1945-ci ilin avqustun 6 və 9-da atdığı atom bombası atması bir çox dövlətlər, xüsusilə SSRİ tərəfindən böyük narazılıqla qarşılandı. Verilən hər bir təklif ABŞ-ın “atom diplomatiyası” siyasətinə zidd olduğu üçün o bunu qəbul etmədi. “Qüvvələr mövqeyi” siyasətini rəhbər tutan ABŞ beynəlxalq problemlərin həllində atomdan bir vasitə kimi istifadə etmək istəyirdi.

Atom üzərində ABŞ-ın inhisarının ömrü o qədər də uzun olmadı. Belə ki 40-cı illərin sonlarında dünyada mühüm bir dəyişiklik oldu: ABŞ bu inhisar hüququnu itirdi. 1949-cu il sentyabr ayının 25-də SİTA-nın məlumatında göstərilirdi ki, Sovet İttifaqı atom silahının sirlərini kəşf etmişdir və artıq bu silaha malikdir.

1983-cü ilin yazında “İnterneşnıl sekyuriti” (ingliscədənbeynəlxalq mühafizə) jurnalının “kütləvi qırğın potensialının tarixi; 1945-1960-cı illərdə nüvə silahı və amerikan strategiyası” başlığı

ilə nəşr etdirdiyi tədqiqat materialları göstərirdi ki, ABŞ nüvə silahlarının istehsalı üçün də düşünülmüş ölçülər üzərində işləmiş və müharibə olacağı təqdirdə əsas vəzifə sovet nüvə potensiallarına nüvə silahları vasitəsi ilə ilk zərbə vurmaqdır. Bundan sonra İngiltərə və ABŞ-da SSRİ ilə münasibətdə amerikan hərbi-strateji planları və xüsusilə də sovetlərə nüvə zərbələrinin endirilməsi planlarını özündə əks etdirən sənədlər çap edilmişdi.

Xirosima və Naqasaki faciələrindən sonra ABŞ hərbi maşını və ona dəstək verən idarə aparatı "sovet təhlükəsi"nə qarşı qabaqlayıcı tədbir kimi nüvə silahları vasitəsilə aviozərbələr planını özündə əks etdirən direktivlər hazırlamağa başladı. Onlar belə adlanırdı: "Amerika hərbi siyasətinin formalaşmasının əsasları (1492/2) " və "ABŞ hərbi qüvvələrinin istifadə edilməsi planları və strateji konsepsiyası (1518) ". Bu direktivlər ABŞ qərargah rəislərinin birləşmiş komitəsi tərəfindən 1945-ci ildə ayrı-ayrılıqda müvafiq olaraq 19 sentyabr və 9 oktyabrda təsdiqləndi. Direktivlərin hazırlanmasında "əməyi keçənlər" birinci direktivə əsaslanaraq bildirirdilər ki, ilk zərbə konsepsiyasını reallığa çevirmək mümkündür. Onlar deyirdilər: *"Biz heç bir vəchlə icazə verə bilmərik ki, bizim təcavüzkar davranışlarımıza mane olmağa zəmin yaradan yalan və təhlükəli ideyalar səbəbindən bizə ilk zərbə endirilsin. Bunları nəzərə alaraq bizim hökumət tez bir zamanda siyasi bir addım atmalıdır ki, bununla eyni bir zamanda ilk zərbə konsepsiyası əsasında hazırlıq işləri görülmüş olsun"*

1945-ci ilin oktyabrında Qərargah rəislərinin birləşmiş komitəsi atom silahı istehsalının sürətləndirilməsi barədə idarə dairəsinə bir sıra təklif və tələblər göndərdi. Noyabrın 31-də isə tam məxfi bir şəkildə atom silahlarının və digər nüvə silahlarının tətbiq olunacağı yerlər müəyyənləşdirildi. Yaponiyanın taleyini yaşayacaq şəhərlər bunlar olmalı idi: ***Moskva, Lelinqrad(indiki Sankt-Peterburq), Qorki, Kuybişev, Sverdlovsk, Novosibirsk, Omsk, Saratov, Kazan, Bakı (göründüyü kimi ABŞ-ın direktivlərində təkcə nüvə potensiallı mərkəzlərin deyil, həm də neftlə zəngin şəhərlərin məhv edilməsi məsələsi əks olunmuşdu ki, bu da bütün SSRİ ərazisində məhz Bakı idi. Bakını əhəmiyyəti hətta ABŞ hökumət dairələrində belə diqqət mərkəzində idi-red),***

***Daşkənd, Çelyabinsk, Nijni-Taqil, Maqnitaqorsk, Perm, Tiblisi (Tiflis-red) , Novokuznetsk, Qroznı, İkutsk, Yaroslavl.***

1948-ci ildə atom silahı vasitəsilə təşkil olunacaq aviozərbələrin umumi və konkret əməliyyat planları hazırlandı. Onların şərti adları belə idi:"Broyler", "Frolik", "Xarrou" və s.

Ümumiyyətlə, QRBK-nin sədlərində əks olunan direktivlərdə strateji planlaşdırma bu prizmadan qurulurdu: "Əgər ABŞ tezliklə müəyyən olunmuş yerlərdə hərbi bazalar yaradıb onlar arasında əlaqəni tənzimləyə bilsə, o zaman tezliklə müharibəyə başlamaq imkanı artar və sonra Rusiyanın (SSRİ-red)həyati əhəmiyyətli sənaye mərkəzlərinə və şəhər mərkəzlərində hərbi-hava əməliyyatları icra etmək mümkün olacaqdır. . . . . Strateji hərbi-hava uçuşlarını və hər ehtimala qarşı böyük yerüstü əməliyyatlara başlamaq məqsədi ilə əhəmiyyətli regionların ələ keçirilməsi üçün mütləq bir şəkildə piyada, hərbi-hava və hərbi-dəniz qüvvələrini seçib hazırlamaq lazımdır".

Direktivlərdə qeyd edilirdi ki, xüsusilə sovet neft sənaye mərkəzlərini (əsasən Bakı və onun ətraf əraziləri-red) Aralıq dənizinin şərqində və yaxud Qahirə-Suveyş regionunda salınacaq hərbi bazalardan qalxacaq hərbi təyyarələr vasitəsi ilə bombardman edilməsi gərəklidir ki, effektiv nəticələr verə bilsin. Moskvanın ətraf rayonlarının isə B-29 markalı təyyarələr vasitəsi ilə vurulması isə əldə olunacaq effektiv nəticələrin maddi və mənəvi dayağı olmalı idi. Buraya aparılacaq təyyarələrin bazasının isə həm Qahirə-Suveyş, həm də Britaniya adalarında yerləşməsi nəzərdə tutulurdu. Ural və Kuzbas kimi regionları isə Hindistanda yerləşəcək bazalardan çətinlik çəkmədən zərbə altında qoymaq olardı. Beləliklə, keçiriləcək hərbi–hava əməliyyatlarının ABŞ üçün uğurlu olması üçün bazaların məhz Yaxın Şərqdə, Britaniya adalarında və Hindistanda yaradılması zəruri idi.

Hələ bir neçə il əvvəl prezidentin köməkçisi K. Klifford müharibə kursunu özündə əks etdirən "Sovet İttifaqı ilə münasibətdə Amerika siyasəti" adlı məruzəsini prezidentə təqdim etmişdi. Məruzədə deyilirdi: "*Sovet İttifaqının əsas mərkəzlərinin, sənaye mərkəzlərinin və zəngin faydalı qazıntılarının olduğu nəhəng ərazisi səbəbindən zəifliyi o dərəcədə deyil. Bu səbəbdən*

*ona qarşı təkcə atom yox, bioloji müharibə də aparmaq lazımdır. Beləliklə ABŞ SSRİ-ni effektiv bir şəkildə məhv etmək istəyirsə, özünü atom və bioloji müharibəyə hazırlamalıdır.”*

1947-ci ildə C.Forrestolun başçılığı ilə Müdafiə Nazirliyi yaradıldı. Onun nazir təyin edilməsi ilə anti-sovet kompaniya ölkə daxilində yeni impuls aldı.

Müdafiə nazirliyi ilə birgə prezident başda olmaqla Milli Təhlükəsizlik Şurası da (MTŞ)hərbi planların hazırlanmasında yaxından iştirak edirdi. 1947-ci ildən başlayaraq bu iki dövlət təşkilatı tərəfindən hazırlanan planlar sonda QRBK (Qərargah Rəislərinin Birləşmiş Komitəsi) tərəfindən nəzərdən keçirilib təsdiqlənirdi. Bu dövrdə MTŞ-nin qəbul etdiyi 7, 20/1, 20/2, 58 nömrəli memorandumlar xüsusilə əhəmiyyətlidir. Bunlardan 7 nömrəli memorandum ən maraqlı idi.

1947-1949-cu illərdə hərbi planları ümumi şəkildə belə hazırlanmışdır. Birincisi - ümumdünya sosializm quruluşunu “dəf etmək”, əgər mümkün olarsa, SSRİ ilə müharibə qaçılmaz reallıq idi. İkincisi--SSRİ və onun müttəfiqləri hərbi və iqtisadi cəhətdən ABŞ-ın səviyyəsinə çatmamalıdır. Üçüncüsü--ABŞ nüvə silahını birinci olaraq istifadə etməyə hazır olmalıdır.

1948-ci ilin martında MTŞ-nın 7 nömrəli memorandumunda ABŞ-ın əsas hərbi və xarici siyasət məkanında vəzifələri öz əksini tapırdı. Bunun əsasında aşağıdakı tədbirlər görülməli idi: Ölkə daxilində ABŞ hərbi potensialını gücləndirmək, ABŞ-ın atom bombası sahəsində şəriksiz monopoliyasını qorumaq, ölkə daxilində “sovet təhlükəsi” haqqında geniş təbliğat proqramı hazırlamaq, həmçinin, geniş informasiya vasitələrininköməkliyi ilə bizim xarici siyasətimizin ictimaiyyət tərəfindən dəstəklənməsini təşkil etmək, ölkə xaricində müharibə olacağı təqdirdə əks-hücumun təşkili zamanı diqqəti Qərbi Avropaya yönəltmək də nəzərdə tutulurdu.

”Dəmir pərdə”nin şimal tərəfi Norveçdən başlayaraq cənubi-şərqdə Türkiyənin cənub sərhədləri boyunca uzanırdı və öz daxilində sosialist Avropasını birləşdirirdi. Bu ölkələrdə mövcud quruluşlara qarşı təşkil ediləcək müqavimət hərəkatına kömək

etmək üçün proqram hazırlamaq və lazım olan anda ondan istifadə etmək nəzərdə tutulurdu.

Direktivlərdə sovetlərin təsiri altında olan dünya kommunizmi ilə mübarizə aparmaq üçün nəhəng maliyyə fondu yaratmaqdan da bəhs edilirdi.

MTŞ-nın hazırladığı digər bir plan isə 1948-ci ilin sentyabrın 16-da Trumen tərəfindən imzalanan 30 nömrəli direktiv idi. Burada qeyd olunurdu ki, "hərbi qüvvələr özlərinin əllərində olan bütün imkanlardan, atom silahı da daxil olmaqla, effektiv və səhvsiz bir şəkildə istifadə etməyə hazır olmalıdır və bunun əsasında da növbə ilə ardıcıl strateji planlar hazırlamağa borcludurlar".

1948-ci ildə şuranın 10/2 nömrəli direktivində isə yalnız müharibə vaxtında deyil, sülh şəraitində belə "fayda verə biləcək məsələlər" qeyd olunmuşdur: "Təbliğat da daxil olmaqla gizli əməliyyatlar təşkil etmək; iqtisadi müharibə; sabotajla birgə qabaqlayıcı tədbirlərin görülməsi düşmən ölkələrə qarşı təxribat xarakterli işlərin yerli hərəkatlara kömək etmək prizması ilə təşkili burada öz əksini tapmışdı. Bütün bu tədbirlər elə görülməli idi ki, onun təşkilatçısı-ABŞ-ın adı bu işlərdə hallanmasın. Əksinə, onun üzərində hər hansı şübhələr olarsa, ABŞ bunu mütləq bir şəkildə inkar etməlidir.

Direktivlərin hazırlanmasında yaxından iştirak edən yüksək çinli şəxslər sovetlər üzərinə atılacaq atom bombasının zamanının gecikdirilməməsini israrla təkid edirdilər.ABŞ ordu naziri hökuməti inandırmağa çalışırdı ki,: "Biz silah hazırlamaq üçün atom enerjisinə ölkə məxaricinin 98%-ni sərf edirik. Əgər biz onu indi istifadə etməyəcəyiksə, o zaman bu işlərin heç bir mənası yoxdur".

1948-ci ilin ortalarında "Çarioter" şərti adı altında plan hazırlandı. Müəyyən olunmuş 70 sovet şəhərinə 133 atom bombası atılmalı idi. (bu rəqəmlər 1948-ci ildə tərtib olunan "Troydjen" əməliyyatında təsdiq olunmuşdu). Onlardan 8-i Moskvaya və 7-si Lelinqrada endirilməli idi. Sonradan bu plan komplektləşdirilmiş şəkildə "Xafmun", sonra "Flitvud" planı ilə əvəzləndi. Sonuncu plan da öz növbəsində "Dablstar" planı ilə əvəz edilmişdi.

ABŞ bu minvalla qızğın bir şəkildə müharibəyə hazırlaşırdı. Dünya böyük bir təhlükə ilə artıq üzbəüz qalmışdı. SSRİ-yə qarşı

hazırlanan planlar bir-birlərini əvəz edirdi. Hətta ABŞ iqtisadiyyatı hərbi relslər üzərinə keçirilmişdir. Baş verə biləcək nüvə müharibəsinə Qərbi Avropa dövlətlərini də cəlb etmək üçün bir sıra işlər görülmüşdü. Lakin 1949-cu ilin sentyabrın 3-də bombardmançı təyyarə B-29 sakit okeanın şimalı ilə uçarkən radiokativliyin yüksəlişini müşahidə etdi. SSRİ artıq atom silahına malik olduğu aydın idi.

ABŞ-ın dünyada yekdil şəkildə hegemon olmaq istəyi və ümidləri artıq puç olmuşdu. Atom silahı üzərində monopolist(inhisar-red) hüquq artıq itirilmişdi və əvvəlcədən hazırlanmış strateji konsepsiyalara yenidən baxmaq lazım idi. Onlar artıq yeni strateji hücum planları üzərində işləməyə başladılar. Planlarda əsaslı şəkildə dəyişiklik edildi. Artıq planın əsas xəttini ilk zərbə deyil, əks-zərbə konsepsiyası təşkil edirdi. Müharibənin yeni tarixi müəyyən olundu: **1950-ci il 1 yanvar**. Plana görə 100 sovet şəhərinə 300 atom bombası və 20 min ton çəkiyə malik adi müxtəlif cür silahların tətbiqi nəzərdə tutulurdu. Yeni plana "Troyan" şərti adı verildi. Lakin baş verə biləcək hadisələr analiz olunarkən məlum oldu ki, bombardmandan sonra itkilər və fəsadlar çox böyük olacaq, qəfil endiriləcək zərbələrdən (sovetlər tərəfindən -red)sığortalanmaq və qorunmaq mümkün olmayacaq. Bunun nəticəsində də Britaniya adalarında yerləşəcək bazalar məhv ola bilər və Qərbi Avropanın müdafiə sisteminin qurulması şübhə altında olar. ABŞ HHQ-İ (hərbi –hava qüvvələri)komandanlığı məruzə edərək qeyd etdi ki: "Troyan" planı əsasında mütəşəkkil şəkildə hərbi-hava hücumları və aviozərbələrin endirilməsinin təşkili imkanlar xaricindədir; ABŞ və Alyaskanın hava hücumundan müdafiə təhlükəsizliyini təmin edə bilməz. . Beləliklə yalnız arifmetika (hesab-red) dünyanı müharibədən xilas etdi.

1950-ci ilin avqustun 15-də QRBK xüsusi plan üzərində işləməyi sona çatdırdı. Burada ilk növbədə Sovet İttifaqının atom silahının istehsal etdiyi həyati əhəmiyyətli obyektlərinin məhv olunması, 2-ci növbədə sovet hərbi qüvvələrinin hərəkətini mümkün qədər ləngitmək, 3-cü növbədə isə yanacaq istehsal olunan müəssisələri atom zərbələri ilə məhv etmək nəzərdə tutulurdu.

Araşdırılan direktivlər içərisində MTŞ-nın 68 nömrəli direktivi seçilir ki, onun hazırlanmasına rəhbərliyi P. Nitse etmişdir. O, R.Reyqanın dövründə nüvə silahlarının tərki-silah edilməsi məsələsi üzrə aparılan amerikan-sovet danışıqlarında ABŞ nümayəndə heyətinin rəhbəri təyin olunmuşdu. Bu direktiv Trumen tərəfindən 1950-ci ilin 30 sentyabrında təsdiqləndi. Bu sənədin başlıca mənası bu idi: "Daha çox qorxu və təşviş əhval-ruhiyyəsi yaratmaq və təşkil etməklə ABŞ ictimaiyyətinin militarist psixozuna təsir etmək". MTŞ-68 direktivi əsasında təşkil edilən memorandumların müəllifləri yazırdılar: "Sovet təhlükəsi nəticəsində ABŞ–ın təhlükəsizlik tədbirləri yüksək səviyyəyə çatdı.

Göründüyü kimi, bu direktivlər çox məharətlə və proqramlı bir şəkildə hazırlanmışdı. Onlar təkcə silahlanmanın artırılması və müharibəyə hazırlığı deyil, həm də "sovet sisteminin daxildən məhv edilməsi", açıq "psixoloji müharibə aparmaq", "siyasi, iqtisadi, psixoloji müharibə çərçivəsində gizli vasitələr və metodlardan istifadə etməklə təbliğat və əməliyyatların keçirilməsi"ni də nəzərdə tuturdu. Beləliklə, "Qarşısını alma" siyasəti "daimi məcburiyyət" siyasəti kimi xarakterizə olunurdu. Direktivin sonunda qeyd olunan məsələlər 30 il sonra olacaq "Reyqan üslubu" kimi eşidilirdi:

1."Biz çox güclü olmalıyıq. Necə ki, bizim prinsiplər milli həyatda möhkəmlənir. Bu cür bizim iqtisadi və hərbi gücümüz inkişaf etməlidir.

2.Biz azad dünyanın iqtisadi və siyasi sisteminin qurulmasında 1-ci olmalıyıq.

3.Prinsiplərimizin möhkəmləndirilməsindən savayı bizim işlərimiz və siyasətimiz sovet sistemininkindən köklü surətdə fərqli bir şəkildə olmalıdır.

H.Trumenin prezidentliyinin sonuncu ili atom müharibəsinin baş verməsi üçün artıq real görünürdü. Koreyaya müdaxiləni təşkil edən ABŞ hakim dairələri müharibənin biabırçı məğlubiyyətindən çıxış yolları axtarmağa başlamışdılar ki, son anda atom vasitəsi ilə şantaj edilmə üsulu gündəmə gəldi. 1952-ci il yanvarın 27-də ABŞ prezidenti Eyzenhauer yazırdı: "Mənə belə hesab edirəm ki, hal-hazırda ən düzgün qərar Moskvaya

göndəriləcək 10 sutka müddəti olan ultimatumdur ki, burada biz Hind-Çinə qədər Çin sərhədlərini Koreya sərhədlərindən ayırmaq və Mancuriyada olan bütün hərbi bazaları məhv etmək niyyətindəyik".

Belə direktivlərin işlənib hazırlanması Trumenin hakimiyyətindən sonra da D. Eyzenhauerin prezidentliyi dövründə də davam etdi.

**ABŞ və Latın Amerikası ölkələri:**

40-cı illərdə Qərb yarımkürəsində regional təşkilat olan Amerika Dövlətləri Təşkilatının yaradılması beynəlxalq münasibətlər üçün mühüm hadisə oldu. 1947-ci il sentyabrın 2-də Rio-de-Janeyroda (Braziliya) qarşılıqlı yardım haqqında Latın Amerikasının 29 dövləti və ABŞ müqavilə imzaladılar. Çoxtərəfli hərbi, siyasi, iqtisadi və digər əlaqələri nəzərdə tutan bu müqavilənin imzalanması Amerika dövlətlərarası sisteminin yaradılmasının əsasını qoydu. Müqaviləyə əsasən təşkilat üzvü olan dövlətlər qarşılıqlı müdafiə, siyasi, iqtisadi və b. sahələrdə əməkdaşlıq etməli idilər. 1948-ci il aprelin 30-da Kolumbiyanın paytaxtı Boqotada IX Amerikan ölkələri arası konfrans iştirakçıları Amerika Dövlətləri Təşkilatının nizamnaməsini təsdiq etdilər. Nizamnamə 1951-ci il dekabrın 13-də qüvvəyə mindi. ADT-nin nizamnaməsinə Rio-de-Janeyro paktının əsas müddəaları daxil edildi. Təşkilatın xərclərinin təxminən 70%-i ABŞ ödəyirdi. ADT-nin ali orqanı Baş Məclis idi. Təşkilatın baş qərargahı Vaşinqtonda yerləşirdi.

**BMT-nin yaradılması və ABŞ**

Faşizm üzərində qələbədən sonra 1945-ci ilin aprelin 25-də San-Fransiskoda müharibədən sonra sülhün qorunub saxlanması, beynəlxalq təhlükəsizliyin təmin edilməsi və ölkələrarası əməkdaşlığı genişləndirib möhkəmləndirmək üçün konfrans açıldı. Konfransın işində 1942-ci il yanvarın 1-də anti-hitler koalisiyasının üzvlərinin qəbul etdiyi "Birləşmiş millətlər" bəyannaməsi əsas aparıcı sənəd idi. Bu sənəd əsasında BMT-nın gələcək strukturu və vəzifələri hələ 1944-cü il avqustun 21-dən sentyabrın 28-nə qədər davam edən ABŞ, SSRİ və İngiltərənin iştirak etdiyi Dumbarton-Oks konfransında müzakirə edilib bəyənilmişdi. Konfransa

ümumilikdə 50 dövlət qatılmışdı. Konfransın sədrləri V. M. Molotov (onu sonra A.A.Qromıko əvəz etdi, E.Stettinius, A. İden, Sun Çzı-Ven seçildilər. Amma konfransın gedişinə nəzarəti ABŞ diplomatı Elqar Hiss edirdi.

Konfransın gündəliyində BMT-nin nizamnaməsini işləyib hazırlamaq dururdu. Konfransın gedişində dörd komissiya yaradıldı: 1)Ümumi məsələlər. 2) Baş məclis, iqtisadi və sosial şura, qəyyumluq şurası məsələləri. 3)Təhlükəsizlik Şurası məsələləri. 4) Beynəlxalq məhkəmə və digər hüquqi məsələlər. Bundan başqa nümayəndələr heyəti başçılarının müntəzəm olaraq müşavirəsi də keçirildi. Layihələrə düzəlişlər bir neçə qrup üzrə sistemləşdirildi: birinci qrup düzəlişlərdə Baş Məclisin hüquqlarının genişləndirilməsini nəzərdə tuturdu. İkinci qrup düzəlişlərdə Təhlükəsizlik Şurasının, onun daimi üzvlərinin hüquqlarının məhdudlaşdırılması və onun üzvlərinin sayının artırılmasını nəzərdə tuturdu. Üçüncü qrup düzəlişlər beynəlxalq məhkəmənin hüquqlarının genişləndirilməsi barədə idi. Digər düzəlişlər texniki xarakter daşıyırdı. Konfrans iştirakçılarının əsas diqqəti birinci iki qrup düzəlişlər idi.

Təhlükəsizlik Şurasında səsvermə məsələsində Krım konfransında irəli sürülən daimi üzvlər arasında yekdillik prinsipi qəbul olundu. Qəyyumluq məsələsində dövlətlərin ümumi fikir birliyi əsasında himayədə olan ərazilərin əhalisinin inkişafı üçün qəyyum sistemi yaratmaq irəli sürüldü. Konfrans beynəlxalq məhkəməni təsis etdi. BMT-nin baş iqamətgahı kimi Nyu-York seçildi. Onun konfranslarında işlədiləcək rəsmi dillər qarşılıqlı razılaşmaya əsasən ingilis, rus, ərəb, fransız, ispan və çin dilləri oldu.

Beləliklə 1945-ci il iyunun 26-da BMT-nin yaradılması haqqında nizamnaməni onun konfransında iştirak edən 51 dövlət imzaladı. Bu dövlətlər bunlar idi: **Avstraliya, Argentina, Belarus SSR, Belçika, Boliviya, Brzilya, Böyük Britanya, Venesuela, Haiti, Qvatemala, Honduras, Yunanıstan, Danimarka, Dominikan Respublikası, Misir, Hindistan, İraq, İran, Kanada, Çin, Kalumbiya, Kosta-Rika, Kuba, Liberiya, Livan, Lüksenburq, Meksika, Nikaraqua, Niderland, Yeni Zellandiya, Norveç, Panama, Paraqvay, Peru, Salvador, Səudiyyə Ərəbistanı, Suriya, SSRİ, ABŞ, Türkiyə, Ukrayna SSR, Uruqvay, Filippin**

**respublikası, Fransa, Çexoslovakiya, Çili, Ekvador, Efiopiya, Yuqoslaviya, CAR, Polşa.** Həmin ilin oktyabrın 24-də Təhlükəsizlik Şurasının üzvləri bunu ratifikasiya etdikdən sonra bəyannamə qüvvəyə mindi. Bu tarix 1945-cil 24 oktyabr BMT-nin yaradılması günü kimi qeyd olundu.

ABŞ-ın BMT-yə olan münasibəti məsələsinə gəlincə, onu biz qeyd edə bilərik ki, bu təşkilatın yaradılmasına bilavasitə məhz o səbəbkar olmuşdu. Bununla da ABŞ gələcəkdə beynəlxalq arenada onun siyasətinə dəstək verəcək və ona maksimum səviyyədə effektiv təsir edə biləcək bir təşkilatın yaradılmasına səbəbkar olacağına çox böyük ümidlər bəsləyirdi. BMT-nin yaradılması və onda ABŞ-ın rolunu əks etdirən “Ultra” şərti adı altında məxfi proqramı ilk dəfə Franklin Ruzvelt 1944-cü ildə hazırlamış və qeyd etdiyimiz məsələlər orada əks olunmuşdu. Bundan başqa, ABŞ tarixçisi Stiven Şlezinqerə görə Təhlükəsizlik Şurasının 5 üzvünün “veto” qoymaq hüququ məsələsini də ilk dəfə məhz Franklin Ruzvelt bu proqramda irəli sürmüşdü. Bunu irəli sürməklə Ruzvelt ABŞ konqresinə BMT üzərində istənilən halda nəzarətin ABŞ-ın əlində olacağına təminat verirdi. Maraqlı bir faktdır ki, SSRİ veto hüququna qarşı çıxmışdı.

BMT yarandıqdan sonra ABŞ ona beynəlxalq siyasi arenada təsir gücünə malik olmayan 2-ci dərəcəli beynəlxalq təşkilat kimi baxırdı. Bunun əsas səbəbi isə “soyuq müharibə”nin başlanması idi. ABŞ –SSRİ münasibətlərinə Təhlükəsizlik Şurası, ümumiyyətlə, təsir edə bilmirdi. BMT o zaman baş verən siyasi-hərbi münaqişələrə elə də təsir edə bilmirdi. Bundan əlavə bəzi məsələlərdə bu təşkilat ABŞ-ın maraqları dairəsinə daxil olmayan qərarlar verirdi. Ona görə də bu təşkilat ABŞ üçün o qədər də böyük əhəmiyyətə malik deyildi. Bir məsələni qeyd edək ki “soyuq müharibə”nin ən gərgin məqamlarından olan Berlin və Kuba böhranları zamanı BMT məsələyə əsaslı surətdə təsir edə bilməmişdi.

**Soyuq Müharibə və ABŞ-ın geosiyasi planları.** Soyuq müharibə XX əsrin II yarısının ən kədərli hadisələrindən biri hesab olunur. Onun başlanması səbəblərindən danışarkən Xirosima və Naqasaki faciəsini, 1946-cı il martında Fultonda U. Çörçillin

məşhur çıxışını, sovet staslinçi totalitar rejiminin dünyanı bürümək təhlükəsindən qorxunu, Trumen doktrinasını, dünyanın müharibədən sonrakı quruluşuna dair hələ müharibənin gedişində ortaya çıxan fikir ayrılıqlarını xüsusilə qeyd etmək vacibdir.

"Soyuq müharibə"ni ilk dəfə açıq şəkildə Böyük Britaniyanın keçmiş baş naziri U.Çörçill 1946-cı ilin martın 5-də ABŞ-ın Fulton şəhərindəki çıxışında elan etdi. O, azad dünya ölkələrini yeni dünya müharibəsinin təhdid etdiyini və bu təhlükənin əsas səbəbkarının SSRİ və beynəlxalq kommunist hərəkatı olduğunu bəyan etdi. Çerçill SSRİ-yə qarşı ən qəddar siyasətin yeridilməsinə çağırdı, amerikan atom silahı ilə hədələdi və SSRİ-yə qarşı böyük dövlətlərdən ibarət ittifaqın yaradılmasını təklif etdi.

"Soyuq müharibə" illərində beynəlxalq münasibətlərin inkişafı başlıca olaraq fövqal dövlətlər arasında münasibətlərdə müəyyən olunurdu. Onların rəqabəti hərbi-siyasi xarakter daşıyırdı, lakin bununla yanaşı həm bu, həm də digər tərəf nəticəsinə inamı olmadığından açıq hərbi münaqişədən qaçmağa çalışırdı. Bu da müharibədən sonrakı dünya siyasətinin silsiləvi xarakterini müəyyən etdi. "Soyuq müharibə" beynəlxalq münasibətlərin kəskinləşməsi və yumşalmasının bir-biri əvəz etməsi idi. Fövqəl dövlətlərin münasibətləri aralarındakı rəqabət üzündən kəskinləşir, lakin müəyyən həddə çatdıqda hər iki tərəf qlobal müharibəyə cəlb olunmaq qorxusu duymağa başlayırdı. Bu zaman onlar bir qayda olaraq, gərginliyi azaltmaq yolları arayır, güzəştlərə gedirdilər. Ancaq təhlükəsizlik hissi qayıdan kimi rəqabət əvvəlki qüvvə ilə bərpa olunur və hadisələrin gedişi təkrarlanırdı.

"Soyuq müharibə" terminini ilk dəfə 1947-ci ilin aprelin 16-da Cənubi Karolina ştatının qanunverici orqanında Bernard Barux (H. Trumenin dövründə onun məsləhətçisi vəzifəsində çalışırdı) işlətmişdi. Bu ibarənin belə şəklə düşməsində məşhur jurnalist Hebert Svoup böyük rol oynamışdır. Sonralar bu ibarəni öz məqalələrini qəzetlərdə çap etdirən Volter Lippman mətbuatda geniş bir surətdə işlətməyə başladı. Məhz bundan sonra bu termin dünya mətbuatında işlənməyə başladı.

II dünya müharibəsi qurtardıqdan sonra Şərqi Avropa dövlətlərində, o cümlədən Polşada SSRİ-nin təşkilatçılığı ilə sovet

idarəçilik sistemi yaradıldı. (Londonda mühacirətdə olan Polşa hökuməti ola-ola ölkədə "sovet modelli" hökumətin yaradılması məsələni daha da qəlizləşdirmişdi). Bu hadisələrdən sonra ilk öncə İngiltərə və ABŞ SSRİ-yə bir təhlükə mənbəyi kimi baxmağa başladılar.

1945-ci ilin aprelində Britaniyanın baş naziri U. Çörçill SSRİ ilə müharibəyə hazırlaşmağı məqsədəuyğun hesab edərək öz memuarlarında belə qeyd edirdi ki, Sovet Rusiyası Amerika və Avropa üçün ölümcül təhlükəyə çevrildiyinə görə tez bir zamanda onun irəliyə doğru inadkar hərəkətinə qarşı yeni cəbhə yaratmaq lazımdır. Bu cəbhə Avropadan bacardıqca daha çox şərq tərəfə genişlənməlidir.

1946-cı il martın 5-də Fultonda çıxış edərkən Çörçill qeyd etmişdir ki, SSRİ ilə münasibətdə bir tərəfdən ABŞ və İngiltərə, digər tərəfdən isə ingilis dilində danışan ölkələr hərbi qüdrət və üstünlük baxımından ondan üstün olmalıdır. Çörçill ilk növbədə atom silahına malik bir dövlət kimi ABŞ ilə əlaqələri daha da möhkəmləndirmək niyyətini açıqca bu çıxışda bildirmişdi. Çıxışı zamanı "rus xalqının cəsurluğunu və marşal Satalinin onun müharibə yoldaşı olmasını" yada salan Çörçill ardınca bunları nəzərlərə çatdırdı: "Baltik dənizində Şettindən Adriatik dənizində Triyestə qədər "dəmir pərdə" qitə boyu uzanır. . Bu xəyali xəttin daxilində Mərkəzi və Şərqi Avropanın qədim paytaxt şəhərləri də daxil olur. Şərqi Avropada o qədər populyar olmayan kommunist partiyası ölkələrin (Şərqi Avropa -red)həyatlarının bütün sahələrinə daxil olaraq orada totalitar nəzərəti ələ keçirdilər. ."

Göründüyü kimi, artıq Fulton çıxışı "soyuq müharib"ənin başlanmasını rəsmi surətdə elan etdi və bəşəriyyət artıq 1991-ci ilə kimi bu müharibənin təsiri altında iki qütbə bölünərək bir-birləri ilə siyasi, ideoloji, iqtisadi müharibə girdabına daxil oldu.

**"Qarşısını alma nəzəriyyəsi".** Göründüyü kimi, İkinci dünya müharibəsi sona çatdıqdan sonra iki sistem arasında bir-birlərinə qarşı artan tələblər sonda kəskin ziddiyyətlərə gətirib çıxarmışdı ki, bu da "soyuq müharibə"nin başlanmasına zəmin yaratmışdı. Müharibə qurtardıqdan dərhal sonra Parisdə keçirilən Təhlükəsizlik Şurasının üzvlərinin konfransında SSRİ açıq şəkildə

Tripolitanda ona protektoratlıq hüququnun verilməsini, Türkiyəyə ərazi iddiaları edərək Qara dənizdə boğazların(Bosfor və Dardanel) statusunun dəyişdirilməsi və Dardaneldə rus hərbi bazaların yaradılmasına rəvac verilməsini tələb edirdi. Digər tərəfdən isə, müharibə qurtardıqdan sonra sovet ordusunun azad etdiyi Şərqi Avropa ölkələrində kommunist partiyasını hakimiyyətə gətirdi və orada "Sovet modeli" dövlət tipləri yaratdı idi. Bütün bunlar başda ABŞ olmaqla qərb dövlətlərini böyük təşviş və qorxu ya salmışdı. Bundan əlavə, SSRİ ABŞ və qərb dövlətləri tərəfindən yaradılacaq ümumdünya bankı və ümumdünya maliyyə fondunun əleyhinə çıxış edərək bildirirdi ki, bu tədbirlər ABŞ-ın dünya ölkələrinin daxili işlərinə müdaxilə etməsindən başqa bir şey deyildir.

Buna qarşı ABŞ-ın tədbirlər planı özünü çox gözlətmədi. O planlar SSRİ-nin nəinki Şərqi Avropada, hətta dünyanın müxtəlif nöqtələrində müxtəlif sahələr üzrə siyasi "işgüzarlığı"nın qaşısını almalı idi. Bu planlar "paketinin" ümümi adı: "QARŞISINI ALMA NƏZƏRİYYƏSİ" idi

"Qarşısını alma nəzəriyyəsi" geosiyasi nəzəriyyə olub 1940-cı illərdə amerikan diplomatı Corc Kennan tərəfindən irəli sürülmüşdü. Bu nəzəriyyə "qarşılıqlı sığortalanmış şəkildə məhv edilmə" konsepsiyasına əsaslanırdı. Bu konsepsiya əsasən belə bir kriteriyaya söykənirdi:" İlk zərbə endirdikdən sonra düşmənin (SSRİ və onun müttəfiqləri nəzərdə tutulur) total şəkildə başlayacağı müharibədən dünyanın mühafizə edilməsi". Məlum olduğu kimi, bu siyasi nəzəriyyə ABŞ-ın XX əsrin II yarısında xarici siyasətini ana xəttini təşkil edirdi. Bu siyasi kurs hal-hazırda indiki dövrdə də öz aktuallığını qoruyub saxlayır, belə ki ümumdünya siyasət arenasında nüvə silahı hələ də aparıcı mövqeyə malikdir ki, ABŞ və Rusiyanın hərbi doktrinalarında bundan" qarşısını alma faktoru" kimi istifadə olunur.

1946-cı ilin fevralında ABŞ dövlət departamenti o dövrdə Moskvada ABŞ səfirinin məsləhətçisi vəzifəsində işləyən Corc Frost Kennandan rusların ümumdünya bankının və maliyyə fondunun yaradılmasına nə üçün qarşı çıxmasını müəyyən edib bu barədə dövlət departamentinə məruzə etməyi toplaşırdı.

1946-cı ilin fevralın 13-də Kennan dövlət departamentinin 284 nömrəli müraciətnaməsinə həmin ayın 22-də özünün 511 nömrəli "uzun teleqramı" ilə cavab verdi.

Teleqramda daha böyük əhəmiyyət kəsb edən hissə aşağıdakı idi:

"Sovet hakimiyyəti Hitlerin hakimiyyətindən fərqli olaraq heç də avantürist və sxematik deyil. O, sərt şəkildə hazırlanmış planlar ilə "müşayiət olunmur". O, ehtiyac olmadan risk etmir. Məntiqi hadisələrin müzakirəsində qabiliyyətsiz olsa da, məntiqin gücünə qabiliyyətini yüksək səviyyədə büruzə verir. Ona görə də istənilən anda güclü bir müqavimətlə rastlaşan kimi o dərhal geri çəkilir-hansını ki o, həmişə bunu edir. Beləliklə əgər rəqib güclüdürsə və öz gücünü açıq şəkildə büruzə verirsə, o zaman o nadir hallarda öz gücündən ona qarşı istifadə edir. Belə vəziyyətlərdə düzgün mövqe seçilərsə, o zaman düşmən ilə alçaldıcı danışıqlara getmək ehtiyacı duyulmaz"

Göründüyü kimi, Kennanın teleqramının bu şərhində ABŞ – ın SSRİ ilə münasibətdə hansı mövqedə durmasını açıq şəkildə göstərilirdi ki, sonralar ABŞ-ın xarici siyasət xəttində bu açıq şəkildə görünürdü.

Kennana görə, Sovetlər özünü daim kapitalizm ilə müharibədə olan dövlət kimi görürdü, Sovetlər müttəfiq sifəti ilə kapitalizm dünyasına qarşı tabeçiliyində olan marksistlərdən istifadə edəcəkdir, Sovet təcavüzü rusların baxışları və iqtisadi reallıq ilə yox, təkcə tarixi rus ksenofobiya və paranoyyası ilə əlaqəli idi. Sovet idarəçilik strukturu elə qurulub ki, onun daxili və xarici həqiqətləri haqqında anlayışa malik olmaq imkansız idi.

Kennanın dövlət departamentinə göndərdiyi bu teleqram orada "lap əvvəldən vəziyyətin düzgün başa düşülməsi" kimi qəbul edildi. Kennanın elə özü zamanın vaxtında dəyərləndirilməsi entuziazıminin (şövq, vəcd) səbəbini belə açıqladı ki, "6 ay öncədən məlumat göndərilsə idi, o zaman dövlət departamentində bu xəbər bığların vəcdə gəlməsinə və dodaqlarda olan narazılıqların yox olmasına səbəb olardı. Bundan 6 ay gec olsa idi, o zaman bu məlumat mənasız səslənəcəkdi".

Klark Klifford və Corc Elsi(hər ikisi H. Trumenin məsləhətçiləri idi) “uzun teleqram” haqqında hesabat hazırlayaraq, onun analiz edilməsindən sonra prezidentə təqdim etmək üçün siyasi təkliflər planını hazırladılar. Bu hesabat hansı ki, sovet təsir dairəsini “kiçicik bir məkanda məhdudlaşdırmağı və qıfıllamağı” təklif edirdi. Bu təkliflər 1946-cı ilin sentyabrında Trumenə təqdim edildi.

Kennan doktrinasının əsas məzmunu aşağıdakı kimi idi:

ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşı Kennan göstərirdi ki, beynəlxalq aləmi təhlil edərkən məsələlərə 5 hissədə cavab vermək olar və bunlar aşağıdakılardır:

1. İkinci Dünya müharibəsindən sonra sovet dünyagörüşünün xüsusiyyətləri.

2. Bu dünyagörüşün əsasları.

3. Onun rəsmi səviyyədə real siyasətdə heyranediciliyi

4. Onun qeyri-rəsmi formada heyranediciliyi

5. ABŞın siyasəti nöqteyi-nəzərindən əməli nəticələr çıxarmaq.

Aşağıdakıları Kennan dərhal rəsmiləşdirməyi zəruri hesab edirdi:

Hissə 1. İkinci Dünya müharibəsindən sonra Sovet dünyagörüşünün xüsusiyyətləri rəsmi Sovet təbliğat aparatının nöqteyi-nəzərini təqdim edir:

a) SSRİ bu vaxta qədər antaqonist “kapitalist əhatəsində yerləşir və bu uzunmüddətli perspektivdə sülh şəraitini təmin edə bilmək, bu iki sistem arasında dünya iqtisadiyyatını idarə etmək uğrunda mübarizədir, Stalinin 1927-ci ildə elan etdiyi kimi, ümumdünya miqyasında sosializm və kapitalizmin taleyini həll edir.

b) Kapitalizm dünyası öz daxili münaqişələrini həll etməklə məşğuldur. Bunlar dini kompromis yolu ilə həll edilmir. Bu münaqişə əsasən İngiltərə və ABŞ arasındadır.

v) Kapitalizmin daxili münaqişələrinin müharibəyə apardığı qaçılmazdır. Müharibə iki formada-kapitalist dövlətlərin öz daxilində və sosialist dünyasının qarışması yolu ilə ola bilər.

q) SSRİ-də sosializm quruculuğunu dayandırmaq və onu məhv etmək üçün istənilən vasitədən istifadə etmək vacibdir.

d) Kapitalist ölkələri arasındakı münaqişələr SSRİ üçün bir sıra təhlükə yaratsa da, əgər SSRİ öz hərbi gücünü, ideoloji sıxlığını və özünün parlaq rəhbər roluna inamını saxlayarsa, sosializm işinin irəliləməsi üçün imkan yaranmış olar.

e) Daim xatırlatmaq lazımdır ki, kapitalist dünyası öz mahiyyəti etibarı ilə o qədər də pis deyildir.

j) Lenin göstərirdi ki, burjua cəmiyyətində xalqın saxta dostları olan mötədil sosialistlər və sosial demokratlar daha təhlükəlidir. Biz Leninin sözlərindən nəticə çıxararaq onlardan istifadə etməyi unutmamalıyıq.

Sovet siyasətinin nöqteyi-nəzərincə, aşağıdakı nəticələrə gəlmək olar:

a) Bütün dünyada SSRİ-nin mövqeyini möhkəmləndirmək üçün bütün zəruri olanı etmək tələb edilir.

b) Sovetlərin gücü kapitalist dövlətləri arasında fikir müxtəlifliyi və münaqişələri öyrənməyə və istifadə etməyə yönəldilməlidir.

v)“Demokratik və mütərəqqi qüvvələr” xaricdə Sovetin maraqları çərçivəsində kapitalist ölkələrinin hökumətlərinə təzyiq göstərmək üçün maksimum fəaliyyət göstərməlidirlər.

q) Xarici sosialist və sosial-demokrat liderlərə qarşı amansız mübarizə aparmaq lazımdır.

Hissə 2: Sovet dünyagörüşünün əsasları

SSRİ-ni siyasi kursunu tədqiq etməyə başlamamışdan əvvəl bir sıra konkret aspektlərə diqqəti cəlb etmək istərdim:

Birincisi, bu dünyagörüşü rus xalqı üçün təbii deyildir. Rus xalqının əksəriyyətində xarici dünyaya qarşı dostcasına münasibət vardır. Onların əksəriyyəti dini şəraitdə və öz xüsusi əməyinin bəhrəsi ilə yaşamaq istəyirlər. Bu dünyagörüşü hakimiyyət aparatının, daha doğrusu, partiyanın mövqeyinə uyğundur.

İkincisi, bu siyasi kursun böyük hissəsi yalandır. Qərb ölkələrinə münasibətdə mötədil sosialistlərin səmimiliyinə kapitalist ölkələrində heç kim şübhə etmir. Bunu Skandinaviya ölkələri timsalında daha aydın görmək olar. SSRİ özünə ümumi məqsədlər naminə kapitalist dövlətləri ilə mübarizə aparmaq üçün öhdəlik götürmüşdür.

Buradan belə nəticə çıxır ki, Sovet siyasi kursu onun sərhədlərindən kənardakı şəraitin obyektiv təhlilinə əsaslanmır. O daha çox əsasən daxili Rusiya tələblərinə söykənir.

Kremlin nöqteyi-nəzərində beynəlxalq münasibətlərdə Rusiya üçün müdafiə olunmamaq hissi ənənəvi instinkt olaraq qalır. Bu səbəbdən o xarici təhlükədən həmişə ehtiyat edir və öz təhlükəsizliyi üçün yollar axtarır. Məhz buna görə də marksizm ilk dəfə öz köklərini Rusiyada atdı. Bu ölkə heç vaxt dostcasına qonşuluq etməyin nə olduğunu bilmir. İqtisadi münaqişələri sülh yolu ilə həll etməyi bacarmır. Marksizm naminə onlar öz metod və taktikalarında öz mənəvi dəyərlərini qurban verdilər. Bu gün də onlar bunsuz keçinə bilmirlər. Onların öz müdafiələrini təşkil etmək üçün ən çox diqqət yetirdikləri sahə hərbi qüdrəti artırmaqdır.

Hissə 3: Sovet dünyagörüşünün rəsmi səviyyədə real siyasətdə heyranediciliyi.

İndi biz Sovet siyasi proqramının əsasları və təbiəti haqqında dəqiq təsəvvür əldə edirik. Onun əməli olaraq tətbiq edilməsi nəticəsində biz nələri gözləyə bilərik.

Sovet siyasəti, dövlət departamentinin təsəvvürünə görə iki səviyyədə həyata keçirilirdi: Bunlardan biri, rəsmi səviyyədədir ki, bu səviyyədə bütün hərəkatlar Sovet hökuməti adından rəsmən həyata keçirilir. İkincisi isə, gizli səviyyədir ki, burada hökumət heç bir məsuliyyət daşımadan hərəkat həyata keçirir.

Rəsmi səviyyədə aşağıdakı vəzifələri nəzərdən keçirmək vacibdir:

a) Daxili siyasət Sovet dövlətinin imicinin və potensialının hərtərəfli artımına həsr edilmişdir. Bunlar intensiv hərbi sənaye; Silahlı Qüvvələrin maksimum inkişaf etdirilməsi, digər tərəflərin müşahidəçiləri qarşısında yüksək nailiyyətləri nümayiş etdirmək; daxili işlərə münasibətdə sədaqətli gizlilik, zəif tərəfləri gizlətmək və opponentləri görünməz saxlamaq.

b) Sovet təsirinin rəsmi sərhədlərini genişləndirməyə xüsusi səy göstərmək. İndiki zamanda bu səy əsasən konkret qonşu ərazilərə yönəldilmişdir. Bu məsələ ilk növbədə birinci dərəcəli strateji zərurətdən irəli gəlmişdir. Bu Şimali İran, Türkiyə və

Bornholm adalarıdır. Ola bilər ki, İranın “dost” hökuməti Rusiyaya İran körfəzində yeni liman təqdim etsin. Əgər İspaniya kommunist nəzarətinə düşərsə, Cəbəllütariq boğazında Sovet bazaları yaratmaq məsələsi qalxacaq. Bu növ tələblər Almaniya üçün də gözlənilir.

v) Rusiya rəsmən beynəlxalq təşkilatlarda iştirakı qəbul edir. Bu ona başqa dövlətlər üzərində onun təsiri üçün imkan yaratmış olur. SSRİ BMT-nin üzvüdür. SSRİ BMT-yə onun məqsədlərini reallaşdıran bir təşkilat kimi baxır. SSRİ-nin BMT-yə münasibəti praqmatikdir və taktiki xarakter daşıyır.

q) Müstəmləkə ərazilərinə, geridə qalmış və asılı xalqlara münasibətdə Sovet siyasəti rəsmi səviyyədə Qərbin qabaqcıl ölkələrinin nüfuz və hakimiyyətini bu ölkələrdə zəiflətməyə yönəldilmişdir. Hələlik bu siyasət müvəffəqiyyətlə həyata keçirilir. Belə getsə, Sovet kommunizminin müvəffəqiyyətlə daxil olması üçün gözəl bir vakuum təşkil ediləcək.

d) Ruslar səylə çalışırlar ki, Sovet nümayəndəliyini o ölkələrdə genişləndirsinlər ki, o ölkələrdə (məsələn Almaniya, Argentina, Yaxın Şərq ölkələri)Qərb dövlətlərinə qarşı durmaq üçün real imkan mövcuddur.

e) Dünya iqtisadiyyatı sferasında SSRİ çalışır ki, Sovet təsiri altında olan qonşu ölkələri özünə tabe etməsin. Bu əsaslandırılmış siyasətdir. Rəsmi səviyyədə bu mövqe tam aydın deyil. Xarici ticarət məsələlərində dünyəvi münasibətlər yaranan andan Sovet hökuməti özünü fövqəladə dərəcədə qapalı aparır. Hazırda da o özünü yenə də qeyri-səmimi aparır.

j) Mədəni əməkdaşlığa gəldikdə yenə də bu barədə xalqlar arasında mədəni əlaqələrin dərinləşməsinə münasibətdə yalan vədlərdən bir başqa şeyə rast gəlinmir. O praktikada heç vaxt həyata keçirilmir. Bu əməkdaşlıq quru rəsmi şərtlər və tədbirlərlə məhdudlaşır.

z)Bundan başqa onların ayrı-ayrı xarici hökumətlərə rəsmi münasibəti “düzgün kurs” adlandırılır.

Hissə 4: Sovet hökuməti məsuliyyəti öz üzərinə götürmədiyinə görə biz Sovet siyasətindən qeyri-rəsmilik, gizlilik gözləyə də bilərik. Bununla əlaqədar aşağıdakıları söyləmək olar:

1. Kommunist partiyalarının başqa ölkələrdə mərkəzləşmiş rəhbərliyi, xarici ölkələrdəki kommunist partiyalarının çoxunun Moskvanın rəhbərliyi altında çalışdığı məlumdur. Bu partiyaların yuvası gizli rejimdə işləməkdə yenə də davam edirlər.

2. Kommunist partiyalarının sıravi üzvləri.

Bu üzvlər arasında da müxtəliflik nəzərə çarpır.

3. Milli assosiasiyalar kommunist partiyalarının nəzarəti altına düşə bilərlər.

4. Beynəlxalq təşkilatlar da Moskvanın təsiri altına düşə bilərlər.

5. Rus pravoslav kilsəsi ,onu xarici filialları bütün Şərqi Avropa pravoslav kilsələrini öz təsirləri altına ala bilərlər.

6. Panislamizm və başqa hərəkatlar və digər SSRİ-ni tərkibində olan qruplara da təsir göstərilir.

7. Hökumət və hakim qruplar bu və ya digər dərəcədə Sovet rejiminə tabedirlər. Məsələn, hazırkı Bolqar və Yuqoslaviya hökuməti, Şimali İranın siyasi rejimi, Çin kommunistləri və b. bu təbliğatın təsiri altındadır.

Bu geniş aparatın tərkib hissələrindən aşağıdakı şəkildə istifadə edilir:

a) Qabaqcıl kapitalist ölkələrinin siyasi və strateji potensialını zəiflətmək üçün ən çox bu ölkələrdə siyasi sabitliyi pozmağa diqqət yetirilir, sosial narazılıqlar yaradılmasına cəhd edilir.

b) Qərb dövlətlərinin geridə qalmış və müstəmləkə ölkələrinə güc və təsirini zəiflətmək üçün qeyri-rəsmi formada konkret zorakılıq hərəkətləri həyata keçirilir.

v)Bu və ya digər xarici hökumət Sovet adamlarının nailiyyətlərini inkar etsə, bütün gücündən istifadə edilir ki, o istefaya göndərilsin. Türkiyə, İran, İsveçrə, Portuqaliya buna misal ola bilər.

q) Xarici ölkələrdə kommunistlər özlərinin bütün fəaliyyəti ilə şəxsi azadlığın bütün formalarını pozmağa çalışırlar. SSRİ-də hətta yerli məmurların tez-tez yerləri dəyişdirilir ki, onlar bir yerdə məskən salmasınlar.

d) Qabaqcıl kapitalist ölkələrini bir-birinə qarşı qoymaq üçün bütün mümkün olan tədbirlərdən istifadə edilir.

e) Bütövlükdə götürüldükdə, Sovetin bütün gücü qeyri-rəsmi beynəlxalq səviyyədə öz xarakteri etibarilə mənfi və dağıdıcıdır. Sovet nəzarətindən kənarda yerləşən bütün hakimiyyət mənbələrini məhv etmək müəyyən edilmişdir. Sovet rejimi öz hakimiyyəti etibarı ilə polis rejimidir, öz başlanğıcını çar siyasi intriqalarından götürmüşdür.

Hissə 5: ABŞ-ın siyasəti nöqteyi-nəzəri ilə əməli nəticələr.

Sovet hakimiyyətinin təhlükəsizliyi naminə biz belə nəticəyə gəlirik ki, SSRİ siyasi gücü olan ABŞ-ın daxili harmoniyasını, bizim ənənəvi həyat tərzimizi məhv etmək, bizim dövlətin beynəlxalq nüfuzunu heçə endirməyi arzulayır və bunu özünün başlıca vəzifəsi hesab edir. Qeyd etmək lazımdır ki, bu xoşagəlməz haldır. Bizim qarşımızda bu gücü kənarlaşdırmaq kimi mürəkkəb vəzifə durur. Bunu təkcə bizim diplomatiyamız edə bilməz. Maddi xərc də tələb edilir. Mən öz təqdimatım nəticəsində aşağıdakı məlumatları əldə etmişəm:

1. Sovet hakimiyyəti Hitler Almaniyasından fərqli olaraq nə sxematik, nə də avantürist deyildir. O amansız planlar tərtib etmir. O zərurət olmadan risk etmir.

2. Qərb dünyası ilə müqayisədə Sovet İttifaqı çox zəifdir. Onun uğuru ancaq birlik dərəcəsindən, düzgün istiqamət və qətiyyət dərəcəsindən asılıdır.

3. Sovet sisteminin hakimiyyət forması kimi uğuru ölkə daxilində hələ qəti şəkildə sübut olunmamışdır. Bu hakimiyyətin bir şəxsə keçməsi dövründə özünü nümayiş etdirəcək. Leninin ölümündən sonra birinci keçid baş verdi. Stalinin ölümü və ya istefaya çıxması ilə ikinci keçid baş verəcəkdir. Kommunist hərəkatının daxili möhkəmliyi və sabitliyinə hələ təminat verildiyini söyləmək olmaz.

4. Biz sakit və xeyirxah şəkildə Rusiyaya münasibət probleminə yanaşmalıyıq. Bunun üçün mən aşağıdakı tövsiyələri təklif edirəm:

1) Birinci mərhələdə biz iş görmək üçün hərəkatın təbiətini başa düşməliyik. Biz onu qətiyyətlə, ehtirassız, obyektiv, savad-

lılıqla öyrənməliyik. Bu həkimin kifayət qədər heç kəsi eşitməyən və kifayət qədər ağıllı olmayan xəstəni öyrənməsinə bənzəməlidir.

2) Biz əmin olmalıyıq ki, bizim xalq Rusiyada işlərin real vəziyyəti ilə müəyyən qədər məlumatlıdır. Bu faktın vacibliyini qiymətləndirməmək olmaz. Təkcə kütləvi məlumat vasitələri deyil, hökumət də bu işlə məşğul olmalıdır. Mən risk üçün əsas görmürəm. Bizim Rusiya ilə mal dövriyyəmiz yoxdur, Rusiyaya kapital qoymuruq, orada vətəndaşlarımız yaşamır. Biz Rusiya ilə ancaq bir neçə sahədə mədəni əlaqələr saxlayırıq. Bizim Rusiyaya işgüzar münasibətimizi real əsas üzərində qoymaq vacibdir.

3) Bizim xüsusi cəmiyyətimizin sağlamlığı və işgüzarlığından çox şey asılıdır. Dünya kommunizmi xəstəlik törədən həşərata bənzəyir ki, o ancaq parçanı sökür. Bu ancaq daxili və xarici siyasətdə nəzərə alınmalıdır. Bizim cəmiyyət daxili problemlərini həll etmək üçün cəsarətli və aydın tədbirlər görməkdən ötrü inamını, intizamını, mənəvi və ictimai ruhunu yüksəltməlidir. Bu zaman bizim xalq Moskva üzərində diplomatik qələbə çala bilər. Əgər biz fatalizm və laqeydlikdən əl çəkməsək, Moskva öz xarici siyasəti üçün bundan bəhrələnə bilər.

4. Bizim özümüzü gələcəkdə dünyaya necə təqdim etməyimiz də vacib məsələdir. Bir çox xarici ölkələr, xüsusilə Avropa ölkələri keçmişin təcrübəsindən çox qorxduqları üçün mənəvi azadlıqdan daha çox xüsusi təhlükəsizliklərində maraqlıdırlar. Onlar məsuliyyət yox, işıq axtarırlar. Biz onlara ruslardan daha yaxşı formada köməyimizi təklif etməliyik. Əgər biz onlara köməyimizi təklif etməsək, onda ruslar təklif edəcəklər.

5. Nəhayət, biz kifayət qədər cəsarət və inam göstərməliyik ki, bəşəriyyətdə bizim xüsusi siyasi metodlarımız və baxışlarımız olduğu kimi qalsın. Nəhayət, Sovet kommunizmi probleminin həllində ən böyük bizi hədələyən təhlükə biz kimlə ki iş görürük, onunla uyğunlaşmaqdır.

**Trumen doktrinası**

Trumen doktrinası- İkinci dünya müharibəsindən sonra ABŞ prezidenti Harri Trumen tərəfindən irəli sürülən xarici siyasət proqramıdır. 1947-ci ilin fevralın 21-də ABŞ hökuməti Birləşmiş Ştatların Yunanıstan və Türkiyəyə kömək etməsi barədə

İngiltərənin razılığını rəsmən elan edən Böyük Britaniyanın 2 müraciətini aldı. ABŞ-ın xarici siyasət idarəsinin məmurları "Yunanıstan və Türkiyəyə dərhal yardım edilməsi haqqında dövlət departamentinin mövqeyi və göstərişi" adlı sənəd hazırladılar. Onun əsasında prezident konqresə müraciəti hazırlandı. Bu doktrina 1947-ci il martın 12-də rəsmi şəkildə elan edildi. Doktrina "soyuq müharibə" ilə əlaqədar olaraq ABŞ-ın xarici siyasət xəttinin əsasını təşkil edən "qarşısını alma" nəzəriyyəsinin təsiri ilə ərsəyə gəlmişdi. Ümumiyyətlə, bu doktrina ABŞ və onun tərəfdarlarının dünyanın siyasi-iqtisadi yekdilliyi uğrunda mübarizəsinin yazılı şəkildə təcəssümü idi. Doktrinanın hazırlanmasında Corc Kennan, Allen Dalles, Loy Henderson, Din Açenson və digərləri yaxından iştirak etmişdilər,

Doktrina SSRİ tərəfdən Yunanıstan və Türkiyə əleyhinə kommunist təhlükəsinə qarşı 1947-1848-ci illərdə 400 milyon dollar maliyyə yarımı edilməsi məsələsini özündə əks etdirirdi. Bu yardımdan 300 milyonu Yunanıstana, 100 milyonu isə Türkiyəyə verilməli idi. Qarşılıqlı razılıq əsasında hər iki ölkə ilə 1947-ci ilin 12 iyulunda müqavilə bağlandı. Bu doktrina əslində özündə İkinci dünya müharibəsindən sonra sosializmin artan nüfuzuna, SSRİ-nin siyasi arenada kapitalist ölkələrinə qarşı artan təzyiqinə qarşı və beynəlxalq siyasət fonunda irticaçı qüvvələr və rejimlərin müdafiəsi tədbirlərin özündə əks etdirirdi. Doktrinanın irəli sürülməsi ilə artıq ABŞ-ın xarici dövlətlərə hərbi-iqtisadi yardım kampaniyası başlandı. Bununla bahəm ABŞ artıq bu doktrinadan istifadə edərək "kommunizm təhlükəsi"ni əlində bayraq edərək dünyanın strateji cəhətdən ən əlverişli ucqarlarında özünün hərbi bazalarına yaratmaq uğrunda ilkin addımlarını atmağa başlamışdı.

Konqresdə Trumenin çıxışı və irəli sürdüyü məsələlərə qarşı böyük etiraz oldu. Müzakirə 2 ay davam etdi. Konqresdə bir çoxları bunun qəti əleyhinə olduqlarını bildirdilər. Bir konqresmen öz çıxışında bildirirdi ki: "*Mister Trumen Amerikanın geniş miqyasda siyasi, hərbi və iqtisadi prizmadan Balkanlara müdaxilə etməyini istəyir. O, digər ölkələrə də təşkil olunacaq belə müdaxilələrdən danışır. Bu hətta arzu olunan olsa belə, ABŞ o*

*qədər potensiala malik deyil ki hərbi qüvvənin köməkliyi ilə dünyanı idarə edə bilsin*" .

Konqresdə doktrinanın müqavimətlə rastlaşmasına baxmayaraq 1947-ci il mayın 22-də "Trumen doktrinası" qüvvəyə mindi. Konqres ABŞ –ın Yaxın Şərq ölkələrinin daxili işlərinə qarışmasına bu doktrinanı qəbul etməklə rəsmi şəkildə icazə verdi. Bununla da verilən bu qərar Vaşinqtonda və dünyada olan bütün irticaçı qüvvələr tərəfindən dəstəkləndi

Beləliklə, doktrina əsasında ABŞ Türkiyə və Yunanıstana silahlar, amerikan hərbi və mülki heyəti göndərdi. SSRİ-nin Türkiyəyə böhtanlar atması və ərazi iddiaları irəli sürməsi Türkiyəni ABŞ-la daha da yaxınlaşdırmışdı. ABŞ bu iki ölkədə öz hərbi bazalarını yaratdı. Bu doktrina Qafqaza qədər olan ərazini əhatə edirdi. Bu doktrina ilə ABŞ Yaxın Şərq neftinə də sahib olma imkanlarını genişləndirmiş olurdu. Əgər 1938-ci ildə ABŞ inhisarlarının payına Yaxın Şərq neftinin 14%-i (3,2 mln. ton) gəliri düşürdüsə, 1951-ci ildə bu rəqəm 57,8%-i (56,6 mln. ton)təşkil etdi.

ABŞ özünün Yaxın Şərqdə həm də neft monopoliya mövqeyini möhkəmlətmək baxımından da Yunanıstan və Türkiyə hərbi-strateji və iqtisadi cəhətdən onun məqsədlərinə tam bir şəkildə cavab verirdi. Lakin "soyuq müharibə" prizmasından Trumen doktrinasına baxdıqda bu ərazilərdən gələcəkdə müharibə olacağı təqdirdə qabaqcadan keçiriləcək əməliyyatların hazırlanmasında istifadə olunacağını aydın şəkildə görmək çətin deyildi. ABŞ müharibə olacağı təqdirdə Qərbi Avropanı əsas əməliyyat meydanı hesab edirdi.

Trumen doktrinasının elan edilməsindən 1 gün sonra 1947-ci ilin mart 13-də elan edildi ki, amerikan kompaniyaları 227 milyon dollar həcmində Səudiyyə Ərəbistanına investisiya qoyacaqdır və uzunluğu 1050 mil-ə(1736,7 km) çatacaq neft mədənlərindən Aralıq dənizinə neft kəməri çəkəcəklər. Beləliklə, ərəb neftinə qarşı ABŞ monopoliyasının maraqları artmaqda idi. Burada geniş şəkildə ABŞ korporasiyalarının "işgüzarlıqla" məşğul olmasına, 1948-ci il iyulun 6-da Kuveyt neft rayonları üzərində konsensiya hüququnun alınması da böyük rol oynadı.

**Marşall planı**

1947-ci il mayın 23-də "Trumen doktrinası" qüvvəyə mindikdən bir gün sonra Avropa ölkələrinə "iqtisadi yardımı" nəzərdə tutan dövlət katibi Corc Ketlett Marşall tərəfindən işlənib hazırlanan "Marşall planı" irəli sürüldü ki, bu planın rəsmi adı "Avropanın dirçəldilməsi proqramı" idi. Bu plana görə Avropanın 17 ölkəsi belə bir "yardım kampanıyasında" iştirak etməli idi. Lakin planın ideyası heç bir yeniliklə fərqlənmirdi. Onun kökləri 1919-1923-cü illərdə "ARA"-dan ("Amerikan Relief Administration"- "Amerika Yardım Təşkilatı")irəli gəlirdi. Bu birinci dünya müharibəsində zərər çəkmiş Avropa ölkələrinə yardım göstərməyə, amerikan iqtisadi və siyasi mövqelərinin güclənməsinə və sovet təsirinə qarşı mübarizə siyasətini həyata keçirməyə xidmət edirdi.

1945-ci ildə Lend-Liz qanunun icrasına xitam verildikdən sonra 1949-cu ilə kimi ABŞ hökuməti xarici dövlətlərə borc və subsidiya (maliyyə yardımı) şəklində 20 milyard dollar vəsait xərcləmişdi. Buna baxmayaraq ABŞ –ın həmin illərdə kapital ixracı cəmisi 1,5 milyard dollar təşkil edirdi. Həm iqtisadi potensialını artırmaq, həm də Avropada özünə siyasi dayaq yaratmaq, xüsusilə də "soyuq müharibə " ilə əlaqəli olaraq Avropa dövlətlərini SSRİ-yə qarşı vahid cəbhədə birləşdirmək üçün "Marşall planı" ən səmərəli bir silah idi. Marşall planı özündə bir sıra iqtisadi vəzifələri əks etdirməklə Trumen doktrinası kimi hərbi-siyasi xarakterini qoruyub saxlayırdı.

1947-cı il iyunun 5-də Kembricdə Harvard universitetinin keçmiş tələbələri-cəmiyyət üzvləri qarşısında Marşall nitq söyləyərək yeni plan haqqında məlumat verdi. Bu nitq amerikan diplomatiyasının ənənəvi üslubunda söylənildi. Yeni plan nitqin qəfil improviziyası (improvizasiya-hazırlaşmadan niyq söyləmək) kimi təqdim olundu. Əsasən ümumi ifadələrlə çıxış edən və konkretləşmədən qaçan Marşall müharibədən zərər çəkmiş Avropanı bərpa etmək üçün amerikan yardımının göstərilməsinin zəruriliyini bəyan etdi. Harvard universitetində Marşall alovlu nitqində söylədi ki, "Bizim siyasətimiz hər hansı ölkəyə və

doktrinaya qarşı deyil, aclığa, yoxsulluğa və xaosa qarşı yönəldilmişdir”.

Konqresdə bu plan da Trumen doktrinası kimi böyük müqavimətə rast gəldi. Axı söhbət burada daha nəhəng təxsisatdan(pul ayırması) gedirdi. Konqresin ilk sessiyası bu məsələyə dair heç bir qərar qəbul etmədən işinə yekun vurdu.

1947-ci il iyunun 17-18-də Parisdə görüşən İngiltərə və Fransa nümayəndə heyətləri amerikan planının həyata keçirilməsi üçün ən zəruri tədbirlər haqqında danışdılar və müşavirəyə Sovet İttifaqını da dəvət etdilər. Dəvət qəbul olundu. İngiltərə, Fransa və SSRİ xarici işlər nazirlərinin Marşall planına dair müşavirəsi 1947-ci il iyunun 27-dən iyulun 2-dək Parisdə keçirildi. ABŞ nümayəndə heyəti burda iştirak etmirdi. Lakin az sonra SSRİ və onun təsiri altında olan Şərqi Avropa ölkələri onun təzyiqi ilə bu planda iştirak etməkdən imtina etdilər.

SSRİ iştirak etməməsini əsas səbəbini belə izah edirdi ki, onda digər ölkələr kimi, büdcə defitsiti-infilyasiya o dərəcədə qorxulu həddə çatmamışdır. Şərqi Avropa dövlətləri isə SSRİ –nin təsiri ilə bu planın onların maraqlarına uyğun olmadığını bildirməklə planda iştirakdan imtina etdilər. Sovet İttifaqının və onun təsiri ilə Şərqi Avropa dövlətlərinin plandan imtina etməsi ABŞ-ın planlarına uyğun gəlmirdi. Bu da, əlbəttə, konqresin nəzərindən qaçmadı. Məhz bu səbəbdən, xüsusilə də Şərqi Avropa ölkələrinin plandan imtina etməsindən sonra konqres bu məsələyə yenidən baxdı və vaxt itirmədən bu plan üzrə ayrılacaq maliyyə vəsaitini təsdiq etdi. Konqres 1948-ci ilin aprelin 4-də Avropaya 4 illik yardımı özündə ehtiva edən “İqtisadi əməkdaşlıq haqqında” adı ilə bu planı qəbul etdi.

1947-ci ilin iyulun 12-də ABŞ-da iştirak etməklə Avropanın 16 dövləti Parisdə çağırılmış konfransda iştirak etdi. Bu konfransda planda iştirak edən hər bir dövlətə ayrılacaq vəsaitin həcmi barəsində müzakirələr aparıldı. Bunun əsasında da vəsaitin köçürümə əməliyyatını asanlaşdırmaq üçün ABŞ-da ölkələrin iqtisadi vəziyyətini öyrənən və bunu əsasında da ona ayrılacaq vəsaitin həcmini müəyyən edən xüsusi dövlət təşkilatı yaradıldı.

Marşall planı əsasında Qərbi Almaniyaya yardım edilməsi ondan İkinci dünya müharibəsindən sonra məğlub dövlət kimi alınan təzminat (təzminat zərər görən ölkələrə verilirdi) ilə birgə müşayiət edilirdi.

Bu plan sonra 1951-ci ildə "qarşılıqlı təhlükəsizliyin təmin edilməsi" qanunu ilə əvəz edildi. Qanun qəbul edildikdən və prezident tərəfindən təsdiqləndikdən sonra plana uyğun şəkildə 1948-ci ilin aprelin 4-dən 1951-ci ilin dekabrınadək ayrılan 12,4 milyard dollar vəsait plana qoşulan ölkələrə müşavirədəki müzakirələrə uyğun olaraq paylandı. Belə ki, İngiltərəyə-2,8 milyard, Fransaya-2,5 milyard, İtalyaya-1,3 milyard, Qərbi Almaniyaya 1,8 milyard dollar, Hollandiyaya 1 milyard dollar məbləğində yardım edildi.

ABŞ etdiyi yardımın müqabilində yardım alan dövlətlərdən tələb etdi ki, onların hakimiyyət orqanlarında 1 dənə də olsun kommunist partiyasından nümayəndə olmasın. Bunun əsasında da 1948-ci il araşdırılmalarında müəyyən olundu ki, hakimiyyət orqanlarında heç bir dənə də olsun kommunist yoxdur.

İkinci dünya müharibəsi nəticəsində Avropada dağıdılmış təsərrüfatı bərpa etməyə bu köməyi etməzdən əvvəl ABŞ-ın özünün həmin ölkələrdəki daxili vəziyyəti öyrənməyi bir şərt kimi irəli sürülürdü. 1948-1952-ci illərdə Avropanın 16 ölkəsi 12,5 milyard dəyərində olan Marşal planına qoşuldu. Ancaq Finlandiya, İspaniya və Avropanın «sovet modeli» əsasında qurulmuş sosialist ölkələri bu plana qoluşmadılar.

Marşall planının verdiyi nəticələr ABŞ üçün əsasən özünün tarix boyu qarşısına qoyduğu məqsədlərə çatmaq üçün gördüyü tədbirlərdən ən uğurlusu hesab olunur. Beləliklə planın reallaşdırılması ilə ABŞ-da sənaye istehsalı artdı. Halbuki bu vaxta qədər keçirilən ölkə daxilində bu sahə üzrə islahatlar səmərəli nəticələr verməmişdi. Bu hadisədən sonra ölkənin milli iqtisadi siyasəti dəyişdirilmədən qısa müddət ərzində ölkə iqtisadi həyatında canlanma müşahidə olundu; Avropa ölkələri (yardım almış ölkələr) özlərinin xarici borclarını ödəyə bildilər; yardım alan ölkələrə kommunistlərin və SSRİ-nin təsiri zəiflədi;

Avropada siyasi stabilliyin və daimi inkişafın qarantı olan "orta sinif statusu" bərqərar olunub mövqeyi möhkəmləndirildi;

**NATO-nun yaradılması**

Marşall planının qüvvəyə minməsindən dərhal sonra amerikan diplomatiyası ABŞ-ın rəhbərliyi altında hərbi blok yaratmaq üçün Qərbi Avropa dövlətləri ilə danışıqlara başladı. Bir növ ABŞ bununla həyata keçirdiyi və uğur qazandığı Marşall planı və Trumen doktrinasını hərbi və siyasi cəhətdən möhkəmlətmək və genişləndirmək arzusunda idi.

Əvvəlcə ABŞ tərəfi Kanada və Brussel paktına qoşulan ölkələrin(1948-ci il martın 17-də Çörçillin Fultonda çıxışı zamanı irəli sürdüyü "Birləşmiş Avropa" ideyası əsasında yaradılmış və Marşall planına qoşulan Avropa ölkələrini özündə birləşdirən "Qərb İttifaqı") ABŞ-dakı səfirlikləri ilə dövlət katibinin nümayəndəsi R.Lovett gizli danışıqlara başladı. Artıq 1948-ci ilin sentyabrında ölkələr arasında razılıq əldə olundu və gələcək bloka Portuqaliya və İtalyanın da daxil olunmasına razılıq verildi.

Marşall planında iştirak edən bəzi dövlətlər-Avstriya. İrlandiya, İsveçrə, İsveç hərbi ittifaqda da iştirak etmək istəmədiklərini bildirdilər. Türkiyə və Yunanıstanın hərbi bloka qəbulu məsələsi isə müvəqqəti olaraq təxirə salındı, amma onların üzvlük haqları saxlanılırdı.

Məqsəd isə tam aydın idi. Trumen doktrinası və Marşall planı əsasında ABŞ tərəfindən maliyyə yardımı və siyasi dəstək alan Türkiyə və Yunanıstanı dərhal bu bloka üzv kimi daxil etmək çox təhlükəli və cəsarət tələb edən bir iş idi. ABŞ beynəlxalq arenada mövcud vəziyyəti nəzərə alaraq bu cür qorxulu riskə hələlik getmədi. Bu iki ölkə NATO-nun "1-ci səviyyədə genişlənməsi" əsasında 1952-ci ilin fevralın 18-də bu bloka qoşuldular.

Beləliklə, ilkin mərhələdə blok iştirakçılarının sayı 12 dövlət oldu. Blok belə adlanırdı: Şimali Atlantika İttifaqı-NATO. (North Atlantic Treaty Organization). 1949-cu il aprelin 4-də Belçika, İslandiya, Danimarka, Kanada, Lüksenburq, Niderland, Norveç, Portuqaliya, İtaliya, Böyük Britanya, Fransa və ABŞ-ın xarici işlər nazirləri Vaşinqtonda Şimali Atlantika Paktını imzaladılar. Müqavilə 20 il müddətinə nəzərdə tutulurdu. Blokun baş qərargahının

Brüssel şəhərində yerləşməsi qərarı alındı. Onun keçirdiyi konfransların isə rəsmi dil ingilis və fransız dilləri oldu. Vaşinqtonda bu pakt bağlanarkən onu imzalayan dövlətlər öz üzərilərinə öhdəçilik kimi götürdükləri aşağıdakıları qəbul edilir:

*"Müqaviləni imzalayan tərəflər özlərinin əsas məqsəd, prinsip və inamlarını BMT nizamnaməsi əsasında və özlərini digər ölkə və xalqlarla birgə yaşamağa razılıq baxımından bu müqaviləni təsdiq edirlər.*

*Müqavilə imzalayan tərəflər qanuni, hüquqi və demokratik prinsiplərdən qaynaqlanan öz xalqlarının azadlığını və sivilizasiyasını qorumağa qərarlıdır.*

*Müqavilə imzalayan tərəflər Şimali Atlantika regionunun stabilliyinin və ümumi rifahının gücləndirilməsinə öz töhfələrini verirlər.*

*Müqavilə imzalayan tərəflər dünyanın hər cür fəlakətlərdən qorunması və təhlükəsizliyi naminə kollektiv şəkildə öz səylərini birləşdirməyə qərarlıdırlar"*

Aprelin 5-də NATO-nun üzvü olan Avropa dövlətləri onlara vəd edilmiş hərbi və maliyyə köməkliyini almaq məqsədi ilə ABŞ-a müraciət etdilər. Buna müvafiq olaraq proqram ABŞ hökuməti tərəfindən hazırlandı və " Xarici dövlətlərə hərbi yardım haqqında" qanun layihəsi kimi 1949-cu il iyulun 25-də təsdiq üçün konqresə təqdim olundu. Qanun layihəsi bəyənildi və qüvvəyə mindi.

Bu siyasəti davam etdirən ABŞ hökuməti" NATO üzvü olan dövlətlərin hərbi qüvvələri haqqında status" konvesiyasını (beynəlxalq saziş) işləyib hazırlayaraq Şimali Atlantika blokunun şurasında qəbul etdirdi. Konvensiya 1951-ci ilin iyunun 19-da imzalandı və 1953-cü ilin avqustun 23-də qüvvəyə mindi. Konvensiyaya əsasən ABŞ blok üzvlərinin ərazilərində özünün hərbi bazalarını yarada bilərdi, bu hüquq Avropa dövlətləri üçün də sabit idi.

Beləliklə, "Qarşısını alma doktrinası" NATO-nun rəhbər hərbi doktrinasına çevrildi. 1949-cu ilin payızında Sovet İttifaqı ABŞ-ın atom silahı üzərində inhisarını ləğv edərkən bu doktrina daha əvvəlki əhəmiyyətini xeyli itirmiş oldu.

Bu dövrdə ABŞ-ın yeni xarici siyasət xətti «atom diplomatiyası» adını aldı. ABŞ-la SSRİ arasındakı ixtilafları gücləndirən amillərdən biri də 1948-ci ildə baş vermiş Berlin böhranı idi. ABŞ, İngiltərə və Fransanın Almaniyanın qərb hissəsində seperat pul islahatı keçirmələri SSRİ-nin böyük narazılığına səbəb oldu. Çin məsələsində də SSRİ ilə ABŞ arasında ixtilaf yarandı. ABŞ tələb edirdi ki, Çinə Şanxayçı hökumət rəhbərlik etsin. SSRİ isə bunun əleyhinə idi. Yenə ABŞ-ın iştirakı ilə 1951-ci ildə yeni bir hərbi pakt olan ANZYUS təşkil edildi.

1951-ci ilin sentyabr ayında San-Fransisko şəhərində 48 dövlətin iştirakı ilə Yaponiya ilə sülh müqaviləsi imzalandı. Həmin müqaviləni Çin və Koreya məsələsində narazı qaldığına görə SSRİ və onun təsiri altında olan Polşa və Çexoslovakiya imzalamadılar.

ABŞ-ın xarici siyasətində bu dövrdə 3-A ölkələrinə, yəni Asiyanın, Afrikanın və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinə «kömək etmək» məsələsi də mühüm yer tuturdu. Əslində bu kömək altında ABŞ onları öz təsiri altına almağı planlaşdırırdı. 1949-cu ilin yanvarın 20-də Trumen asılı ölkələrə texniki-iqtisadi «kömək» təklifini irəli sürdü. Lakin belə bir şərt irəli sürüldü ki, əgər onlar inqilabi mübarizədən əl çəksələr və ABŞ-ın «demokratik» ənənələrinə əməl etsələr, onlara bu «kömək» ediləcəkdir.

**ABŞ-ın Koreyaya müdaxiləsi**

“Qarşısını alma” nəzəriyyəsi ilə ABŞ siyasət arenasında əsas rəqibi olan SSRİ-yə qarşı özünün və bilavasitə ondan asılı ölkələrin malik olduğu bütün təsir vasitələrindən istifadə etməklə “kainat üzərində kommunizm təhlükəsini” məhv etmək, “demokratik prinsiplər əsasında azad dünya” qurmaq ideyası pərdəsi altında öz siyasətini reallığa çevirmək, dünyada yeganə hegemon dövlətə çevrilmək istəyini açıq və ya dolayısı yollarla ortaya qoymuşdu. Bu planların həyata keçilməsi üçün ABŞ, İkinci dünya müharibəsi qurtarandan sonra Uzaq Şərqdə möhkəmlənmək və orada hərbi bazalar yaratmaq və ən əsası isə “soyuq müharibə” zamanı sosializm dünyasına “zərbə” vurmaq üçün ona daha yaxın ölkə olan və İkinci dünya müharibəsindən sonra Yaponiyanın təsirindən

çıxan Koreyaya "göz dikmişdi". Özünün "demokratik" prinsiplərini "Azad Koreya"ya bəxş etmək üçün ABŞ BMT-nın nüfuzundan və onun qərarlarının qəbulunda "özünün sözsüz təsirindən" istifadə etmək niyyətində idi.

Koreyada ABŞ hərbi bazalarını olması və ondan asılı oyuncaq hakimiyyətin yaradılması gələcəkdə SSRİ ilə baş vermə ehtimalı olan müharibədə ABŞ-a əlverişli mövqe qazandıra bilərdi.

İkinci dünya müharibəsinin sonunda Yaponiyaya qarşı əməliyyatlarda iştirak edən SSRİ öz ordularını həm Yaponiyaya, həm də Koreyaya yeritmişdi və ABŞ-ın burada yeritdiyi siyasətə bilavasitə Şimali Koreyada təşkil edilmiş hökumət vasitəsilə maneə törədirdi. ABŞ tərəfi ilk öncə burada ABŞ, SSRİ, İngiltərə və Homindan Çinin nəzarəti altında 5 il müddətində xüsusi nəzarət şurası yaratmaq fikrində idi. Lakin bu plan baş tutmadıqdan sonra ABŞ hakim dairələri xüsusi təyyarə ilə Vaşinqtondan müharibə dövründə ABŞ-a qaçmış Koreyada irticaçı qüvvələrin təmsilçisi kimi tanınan Li Sın Manı yenidən Seula gətirdilər və onun başçılığı ilə 1945-ci ilin oktyabrında oyuncaq hökumət quruldu. ABŞ tərəfi özünün demokratik prinsiplərindən çıxış edərək Cənubda qurulan hökumətin bütün Koreyada hakimiyyətə yiyələnməsini və bununla da Koreya xalqının öz müqəddəratını özü həll edərək ümumbəşəri demokratik dəyərlərə çox böyük töhfə verəcəyini bildirdi. Lakin Sovet tərəfi bununla razı olmadı və Şimalda öz nüfuzundan istifadə edərək burada BMT-nin 1948-ci il 31 mart tarixində bütün ölkə üçün ümumi parlament seçkilərin keçirilməsini özündə əks edən qərarına (hansı ki bu qərarın qəbul edilməsində ABŞ-ın xidməti olmuşdu) qarşı etiraz aksiyaları təşkil etdi. Sovetlər, eləcə də Şimali Koreya vətənpərvərləri bu qərarın icra olunmasının cənubun irticaçı hökumətinin bütün ölkədə tam nəzarəti əlinə keçirəcəyinə səbəb olacağını gözəl başa düşürdü. Ona görə 1948-ci ilin avqustun 25-də ölkənin hər iki hissəsində vətənpərvər qüvvələrin səyi ilə parlamentə seçkilər keçirildi. Parlamentə seçilən 572 deputatdan 360-ı cənubu təmsil edirdi. Parlament konstitusiya qəbul edərək 1948-ci ilin sentyabrın 8-də Koreya Xalq Demokratik Respublikasının yarandığını elan etdilər. Lakin ABŞ yeni yaranan bu dövləti tanımadı və BMT-nin vasitəsi ilə qanuni hökumət kimi

Cənubi Koreya Respublikasını tanıdı. Beləliklə, ABŞ-ın bölüşdürücü və antidemokratik siyasəti nəticəsində 38-ci paralel iki dövlət arasında müvəqqəti olaraq sərhəd kimi qaldı.

1949-cu ilin yayında Koreya vahid xalq demokratik cəbhəsi bloku BMT-nin baş katibinə müraciət edərək 1945-ci ilin sentyabrında bəri saxlanılan ABŞ qoşun hisslərinin Cənubi Koreyadan çıxarılmasını və Koreya xalqının öz müqəddəratının özü həll etməsini tələb etdi. ABŞ BMT-də səs çoxluğu ilə qəbul edilən qərar və ictimaiyyətin rəyi əsasında 1949-cu ilin iyununda öz ordusunu ölkənin cənubundan çıxardı. ABŞ qoşunlarının çıxarılması Li Sın Man hökumətinin vəziyyətini ağırlaşdırdı. Artıq hər yerdən demokratik prinsiplər əsasında seçkilərin keçirilməsi səsləri eşidilirdi.

1949-1950-ci illərdə ABŞ-ın Asiya ölkələri ilə münasibətdə siyasət problemləri araşdırılarkən Milli Təhlükəsizlik Şurası və Qərargah Rəislərinin Birləşmiş Komitəsi prezidentə göndərdikləri memorandum və məruzələrində Asiyanın ABŞ-a strateji cəhətdən lazımlılığını dönə-dönə vurğulayırdılar. Bunun əsasında da memorandumlarda göstərilirdi ki, ABŞ-ın bu ərazilərdə atdığı hər bir siyasi addım mütləq şəkildə onun burada nüfuzunun artmasına və təsirinin güclənməsinə xidmət etməli idi. Bu məqsədlərə çatmaq üçün isə təklif olunurdu ki, ABŞ ilk növbədə Asiya ölkələrində anti-kommunist qüvvələrin və irticaçı dövlət xadimlərinin maraqlarını müdafiə etməlidir. Bu təkliflər əsasında ABŞ hökuməti Cənubi Koreya ilə "Qarşılıqlı müdafiə və yardım haqqında" 1950-ci ilin yanvarında müqavilə imzalandı. Bu müqavilə ilə ABŞ artıq Şimal ilə müharibədə Cənubun tərəfində durduğunu sübut etmiş oldu.

Müqavilə əsasında ABŞ cənub ordusunun təşkili və təchizi üçün general U.Robertsonun başçılığı altında Seula hərbi missiya göndərdi. Bu missiya 500 nəfər hərbi mütəxəssisdən ibarət idi ki, onlar cənuba gələn kimi ilk növbədə hərbi –hava və hərbi-dəniz limanlarının tikilməsinə göstəriş verdilər. Çünki ABŞ ehtiyac duyularsa cənub ordusunu məhz havadan və dənizdən qoruyacağını planlaşdırmışdı. Bundan əlavə, hələ 1949-cu ildə ABŞ ordusu Cənubi Koreyadan çıxarılarkən dəyəri 190 milyon dollara bərabər

hərbi silah-sursatı cənuba vermişdi. Hərbi infrastrukturlar əsasən 38-ci paralelə yaxın ərazilərdə tikilirdi və burada 5 Cənubi Koreya diviziyası yerləşdirmişdi. Bu ABŞ–ın işarəsi ilə Cənubun tezliklə müharibəyə başlamaq fikrində olduğunu göstərirdi.

1950-ci il iyunun 13-də ABŞ Cənubi Koreyada yarım fövqalədə vəziyyət elan etdi. Bu böhranlı günlərdə Cənubu Koreyaya dövlət departamentinin məsləhətçisi Con Foster Dalles gəldi. O, Uzaq Şərqdə Amerika qoşunlarına rəhbərlik edən general Makarturla, ABŞ-ın müdafiə naziri L. Consonla və qərargah rəislərinin birləşmiş komitəsinin rəhbəri O.Bredli ilə Tokioda görüşdü və müşavirədən sonra Cənubi Koreyaya gəldi. O, 38-ci paraleli yoxladıqdan sonra Milli Müdafiə ordusu qarşısında çıxış edərək belə bir fikir irəli sürdü ki, onlara ən güclü düşmən belə müqavimət göstərə bilməz.

1950-ci il iyunun 25-də Cənub ordusu müharibə elan etmədən 38-ci paraleli keçdi. Şimal hökuməti dərhal bundan sonra Cənub hökumətindən hücumu dayandırmağı tələb etdi. Lakin buna əməl olunmadı. Belə olduğu təqdirdə şimal hökumətinin başçısı Kim İr Sen iyunun 26-da radio ilə xalqa müraciət edərək ölkəni qorumağın vaxtının gəlib çatdığını bildirdi. İyunun 27-də ABŞ prezidenti Harri Trumen ordu və donanmaya Şimali Koreyaya müdaxiləyə başlamaq və Tayvanı mühasirəyə almaq əmrini verdi. Bu tədbirlər BMT-nin razılığı ilə həyata keçirilirdi. Təhlükəsizlik Şurasının 1950-ci il 25 iyun tarixli qətnaməsi Koreyaya. Hətta Çinə və Asiyanın digər ölkələrinə də aid idi. Çin bu müharibə zamanı Şimalın hüquqlarını müdafiə edirdi və müharibə başlandığı zaman onun köməyinə öz ordu hissələrini göndərmişdi. Bu səbəbdən qətnamələr Çinə də aid edilirdi. BMT-nin üzvləri Cənubi Koreyaya hərbi hücumda mühüm rol oynayan 27 iyul tarixli qətnaməni, iyulun 7-də isə onu BMT qoşunları adlandırmaq və BMT bayrağından istifadə etmək haqqında qətnaməni qəbul etdilər. Amerikan generalı Duqlas Makartur BMT qoşunlarının rəhbəri oldu.

BMT ordusunun tərkibində ABŞ-ın təşkilatçılığı ilə BMT-yə daxil olan ölkələr ümumi orduya öz silahlı qüvvələrini göndərdilər. Bu ölkələr ABŞ, Böyük Britanya, Fransa, Niderland,

Türkiyə, Yunanıstan, Lüksenburq, Belçika Kananda, Kolumbiya, Avstraliya, Yeni Zelandiya, Tailand, Filippin, Efiopiya, CAR idi.

Müharibə başlanandan 2 ay ərzində KXDR ordusu əhalinin köməkliyi ilə Cənubi Koreya ordusunu bir sıra döyüşlərdə məğlub etdi. Xüsusilə Seul, Tedjon, Mokpxo uğrunda gedən döyüşlərdə cənub ordusu məğlub oldu. Cənub ordusunda ruh düşkünlüyünün olduğunu qeyd edən general Makartur öz məruzəsində bildirirdi ki: ”Mübarizə aparmaq əzmi və ya müqavimət göstərmək istəyi bu orduda yox idi”.

Buna cavab olaraq oktyabrın 1-də BMT komandanlığı qiyamçı ordunun bütünlüklə və danışıqsız təslim olmasını tələb etdi. Həmin gün BMT orduları 38-ci paraleli keçdilər. Aksiya hərbi əməliyyatlara icazə verən BMT qətnaməsi əsasında aparılırdı. ABŞ və müttəfiqləri tələb edirdilər ki, BMT Baş Məclisinin sentyabrın 19-da işə başlayan 5-ci sessiyasında Açeson (o zamankı ABŞ dövlət katibi) tərəfindən hazırlanmış Koreyanın birləşdirilməsi üçün qüvvələrin tətbiq edilməsinə və Li Sın Man rejiminin Koreyanın bütün Şimal hissəsinə yayılmasına icazə verən 8 dövlətin (İngiltərə. Avstraliya, Brazilya, Kuba, Niderland, Pakistan, Filippin və Norveç) qətnaməsini qəbul etsin. Lakin bunun əleyhinə SSRİ, Polşa və Çexoslovakiya hərbi əməliyyatların dayandırılması və Koreyadan bütün xarici qoşunların çıxarılması haqqında qətnamənin layihəsini irəli sürdülər.

8-lərin layihəsinin əleyhinə 3 sosialist dövləti və Hindistan səs verdi, 7 dövlət isə bitərəf qaldı. Layihə oktyabrın 7-də səs çoxluğu ilə təsdiq edildi. Qətnamə BMT ordularının Şimali Koreyanı mühasirəyə almaq, BMT komissiyası isə hərbi mühasirə şəraitində və Cənubi Koreyanın konstitusiyası əsasında Seul Milli Məclisində 300 yerdən 100-nün Şimali Koreya üçün nəzərdə tutan seçkilərin keçirilməsinə nəzarət etmək tapşırığını verdi. Baş Məclis Koreyanın bərpası və birləşdirilməsi üzrə komissiya da təsis etdi. Lakin Şimali Koreya SSRİ-nin təzyiqi ilə BMT qətnaməsinə tabe olmadı. Artıq 1950-ci il noyabrın 24-də BMT ordusu Makarturun başçılığı ilə cənub ordusuna dəstək verməklə hücuma başladı və bir sıra uğurlar qazansa da 1950-ci il oktyabrın 25-də general Pen Deuxayanın başçılığı ilə Şimalım köməyinə gələn ÇXR-nın könüllü ordu

hissələri onun tutduğu mövqeləri əlində saxlamasına kömək etdi. Şimal ordusuna bu vaxtlar SSRİ-də köməklik edirdi. SSRİ özünün MİQ-15 modelli hərbi təyyarələrindən şimal ordusunun havadan qorunmasını təmin edirdi.

ABŞ tərəfi də real vəziyyəti nəzərə alaraq buna qarşı özünün F-86 modelli muasir təyyarələrini Koreya səmalarına qaldırmışdı. SSRİ-nin Şimali Koreyaya hər cür vasitələrlə kömək etməsindən ABŞ xəbərsiz deyildi. Lakin SSRİ ilə "üzbəüz qalmaq" istəməyən ABŞ ona qarşı başqa bir tədbir görmədi. Buna səbəb isə beynəlxalq aləmdə o zamanlarda cərəyan edən nüvə münaqişəsi idi.

1950-ci il noyabrın 26-dan dekabrın 13-nə qədər Pxenyan yaxınlığındakı Çxosin su anbarı ətrafında ÇXR könüllüləri və Şimal ordusu ilə BMT ordusu (əsasən ABŞ VƏ İngiltərə ordusu) arasında şiddətli döyüşlər getdi. Döyüşün nəticəsində Şimal ordusu ABŞ-ın 7 piyada diviziyasını məhv etməklə özünə əlverişli mövqe qazandı. Belə bir vaxtda ABŞ BMT-nin Baş Məclisindən KXDR-ın müdafiəsində Çin könüllülərinin iştirakına görə ÇXR-nı təcavüzkar elan edən qətnamənin dərhal qəbul olunmasını tələb etdi. 1951 –ci il fevralın 1-də ABŞ-ın irəli sürdüyü qətnamə layihəsinə 44 ölkə səs verdi. SSRİ, Polşa, Çexoslovakiya, Birma, Hindistan bu qətnamənin əleyhinə səs verdilər. 9 dövlət isə bitərəf qaldı.

Lakin bu qətnaməyə əməl etməyən Çin tərəfi şimal ordusuna dəstək verməkdə davam edirdi. Çxosin müvəffəqiyyətindən sonra hücumları davam etdirən şimal ordusu Çin könüllüləri ilə birgə 1951-ci ilin yanvarın 4-də Seulu tutdu. Şəhəri qoruyan ABŞ 8-ci ordusu və 10-cu korpusu ağır itkilər verə-verə geri çəkildi. Seul ələ keçirildikdən sonra şimal ordusu hücumları müvəqqəti dayandırdı. Bundan istifadə edən BMT ordusunun komandanlığı tərəfindən "Canavarlar ovu", "İldırım", "Mühasirə" şərti adları altında planlar hazırlandı və 1951-ci ilin fevralın 21-də BMT ordusu Çin könüllüləri və şimal ordusundan ibarət birləşmiş orduya ağır zərbə vura bildi.

1951-ci il martın 7-də BMT ordusu xüsusi əməliyyat ilə Xanqan çayı ətrafında döyüşə girməklə çətin bir şəraitdə Seulu geri

qaytara bildi. Lakin aprelin 22-29-da Şimal ordusunun hücuma başlaması ilə BMT ordusu çox çətin bir vəziyyətdə qaldı.

1951-ci il aprel ayının 11-də Trumenin qərarı əsasında Duqlas Makartur Uzaq Şərqdəki ABŞ ordu komandanlığından və BMT ordusunun baş komandanlığı vəzifələrindən uzaqlaşdırıldı. Bunun səbəbləri çox idi. Başlıcası isə bunlar idi ki, Makartur diplomatik səviyyədə Çinin homindan hökumətinin başçısı Çan-Kayşi ilə görüşmüş, Koreyada olan Çin könüllülərinin sayı və onların iştirak etdikləri əməliyyatlar barədə Trumenə məruzə ilə bildirməmişdi. Bundan əlavə, Makartur israrla hökumətə bildirirdi ki, Çinə qarşı atom silahı tətbiq edilməlidir. Lakin Trumen müharibənin Koreya sərhədlərindən kənara çıxmasını və bunun məntiqi sonu kimi SSRİ ilə nüvə münaqişəsinə girmək istəmirdi. Trumen `baş komandanlıq səlahiyyətlərinin bu yolla Makarturun əlinə keçməsini də arzulamırdı. Bu səlahiyyətlər bilavasitə Trumenin özünə məxsus idi. Makartur uzaqlaşdırıldıqdan sonra onun yerini 8-ci ordunun komandanı general Metyu Ricyuen tutdu.

Artıq 1951-ci ilin may ayının 16-da Şimal ordusu ümumi şəkildə cəbhə boyu hücuma başladı. Lakin BMT ordusu və Cənub ordusu ilə birgə hücumların qarşısını ala bildi. Şimal ittifaqı 38-ci paraleldən şimala doğru sıxışdırıldı. 1951-ci ilin iyun ayında müharibə artıq özünün pik nöqtəsinə çatmışdı. Artıq hər iki tərəf müharibəni daha apara bilməyəcəyini başa düşürdü. Belə bir vaxtda ABŞ-da müharibəyə qarşı hərəkat güclənmişdi. Razılaşmaya əsasən tərəflər Keson şəhərində 1951-ci ilin iyunun 8-də danışıqlar masası arxasında əyləşdilər. Lakin danışıqlar gedə-gedə hərbi əməliyyatlar davam edirdi. ABŞ tərəfi BMT vasitəsi ilə Cənubi Koreyanın statusunun tanınmasını qəti surətdə bildirirdi. Çin tərəfi də eyni ilə şimal üçün belə statusun tanınmasını tələb edirdi. Tərəflər müharibə zamanı əsir düşmüş hərbiçilərin geri qaytarılması məsələsini də müzakirə etdilər.

Seçkiqabağı kampaniyada Koreya müharibəsinə son qoyacağını elan etməsi respublikaçıların namizədi Duayt Eyzenhauerə qələbə gətirdi. O Koreyaya gedərək vəziyyət ilə yaxından tanış olduqdan sonra hərbi ekspertlərlə birlikdə barışığın əldə olunmasınının vacibliyi qərarına gəldi.

Barışıq sazişi 1953-cü ilin iyulun 27-də imzalandı. BMT komandanlığı bu mərasimə Çan Kay Şi və Li Sın Man nümayəndələrinin buraxılmaması təklifini(bu təklif ÇXR VƏ KXDR tərəfindən edilmişdi) də rədd etdi. Bunun nəticəsində tərəflərin hərbi qüvvə rəhbərlərinin əvəzinə danışıqlara nümayəndə heyətləri başçıları təqdim olundu. Sazişi Nam İr Sen və R. Harrison imzaladılar.

Preambulada məqsədini Koreya münaqişəsinin dayandırılması və vəziyyətin tam nizamlanmasına qədər bütün düşmən xarakterli aktların və hərbi əməliyyatların dayandırılmasını təmin edən barışığın imzalanması olduğu göstərildi. Bu isə barışıq sazişinin Koreya məsələsinin tam həllinə qədər qüvvədə qalması demək idi. Saziş tərəflərin qoşunlarının yerləşdirilməsinə müvafiq olaraq 38-ci paraleldə hər iki tərəfdən xətt boyunca 2 km hərbisizləşdirilmiş zona ilə demarkasiya xəttini və zonada silahlanma və hərbi heyətin dəyişdirilməsi qaydasını təyin edirdi. Hər iki tərəfin nümayəndələrindən ibarət hərbi komissiya və barışığa nəzarət etmək üçün tərəfsiz dövlətlərdən - Polşa, Çexoslovakiya, İsveç, İsveçrənin nümayəndələrindən ibarət komissiyanın funksiyaları bərpa olundu. Vətəninə qayıtmaq istəyən bütün hərbi əsirləri 60 gün ərzində vətəninə göndərmək, qalanlarını isə tərəfsiz zonaya gətirib 90 gün müddətində aydınlaşdırma işləri aparmaq üçün Hindistan qoşunlarının nəzarəti altına vermək nəzərdə tutuldu.

İndiyə qədər demarkasiya xəttinin şimalı KXDR-nın qoşunları, cənubu isə Cənubi Koreya və ABŞ qoşunları tərəfindən mühafizə olunur. Bu günə qədər Koreyada müharibəyə son qoyacaq sülh müqaviləsi hələ imzalanmamışdır.

**Domino nəzəriyyəsi**.

"Domino nəzəriyyəsi" XX əsrin 50-80-ci illərində ABŞ-da məşhur idi. Bu nəzəriyyənin mahiyyəti ABŞ dövlət administrasiyası tərəfindən "soyuq müharibə" zamanı dünyada amerikan müdaxiləsinin əsas istiqamətlərini müəyyən edib bu istiqamətdə lazımı, istərsə də adekvat siyasi, iqtisadi, maddi, mənəvi və hətta hərbi tədbirlər planı hazırlayıb onu reallığa çevirmək idi. Bu nəzəriyyə Koreya müharibəsi başladıqdan sonra daha geniş yayılmışdı. Koreyada müharibə başladıqdan sonra Trumen konqres liderlərinə

bildirdi ki, “Əgər biz Koreyanı itirsək, Sovet İttifaqı Asiyanı parça-parça udacaq. Əgər biz Asiyanı itirsək, Yaxın Şərq süqut edəcək və Avropanın başına nələr gələcəyini deməyə heç lüzum da yoxdur”. Bu beynəlxalq münaqişələrdə “Domino prinsipi” haqqında ilk bəyanatlardan biri idi: hərgah domino daşları cərgə boyu düzülərsə və daşlardan biri düşərsə, bütün cərgə dağılar. Bu nəzəriyyə ABŞ-ın bütün dünyaya müdaxiləsinin zəruriliyini əsaslandırmağa çalışır və bunu kommunizm təhlükəsi ilə əlaqələndirirdi. Kommunizm Hindçinə daxil olduqda ABŞ prezidenti D.Eyzenhauer 1954-cü ilin aprelin 7-də keçirdiyi mətbuat konfransında demişdir: “ Nəhayət, sizdə geniş təsəvvür var ki, siz bunu “domino prinsipi” adlandıra bilərsiniz. Sizdə domino cərgəsi varsa, birinin götürülməsi dərhal cərgənin pozulmasına səbəb olacaq. Bu qayda ilə siz iflasa uğraya bilərsiniz”.

İkinci dünya müharibəsindən sonra SSRİ-nin Şərqi Və Mərkəzi Avropada bir sıra ölkələrdə “Sovet modelini” (Yuqoslaviya və Albaniyadan başqa) tətbiq etməsi ilk növbədə ABŞ və Böyük Britaniyanı narahat edirdi. U.Çörçill özünün 1946-cı ilin martındakı çıxışında kommunizmin Qərbi Avropaya keçməməsi üçün “Baltikdəki Ştettindən Adriatikdəki Triestə qədər dəmir pərdə” tutmağı təklif edirdi. O göstərirdi ki, Moskvanın nəzarət dərəcəsinin artmasına imkan verməк lazım deyildir.

1946-cı ildə İrandakı böhrandan sonra “Tumen doktrinası” meydana gəldi. Əslində bu doktrina da kommunizmin Qərbi Avropaya yayılmasının qarşısını almaq məqsədi daşıyırdı. Elə həmin il diplomat C. Kennan xarici işlər nazirlərinin jurnalında bir neçə məqalələr çap etdirdi. “Çəkindirmə” siyasətini rəsmiləşdirən məqalə xüsusilə məşhur idi. Məqalədə təklif edilirdi ki, gələcəkdə kommunizmin genişlənməsinin qarşısını almaq üçün Şərqi Avropa ilə Qərbi Avropa arasında “bufer zona” təşkil etmək lazımdır. Kennan həmçinin Marşal palnının təşkilində də Qərbi Avropanı sovet dövlətini təhlükəsindən qorumaq üçün iştirak etdi. 1949-cu ildə iki Çin dövləti (materikdə kommunist rejimi, Tayvan adasında isə milliyyətçi rejim) təşkil edildi. Çinin itirilməsi ən böyük itki kimi qiymətləndirildi. Belə bir populyar sual yarandı ki, “Çini kim itirdi?”

Koreya müharibəsi nəticəsində Şimali Koraya da SSRİ-nin təsir dairəsinə düşdü. 1954-cü ildə Şimali Vyetnam da SSRİ-nin təsiri altında sosializm quruculuğu yolunu götürdü. Fransa Hind-Çindən çıxmalı oldu. Cənubi Vyetnam, Şimali Vyetnam, Kamboca, Laos kimi müstəqil ölkələr yarandı. ABŞ narahat idi ki, Birma, Tailand, Malaziya, İndoneziyada da kommunist hərəkatı populyarlıq qazansın. Belə olan təqdirdə ABŞ Yaponiya, Tayvan, Filippin, Avstraliya və Yeni Zelandiyadan mühafizəedici dövlətlər cəbhəsi təşkil etmək qərarına gəldi. Bu regionun itirilməsi ABŞ üçün həyati əhəmiyyətə malik olan regional ticarət sahəsini itirmək demək idi.

1954-cü ilin aprelin 7-də Hind-Çin məsələsinə dair Vaşinqtonda keçirilən mətbuat konfransında ABŞ prezidenti Duayt Eyzenhauer bu regionda kommunizm təhlükəsinin artması və genişlənməsi faktorunu nəzərə çatdıraraq bu nəzəriyyəni ilk dəfə olaraq "domino nəzəriyyəsi" adını işlətməsi ilə və onun əsas prinsipindən jurnalistlərin ona ünvanlandıqları suallara cavab vermişdi. Cavablardan biri belə idi: "Nəhayət. Sizlər də geniş və hərtərəfli düşünmə imkanları vardır ki, bununla da siz buna prinsip etibarı ilə "domino effekti" kimi şərti də olsa ad verə bilərsiniz".

C.Kennedi administrasiyası 1960-cı illərin əvvəllərində Vyetnama müdaxilə etməkdən bir sıra səbəblərə, ən başlıcası, Cənubi Vyetnamın "domino"dan götürülməməsinə görə imtina etdi.

Tarixçilərdən Uolt Rostou və Li Knan Yu iddia edirdilər ki, Hind –Çinə ABŞ-ın müdaxilə etməsi nəticəsində SEATO ölkələrinin birləşməsi(həmrəyliyi)və bu regionda iqtisadi inkişafa nail olmaq üçün birgə əmək sərf etmək üçün əhəmiyyətli vaxt verirdi ki, bu da domino səmərəsini zəiflədən amillərdən hesab olunur. Bundan əlavə onlar belə bir fikir irəli sürürdülər ki, "domino səmərəsi" və prespektivi məhz bu regionda 1950-ci illərdə və 60-cı illərin əvvəllərində yüksək səviyyədə idi. Lakin bu effekt 1965-ci ildə İndoneziyada kommunist hakimiyyəti devrildikdən sonra əsaslı sürətdə zəifləmiş və SSRİ süqut etdikdən sonra isə tamamilə aradan qalxmışdı.

“Domino nəzəriyyəsi” üçün ilk sübutlar 1975-ci ildə Cənubi-Şərqi Asiyadan ABŞ öz qoşunlarını çıxartdıqdan sonra (Cənubi Vyetnam, Laos və Kamboca) kommunist çevrilişlərin olması idi. Filippin, İndoneziyadakı hadisələr də sübut edirdi ki, kommunistlər Cənubi-Şərqi Asiyanı zəbt etməyə çalışırlar. ABŞ da Vyetnamda hərbi iştirakını genişləndirməyə başladı. Lakin “domino səmərəsi” 1965-ci ildə sonra, yəni İndoneziyada Kommunist partiyası məhv edildikdən sonra zəifləməyə başladı.“Domino nəzəriyyəsi” siyasətçilərin və diplomatların fikrinə görə, son nəticədə SSRİ-nin dağılması və “Soyuq müharibə”nin qurtarması ilə nəticələndi. Məşhur ABŞ linqvisti Noam Xomskinin fikrincə “Hədə-qorxu ən yaxşı nümunədir. Məhz “domino nəzəriyyəsi”nin təsiri altında ABŞ özündən zəif olan Çili, Vyetnam, Laos, Qrenada, Nikaraqua, Salvador, Qvatemalada və digərlərində xalq hərəkatını yatırdı ki, onlar gələcəkdə təhlükə təşkil etməsinlər.

“Domino nəzəriyyəsi” ancaq regional səviyyədə müvəffəqiyyət qazana bildi. Efiopiya, Qvineya, Bisau, Madaqaskar, Kabo-Berde, Mozambik, Anqola, Əfqanıstan, Qranada, Nikaraquada 70-ci illərdə kommunistpərəst rejimlərin qurulması bunu bir daha təsdiq etdi.

Bu nəzəriyyə həmçinin Qərbi Avropada sol terrorçu qrupların fəallaşmasına səbəb oldu. İtaliyada Aldo Moronun öldürülməsi, “Qırmızı briqada” tərəfindən keçmiş briqada generalı Ceyms Dozerin oğurlanması bunu sübut edirdi. Məhz “domino nəzəriyyəsi” əsasında 1973-cü ildə prezident R. Nikson hökuməti Çilidə Salvador Alyende hökumətini devirdi. Yenə də həmin nəzəriyyə XX əsrin 80-ci illərində Reyqan administrasiyasının Mərkəzi Amerika və Karib hövzəsinə müdaxiləsinə haqq qazandırmaq üçün istifadə edildi.

## Prezident D.Eyzenhauerin dövründə ABŞ-ın xarici siyasəiti

ABŞ-da D. Eyzenhauerin prezidentliyi dövründə soyuq müharibədə iki sistem arasında qarşıdurma bu sistemləri təmsil edən iki nəhəng dövlət fonunda öz tempi ilə davam edirdi. Lakin ABŞ-da Eyzenhauerin prezident seçilməsi “soyuq müharibə”nin abı-havasında az da olsa dəyişikliyin olacağından xəbər verirdi.

Ağ evə gəldikdən sonra Eyzenhauerin qarşısında duran ilk vəzifə Koreyada müharibəni sona çatdırmaq idi. O özü şəxsən Koreyaya getmiş və vəziyyətlə yaxından tanış olduqdan sonra dövlət katibi C. F. Dallesin və hərbi nazir Ç. Vilsonun etirazlarına baxmayaraq 1953-cü ilin iyulunda müharibəyə son qoyacaq sülh müqaviləsinin imzalanmasına bilavasitə səbəbkar olmuşdu.

Hələ Trumenin dövründə ABŞ-ın Moskvada səfiri işləmiş Kennan tərəfindən hazırlanmış "qarşısını alma "siyasəti Eyzenhauerin dövründə də öz aktuallığını saxlayırdı. Onun dövründə bu siyasi nəzəriyyə "kütləvi qisas doktrinası" adını aldı. Bu doktrina əsasında da ABŞ "soyuq müharibə"nin gedişində bir sıra geosiyasi planlar da işlədi.

Hələ 1946-cı ildə Fransa ilə Vyetnam arasında başlanan müharibədə ABŞ Fransanı müdafiə edirdi. Eyzenhauer hakimiyyətə gəldikdən sonra isə gələcəkdə burada öz siyasi nüfuzunu gücləndirmək, möhkəmləndirmək və kommunizm təhlükəsi ilə mübarizə aparmaq üçün ABŞ cənubi Vyetnama və Hind-Çinin digər ölkələrinə həm maddi, həm də silah-sursatla kömək etməyə başladı. Bundan əlavə, bu regiona ABŞ hərbi məsləhətçiləri və müfəttişləri də göndərilmişdi. ABŞ tərəfi yaxşı başa düşürdü ki, SSRİ bu regionda olan ölkələri, xüsusilə də Şimali Vyetnamı ən müasir silah ilə təchiz edir və təyyarəçi kadrları hazırlayırdı. ABŞ-da bir sıra dövlət xadimləri başda C.F.Dalles olmaqla Şimali Vyetnama hətta atom zərbələrinin endirilməsini də təklif etmişdi. Lakin prezident bundan imtina edərək qeyd etmişdir ki, bu ərazilərin bombalanması nə bu regionda, nə də, ümumiyyətlə, dünyada "soyuq müharibə"yə son qoya bilməz. Beləliklə, ABŞ Fransa tərəfindən Vyetnama verilən müstəqilliyi dəstəklədi.

1954-cü il sentyabrın 6-8–də Malinada keçirilən müşavirədə bilavasitə ABŞ-ın təşkilatçılığı ilə İngiltərə, Fransa, Avstraliya, Yeni Zelandiya, Filippin, Tailand və Pakistanın iştirakı ilə müşavirə keçirildi. Konfransda ABŞ-ı Dalles təmsil edirdi. Konfransın çağrılmasının əsas səbəbi bu ərazilərin kommunist təhlükəsi pərdəsi ilə Sovet təhlükəsindən qorumaq və bu ölkələri bir hərbi-siyasi blok çərçivəsində birləşdirmək idi. Konfransın sonunda SEATO adlanan hərbi-siyasi təşkilat yaradılıdı. ABŞ konqresi bu

müqavilәni 1955-ci ilin fevralın 1-dә ratifikasiya etdi, fevralın 4-dә isә prezident onu tәsdiqlәdi.

İki sistem arasına beynәlxalq münasibәtlәrin hәmçinin iki nәhәng dövlәt arasında iqtisadi, siyasi mәsәlәlәri nizama salınması üçün böyük dördlük - ABŞ, SSRİ, İngiltәrә, Fransa- 1955-ci ilin iyulun 18-dә İsveçrәnin Cenevrә şәhәrindә konfransa toplaşdılar. Konfransda iştirak edәn ABŞ prezidenti D. Eyzenhauer vә SSRİ rәhbәri N.Xruşşov arasında hәm ümumi, hәm dә ikilikdә keçirilәn görüşlәrdә iki sistem arasında olan gәrginliyin zәiflәdilmәsi, hәrbi sahәdә olan yarışın lәğv edilmәsi, atom silahının tәtbiqinә beynәlxalq hüquq çәçivәsindә qadağaların qoyulmaslı, beynәlxalq tәhlükәsizliyin tәmin edilmәsi, Şәrq-Qәrb ticarәt anlaşması kimi mәsәlәlәr müzakirә edildi. Konfransda ABŞ prezidenti Eyzenhauer tәrәfindәn "açıq sәma" doktrinası irәli sürüldü. Bu dokrinada beynәlxalq hava naviqasiya sisteminin yoxlanılması vә tәftiş edilmәsi nәzәrdә tutulurdu. Lakin SSRİ tәrәfi bu doktrinanın әleyhinә çıxaraq onu әsil mәqsәdinin SSRİ-yә qarşı cәsusluq vә tәxribat xarakterli olduğunu bildirdi. Danışıqlar zamanı ABŞ prezidenti nüvә silahının mövcudluğundan narahat olduğunu bildirәrәk Xruşşova bildirmişdi ki: "Siz bilirmisiniz ki, radioaktiv tәdqiqiatlar vә sınaqlar nәticәsindә şimal yarımkürәsini mәhv etmәk üçün biz (hәr iki dövlәt) kifayәt qәdәr silaha malikik".

Danışıqlara müsbәt nәticә әldә olunmasa da, bu konfransdan sonra iki ölkә arasında beynәlxalq münasibәtlәr çәrçivәsindә mülayimlәşmә әlamәtlәri artıq görünmәyә başlamışdı. Lakin bu mülayimlәşmә "Süveyş böhranı" zamanı yenidәn gәrginliklә әvәz olundu.

1957-ci ilin oktyabrın 4-dә SSRİ ilk dәfә orbitә Yerin süni peykini buraxdı. Bu SSRİ-nin ABŞ-dan daha mükәmmәl silah arsenalına, xüsusilә raketlәrә malik olduğunu göstәrirdi. Belә bir xәbәrin alınması ABŞ ictimaiyyәti vә siyasi dairәlәrindә şok vәziyyәti yaratdı. Artıq ABŞ başa düşürdü ki, SSRİ ilә zor gücü ilә danışmaq olmaz vә münasibәtlәrә yenidәn baxmaq lazımdır. ABŞ tәrәfi üçün sürpriz olan digәr hadisә isә SSRİ tәrәfindәn 1957-ci il noyabrın üçündә "Sputnik-2"adlı kosmik raketdә Layka adlı iti kosmosa göndәrmәsi oldu. 1958-ci ilin yanvarın 31-dә ABŞ-da

özünün ilk süni peykini kosmosa buraxdı. Bu dövrdə ABŞ iqtisadi cəhətdən böhranla üzləşsə də, texnologiyanın müasirləşdirilməsi üçün “səxavətini əskik etmək fikrində deyildi”. Eyzehauer qeyd edirdi ki, “büdcənin balanslaşdırılmasından daha önəmli ölkənin təhlükəsizliyinin təmin edilməsidir”.

Bütün bunlara baxmayaraq Eyzenhauer SSRİ ilə münasibətlərin qaydaya salınması sahəsində bəzi mütərəqqi addımlar atmaq istəyi ilə iki sistem arasında olan gərginliyi zəiflətmək ən sonda isə bunu ləğv etmək fikrindən daşınmamışdı. 1959-cu iln martında nazirlər kabinetində olan iclasda bildirmişdir: ”Rusların müharibə istəməməsi kimi bizim böyük əsasımız var”.

Bunun əsasında ABŞ və SSRİ arasında danışıqlar yenidən bərpa olundu ki, 1959-cu ilin mayında vitse-prezident R. Niksonun başçılığı altında ABŞ nümayəndə heyəti Moskvaya getdi və hətta orada ABŞ mallarının sərgisi belə açılıdı.

Həmin ilin sentyabrında isə bilavasitə Eyzenhauerin dəvəti ilə N. S. Xruşşovun ABŞ-a səfəri baş tutdu. Eyzenhauer bu görüşə çox böyük ümid bəsləyirdi ki, iki ölkə arasında olan gərginlik azalacaq. Lakin Eyzenhauerin Xruşşovu hörmətlə qəbul etməsi, onu ölkə boyu səyahətə dəvət etməsi, ABŞ –da olan ümumi iqtisadi-ictimai və siyasi məsələlər haqqında onunla fikir mübadiləsi aparması Xruşşovda o qədər də maraq oyatmadı. Danışıqlar zamanı SSRİ rəhbəri Eyzenhauerdə SSRİ haqqında böyük maraq və diqqət yaratmaq üçün sovet sualtı qayıqlarından və qitələrarası ballastik raketlərdən söhbət açdı. Lakin Xruşşov BMT-nın Baş Məclisinin sessiyasında çıxış edrkən silahsızlaşdırılmanın vacibliyini vurğulayıb onu təbliğ etdiyini deyirdi.

Beləliklə, iki ölkə arasında gedən danışıqlar nəticəsiz qaldı və göstərdi ki, liderlər bir-birlərinə etibar etmirlər. Eyzenhauer SSRİ-nin qitələrarsı raketlərinin olub-olmaması haqqında məlumatlar əldə etmək üçün SSRİ səmalarına kəşfiyyatçı təyyarələr göndərmək qərarına gəlmişdi. 1960-cı ilin mayın 1-də təyyarəçi Frensis Heri Pauers Lockheed “U-2” modelli kəşfiyyatçı-təyyarə ilə (qeyri rəsmi adı –Leydi Drakon) SSRİ səmasında kəşfiyyat xarakterli uçuş həyata keçirdi. Təyyarənin üçüş marşurutu Pakistanın Pişəvər hava limanından başlamaqla (hələ 1957-ci ildə prezident Eyzen-

hauer o zamankı Pakistanın baş naziri Şahid Hüseyn Sührəvərdiyə ABŞ xüsusi təyinatlı əməliyyatlarının keçirilməsi üçün Pakistandan hərbi aerodrom almaq istəyini bildirmişdi. Pakistan tərəfi də NSA-ya (milli təhlükəsizlik agentliyi) lazımi məlumatların ötürülməsi və hərbi hava əməliyyatlarının yerinə yetirilməsi üçün ABŞ-a ölkənin şimali-qərbindəki Pişəvər hava limanını satmışdı).Təyyarə Sverdlovs-Kirov-Arxangelsk-Murmansk istiqaməti ilə uçuş etməklə SSRİ-nin bu ərazilərdəki ballastik raket kompekslərinin şəklini çəkməli və kəşfiyyat xarakterli materiallar toplamaqla Norveçin Buda hava limanında enməli idi. Lakin uçuş zamanı Sverdlovsk səmasında Moskva vaxtı ilə 8:35-də "U-2" təyyarəsi sovet hərbi raketi olan və "Yer-səma" sinfinə aid S-75 tərəfindən vuruldu. Bu hadisə zamanı atılan raketlərdən biri müdafiə məqsədi ilə havaya qalxmış sovet təyyarəsi MİQ-19-a dəymişdi və təyyarə bu zərbədən pilotla birgə məhv olmuşdu. Eyzenhauer administrasiyası bu xəbəri aldıqdan sonra bildirmişdir ki. təyyarəçi metorologiya vəzifəsini yaerinə yetrərkən yalnışlığa yol vermiş və təsadüf nəticəsində sovet hava məkanın daxil olmuşdur. Lakin sovet tərəfi bütün bunları rədd edərək sübut kimi ictimaiyyət qarşısına təyyarənin hissələrini və qəza zamanı sağ qalmış pilotu çıxarmaqla ABŞ-ın təxribat xarakterli siyasətini tənqid etmişdi.

Bu hadisədən sonra iki ölkə arasında münasibətlər yenidən soyuqlaşdı. 1960-ci ilin yayında Nyu-Yorkda BMT-nin Baş Məclisində N.Xruşşov çıxış edərkən bu məsələyə dair çox kobud danışdı və qarşı tərəfi təxribatçılıqda və şantajda günahlandırdı (özü haqlı olduğunu və məclis iştirakçılarının diqqətini cəlb etmək üçün o, hətta ayağından ayaqqabısını çıxararaq tribunaya döyəcləmişdi). Beləliklə, müəyyən mənada Eyzenhauerin SSRİ ilə münasibətləri tənzimləmək istəyi olsa da, sovet tərəfi bundan istifadə etmədi. Artıq 1960-cı lin noyabrında keçirilən seçkilərdən sonra Eyzenhauer prezidentlik vəzifəsini başa vurdu. O, ABŞ tarixinə XX əsrdə respublikaçılar partiyasından olan prezidentlər içərisində ən nüfuzlu və bacarıqlı bir şəxs kimi daxil oldu.

Eyzenhauerin dövründə "soyuq müharibə" üçün hazırlanmış əsas geosiyasi planlar və siyasi nəzəriyyələrdən biri **"Kütləvi qisas doktrinası"** idi.

“Kütləvi qisas” siyasəti “kütləvi təcavüz” və ya “kütləvi qorxu” siyasiti də adlanmaqla ölkənin ona qarşı olacaq böyük hücümun qarşısını almaq üçün görəcəyi kütləvi adekvat tədbirləri nəzərdə tuturdu ki, bu da öz növbəsində ölkənin nüvə strategiyası və hərbi doktrinası ilə səsləşirdi.

Bu termin ilk dəfə ABŞ-da Eyzenhauerin prezidentliyi dövründə Dövlət katibi vəzifəsində işləyən Con Foster Dalles tərəfindən 1954-cü ilin yanvarın 12-də Vaşinqtonda beynəlxalq münasibətlər üzrə şurada işlənilmişdir. O çıxışı zamanı bildirmişdi ki, “ABŞ ona qarşı olacaq hər hansı hərbi provokasiyaya istənilən yerdə və özünün azad seçiminin köməkliyi ilə reaksiya verəcəkdir”. Bu o mənanı verirdi ki, ABŞ ona qarşı olunacaq xarici təhlükəyə nüvə silahı ilə cavab verəcəkdir. Bundan əlavə, Dalles öz çıxışında bildirdi ki, sərhədlərin qorunması kütləvi cavabverici tədbirlərlə uzunmüddətli qarşısını almanın köməkliyi ilə olmalıdır. Dalles çıxışında onu da qeyd etdi ki, “nəinki ABŞ-a, hətta onun müttəfiqlərinə belə hər hansı hərbi təxribat xarakterli bir hücum edilərsə, ABŞ düşünmədən təcavüzkara nüvə silahı ilə cavab verəcəkdir”.

Bu doktrinanın formalaşması Qərbdə (ABŞ-da) müəyyən bir qorxu altında həyati təhlükəsi olmayan münaqişələrdə adi silah arsenalından belə istifadə etməklə qüvvələr balansının tənzimlənməməsi şübhələrinin artdığı bir şəraitdə baş veriridi. “Qarşısını alma” taktikası əsasında böyük nüvə arsenalına arxalanan Eyzenhauer belə hesab edirdi ki, qərb blokunu, hakimiyyəti qorumaq və hərbi nüfuzu saxlamaq şərti ilə əvvəlki adi silahları ixtisar etmək lazımdır.

Məsələn, sovetlər tərəfindən Berlinə edilən adi hücum zamanı ABŞ ona qarşı nüvə silahı ilə geniş bir əhatədə cavab zərbəsi verməyi planlaşdırırdı. Beləliklə, bu doktrinanın tətbiq ediləcəyi təqdirdə Sovetlər tərəfindən ABŞ ərazisinə və yaxud onun təsiri altına olan ərazilərə olacaq hücum zamanı ABŞ kütləvi şəkildə bu hücuma cavab olaraq nüvə arsenalından istifadə etməyi nəzərdə tuturdu.

Eyzenhauer-Dalles inzibati idarəsinin belə bir çıxışı bir çox ölkələrdə, xüsusilə də ABŞ-ın müttəfiqi olan ölkələrdə ciddi

təşvişə səbəb olmuşdu. Buna baxmayaraq ABŞ-ın təzyiqi altında bu doktrina NATO-nun rəsmi şəkildə hərbi direktivi olsa da, bu amil Qərbi Avropanı Vaşinqtonun planlarının bir hissəsi olmuş taleyi haqqında ciddi fikirləşməyə vadar etdi. Sonralar Amerika və Avropa alimlərinin bu təcavüzkar əhval-ruhiyyədə hazırlanmış doktrina haqqında dedikləri Avropanı təşvişə salmışdı. Belə ki, ABŞ-çox təhlükəli qüvvə kimi öz şəxsi mənafeyi və maraqları çərçivəsində öz məqsədlərinə çatmaq üçün hətta bütün dünyada olan insanlıq məfhumunu belə məhv etməyə qadir idi.

Bu doktrinaya müəyyən mənada “çalar” verməklə Dallesin vəzifədə(baş katib) olduğu müddətdə əsas diplomatik məqsədi Yaxın Şərq və Asiyanın cənub və cənubi-qərb ölkələrinin vasitəsi ilə SSRİ-ni və əsasən də kommunizm dünyasını üzük kimi bu regionlarda ABŞ-ın təşkil etdiyi təcavüzkar bloklar vasitəsilə əhatəyə almaq idi. Bu zaman “kommunizm təhlükəsi”nin müharibə üçün törədəcəyi tədbirlər öz səmərəsi verməyəcək və ABŞ bu doktrinaya əsaslanaraq olacaq hücumun qarşısını alıb qabaqlayıcı zərbəni özü vuracaq idi. Cənubi-Şərqi Asiyada 1954-cü ilin sentyabrın 8-də yaradılan SEATO, Yaxın Şərqdə isə 1955-ci ilin fevralın 24-də yaradılan Bağdad paktı hərbi blokları məhz bu qəbildən idi.

Trumen özünün nüfuzdan düşmüş prezidentlik vəzifəsini başa vurduqdan sonra öz xələfi olan Eyzenhauerə özündə ilk zərbənin müqəddəratının həll olunmasını əks etdirən strateji planlar konsepsiyasını qoyub getmişdi.

Eyzenhauer vəzifəsini icra etməyə başladıqdan sonra (1953-cü ilin yanvarından) özünün çıxışlarında və direktivlərində “ilk nüvə zərbəsi” konsepsiyasından imtina etdiyini bildirmişdi. 1953-cü ilin oktyabrın 7-də Milli təhlükəsizlik şurasının müşavirəsində qeyd edildi ki, “müharibə olacağı təqdirdə ABŞ-ın hərbi əməliyyatlarda digər silah növlərindən istifadə olunduğu kimi, nüvə arsenalından da istifadə etməsi mümkündür”. Bundan sonra “kütləvi surətdə məhv etmə” konsepsiyası özünün ilk həyəcanlarını bütün dünyaya, xüsusilə də Avropaya yaydı.

ABŞ köhnə konsepsiya olan “İlk zərbə” strategiyasını yenə də xatırlayırdı, lakin bu dəfə bu proses sovetlərin atom ilə onları

təhdid etməsi və ölkənin müdafiə edilməsi şüarları ilə birlikdə gedirdi. Süni şəkildə və təxribat xarakterinə malik müzakirələr başladı “Sovet təhlükəsi” ABŞ-ı özünü müdafiə etmək üçün müharibəyə başlamağa sürüklədiyi təbliğ edilirdi. ”Solyarım” planına əsasən ABŞ Sovet İttifaqına onun irəli sürdüyü şərtləri qəbul etməsini tələb edəcək ultimatum verməli idi. Sovetlərin bundan imtina etməsi müharibə demək idi. Bu variant ciddi şəkildə müzakirə olundu. Yeni 5410/1 nömrəli direktivdə “ABŞ-ın mövcud olmasına zəmanət verəcək qələbənin əldə edilməsi” məqsədi müəyyən edildi.

Preventiv (qabaqlayıcı müharibə) müharibənin aparılması üçün ABŞ-da bir çox hərbi-siyasi planlar hazırlanmışdı. Misal üçün, QRBK-nin prespektiv tədqiqatlar qrupu belə hesab edirdi ki, “Sovet İttifaqında nüvə silahı real təhlükə mənbəyinə çevrilmədən mütləq şəkildə yaxın gələcəkdə sovetlərlə müharibəyə başalmağı sürətləndirmək lazımdır”. Lakin preventiv zərbə stategiyası rəsmi şəkildə bəyənilib qəbul edilmədi və bu planlar elə kağız üzərində qaldı. Bundan sonra isə müşavirələrdə “qabaqlayıcı zərbə” dən danışılmağa başlandı. ABŞ hərbi hava qüvvələrinin komandanı Limey isə elan etdi ki, “biz ilk zərbə vurmağa cəhd etməyəcəyik”. Hərbi hava qüvvələrinin generalı başa düşürdü ki, ABŞ dövlət maşınında “qabaqlayıcı zərbə” nin müzakirə edilməsi, həqiqətən də, çox asan bir məsələdir.

1954-cü ilin martında Eyzenhauer nüvə erasında qəfil edirilləcək zərbənin prespektivləri və bu zaman yaranacaq problemlərin tədqiq edilməsi üçün xüsusi elimi konsultativ komissiyanın yaradılması üçün qərar verdi. Komissiya da öz növbəsində gördüyü işlər nəticəsində ilk olaraq ballistik raketlərin hazırlanmasının sürətləndirilməsini təklif etmişdi.

Komissiyanın üzərinə düşən işləri yerinə yetirdiyi bir vaxtda hələlik yenə də qarşılıqlı olaraq dövlət aparatında müxtəlif yollar və təkliflərlə qəfil endiriləcək zərbə strategiyası üzərində dayandılar. Misal üçün, silahlandırılma sisteminin qiymətləndirilməsi qrupu iddia edirdi ki, atom silahının tətbiq edilməsi həmişəlik olaraq ümumi müharibəyə son qoyar və qarşıya qoyulan məqsəd- bir zərbə ilə müharibəni ABŞ-ın xeyrinə sona çatdırmaqla

yerinə yetirilərdi. Belə bir zərbənin endirilməsi nəticəsində praktik cəhətdən SSRİ-nin nüvə sənayesini, 134 iri şəhərindən 118-ni və 60 milyon əhalisini məhv etmək olardı. Lakin bununla belə bu qrupun məruzəsində xəbərdarlıq da edilirdi ki, əgər aviyasiya sovetərin 645 aerodromunu məhv etməyi bacarsa belə, SSRİ-də kiçik də olsa, 240 aerodrom qalacaqdır ki, burada da sovet bombardmançıları cəmlənə və fəal hərbi əməliyyatlar apara bilərdi. Bu ABŞ-a və onun müttəfiqlərinə sovetlər tərəfindən endiriləcək cavab zərbəsi üçün kifayət edəcək idi.

Beləliklə, hazırlanmış plana əsasən SSRİ üzrərinə hücum edilməsi üçün yeni tarix müəyyən edildi ki, bu da 1957-ci ilin yanvarın 1-i idi. Hazırlanmış planın şərti adı isə "Dropşot" idi. Plana görə hücumda NATO-ya üzv olan bütün dövlətlərin iştirak etməsi nəzərdə tutulurdu. Buna hazırlıq üçün amerikanlar lazımı kəşfiyyat informasiyalarının əldə edilməsi üçün işləri aktivləşdirdilər. Mərkəzi Kəşfiyyat İdarəsinin qərarına əsasən "Mobi Dik" şərti adı altında əməliyyat keçirildi. Əməliyyat ondan ibarət idi ki, kəşfiyyat xarakterli məlumatların toplanması üçün Şərqi Avropadan Yaponiyayadək sovet ərazisinə üzərində kamera quraşdırılmış, ABŞ hərbi hava qüvvələrinə aid nəhəng hava şarları buraxılmışdı.

Bundan əlavə hələ Trumenin dövründə əsası qoyulan şərti adı "Rinqer" olan proqramı əsasında (bu proqram 1953-cü ilə kimi davam etmişdi) xidmətdə olan1300 hərbi və mülki şəxslərin köməkiliyi ilə ilə Qərbi Almaniyada, Yaponiyada  və Avstriyada sovet ərazisində nüvə obyektlərinin öyrənilməsi və hansı ərazilərə atom zərbələrinin endirilməsinin prespektivliyi sahəsində (SSRİ-də) keçmiş sovet vətəndaşları ilə sorğu aparmışdılar.

"Dropşot" planının həyata keçirilməsinin müddəti AFR-in yenidən remilitarizasiya edilməsi (yenidən hərbiləşdirməsi) prosesi ilə sıx bağlı idi. Plana əsasən Qərbi Almaniya və Yaponiyanın bütün lazımı vasitələrndən maksimal dərəcədə istifadə olunmalı idi. Bu ölkələrin əraziləri və əhalisi planın uğurla həyata keçirilməsi üçün məhv edilməyə belə hesablanmışdı.

Müharibənin ilk mərhələsində SSRİ-nin sənayesinin 85% -nin məhv edilməsi nəzərdə tutulmuşdu və onun üzərinə 300 atom bombası, 250 min tonluq adi bombaların tətbiq edilməsi nəzərdə

tutulurdu. İkinci mərhələdə isə hücum əməliyyatı davam etdirilir və 69 diviziyasının amerikanlardan ibarət olacağı 164 diviziyadan ibarət yerüstü NATO ordusunun hərəkətə gətirilməsi planlaşdırılırdı. Üçüncü mərhələdə isə qərbdən NATO-nun 114 diviziyası cənubdan (Qara dənizə çıxarılacaq desant ilə) 50 diviziyanın hücumu baş tutmala idi. Bütün bu tədbirlər SSRİ-niin təslim olması ilə nəticələnməli idi. ”Dropşot” planına əsasən əməliyyatların keçirilməsində əlavə 20 milyonluq birləşmiş hərbi qüvvələrin iştirak etməsi də təklif edilirdi.

Amerikan hərbiçiləri bu planın baş tutmasından sonra sovet xalqının və, ümumiyyətlə, bu ərazilərin gələcək aqibəti ilə bağlı fikir mübadilələri də aparmışdılar. İlk öncə Sovet əraziləri işğal olunmalı idi. Bu prossesdə hər diviziyada 1 milyon canlı qüvvə olmaqla 38 diviziyanın iştirakı nəzərdə tutulurdu.

***SSRİ ərazisi 4 zonaya bölünməli idi: SSRİ-nin qərb hissəsi; Qafqaz-Ukrayna; Ural-Qərbi Sibir-Türküstan (Mərkəzi Asiya-red) ; Şərqi Sibir-Zabaykalie (Baykal gölü ətrafı)–Primoriye (SSRİ-nin sakit okean sahilləri əraziləri)***

Bu zonalar da öz növbəsində 22 rayona bölünməli idi. ***Moskvada 2 işğalçı diviziya, bir diviziya isə ayrı-ayrılıqda-Minskdə, Murmanskda, Qorkidə, Kuybişevdə, Kiyevdə, Xarkovda, Odessada, Sevastopolda, Rastov-na-Donda, Novorossiyskdə, Batumda, Bakıda (göründüyü kimi Eyzenhauerin dövründə belə hazırlanan məhv edilmə planında Bakının da adı qeyd olunur) diviziyalar yerləşdirilməli idi. Bu isə təbii idi. Çünki o dövrdə Bakı şəhəri SSRİ üçün mühüm əhəmiyyətə malik şəhərlərdən idi. Bu əhəmiyyətlilik həm iqtisadi, həm də siyasi-hərbi cəhətdən idi ki, bu ABŞ hərbi dairələrinin nəzərindən qaçmırdı. . . . .***

Plana əsasən işğalçı diviziyalar həm də cəza vermə funksiyalarına da malik idilər. İşğalçı diviziyaların əsas məqsədi “*vətəndaşlara və, ümumiyyətlə, ölkə cəmiyyətinə siyasi, mənəvi cəhətdən təsir edə biləcək və onu istiqamətləndirə biləcək kommunist partiyasının hakim olduğu təşkilati strukturları məhv etmək idi*”.

ABŞ-da istər Trumenin, istərsə də Eyzenhauerin dövründə bu planları reallaşdırmaq mümkün olmadı. Beynəlxalq şərait,

beynəlxalq ictimaiyyətin, xüsusilə də ABŞ ictimaiyyətinin buna qarşı etirazı və ən əsası isə SSRİ-nin çox güclü bir siyasi-iqtisadi və hərbi potensiala malik olması və dünya siyasət arenasında özünə məxsus yerinin olması buna imkan vermədi.

Hələ prezident Trumenin dövründə Moskvada ABŞ-ın səfiri işləmiş Kennon tərəfindən işlənib hazırlanmış «rusların hər hansı bir cəhdinin qarşısını almaq siyasəti» yenə də öz aktuallığını saxlayırdı. ABŞ-ı xarici siyasəti yenə də zor işlətməkdə öz əksini tapırdı. Eyzenhauer silahların və bütün iqtisadiyyatın modernləşdirilməsi xəttini yeritdi. Onun prezidentliyi dövründə hərbi xərclər iki dəfə artdı, strateji yollar çəkildi. Əgər Trumen hidrogen silahının istehsalı haqqında sərəncam vermişdisə, Eyzenhauer hətta onu işlətməyi mümkün hesab edirdi. Buna baxmayaraq Eyzenhauer dediyinə əməl etməyi bacarmadı. 1954-cü ildə Vyetnama Fransa tərəfindən müstəqillik verilməsini müdafiə etdi. Eyzenhauer 1956-cı ildə Suveyş kanalı Misir tərəfindən milliləşdirilərkən Fransa, İngiltərə və İsraillə müharibədə Misiri müdafiə etdi. 1957-ci ilin yanvarında Eyzenhauer xüsusi doktrina irəli sürdü ki, bu tarixə «Eyzenhauer doktrinası» adı altında daxil oldu. O zaman Yaxın və Orta Şərq regionunda dünya neft ehtiyatlarının 2/3 hissəsi yerləşirdi. Həmin doktrina Bağdad paktı üzvlərinə və İsrailə aid edilirdi. Həmin doktrinaya əsasən ABŞ öz mövqeyini Yaxın və Orta Şərqdə möhkəmləndirdi. Bu doktrina həmin dövrədək ABŞ siyasətində hələ də mövcud olan bitərəfliyi rədd edərək «boşluğu güclə doldurmaq» nəzəriyyəsinin əsasının qoydu. Bu doktrina, ABŞ-ın Yaxın və Orta Şərq siyasətində yeni mərhələnin başlanğıcını qoydu. 1958-ci ildə ABŞ Livana qoşun göndərdi, Konqoda 1961-ci ilin sentyabrında P. Lumumba hökumətinin devrilməsini təşkil etdi. Bu hadisə "konqo böhranı"da adlanır.

Eyzenhauer dövründə silahlanmaya vəsait qoyuluşu artırılsa da, lakin ABŞ raket texnikası sahəsində SSRİ-dən geri qalırdı. Eyzenhauer hökuməti öz xarici siyasətində Latın Amerikası ölkələrinə xüsusi diqqət yetirirdi. ABŞ burada fəallaşaraq mövqelərini möhkəmləndirdi. 1954-cü ilin yanvarında ABŞ Qvatemalada inqilabi hərəkatın yatırılmasında iştirak etdi. Eyzenhauerin 1959-60-cı illərdə Qərbi Avropa və Latın Amerikası

ölkələrinə səfərləri də qarşılıqlı münasibətlərin xeyli inkişaf etməsinə səbəb oldu.

**Prezident Con Kennedinin dövründə ABŞ-ın xarici siyasəti**

Dünyada baş verən qlobal dəyişikliklər, Asiya, Afrika və Latın Amerikası ölkələrində güclənən milli-azadlıq hərəkatı ABŞ-ın xarici siyasətinə də ciddi təsir etdi. ABŞ-ın xarici siyasətində dövlətin xarici ölkələrdə iqtisadi maraqlarının etibarlı mühafizə edilməsi aktuallaşdı. Çünki, İkinci dünya müharibəsindən sonra ABŞ-ın xarici ölkələrə birbaşa kapital qoyuluşu 4 dəfədən çox artaraq 1946-cı ildəki 7,2 milyard dollardan 1960-cı ildə 31,9 milyard dollara çatmışdı. Con Kennedinin ən məşhur doktrinalarından biri də «Məhvedici təsir etmə» doktrinası idi. Bu doktrinaya görə ABŞ dünyanın istənilən yerində gedən müharibəyə müdaxilə edə bilərdi. Bu ABŞ-da atom və digər silahların geniş istehsalına şərait yaradırdı. Onun dövründə «Sülh korpusları» adlanan qruplar yaradıldı ki, bu qruplar geridə qalmış ölkələrdə iqtisadiyyat, təhsil, səhiyyə sahəsində fəaliyyət göstərməli idilər. Bundan məqsəd əslində həmin ölkələrdə ABŞ-ın mövqeyini gücləndirmək idi.

60-cı illərin əvvəllərində SSRİ ilə ABŞ arasında bir sıra görüşlər keçirildi. 1961-ci il mayın 19-da ilkin danışıqlar nəticəsində SSRİ Nazirlər Sovetinin sədri N.S.Xruşşovla ABŞ prezidenti C.Kennedinin görüşünün bitərəf ölkə olan Avstriyanın paytaxtında keçiriləcəyi elan edildi. Rəsmi məlumatda bu görüşün danışıqlar aparmaq və başqa ölkələrin marağına toxunan ən vacib beynəlxalq problemlər üzrə ilkin razılığa nail olmaq məqsədilə təyin olunduğu bildirildi. Görüş iki ölkə arasında münasibətlərə aid əsas problemlər üzrə fikir mübadiləsinin keçirilməsi və ABŞ prezidenti ilə sovet rəhbəri arasında ilk şəxsi əlaqənin yaradılmasına yönəlmişdi.

Fikir mübadiləsində mərkəzi yeri tərksilah problemi və Qərbi Berlin məsələsi tuturdu. İyunun 4-də ABŞ prezidentinə Almaniya məsələsinin dinc yolla nizamlanması və Qərbi Berlin məsələsi haqqında yaddaş qeydi təqdim olundu. Açıq xarakter daşıyan

söhbət nəzərdə tutulan müddətdən çox vaxt aparsa da, ortaq fikrə gəlmək mümkün olmadı.

Tərksilah probleminin müzakirəsi məsələsində də fikir ayırdığı yarandı.

Laosun müstəqilliyini dəstəkləmək və onun bitərəfliyinə hörmət etmək məsələsində tərəflər müəyyən razılığa gələ bildilər. Onlar həmçinin bütün dünya üçün maraq kəsb edən hər bir məsələ üzrə əlaqələr saxlamağa və bu məsələlərin dinc yolla həll edilməsinə razılıq verdilər.

Bütün bunlara baxmayaraq, Avropada hadisələr gözlənilən nəticələri vermədi. Çünki qitədə gərginlik hökm sürürdü.

Kennedi hökumətinin xarici siyasətində Latın Amerikası ölkələrinə xüsusi diqqət yetirilirdi. 1961-ci il martın 13-db ABŞ Latın Amerikası ölkələrinə münasibətdə yeni doktrina; irəli sürdü. Bu, «Tərəqqi naminə ittifaq» adlandırıldı. Doktrinanın məqsədi ABŞ-ın fəal maliyyə yardımı ilə Latın Amerikası ölkələrinin iqtisadiyyatını dirçəltmək idi. Latın Amerikası üçün Kennedinin «Tərəqqi naminə ittifaq» siyasətindən həm də məqsəd bu ölkələrdəki xalq inqilablarının inkişafına mane olmaq və Latın Amerikası burjuaziyasını ABŞ-ın tərəfinə çəkmək idi.

Plana uyğun olaraq 1961-1968-ci illərdə Latın Amerikası ölkələrinə 4,5 milyard dollar yardım edildi. Bu yardımların köməyi ilə Latın Amerikası ölkələrində iqtisadi islahatlar aparıldı. Amerikan yardımları Latın Amerikası ölkələrində sosial-iqtisadi inkişafa təkan verməklə yanaşı onları ABŞ-la daha da yaxınlaşdırdı. Bundan sonra Latın Amerikası ölkələri ilə Avropa dövlətlərinin ticarət-iqtisadi əlaqələri xeyli zəiflədi.

Kennedi hökumətinin xarici siyasətində 60-cı illərin əvvəllərində ziddiyyətli meyllər də müşahidə edilirdi. Əvvəlki illərdə olduğu kimi ABŞ-ın əsas səyləri Sovet İttifaqı ilə qarşıdurmaya yönəlmişdi. Kuba inqilabından sonra, 1960-cı il iyulun 9-da Xruşşov bildirdi ki, SSRİ indi ABŞ-a əvvəlkindən çox yaxındır. 1961-1962-ci illərdə bu qarşıdurmanın əsas arenası Kuba oldu. 1961-ci ilin aprel ayında amerikan gəmilərində Kuba ərazisinə kubalı mühacirlərin hərbi desantı çıxarıldı. Lakin Kubaya qarşı silahlı müdaxilə cəhdi boşa çıxdı. Buna baxmayaraq, Kuba ətra-

fında vəziyyət ağır olaraq qalırdı. Belə şəraitdə SSRİ çox təhlükəli addım atdı. 1962-ci ilin iyun ayında Moskvada Kubada sovet atom silahının yerləşdirilməsinə dair gizli müqavilə imzalandı. İyul-sentyabr aylarında Kuba ərazisində 62 ədəd orta mənzilli raket yerləşdirildi. Bu raketlər ABŞ-ın böyük şəhərlərinə qarşı yönəldilmişdi. Bu isə ABŞ-ın dövlət və milli mənafelərinə zidd olub nüvə müharibəsi təhlükəsi yaradırdı. Cavab olaraq Kennedi hökuməti 1962-ci il oktyabrın 22-də Kubanı hərbi-dəniz blokadasına aldı. Bir neçə gün ərzində dünya nüvə müharibəsi təhlükəsi qarşısında qaldı. Böhran zamanı Kennedi bütün məsuliyyəti öz üzərinə götürdü. Hər iki tərəfin qarşılıqlı güzəştə getməsi nəticəsində Karib böhranı dinc yolla aradan qaldırıldı. Sovet İttifaqı öz nüvə raketlərini Kubadan çıxardı. Con Kennedi Kubaya müdaxiləyə cəhd etməyəcəyi və rejimi devirmək üçün səylər göstərməyəcəyi öhdəliyini götürdü.

Kennedi xarakter etibarilə ziddiyyətli adam idi. O, bir tərəfdən ölkə əhalisinin vəziyyətinin qayğısına qalsa da, digər tərəfdən onun dövründə Karib böhranı baş verdi və «soyuq müharibə» özünün ən yüksək zirvəsinə çatdı. Bu hadisədən sonra böyük dövlətlər arasında nüvə tərksilah problemli daha da aktuallaşdı. Kennedi hökuməti 1963-cü ilin avqustunda Moskvada İngiltərə və SSRİ ilə birlikdə nüvə silahlarının sınaqdan keçirilməməsi haqqında sazişi imzaladı. Kennedi göstərirdi ki, müharibə iradələrin mübarizəsinin nəticəsidir. Düz yolla gedənlər heç vaxt toqquşmurlar. Kennedinin 1962-ci ilin yanvarında konqresə təqdim etdiyi xarici ticarət proqramında ABŞ-ın AİB və NATO ölkələri ilə əlaqələrinin yaxşılaşdırılması nəzərdə tutulurdu. Onun xarici siyasətdə başlıca məqsədi beynəlxalq aləmdə ABŞ-ın nüfuzunu daha da gücləndirmək idi.

Qloballaşma amillərini nəzərə alan C. Kennedi xarici siyasətdə “Yeni üfüqlər” doktrinasının müddəalarını əsas götürürdü. O, 1960-cı ildə general M. Teylor tərəfindən irəli sürülmüş «Çevik münasibət» doktrinasını müdafiə etdi.

1963-cü ilin payızında ABŞ-da vəziyyət kəskinləşdi. Ultrasağ qüvvələr hökumətdən daxili və xarici siyasətdə kəskin

dönüş tələb edirdilər. Prezident seçkiləri ilə əlaqədar olaraq mübarizə daha da gücləndi.

## Lindon Consonun prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti

C.Kennedinin ölümündən sonra prezident kürsüsündə əyləşən Lindon Conson xarici siyasətdə sərt mövqe tutdu. Consonun hakimiyyəti illərində «Quruculuq», «Körpülər salma» doktrinası meydana çıxdı. Bundan məqsəd ABŞ başda olmaqla qərb dövlətləri ilə bəzi sosialist ölkələri arasında hərtərəfli münasibətləri inkişaf etdirməklə bu ölkələrdə millətçilik əhval-ruhiyyəsinin artmasına, onların bir-birindən, xüsusilə, Sovet İttifaqından təcrid olunmasına nail olmaq idi. Conson Latın Amerikasında «böyük dəyənək» siyasətinə qayıtdı. 1964-cü ilin əvvəllərində Panama ilə ABŞ arasında münaqişə yarandı, 1965-ci ilin aprelində Dominikan Respublikasına hərbi qüvvələr göndərildi.Yaxın Şərq münaqişəsində ABŞ İsraili müdafiə etdi. Tankin körfəzində Amerika gəmilərinə Vyetnam gəmilərinin guya hücumu haqqında bəhanədən istifadə edərək 1964-cü ilin aprelində Vyetnam səmasını bombalamağa başlamaq haqqında əmr verdi. Əslində bundan məqsəd Sakit Okean və Uzaq Şərqdə ABŞ-ın mövqeyini daha da gücləndirmək idi. Məhz bu məqsədlə 1965-ci ildə ABŞ Vyetnamda 550 minə qədər qoşun kontingenti yerləşdirdi. Müharibə ölkə daxilində real əmək haqqının aşağı düşməsinə səbəb oldu. Ölkədə Vyetnamdakı müharibə əleyhinə hərəkat gücləndi. 1965-ci ildə ABŞ-ın 100-ə qədər şəhərində Vyetnam günləri keçirildi. Artıq 1968-ci ilin payızı üçün Vyetnamda ABŞ hərbçilərindən 30 min nəfər ölmüş, 180 min nəfər yaralanmış və itkin düşmüşdü. 1966-cı il iyulun 12-də Conson «Asiya doktrinası»nı irəli sürdü. Bu, doktrinaya əsasən ABŞ Asiyada sülhsevərlik missiyasını öz üzərinə götürdü. Lindon Consonun daxili və xarici siyasəti onu nüfuzdan saldı.

## Riçard Niksonun prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti

Nikson hökumətinin də xarici siyasəti özündən əvvəlki prezidentlərin xarici siyasətinin davamı idi. Nikson 1969-cu ilin

iyul ayında Asiya ölkələrinə səfərə çıxdı. O, gözlənilmədən Quam adasında mətbuat konfransı keçirərək Ağ evin Asiya qitəsinə aid siyasətinə dair öz bəyanatını elan etdi. Bu bəyanat «Quam doktrinası» adını aldı.

"Quam doktrinası»nın səciyyəvi cəhətləri aşağıdakılardan ibarət idi: ABŞ Asiya ölkələri ilə bağladığı əvvəlki müqavilələrə əməl edəcəkdi; əgər bu ölkələr üçün təhlükə olardısa, ABŞ müvafiq tədbirlər görəcək və bu ölkələrə hərbi və iqtisadi yardımlar göstərəcəkdi. Ancaq bu doktrinaya görə ABŞ bilavasitə hərbi əməliyyatlarda iştirak etməkdən imtina edir və əsas məsuliyyəti təcavüz təhlükəsinə məruz qalan ölkənin üzərinə qoyurdu.

1970-ci ilin fevral ayında ABŞ-ın Xarici siyasətinin əsas istiqamətlərini Nikson müttəfiqlərlə münasibətdə tərəfdaşlıq, potensial rəqiblərlə münasibətdə isə hərbi qüvvə tətbiq etmək etmək və danışıqlar aparmaq kimi müəyyənləşdirirdi.

Nikson hökumətinin xarici siyasətinin istiqamətlərindən iri də Latın Amerikası ölkələri ilə münasibətlər idi. 70-ci illərin əvvəllərində Amerika Dövlətləri Təşkilatı ilə ABŞ arasında münasibətlərdə müəyyən gərginlik yarandı. 1974-cü ilin əvvəllərində Amerika dövlətləri təşkilatına daxil olan ölkələrin xarici işlər nazirlərinin konfransı təşkilatda iştirak edən hər bir dövlətin xarici siyasət məsələlərində müstəqilliyi lehinə çıxış etdi. Bundan sonra Birləşmiş Ştatlar Kubaya münasibətdə Latın Amerikası ölkələrinin müstəqil hərəkət edə biləcəklərini bəyan etdi.

70-ci illərin birinci yarısında ABŞ-ın xarici siyasətində əhəmiyyətli dəyişiklik baş verdi. Bu ilk növbədə beynəlxalq aləmdə qüvvələr hislətində əsaslı dəyişikliklər baş verməsi ilə əlaqədar idi: dünya sosializm sisteminin mövqeyi güclənmiş, «üçüncü dünya» ölkələrinin nüfuzu artmış, dövlətlərarası münasibətlərdə böyük dəyişikliklər baş vermiş, bütün dünyada sülhsevər qüvvələr çoxalmışdır. Ona görə də ABŞ-ın xarici siyasətində siyasi realizm xətti üstünlük təşkil etdi.

İkinci Dünya müharibəsindən sonra Birləşmiş Ştatların xarici siyasətində əsaslı konsepsiyalar hazırlanmışdır. Prezident Nikson hakimiyyətinin ilk günlərindən ABŞ-la Sovet İttifaqı arasında danışıqlar dövrünə keçilməsini elan etmişdi. 1969-cu ilin payızın-

da ABŞ və SSRİ arasında strateji silahların məhdudlaşdırılmasına dair danışıqlara başlanıldı. Bu danışıqlar Amerika xalqı tərəfindən geniş müdafiə olundu. Prezident Noksonun Konqresdə xarici siyasət istiqamətində realist fikirləri demokratların və respublikaçıların nüfuzlu qrupları tərəfindən müdafiə olunurdu. Həmin qrupa nüfuzlu siyasi xadimlər olan senatorlar- D.Y.Fulbrayt, M.Mensfild, E.Kennedi, K. Skot və başqaları daxil idilər.

İki partiya-respublikaçılar və demokratlar partiyalarının qruplaşması Amerika xarici siyasət konsepsiyasında mühüm dəyişiklik əldə edilməsinə istiqamətlənmişdi. Senatda xarici işlər üzrə komissiyanın sədri D.Y.Fulbrayt Konqresdəki çıxışında təsdiq etmişdir ki, Birləşmiş ştatlar birtərəfli fəaliyyətdən çəkinməlidir. O, birtərəfli münasibətlərdən beynəlxalq münasibətlərə keçid konsepsiyasını irəli sürdü.

Nikson hökumətinin fəaliyyətinin ilk günlərində əsas xarici siyasət məsələlərindən biri Vyetnam məsələsi idi. Niksonun «Quam doktrinası»nın əsasında «vyetnamlaşdırma» proqramı işlənilmişdi.

70-ci illərin əvvəllərində ABŞ-ın Hind - Çindəki təcavüzünün miqyası genişlənmişdi.1970-ci ildə Amerika qoşunları Kambocaya, 1971-ci ildə isə Laosa girdilər. 1971-ci ildə Nikson Vyetnam Demokratik Respublikasının yenidən bombalanması əmrini verdi. Lakin ABŞ-ın hakim dairələri Vyetnam xalqının iradəsini qıra bilmədilər. 1973-cü ilin yanvar ayının 27-də Parisdə Vyetnamda müharibənin dayandırılmasına dair razılıq imzalandı. Amerika orduları Cənubi Vyetnamdan çıxarıldı.

60-cı illərin sonu, 70-ci illərin əvvəllərində Vaşinqtonu təəccübləndirən ciddi məsələlərdən biri Latın Amerikasındakı hadisələrlə bağlı idi. Xüsusilə bütün ABŞ-ın hakim dairələri və inhisarçı burjuaziya 1970-ci ildə Çilidə S.Alyendenin rəhbərliyi altında Vahid Xalq hökumətinin yaranmasını düşmənçiliklə qarşıladılar. Amerika sağ inhisarçı dairələri və Vaşinqtonun rəsmi nümayəndələri S.Alyendenin hökumətini devirməyin planını hazırladılar. Birləşmiş Ştatların göstərişini Latın Amerikası xalqları böyük müqavimətlə qarşıladılar.Amerika qitəsi xarici işlər nazirliklərinin növbəti konfransında Amerika dövlətlərinin təşkilatının

sıralarından çıxmaq məsələsi də qoyulmuşdu.1974-cü ilin əvvəllərindən təşkilatın hər bir iştirakçısı öz xarici siyasətini müstəqil həyata keçirirdi.

70-ci illərdə Yaxın Şərq də ABŞ-hakim dairələrinin diqqət mərkəzində idi. Yaxın Şərqdə Amerikanın mövqelərinin möhkəmlənməsində İsrail strateji əhəmiyyət kəsb edirdi. Birləşmiş Ştatlar tərəfindən İsrailin hərbi-iqtisadi və siyasi cəhətdən müdafiə olunması İsrail ekstremistlərinin ərəb ölkələri əleyhinə təcavüzkar planlar həyata keçirməsinə şərait yaradırdı.

70-ci illərin əvvəllərində Birləşmiş Ştatların Qərbi Avropa ölkələri və Yaponiya ilə münasibətlərində son dərəcə əlverişsiz şərait yaranmışdı. Buna görə də «Ümumi bazar» ölkələri və Yaponiya Amerika üçün təhlükəli imperialist rəqiblər idilər. ABŞ-ın kapitalist ölkələrinin sənaye məhsulları istehsalı sırasındakı yeri 1948-ci ildə 53% olduğu halda 70-ci illərin əvvəllərində azalaraq 40% olmuşdur. Əksinə «Ümumi bazar» ölkələrinin və Yaponiyanın payı bu sahədə yüksələrək 13,5%-dən 28%-ə çatmışdır.

Amerika imperializminin maliyyə-iqtisadi mövqeyinin zəifləməsi ABŞ-ın hakim dairələrinin qarşısına «atlantik cəmiyyətində» özünün hərbi-siyasi nüfuz dairəsinin möhkəmləndirilməsi vəzifəsini qoymuşdu. Nikson hökumət 70-ci illərin ortalarında öz diqqətini əsasən Qərbi Avropa ölkələrinə yönəltmişdi. Belə ki, qeyd etdiyimiz dövrdə Birləşmiş Ştatların Qərbi Avropa və Yaponiyada iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsi Amerika xarici siyasətinin ilk növbəli problemlərindən biri idi.

70-ci illərin birinci yarısında ABŞ hökumətinin xarici siyasət xəttinin mərkəzində Sovet İttifaqı ilə münasibətlərin optimal istiqaməti dururdu. Bu dövrdə ABŞ-ın xarici siyasətində yeni əlamət Amerika-Sovet münasibətlərində lazımi dəyişikliklər etmək idi. Birləşmiş Ştatlarla Sovet İttifaqı arasındakı münasibətlərdəki böyük yaxınlaşma meyllərini prezident Nikson özü həyata keçirirdi. Nikson öz növbəsində «soyuq müharibə» tərəfdarlarından biri idi.

Moskvada sovet-Amerika danışıqları (1972-ci ilin mayın 22-dən 30-dək olan dövrdə) lazımi sazişlərin imzalanması ilə başa çatmışdır. Həmin sazişlər sırasında «Sovet Sosialist Respublikaları

İttifaqı və Amerika Birləşmiş Ştatları arasında qarşılıqlı əlaqələrin əsasları» böyük əhəmiyyət kəsb edir. Həmin müqavilənin birinci bəndində deyilirdi ki, hazırkı nüvə əsrində bu və ya digər ölkə dinc yanaşı yaşamaq prinsipinə əməl etmədən mövcud ola bilməz. Həmin müqavilə Amerika-Sovet İttifaqı münasibətlərinin bütün sahələr üzrə beynəlxalq-hüquqi qaydalarını müəyyən etmişdir.

Həmçinin SSRİ və ABŞ arasında raket əleyhinə müdafiə və strateji hücum silahlarının məhdudlaşdırılması və azaldılması sahəsində bağlanmış müqavilə də böyük əhəmiyyət kəsb etmişdir. Həmin müqavilələrin bağlanması nüvə müharibəsi təhlükəsini azaltmış, silahların güclü növlərinin azaldılmasını təmin etmişdir.

Moskva danışıqlarında həmçinin əməkdaşlığın siyasi sahəsi deyil, iqtisadi, elmi, mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə əlaqədar başqa sazişlər də imzalanmışdır. Ticarət məsələləri üzrə birgə Sovet-Amerika komissiyası təsis olunmuş, SSRİ və ABŞ arasında ticarət danışıqlarının hazırlanmasının vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin danışıqlarda yuxarıda qeyd etdiyimiz kimi, hər iki ölkə arasında elmi-texniki sahələrdə, səhiyyə sahəsində, elm, təhsil və mədəniyyət sahəsində mübadilələrin təşkili məsələləri də dəqiq göstərilmişdir.

1972-ci ilin Moskva sazişləri amerikalıların böyük əksəriyyəti tərəfindən bəyənilmişdi. Lakin Sovet-Amerika münasibətlərinin normalaşdırılmasının qaydaya salınmasının əleyhinə çıxanlar da var idi. Bunlar inhisarçılardan, strateji silah istehsalı ilə bağlı olanlardan, yüksək mənsublu bürokratlardan, mürtəce fikirli, sionist düşüncəli nümayəndələrdən ibarət idi.

Sovet-Amerika münasibətlərinin qaydaya salması işi ardıcıl davam etdirilirdi. 1973-cü ilin iyun ayında Sov. İKP. MK-nın Baş katibi L. İ. Brejnevin ABŞ-a görüşə gedişi bu yolda yeni əsaslı addımların başlanğıcını qoydu. Növbəti danışıqların nəticəsi olaraq yüksək səviyyədə nüvə müharibəsinə yol verməmək sazişi imzalanmış, həmçinin strateji hücum silahlarının gələcəkdə də məhdudlaşdırılmasının ümumi prinsipləri təsdiq edilmişdir. Bir ildən sonra 1974-cü ilin iyun ayında Niksonun Sovet İttifaqına ikinci gəlişindən sonra nüvə silahlarının yeraltı sınaqdan çıxarılmasının məhdudlaşdırılmasına dair müqavilə imzalanmışdır.

Qısa müddət ərzində Sovet-Amerika münasibətləri əhəmiyyətli dərəcədə yüksəldi. SSRİ və ABŞ arasında ticarət yüksək dərəcədə artdı. Məsələn, bu artım 1971-ci ildə bütövlükdə 200 milyon dollar olduğu halda, 1973-cü ildə 1,5 milyard dollar olmuşdur. İki ölkənin alimləri və mədəniyyət xadimləri arasındakı əlaqələr möhkəmlənmişdi. Həmçinin iki ölkə arasında nəqliyyat əlaqələri yaxşılaşdırılmışdı. Bu göstərirdi ki, 70-ci illərin əvvəllərində Sovet-Amerika münasibətləri «soyuq müharibəni» çıxılmaz vəziyyətdən çıxarırdı.

Ölkədə «Uotergeyt məsələsi» burjua demokratiyasının dərin böhran keçirdiyini göstərdi. 1972-ci ildə seçki kampaniyası zamanı R. Niksonun yenidən prezident seçilməsi üzrə komitə ilə əlaqədar bir qrup şəxs «Vaşinqtonda demokratlar partiyasının ştab mənzilinin yerləşdirdiyi Uotergeyt» otelində dinləmə qurğusu quran anda yaxalandı. Təhqiqat yolları Ağ evə aparıb çıxarırdı. Dövlət başçısının köməkçilərinin və vəkil edilmiş şəxslərin bir qrupu məhkəmə məsuliyyətinə cəlb edildi. Vəzifədən kənar edilmə perspektivi qarşısında qalan Nikson 1974-cü ilin avqust ayında prezidentlik səlahiyyətindən əl çəkdi.

**Cerald Ford hökumətinin dövründə ABŞ-ın xarici siyasəti**

Ford hökumətinin xarici siyasətində Latın Amerikası ölkələri özünəməxsus yer tuturdu. 1974-cü ilin dekabr ayında ABŞ yeni ticarət qanununu qəbul etdi. Bu qanunla Latın Amerikası ölkələrində ABŞ-a gətirilən bir sıra mallar üzərinə məhdudiyyətlər qoyuldu. Belə hal Latın Amerikası ölkələrinin xarici ticarətinə mənfi təsir etdiyindən 1975-ci ilin may ayında ADT Baş Məclisinin sessiyasında yeni ticarət qanununun yumşaldılması barədə ABŞ-a müraciət edildi. ABŞ bu təklifləri qəbul edərək qanunun bir sıra maddələrini ləğv etdi. Bundan sonra həmin ölkələrlə ABŞ-ın ticarəti daha da genişləndi.

Ford hökumətinin xarici siyasətinin əsas istiqamətlərindən biri NATO ilə əməkdaşlıq idi. ABŞ hökuməti Avropa siyasətində Atlantika həmrəyliyinə üstünlük verirdi.

Ford hökumətinin xarici siyasətinin istiqamətlərindən biri Asiya və Sakit okean regionu dövlətləri ilə münaisbətlər idi. 1975-ci ilin dekabrında bəzən «Sakt okean doktrinası» adlanan Ford

doktrinası elan edildi.Bu doktrinada Asiya-da ABŞ-ın hökmranlığı, strateji baxımdan Yaponiyaya xüsusi diqqət yetirilməsi, Çinlə münaisbətlərin normallaşdırılması, Cənub-Şərqi Asiyada sabitliyin qorunması, bölgədə bütün siyasi münaqişələrin, ilk növbədə Koreya məsələsinin nizamlanması, Asiya ölkələri ilə iqtisadi əməkdaşlıq öz əksini tapmışdı. Bu doktrina ABŞ-ın siyasətinin regionda yeni dövrə qədəm qoyduğunu göstərirdi. Cerald Ford hökumətinin xarici siyasəti ziddiyyətli xarakter daşıyırdı. ABŞ Seul rejimini müdafiə edir, İsrailin təcavüzünə haqq qazandırırdı, Latın Amerikası və ərəb ölkələrinin daxili işlərinə müdaxilə edirdi. Xalqların sülh uğrunda mübarizəsinin artdığı şəraitdə güzəştə getməyə məcbur olaraq 1974-cü ilin noyabrında Vladivostokda Cerald Fordla SSRİ rəhbərliyi arasında danışıqlarda Strateji Silahları məhdudlaşdırmaq haqqında ikinci saziş bağlamaq qərara alındı. 1975-ci ildə ABŞ və SSRİ-nin birlikdə kosmosa «Soyuz-Apollon» gəmilərini göndərməsi və bu sahədə əməkdaşlıq etmələri hər iki ölkə xalqları arasında dostluq münasibətlərinin yaranmasında mühüm addım oldu.1975-ci ilin iyul-avqustunda çağırılmış Helsinki müşavirəsində ABŞ da iştirak etdi və Müşavirənin Yekun aktını imzaladı.

Bütün bunlarla bərabər iqtisadi böhran, «Uotergeyt işi», Mərkəzi Kəşfiyyat İdarəsi və Federal Təhqiqat bürosunun fəaliyyətinin siyasi ifşası və başqa hadisələr seçicilərin əksəriyyətinin respublikaçılardan üz döndərməsinə gətirib çıxartdı.

1976-cı il seçki kampaniyası nəticələrinə görə demokratlar partiyasından olan Ceyms (Çimmi) Karter yeni prezident kürsüsü uğrunda mübarizədə qələbə qazandı.

## Ceyms Karterin prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti

Karter hökumətinin fəaliyyətində əsas yerlərdən birini yenə də əvvəlki illərdə olduğu kimi, xarici siyasət məsələləri tuturdu. Yeni iqtidar hakimiyyətə gəldiyi gündən ABŞ-ın xarici siyasət xəttinə əsaslı dəyişikliklər etməyə can atırdı. Bu siyasətin əsasında Vaşinqton strategiyasının qlobal məsələləri dururdu. Bu siyasət

Birləşmiş Ştatların imperialist maraqlarının müdafiəsinə, kapitalizm dünyasında onun liderlik rolunun saxlanmasına, bu rolun stabilliyinin azaldılmasına qarşı yönəldilmiş bütün qüvvələrə qarşı mübarizəyə yönəldilmişdi.

Karter hökuməti xarici siyasətində Qərbi Avropa ölkələri ilə münasibətlərə də başlıca diqqət yetirirdi. 1979-cu ildə Avropa İqtisadi Birliyi ölkələri ABŞ-la müqayisədə xaricə üç dəfə çox mal ixrac etmişdilər. Bu ölkələrin birlikdə valyuta ehtiyatı 1980-ci ildə ABŞ-dan təxminən 6 dəfə çox idi. ABŞ-ın fəal iştirakı ilə NATO-nun Avropada rolu artırıldı. 1978-ci ilin may ayında Qərbi Avropa ölkələrində silahların modernləşdirilməsi haqqında qərar qəbul olundu. 1978-ci ilin may ayında həmçinin NATO-nun sessiyasında ABŞ-ın təşəbbüsü ilə hər il hərbi xərclərin 3% artırılması, 1979-cu ilin dekabr ayında isə ABŞ raketlərinin Qərbi Avropada yerləşdirilməsi haqqında qərarlar qəbul olundu.

1977-ci ilin fevral ayında Birləşmiş Ştatlar hökuməti Kanadanı bölmək istəyən Kvebek separatçılarının əleyhinə çıxdı. Bununla da Kanadanın parçalanmasının qarşısmı aldı. Karter hökuməti Latın Amerikası ölkələrinin daxili işlərinə SSRİ-nin müdaxilə etməsinə qarşı da qəti şəkildə çıxış edirdi.

ABŞ-ın Yaxın və Orta Şərq siyasətində İran özünəməxsus yer tuturdu. 1978-ci il Iran inqilabı ABŞ-ın bu ölkədə nüfuzunu sarsıtdı. İranın sonuncu şahı Məhəmməd Rza Pəhləvi Qərbdə gizləndi. Yeni hökumətin şahın təslim edilməsinə dair tələbləri ABŞ tərəfindən rədd edildi. İran İslam Respublikası hökuməti ABŞ-ı başlıca düşməni, SSRİ və İsraillə yanaşı «üç şeytandan» biri elan etdi. İki ölkə arasında münasibətlər kəskinləşdi. Karter İran hökumətinin 8 mlrd. dollar məbləğində bank hesablarını dondurdu, Hind okeanına «Miduey» avionosunu göndərdi. Buna cavab olaraq iranlı və pakistanlı tələbələr İslamabaddakı amerikan səfirliyini yandırdılar. 5 nəfər amerikan öldü. Bu zaman xəstə olan şahı Nyu Yorkdan Panamaya, oradan da Misirə göndərdilər. Az sonra o, vəfat etdi. Ağ ev 1979-cu il noyabrın 4-də yeni hökumət tərəfindən Tehranda girov götürülən və 444 gün saxlanandan amerikan diplomatlarını və səfirliyin digər işçilərini azad etməkdən ötrü 1980-ci ilin aprel ayında İrana qarşı 8 vertolyotla hərbi hava

əməliyyatına başlasa da, uğursuzluğa düçar oldu. ABŞ 3 maşın, 8 hərbçi itirdi. Bu uğursuzluq Karter hökumətinin nüfuzuna ciddi xələl gətirdi. Şah öldükdən sonra İran dondurulmuş aktivlərini tələb etdi. ABŞ onu verdi. İran isə girovları azad etdi.

Karter hökuməti Çinlə münasibətləri yaxşılaşdırdı. 1979-cu il yanvarın 1-də iki ölkə arasında diplomatik münasibətlər quruldu.

ABŞ xarici siyasətində Hind okeanı zonasına xüsusi diqqət yetirirdi. Karter doktrinasına görə, Hind okeanı və İran körfəzi Qərbi Avropa və Uzaq Şərqlə bərabər ABŞ-ın həyati mənafeyi zonası elan edildi. Hind okeanı zonasına belə diqqət yetirilməsinin başlıca səbəbləri regionun əlverişli hərbi-strateji mövqeyi, buradan 38 növ malın dünya bazarına çıxarılması, sərfəli ticarət yollarının keçməsi və əhalisi 1,4 milyard nəfər olan 44 dövlətin yerləşməsi ilə əlaqədar idi.

Karter hökumətinin Afrika qitəsində yeritdiyi xarici siyasətinin başlıca məqsədi antiamerikan əhval-ruhiyyəsinə son qoymaq idi. Amerikan diplomatiyası bu məqsədə çatmaq üçün silahlı müdaxiləni və zorakılığı deyil, həmin ölkələrə iqtisadi, texniki və maliyyə yardımları etməyi əsas götürürdü. Bu məqsədlə 1980-ci illərdə Afrika ölkələrinə edilən yardım 271 milyon dollardan 600 milyon dollara çatdırıldı. Nəticədə ABŞ-ın xarici ölkələrə etdiyi yardımlarda Afrika ölkələrinin ümumi payı artaraq 17%-ə çatdı. ABŞ-ın Afrika ölkələrinə kapital qoyuluşu Cənubi Afrika istisna olmaqla 2 milyard 802 milyon dollardan 3 milyard 730 milyon dollara çatdı. 1976-1980-ci illərdə ABŞ-ın yalnız Cənubi Afrika Respublikasına kapital qoyuluşu 1,6 milyard dollardan 2,3 milyard dollara qalxdı.

Karter hökumətinin xarici siyasətində beynəlxalq təşkilatların işində iştirak etmək, BMT, tərksilah və digər qlobal problemlər də mühüm yer tuturdu.

Düzdür, C. Karter və onun kabinet üzvləri bir neçə dəfə ABŞ-ın xarici siyasətində onun bütün ölkələrlə «əməkdaşlıq» etmək istəyi barədə bəyanatlarla çıxış etmişlər. Dünya ictimaiyyətinin diqqətini cəlb etmək məqsədilə Karter hökuməti xarici siyasətdə «insan hüquqları» və «əxlaq prinsipləri»nin əsas təbliğatçısına çevrilmişdir.

Karter hökuməti Qərbi Avropa və Yaponiya ilə əlaqələrində iri kapitalist dövlətlərinin vahid cəbhəsini gücləndirmək məqsədilə «qarşılıqlı əməkdaşlıq» konsepsiyasını fəal təbliğ edirdi. Bu işdə qarşılıqlı planların işlənməsində Birləşmiş ştatların rəhbər rol oynayacağı nəzərdə tutulurdu. Aparıcı kapitalist ölkələrinin rəhbərlərinin (ABŞ, AFR, Yaponiya, Fransa, İngiltərə, İtaliya və Kanada) bütün illik müşavirələrində Birləşmiş Ştatların nümayəndələri öz müttəfiqlərini iqtisadi, enerji, maliyyə çətinliklərinin aradan qaldırılmasına dair layihələrə bağlamağa can atırdılar. Bu layihələr söz yox ki, ilk növbədə Amerika tərəfi üçün mənfəətli idi. Lakin Qərbi Avropa ölkələri və Yaponiya qəti şəkildə Amerikanın göstərişlərindən imtina etdilər. İri kapitalist ölkələrinin iqtisadi sahədə qarşılıqlı planlar işləmək təşəbbüsləri səmərəsiz nəticələndi.

Hərbi siyasət məsələlərində Birləşmiş ştatların və onun Qərbi Avropa müttəfiqlərinin birliyi yüksək dərəcədə müdafiə olunurdu. Belə ki, 1978-ci ilin may ayında NATO-nun sessiyasında ABŞ-ın təşəbbüsü ilə hərbi xərclərin ildə 3% artırılmasına dair qərar qəbul edildi. 1979-cu ilin dekabr ayında Birləşmiş ştatlar NATO-da öz müttəfiqlərini Qərbi Avropa ölkələrində orta mənzilli raket-nüvə vasitələrinin yerləşdirilməsi haqqında qərarla razı saldı. Lakin NATO-nun gücünün sonrakı illərdə artırılmasına dair Amerikanın planı Qərbi Avropanın aparıcı dövlətlərinin rəhbərləri tərəfindən sönük qarşılandı. 1980-ci ilin iyun ayında «Böyük yeddilərin» növbəti müşavirəsində (Venetsiyada keçirilib) ABŞ nümayəndələri özlərinin Qərbi Avropa müttəfiqlərini öz məqsədlərinə ram etməyə nail olmadılar.

Karter hökumətinin Latın Amerikası ölkələri ilə münasibətinə dair siyasəti böyük daxili ziddiyyətlərlə xarakterizə olunurdu. Yeni hökumət Latın Amerikası ölkələri məsələsinə respublikaçıların münasibətindən fərqli münasibət bəsləyirdi. Karter hökumətinin bu məsələ ilə bağlı planları sırasında Panama kanalı haqqında yeni müqavilənin işlənməsi və bağlanması dururdu. Vaşinqtonun rəsmi nümayəndələrinin fikrincə, bu Latın Amerikası ölkələrində Amerika əleyhinə əhval-ruhiyyənin zəifləməsinə gətirib çıxarmalı idi. 1977-ci ilin sentyabr ayının 7-də Vaşinqtonda təntənəli şəraitdə Panama kanalının yeni statusu ilə

bağlı müqavilə imzalandı. 1978-ci ilin mart-aprel ayında keçirilən müzakirələrdən sonra senat müqaviləni təsdiq etdi. Yeni müqavilədə göstərilirdi ki, Panama kanalı tədricən Panamanın tabeçiliyi altına keçir. Kanalın istismarından alınan pulla kanalın işi yaxşılaşdırılmalı və 2000-ci ilədək o tam şəkildə Panamanın nəzarəti altına keçməlidir. Lakin Panama kanalı haqqında bu müqavilədə Birləşmiş Ştatlar Panama kanalı ərazisində özünün əsas hüquqlarını saxlamışdı.

Birləşmiş Ştatlar diktator A.Somosaya 1979-cu ilin iyul ayında Nikaraqua xalqının onun hökumətinin devirməsi məqsədilə qaldırdığı üsyanının yatırılmasına çoxlu miqdarda iqtisadi və hərbi köməklik göstərmişdir. Həmçinin Vaşinqtonun hakim dairələri tərəfindən Salvodorun,Qvatemalanın, Hondurasın irticaçı qüvvələrinə, xalqların milli-azadlıq hərəkatı əleyhinə hər cür mübarizəyə fəal köməklik göstərilirdi.

70-ci illərin sonlarında da Ağ evin sahiblərinin Yaxın və Orta Şərq siyasəti dəyişməmiş qalmışdır. Düzdür, 1977-ci ilin oktyabr ayında dünyada sülhün qorunması və beynəlxalq gərginliyin azaldılması məqsədilə «Ərəb-İsrail ziddiyyətlərinin ədalətli həlli və qaydaya salınmasına dair» qarşılıqlı Sovet-Amerika bəyanatı dərc edilmişdir. Lakin Birləşmiş Ştatlar bu məsələdə «hakim» rolunu oynamasına baxmayaraq yenə də imperialist mahiyyətini gizlətmir, ərəb xalqlarının vahid cəbhəsini parçalamaq, İsrailin vəziyyətini möhkəmlətmək məqsədi güdürdü. Bu işin ssenarisi Vaşinqtonda hazırlanırdı. 1978-ci ilin sentyabr ayında ABŞ prezidentinin iqamətgahında, Kemp-Deviddə C. Karterin Misir prezidenti Ə.Sadatla və İsrailin baş naziri M. Beginlə «Misir-İsrail» razılaşmasına dair görüşü keçirildi. Görüşdə bir sıra siyasi məsələlər, həmçinin İordan çayının Qərb sahilinə – Qəzzə ərazisinə muxtariyyət verilməsi və bu ərazidən İsrail ordularının çıxarılması məsələləri də müzakirə edildi. (Həmin ərazi 1967-ci ildə İsrail işğalına məruz qalmışdır). Karter hökumətinin Yaxın Şərq siyasəti İsrailin işğalçılıq planlarının genişlənməsinə yardım edirdi.

Karter hökumətinin sözü ilə işi arasında ciddi əlaqəsizlik başqa xarici siyasət məsələlərində də özünü göstərirdi. Belə ki, məsələn, 1979-cu ilin yanvar ayının 1-də ABŞ və ÇXP arasında

rəsmi diplomatik əlaqələr yaradılmış oldu. Həm də prezident Karter, həm də Xua Qorenin rəhbərlik etdiyi Çin ABŞ və ÇXP arasında münasibətlərin normalaşdırılmasına can atırdılar. Bu normalaşdırma hər hansı bir üçüncü dövlət əleyhinə aparılmamalı, sülh işinə, beynəlxalq təhlükəsizliyə xidmət etməli idi. Lakin Amerika-Çin əlaqələrinin sonrakı inkişafı göstərdi ki, Birləşmiş ştatların sağ dairələri «Çin amilindən» Sovet İttifaqının əleyhinə istifadə etməyə çalışmışlar.

70-ci illərin ikinci yarısında Sovet-Amerika münasibətlərinin inkişafı böyük çətinliklərlə üzləşdi. Düzdür, C. Karter və onun xarici siyasət üzrə müşavirləri özlərinin dünyanın iki sistemi arasında münasibətlərin normalaşdırılmasını bəyanatlarla göstərirdilər. Bununla ABŞ-ın hakim dairələri sürətlə silahlanmada yeni imkanlar qazınır və Birləşmiş Ştatların günahı üzündən strateji hücum silahlarının məhdudlaşdırılmasına dair yeni uzunmüddətli razılığın əldə olunması və müqavilənin bağlanması gedişini ləngidirdilər.

1979-cu ildə SSRİ və ABŞ arasında strateji hücum silahlarının məhdudlaşdırılmasına dair saziş imzalandı. Bu sənəd də əvvəllər imzalanmış sənədlər kimi tərəflərin bərabərliyi və eyni dərəcədə təhlükəsizliyi prinsipinə əsaslanırdı.Saziş müxtəlif ictimai quruluşlu dövlətlərin dinc yanaşı yaşaması prinsipinə müvafiq olaraq ikitərəfli əməkdaşlığı uzunmüddətli əsas üzərində inkişaf etdirmək üçün zəmin yarada bilərdi.

1979-cu ilin iyun ayının 18-də Vyanada Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev və ABŞ prezidenti C. Karter arasında strateji hücum silahlarının məhdudlaşdırılmasına dair müqavilə imzalandı. Hər iki tərəf strateji hücum silahlarının sayının məhdudlaşdırılması və onların təkmilləşdirilməsinin saxlanılmasına dair razılaşma əldə etdilər. Onlar həmçinin öz üzərlərinə strateji silahların yeni növlərinin təşkilinin məhdudlaşdırılması vəzifəsini də götürmüşdülər.1979-cu ilin Vyana görüşü özündə Sovet-Amerika münasibətlərinin və bütünlükdə beynəlxalq siyasi iqlimin yaxşılaşması yolunda irəliyə mühüm addım atıldığını əks etdirirdi. 1979-cu ilin dekabrında SSRİ-nin Əfqanıstana qoşun yeritməsi bu sazişin ABŞ tərəfindən ratifikasiya edilməməsinə səbəb oldu.

Müqavilənin şərtlərinə baxmayaraq Karter hökuməti bu dövrdə də sürətlə silahlanma yolunu davam etdirirdi. ABŞ-ın illik hərbi xərclərinin 4,5-5% artmasına dair qərarlar qəbul edilmişdi.

Karter hökuməti hərbi xərcləri 1977-ci ildəki 100,1 milyard dollardan 1980-ci ildə 130 milyard dollara çatdırdı.

Onun xarici siyasəti əvvəlkilərdən çox da fərqlənmirdi. Lakin qeyri ardıcıl idi. Ümumiyyətlə, ABŞ-da prezidentlər dəyişsə də, dövlətin siyasəti heç vaxt dəyişmir. Ceyms Karter 1977-ci ildə ABŞ konqresində belə bir qanunun qəbul edilməsinə nail oldu ki, dünyanın hər hansı bir yerində pozulan insan haqlarını ABŞ müdafiə etməlidir. 1980-ci ildə məşhur «Karter doktrinası» irəli sürüldü. Həmin doktrinaya görə ABŞ-a icazə verilirdi ki, müəyyən ərazilərdə lazım gəldikdə nüvə müharibəsi aparsın. «ABŞ-ın həyat sahəsi» adlanan dünyanın hər yerində ABŞ-ın zonaları meydana gəldi. C. Karterin dövründə neytron bombası və qanadlı raketlər istehsalı gücləndirildi. «MX» raketləri və «Traydent» adlı sualtı qayıqlar meydana gəldi.

ABŞ geniş miqyasda həm Səudiyyə Ərəbistanına, həm də İrana silah göndərirdi. 1978-1979-cu illərdə ABŞ İran körfəzində və Hind okeanında öz hərbi-dəniz bazalarını genişləndirdi.

Xarici və daxili siyasət məsələləri üzrə mübarizə 1980-ci il seçki kampaniyası gedişində daha da kəskinləşmişdi. Seçkiqabağı mübarizənin mərkəzində ölkədə iqtisadi çətinliyin aradan qaldırılması və ölkənin idarə edilməsi məsələsi dururdu.

Demokratlar partiyası 1976-cı ildə Ağ evdə nailiyyət qazanmasına və Konqresdə çoxluq təşkil etməsinə baxmayaraq seçkilərə parçalanmış halda gəldi. Partiyada daxili sosial-iqtisadi çətinliklərin aradan qaldırılmasının yolları kifayət qədər müzakirə edilməmişdi.

ABŞ biznesi müxtəlif iqtisadi vasitələrin (məsələn, yüksək bank faizi, ABŞ-a polad gətirilməsi üçün kvotlar və i. a.) köməyi ilə öz çətinliklərinin yükünü müttəfiqlərin üzərinə qoymağa cəhd edirdi. Bu, artıq AFR-də, Fransada da istehsalın azalmasına təsir etmiş, həmin ölkələrdə işsizliyin kəskin sürətdə artmasına səbəb olmuşdur. Ziddiyyətlər və rəqabət mübarizəsi daha da kəskinləşirdi.

Qərbi Avropa xalqlarını narahat edən problemlərdən biri də Vaşinqton silahlanmaya təxsisatların daim artırılmasını özünün Qərbi avropalı müttəfiqlərindən tələb etməsi (əvvəlcə hər il 3%, indi isə 4,5%), eyni zamanda hərbi infrastrukturun saxlanması ağırlığını onların üzərinə yıxması idi. Vaşinqton NATO-nun coğrafi zonasının genişləndirilməsi, ABŞ-ın hərəkətlərinə xidmət etməli olan qlobal xarakterli hərbi əməliyyatlara müttəfiqlərin cəlb edilməsi məsələsini irəli sürürdü.

ABŞ öz iqtisadi mənafeyini əsas tutaraq, əmələ gəlmiş ənənələri, beynəlxalq əmək bölgüsünü kobudcasına pozmaqla, sosializm ölkələrinə qarşı özünün «qadağanlar» siyasətinə Qərbi Avropa ölkələrini bağlamaq istəyirdi. Birləşmiş Ştatlar energetika layihələrinin həyata keçirilməsinə maneələr yaratmağa xüsusi səylə cəhd edirdi. Qərbi Avropadakı öz rəqiblərini energetika cəhətcə ABŞ-dan açılılıq cilovunda saxlamağa və bununla da onların nəfəsini kəsməyə, rəqabət qabiliyyətini azaltmağa Vaşinqtonun səy göstərməsi aydın görünürdü.

70-ci illərdə Latın Amerikası ölkələri iqtisadi inkişafın müxtəlif səviyyəsində, müxtəlif siyasi rejimlərə malik, məsələn, Kuba sosialist respublikası, Meksika, Kolumbiya, Ekvador burjua-demokratik respublikaları idilər. Bir sıra ölkələrdə – Çilidə, Paraqvayda, Qvatemalada və başqalarında hərbi-faşist diktaturaları hökmranlıq edirdilər. Lakin bütövlükdə bütün Latın Amerikasına (Kubadan başqa)ABŞ-dan uzun sürən iqtisadi asılılıq xas idi. ABŞ-ın şirkətləri hər il iki milyard dollara qədər xalis mənfəət götürürdülər. Onlar lazımi strateji xammalın – uranın, neftin, qalayın, misin, boksitlərin 70 faizini aparırdılar.

Nikaraqua və Qrenada xalqlarının qələbəsindən sonra da Latın Amerikasının digər ölkələrinin hərbi və diktator rejimləri özlərini təhlükəsiz hiss etmirdilər. Onlar ABŞ-ın bəyənməsi ilə öz siyasi əleyhdarlarına qarşı kütləvi cəza tədbirləri təşkil edir, təkcə inqilabi-demokratik hərəkatı deyil, habelə liberal-burjua müxalifətini və hətta «mötədil» siyasi fikri boğmağa çalışırdılar.

ABŞ planetdə, o cümlədən Latın Amerikasında hərbi-diktator rejimlərini açıq-aşkar müdafiə etmək və möhkəmləndirmək xəttini götürmüş, orada öz hərbi qüvvələrini artırırdı. Məsələn, ABŞ-ın

Karib dənizindəki hərbi-dəniz qüvvələrinin komandanı A.Noyzen Puerto-Rikodakı vəziyyəti səciyyələndirərək demişdir ki, Pentaqon «Kubada, Nikaraquada və Qrenadada baş vermiş hadisələrə bənzər dəyişikliklərin adada həyata keçirilməsinə yol verməyəcəkdir».

Amerika Birləşmiş Ştatları hərbi-diktator rejimlərinə səxavətlə maddi yardım göstərirdi. ABŞ-ın 300-dən çox korporasiyası Çili xuntasına kömək göstərirdi. 1976-cı ildjə xuntaya 520 milyon dollar, 1977-ci ildə 858 milyon dollar, 1978-ci ildə 1 milyard dollar borc verilmişdir. Eyni zamanda ABŞ başqa hərbi rejimlərə yardım göstərməkdə davam edirdi. Məsələn, 1976-77-ci maliyyə ilində bütün «yardımın» 68 faizi Argentinanın, Braziliyanın və Çilinin payına düşmüşdür. 1979-cu ildə Latın Amerikası ölkələrinə hərbi «yardım» üçün 32,1 milyon dollar, 1980-ci ildə 38,7 milyon dollar ayrılmışdır.

Nikaraqua xalqının qələbəsindən sonra ABŞ prezidenti Mərkəzi Amerika ölkələrinə «yardımı» artırmağa çağırmışdır ki, «sosial irəliləyişlərə müqavimət göstərməyə», o cümlədən Nikaraquada bu cür irəliləyişlərə müqavimət göstərməyə qabil olanların «mövqeyi möhkəmləndirilsin». ABŞ dövlət katibinin Amerika işləri üzrə köməkçisi açıq sürətdə etiraf edərək demişdir ki, «bu hökumətlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə yardım… bizim saysız-hesabsız və müxtəlif mənafelərimizin möhkəmləndirilməsi üçün vasitədir».

Latın Amerikası dövlətlərinə silah göndərilməsi 1977-1979-cu illərdə nəinki azlamamış, hətta artmışdır. 1958-1976-cı illərdə ABŞ onlara 1,1 milyard dollarlıq, 1977-ci ildə 106,8 milyon dollarlıq, 1978-ci ildə 127 milyon dollarlıq silah satmışdır. 1977-1978-ci illərdə Çili xuntasına 114 milyon dollarlıq silah satılmışdır. Kapital qoyuluşu, sədəqələr, borclar, yardım və əsarət altına almanın başqa formaları son 10 il ərzində Latın Amerikası dövlətlərinin xarici borcunu 10 dəfədən çox artırmışdır. 80-ci illərdə bu borc 12 milyard dollardan artıq idi.

Karib hövzəsi və Mərkəzi Amerika ölkələrində imperializmə qarşı hərəkatın güclənməsinə cavab olaraq Vaşinqton bu regionda öz hərbi qüvvələrini gücləndirdi.

Amerika siyasəti Latın Amerikası ölkələrinin daxili işlərinə müdaxiləni də istisna etmirdi. Salvadorda baş vermiş hadisələr bunun timsalı idi. Salvador irticasını xilas etməyə çalışan ABŞ xuntaya hərbi yardımı xeyli artırmışdır. Salvadordakı «yaşıl beretlilər» məktəbində Pentaqondan gəlmiş təlimatçılar xalq çıxışlarını yatırmaq sahəsində «öz təcrübəsini» öyrədirdilər. Karib hövzəsi bazalarının qoşunları döyüşə hazır vəziyyətə gətirilmişdir. «İkinci Nikaraquyaya» yol verməmək üçün Vaşinqton hər cür əl atmağa hazır idi. ABŞ Salvador xuntasına Amerika döyüş təyyarələri və vertolyotları ilə təchiz olunmuş «çevik zərbə bölmələrinin» təşkilində fəal yardım göstərirdi. Savadorda qanlı xuntaya hərbi yardımı genişləndirən Vaşinqton bu ölkəyə təyinatlı qoşunların çoxlu hərbi qulluqçusunu da göndərmişdi. Onların hamısı Amerika müşavirlərinin başçılığı altında Salvadorun milli vətənərvər qüvvələrinə qarşı cəza tədbirləri həyata keçirirdi.

Lakin ABŞ-ın bütün cəhdlərinə baxmayaraq, Salvadorun xalq kütlələri əsl suverenlik uğrunda vuruşurdular.

Birləşmiş Ştatlar öz hərəkətlərini «pozucu kommunist fəaliyyətinə qarşı mübarizədə» «kollektiv tədbirlər» kimi qələmə verməyə çalışırdı1979-cu ilin noyabrında Boqotada Latın Amerikası ölkələrinin silahlı qüvvələri komandanlarının müşavirəsində «pozucu kommunist fəaliyyətinə qarşı» birgə mübarizə planı müzakirə edildi. Planın bəndlərindən birində deyilirdi ki, ölkədə hər dəfə siyasi boşluq deyilən vəziyyət yarandığı vaxt hərbi qulluqçular hakimiyyəti öz əllərinə almalıdırlar. Nümayəndələrin əksəriyyəti belə bir bəyanata tərəfdar çıxmışdı ki, silahlı qüvvələrin başlıca vəzifəsi zəhmətkeşləri aldadan və partizanları ruhlandıran kommunizmi ləğv etməkdən ibarətdir.

Birləşmiş Ştatlar «kontinentalı pozuculuq fəaliyyətini» boğmaq, «daxili düşmənlə» mübarizə aparmaq məqsədilə onlara «kommunizmdən kontinental müdafiə» doktrinasını, ABŞ ilə əməkdaşlığı zorla qəbul etdirmişdir.

Özünü «insan hüquqlarının» müdafiəçisi kimi göstərməyə çalışan Vaşinqtonun bunlara münasibəti 1979-cu ilin mayında ABŞ-ın dövlət departamenti tərəfindən bildirilmişdi ki, milli təhlükəsizliklə bağlı olan ciddi mülahizələr insan hüquqlarına kobud

sürətdə məhəl qoymayan ölkələrə hərbi yardım göstərilməsini doğruldur. Bu, ABŞ-a dost olan, insan hüquqları sahəsində pis ad çıxaran hökumətlərə iqtisadi yardım göstərilməsinə də aid idi. Xülasə, «Birləşmiş Ştatların ali mənafeyi» guya onu irticaçı rejimlərə də yardım göstərməyə məcbur edir.

Respublikaçılar öz qurultaylarında R.Reyqanı prezidentliyə namizəd irəli sürdülər. Demokratlar isə C. Karteri əsas namizəd kimi saxladılar. Seçkilərdə qələbəni R. Reyqan qazandı.

**Ronald Reyqanın prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti**

Reyqan hökumətinin xarici siyasəti ideya-nəzəri əsas neoqlobalizm təşkil edən yeni mühafizəkarlığa əsaslanırdı Neoqlobalizm ABŞ xarici siyasətinin qlobal problemlərini regional səviyyədə həll etməyi nəzərdə tuturdu. Belə yanaşma bir neçə fundamental prinsiplərə əsaslanırdı. Bu prinsiplərin içərisində - sürətlə silahlanma, SSRİ və digər sosialist ölkələrini iqtisadi cəhətdən xeyli geridə qoymaq və üçüncü dünya ölkələrində vəziyyəti doğru qiymətləndirmək əsas yer tuturdu.

Reyqan hökumətinin xarici siyasətində SSRİ ilə münasibətlərə xüsusi diqqət yetirilirdi. Onun hakimiyyəti illərində SSRİ-ABŞ münasibətləri inkişaf baxımından üç dövrdən keçdi. Birinci dövr 1981-84-ci illəri, ikinci dövr 1985-86-cı illəri əhatə edirdi.

İki ölkə arasında münasibətlərin inkişafının üçüncü dövrü 1987-ci ilin mart ayından başlayır.

1985-ci ilə qədər o, SSRİ-ni «Şər imperiyası» elan edərək onu iqtisadi cəhətdən zəiflətməyi ABŞ-ın əsas məqsədi olduğunu bildirirdi. 1985-ci ildə SSRİ-də hakimiyyətə Mixail Sergeyeviç Qorbaçov gəldikdən sonra ABŞ-la SSRİ arasındakı münasibətlərdə mülayimləşmə baş verdi. Reyqan sosializmi «zibilliyə» atmaq planını həyaia keçirməyə başladı. Qorbaçovla Reyqan 1985-ci ildə Çenevrədə, 1986-cı ilin oktyabrında isə İslandiyanın paytaxtı Reykyavikdə görüşdülər.1987-ci ilin dekabrın 7-8-də M. S. Qorbaçov Vaşinqotonda oldu. Vaşinqtonda «Qısa mənzilli raketlərin məhv edilməsi haqqında» iki dövlət arasında saziş bağlandı. Bu tarixdə nüvə silahlarının ləğv edilməsini nəzərdə tutan ilk saziş idi. Reyqan bu sazişi bağlayarkən etdiyi çıxışlarında göstərdi ki, biz SSRİ ilə saziş bağlayarkən rusların çox sevdiyi bir atalar sözünü

işlətmək istəyirəm: «İnan, lakin yoxla». 1988-ci ilin mayında Reyqan Moskvaya gəldi. Danışıqlar mehribanlıq şəraitində keçdi. Reyqan Moskvadan qayıdarkən bildirdi ki, onun sosializm cəmiyyəti haqqında təsəvvürlərində yanlışlıqlar var və sosializmdən də çox şey öyrənmək olar.

ABŞ hökuməti 1983-cü ilin fevral ayında «Demokratiya və kütləvi diplomatiya proqramı» qəbul etdi. Bu proqramda sosialist ölkələrinə qarşı fəaliyyətin istiqamətləri və metodları müəyyən edildi. 1983-cü ilin mart ayında 75 saylı prezident direktivi qəbul edildi. Direktivdə «Amerikanın səsi», «Azadlıq» və «Azad Avropa» radio stansiyalarının sosialist ölkələrinə qarşı pozucu verilişlərinin həcmini artırmaq nəzərdə tutulurdu.

Reyqan hökumətinin xarici siyasətində Latın Amerika ölkələri əsaslı yer tuturdu. Birləşmiş Ştatların bu regionda xarici siyasət strategiyasını iqtisadi, siyasi və hərbi strateji maraqları müəyyənləşdirirdi. Reyqan hakimiyyətə gələn kimi bu ölkələrə münasibətdə yeni bir tezis irəli sürdü. Bu tezis «beynəlxalq terrorizmə qarşı mübarizə» adlandırıldı. Belə bir tezis inkişaf etməkdə olan ölkələrdə terrorizmə, anarxiyaya və arzuolunmaz hərəkətlərə qarşı mübarizəni nəzərdə tuturdu. Reyqan hökuməti 1982-ci ildə «Karib təşəbbüsü» deyilən təşəbbüslə çıxış etdi. Bu təşəbbüs quraqlıqdan zərər çəkən region ölkələrinə yardım etməyi nəzərdə tuturdu. Reyqan hökuməti regional münaqişələrin nizama salınması konsepsiyasını irəli sürdü. Kuba inqilabçılarının Qrenada adasında hərbi baza tikməsi ABŞ-ın mənafelərinə toxunduğundan 1983-cü il oktyabrın 25-də adaya hərbi müdaxilə təşkil olundu.

Reyqan hökuməti Latın Amerikası ölkələrinə münasibətdə panamerikan həmrəyliyi prinsipini irəli sürdü. Birləşmiş Ştatlar Latın Amerikası ölkələrinə geniş yardımlar planını həyata keçirdi. 1981-ci ilin yanvar ayından 1985-ci ilin iyununa qədər ABŞ Salvadora 2 milyard dollar, 1981-88-ci illərdə isə Nikaraquadakı antisovet qüvvələrə 300 milyon dollar yardım etdi.

Reyqan hökuməti xarici siyasətində Asiya və Sakit /okean regionuna da xüsusi diqqət yetirirdi. 1986-cı ilin sonunda ABŞ bu regiona 35,7 milyard dollar sərmayə qoydu. Bu məbləğ ABŞ-ın xarici ölkələrə bütün kapital qoyuluşunun 14%-ni təşkil edirdi.

Birləşmiş Ştatlar Yaponiyaya investisiya qoyuluşunu artırdı. 1986-cı ildə ABŞ Yaponiya iqtisadiyyatına 11,3 milyard dollar sərmayə qoydu. ABŞ-ın Yaponiyaya əmtəə ixracı 1986-cı ildə 26,9 milyard dollar təşkil edirdi. Reyqan hökuməti Çinlə münasibətlərin normallaşdırması sahəsində addımlar atdı. 1987-ci ildə iki ölkə arasında ticarət 25% artaraq 10,4 milyard dollara çatdı.

ABŞ Liviyanı terrorizmi himayə etməkdə təqsirləndirirdi. 1980-ci ilin aprel ayında Liviya lideri M.Kəddafi siyasi mühacirlərin vətənə qayıtmalarını tələb etdi. Bir il ərzində «Qərbi Avropada və Yaxın Şərqdə 20 liviyalı dissident öldürüldü». 1981-ci ilin may ayında Reyqan Vaşinqtondakı Liviya səfirliyinin bağlanmasını tələb etdi. Belə olduqda Kəddafi ABŞ prezidentinin öldürülməsinə hazırlaşmağa dair əmr verdi.

Eyni zamanda Kəddafi bildirdi ki, Liviyanın ərazi suları amerikanlar üçün «ölüm xətti» olacaqdır. ABŞ-ın 6-cı donanması 1981-ci ilin avqust ayında «ölüm xəttini» keçdi. Prezident Liviyaya qarşı hərbi əməliyyat planını bəyəndi. Bu zaman liviyalılar Qərbi Avropada bir neçə terror aktı törətdilər. Bundan sonra «Kanon Eldorado» adı altında Tripoliyə havadan zərbələr endirildi. Böyük Britaniyadakı amerikan hərbi bazalarından qalxan bombardmançı təyyarələr 1986-cı il aprelin 15-də Kəddafinin komanda məntəqələrini bombardman etdi. Kəddafinin iki oğlu ağır yaralandı, qızı isə həlak oldu. Liviya rəhbəri sağ qaldı.

ABŞ-ın xarici siyasətində İraqa qarşı hərbi əməliyyatlar mühüm yer tutdu. 1990-cı il iyulun 18-də prezident Səddam Hüseyn Küveyti sərhədyanı yataqlardan İraq neftini mənimsəməkdə ittiham edərək 2,5 mlrd. dollar kompensasiya ödəməsini tələb etdi. Küveyt əmiri bu tələblərdən və danışıqlar stolu arxasında oturmaqdan imtina etdi. Avqustun 2-də S.Hüseyn Küveytdə inqilabın baş verdiyini və «azad müvəqqəti hökumətin» qurulduğunu bildirdi. İraq Küveyti işğal etdi. Əslində Küveytdə heç bir inqilab olmamışdı.

Reyqanın xarici siyasəti C. Karterin siyasətinin, demək olar ki, davamı idi. Reyqan da C. Karter kimi NATO-nun hərbi xərclərinin 3% artırılması və Qərbi Avropada orta mənzilli raketlərin yerləşdirilməsi işini bəyəndi və davam etdirdi. 1983-cü ildə ABŞ

Qərbi Avropanın beş ölkəsində 600-ə yaxın orta mənzilli raketlərini yerləşdirməyə başladı. O da Əfqanıstan məsələsi ilə əlaqədar SSRİ ilə münasibətləri gərgin şəkildə saxladı. ABŞ Latın Amerikası ölkələrinə qarşı yenidən «Böyük dəyənək» siyasətinə qayıtdı. Reyqan hökuməti Latın Amerikası ölkələrinə münasibətdə panamerikan həmrəyliyi prinsipini irəli sürdü. Karib höfzəsində öz mövqelərini möhkəmləndirdi, Nikaraquaya qarşı elan edilməmiş müharibə apardı, Salvadorun mühafizəkar dairələrinə hər cür kömək göstərdi. 1982-ci ildə Malvin (Folklend)adaları üstündə İngiltərənin Argentina ilə müharibəsində İngiltərəni müdafiə etdi. İsrail-Ərəb münaqişələrində İsrailin dayağına çevrildi. 1982-ci ildə Yaxın Şərqin əzab çəkmiş xalqları üçün «Amerika sülh təşəbbüsləri»nin irəli sürdü. ABŞ hökuməti ABŞ-ın bütün pozuculuq təbliğatı sisteminin gücləndirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirdi. Başlıca planlaşdırıcı və əlaqələndirici mərkəz yenidən bərpa edilmiş ABŞ İnformasiya Agentliyi idi. (YUSİA) .

O, ABŞ Milli Təhlükəsizlik Şuürasının orqanı hüquqlarına malik olmaqla fəaliyyət göstərirdi.(Agentliyin ştatı hazırda təqribən 8 min nəfərdir, illik büdcəsi 640 milyon dollar idi). YUSİA dövlət departamenti, Pentaqon, MKİ və Birləşmiş Ştatların digər hökumət idarələri ilə sıx əlaqədə işləyir.

80-ci illərdə «Amerikanın səsi», «Azadlıq» və «Azad Avropa» kimi xidmət orqanları geniş şəkildə yenidən quruldu. Bu radiostansiyalarla əməkdaşlığa keçmiş nasistlər, cinayətkarlar, hər cür mmühacirlər, həmçinin Amerika kəşfiyyat xidməti idarələrinin əməkdaşları cəlb edildi.

Reyqan hökuməti xarici siyasətində Asiya və Sakit okean regionuna xüsusi diqqət yetirirdi. 1986-cı ilin sonunda ABŞ bu regiona 35,7 milyard dollar sərmayə ayırdı.

80-ci illərdə ABŞ-ın dünya ölkələri barəsində siyasəti iki prinsipin müəyyən ahəngi üzərində qurulmuşdu: dünyada baş verən dəyişikliklərə qüvvə ilə müqavimət göstərilməsi və həmin dəyişikliklərə uyğunlaşma. Bir çox amillərin təsirindən asılı olaraq bu prinsiplərin konkret tətbiq nisbəti dəyişirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, ABŞ-ın hərbiçilik tendensiyaları yenidən baş qaldırmış hakim dairələri Sovet-Amerika münasibətlərinin pozitiv inkişafını pozdular və əslində, əldə edilmiş razılaşmalardan imtina yolu tutdular. Onlar mövcud hərbi-strateji tarazlığı pozmaq və SSRİ üzərində hərbi üstünlüyə nail olmaq qərarına gəldilər.70-80-ci illərin hüdudunda, xüsusilə respublikaçılar hökuməti hakimiyyət başına gələndən sonra, ABŞ-ın SSRİ-yə qarşı siyasəti çox kəskinləşdi. ABŞ-ın hökuməti və hərbi –sənaye inhisarları miqyasına görə misli görünməmiş yeni sürətlə silahlanma yoluna qədəm qoydular.

1983-cü ilin mart ayında Ronald Reyqan kosmik baza elementləri olan raketə qarşı geniş miqyaslı müdafiə sistemi yaradılmasına dair uzun müddətli proqram elan etdi. Həmin proqramın rəsmi adı «Strateji müdafiə təşəbbüsü" idi (SMT). Onun vəzifəsi SSRİ-yə qarşı nüvə silahını birinci tətbiq edə bilməkdən və Amerika ərazisinə cavab zərbəsinin nəticələrini zəiflətməkdən ötrü kosmik zərbə etalonu yaratmaqla ABŞ ərazisi üzərində raket «əleyhinə» sədd qurmaq idi. Bu proqram üzrə tədqiqatlara, elmi işlərə və sınaqlar keçirilməsinə milyardlarla dollar vəsait ayrılmışdı. "Strateji müdafiə təşəbbüsü"nün məqsədi kosmos vasitəsilə SSRİ üzərində hərbi üstünlüyə nail olmaq və ABŞ-ın dünyada hakim mövqe tutmasını təmin etmək idi. ABŞ-ın qüvvəyə arxalanan bu ümidləri perspektivsiz olsa da, lakin sürətlə silahlanmanın kosmosa keçirilməsi planları ümumi sülh işinə ciddi təhlükə törədirdi.

«Uotergeyt» və «İrangeyt» qalmaqalları 80-ci illərdə amerikalıların icra hakimiyyətinə inamını xeyli zəiflətdi.

80-ci illərin ortalarında «İran kontras» adlanan məsələ geniş əks-səda doğurdu.Onun mahiyyəti belə idi ki, İrana silah satılmasında əldə edildən vəsaitin bir hissəsini konqresin icazəsi olmadan Ağ ev gizli sürətdə hərbi kömək şəklində inqilabi hökumət tərəfdarlarına qarşı vətəndaş müharibəsi aparan Nikaraqua «kontras» rəhbərlərinə göndərmişdi.

Şimali Atlantika blokunda Qərbin əsas kapitalist dövlətləri arasındakı münasibətlərdə birliyi zəiflədən amilləri aradan qaldırmaq üçün imperialist dövlətlərinin rəhbərləri cürbəcür tədbirlərə və

üsullara («yeddilərin» yüksək səviyyədə görüşləri, «uçtərəfli komissiya» və s. )əl atır, lakin bu istənilən nəticəni demək olar ki, vermirdi. Atlantika blokundakı partnyorlar arasında xarici siyasət məsələlərində, o cümlədən (bu, Amerika liderlərinin hədsiz dərəcədə dilxor edirdi) sosializm ölkələri ilə münasibətlər sahəsində olan fikir ayrılığı onları xüsusilə narahat edirdi. İngiltərə Kral Beynəlxalq Münasibətlər İnstntutunun Böyük Britaniya, ABŞ, AFR və Fransanın beynəlxalq məsələlər üzrə görkəmli alimləri tərəfindən hazırlanmış məruzəsində deyilirdi ki: «Şərq ilə Qərb arasında ticarət məsələləri, kredit siyasəti, texnologiyanın verilməsi və iqtisadi baykotlarda iştirak Birləşmiş Ştatlarla Qərbi Avropa arasında daha çox fikir ayrılığı doğurur».

Amerikanın müharibədən sonrakı ilk iollərdə müşahidə olunan hakim mövqeyini 80-ci illərdə elə bir vəziyyət əvəz etmişdir ki, bu şəraitdə Avropa birliyi ABŞ-dan heç də az varlı deyildi, dünya bazarında isə bəzən rəqabətdə ondan daha çox davamlı idi. Nəticədə ABŞ-ın Avropa siyasətinə təsir göstərib onun ABŞ-ın mənafeyinə uyğun gəlməsinə nail olmaq imkanı xeyli azalmışdı. Keçmiş Amerika diplomatı, məşhur alim C. Helbreyt də buna bənzər fikir söyləyərək yazırdı ki, indi ABŞ, istər Sovet İttifaqı ilə ticarət, istərsə də orta mənzilli Amerika raketləri olsun, - bütün məsələlər üzrə öz partnoyurları ilə diskussiya aparmalı olur, halbuki əvvəllər onun yalnız eyham vurması kifayət idi.

ABŞ-ın hegemonçu xarici siyasət xəttrinin variantı 80-ci illərdə bir sıra xüsusiyyətləri ilə fərqlənirdi. Beynəlxalq meydanda yaranan vəziyyətin spesifikası bu xüsusiyyətlərdə heç şübhəsiz, öz əksini tapırdı. Hərbi hazırlıq sahəsində kəskin sıçrayış həyata keçirmək, dünyanın hər hansı hissəsində və isrtənilən vasitələrlə, o cümlədən silahlı qüvvənin köməyi ilə "ABŞ-ın həyati mənafeyinin qorunması" planlarını yerinə yetirməyə imkan verən hərbi potensial yaratmaq məqsədi, şəksiz ki, bu xüsusiyyətlərin ən başlıcası hesab edilməli idi. Bu məqsədlə ABŞ-da bütün iqitsadi, siyasi və ideoloji ehtiyatlar səfərbərliyə alınır, həmin planların yerinə yetirlməsinə bütün kapitalist dünyasını cəlb etmək üçün böyük səy göstərilirdi.

Raket-nüvə silahı sahəsində sürətlə silahlanmanı dayandırmaq məsələləri barəsində ikitərəfli və çoxtərəfli danışıqlar yolunda Birləşmiş Ştatların yaratdığı əngəllərin və maneələrin, ən əvvəl – strateji nüvə silahlarının məhdudlaşdırılması prosesini Amerika hakimyiyət orqanlarının qəsdən dayandırmasının, raketdənmüdafiə sistemlərini məhdudlaşdırmaq haqqında 1972-ci il Sovet-amerika müqaviləsini və bu müqaviləyə əlavə olan 1974-cü il protokulunu qüvvədən salmaq cəhdlərinin başlıca səbəbini məhz bütün bu planları tələsik həyata keçirməyə səy göstərilməsində axtarmaq lazım idi.

80-ci illərdə ABŞ-da hərbi-dəniz qüvvələrinin artırılmasına xüsusi diqqət yetirilirdi. Amerika siyasətçiləri və hərbi rəhbərləri daim təkrar edirdilər ki, dənizdə "hökmranlıq" ABŞ-ın təhlükəsizliyinin zəruri şərti olmalıdır, onlar sovet hərbi-dəniz gəmilərinin cəmləşdiyi su hövzələrində təlimlər keçirmək, məsələn Kola yarımadası kimi dayaq məntəqələrində Sovet İttifaqı üçün təhlükə yaratmaq vəzifəsini elan edirdilər. ABŞ-ın hərbi-dəniz qüvvələri naziri C.Leman buna uyğun ideyaları yeridərək, Amerika donanması fəaliyyət zonasının genişləndirilməsini və qanadlı raketlərlə təchiz olunan zərbə birləşmələri yaradılmasını nəzərdə tutan yeni hərbi-dəniz strategiyasının zəyata keçirilməsi üçün konqresdən təxsisat almağa çalışırdı və buna nail oldu.

İnkişaf etməkdə olan ölkələrə amerika silahının satılması ABŞ-ın hakim dairələrinin həm bütövlükdə sürətlə silahlanmanı gücləndirmək, həm də bu təhlükəli prosesin əhatə etdiyi zonanı genişləndirmək üçün tətbiq etdiyi vasitələrdən biri idi. Amerika hökuməti məhz o dövlətlərə silah satırdı (çox vaxt da zorla qəbul etdirirdi) ki, öz hegemonluluq planlarının həyata keçirilməsində onların köməyinə ümid bəsləyir. Yaxın və Orta Şərq rayonunda bu, ən əvvəl İsrail, Pakistan və Səudiyyə Ərəbistanı, Afrikada CAR, Uzaq Şərqdə Yaponiya və Cənubi Koreya, Latın Amerikasının xalqa zidd diktator rejimləri idi.

Sürətlə silahlanmanı gücləndirən Birləşmiş Ştatlar öz hərbi qüvvəsini bütün dünyaya və ən əvvəl "ABŞ-ın mənafeyi üçün son dərəcə vacib olan yeni rayonlara" əvvəllər edildiyindən daha çox

“səpələmək imkanı əldə etməyə çalışırdı. Bu ilk növbədə Yaxın və Orta Şərqə və ona yaxın olan regionlara aid idi.

İran körfəzi rayonu Pentaqonun yeni jandarm korpusunun – “çevik əməliyyat qüvvələrinin” mümkün ola biləcək əməliyyat meydanı sayılırdı. Əvvəlcə bu qüvvələrin 100 min nəfərlik olması nəzərdə tutulurdusa, sonra onların sayı 200 min nəfərə bərabər idi. Yaxınlıqda yerləşən dövlətlərdə qızğın surətdə yeni bazalar axtarılır və köhnə bazalar genişləndirilirdi. Vaşinqton Əfqanıstana da silah verilməsini genişləndirmək niyyətində oldğunu bildirirdi, Sina yarımadasında bədnam çoxmillətli qüvvələrdə ABŞ-ın iştirak etməsini nəzərdə tutan planlar hazırlayır, İsrailə silah verilməsini gücləndirirdi.

80-ci illərdə Amerika hərbçilərinin fəallığının artdığı digər rayon Mərkəzi Amerika idi; Vaşinqton onu bütün Latın Amerikası qitəsi üzərində özünün tam ağalığını bərpa etmək üçün dayaq məntəqəsinə çevirmək istəryidi.

ABŞ-ın hegemonçuluq ididaları daha uzaqlara gedib çıxırdı. Amerika mətbuatında müxtəlif siyasi xadimlərin və işgüzar dairələrin nüfuzlu nümayəndələrinin Afrikanın cənubundakı strateji cəhətdən mühüm və üstəlik “faydalı qazıntılarla ən zəngin” olan rayonlar üzərində ABŞ-ın nəzarətini yaratmağın “heyranedici” perspektivi haqqında, Cənub-Şərqi Asiya və Sakit okean hövzəsi üçün “hər şeyi əhatə edən strategiya” işləyib hazıralmaq lüzumu və s. haqqında mühakimələri getdikcə daha tez-tez eşidilirdi.

Amerika qüvvələrinin ABŞ hüdudlarından uzaqlara “səpələnməsinə” haqq qazandırmaq üçün okeanın o tayında cürbəcür bəhanələr irəli sürülürdü. Məsələn, İran körfəzində bu bəhanə İran və Əfqanıstan hadisələri üzündən güya neft mədənlərinin və Qərbin enerji təchizatı yollarının başı üstünü almış təhlükədən - “sovet təhlükəsindən” onları qorumaqla pərdələnirdi. Mərkəzi Amerikada bu bəhanə çürümüş diktator rejimlərinə qarşı əvvəl Nikaraqua, indi isə Salvador xalqlarının mübarizəsidir, Kubanın güya qitədə sabitliyi pozan siyasəti idi və i. a. Lakin tamamilə aydındır ki, Amerika imperializminin hərəkətləri öz müstəmləkə imperiyasını yaratmaq, Yer kürəsinin müxtəlif qitələrində geniş əraziləri, ən mühüm xammal və enerji mənbələrini, onların

daşınması yollarını öz nəzarəti altına almaq üçün göstərilən cəhddən başqa bir şey deyildi. Eyni zamanda ABŞ ümid edirdi ki, bu şəraitdə, o öz iradəsini digər dövlətlərə, o cümlədən bloklar üzrə partnyorlarına asanlıqla qəbul etdirəcək, kapitalizm dünyasında hakim mövqelərini saxlaya biləcəkdir.

Eyni zamanda İran körfəzində, Hind okeanında və Sakit okeanda ABŞ-ın genişlənməkdə olan hərbi bazalar silsiləsi milli azadlıq hərəkatı üzərinə əks-hücum üçün bir növ dayaq nöqtəsi kimi, bu hərəkatın yayılması qarşısını alan maneə kimi, müstəqil milli siyasət yeritməyə çalışan inkiaşf etməkdə olan öklələr barəsində qüvvənin köməyi ilə təzyiq və hədə-qorxu vasitəsi kimi düşünülmüşdü.

Doğrudan da, vaxtı ilə, Yaxın Şərq üçün “Eyzenhayer doktrinası” meydana gələndə də ABŞ-ın silahlı müdaxiləyə, lakin ərəb dövlətlərinin dəvəti ilə müdaxiləyə hazır olmasından söhbət gedirdi. Lakin 20 il sonra Karter hökuməti neft mənbələrini və neftin daşındığı yolları bütün hərbi vasitələrlə, o cümlədən “çevik əməliyyat qüvvələri” vasitəsilə “qorumaq” niyyətində olduğunu bildirərkən özünün son dərəcə təhlükəli planlarını Yaxın Şərq ölkələrindən hər hansı birinin bunu xahiş edib-etməyəcəyi ilə bağlamırdı.

Vaşinqtonun yeni doktrinasının təcavüzkar istiqamətinin belə açıq-aşkar xarakteri R. Reyqan hökuməti dövründə daha da möhkəmləndi; bu hökumətin nümayəndələri izah edib deyirdilər: İran körfəzində Amerika qoşunlarına ona görə ehtiyac vardı ki, “Bizim hansı mövqe tutduğumuz və həmin mövqeni qüvvənin köməyi ilə müdafiə etməyə hazır olduğumuz bu rayonda hamıya aydın olsun”.

ABŞ başqa xalqlar üzərində amirlik yaratmaq üçün hərbi qüvvə saxlamaqdan əvvəllər də istifadə edirdi. On illər boyu o, Qərbi Avropanın bir sıra ölkələrində, Yer kürəsinin digər rayonlarında: Yaponiyada, Filippində, Cənubi Koreyada, Avstraliyada öz hərbi qarnizonlarını və bazalarını saxlayır; Amerikanın hərbi-dəniz qüvvələri Aralıq dənizində, Atlantik, Sakit və Hind okeanlarında fəaliyyət göstərirdi. Lakin indi ABŞ öz hərbi qüvvələrinin müxtəlif regionlarda yerləşdirilməsini hər vasitə ilə genişləndir-

mək, onun həqiqətən qlobal miqyas almasına nail olmaq məqsədini qarşısına qoymuşdur ki, bu da bütün qitələrin xalqları üçün çağırılmamış müdaxilə təhlükəsini xeyli artırırdı.

Eyni zamanda Vaşinqtonun belə münasibəti, heç şübhəsiz, Birləşmiş Ştatların öz xarici siyasət vəzifələrinin yerinə yetirilməsi taktikasında 80-ci illərin əvvəllərində müəyyən dəyişikliklər baş verdiyinə dəlalət edirdi. Hər şeydən əvvəl göründüyü kimi, ABŞ vaxtı ilə təcavüzkar siyasəti həyata keçirmək üçün istifadə etməyə çalışdığı əlaltılarına və oyuncaq hökumətlərinə daha əvvəlki qədər ümid bəsləmir. Əlbəttə, ABŞ mürtəce diktator rejimlərindən öz məqsədləri üçün istifadə etməkdən əl çəkmir, onlara hər vasitə ilə maddi və hərbi yardım göstərməyi davam etdirirdi. Lakin hər halda ABŞ İran hadisələrindən, heç şübhəsiz, müəyyən ibarət dərsi götürmüşdür və bu hadisələr ABŞ-ın hakimiyyət başına gətirdiyi və zorla saxladığı əlaltılara arxalanmağın etibarsız olduğunu göstərmişdi.

XX əsrin 80-ci illərində ərazisində ABŞ-ın öz hərbi dayaq bazalarını yaratmaq istədiyi bəzi dövlətlər buna Vaşinqtonda gözlənildiyi qədər həvəs göstərmirdilər. ABŞ-ın yeni siyasətini yalnız İsrail tam müdafiə edir, ərəb ölkələri isə “Moskvanın onlar üçün təhlükə yaratması fikrini qəbul etmək istəmir və Amerika qoşunlarını öz ərazilərinə buraxmaq əleyhinə idilər”. Ərəblər üçün başlıca məsələ ərəb-israil münaqişəsinin həll olunması idi. İran körfəzinin bir çox sahilboyu dövlətlərində ehtiyat edirdilər ki, bu dövlətlərin birində üsyan baş versə, “çevik əməliyyat qüvvələrin”ndən neft mədənlərinin ələ keçirilməsi üçün istifadə oluna bilərdi. Hətta inkişaf etməkdə olan ölkələrin Vaşinqtonla sıx əlaqə saxlayan bir çox liderləri də ABŞ-ın iqtisadi və hərbi yardımını alqışlamaqla bərabər eyhamla bildirirdilər ki, “hər hansı hərbi əməkdaşlığa” cəlb olunmaq istəmirlər. Belə bəyanatlar ictimai rəyi olsa-olsa yalnız sözdə nəzərə almaq deməkdir, lakin ABŞ ilə əməkdaşlığın xarakterinin pərdələməyə ehtiyac duyulmasının özü, inkişaf etməkdə olan ölkələrdə xalq kütlələrinin dərin antiamerika və antiimperialist əhvali-ruhiyyəsində olmasını göstərirdi.

Bu dövrdə partnyorlarına təzyiq göstərərkən Vaşinqton siyasətçiləri getdikcə daha tez-tez ultimatum tonuna əl atırdılar.

“Reyqan hökuməti öz müttəfiqləri ilə münasibətlərdə dostlarından daha çox əlaltı ölkələr üçün yarayan bir avazla danışırdı”. Amerikanın siyasi xadimləri Qərbi Avropadakı “pasifist” əhvali-ruhiyyəni damğalayır və NATO-nun Avropadakı birləşmiş silahlı qüvvələrinin baş komandanı Rocersin etdiyi kimi, tələb edirlər ki, “bizim çox böhranlı bir dövr keçirdiyimizə müttəfiq ölkələrin xalqlarını inandırsınlar” Rocersin fikrincə, onlar başa düşməlidirlər ki, “səylərimiz səmərəli olmaq üçün külli miqdarda vəsait tələb edir, əks təqdirdə bu vəsait digər milli tələbata, məsələn, sosial ehtiyaclara sərf edilə bilər”. ABŞ-ın keçmiş hərbi-dəniz qüvvələri naziri, prezident Reyqanın hərbi məsələlər üzrə müşaviri adlandırılan U.Middendorf isə nəsihətverici bir formada ABŞ-ın partnyorlarına dərs öyrədirdi ki: “Daxili sabitliyi qoruyub saxlamaq üçün sosial ehtiyaclara böyük xərclər çəkildiyini əsas gətirmək heç də təzə fikir deyildir. Müdafiə xərclərini artırmaqdan boyun qaçırmaq istəyənlərin hamısı buna isnad edir. . . sosial təhlükəsizliyin ən yüksək forması hərbi qüvvədir. . . ”.

NATO şurasının 1981-ci ilin mayında keçirilmiş Roma sessiyası bir daha göstərmişdi ki, Vaşinqton Qərbi Avropa ərazisində Amerikanın yeni raket-nüvə silahının yerləşdirilməsini “Atlantika həmrəyliyini” möhkəmləndirmək və müttəfiqlərin ABŞ-a danışıqsız tabe olmasını təmin etmək üçün ən səmərəli metodlardan biri hesab edir. Okeanın o tayındakı strateqlərin fikrincə, bu addım onların partnoyrlarının Amerika “müdafiəsindən ”asılılığını xeyli artıracaq və deməli, onları öz siyasi xəttini ABŞ-ın niyyətlərinə və tələbatına uyğunlaşdırmağa məcbur edəcəkdi. Elə həmin məqsədlə ABŞ Atlantika zonası deyilən zonadan kənarda törətdiyi hərbi avantüralara öz müttəfiqlərini mümkün qədər daha yaxından cəlb etməyə çalışırdı. Vaşinqton onları İran körfəzi rayonunda “çevik əməliyyat qüvvələri” yaradılmasında iştirak etməyə inadla təhrik edirdi. Qərb yarımkürəsində ABŞ Latın Amerikası ölkələrini Salvador hadisələrinə, sonra isə, lazım gəlsə, həmçinin Qvatemalada və bütün Mərkəzi Amerikada hadisələrə şərti yolla qarışmağa məcbur etməyə cəhd göstərirdi.

Okeanın o tayında bloklar sistemini yenidən qurmaq və onu fəaliyyət göstərən blokların əməliyyat dairəsindən xeyli uzaqlara

da şamil etmək sahəsində cürbəcür sxemlərin və planların gərgin şəkildə işlənib hazırlanması ara vermirdi. Bununla əlaqədar olaraq Vaşinqtonda müzakirə edilən bütün layihələri sadalamaq belə çətin idi. Bu layihələrdə ABŞ-dan, Avstraliyadan, Yeni Zellandiyadan ibarət olan və Yaponiya da daxil edilən ANZYUS hərbi blokunun fəallaşdırılması da; dağılmış olan SEATO blokunun əsasını təşkil etmiş, az qala unudulmuş "Manila paktı"nın dirçəldilməsi də; ASEAN qruplaşmasına (İndoneziya, Malayziya, Filippin, Sinqapur və Tailand) hərbi-siyasi istiqamət verilməsi də; Sakit okean, CAR-dan və Latın Amerikasının cənub əyrisində yerləşən bir sıra öklələrdən ibarət NATO variantı təşkil edilməsi də; Yaxın Şərqdə İsrailin, Misirin iştirakı ilə, Səudiyyə Ərəbistanı və İordaniya da cəlb olunmaqla "strateji həmrəylik" cəbhəsi düzəldilməsi də daxil idi.

80-ci illərin əvvəllərində beynəlxalq vəziyyət yenidən kəskinləşdi. ABŞ-ın barışmaz imperialist dairələri kəskinliyin zəif-lədilməsini özlərinin dünyada hegemonluğunun bərqərar olması planlarının həyata keçməsi yolunda əngəl hesab etdiklərinə görə, ona əks-hücuma keçdilər.

Beynəlxalq gərginliyin artmasına ABŞ-ın digər ölkələrin daxili işlərinə qarışması, dövlətlərin milli istiqlaliyyətinin və suverenliyinin məhdudlaşdırılması cəhdləri də səbəb oldu. ABŞ-ın yardımına arxalanan təcavüzkar qüvvələr öz işğalçılıq planlarını genişləndirdi. 1980-ci ildə İsrail hökuməti müsəlman və xristian dini ziyarətgahlarının yerləşdiyi Qüds şəhərini İsrailin vahid və bölünməz paytaxtı elan etdi. 1981-ci ildə Təl-Əviv hakimləri Suriyaya mənsub olan Holan yüksəkliklərini ilhaq edildiyini bildirdilər. Bu BMT tərəfindən qanunsuz bir hərəkət kimi rədd edildi. BMT Baş Məclisinin fövqəladə sissiyasının 1982-ci ildə qəbul etdiyi qətnamədə bütün dövlətlərə – BMT üzvlərinə müraciət olundu ki, onlar təcavüzkarla bütün əlaqələri kəssinlər.

Bütün bunlara baxmayaraq ABŞ özünün Yaxın Şərq mövqelərini möhkəmləndirmək ümidi ilə İsrailin təcavüzkarlıq hərəkətlərinə tərəfdar çıxırdı. 1981-ci ilin sonunda ABŞ və İsrail ərəblər əleyhinə yönəldilmiş «Strateji əməkdaşlıq haqqında» saziş bağladılar. İsrail özünün Şimal ərazilərinin «təhlükəsizliyini qoru-

maq» kimi saxta bir bəhanə ilə 1982-ci ilin iyul ayında ABŞ hökumətinin köməyinə arxalanaraq Livana qarşı müharibəyə başladı. Təcavüzkarın Amerika silahı ilə təchiz edilmiş yüz minlik ordusu Beyruta gəlib çataraq, Livan paytaxtının Fələstin azadlıq hərəkatı rəhbərlərinin və onun əsas hərbi dəstələrinin olduğu qərb hissəsini blokadaya aldı. Lakin tarixi fakt kimi bu müharibədə İsrail öz məqsədlərinə nail ola bilmədi. ABŞ-ın öz müttəfiqinə Beyrutu və digər yaşayış məntəqələrini vəhşicəsinə bombalamaqla köməklik cəhdi də biabırçılıqla qurtardı.

Ümumiyyətlə, 80-ci illərdə Yaxın Şərq, Afrika, Hind Okeanı ABŞ-ın «həyati mənafeyi» sferası elan edildi. Pentaqon ABŞ-ın regionlarda hərbi iştirakını genişləndirməyə başladı. 70-ci illərin sonun 80-ci illərin başlanğıcında Livan, Əfqanıstan, İran, Nikaraqua, Salvador, Qrenada, Liviya və digər dövlətlər Amerikanın açıq-aşkar müdaxilə obyektləri oldu.

Başda ABŞ olmaqla NATO-nun və SSRİ-nin tutduğu yol, onların bəşəriyyət üçün 10 illərdən bəri törətdikləri daimi təhlükə – bütün bunlar planet əhalisinin nüvə uçurumuna sürüklənməsində dönüş yaratmağa imkan verən qəti tədbirlər görülməsini tələb edirdi.

SSRİ və ABŞ arasında siyasi dialoqun inkişaf etməsi və dərinləşməsi böyük nailiyyət olmuşdur. Bu dialoq ikitərəfli münasibətlərin və dünya siyasətinin bütün əsas məsələlərini əhatə etmişdir. Nüvə müharibəsi heç vaxt olmamalıdır, çünki belə müharibədə qalib ola bilməz. Bu barədə əldə edilmiş qarşılıqlı anlaşılmanın prinsipial əhəmiyyəti vardır. Tərəflər SSRİ və ABŞ arasında hər hansı müharibənin - nüvə müharibəsinin yaxud adi müharibənin qarşısının alınmasının vacibliyini qeyd etmiş, hərbi üstünlüyə çalışmayacaqlarını öhdələrinə götürmüşlər.

Cenevrədə (1985-ci il),Reykyavikdə (1986-cı il), Vaşinqtonda (1987-ci il) və Moskvada (1988-ci il)yüksək səviyyəli Sovet-Amerika danışıqları nüvə silahlarının real azaldılması sahəsində irəliləyişlə nəticələnmişdir. SSRİ və ABŞ arasında onların orta və kiçik mənzilli raketlərinin ləğv edilməsi haqqında müqavilə, tarixdə nüvə silahlarının qarşılıqlı ciddi nəzarət altında ləğv edilməsini nəzərdə tutan ilk saziş 1987-ci ilin dekabrında imzalanmış

və 1988-ci ilin iyun ayında qüvvəyə minmişdir. Bununla da nüvə silahı olmayan dünya quruculuğunun əsası qoyulmuşdur. Raketdən müdafiə müqaviləsinin qüvvədə qalması şərtilə SSRİ və ABŞ arasında strateji hücum silahlarının 50 faiz ixtisara salınması haqqında birgə müqavilə layihəsi hazırlanan zaman tərəflərin mövqelərinin yaxınlığı təsbit olunmuşdu.

Nəticədə Sovet-Amerika münasibətləri yaxşılaşmışdır. Müharibə təhlükəsini geri çəkmək mümkün olmuşdur. Beynəlxalq həyat mərkəzinin qarşıdurmadan qarşılıqlı anlaşma və əməkdaşlıq tərəfə yeri dəyişmişdir.

Cenevrədə sazişlər bağlanması və sovet hərbi kontingentinin Əfqanıstandan tamam çıxarılması regional münaqişələrin siyasi yolla tənzimləməsi işində irəliyə doğru mühüm addım olmuşdur.

1980-ci illərin sonunda beynəlxalq münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsi prosesi tədricən inkişaf edir, beynəlxalq vəziyyət yaxşılaşırdı. Ancaq realist tendensiya beynəlxalq məsələlərdə köhnə münasibət, sərt siyasət tərəfdarlarının müqaviməti ilə inadlı mübarizədə özünə yol açırdı. Müsbət proseslərin dönməzliyinə təminat hələ yaranmamışdı, lakin zor işlətmək siyasətinə qarşı əvvəllərdəkinə nisbətən daha geniş siyasi imkanlar yaranmışdır.

**Corc Buşun prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti**

Corc Buş ABŞ-ın İkinci dünya müharibəsində iştirak etmiş sonuncu prezidenti idi. Xarici siyasətdə ABŞ SSRİ ilə danışıqları davam etdirirdi. 1989-cu ilin dekabrında Malta adasındakı görüş SSRİ-nin dağılması, Almaniyanın birləşdirilməsi, Avropadakı sosialist dövlətlərin əvvəlki quruluşa qayıtması və dünya xəritəsində yeni geosiyasi dəyişikliklərin əmələ gəlməsi üçün bir siqnal rolunu oynadı. 1991-ci ilin fevralında Corc Buş 30-a qədər dövlətin birgə iştirakı ilə «Səhrada tufan əməliyyatı» adı altında İraqa hücum təşkil etdi. Buna səbəb o idi ki, 1913-cü ilə qədər İraqın tərkibində olan Küveyti 1990-cı ilin avqustunda İraq yenidən tutmuşdu. ABŞ təkid edirdi ki, İraq Küveytin müstəqilliyini yenidən tanısın. Lakin əvvəlcədən şəxsiyyəti müəyyən edilməyən bir lider olan Səddam Hüseyn bu tələblə razılaşmadı. Belə olduqda 1991-ci ilin fevralında BMT-nin Təhlükəsizlik şurasının 4 üzvü - İngiltərə,

Fransa, ABŞ, SSRİ İraqa hücumun lehinə, Çin isə bitərəf qaldığını bildirdi. Lakin bir ay keçməmiş İraq Küveyti azad etməyi və ona olan borcunu verməyi öhdəsinə götürdü.

Corc Buşun dövrü həm də onunla xarakterik idi ki, hələ İkinci dünya müharibəsinin sonlarında başlamış olan «soyuq müharibə» SSRİ-nin dağılması ilə başa çatdı. Böyük Corc Buşun dövründə ABŞ-ın dünyanın yeganə lideri kimi tanınması və dünyanın «amerikasayağı» idarə olunması üçün imkan yaradılmış oldu. Qloballaşma, həqiqətdə isə «amerikanlaşma» prosesi surətləndi və tezliklə bütün dünyanı əhatə etməyə başladı. Dünya təsərrüfatı dolların musiqisi altında rəqs etməyə başladı.

## Bill Klintonun prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti

Bill Klinton öz xarici siyasətində liberal mövqe tutdu. Klinton inzibati idarəsinin xarici siyasət strategiyası ABŞ üçün «dünya lideri» rolunu saxlamağa yönəldilmişdi.1993-cü ildə Şimali Amerika azad ticarət zonasının təşkili haqqında saziş qüvvəyə mindi. 1994-cü ildə ABŞ-ın təşəbbüsü ilə «Amerika azad ticarət zonasının təşkili» haqqında qərar qəbul edildi. ABŞ-ın Asiya-Sakit okean regionu ölkələri ilə iqtisadi əməkdaşlıqda fəal iştirakı təmin edildi. Yeni «Avroatlantik bazarı»nın təşkili haqqında plan işə başladı. NATO-nun Şərqə doğru genişlənməsi məsələsində ABŞ Rusiyaya güzəştə getməli oldu.1997-ci ildə ABŞ-Rusiya danışıqlarında ABŞ öhdəsinə götürdü ki, Polşa, Çexiya, Macarıstan NATO-ya qəbul olunsa da, həmin dövlətlərin ərazisində ABŞ-ın hərbi bazaları yaradılmayacaqdır. Yuqoslaviya ilə əlaqədar Bill Klinton 1995-ci ildə münasibətlərin sahmana salınmasına və Deyton müqaviləsinin (1995-ci il) bağlanılmasına nail oldu. Yaxın və Orta Şərq məsələsində 1994-cü ildə Vaşinqtonda, 1995-ci ildə Qahirədə, 1996-cı ildə Osloda İsrail ilə Fələstin arasında münasibətlərin nizama salınmasına cəhd göstərdi. 1996-cı ildə Oslo müqaviləsi əsasında Fələstinə muxtariyyət verildi.

ABŞ 1990-cı ildə SSRİ-dən ayrılmış Pribaltika respublikalarında öz nüfuzunu gücləndirməyə xüsusi səy göstərdi. 1996-ci ildən ABŞ ATƏT-in Qarabağ məsələsini nizama salmaq üçün hələ 1992-ci ildə təşkil etdiyi Minsk qrupunun həmsədrlərindən biri

oldu. Amerika Azərbaycan münasibətləri haqqında birgə bəyanat adlanan sənədi B.Klintonla Azərbaycan prezidenti H.Əliyev bu dövrdə imzaladılar. Bu sənəd iki ölkə arasındakı münasibətlərin prinsip və gələcək istiqamətlərini göstərirdi.

1998-ci ildə ABŞ yenidən İraqa qarşı möqeyində sərtləşdi. Bu "səhrada tülkü" əməliyyatı adlanırdı. Belə ki, ABŞ İraqı kimyəvi silahlar istehsalında günahlandırmağa başladı. Lakin Bill Klinton vəziyyəti müharibə həddinə gətirmədi. Atlantika həmrəyliyi gücləndirildi. Kosovada münaqişənin nizama salınması zamanı NATO-dan istifadə edildi. 1999-cu ilin payızında ATƏT-in İstanbul sammitində ABŞ Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin çəkilməsi haqqında sazişi bəyəndi. Klintonun dövründə ABŞ-ın demokratiya və azad bazar iqtisadiyyatı konsepsiyasının bütün dünyada qəbul edilməsi, iqtisadi amirlik metodlarından əl çəkilməsi, informasiya mübadiləsinin artması, azad bazarla demokratiyanın yanaşı addımladığı yeni şərait yaradılmış oldu. Bill Klinton İkinci cahan müharibəsindən sonrakı dövrdə ABŞ-ın ən ağıllı prezidenti kimi tarixə düşdü.

## Corc Buşun (Kiçik) prezidentliyi dövründə ABŞ-ın xarici siyasəti

Dünyanın aparıcı strateji tədqiqat mərkəzləri tərəfindən ABŞ–ın beynəlxalq statusu dünya lideri kimi müəyyən edilmişdi. Politoloqlar hesab edirdilər ki, ABŞ heç zaman çoxqütblü dünyada (primus inter pares ) vəziyyəti ilə razılaşmayacaq və Avropada, Asiyada və Amerikada hegemonluq etməyə çalışacaq. Londonda yerləşən Strateji Tədqiqatlar İnstitutunun alimləri hesab edirdilər ki, "Heç bir ölkə ABŞ qədər silahlı qüvvəyə, texnologiyaya və hərbi təşkilata malik deyil. Avropa ölkələrinə birlikdə ABŞ–ın səviyyəsinə çatmaq üçün 10 illər, Çinə öz hərbi sistemini yenidən qurmaq, Rusiyaya isə əvvəlki hərbi qüdrətini bərpa etmək üçün daha çox vaxt lazım idi".Hətta hər şeyə şübhə ilə yanaşan pessimistlər hesab edirdilər ki, hadisələrin əlverişli inkişafı ABŞ – ın hələ 20 il dünyaya liderliyini təmin edəcək. Onlardan biri yazmışdı ki, "Qədim Roma" zamanından indiyədək ayrılıqda götürülmüş heç bir dövlət beynəlxalq birlikdə bu qədər yüksəkdə dayanıb bu qədər həlledici üstünlüyə malik olmayıb. Başqa bir

politoloq qeyd etmişdi ki, Amerika Bütün praktiki mənalarda sarsılmazdır; ora hər hansı müdaxilə təhlükəsi yoxdur, ABŞ – ın süqutunu arzulayan düşməni yoxdur. O xarici ticarətdən asılı deyil, hətta soyuq müharibə dövründə onlardan asılı olmayıb; Hamı hesab edirdi ki, yaxın 20 – 30 ildə Amerikanın təhlükəsizliyi üçün qorxu yaranmayacaq”.

Lakin gözlənilməyən hadisə baş verdi. 2001–ci ilin sentyabrın 11 – də səhər saat 8:48 – də “Amerika Eyrlaynz” şirkətinin təyyarəsi Ümumdünya Ticarət Mərkəzinin Nyu-yorkda yerləşən cənub qülləsinə çırpıldı. Saat 10 – da və 10:28-də hər iki bina çökdü. Saat 10 – da qaçırılmış üçüncü təyyarə Vaşinqtonda Pentaqonun (müdafiə nazirliyi)binasına çırpıldı. Dördüncü təyyarə Pittsburqdan 80 mil məsafədə yerə düşüb partladı. Terror aktı nəticəsində həlak olanların sayı 4000 nəfərdən çox idi. Bu hadisə nəticəsində ölkəyə 105 milyard dollar məbləğində ziyan dəymiş lakin hadisənin əsas yekunu ondan ibarət oldu ki, əhali Amerikanın vurula biləcəyini və qorxunun nə olduğunu bildi. Başqa sözlə, ABŞ – ın beynəlxalq terrorçuluq kimi təhlükəli və qorxulu düşməni meydana çıxdı. Bu düşmən həm də gözə görünməz idi, onun konkret yeri məlum deyildir, haradan və nə vaxt ondan növbəti terror aktı gözləməyi müəyyən etmək çətin idi. Lakin 11 sentyabr hadisələri Kiçik C.Buş hökumətinin daxili və xarici siyasətinə böyük təsir göstərdi.

2001 – ci ilin sentyabrın 14 – də konqresin qəbul etdiyi qətnamə ilə ölkə prezidentinə terror aktlarının təşkilatçılarına qarşı hərbi qüvvədən istifadə sahəsində səlahiyyətlər verildi. 2001 – ci ilin sentyabrın 13 – də hökumətin qəbul etdiyi qərara əsasən prezident terrorda iştirakda şübhəli bilinən və ABŞ vətəndaşı olmayan şəxsləri xüsusi hərbi tribunala verə bilərdi, ittiham edilənin vəkil tutmaq hüququ yox idi, istintaq və məhkəmə iclasları gizli aparılmalı idi.

2002 – ci ilin yayında C.Buş daxili təhlükəsizlik nazirliyi yaratmağı təklif etdi. Konqresin daxili təhlükəsizlik nazirliyinin yaradılması haqqında qəbul etdiyi qanun 25 noyabr 2002 – ci ildə qüvvəyə mindi. Daxili təhlükəsizlik nazirliyinin əsas fəaliyyət istiqamətlərini sərhədlərin və nəqliyyatın təhlükəsizliyi, fövqəladə

hallarda müvafiq tədbirlərə hazır olmaq, məlumatların təhlili və infrastrukturların müdafiəsi təşkil edirdi. Daxili Təhlükəsizlik Nazirliyi Pentaqondan sonra ən böyülk nazirlik idi.

Beynəlxalq əməkdaşlıq daxili təhlükəsizliyin elementlərindən biri kimi müəyyən edilmişdi.

2001 – ci ilin sentyabrın 11 – də olmuş terror aktlarının hazırlanması və həyata keçirilməsində ABŞ Səudiyyə Ərəbistandan olan milyonçu Usama ben Ladenin başçılıq etdiyi “Əl – Qaida” təşkilatını günahlandırdı. ABŞ kəşfiyyatı müəyyən etmişdi ki, U.ben Ladenin mənzil qərargahı, təşkilatın təlim bazaları Əfqanıstanda yerləşir. ABŞ Əfqanıstandan U.ben Ladenin verilməsini tələb etdi. Lakin Əfqanıstan rəhbərliyi ABŞ – ın tələbinə əməl etmədi və bildirdi ki, U. ben Ladenin günahı sübut edilməmişdi.

Şərqi və Cənubi Asiyada nüfuz uğrunda mübarizədə ABŞ – ın əsas rəqiblərindən biri Çin Xalq Respublikası idi. ABŞ Çindən çoxlu kredit almışdı. 2008 – ci ildə ABŞ – ın xarici borcu 5,8 trilyon dollar olmuşdu ki, bunun təxminən 2 trilyon dolları Çinin payına düşürdü. Ona görə ÇXR ilə münasibətlərə ABŞ böyük diqqət yetirirdi. Çin ABŞ – ın Asiya – Sakit okean siyasətinin mərkəzində dayanırdı. ABŞ Çinin hərbi – dəniz donanmasını gücləndirmək yolu ilə Hind okeanında və Asiyada təsirinin artmasından narahat idi. Çin təyyarədaşıyan gəmilər inşa etmək, dəniz quldurları ilə mübarizə məqsədi ilə Ədən körfəzinə hərbi gəmilər göndərmək fikrində idi. ÇXR yeni raketdən müdafiə silahları yaradır və Cənubi Çin dənizində yerləşən Xaynan adasında kosmik raketlər üçün buraxılış meydançası inşa edirdi.

ABŞ – ın diqqət mərkəzində saxladığı məsələlərdən biri Koreya Xalq Demokratik Respublikasının nüvə silahı yaratmaq istəməsi idi. C. Buş hökuməti 6 il ərzində Şimali Koreya ilə əlaqə saxlamaqdan imtina etmişdi. ABŞ KXDR – la 1994 – cü ildə bağlanmış sazişi ləğv etmiş və onu “şər oxu” – na daxil etmişdi. 1987 – ci ildə Cənubi Koreyanın sərnişin təyyarəsi KXDR–ın agentləri tərəfindən partladıldıqdan sonra onun adı ABŞ dövlət departamentinin hər il nəşr etdiyi terrorçuluğa kömək edən dövlətlərin siyahısına daxil edilmişdi. 2006 – cı ilin oktyabrında KXDR ilə özünün ilk nüvə reaktorunu partlatdıqdan sonra ABŞ – ın ona

münasibəti dəyişdi. 2008 – ci ilin iyununda C.Buş hökuməti KXDR–ın adını terrorçuları müdafiə edən dövlətlərin siyahısından çıxartdı. Çünki Şimali Koreya özünün nüvə proqramı haqqında bəyannamə ilə çıxış və nüvə reaktorunun soyuducu qülləsini ləğv etmişdi. ABŞ hökuməti KXDR–lə ticarətə icazə verdi. Şimali Koreya beynəlxalq maliyyə təşkilatlarından kredit almağa başladı. Lakin ABŞ şirkətlərinin KXDR–də bizneslə məşğul olması hələ də qadağan olunurdu, KXDR –ın ABŞ bankalarındakı vəsaitlər dondurulmuşdu. 2008 – ci ilin sonunda KXDR – ın mövqeyi dəyişdi, o, nüvə obyektlərinə beynəlxalq komissiyanın üzvlərini buraxmaqdan imtina etdi.

ABŞ Hindistanla münasibətləri yaxşılaşdırmağa başladı. ABŞ Hindistanda təhsilə və kənd təsərrüfatına kapital qoydu, müdafiə və atom elektrik stansiyaları tikintisi sahəsində kömək etdi. ABŞ hesab edirdi ki, Hindistan Asiyada onun strateji dayaqlarından biri ola bilər və Çinin nüfuzunun artmasının qarşısını almaq üçün ondan istifadə etmək olar.

ABŞ – ın "şər oxu" – na aid etdiyi İranla münasibətləri gərgin idi. ABŞ – ın rəsmi dairələrinə hətta İrana qarşı müharibə ehtimalından danışırdılar. MAQATE İranın nüvə silahı yaratmadığını, ABŞ isə İranın atom bombası düzəltmək istədiyini iddia edirdi. ABŞ – ın xüsusi xidmət orqanlarının hazırladığı və nəşr etdirdiyi sənəd deyilirdi ki, İran hələ 2003-cü ildə nüvə silahı yaratmağa yönəlmiş işləri dayandırmışdı. 2008–ci ilin əvvəlində ABŞ-da İranın nüvə tədqiqatlarına mane olmaq planı hazırlandı. Bu plan İranda enerji, kompüter və digər infrastruktur sisteminin işində təxribatları nəzərdə tuturdu.

ABŞ hökuməti Polşa və Çexiya ərazisində raketdən müdafiə sistemi yerləşdirmək istəyirdi. ABŞ bu məqsədini Avropa ölkələrini İran raketlərinin hücumundan qorumağın zəruriliyi ilə əsaslandırmağa çalışırdı.

2008–cı ilin yayında ABŞ – la Polşa və Çexiya arasında raketdən müdafiə sisteminin yerləşdirilməsi haqqında razılıq əldə edildi. Lakin İran Avropa ərazisinə çatan raketlərə malik deyildi. Digər tərəfdən isə, ABŞ hökuməti Polşa və Çexiya ərazisində raketdən müdafiə sisteminin yaradılması ideyasını NATO

çərçivəsində irəli sürməmişdi. Bu isə bir sıra NATO ölkələrinin narazılığına səbəb olmuşdu. Onlar ABŞ – ın həmin addımlarını Şərqi Avropa ölkələri ilə ikitərəfli hərbi ittifaqın möhkəmləndirilməsi kimi qiymətləndirirdilər.Rumıniya və Macarıstan ərazisində ABŞ hərbi bazalar yaradırdı. Amma bunlar NATO bazaları sayılırdı. ABŞ – ın Polşa və Çexiyada raketdən müdafiə sistemi yaratmaq cəhdləri Rusiyanın narahatlığına səbəb oldu. Rusiya ABŞ – ın niyyətini öz təhlükəsizliyi üçün qurğu yaradan amil kimi qiymətləndirirdi. ABŞ Rusiyanın İrana nüvə texnologiyaları göndərməsindən narazı idi.

2008 – ci ilin fevralında ABŞ Kosovanın müstəqilliyini tanımışdı. Əhalisinin əksəriyyəti albanlardan ibarət olan Kosovo Serbiyanın vilayətlərindən biri idi. Rusiya Kosovonun müstəqilliyinin tanınmasına kəskin etirazını bildirmişdi. Rusiya keçmiş sovet respublikalarını öz sıralarına qatmaq istəyən NATO – nun şərqə doğru genişlənməsinin əleyhinə idi. Rusiya ilə qarşıdurmanın kəskinləşməsini istəməyən ABŞ və NATO 2008 – ci ilin aprelində Ukrayna və Gürcüstanın NATO – ya daxil olması məsələsini müzakirə etmədilər.

2008 – ci il avqustun 8 – 12 də Rusiya ilə Gürcüstan arasında müharibə ABŞ – la Rusiya arasında münasibətlərin pisləşməsinə səbəb oldu. ABŞ hökuməti Rusiyanın siyasətini kəskin tənqid edirdi. Eyni zamanda ABŞ hökuməti başa düşürdü ki Rusiya ilə münasibətlərdə gərginliyin artması hər iki tərəfə yalnız ziyandır. ABŞ bir sıra problemləri Rusiya ilə əməkdaşlıq zəminində həll etmək istəyirdi. İranın nüvə tədqiqatlarının qarşısını almaq üçün Əfqanıstandakı terrorçulara qarşı müharibədə Rusiya ilə əməkdaşlıq etmək mümkün idi. Bundan əlavə, strateji hücum silahlarının ixtisarına dair yeni müqavilə hazırlamaq lazım idi, çünki strateji hücum silahlarının ixtisarına dair birinci müqavilənin müddəti 2009 – cu ilin dekabrında başa çatırdı. ABŞ – da yeni müqavilə layihəsi hazırlanmışdı, lakin Gürcüstan hadisələri ilə müqavilə layihəsi konqresdə müzakirə edilmədi. 2009 – cu ildə ABŞ – da rusiyaşünaslar A.Asmon və E. Kaçins tərəfindən nəşr edilmiş “Rusiya balansı” adlı kitabda yazılmışdı ki, ABŞ – ın Rusiya siyasəti aydın olmadığına və yüksək səviyyəli görüşlər

zamanı verilmiş vədlər yerinə yetirilmədiyinə görə Rusiya prezidenti V. Putin C.Buşu ehtibarlı tərəfdaş hesab etmir.

ABŞ keçmiş Sovet respublikalarında mövqelərini möhkəmləndirməyə çalışırdı. C.Buş hökuməti Ukrayna və Gürcüstana xüsusi diqqət yetirirdi. ABŞ həmin ölkələrdə "narıncı inqilabalar" nəticəsində hakimiyyətə gəlmiş Qərb meyilli prezidentləri müdafiə edirdi. "Azadlığın genişlənməsi" strategiyasını Ukrayna və Gürcüstanda həyata keçirmək olardı. ABŞ Ukrayna və Gürcüstanın NATO – ya daxil olmasına tələsmirdi. Digər tərəfdən ABŞ–ın həmin ölkələrlə əməkdaşlığı genişlənmişdi. 2008 – ci ilin dekabrın 19–da Vaşinqtonda "Ukrayna ilə ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiya" imzalandı. Bu sənəd tərəflər arasında müdafiə, təhlükəsizlik, demokratiya və mədəniyyət sahəsində münasibətlərin inkişafını nəzərdə tuturdu. ABŞ – ın Krımın paytaxtı olan Simferapolda nümayəndəliyinin açılması da nəzərdə tutulurdu. Krımla bağlı Rusiya və Ukraynanın münasibətlərinə dair problem olduğunu və burada Rusiyanın hərbi dəniz bazasının yerləşdiyini nəzərə alsaq, ABŞ nümayəndəliyinin böyük əhəmiyyəti var idi.

ABŞ Cənubi Qafqazda Rusiyanın mövqeyini zəiflətməyə çalışırdı. Azərbaycan enerji ehtiyyatları ilə zəngin idi. Gürcüstanın tranzit əhəmiyyəti böyük idi. 2006 – cı ilin yayında Bakı – Tiblisi – Ceyhan neft kəmərini tikintisi başa çatdı. Bu kəmərin çəkilməsi ABŞ –la Azərbaycan arasında iqtisadi və siyasi münasibətlərin inkişafına kömək etmişdi. 2006 – cı ilin aprelində ABŞ prezidenti C.Buşun dəvəti ilə Azərbaycan prezident ABŞ – a rəsmi səfər etmişdi. Ermənistan Azərbaycan münaqişəsinin tənzimlənməsi ilə məşğul olan ATƏT – in Minsk qrupunun həmsədri kimi ABŞ Azərbaycan Respublikasının ərazi bütövlüyünü müdafiə edirdi. ABŞ eyni zamanda Dağlıq Qarabağ probleminin dinc yolla həllinə tərəfdar idi. ABŞ –ın Rusiyanın hərbi bazaları yerləşən Ermənistan siyasətinə ABŞ – dakı Erməni diasporu təsir göstərirdi. 2008 – ci ilin payızında ABŞ konqresinin qəbul etdiyi 106 saylı qətnamədə "erməni soyqrımı" ittiham edilirdi.

C.Buş hökuməti iqtisadi və hərbi siyasi sahələrdə Latın Amerikası ölkələri ilə daha sıx əməkdaşlıq etməyə başlamışdı. Lakin Latın Amerikası ölkələri ümumamerika bazarının yaradıl-

masının əleyhinə idi. Çünki, buna Latın Amerikası ölkələri öz iqtisadiyyatının, ticarətinin tamamilə ABŞ – ın mənafelərinə tabe edilməsi cəhdi kimi baxırdılar. 2005 – ci ildə ABŞ 1950 – ildə buraxılmış 4 – cü donanmasını bərpa etdi. Onun məsuliyyət zonasına Mərkəzi və Cənubi Atlantika daxil idi, lakin Latın Amerikası hərbi müdafiə məsələlərini özləri həll etməyə çalışırdılar. Braziliya Cənubi Atlantika müdafiə Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi.

ABŞ – la Latın Amerikası ölkələri arasında kəskin məsələlərdən biri miqrasiya məsələsi idi. C. Buş hökuməti miqrasiya məsələlərini həll etməyə çalışırdı. ABŞ – da Latın Amerikasından gəlmiş amma sənədi olmayan 12 milyon vətəndaş yaşayırdı. ABŞ – ın Venesuela ilə münasibətləri pisləşmişdi. Venesuela prezidenti Uqo Çaves ABŞ – a qarşı barışmaz mövqe tuturdu. ABŞ – ın Kuba ilə münasibətlərində yaxınlaşma müşahidə olunmurdu. Amma 2008 – ci ilin yayında Kubaya qarşı iqtisadi sanksiyaların tətbiq edilməsindən keçən müddət ərzində ilk dəfə oraya Texasdan ticarət nümayəndələri gəlmişdilər. Bu səfərin nəticəsi kimi 400 min dolar məbləğində Kuba pambığının alınması haqqında kontraktlar imzalanmışdı.

NATO xətti üzrə müttəfiqləri ABŞ – ı müdafiə edirdi. 12 sentyabr 2001 – ci ildə NATO Şurası tarixində ilk dəfə təşkilatın nizamnaməsininn kolektiv müdafiə haqqında 5 – ci maddəsinin icrası haqqında qərar qəbul edildi. 2001 – ci ilin oktyabrın 7 – də ABŞ ordusu Əfqanıstanda hərbi əməliyyatlara başladı. Taliban hərəkatının qərargahının yerləşdiyi Qəndəhar və onun ətrafı, eləcə də U. ben Ladenin yeraltı sığınacaqlarının yerləşdiyi dağlıq ərazilər daha güclü zərbəyə məruz qaldı. Əfqanıstanın hərbi və nəqliyyat infrastrukturu planını “Sarsılmaz azadlıq” adlandırmışdı. BMT Təhlükəsizlik Şurası həmən planı bəyəndi. ABŞ aviasiyası Əfqanıstanda Şimal Alyansının əməliyyatlarına kömək edirdi. Şimal Alyansına Əfqanıstanın Şimalında Taliblərə qarşı döyüşən mühacid qrupları daxil idi. Hərbi əməliyyatlarda İngiltərə də iştirak edirdi.

ABŞ – ın digər müttəfiqləri sonradan quruda aparılan hərbi əməliyyatlara qoşuldu. ABŞ qoşunlarının ilk dəstələri Əfqanıstan

2001 – ci ilin oktyabrın 21 – də gətirildi. “Taliban” iki cəbhədə - həm şimal Alyansına, həm də ABŞ – a və onun müttəfiqlərinə qarşı müharibə aparmalı oldu. Noyabrın 7 – də mühacid dəstələri Kabula daxil oldu. Taliban qüvvələri Cənubi Əfqanıstanın dağlıq rayonlarına çəkildi və partizan müharibəsinə başladı. 2002 – ci ilin martında ABŞ silahlı qüvvələri sonuncu irimiqyaslı əməliyyatı həyata keçirdi. (“Anakonda əməliyyatı”) . 2 gün ərzində 1000 - ə yaxın Taliban döyüşçüsü həlak oldu. Əfqanıstanda hakimiyyət Həmid Kərzayi başda olmaqla amerikapərəst müvəqqəti hökumətə keçdi. Lakin Əfqanıstanda sabitlik yaranmadı və U. ben Ladeni tutmaq mümkün olmadı. ABŞ və onun antiterror koalisiyası üzrə müttəfiqləri hərbi əməliyyatları davam etdirdi. ABŞ ictimaiyyəti Əfqanıstanda aparılan antiterror əməliyyatlarını dəstəklədi.

2002 – ci ilin sentyabrda C.Buş “ABŞ – ın milli təhlükəsizlik strategiyası” adlı sənəd imzaladı. Bu sənəddə “Buş doktrinası” və ya “Qabaqlayıcı zərbə” doktrinası öz əksini tapmışdı. Doktrinaya görə beynəlxalq terrorçuluq, onu müdafiə edən dövlətlər və onların başçıları ABŞ – ın əsas düşmənləri elan edilirdi. Sənəddə deyilirdi; “terrorçulara qarşı mübarizə uzun müddət üçün qlobal vəzifədir. Terroun müttəfiqləri sivilizasiyanın düşmənləridir. Sağlam düşüncəni və özünü müdafiənin zəruriliyini nəzərə alaraq Amerika qarşıya çıxan təhlükələrə qarşı onların gerçəkləşməsinə imkan vermək üçün tədbirlər həyata keçirəcək”.

ABŞ tərəfindən işlənib hazırlanmış terrorçuluğa qarşı mübarizə metodu hərbi qüvvə tətbiqini və əməliyyatların düşmən ərazisinə keçirilməsini nəzərdə tuturdu.Başqa sözlə, ABŞ özünümüdafiə hüququnu kütləvi qırğın silahı ələ keçirməyə çalışan və terrorçulara kömək edən potensial düşmənlərə qarşı qabaqlayıcı aksiyalarla həyata keçirməli idi. Kütləvi qırğın silahı düzəltmək istəyən ölkələr arasında “Şər üçbucağı”na daxil olan İran, İraq və Şimali Koreyanın adı çəkilirdi. Bu ölkələr terrorçu təşkilatlara kömək etməkdə ittiham olunurdu.

İkinci dəfə ABŞ prezidenti seçiləndən sonra C.Buş ilk xarici səfəri 2005 – ci ilin fevralında Avropaya etdi. Onun məqsədi İraqdakı müharibəyə birmənalı yanaşmayan NATO ölkələri ilə münasibətləri möhkəmləndirmək idi. Ənənəvi olaraq ABŞ–ın yar-

dımına arxalanan Almaniya İraq müharibəsində iştirakdan imtina etmişdi. ABŞ hökuməti dərk edirdi ki, beynəlxalq problemləri təklikdə həll etmək mümkün deyil, Amerikaya tərəfdaşlar lazımdır. Avropa ABŞ – ın tarixi müttəfiqi idi, Avropa ittifaqının möhkəmlənməsi və genişlənməsi ABŞ–ın mənafelərinə uyğun idi. Avropada olarkən C. Buş "azadlığın genişlənməsi" strategiyasını elan etdi. Bu strategiya bütün dünyada azadlıq uğrunda mübarizəyə çağırış kimi səslənirdi. C. Buş Avropaya sonuncu səfərini 2008 – ci ilin iyununda etmişdi. Bu səfər zamanı C. Buş Avropanın aparıcı ölkələrində səfərdə olmuş, ABŞ və Avropa ittifaqının illik sammitində iştirak etmişdi. C. Buş bütün avropalıları dost və müttəfiq adlandırıb bəyan etmişdi ki, ABŞ–ın Avropa ölkələri ilə sıx münasibətləri var.

ABŞ Yaxın Şərq münaqişəsinin tənzimlənməsində iştirakını davam etdirirdi. 2007 – ci ilin noyabrında ABŞ-ın Annapolis şəhərində İsrail və Fələstin rəhbərlərinin iştirakı ilə konfrans keçirildi. ABŞ bu konfransın qərarları əsasında 2008 – ci ilin sonuna qədər Fələstin dövlətinin yaradılmasına nail olmaq fikrində idi. Lakin bu məqsədə çatmaq mümkün olmadı. Fələstinlilər arasında razılıq yox idi. Fələstində faktiki olaraq ikihakimiyyətlilik hökm sürürdü. Mahmud Abbasın və Həmasın hakimiyyəti. İsraildə isə siyasi böhran yarandı və yeni parlament seçkiləri keçirildi. ABŞ 2006 – cı ildə Livana qarşı müharibə zamanı İsraili müdafiə etmişdi. 2008 – ci ilin noyabrında ABŞ Yaxın Şərq münaqişəsi üzrə əlaqə qrupunun (bu qrupa ABŞ, Rusiya, Avropa İttifaqı və BMT daxil idi). Misirin Şarm- əl-Şeyx şəhərində keçirilən iclasında iştirak etdi. Bu görüş zamanı münaqişənin tənzimlənməsi üçün Fələstin rəhbərliyi qarşısında İsraili tanımaq, terrordan imtina etmək və əvvəl imzalanmış sazişlərə əməl etmək kimi şərtlər irəli sürülmüşdü.

ABŞ–la Liviya arasında münasibətlər R. Reyqanın dövründə kəsilmişdi. R. Reyqan M. Qəddafini "vəhşi it" adlandırmışdı. Liviya neft və digər sərvətlərlə zəngin idi. Liviya kütləvi qırğın silahı düzəltməyə çalışır və terrorçuluğa yardım göstərirdi. ABŞ isə Liviyadan bu planlardan imtina etməyi tələb edirdi. 2008 – ci ilin avqustunda ABŞ–la Liviya arasında ABŞ təyyarələri tərəfindən

bombalanmış Liviya ərazisində ziyan çəkmiş əhaliyə humanitar yardımın təşkili haqqında sənəd imzalandı. 2008 – ci ilin sentyabrında ABŞ –ın dövlət katibi K. Rays Liviyaya səfər etmişdi. (Sonuncu dəfə ABŞ –ın dövlət katibi Liviyada 1953 – cü ildə olmuşdu). ABŞ islam dünyasına və Asiyada Amerikaya qarşı etiraz əhval – ruhiyyəsini zəiflətməyə çalışırdı.

C. Buş xarici siyasətdə yenidən Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. 2001-ci ilin sentyabrın 11-də Nyu-Yorkda baş vermiş terror aktından sonra elə həmin ilin sonunda ABŞ Əfqanıstana müdaxilə etdi. Əfqanıstanda taliban rejimi devirdi. 2003-cü ilin martın 21-də İraqın bakterioloji silahlara sahib olduğunu bəhanə edərək İraqa hücum təşkil etdi. Səddam Hüseyn rejimi devrilsə də, İraqda sakitlik yaranmadı. 2001-ci il 11 sentyabr hadisələrindən sonra hərbi büdcə 393 milyard dollara çatdırıldı.

ABŞ-ın 2002-ci ilin may ayında Rusiya Federasiyası ilə strateji silahların məhdudlaşdırılması haqqında bağladığı müqaviləyə əsasən tərəflərdən hər biri ancaq 1700-2000 həcmində nüvə başlığı saxlaya bilərdi. Buş hökumətinin xarici siyasətinin sərtləşdiyini göstərən əlamətlərdən biri 2002-ci ilin iyun ayında onun raketdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müqavilədən imtina etdiyini bildirməsi idi.

2006-cı ilin noyabrın 7-də keçirilən parlament seçkilərində demokratlar partiyası qələbə çaldı. Bu qələbə ilk növbədə İraq amili, Cənubda baş verən qasırğa zamanı ayrılmış pulun xeyli hissəsinin mənimsənilməsi, ölkədəki korrupsiya, yeni terror qorxusu, bir sözlə, Buşun siyasətindən narazılıq ilə əlaqədar idi.

2008-ci ilin noyabrın 4-də keçirilən prezident seçkilərində demokratların namizədi Barak Obama respublikaçıların namizədi Con Makkeynə qalib gəldi. O, ABŞ-ın 44-cü prezidenti oldu. 2008-ci ilin ikinci yarısında ABŞ-ı yeni maliyyə böhranı bürüdü. Bunun səbəbi bankların kreditlər verməsi və nəticədə iflasa uğraması idi. Tezliklə bu böhran dünya maliyyə və iqtisadi böhranına çevrildi.Dünya bazarında neftin qiyməti sürətlə aşağı düşdü. Barak Obama prezident kürsüsünə əyləşərkən büdcə kəsiri 1. 3 trilyon dollar idi.Barak Obama 2009-cu ilin fevralın 11-də "İqtisadiyyata yardım planını" senata təqdim etdi. Planda yüksək gəlirdən vergi-

ləri artırmaq, İraqdakı hərbi xərcləri azaltmaq, 4 milyon iş yeri açmaq nəzərdə tutulurdu.

## ABŞ – AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

Azərbaycan müstəqillik qazandıqdan sonra düçar olduğu çoxsaylı problemlərin müvəffəqiyyətli həlli planetin güc mərkəzi olan dövlətləri ilə qura biləcəyi əlaqələrin keyfiyyət göstəricisindən xeyli asılı idi. Bu baxımdan, ABŞ öz potensialı ilə Azərbaycanın milli dövlətçilik maraqları dairəsinə daxil idi.

Hər şeydən əvvəl, ABŞ dünyanın yeganə fövqəl dövləti olub, planetin nəhəng siyasi güc mərkəzidir. Birləşmiş Ştatlar dünyada mövcud olan təqribən 4 mindən çox beynəlxalq və məhəlli təşkilatın ya yaradıcısı, ya da ən əsas maliyyələşdiricisidir. Şübhəsiz, belə geniş təmsilçilik imkanları olan ABŞ-ın dünyanın hər hansı bir nöqtəsində baş verəcək hadisə və ya münaqişəyə dərhal və qədərincə təsir etmək, prosesləri planlaşdırıcı məcraya salmaq qətiyyəti kifayət qədərdir.

ABŞ dünyanın ən böyük iqtisadi güc mərkəzi olması, statistik rəqəmlərin aşağıdakı siyahısı təsdiqləyir: Onun bütün müəssisələri 100% gücü ilə işləyir. 1991-ci ildə ABŞ iqtisadiyyatına kapital qoyuluşu 407,6 mlrd dollar olmuşdur. 1995-ci ildə ölkənin ixracı 685 mlrd dollar, idxalı isə 746 mlrd dollar olmuşdur. Bu gün inkişafda olan dünya dövlətləri ABŞ ixracının təqribən 40%-ni alır.

ABŞ, həmçinin, dünyanın hərbi güc mərkəzidir. Dövrümüzün ən böyük hərbi təşkilatı olan NATO-nun yaradılmasının və genişləndirilməsinin ilhamçısı məhz ABŞ olmuşdur.Yeni dövrün siyasi reallıqlarına uyğun olaraq Pentaqonun müdafiə büdcəsi 35 % və hərbi qüvvələrin strukturu 33 % ixtisar edilsə də, əvəzində silahlı qüvvələrin modernləşdirilməsinə xeyli vəsait ayrılmışdır.

Azərbaycan isə zəngin təbii ehtiyatları, bölgənin ən iri, varlı və perspektiv inkişaf imkanları olan dövləti kimi ABŞ-ın diqqət mərkəzində saxladığı ölkələrdəndir. Xüsusilə ABŞ-ın milli təhlükəsizlik sistemində enerji təhlükəsizliyi amili aparıcı rol

oynadığından Azərbaycanın zəngin neft ehtiyatlarına bu dövlətin olduqca böyük marağının olması təsadüfi deyildir.

Azərbaycanın əlverişli geosiyasi mövqeyi ABŞ-ın maraqlarına tamamilə uyğundur. Dövlətimiz şimaldan Rusiya, cənubdan isə İranla həmsərhəddir və regionda üstünlük uğrunda bu dövlətlər də mübarizə aparırlar.

ABŞ-ın respublikamıza marağının artmasında ölkəmizdə demokratik inkişaf yolunun seçilməsi, iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatına keçilməsinin də danılmaz əhəmiyyəti vardır.

1991-ci il dekabrın 25-də ABŞ Azərbaycan Respublikasının müstəqilliyini tanımış və 1992-ci il martın 18-dən etibarən bu dövlətlər arasında diplomatik münasibətlər qurulmuşdur.

İkitərəfli əlaqələrin başlanğıc mərhələsi kəşfiyyat xarakterli yönümü və istiqaməti ilə seçilir, ziddiyyətlər və anlaşılmazlıqlarla xarakterizə olunurdu.

Azərbaycan – ABŞ münasibətlərinin ən ziddiyətli məsələsi 1992-ci il oktyabrın 24-də Konqresin 102-ci çağırışının 2-ci sessiyasının keçmiş SSRİ-nin Azərbaycandan savayı digər 11 respublikasına demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardımı nəzərdə tutan "907-ci əlavə"nin qəbulu oldu.

Azərbaycana qarşı iqtisadi yardıma qadağa aksiyasının məzmunu belədir: "Bu və ya digər qanunvericilik aktları çərçivəsində Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı Azərbaycanda o zamanlar hakimiyyəti təmsil edən iqtidarın xarici siyasət sahəsində buraxdıqları səhvlər düzəldilməyincə mümkün olmayacaq".

1993-cü ilin aprelində Vaşinqtonda Azərbaycan səfirliyinin açılması ilə ikitərəfli əlaqələr intensivləşməyə başladı.

Azərbaycan – ABŞ əməkdaşlığı BMT çərçivəsində də davam etdirilmişdir. BMT təhlükəsizlik şurasının beş daimi üzvündən biri olan ABŞ Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal olunması ilə bağlı sözügedən təşkilatın qəbul etdiyi 7 bəyannamə və 4 qətnamənin (822 saylı – 1993-cü il 30 aprel, 853 saylı – 1993-cü il 29 iyul, 874 saylı – 1993-cü il 14

oktyabr və 884 saylı – 1993-cü il 11 noyabr)lehinə səs vermişdir. Adı çəkilən sənədlərdə Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərinin pozulmazlığı və ərazilər ələ keçirmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi prinsipi təsdiqlənmiş, ölkəmizin bütün zəbt olunmuş ərazilərindən işğalçı erməni hərbi birləşmələrinin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur.

Azərbaycan Respublikasının ABŞ prezidenti B. Klintonun xarici siyasət təşəbbüsü olan "sülh naminə tərəfdaşlıq" proqramına qoşulması da (1994-cü il mayın 4-də)ölkəmizin rəsmi Vaşinqtonla hərbi – siyasi əməkdaşlığına təkan verən amillərdəndir.

Azərbaycan – ABŞ münasibətlərində baş vermiş müsbət dəyişikliklər 1994-cü ilin dekabrında ATƏM-in Budapeşt zirvə görüşü zamanı öz konkret nəticələrini verdi.

Budapeşt sammitində ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. ABŞ-ın yaxından köməkliyi nəticəsində Budapeşt sammitinin qəbul etdiyi qətnamədə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏT-in ixtiyarına verildi. Eyni zamanda münaqişə zonalarında, o cümlədən Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində hansısa bir ölkənin deyil, ATƏT sülhməramlı qüvvələrindən istifadə edilməsi qərara alındı.

Azərbaycan – ABŞ münasibətlərində dönüş 1996-cı ildən etibarən özünü göstərməyə başladı. 1996-cı il yanvarın 26-da ABŞ Konqresinin Nümayəndələr Palatası, sonra isə Senatı Azərbaycana birbaşa humanitar yardım haqda Konqresə xəbər çatdırdı ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli iş görür".

Keçmiş sovetlər birliyinin yenicə müstəqillik qazanmış respublikaları içərisində niyə məhz Azərbaycanın iqtisadi qadağa aksiyasına məruz qalmasının səbəbləri ilk növbədə aşağıdakı amillərlə bağlı idi. ABŞ-da güclü erməni lobbisi və diasporunun mövcudluğu, ABŞ-da məskunlaşmış Azərbaycan icmasının zəifliyi.

Konqresmen Çarlz Vilsonun təşəbbüsünün hədəfi “Azadlığı Müdafiə Aktı”na “907-ci əlavə”yə düzəlişdir. “Vilson düzəlişi”nə qədər Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə yardım göstərilməsi mümkün idi. Qəbul edilmiş yeni düzəlişdə isə deyilirdi: “Azərbaycan hökumətinə humanitar yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir”. Bu sənəd Azərbaycanı hər cür dövlət yardımından məhrum edən və bütünlükdə erməni maraqlarına xidmət göstərən “907-ci əlavə”nin ləğvi istiqamətində ABŞ konqresinin ilk uğurlu addımı kimi qiymətləndirilir. 1996-cı il iyulun 11-də ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə yönəlmiş növbəti addımı “Porter düzəlişi” meydana gəldi. “Porter düzəlişi”nə görə ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulurdu. Azərbaycan və ABŞ ali icra hakimiyyəti orqanlarının qarşılıqlı səmərəli fəaliyyəti son nəticədə “Porter düzəlişi” adlı bədnam sənədin Nümayəndələr Palatası və Senatın uzlaşdırıcı komissiyasının sentyabrın 17-də keçirilmiş iclasında tamamilə rədd edilməsini təmin etdi.

Respublikamızın ən ağrılı Dağlıq Qarabağ probleminin də geniş müzakirələr obyektinə çevrildiyi ATƏT-in Lissabon sammiti (1996 dekabr)Azərbaycan – ABŞ münasibətlərinin strateji tərəfdaşlığa doğru istiqamətləndiyini növbəti dəfə təsdiqlədi. Sammitdə Ermənistan – Azərbaycan münaqişəsinin həllini 3 prinsip əsasında tənzimləməyi nəzərdə tutan formul ATƏT-in sədri F.Kottinin bəyanatında irəli sürüldü. ATƏT-in əsas prinsiplərini nəzərdə tutan bu formul, Ermənistan istisna olmaqla qalan bütün iştirakçı dövlətlər, o cümlədən ABŞ tərəfindən qəbul edildi. Beləliklə, başlamaqda olan 1997-ci ildə Azərbaycan – ABŞ münasibətlərinin vəziyyəti yuxarıda bəhs etdiyimiz real mənzərə ilə şərtlənirdi.

Həmin ildə təhlükəsizlik sahəsində də Azərbaycan – ABŞ münasibətləri inkişaf etdirilmişdir. Belə ki, martın 12-13-də Bakıda

Azərbaycan və ABŞ arasında təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair ikitərəfli məsləhətləşmələr aparılırdı. Məsləhətləşmələr gedişində geniş spektrli təhlükəsizlik məsələləri araşdırılmış, o cümlədən, regional məsələlər, sərhədə nəzarət; Avropada Ali Silahlı Qüvvələr məsələsi və onunla bağlı narahatlıq doğuran suallar; "Sülh naminə tərəfdaşlıq" proqramının yaratdığı imkanlar; NATO-nun genişlənməsi və Avropa təhlükəsizliyin arxitekturası, habelə enerji və nəqliyyat dəhlizinin təhlükəsizliyi problemlərinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

1997-ci il iyulun 27-dən avqustun 7-dək Azərbaycan prezidenti H. Əliyevin ABŞ-a ilk rəsmi səfəri oldu. Bu səfərlə iki dövlət arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu.

Səfər zamanı 5 mühüm sənəd:

- ABŞ – Azərbaycan münasibətləri haqqında birgə bəyanat;

- Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Azərbaycan Respublikası ilə ABŞ hökuməti arasında müqavilə;

- ABŞ ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barəsində birgə bəyanat;

- Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat; - Layihələrin təşviqinə dair baş saziş – imzalandı.

Bununla yanaşı, dəyəri 8 mlrd. ABŞ dolları məbləğində qiymətləndirilən yeni 4 neft müqaviləsi bağlandı. Partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzalandı.

Azərbaycan – ABŞ iqtisadi münasibətlərinin yaranması və bütün sonrakı inkişafında neft amili həlledici rol oynamışdır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) xarici enerji kompaniyaları ilə 1994-cü il sentyabrın 20-də imzaladığı ilk neft müqaviləsində ABŞ-ın 4 iri neft şirkəti aşağıdakı mühüm pay faizləri ilə təmsil olunmuşdur.

1.Amoko – 17. 01 %

2.Yunokal – 10. 0489 %

3.Ekson – 8. 0006 %

4.Penzoyl – 4. 8175 %

Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olması ABŞ-ı respublikamızla sıx iqtisadi və siyasi münasibətlər qurmağa vadar edən olduqca əhəmiyyətli amil olsa da, hər halda yeganə cəhət deyildir. Azərbaycan – ABŞ əlaqələri iqtisadiyyatın digər sahələrində də qurulmuşdur.

Ölkə prezidenti Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfərindən sonra ABŞ-la Azərbaycan Respublikası arasındakı əlaqələr daha da genişlənmişdi.

## II. ABŞ-ın Yaxın Şərq siyasəti
## Yaxın və Orta Şərq ölkələri haqqında ümumi məlumat

Yaxın və Orta Şərq ölkələri Afrikadan Misir və Sudan daxil olmaqla 18 ölkədən ibarətdir. Orta Şərqə İran və Əfqanıstan aid edilir. Regionun simasını ilk növbədə onun əlverişli coğrafi mövqeyi və zəngin neft yataqları müəyyən edir.

Bu ölkələrin başlıca əlaməti üç qitənin yol ayrıcında, mühüm hava və dəniz yollarının (Bosfor, Dardanel, Bab-ü-Məndəb boğazları, Süveyş kanalı) kəsişdiyi yerdə yerləşməsidir. Belə coğrafi mövqe Yaxın və Orta Şərq xalqlarının siyasi və iqtisadi həyatına əsaslı təsir göstərmiş və onun tərkibində Mesopotamiya (Dəclə və Fərat çayları arasında), Levant (Aralıq dənizi sahilində) kimi tarixi vilayətlərin yaranmasına səbəb olmuşdur. Siyasi cəhətdən Yaxın Şərq həmişə dünyanın narahat regionlarından biri, "barıt çəlləyi" olmuşdur. XX əsrin II yarısında regionda siyasi vəziyyət qeyri-sabitliyi ilə fərqlənirdi. Yaxın Şərq, İraq-Qərb, Kürd, Kipr problemlərinin uzun müddət həll olunmaması regionda siyasi gərginlik yaradır. Regionun əhalisinin 80%-nı türklər, ərəblər və farslar təşkil edir. Başqa xalqlar arasında kürdlər, yəhudilər, bəluçlar üstünlük təşkil edir. İran körfəzi, Qara və Aralıq dənizi sahillərində, çay vadilərində və vahələrdə əhali sıx məskunlaşmışdır.

Cənub və Cənub-Şərqi Asiya ölkələrinə nisbətən bu regionda urbanizasiya səviyyəsi yüksəkdir. Əfqanıstan, Yəmən və Oman istisna olmaqla, regionun bütün ölkələrinin əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır. Ən iri şəhərləri Tehran, İstanbul, Ankara, Bağdad, İzmir, İsfahan, Dəməşq, Ər-Riyad, Təbriz və başqalarıdır. Müasir dövrdə regionun dünya təsərrüfatında neft və təbii qaz məhsullarının iri istehsalçısı və NİEÖB-nin sənaye məhsullarının geniş satış bazarı kimi çıxış etməsi, dünya sənayesində və iqtisadiyyatında onun rolunu gücləndirmişdir. Buradan NİEÖB qrupuna daxil olan ölkələr, İsrail, Türkiyə, zəngin neft və qaz resursları hesabına sürətlə inkişaf edən, dünyada ən varlı İran körfəzi sahili ərəb dövlətləri və dünyanın ən kasıb ölkələrindən olan Əfqanıstan və İordaniya yerləşir. Yaxın və Orta Şərq ölkələri müxtəlif islam

təşkilatlarında (İKT, ƏÖC, İslam İnkişaf Bankı, İslam İqtisadi və Mədəni Məsələlər Komissiyası və s. ) birləşmişlər.

Sənayenin inkişafı üçün təbiət Yaxın və Orta Şərq regionuna qiymətli sərvətlər bəxş etmişdir. Zəngin neft və təbii qaz resurslarından başqa, region ölkələri filiz, qeyri-filiz və qiymətli metal sərvətlərinə malikdir. Xrom (Türkiyə), xörək duzu (İordaniya) , təbii kükürd və fosforit (İraq)ehtiyatı dünya əhəmiyyətlidir. İran dəmir filizi, Türkiyə mis filizi ilə zəngindir.

Regionda səhra və yarımsəhra landşaftının üstünlük təşkil etməsi suvarma əkinçiliyinin, köçəri və yarımköçəri heyvandarlığın tarixən inkişafına səbəb olmuşdur. Yaxın və Orta Şərqin kənd təsərrüfatında əkinçilik üstünlük təşkil edir.

Regionun xarici əlaqələrində dəniz nəqliyyatı əsas rol oynayır. Regionun ən iri limanları İran körfəzində (Küveyt, Dubay, Əbu-Dabi) , Qara dənizdə (İstanbul, İzmir, İzmit, İsgəndurun)və Aralıq dənizdə (Hayfa)yerləşir. Dəmiryol nəqliyyatı zəif inkişaf etmişdir.

İxracatında neft və neft məhsulları, mayeləşdirilmiş qaz, əlvan metallar, yüngül sənaye və ənənəvi kənd təsərrüfatı məhsulları, idxalında isə sənaye məhsulları üstünlük təşkil edir.

İran Yaxın və Orta Şərqdə sahəsinə görə Səudiyyə Ərəbistanından sonra ikinci böyük dövlətdir. İranın mühüm xüsusiyyəti onun Avropa, Asiya, və Afrika arasında yerləşməsi, dənizlərə çıxışı olmasıdır. İran, əhalisi sürətlə artan dünya ölkələrindəndir. Son 50 ildə əhalisi 4 dəfə artmışdır. İran mürəkkəb milli-etnik xüsusiyyətlərə malik ölkədir. Ölkədə 40-dan artıq xalq yaşayır. Bunlardan ən böyüyü farslardır. Fars dil qrupuna aid sayca ikinci xalq kürdlərdir. Azərbaycanlılar (təqribən 30 mln. nəfər), türkmənlər, qaşqaylar, əfşarlar, şahsevənlər türk dili qrupuna aid edilir.

1979-cu il fevralın 11-də ("İnqilab günü" kimi ölkənin milli bayramı)İranda şah rejimi devrilmiş və ölkə İran İslam Respublikası adlandırılmışdır. Həmin ildə qəbul edilən konstitusiyaya görə (1989-cu ildə bəzi əlavələr edilmişdir)ölkə həyatında ruhanilərin rəhbər rolu təsdiq olunmuşdur. Ölkənin ictimai həyatının bütün sahələri (siyasət, iqtisadiyyat, mədəniyyət, tədris) islamlaşdırılmışdır. Dövlətdə ali vəzifələr bir-birindən aslı olmayan qanun-

verici, icraedici və məhkəmə sistemindən ibarətdir. Bu sistemlər isə ölkənin siyasi və dini rəhbərinin nəzarəti altındadır. Hakim partiya 1979-cu ildə Ruhulla Xomeyni tərəfindən yaradılan İslam Respublikası partiyadır.

İnzibati cəhətdən ölkədə 25 ostan (vilayət)və bir paytaxt mahalı var. Tarixi Azərbaycan torpaqları – Qərbi Azərbaycan, Şərqi Azərbaycan, Zəncan, Savalan inzibati əyalətləridir. Müasir İran neft və təbii qaz sənayesi inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Ötən əsrin 70-ci illərində dünyada yaranmış enerji böhranı nəticəsində İran külli miqdarda valyuta əldə etmişdir.

Ölkə faydalı qazıntılarla (dəmir, mis filizi və s.) zəngindir. Neft və təbii qaz ehtiyatları isə dünya əhəmiyyətinə malikdir.

Neft və qaz sənayesi İran iqtisadiyyatının başlıca sahəsidir və dövlətin valyuta gəlirinin 90%-nı verir. Ən böyük neft emalı zavodları Adaban və Tehran sənaye rayonlarındadır.

Metallurgiya yerli xammala əsaslanır.Maşınqayırma sənayesinin inkişafında AFR və Böyük Britaniyaya məxsus şirkətlərin fəaliyyəti böyükdür. Ənənəvi sahələrdən xalçaçılıq və sənətkarlıq xüsusilə seçilir.

İran dağlıq ölkədir. Dağ və yaylalar onun ərazisinin təxminən 4/5 hissəsini tutur. Kənd təsərrüfatı məhsullarının böyük hissəsini bitkiçilik verir. Dənli bitkilərin əkinləri üstünlük təşkil edir. Heyvandarlıq davar saxlanması üzrə ixtisaslaşmışdır.

Ölkənin xarici ticarət əlaqələrində dəniz nəqliyyatından geniş istifadə olunur. Ən mühüm limanları Ənzəli, Bəndər-Xomeyni, Bəndər-Abbas, Buşəhrdir. Xark və Abadan neft daşınan limanlardır. Boru-kəmər nəqliyyatının inkişafı neft və qaz sənayesi ilə bağlıdır.

Ərəb dünyasının ümumi ərazisinin (14 mln. km$^2$) 27%-i Asiyanın ərəb ölkələrinin payına düşür (ərəb ölkələrinin 10-u Afrikadadır). Asiyanın ərəb ölkələrindən Livan və Suriya Aralıq dənizi sahilində (Levant tarixi vilayətində), əksəriyyəti Ərəbistan yarımadasında, İordaniya və İraqın bir hissəsi isə Kiçik Asiyada yerləşir. İran körfəzindəki Bəhreyn ada dövləti isə 1986-cı ildə torpaq bəndlər üzərində salınmış, Asiyada ən uzun (25 km)körpü vasitəsilə Ərəbistan yarımadası ilə birləşdirilmişdir.

Ərəbistan yarımadası Nil vadisi ilə yanaşı, ilk məskunlaşmış ərazi və dünya mədəniyyətinin beşiklərindən biri hesab edilir. Ərəbistan dünya siyasətində və iqtisadiyyatında tarixən görkəmli rol oynamış və oynamaqda davam edir. Sirli Ərəbistanı zəbt etmək qədim vaxtlarda Makedoniyalı İsgəndərin, Roma imperatorlarının arzusu olmuşdur. Bu ərazi uğrunda İran şahları və Osmanlı sultanları, Avropa müstəmləkəçiləri uzun müddət mübarizə aparmışlar. İran körfəzindən keçməklə Hindistanı fəth etmək xəyalında olan Napoleon da ərəblər adasını ələ keçirmək arzusunda olmuşdu.

İran körfəzi siyasi-hərbi çəkişmələr baxımından həmişə dünyanın ən gərgin regionlarından biri olmuşdur. Qədim dövrlərdə İran imperiyası İran körfəzindən daxili dəniz kimi istifadə etmişdir. Güman edilir ki, elə buna görə də onu İran körfəzi adlandırmışlar. Ərəb ölkələrində onu Ərəb körfəzi, Qərbdə isə sadəcə olaraq Körfəz adlandırırlar. XVI əsrdə bura gələn avropalılar onu "Mirvari körfəzi" adlandırmışlar. Çünki körfəzin sahillərində yerləşən dövlətlər onun dibindən mirvari çıxarırdılar. Sonradan körfəz sahili dövlətləri zəbt etməyə təşəbbüs göstərən Böyük Britaniya yerli tayfaların ciddi müqaviməti ilə qarşılaşmış və bununla əlaqədar körfəzi Dəniz Qulduru sahili adlandırmışdır. Bu regionda iri neft ehtiyatları aşkar edildikdən sonra onu Neft körfəzi adlandırmağa başlamışlar. Yəqin ki, dünyada elə bir körfəz tapılmaz ki, bu qədər ad qazanmış olsun.

Asiyanın ərəb ölkələri əhalisinin 4/5-dən çoxu dörd ölkədə - İraq, Səudiyyə Ərəbistanı, Yəmən və Suriyada cəmləşmişdir. Milli azlıqlar arasında kürdlər üstünlük təşkil edir. Kürdlər , əsasən, İraq və Suriyada yaşayırlar. Son illər kütləvi mühacir axını hesabına (işçi qüvvəsinin çatışmaması ilə əlaqədar) İran körfəzi sahilindəki dövlətlərin əhalisinin etnik tərkibi mürəkkəbləşmişdir. Xarici mühacirlər arasında hindlilər, pakistanlılar, iranlılar üstünlük təşkil edir. Küveyt, Bəhreyn, Qatar kimi ölkələrdə xarici mühacirlər (əsasən, digər ərəb ölkələrindən gələnlər)ölkə əhalisinin 70-80%-nı təşkil edir. bu isə ölkədə yerlilər və gəlmələr problemini yaradır.

Ərəblərin böyük əksəriyyəti islam dininə etiqad edir. Livanda (qismən də Suriyada)yaşayan ərəblərin yarıya qədəri xristiandır.

Aralıq dənizi və İran körfəzi sahilləri, həm də İraqın şimal-qərbindəki Mesopotamiya ovalığında əhali sıx məskunlaşmışdır. İri şəhərlərin əksəriyyəti (Beyrut, Dəməşq, Amman, Bağdad, Küveyt, Əbu-Dabi, Dubay, Bəsrə)də məhz bu bölgələrdədir. Urbanizasiya səviyyəsinə görə Asiyanın bir sıra ərəb ölkələri NİEÖ-dən geri qalmırlar. Küveyt, Bəhreyn, Qatar və BƏƏ-də şəhər əhalisinin xüsusi çəkisi 90%-ə çatmışdır. Bu ölkələrin səhralarında son 20-25 il ərzində yeni, müasir şəhərlər salınmışdır (BƏƏ-də Əl-Ayn və b). Şəhərlərin zövqlə, ərəb memarlıq üslubunda tikilməsi, onların istirahət guşələri, təmizlik və yaşıllığı bura gələnləri, hətta "yaşıllar" partiyasının üzvlərini də heyrətləndirir. Həqiqətən möcüzədir. Möcüzənin sirri isə neftdir, "qara qızıldır".

Bu gün "Ərəblər adası" dünyamiqyaslı nəhəng neft və maliyyə dövlətlərinin "adasıdır".

İran körfəzi sahili ərəb dövlətləri (Səudiyyə Ərəbistanı, Oman, Küveyt, BƏƏ, Bəhreyn, Qatar)dünya iqtisadiyyatında baş verə biləcək dəyişiklikləri düzgün qiymətləndirmiş və qısa tarixi müddətdə neft hay-küyünün bəhrəsindən məharətlə istifadə etmişlər. Məhz bu dövrdə (1970-ci illərin enerji böhranını yadınıza salın)XXI əsrə sıçrayış üçün start meydançasına çevrilə bilən iri infrastruktur sahələrini – sənaye müəssisələrinin çoxunu yarada bilmişlər. Cəmi 20 mln. nəfər əhalisi olan (bunun da 1/3-ə qədəri xarici mühacirlərdir) bu ölkələr qısa müddətdə nəinki ərəb və müsəlman aləmində, həm də dünyada nüfuzlu qüvvəyə çevrilmiş və bir çox məsələlərin həllində fəal rol oynamağa başlamışlar. Güclü maliyyə-iqtisadi potensiala malik olan bu ölkələr dünya təsərrüfatının inkişafına və onun strukturunun dəyişilməsinə təsir edə bilən bir qüvvə kimi formalaşırlar.

Ərəbistan yarımadasında yerləşən ərəb ölkələrinin əksəriyyətinin aqroiqlim şəraiti kənd təsərrüfatı üçün əlverişli deyildir. Yalnız Aralıq dənizi sahilində (Livan, Suriya), Ərəbistan yarımadasının cənubunda (Yəmənin cənubunda)və Mesopotamiya ovalığında müxtəlif bitkilərin (dənli, sitrus, tərəvəz və s.) yetişdirilməsi üçün əlverişli şərait vardır.

Neft, təbii qaz, xurma ağacları Asiyanın ərəb ölkələrinin iqtisadi rəmzidir. Dünya əhəmiyyətli neft və təbii qaz ehtiyatları

Səudiyyə Ərəbistanında, İraqda, Küveytdə, BƏƏ-də, həm də Bəhreyndə mərkəzləşmişdir. Qatar təbii qaz resursları ilə zəngindir (ehtiyatına görə Rusiya, ABŞ və İraqdan sonra dördüncü yeri tutur). Məhz bu resurslarla əlaqədar regionun bütün ölkələrində neft emalı, neft-kimya sənayesi inkişaf etmişdir. Son illər, xüsusilə Qatarda təbii qazın mayeləşdirilməsi üzrə iri müəssisələr tikilmişdir. Alüminium istehsalı regionun sənaye sahələri arasında əhəmiyyətinə görə ikinci yerdədir.

**Fələstin haqqında qısa məlumat**

Fələstin, bu gün İsrail, İordaniya, Livan və hətta Misir tərəfindən işğal edilmiş ərazinin adıdır. O, Yaxın Şərqdə yerləşir. Peyğəmbərlər diyarı olan bu ərazilər şərqdə Ağ dəniz sahillərindən qərbdə Ərəbistan çölünə, cənubda Qəzzə vadisinə qədər uzanır. Fələstin sözünü yunanlar işlətmişlər. Mənası Fələstinlilərin ölkəsi deməkdir. Bu əraziyə sahib olmaq üçün tarix boyunca bir çox müharibələr olmuşdur. Onun ərazisi – 26 min kv. km-də yerləşir. Alt poleolit dövründən burada insanlar yaşamışlar. Sami tayfaları buraya e. ə. V-IV minilliklərdə gəlmiş, e. ə. III-II minillikdə burada yaşamışlar. XVI-XIII əsrlərdə Fələstin Misirin hakimiyyəti altında olmuşdur. Filistinyanların sahil ətrafında XIII əsrdə ağalığı təmin edilmişdir. E. ə. XI əsrdə bu ərazidə İsrail-Yəhudi çarlığı yaranmış, Davud və Solomonun dövründə o, yüksəliş keçirmişdir. E. ə 935-ci ildə, o, İsrail və Yəhudi çarlığına parçalanmış, e.ə. VIII əsrin sonlarında İsrail Assuriya tərəfindən tutulmuşdur. E. ə. VI əsrdə Yəhudi çarlığını da Babil işğal etmişdir. E. ə. IV əsrə qədər Fələstin Əhmənilərin, e. ə. IV əsrdə isə Makedoniyalı İskəndərin hakimiyyəti altında olmuşdur.E. ə. 63-cü ildə onu Roma işğal etmişdir. 395-ci ildən bu ərazi Bizansa tabe olmuşdur. 1099-cu ildə sələbçilər Qüdsü tutmuş və krallıq yaratmışlar. 1187-ci ildə Səlahəddin onları Qüdsdən qovmuş, Fələstin əyyubilərə tabe olmuşdur. 1516-cı ildə isə türklər Fələstini işğal etmişdilər. 1832-ci ildə Fələstini Misir paşası Məhəmməd Əli zəbt etsə, 1834-cü il üsyanından sonra yenidən türklərin tabeliyinə keçmişdir.

Fələstin 1517-ci-ildə Yavuz sultan Səlim tərəfindən Osmanlı torpaqlarına qatılmış, birinci Dünya müharibəsinə qədər də Osmanlı dövlətinin tərkibində qalmışdır. Bu ərazidə yaşayan 3 böyük

səmavi dinə mənsub olan insanlar həmişə dinc şəraitdə yaşamışlar. 1916-cı ildə Fələstin Osmanlı idarəçiliyindən çıxmışdır. Fələstin və İsrail düşmən iki qardaşdır. Bu millətlər köklərini İbrahim Peyğəmbərə bağlayırlar. Ona görə də qardaş hesab edə bilərik. Fələstin-İsrail müharibəsi XX əsrin 40-50-ci illərində başlasa da, kökləri çox daha keçmişə gedir. 1916-cı il iyulda başlayan ərəblərin üsyanında Ərəb qoşunları Şamı ələ keçirib Hələbə irəliləmişlər. 1920-ci ildə San Remo konfransında müharibəyə yekun vurulmuş, Orta Şərq ingilislərlə fransızlar arasında bölünmüşdür. İngilislərin payına İraq, Fələstin, Misir və İordaniya, Fransızların payına isə Suriya , Livan , Əlcəzair və Tunis düşmüşdür. Əvvəl Ərəb-İsrail məsələsi, bu günümüzdə isə Fələstin-İsrail problemi, bir çox ölkənin sıra ilə qarışdığı, kömək etməkdən çox öz mənafeləri üçün məsələni böyütdükləri bir problemə çevrildi. Tarixçilər bu məsələni kağız üzərində həll edə bilərlər, lakin həll edilməyən, hər gün ölən insanların sayı artır, sadəcə işğal üzündən deyil, həm də yaşayış mühütü də insanları hədələyir. Fələstin probleminin kökləri XIX əsrə gedib çıxır. XIX əsrin 40-cı illərindən başlayaraq Fələstinin geosiyasi cəhətdən mühüm nöqtədə yerləşdiyini nəzərə alaraq Qərbin buraya marağı artdı. 1869-cu ildə Süveyş kanalının açılışından sonra buraya diqqət daha da çoxaldı. İki min ilə yaxın bir müddətdir ki, dünyanın hər yerinə dağılmış yəhudilər XIX əsrin ortalarında özlərinin yaşayacaqları bir dövlət yaratmaq fikrinə düşdülər. Onlar dövləti əvvəl ayrılmaq məcburiyyətində olduqları Fələstində qurmaq istəyirdilər. Rusiyada çox sayda yəhudu ailəsi 1881-ci ildən sonra ölkəni tərk etmək məcburiyətində qaldılar. Yəhudilərin çoxu Fələstində yerləşdi. 1882-ci-ildə Leo Pinksler ilk dəfə Fələstində Yəhudi dövləti qurmaq fikrində idi, lakin bu alınmadı. Nəhayət, XIX əsrin sonu - XX əsrin əvvəllərində yəhudilərin Fələstinə köçüb gəlməsinin başlaması ilə Fələstin yenidən diqqət mərkəzinə çevrildi. Həm də bu indiyə qədər davam edən Yaxın Şərqdəki böhranın başlanğıcını qoydu. 1937-ildə Peel komissiyası Fələstini ikiyə bölüb Ərəblər və Yəhudilər arasında paylaşdırmaq istədi, lakin bu iki tərəf üçün də qəbul edilməz oldu. Bu istək 1948-ci ldə həyata keçirildi. İkinci dünya müharibəsindən sonra Yaxın Şərq

ölkələrində müstəmləkə əleyhinə genişlənən milli-azadlıq hərəkatı başladı.

1947-ci il noyabrın 29-da BMT Baş Məclisinin İkinci növbəti sessiyasında 33 dövlətin lehinə (ABŞ-da daxil olmaqla), 13 dövlətin əleyhinə və 10 dövlətin bitərəf qaldığı 181 saylı bəyannaməsi qəbul edildi. Komitənin 2-ci təklifi olan Fələstinin 2 dövlətə-ərəb və yəhudi dövlətinə və Yerusəlimin (Qüds) inzibati dairəyə (xristian, müsəlman və iudey dinlərinin müqəddəs yerlərinin qorunması məqsədi ilə xüsusi beynəlxalq rejim altında) parçalanması planını təqdir etdi.

1948-ci ilin mayın 14-də ingilis qoşunu Fələstini tərk etdi. Elə həmin gün sionizm hərəkatını görkəmli liderlərindən olan David Ben-Qurion İsrail dövlətini yarandığını elan etdi və özünün rəhbərliyi ilə hökumət təşkil etdi.

Beləliklə, ABŞ İsrail vasitəsi ilə özünə çox əlverişli mövqe qazanaraq bu regionu da “soyuq müharibə” çərçivəsinə daxil etdi və tam bir şəkildə İsraili həm beynəlxalq arenada, həm də regional siyasi məsələlərdə müdafiə etdi. Lakin ABŞ hakim dairələri İsrailin SSRİ ilə yaxınlaşmasından qorxurdular və ona etibar etmirdilər. Lakin Koreya müharibəsi zamanı İsrailin ABŞ-ı müdafiə etməsi ABŞ-da belə şübhələri qismən də olsa, aradan qaldırdı.

1948-ci ilin mayın 14-də İsrail dövlətinin elanı ilə ilk Ərəb – İsrail müharibəsi başladı. İsrail ilə müxtəlif Ərəb dövlətləri arasında müharibələrin ən mühümləri 1948-1949, 1956, 1967, 1973, 1982-ci il müharibələridir. İsrail dövlətinin yaradılmasına cavab olaraq 24 saat sonra Fələstin ərəbləri bir sıra ərəb ölkələrinin (Misir, İraq, Suriya, Livan, Yəmən) yardımı ilə İsrailə müharibə elan etdilər. Kiçik fasilərlə 8 ay davam edən müharibə 1949-cu il yanvar ayının 7-də Rodos adasında imzalanan atəşkəs razılaşması ilə başa çatmışdı. Müharibədə Ərəb dövlətləri məğlub oldu. Bu anlaşma ilə Cəlilə və Nəcəf İsrailə, Qəzzə Misirə verildi. İsrail Fələstinin Ərəb dövləti üçün ayrılmış ərazinin bir hissəsini zəbt etdi. 900 minə yaxın fələstinli öz doğma yurdlarını tərk etməyə, qonşu ölkələrə qaçmağa məcbur oldular. Beləliklə, həmin vaxtdan hələ indiyədək həll olunmamış ərəb – İsrail münaqişəsinin əsası qoyuldu.

## İkinci dünya müharibəsindən sonra ABŞ-ın Yaxın Şərqə marağının artması

İkinci dünya müharibəsindən sonra ABŞ-ın Yaxın Şərq siyasəti "Trumen doktrinası" və Sovet İttifaqı ilə həmsərhəd olan ölkələrdə anti-sovet plasdarmların (əməliyyat meydanı) təşkil edilməsi ilə müşaiyət olunurdu ki, bu ölkələr əsasən Türkiyə və İran idi. Məlum olduğu kimi ABŞ Yaxın Şərqdə siyasətinin bu formada qurulmasının əsas səbəblərindən biri "soyuq müharibə" və Trumenin dövründə müharibənin ideologiyasına çevrilən "qarşısını alma" nəzəriyyəsi ilə sıx tellərlə bir-birinə bağlı olması idi. Digər tərəfdən ABŞ-ın buradakı siyasəti sözsüz ki, XIX əsrin ortalarından ta bu günümüzə qədər həm iqtisadi, həm də siyasi cəhətdən böyük əhəmiyyətli bir təbii ehtiyat olan, neft amili ilə səsləşirdi.

1950–ci ildə ABŞ–ın dövlət katibi Con Foster Dalles elan etdi ki, artıq siyasətdə bitərəflikdən tamamilə əl çəkmək lazımdır. Hökumətin qarşısında belə bir seçim qoyuldu ki, ABŞ – ın başçılığı altında olan azad dünyanın tərəfində olmalı, ya da kommunistlərə birləşmək.

Nə zaman ki, "soyuq müharibə" ciddi alovlandı, Con Foster Dalles müstəmləkə zülmündən azad olan gənc dövlətlərin rəhbərlərinə elan etdi ki, "Kim bizimlə deyil, deməli bizə qarşıdır". Bu prinsipcə ultimatum xarakteri daşıyırdı. Bu zaman Tomas Mann öz gündəliyinə yazırdı ki, "Dalles ya ABŞ siyasətinin məsuliyyətsizliyini müdafiədə tərəfdarları bağlayaraq dünya boyu sürür".

1950 – ci ilin aprelində Trumen Consona elan etdi ki, "iqtisadiyyatla müdafiə siyasəti qurtarmışdır". Hərbi sənayeni bərpa etmək haqqında qanun qəbul edildikdən sonra federal hərbi xərclər 1950 – ci ildəki 80 mlrd dollardan 1952 – ci ildə 241 milyard dollara qalxdı. Nəticədə hər il 190 – 200 mlrd dollardan az olmadı.

ABŞ hələ İkinci dünya müharibəsi illərindən bəri Yaxın Şərqə xüsusi maraq göstərməyə başlamışdı. Maraqların iqtisadi tərəfini qeyd edərkən ilk öncə onu qeyd edək ki, ABŞ burada öz iqtisadi və siyasi təsirini yaymaq və möhkəmləndirmək üçün ilk öncə özünün müttəfiqi hesab etdiyi Böyük Britaniya ilə 1944-cü il

avqustun 8-də Yaxın Şərq məsələsi üzrə neft müqaviləsi bağlamışdı. Müqaviləni imzalamaqla ABŞ onsuz da öz əvvəlki qüdrətini itirmiş İngiltərənin ona öz siyasətini yürütməsində (yaxın şərq siyasəti) maneə olmayacağını bilirdi və müqaviləni imzalamaqla ABŞ artıq gələcəkdə bu regiona effektiv surətdə təsir etmək imkanı qazanırdı. Bununla da o neftin qiymətinə, onun çıxarılması və istehlakına bu regionda və ona qonşu olan regionlarda nəzarət etmək imkanlarına yiyələnmişdi. Hələ müqavilə imzalanmazdan əvvəl ABŞ prezidenti İngiltərənin ABŞ-dakı səfiri ilə danışıqlar zamanı belə bir fikir irəli sürmüşdü:

"Fars (İran) nefti sizin olsun. . . , İraq və Kuveytin neftini isə böləcəyik. Səudiyyə Ərəbistanın neftinə gəlincə isə o bizimdir".

Artıq danışıqlar masası arxasında Yaxın Şərq nefti iki ölkə arasında bölündü və bundan sonra ABŞ-ın inhisarçı korporasiyaları fəal surətdə bu ölkələrdə neftin hasilatı ilə məşğul olmağa başladılar. Bütün bunların nəticəsi kimi ABŞ korporasiyaları bu ölkələrdən 1945-ci ildə 2,5 milyon ton neft istehsal etdilər . İngilis və hollandlar isə bundan 7 dəfə çox neft əldə etdilər. 1949-cu ildə isə mənzərə bir qədər dəyişdi: amerikalılar ingilisləri geridə qoyaraq təxminən 40 milyon ton neft çıxarırdılar.

İkinci dünya müharibəsi qurtardıqdan sonra ABŞ –ın Türkiyə, Səudiyyə Ərəbistanı, İran, Misir, Suriya, Livan, Transiordaniya və s. ölkələrlə iqtisadi əməkdaşlığı çoxlu sayda missiya, məsləhətçi və təlimatçıların gəlişi ilə müşayiət olunurdu. ABŞ-ın iqtisadi üstünlüyü sənaye cəhətdən zəif inkişaf etmiş ölkələrə iqtisadi və texniki köməklik göstərməsi və borc verilməsi məsələlərinə dair müqavilələr bağlaması idi ki, bu həm həmin ölkələrin iqtisadiyyatının inkişafına, həm də amerikan inhisarçılarına bu ölkələr üzərində nəzarəti ələ almağı asanlaşdırırdı.

Artıq, bu proseslərin məntiqi nəticəsi kimi, 50-ci illərin əvvəllərində ABŞ ərəb dövlətlərinin idxal mövqelərindən İngiltərəni sıxışdırıb çıxardı. Onu da qeyd edək ki, hələ 40-ci illərin sonu da onun Yaxın Şərq ölkələrinə idxalatı müharibə dövründən əvvəlki dövr ilə müqayisədə 2,5 dəfə çox olmuşdu.

ABŞ-ın bu regiona siyasi baxımdan maraq göstərməsi isə bu ərazilərin strateji baxımdan həm əlverişli mövqedə olması, həm

də sovetlərə qarşı olacaq müharibə zamanı bu ərazilərdən bir vasitə olaraq istifadə etmək istəyi ilə bağlı idi.

İkinci dünya müharibəsindən sonra ABŞ-ın bu regionlara ilk mütəşəkkil siyasi təzyiqi İrana qarşı oldu. Məlum olduğu kimi hələ İkinci dünya müharibəsi dövründə ABŞ İngiltərə və SSRİ ilə birgə faşist təhlükəsinin qarşısını almaq və lend-liz qanunu əsasında bu ərazilərə maddi yardımın daşınması üçün "cənub dəhlizi"ni yaratmaqdan ötrü üçün İrana öz qoşunlarını yeritmişdi. Müharibə qurtardıqdan sonra isə ABŞ-ı artıq İranda faşist təhlükəsi deyil, sovet təhlükəsi narahat etməyə başlamışdı. Trumen artıq İranda yaradılmış kommunist partiyası olan **"Tudə"** (**Xezbe Tubeye İran**) partiyasının ölkənin sovetlər tərəfindən işğal olunmuş şimal hissəsində fəal şəkildə fəaliyyət göstərməsindən xəbərsiz deyildi. Narahatçılığı daha da artıran əsas amillərdən biri partiya sıralarının günü-gündən genişlənməsi idi. Bundan əlavə müharibə qurtardıqdan sonra "soyuq müharibə" ilə əlaqədar olaraq SSRİ İranda həm qeyd etdiyimiz partiya vasitəsi ilə və həm də özünün siyasi manevrləri ilə ölkənin daxili və xarici siyasətinə fəal surətdə müdaxilə etməyə başlamışdı.

Trumen isə bununla heç bir vəchlə razı ola bilmirdi. Ona görədə soyuq müharibə dövründə ABŞ İngiltərəninköməkliyi ilə ölkənin ilk növbədə iqtisadi həyatına müdaxilə etməklə əsas neft rayonları üzərində İngiltərə ilə birgə nəzarəti təmin etməyə başlamışdı ki, bu nəzarət əsasən İngilis-İran neft kompaniyası vasitəsilə edilirdi.

1951-ci ildə İranda baş nazir postuna Məhəmməd Müsəddiq gəldi. Onun nazir olmasından sonra ölkədə xarici müdaxiləyə qarşı dura biləcək bir sıra islahatlar layihəsi hazırladı. İslahatların əsasını isə neft sektorunun milliləşdirilməsi təşkil edirdi. Neft sektorunun da çox böyük bir hissəsi ingilis-iran kompaniyasını əlində idi. Bu kompaniya vasitəsi ilə ingilis koorparasiyaları çıxarılan neftdən böyük həcimdə gəlir əldə edirdilər. Baş nazirin milliləşdirmə siyasəti İran-İngiltərə münasibətlərinə əsaslı surətdə təsir etmişdi. Bundan əlavə, Müsəddiqin Tudə partiyasına qarşı bəzi güzəştlər etməsi və onun siyasi proqramlarını dəstəkləməsi də ABŞ-ı narahat edirdi. 1952-ci ilin sonlarında İngiltərə hökuməti İranda baş nazirin

devrilməsi üçün ABŞ-dan ona köməklik etməsini xahiş etdi. ABŞ bu ölkədə öz siyasi və iqtisadi mövqelərini qorumaq üçün MKİ (Mərkəzi Kəşfiyyat İdarəsi) vasitəsilə əməliyyat planı hazırladı. Bunun üçün idarənin rəhbəri Allen Dalles İranda baş nazirin siyasətindən narazı qüvvələrə başçılıq edən general Fəzlullah Zahidi ilə əlaqə yaratdı və plan əsasında baş tutacaq əməliyyata 1 milyon dollar pul ayırdı. MKİ-nin zabitlərindən olan Kermit Ruzveltin başçılığı ilə xüsusi bir dəstə İrana göndərildi. 1953-cü ilin avqustun 21- də ABŞ zabitinin (Kermit Ruzvelt) başçılığı ilə “Ayaks” əməliyyatı əsasında Müsəddiq baş nazir postundan kənar edildi. Baş nazir postuna isə ingilis-amerikan siyasətinin fəal tərəfdarlarından olan general Fəzlullah Zahidi əyləşdi. Məhz bundan sonra neft sənayesinin milliləşdirilməsi prosessi dayandırıldı.

ABŞ və İngiltərə ilə diplomatik əlaqələr bərpa olundu və onların əvvəlki konsessiyaları geri qaytarıldı. Beləliklə, ABŞ Yaxın Şərq siyasətinə əsaslı surətdə İranda mövqelərini möhkəmləndirməklə başladı. ABŞ burada mövqelərini ilk növbədə iqtisadi əsaslar üzərində əsasən neft hasilatı əsasında möhkəmləndirmişdi.

## ABŞ-ın xarici siyasətində İkinci Dünya müharibəsi nəticəsində baş verən dəyişikliklər

İkinci dünya müharibəsindən sonra ABŞ dünyanın birinci super dövlətinə çevrildi.

1948-ci ildə ABŞ-ın dünya sənaye məhsulunun 55%-ni verirdi. O, dünyanın iqtisadi cəhətdən ən güclü dövləti oldu. Bu dövrdə ABŞ dünya hegemonluğu uğrunda mübarizəni genişləndirdi. ABŞ-SSRİ ziddiyyətləri kəskinləşdi. Qütbləşmə yarandı. SSRİ-yə qarşı planlar tərtib edildi. Çörçilin Fultondakı çıxışı ilə soyuq müharibənin əsası qoyuldu. Corc Kennan “Çəkindirmə” doktrinasını irəli sürdü ki, bu doktrina SSRİ-yə qarşı çevrilmişdi.

1947-ci ildə ABŞ xarici siyasətinin strateji xətti işlənib hazırlandı. Trumen doktrinası beynəlxalq münasibətlər tarixində yeni mərhələnin başlanğıcını qoymuş oldu. Bu doktrinanın əsas məzmunu aşatıdakı kimi idi.

**Trumen doktrinası**

Bu doktrina ABŞ prezidenti Harri Trumen tərəfindən İkinci Dünya müharibəsindən sonra 1947 – ci ilin martın 12 – də açıq səslənmişdir. Onun əsasını ABŞ – ın SSRİ – yə qarşı yönəldilmiş "çəkindirmə siyasəti" təşkil edirdi. Bu doktrina ABŞ – ın dünyada siyasi – iqtisadi hegemonluğunun zəruriliyi uğrunda mübarizəsini əks etdirirdi.

Doktrinanın hazırlanmasında Corc Kennan, Allen Dalles, Poy Henderson, D.Aceson və başqaları iştirak etmişlər.

1947 – ci ilin martın 12 – də Harri Trumenin Konqresin iclasında nitqinin mətni belə idi: "Situasiyanın ciddiliyi, dünyada bu günkü vəziyyət Konqresin birləşmiş sessiyası qarşısında mənim çıxışımı tələb edir. Bizim ölkəmizin xarici siyasəti və milli təhlükəsizliyi təhlükə altındadır. Mövcud situasiyanın bir aspektini indi sizə təqdim edəyəcik. Bu Türkiyə və Yunanıstanla bağlıdır. Yunan hökuməti ABŞ – dan maliyyə və iqtisadi yardım edilməsini xahiş etmişdir. Bu ölkədə fəaliyyət göstərən ABŞ səfirliyi və hazırda orada olan Amerika iqtisadi missiyasının verdiyi xəbərlər bunun doğru olduğunu təsdiq edir. Yunanıstanın azad ölkə kimi qalması üçün ona kömək göstərilməsi son dərəcə vacibdir.

İdeal hökumətlər yoxdur. Demokratiyanın başlıca nailiyyətlərindən biri onun üzdə yerləşməsi, demokratik proseslər zamanı yetişməsidir. Yunanıstan hökumət ideal deyil. 0,85% yunan parlamentinin üzvlərini təmsil edirlər. Bu parlamentin üzvləri keçən ilki seçkidə seçilmişlər. 692 ABŞ vətəndaşının daxil olduğu xarici müşahidəçilər belə bir rəyə gəlmişdilər ki, bu seçkilər Yunanıstan xalqının iradəsini ifadə edərək ədalətli olmuşdur.

Yunanıstan hökuməti xaos və ekstremizm mühitində işləyirdi. O, səhvlər etdi. Bu ölkəyə kömək göstərmək heç də o, demək deyildir ki, ABŞ bu ölkə üçün hər şeyi dəyişdirir. Hansı ki, bu vaxta qədər Yunanıstan hökuməti etmişdir və ya edir. Biz keçmişi mühakimə etdik, indini də mühakimə edirik ki, hər hansı ekstremist tədbirlər böyük dözümsüzlüyə çağırış ola bilər. Yunanıstanın qonşusu Türkiyənin də bizim qayğımıza ehtiyacı var. Müstəqil və iqtisadi cəhətdən əhəmiyyətli ölkə olan gələcək Türkiyənin demokratik dünya üçün vacibliyi gələcək Yunanıstandan az

deyil, bəlkə də çoxdur. Türkiyədəki hazırkı şərait tam Yunanıstandan fərqlənir. Türkiyə qonşu ölkədə olduğu kimi yoxsulluq keçirməmişdir. Bütün müharibə ərzində Böyük Britaniya və ABŞ Türkiyəyə maddi kömək göstərmişdilər. Bununla bərabər, Türkiyənin bizim köməyimizə ehtiyacı var. Bu kömək Türkiyəyə öz ərazi bütövlüyünü saxlamaqdan ötrü, modernləşmək üçün lazımdır. Britaniya hökuməti bizə bildirmişdir ki, öz ölkəsinin xüsusi çətinlikləri ilə əlaqədar olaraq o, daha bundan sonra Türkiyəyə iqtisadi və maliyyə yardımı edə bilməyəcəkdir. Bu həmçinin Yunanıstana da aiddir. Biz yeganə ölkəyik ki, bu köməyi etməyi bacarırıq. ABŞ – ın xarici siyasətinin əsas məqsədlərindən biri budur ki, zəruri şərait yaradılsın ki, biz də dünyanın digər xalqlarının, insanların həyat tərzinin qorunması imkanı qazanaq. Çünki azadlığa hamının ehtiyacı vardır. Bu Almaniya və Yaponiya ilə müharibənin həlledici səbəbi idi. Biz o ölkələr üzərində qələbə çaldıq ki, o ölkələr öz iradələri və həyat tərzlərini başqa xalqlara da qəbul etdirmək istəyirdilər.

Xalqların dinc inkişafına təminat vermək üçün ilk növbədə onlara azadlıq lazımdır. ABŞ BMT – nin təşkilində iştirak etdi. BMT bütün onun üzvlərinin azadlığını və müstəqilliyini təmin etmək üçün yaradılmışdır. Biz azad millətləri, onların demokratik təsisatlarını totalitar rejimlər tərəfindən edilən təcavüzə qarşı onların milli tamlığını müdafiə etməliyik. Birbaşa və dolayı yolla təcavüz bütün dünya üçün o cümlədən ABŞ üçün təhlükəli olduğu üçün onun qarşısı mütləq alınmalıdır.

Əksər ölkələrin xalqları bu yaxınlarda onların arzusuna zidd olaraq totalitar rejimlərə bağlandılar. ABŞ hökuməti dəfələrlə onları qorxudaraq məcbur etmək siyasəti əleyhinə etirazını bildirmişdir. Polşa, Ruminya və Bolqarıstanda Yalta sazişi kobudcasına pozulmuşdur. Mən çoxlu digər ölkələrdə buna oxşar hadisələrin olduğunu aşkar etmək istəyirəm .

Hazırda demək olar ki, dünyadakı millətlər alternativ həyat tərzləri arasında seçim etməlidirlər. Bir həyat tərzi çoxluğun idarəsinə əsaslanır və azad demokratik müəssisələrdən, azad seçkilərdən, şəxsiyyətin azadlığına təminatdan, söz, din azadlığı və siyasi yığıncaq azadlığından fərqlənir.

İkinci həyat tərzi azlığın arzusuna əsaslanır, çoxluq üzərinə zorakılıqla qoyulur. O, terror və yığıncaq, mətbuatın idarə edilmə-si, şəxsi azadlıq üzərində təzyiqlə fərqlənir.

Mən belə hesab edirəm ki, Birləşmiş Ştatlar xarici təzyiqlərə və ya, silahlı azlıqların təcavüzünə qarşı müqavimət göstərən azad xalqları müdafiə edir. Mən belə hesab edirəm ki, biz xalqların azad olunmasına kömək etməliyik ki, onlar talelərini özləri həll etsinlər. Bizim köməyimiz ilk növbədə iqtisadi və maliyyə köməyi olmalıdır.Bu kömək həmin ölkələrdə iqtisadi sabitliyə gətirib çıxaracaq.Bu qayda ilə öz təsirini siyasi proseslərə də göstə-rəcəkdir. Dünya yerində dayanmır və status – kvonu saxlamaq mümkün deyildir. Biz qüvvələr nisbətində dəyişikliyə və BMT–nin Nizamnaməsinin pozulmasına yol verə bilmərik. Xalqları təcavüz və məcburetmə metodu ilə idarə etmək yol verilməzdir.

Yunan millətinin tamlığı və yaşaması daha geniş perspektivə ciddi əhəmiyyət kəsb etdiyini anlamaq üçün xəritəyə baxmaq kifayətdir. Əgər Yunanıstan silahlı azlığın nəzarəti altına düşərsə, bu effekt ona qonşu olan Türkiyəyə də yayıla bilər. İntizamsızlıq və anarxiya bütün Yaxın Şərqə də yayıla bilər. Bundan başqa müstəqil dövlət Yunanıstanın yoxa çıxması daha çox Avropanın müharibələrdən sonra bərpa olunan azad ölkələrinə də təsir edə bilər. Uzun zaman öz azadlığı uğrunda mübarizə aparan ölkələr onu itirsələr, bu uzun bir faciə olacaq. Sərbəst təsisatların iflası və müstəqilliyin itirilməsi ancaq onlar üçün deyil, bütün dünya üçün fəlakət olardı. Biz bu çətin anda Türkiyə və Yunanıstandakı vəziyyətə təsir göstərməsək, bunun nəticələri həm Qərb, həm də Şərq üçün çox uzaqlara gedə bilər.

Biz fasiləsiz və qətiyyətli hərəkət etməliyik. Buna görə də mən xahiş edirəm ki, konqres Türkiyəyə və Yunanıstana kömək etmək üçün 400 milyon dollar 1948 – ci ilin iyunun 30- nadək yardım ayırsın. Bu pula əlavə olaraq Türkiyə və Yunanıstana bu ölkələrin xahişi ilə ABŞ – ın hərbi və mülki personalı göndərilsin. Bu personal həm bu dövlətlərin modernləşdirilməsi vəzifəsinə kömək etmək və həm də iqtisadi və maliyyə köməyindən istifadəni müşahidə etmək məqsədini güdməli idi.

ABŞ İkinci Dünya müharibəsində qələbəyə 341 milyard dollar qoymuşdur. Bu vəsait dünya azadlığı və bütün dünyada sülh naminə qoyulmuşdur. Türkiyə və Yunanıstana edilən bu kömək həmin vəsaitin 1/10 – ni təşkil edir. Ancaq bu sağlam fikirdir. Biz göstərəcəyik ki, bizim qoyduğumuz investisiya hədər yerə getməmişdir. Totalitar rejimlər əsasında bədxassəli yoxsulluq da artır. İnsanlarda yaxşı həyata ümid öldükdə totalitar rejimlər tam artıma nail ola bilirlər. Biz insanların ümidini müdafiə etməliyik.

Dünyanın azad xalqları onların azadlığını müdafiə etmək üçün onlara kömək etməyi bizdən xahiş edirlər.Əgər biz liderliyimizdə tərəddüd ediriksə, onda biz bütün dünyada sülh üçün təhlükə yaratmış olarıq. Əlbəttə, bizim millətin yüksək rifahını təhlükə altında qoya bilmərik. Son hadisələr bizim qarşımızda böyük məsuliyyət qoyur. Mən əminəm ki, konqres bu məsuliyyətdən çəkinməyəcəkdir".

Bu doktrina ABŞ-ın xarici siyasətində dönüş mərhələsinin başlanması demək idi.

Yunanıstandakı vətəndaş müharibəsi, boğazlarda SSRİ-nin hərbi baza yaratmaq istəyi, Yaxın Şərqdə neft amili ABŞ xarici siyasətində dönüşün yaranmasına səbəb oldu. Bunların içərisində Yaxın Şərqə münasibət xüsusi rol oynayırdı. ABŞ-ın İkinci Dünya müharibəsindən sonra Yaxın Şərq neftinə tələbatı artdı. Əgər 1938-ci ildə ABŞ inhisarlarının payına Yaxın Şərq neftinin 14% (3,2 mln. ton)gəliri düşürdüsə, 1951-ci ildə bu rəqəm 57,8% (56,6 mln. ton) təşkil edirdi.

İkinci dünya müharibəsindən sonra ABŞ "azad dünyanın" demokratik institutlarının əsaslarını hər cür qəsdlərdən hərtərəfli müdafiə etməyi öz xarici siyasətinin əsas vəzifəsi elan etdi. Marşall planı ortaya çıxdı. Bu planın müəllifi ABŞ-ın dövlət katibi Marşall oldu. 1947-ci ilin iyunun 27-dən iyulun 2-dək Parisdə bu məsələ ilə əlaqədar olaraq İngiltərə, Fransa və SSRİ Xarici işlər nazirlər müşavirəsi keçirildi. "Xarici dövlətlərə yardım haqqında 1948-ci il qanunun" 1948-ci il aprelin 3-də ABŞ konqresi tərəfindən qəbul edildi. Avropanın 16 ölkəsinə 12 milyard dollar dəyərində yardım edildi. Bu ABŞ-ın Avropa işlərinə müdaxiləsinin güclənməsinə səbəb oldu.

1950-ci ildə “hər şeydən öncə Asiyadır!” şüarının irəli sürüldü, dövlət katibi Açelson 1950-ci il yanvarın 12-də Koreya işlərinə qarışmaq haqqında bəyanat verdi. 1950-ci il iyun ayının 25-də Şimali Koreyanın Cənubi Koreyaya hücumu ilə Koreya müharibəsi başladı. Bu müharibə 1953-cü ilə qədər davam etdi. ABŞ-ın Cənubi Koreyanı, SSRİ-nin isə Şimalı Koreyanı müdafiə etməsi Koreyanın iki dövlətə parçalanmasına səbəb oldu.

## ABŞ-IN YAXIN ŞƏRQDƏ ROLU VƏ ÖZ MARAQLARIRNIN TƏMİN EDİLMƏSİ

İkinci dünya müharibəsindən sonra ABŞ-ın xarici siyasətinin əsas mahiyyəti dünya ağalığına nail olmaq idi. ABŞ-ın öz ambisiyasını həyata keçirmək, Amerikanın enerji maraqlarını qorumaq üçün hərbi və siyasi təzyiqlərdən, iqtisadi sanksiyalardan və sair metodlardan istifadə etməyə başladı. ABŞ iqtisadiyyatının getdikcə daha çox neftdən asılılığını nəzərə alsaq, bu dövlətin dünya üzərində öz hökmranlığını möhkəmləndirmək üçün Yaxın Şərqdəki enerji ehtiyatlarına nə dərəcədə möhtac olduğunu aydınlaşdırmaq çətin deyildi. Bu halda ABŞ-İsrail alyansında ABŞ-ı İsraildən Yaxın Şərq regionunun müsəlman ölkələrinə qarşı istifadə etməsinin məntiqini də başa düşmək olardı. Yaxın Şərqdə baş verən hadisələrə, o cümlədən İsrail-ərəb münaqişəsinə və hətta Fələstinin daxilində baş verən hadisələrə ABŞ-ın Yaxın Şərq siyasətinin tərkib hissəsi kimi baxmaq lazım idi. Regiondakı münaqişələr İsrail dövləti yaranandan sonra daha ciddi xarakter alsa da, əslində etnik və ya dini münaqişə deyildi. Bu münaqişələrin XIX əsrin sonu XX əsrin əvvəllərində Böyük Britaniya tərəfindən qızışdırıldığı və İkinci Dünya müharibəsindən sonra məhz ABŞ tərəfindən idarə edilərək onun Yaxın Şərqdəki siyasətinin həyata keçirilməsi üçün edildiyi aydındır.

Müsəlman aləminə bəla gətirən sərvət – neftdir. İsrail-Ərəb münaqişəsi, o cümlədən İsrail-Livan münaqişəsi ABŞ-ın Yaxın Şərq siyasətinin tərkib hissəsidir. ABŞ-ın Yaxın Şərqdə əldə etdiyi neft ehtiyatlarının təhlükəsiz istismar edilməsi üçün müvafiq təhlükəsizlik zonalarının yaradılması, yeni neft ehtiyatlarının nəza-

rətə alınması üçün hərbi-siyasi və iqtisadi zəminin hazırlanması zəruri idi. Yaxın Şərq regionda ciddi iqtisadi və siyasi maraqları olan ABŞ İsrail-ərəb münaqişəsinin həllinin mümkün olduğu dövrlərdə də onun dondurulması və ya gərginliyin saxlanması yolunu tutmuşdu. İsrailin açıq-aşkar dəstəklənməsi və ona hər cür, o cümlədən hərbi, maliyyə və siyasi yardımların göstərilməsi, İsrailin Yaxın Şərqdə istənilən an zor tətbiq etməsinə «yaşıl işığın» yandırılması, əslində bu münaqişələrin sonrakı dövrlərdə daha da dərinləşməsinə səbəb olmuşdu. 1966-cı ildə ABŞ-ın İsraili müasir hərbi texnika ilə silahlandırması və BMT-nin 1956-cı ildə İsrailin silahlandırılmaması ilə bağlı qəbul etdiyi qətnamənin kobud şəkildə pozulması sonrakı dövrlərdə qanlı qarşıdurmaların başlanğıcını qoymuşdu. Fələstinin müstəqilliyini nəzərdə tutan BMT qətnamələrinin yerinə yetirilməsi üçün İsrailin siyasi dairələrinə heç bir təzyiq göstərməyən ABŞ, əksinə, dünya neftinin üçdə ikisinə malik olan Yaxın Şərqdə konfliktlərin mövcudluğunda çox maraqlı idi. Odur ki, İsraildən regionda zor vasitəsi kimi istifadə edilməsi üçün onun silahlandırılmasına durmadan yardım göstərilirdi. 1953-cü ildə İranın baş naziri Müsəddiq tərəfindən neft hasilatının milliləşdirilməsi, sonralar isə onun ABŞ-ın xüsusi Kəşfiyyat İdarəsi tərəfindən devrilməsi ABŞ-ın İrana və İran neftinə girişinə imkan yaratsa da, yenə də neftin dayanıqlı idxalı üçün Yaxın Şərq ölkələrinin daim nəzarətdə saxlanmasına və dayanıqlı neft təhlükəsizliyinin təmin edilməsinə ciddi ehtiyac hiss edilirdi. 1960-cı ildə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela tərəfindən Neft İxrac Edən Ölkələrin Birliyinin (NİÖB) yaradılması da ABŞ və Böyük Britaniyanın Yaxın Şərq nefti üzərində tam nəzarətinə təhlükə yaradırdı. 1973-cü ildə ərəb ölkələrinin ABŞ-a neft ixracatını dayandırması, 1979-cu ildə isə ABŞ-ın müştəri ölkəsi olan İranda şah rejiminin devrilməsi və neft hasilatının dövlət nəzarətinə alınması gələcəkdə neft təhlükəsizliyində ciddi problemlərin ola biləcəyindən xəbər verirdi. İran, Liviya və Pakistanda 1979-cu ildə ABŞ əleyhinə davam edən nümayişlər neft təhlükəsizliyini tamamilə sual altında qoymuşdu. Məhz həmin dövrdə ABŞ İsrail-ərəb münaqişəsi kartından istifadə edərək, Yaxın Şərq ölkələrinin onun nəzarətinə qaytarılmasına

ciddi surətdə səy göstərdi. 1981-ci ildə İsrailin İraq ərazisini bombalaması və Misirdə Israillə bağlanmış sülh sazişinin əleyhinə mübarizələrin alovlanması ABŞ-ın Yaxın Şərq siyasətinin əsas mahiyyətinin nədən ibarət olduğunu aydın göstərdi. Beləliklə, ABŞ öz enerji təhlükəsizliyini təmin etmək üçün növbəti dəfə İsrail-ərəb konfliktini qızışdırmağa müvəffəq oldu.

Fələstin Azadlıq Təşkilatını zərərsizləşdirmək bəhanəsi ilə İsrailin 1982-ci ildə Livana hücumu və ABŞ-ın bu müharibədə İsrailə hər cür yardım göstərməsi, əslində ABŞ-ın sonrakı dövrlər üçün Yaxın Şərqdə nəzərdə tutduğu əməliyyatlara, o cümlədən İraqın zəiflədilməsinə və onun neft sənayesinin ələ keçirilməsinə hesablanmışdı. ABŞ-ın 1986-cı ildə Liviyanı bombalaması da ABŞ-ın İraqa 1991-ci ildə planlaşdırılan hücumu üçün hazırlıq mərhələsindən ibarət idi. 1994-cü ildə İordaniya və İsrail arasında sülh sazişinin imzalanması ilk baxışda müsbət addım kimi qiymətləndirilsə də, əslində ərəb dünyasında İraqın təklənməsinə və sonrakı dövrlərdə onun neft ehtiyatlarının ABŞ-ın tam nəzarətinə keçməsinə şərait yaratdı.

Təəssüf ki, ABŞ iqtisadiyyatının neftdən asılılığının yaxın illərdə 1973-cü ilə nisbətən təqribən 3 dəfə artacağını nəzərə alsaq, yaxın gələcəkdə İsrail-Ərəb konfliktlərinin soyuyacağına və Yaxın Şərqdə sülh yaranacağına əminlik yoxdur. Təəssüf ki, belə münaqişələr zamanı onu yaradan və onlardan bəhrələnən qruplar, o cümlədən ABŞ hökuməti və onlara təsir imkanı olan İsrail lobbisi, deyil, həm İsrailin, həm də Ərəb dünyasının dinc əhalisi əziyyət çəkir.

## Ərəb-İsrail münaqişəsinin mənbələri və səbəbləri

Ərəb-İsrail münaqişəsinin tarixi kökləri çox dərindir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Fələstində sionizm hərəkatı başlandı (Sionizm “sin” sözündən götürülmüşdür. Yerusəlimdə yerləşən təpələrdən birinin adıdır). Onun iştirakçıları Avropada yaşayan yəhudilər idi. Bu dövrdə Avropada antisemitizmə qarşı çoxsaylı aktların qəbul edilməsi Avropa ölkələrində yerləşən yəhudi icmalarını bu təhlükəyə qarşı birləşməyə məcbur etdi. Bu hərəkatın lideri Avstriya jurnalisti Teodor Qertel idi.

Onun 1896-cı ildə çapdan çıxmış “Yəhudi dövləti” adlı kitabında göstərilir ki, bütün dünyada yaşayan yəhudilər vahid xalqdır, onların vətəni isə Fələstindir. Müəllif qeyd edir ki, yəhudilər yenidən öz vətənlərinə yığışmalıdırlar, çünki Fələstin həm də onların “dini və milli mərkəzidir”. Burada diqqəti cəlb edən əsas cəhət bu hərəkatın yarandığı gündən siyasi xarakter daşıması, ərazi iddiası ilə çıxış etməsidir.

1897-ci ildə Bazeldə (İsveçrə)birinci sionist konqresi keçirildi və Sionist təşkilatı yaradıldı (Bu təşkilat 1960-cı ildən Ümumdünya sionist təşkilatı adlanır).Onu maliyyə cəhətdən dünyanın Rotşild kimi iri sahibkarları təmin edirdi. 1901-ci ildə Yəhudi milli fondu təşkil edildi. 1882-ci ilə qədər Fələstinə 25 min yəhudi qayıtmışdı. İlk yəhudilər buraya Çar Rusiyasındakı antiyəhudi talanlarından sonra gəlməyə başladı. Bu birinci “aliyə” adlanırdı. Onlar burada torpaq alır, kənd təsərrüfatı kommunaları yaradırdılar ki, bu da kuftlutsi adlanırdı. İkinci “aliyə” 1910-1914-cü illərdə başladı. 1914-cü ildə Fələstində artıq 85 min yəhudi yaşayırdı. Birinci Dünya müharibəsi dövründə Fələstinin bir tərəfdən Türkiyə və Almaniya, digər tərəfdən Böyük Britaniya tərəfindən hərbi əməliyyat meydanına çevrilməsi, Böyük Britaniyanın Fələstini tutması buraya yəhudi axınını dayandırdı.

Bu dövrdən yəhudi məsələsini həll etmək Böyük Britaniya üçün mühüm əhəmiyyət kəsb etməyə başladı. 1916-cı il Sayks-Piko müqaviləsinə görə Fələstin beynəlxalq zona olmalı idi, lakin bu müqavilə bir sıra səbəblər üzündən qüvvəyə minmədi.

1917-ci ilin noyabrın 2-də dərc edilən Balfur bəyannaməsində göstərilirdi ki, Fələstində “yəhudi xalqı üçün milli ocaq” meydana gəlmişdir. 1920-ci ilin aprelin 19-26-da keçirilmiş San Remo konfransında Antantanın Ali Şurasının qərarına əsasən Fələstin İngiltərənin mandatına verildi. Bunu 1922-ci ilin iyunun 24-də Millətlər cəmiyyəti də təsdiq etdi. Bu hadisədən sonra yəhudilərin buraya axını və burada mövqeyi gücləndi. 1919-1923-cü illərdə yəhudilərin buraya üçüncü, 1924-1929-cu illərdə isə dördüncü axını və ya “aliyə”si baş verdi. Şərqi Arvopada antisemitizm əhval-ruhiyyəsinin güclənməsi axının əsas səbəblərindən biri idi.

1933-1939-cu illərdə Almaniyada faşizmin hakimiyyət başına gəlməsi yəhudilərin Almaniyadan Fələstinə daha güclü axınına səbəb oldu ki, bu beşinci “aliyə” adlandı. Artıq 1939-cu ildə Fələstində 467 min yəhudi yaşayırdı.

Fələstin Böyük Britaniyanın mandatı altında olduğu dövrdə (1922-1948)üç dəfə keçirilən siyahıya almanın nəticələri aşağıdakı kimi idi. 1922-ci ildə Fələstində yaşayan 752048 nəfər əhalidən 589177 nəfəri ərəb, 83790 nəfəri yəhudi, 71464 nəfəri xristian, 7617 nəfəri isə başqaları idi. 1931-ci ildə isə Fələstində yaşayan 1036339 nəfər əhalidən 761922 nəfəri ərəb, 175138 nəfəri yəhudi, 89134 nəfəri xristian, 10145 nəfəri isə başqa millətlərin nümayəndələri idi. 1945-ci ildə Fələstində yaşayan 1764520 nəfər əhalidən 1061270 nəfəri ərəb, 553600 nəfəri yəhudi, 135550 nəfəri xristian, 14100 nəfəri isə başqa millətlərdən idi.

1920-ci ildə yəhudilərin hərbiləşdirilmiş “Xaqana” təşkilatı yaradıldı. 1929-cu ildə Böyük Britaniya Fələstində “Yəhudi agentliyi” təşkil etməyə icazə verdi.

Fələstinin ərəb əhalisi bu dövrdə Fələstinin idarə edilməsində əslində iştirak etmirdi. Böyük Britaniyanın əsasən sionistlərlə əməkdaşlıq etməsi 1920, 1929, 1933 və 1935-39-cu illərdə ərəblər içərisində narazılıq çıxışlarına səbəb oldu. Onlar həm yəhudi axınlarına, həm də torpaqlarının tutulmasına qarşı etirazlarını bildirirdilər. Buradakı ərəb burjuaziyası tərəfindən hələ 1920-ci ildə “Ərəb milli konqresi” təşkil edildi. O, 1936-cı ildə “Ali ərəb komitəsi”nə çevrildi. 1929-cu ilin avqustunda Fələstində ərəblərlə yəhudilər arasında baş verən toqquşma elə həmin ilin sentyabr ayında Böyük Britaniya qoşunları tərəfindən yatırıldı.

1933-cü ildə Fələstində ərəblərin yeni milli-azadlıq hərəkatı başladı. Lakin yenə də ingilislər tərəfindən yatırıldı. Nəhayət, 1936-cı ilin aprelində Fələstində ərəblərin üsyanı baş verdi və o, partizan müharibəsinə çevrildi. Lakin, o da İngiltərə qoşunları tərəfindən yatırıldı.

1936-cı ilin oktyabrında olmuş ərəblərin növbəti üsyanından sonra Böyük Britaniya hökumətinin lord Pilin başçılığı altında təşkil etdiyi komissiya Fələstin məsələsi ilə əlaqədar aşağıdakı məsləhəti verdi ki, Fələstin üç hissəyə bölünsün. Uudey dağı ilə

(Vivlena və başqaları) birlikdə Yerusəlim, həmçinin Aralıq dənizindəki Yaffa limanına qədərki koridor İngiltərəyə verilsin. Əvvəlcədən müəyyən edilmiş ərazilərdə isə ərəb və yəhudi dövlətləri təşkil edilsin.

1939-cu ilin mayın 17-də yeni məşhur “ağ kitab” çıxdı ki, burada Böyük Britaniyanın “Fələstində yeni siyasəti”nin prinsipləri öz əksini tapmışdı. Orada göstərilirdi ki, 1939-cu ildə Fələstində ərəblərin və yəhudilərin birgə yaşadıqları vahid dövlət qurulacaqdır. Kitabda, həmçinin yəhudi axınını ildə ancaq 15 minlə məhdudlaşdırmaq, sionistlərin Fələstində torpaq almasını da azaltmaq nəzərdə tutulurdu. Lakin buna baxmayaraq qeyri-qanuni şəkildə yəhudilərin Fələstinə axını davam edirdi. 1939-1947-ci ilə qədər İngiltərənin Fələstini Aralıq dənizindən blokadaya almasına baxmayaraq oraya 100 mindən artıq yəhudi gəldi.

İkinci dünya müharibəsi dövründə ABŞ tərəfindən dəstəklənən sionistlər yenidən Fələstinə öz iddialarını irəli sürməyə başladılar. 1942-ci ilin may ayının 6-11-də keçirilən Nyu-Yorkda Baltimor mehmanxanasındakı konfransda Fələstində “müstəqil yəhudi birliyini” yaratmaq qərara alındı. ABŞ bu dövrdə Böyük Britaniyaya təzyiq göstərirdi ki, yəhudilərin Fələstinə axınına mane olmasın. İkinci Dünya müharibəsindən sonra yəhudilərin Avropadan Fələstinə axını, Böyük Britaniyanın etirazına baxmayaraq kütləvi xarakter aldı. Artıq 1948-ci ildə Fələstində yəhudilərin sayı 649 minə çatdı.

Məlumdur ki, Almaniyanın yəhudilərə qarşı genosidindən (bu “xolokost” adlanır) 6 milyon yəhudi məhv edildi. Bu da onların Fələstinə axınının səbəblərindən biri hesab edilə bilərdi. 1948-ci ilin may ayının 15-dən 1950-ci ilə qədər Fələstinə 1948-ci ildə 120, 1949-cu ildə 240, 1950-ci ildə isə 70 min yəhudi köçmüşdür.

Ərəblərlə yəhudilər arasındakı münaqişə, həmçinin onların hər ikisinin İngiltərənin mandatını rədd etmək tələbi Böyük Britaniya hökumətini məcbur etdi ki, hər iki xalqa muxtariyyət vermək, azlıqla yaşayanları isə öz himayəsində saxlamaq təklifi ilə çıxış etsin. Bu təklif hər iki xalq tərəfindən rədd edildi.

İkinci dünya müharibəsi qurtardıqdan sonra ABŞ xüsusi Yaxın Şərq regionuna xüsusilə maraq göstərirdi. Dünya hegemonluğu siyasətini özünün əsas məqsədi hesab edən ABŞ bu regiona sahib olmaqla əvvəl qeyd etdiyimiz kimi həm iqtisadi, həm də siyasi mövqeyini gücləndirmək iqtidarına malik ola biləcəyinə qətiyyən şübhə etmirdi. Bunun üçün ABŞ-a regionda mütləq bir "dayaq məntəqəsi" nə sahib olmaq lazım idi. Bu dayaq məntəqəsini isə ABŞ İkinci dünya müharibəsi zamanı səfil və köçkün vəziyyətinə düşmüş yəhudiləri bu ərazilərə, xüsusilə Fələstinə köçürülməsini təşkil etməklə əldə edə bilərdi. Bu məsələ ilə məşğul olmaq üçün 1945-ci ilin avqustunda Trumen İngiltərənin baş naziri Kliment Ettliyə məktub yazıb Fələstinə yüz min yəhudinin gətirilməsini təklif etdi.

Qarşılıqlı razılıqdan sonra Fələstin məsələsi üzrə hər iki dövlətin nümayəndələrini özündə cəmləyən "Fələstin məsələsi üzrə ingilis-amerikan komissiyası" təşkil edildi. ABŞ tərəfdən bu komissiyaya gələcək İsrail dövlətində ABŞ –ın ilk səfiri vəzifəsində işləyəcək Ceyms Makdonald və vəkil Bartli Kram daxil idi. Komissiyanın müzakirə obyekti Avropadan yəhudilərin köçürülməsi və Ers-İsraelin (israil dilindən tərcümədə yəhudi torpağı deməkdir-red) bölünməsi idi. Bundan sonra İngiltərə tərəfi yeni bir komissiyanın yaradılması fikri ilə çıxış etdi, hansı ki bu komissiya Morrison-Qreydi komissiyası adlandı. (Britaniya naziri Herbert Morrison və H.Trumenin xüsusi elçisi Henri Qreydinin soyadları əsasında). Burada da əsasən torpaqların bölünməsi məsələsi ilə yanaşı İngiltərənin mandat hüququ məsələsi də müzakirə edildi.

Bu komissiyada Harri Trumenin Avropadan Fələstinə 100 min yəhudinin köçürülməsinə kömək etmək haqqında təklifi bəyənildi. Trumen dərhal bu tövsiyəni bəyənərək bildirdi ki, məruzənin qalan hissəsi uzağa tuşlanmış siyasət məsələləri kimi nəzərə alınmalıdır. Komitə üzvləri üçün nəzərdə tutulmuş təlimatlarda Yaxın və Orta Şərqə aid istənilən siyasi qərar qəbul edilərkən sovet təhlükəsi amilinin nəzərə alınması haqqında göstəriş var idi.

Getdikcə ABŞ-ın İngiltərəyə təzyiqi artırdı. 1947-ci il aprelin 2-də İngiltərə Fələstin məsələsinə dair BMT-nin xüsusi sessiyasının çağırılması xahişi ilə müraciət etdi. 1947-ci ilin mayında

BMT Baş Məclisinin xüsusi sessiyası Fələstin məsələsini müzakirə etmək üçün 11 dövlətin nümayəndələrindən ibarət komitənin yaradılması haqqında qərar qəbul etdi.

Komitənin 1947-ci ilin sentyabrın 3-də Baş Məclisə təqdim etdiyi məruzədə 3 plan təklif olundu:1. Fələstində yalnız bir xalqın üstünlüyü ilə tək bir dövlətin yaradılması; 2. Bir-birlərindən təcrid olunmuş şəkildə iki dövlətin yaradılması; 3. Kantonizasiya (ayrı-ayrı aidiyyatı üzrə şəhərlər və kəndlər əsasında bölünmə).

1947-ci ilin mayında BMT Baş assambleyasının xüsusi sessiyası Fələstin məsələsi ilə əlaqədar komissiya yaratdı. Komissiya Fələstin məsələsini həll etmək üçün iki plan tərtib etdi. Bu planlardan birinə görə, Fələstin iki hissəyə bölünür, İsrail və ərəb dövləti yaradılırdı. Yerusəlim vahid inzibati ərazi hesab edilir və BMT-nin idarəsinə verilirdi. İkinci plana görə Fələstin ərazisində ərəb və yəhudi əhalisini birləşdirən federativ dövlət yaradılırdı. BMT-nin 1947-ci ilin sentyabr-noyabr ayında olan ikinci sessiyasında da bu məsələ təkrar müzakirə olundu.

Diskussiyaların nəticəsi olaraq BMT-nin Baş Assambleyası 1947-ci ilin noyabrın 29-da 2/3 səslə (Səsvermədə 33 dövlət, o cümlədən SSRİ və ABŞ iştirak edirdi) məşhur 181 saylı qətnaməni qəbul etdi. Həmin qətnaməyə görə, Fələstin üzərində Böyük Britaniya mandatı təxirə salınır, bu ərazidə müstəqil ərəb və yəhudi dövləti yaradılırdı. Ərəb dövlətinin ərazisi 11,1 min kv. km (43%) , yəhudi dövlətinin ərazisi isə 14,1 min kv. km olmalı idi. Fələstinin bütövlükdə 1 milyon 845 min əhalisi var idi ki, onlardan təşkil ediləcək ərəb dövlətində 725 min ərəb, 10 min yəhudi, yəhudi dövlətində isə 498 min yəhudi, 407 min ərəb yaşamalı idi.

Bu plana səs verməzdən əvvəl ABŞ dövlət departamentinə MKİ tərəfindən xəbərdarlıq gəldi. Burada göstərilirdi ki, ABŞ-ın planın lehinə səs verməsi onun bu ərazilərdə möhkəmlənməsinə, xüsusilədə neft sənayesi ilə bağlı planlaşdırılan layihələrə ciddi zərər verəcəkdir. Bundan əlavə qeyd olundu ki, gələcəkdə qurulacaq yəhudi dövlətini müdafiə etmək onun imkanları xaricində olacaqdır. Qərargah rəislərinin birləşmiş komitəsi də eyni məsələ üzrə çıxış edərək bildirdi ki, lehinə səs vermə ərəb dövlətlərinin sovetlərə meyl etməsinə səbəb ola bilər və addım atılarkən buna

fikir vermək lazımdır. Həm ölkə daxilində, həm də xaricində ABŞ-ın bu qərarına qarşı etirazlar bildirilsə də, Harri Trumen Fələstinin bölüşdürülməsi və 2 müstəqil dövlətin yaradılmasının lehinə səs verdi.

Qətnamədə 1948-ci il avqustun 1-nə qədər ingilis qoşunlarının Fələstin ərazisindən çıxarılması, iki ay sonra ərəb və yəhudi dövlətlərinin elan edilməsi, Yerusəlim üçün (qətnamədə Vifleem şəhərinin də adı çəkilirdi) beynəlxalq rejimin təyin olunması, bu dövlətlərin və Yerusəlim şəhərinin vahid iqtisadi ittifaqda birləşməsi nəzərdə tutulurdu.

Fələstin ərazisinin 1%-ni təşkil edən Yerusəlim beynəlxalq nəzarətə verilir, indizm, xristianlıq və islamın "müqəddəs yeri" hesab edilirdi. Burada 100 min yəhudi və 100 min ərəb yaşamalı idi.

Bu dövlətlər və Yerusəlim vahid "İqtisadi ittifaq"da birləşirdi.

1948-ci ilin mayın 14-də Böyük Britaniya Fələstin üzərində öz mandatının qurtardığını bildirdi və onun ərazisindən öz qoşunlarını çıxartdı. 1948-ci ilin may ayının 14-dən 15-nə keçən gecə İsrail dövlətinin yarandığı elan edildi. Hökumətin rəhbəri isə ölkənin böyük siyasi xadimlərindən olan David Ben Qurion oldu. Həmin gün "İsrail dövlətinin yaranması haqqında bəyannamə" qəbul edildi.

Mayın 15-də isə ərəb liqası dövlətləri öz qoşunlarını Fələstin yeritdi və 1949 cu ilə qədər dava edən və tarixə "müstəqillik uğrunda müharibə" kimi daxil olan müharibə başlandı.

ABŞ dövlətin yaradılması haqqında elan verildikdən dərhal sonra onu de-fakto, 1949-cu il yanvarın 30-da isə de –yure tanıdı. Lakin bütün bunlara baxmayaraq ABŞ dünya ictimaiyyətindən ehtiyat edərək birinci ərəb-İsrail müharibəsində iştirak edən tərəflərə maddi yardım etməkdən imtina etmişdi və müharibədə iştirak etmək istəyən amerikan könüllülərinə Fələstinə getməyə icazə verməmişdi. Lakin buna baxmayaraq 1000 amerikan könüllüləri İsrail tərəfdən müharibəyə qoşularaq İsrail hərbi qüvvələrinin və **Mahal** (ərəb-israil müharibəsi başlanan zaman yəhudi könüllülərindən ibarət hərbi təşkilat) təşkilatının tərkibində müharibədə iştirak etmişdi.

Birinci ərəb-İsrail müharibəsi zamanı ABŞ qeyri-rəsmi şəkildə gizlicə olaraq İsrailə hərbi sursat və 100 milyon dollar həcmində vəsait ayırmışdı

1948-49-cu il müharibələri İsrail tərəfindən "azadlıq müharibəsi", ərəblər tərəfindən isə "fəlakət müharibəsi" adlandırıldı.

## Ərəb-İsrail münaqişəsinin inkiaşfı və ABŞ-ın buna münasibəti

Ərəb-İsrail münaqişəsini aşağıdakı mərhələlərə bölmək olar:

1) Birinci ərəb-İsrail müharibəsi (1848-49-cu illər)
2)İngiltərə, Fransa, İsrailin Misirə qarşı təcavüzü (1956)
3)1967-ci il "6 günlük" müharibəsi
4)1973-cü il "oktyabr" müharibəsi
5)1970-ci illərdə Fələstin problemi və onun aktuallaşması
6)1980-ci illər Ərəb-İsrail münaqişəsinin inkişafı
7)Yaxın Şərqdə sülh prosesi (1991)
8)Al-aksa intifadı (2000-ci ildə və onun nəticələri)

**Birinci Ərəb-İsrail müharibəsi (1848-49-cu illər)və ABŞ**

İsrail dövlətinin birtərəfli qaydada yaradıldığı elan edildikdən sonra 1848-49-cu illərdə birinci İsrail-ərəb müharibəsi başlandı ki, buna Fələstin müharibəsi də deyirlər. 1948-ci il mayın 15-də İsrail dövlətinə qonşu olan ərəb dövlətlərinin ona qarşı hücumu başladı. Bu dövlətlər Misir, İordaniya, Suriya və Livan idi. Tezliklə İraq və Səudiyyə Ərəbistanı, Yəmən də İsrailə müharibə elan etdilər. Yaxın Şərqdəki bu şəraitdə BMT işə qarışmalı oldu. BMT ərəb dövlətlərinin bu hərəkətini mühakimə edərək onları günahkar hesab etdi. Dünyanın super dövləti olan ABŞ ərəb dövlətlərini təqsirləndirdi. BMT-nin işə qarışması nəticəsində 1948-ci ilin mayın 29-da barışıq əldə edildi. Barışıq 1948-ci ilin iyunun 11-də qüvvəyə mindi. Lakin barışıq uzun sürmədi. 1948-ci il iyulun 8-də İsraillə ərəb dövlətləri arasında döyüşlər başlandı. İyulun 8-dən 18-ə qədər davam edən döyüşlərdə İsrail ərəb ölkələrinin qoşunlarına qarşı müvəffəqiyyətli hücumlar etdi ki, bu da həmin ölkələrin müdafiəyə keçməsinə səbəb oldu. İlk əvvəl İsrailin neçə dəfə müharibənin əvvəlində məğlubiyyətinə baxmayaraq tezliklə onun ordusu ərəb ölkələrinin ərazisinə daxil oldu, səmərəli əməliy-

yatlar keçirdi. Nəticədə Fələstinin xeyli ərazisini işğal etdi. İsrail əlavə daha 6,7 $km^2$ ərazini işğal etdi. Halbuki, bu ərazi BMT qətnaməsinə əsasən Fələstin ərəb dövlətinə aid idi. Bu məsələdə həm SSRİ, həm ABŞ İsraili müdafiə etdilər. 1948-ci ilin iyulun 8-də barışıq bağlandı və bu oktyabrın 13-nə qədər davam etdi. Fələstin məsələsində BMT-də vasitəçi olan F. Bernadotun 1948-ci ilin sentyabrın 17-də öldürülməsi, 1948-ci il oktyabrın 15-də müharibənin yenidən başlanmasına səbəb oldu. İsrail bu dəfə digər rayonları da işğal etdi. 1948-ci ilin dekabrın 11-də BMT bu məsələ ilə əlaqədar ABŞ-ın təşəbbüsü ilə 194 saylı qətnamə qəbul etdi. Müharibə 1949-cu il iyulun 20-nə qədər davam etdi və İsrail dövlətinin qələbəsi ilə qurtardı Yerusəlimin qərb hissəsi İsrailin nəzarəti altına düşdü. Öz növbəsində Fələstinin hələ təşkil edilməmiş ərəb dövləti hissəsində qalan ərazilərində Misir və İordaniya öz nəzarətlərini təşkil etdilər. Aralıq dənizi boyunca Qəzzə rayonunun sahil boyu ərazisi Misirə, Fələstinin şərq hissəsi Transiorodaniyaya keçdi. Bunların ikisinin birləşdirilməsi nəticəsində 1950-ci ildə İordaniya krallığı yaradıldı. Onu Haşimilər sülaləsi idarə edirdi. İlk gündən ABŞ-İordaniya münasibətləri yaxşılaşdı. 1949-cu ilin iyulunda Rodos adasında İsraillə Misir, Suriya, İordaniya və Livan arasında müqavilə bağlandı. Birinci ərəb-İsrail müharibəsi nəticəsində Fələstin ərəbləri öz doğma torpaqlarından qovuldular. 9000-dən çox fələstinli ərəb qaçqın oldu. BMT-də Fələstin qaçqınları ilə əlaqədar olaraq xüsusi komissiya yaradıldı. Lakin indiyə qədər Fələstin qaçqınlarının problemi həll edilməmiş qalır. 1948-ci ilin noyabrında BMT-nin Baş Məclisində Fələstin qaçqınlarına kömək etmək haqqında ilk qətnamə qəbul edildi. 1949-cu ilin aprelində keçirilən Lozanna konfransında İsrail, Misir, Suriya, Livan, İordaniya arasındakı seperat danışıqların nəticəsi olaraq protokol imzaladı ki, burada sərhədlərdən istifadə etmək razılaşdırıldı.

## ABŞ TƏRƏFİNDƏN DƏSTƏKLƏNƏN İSRAİLİN YAXIN ŞƏRQ STRATEGİYASI

İsrail Yaxın Şərqdə sanki Müsəlman dənizinin ortasında bir adada yaşayırdı və varlığını davam etdirə bilməsi müsəlman

ölkələrin zəif və passiv qalması ilə bağlı idi. Ancaq ABŞ-ın gücü sayəsində İsrail qarşılaşdığı təhlükələri asanlıqla uzaqlaşdıra bilirdi.

Potensial olaraq hər bir israillinin beyninin bir küncündə özünə yer tutmuş bu qorxu, İsrailli psixoloq professor və politop-loq Benjamin-Beit Hallahmiyə görə bir növ "Hıttin Sindromu"dur (Hıttin Müharibəsi - Qüdsdə qurulan və bir əsrdən çox ömür sürən Xaçlı Krallığının 1187-ci ildə Səlahəddin Eyyubinin orduları tərəfindən məğlub edildiyi döyüş idi. Güclü hərbi güc sayəsində Qərbdən gələrək Qüdsü işğal edən Xaçlı qüvvələr, nəticədə Fələstindən uzaqlaşdırılmışdı). Benjamin Beit-Hallahmi yazırdı ki, "1187-ci ildəki Hıttin Müharibəsi bu gün Yaxın Şərqdə demək olar ki, heç kəs tərəfindən unudulmayıb. Bu, Səlahaddinin Xaçlı ordusunu məğlub etdiyi böyük döyüşdür”. Bu səbəbdəndir ki, İsrailin 1950-ci illərdən bu yana əsas məntiqini qətiyyən dəyişdirmədən tətbiq etdiyi strategiyası - Yaxın Şərqdəki Müsəlman-Ərəb dünyasını özünə qarşı birləşmiş bir cəbhə meydana gətirməkdən uzaq tutmaq idi. Buna görə də Müsəlman-Ərəb dünyasını birləşdirməyə və İsrailə qarşı fəaliyyətə keçirməyə çalışan bütün cərəyanlar İsrailin hər zaman bir nömrəli düşməni olmuşdur.

Yaxşı, bəs ən təhlükəli strateji təhdid olaraq qəbul etdiyi bu düşmənə qarşı İsrail nə kimi regional tənzimləmə siyasəti izləyir? Yaşadığı coğrafiyada, yəni Yaxın Şərqdə qonşularına və digər Ərəb və Müsəlman dövlətlərə qarşı hansı siyasi tənzimlənmə mexanizminə sahibdir?

Bu problemin cavabı tapmaq üçün əvvəlcə yaxın keçmişə nəzər salmaq lazımdır.

İsrail qurulduğu gündən etibarən onu təhdid edən "Hıttin Qorxusu"na qarşı laqeyd qalmadı. Yəhudi dövləti sanki "Müsəlman dənizi" mövqeydə olan Yaxın Şərqdə həyatda qala bilmək üçün geniş miqyaslı "daimilik strategiyası"nı formalaşdırdı. Strategiya - Yaxın Şərq ölkələrinin İsrailə qarşı birləşmiş cəbhə halına gəlməkdən uzaq tutulmasını nəzərdə tuturdu.

İsrail liderlərinin bu məqsədlə 1950-ci illərdə ortaya qoyduqları "həll yolu" Yaxın Şərqin sadəcə müstəmləkə bölgəsi olaraq qalmasını təmin etmək idi. İsrail Baş naziri Ben-Qurion

1956-cı ilin oktyabrında Fransa və İsrail liderləri arasında keçirilən Sevr konfransında ortaya atdığı Yaxın Şərqdə "məskunlaşma" planına belə bir təklif gətirmişdi: "İordaniyanın mövcud olma haqqı yoxdur və bölünməlidir. İordan çayının şərq sahili İraq ərazisinə daxil ediləcək və Ərəb köçkünləri bura yerləşəcək. Qərbi Şəriyə (çayın qərb sahili)muxtar vilayət kimi İsrailə veriləcək. Livan isə Xristian bölgəsində tarazlığı pozan Müsəlman bölgələrdən xilas olacaq. İraq, Şərqi Şəriyə və Ərəb yarımadasının cənubu İngilislərin olacaq. Süveyş Kanalı beynəlxalq statusa malik olacaq və Qırmızı dəniz boğazları İsrailin idarəsi altına alınacaq".

Ben-Qurion Yaxın Şərqin İsrail baxımından etibarlı hala gətirilməsi üçün bəzi bölgələrin İsrail tərəfindən işğal edilməsini, bəzi bölgələrin də İngiltərə kimi Qərb gücləri tərəfindən yenidən müstəmləkələşdirilməsini istəyirdi. Yəni bölgə təkrarən müstəmləkələşdirilməli və İsrail bu işin reallaşmasına kömək etməli idi. Hayfa Universitetindən Benjamin Beit-Hallahmi bu mövzuda belə deyirdi: "1950-ci illərin əvvəllərindən etibarən İsrail liderləri Üçüncü Dünya ölkələrində və Yaxın Şərqdə müstəmləkəçiliyin ləğvinə yönəlmiş bütün fəaliyyətləri İsrail üçün təhdid ünsürü olduğunun fərqində idilər və buna görə davranırdılar.

İsrail bu strategiyanın tələblərinə uyğun olaraq 1950-ci illər boyu Yaxın Şərqdəki müstəmləkəçi güclərlə, yəni Fransa və İngiltərə ilə bu sahədə əməkdaşlıq etdi. Fransanın Əlcəzairdəki müstəqillik hərəkatını yatırtmaq üçün həyata keçirdiyi qanlı müharibənin və Müsəlmanlara qarşı reallaşdırdığı qırğınların ən böyük dəstəkçisi İsrail idi. İsrail 1956-cı ildə İngiltərə və Fransa ilə ittifaq halında Misirə hücum etdi.

Lakin İsrailin 1950-ci illərin əvvəlində hazırladığı və tətbiq etdiyi bu strategiya, çox da uğurlu olmadı. Yəhudi dövləti keçən əsrin ilk yarısında Yaxın Şərqi əsarətdə saxlamış Qərbin müstəmləkəçi güclərinin bölgəyə istədiyi kimi hakim ola bilməsini təmin edə bilmədi.

Yəhudi dövlətini quran və ilk iki onillikdə dövlətin idarə olunmasında yaxından iştirak edən David Ben-Qurion və onun ətrafı bu məqamda daha həqiqi və tutarlı bir "daimilik strategiya"

ortaya qoymalı idilər. İsrailin, düşmən bir "Müsəlman-Ərəb dənizi" tərəfindən bir "ada" kimi əhatə olunduğu həqiqət olduğundan bu vəziyyətdə görülə biləcək iki şey vardı:

1)Müsəlman Ərəb dənizinin kənarlarına əl atmaq, bu dənizin "ətrafındakı" ölkələrlə ittifaq şəraiti axtarmaq idi. "Ətraf strategiyası" adı verilən bu plan, İran və Efiopiya kimi Ərəb Yaxın Şərqinin ətrafındakı Ərəb olmayan ölkələrlə ittifaqı nəzərdə tuturdu.

2)Müsəlman-Ərəb ölkələrindəki daxili çaxnaşmaları, iqtidar uğrunda gedən mübarizələri qızışdırmaq, vətəndaş müharibələri meydana çıxarmaq və beləliklə də bu ölkələri parçalamaq.

İsrail hər iki strategiyasını israrla tətbiq etdi. ABŞ-ın dəstəyi ilə Efiopiya və İran ilə (Şah dövründə)çox güclü ittifaq qurdu və bu minvalla Ərəb ölkələrinə qarşı strateji bir güc əldə etmiş oldu. Məsələn, İraqın şimalında 1960-cı illərdə başlayan və 70-ci illərin ortalarına qədər davam edən Kürd üsyanı İsrail və İran tərəfindən ortaq şəkildə dəstəklənildi.

Digər tərəfdən İsrail Yaxın Şərqdəki bir çox Ərəb ölkələrini daxili çaxnaşmalarla qarışdırmaq və mövcud qarşıdurmaları qızışdırmaq üçün ciddi səy göstərdi. Livan, Yəmən, Oman, Çad və Sudandakı vətəndaş müharibələrinin hamısında "İsrail barmağı" vardı. İsrail bu vətəndaş müharibələrinin hər birində, müharibənin Müsəlman və ya Ərəb olmayan tərəflərini dəstəkləyərək bu ölkələri zəiflətmək və parçalamağa çalışırdı.

İsrail Xarici işlər Nazirliyində vəzifədə olmuş Oded Yinonun, 1982-ci ildə Dünya Sionist Təşkilatına bağlı İnformasiya mərkəzinin İbrit dilində nəşr orqanı olan Kivunimdə yayımladığı hesabat Yəhudi Dövlətinin Yaxın Şərqdə nə kimi strateji plan yürütdüyünü göstərən çox əhəmiyyətli bir sənəd idi. Çünki "1980-ci illərdə İsrail Üçün Strategiya" başlığı ilə nəşr olunan hesabat İsrailin bütün Yaxın Şərqi öz daimilik strategiyasına uyğun olaraq tənzimləmək istədiyini, bütün bölgəni idarəsi altına almaqla hədələdiyini göstərirdi. Yinonun hesabatı, Yaxın Şərq ölkələrinin xüsusilə demoqrafik strukturunu əsas tuturdu. Bu demoqrafik strukturun xülasəsi bu idi: Yaxın Şərq ölkələrinin heç biri monoetnik - yalnız bir millətdən ibarət olan sabit və köklü dövlətlər deyildi. Əksinə, süni şəkildə bir-birinə qarşı qoyulmuş etnik tərkibə malik idi. Bu

vəziyyət, XIX əsrin sonu və XX əsrin ilk qərinəsində Yaxın Şərqi müstəmləkələşdirən Avropalı güclərin müəyyən məqsədlər üçün həyata keçirdiyi bir tənzimləmə siyasətinin nəticəsi idi. Müstəmləkəçilər İraq, Suriya, Livan, İordaniya kimi Yaxın Şərq ölkələrini əhali tərkibi və ya məzhəb təməlinə görə deyil, öz idarə-etmə xüsusiyyətlərinə görə meydana çıxartmışdılar. Sərhədləri isə masa üzərində xətkeşlə çəkmişdilər. Bu səbəbdən sözügedən ölkələrin heç biri, fundament millətçilik tarixinə sahib olmayan, süni və dolayısı ilə də asanlıqla dağıla biləcək dövlətlərdir. Suriya və ya İraq ölkəsi var, amma nə "Suriya milləti", nə də "İraq milləti" kimi sosial bir gerçəklik yoxdur. Bir sözlə, bu dövlətlərin sərhədləri daxilində bir-birlərinə heç də normal münasibət bəsləməyən müxtəlif dini və etnik qruplar var. Belə bir şəraitdə Yaxın Şərqdə İsrailin strategiyası nədir? Cavab sadədir; "parçala və idarə et" yəni bu süni dövlətləri parçalayıb asanlıqla nəzarət olunmalarını təmin etmək.

"1980-ci illərdə İsrailin hazırladığı Strategiyada Yaxın Şərqdəki hər bir Ərəb ölkəsi təhlil edilir və İsrail tərəfindən necə parçalana biləcəyi haqqında fikir yürüdülürdü. (Məsələn, İraqın şimalında bir Kürd dövləti, mərkəzində bir Sünni Ərəb dövləti, cənubunda isə Şiə Ərəb dövləti olmaqla üç yerə bölünməsinin mümkün olduğu, İsrailin bu istiqamətdə ciddi səy göstərməsinin lazım olduğu bildirilirdi).

"1980-ci illərdə İsrail Üçün Strategiya" hesabatında Suriya haqqında yazılan "parçalanma ssenarisi" isə belə idi: "Suriya etnik tərkibinə uyğun olaraq, bu günki Livanda olduğu kimi müxtəlif dövlətlərə parçalanacaq. Beləcə sahildə bir Şiə dövləti, Hələb bölgəsində də bir Sünni dövləti, Şamda isə buna düşmən mövqedə başqa bir Sünni dövləti və Havran, şimali İordaniya və bəlkə bizim Holanda bir Dürzi dövləti yaranacaq. Belə bir dövlətləşmə prosesi uzun zaman bölgədə barış və təhlükəsizliyin zəmanəti olacaq və bu hədəf bu gün artıq çata biləcəyimiz qədər yaxındır.

Yinon, Suriyanın parçalanmasının bölgədə "sülh və təhlükəsizliyin zəmanəti" olacağını söyləməklə, şübhəsiz ki, İsrailin təhlükəsizliyini nəzərdə tutur. Yəhudi dövlətinin təhlükəsizliyi ancaq Ərəb dövlətlərinin parçalanması ilə mümkün ola bilər.

İsrail Suriyanın bu cür formada parçalanma fikrini irəli sürərkən, ölkədəki Şiə azlığın əlində olan iqtidarının yaratdığı gərginliyə diqqət cəlb edirdi: "Bu gün Suriya ordusunun böyük hissəsi Sünnidir, amma rəhbərlik Şiə zabitlərindədir. İraq ordusu isə əsasən Şiədir, amma zabitləri Sünnidir. Bu, böyük əhəmiyyət kəsb edir və ordunun sədaqəti uzun ömürlü ola bilməz.

İqtidardakı güclü hərbi rejim (Hafiz Əsədin rejimi)xaricində Suriyanın Livandan heç bir fərqi yoxdur. Necə ki, bu gün Sünni çoxluq ilə iqtidardakı Şiə azlıq (əhalinin yalnız 15%-i)arasında davam edən vətəndaş müharibəsi, mövcud problemin dəhşətini ortaya qoyur”.

XX əsrdə dünyanın ən qanlı, ən narahat və ən gərgin nöqtələrindən ikisi Yaxın Şərq və Balkan Yarımadası oldu. Hər iki bölgədə qanlı müharibələr, vətəndaş qarşıdurmaları, işğallar, partizan hərəkatlarşı, etnik qırğınlar, sürgünlər baş verdi. Xüsusilə etnik və dini müxtəlifliyə əsaslanan qarşıdurmalar hər iki bölgəni qan və gözyaşı ilə suladı. Bir sözlə, son zamanlarda hər iki bölgədə zorakı bir sülh küləyi əsdirilir, amma qarşıdurmalara səbəb olan tərəflər hələ də soyumayıblar və hər fürsətdə bir-birlərinə girmək üçün hazır vəziyyətdə gözləyirlər. Halbuki həm Balkan yarımadası, həm də Yaxın Şərq bir zamanlar belə deyildi. Əksinə, hər iki bölgədə əsrlərlə davam edən sabitlik, sülh və hüzur dövrü yaşamışdı. Balkan yarımadası bölgəsində XIX əsrə qədər, Yaxın Şərqdə isə XX əsrə qədər sabitlik əsas hökm sürürdü.

## 1956-cı ildə Misirə İngiltərə-Fransa-İsrail təcavüzü və ABŞ-ın buna münasibəti

Afrikanın Ərəb dövlətlərindən olan Misir İkinici Dünya müharibəsindən sonrakı illərdə də rəsmən müstəqil dövlət hesab olunsa da , faktiki olaraq sənayesi İngiltərədən asılı olaraq qalırdı. O, İngiltərənin toxuculuq sənayesi üçün “pambıq plantasiyası” rolunu oynayırdı. Həm də İngiltərə Süveyş kanalından və onun zonasında yerləşdirilmiş hərbi bazalardan Misir və digər Ərəb ölkələri üzərində ağalıq üçün istifadə edirdi. Misir xalqı İngilis əsarəti ilə razılaşmaq istəmirdi, İngilis qoşunlarının Süveyş kanalı zonasından çıxardılması və ölkənin həqiqi müstəqilliyinin bərpa

edilməsi uğrunda qətiyyətli mübarizə aparırdı. 1952-ci il iyulun 22-dən 23-nə keçən gecə Qahirə qarnizonu hissələrirnirn üsyanı başladı. Üsyana Camal Əbdül Nasirin liderlik etdiyi "Azad zabitlər" təşkilatı rəhbərlik edirdi. Üsyan nəticəsində kral Faruq hakimiyətdən əl çəkməyə və ölkəni tərk etməyə məcbur oldu.

1952-ci il iyun inqilabından sonra prezident seçilən Kamal Abdul Nasir milli iqtisadiyyatı inkişaf etdirmək kursu götürdü. ABŞ və İngiltərə ilə birlikdə Misir Asuan bəndinin tikintisinə başladı. Bu bəndin tikintisi ilə əlaqədar edilən bir sıra tələbləri Misir yerinə yetirmədikdə İngiltərə və ABŞ güzəştə getməyə məcbur oldular. Bununla bərabər Misirə verdikləri krediti dayandıracaqlarını bildirdilər. 1956-cı ilin iyulun 20-də Kamal Abdul Nasir səhmlərinin əksər hissəsi Böyük Britaniya və Fransaya məxsus olan. Suveyş kanalını milliləşdirilməsi haqqında qərar qəbul etdi. Süveyş kanalının gəlirinin o vaxta qədər ancaq 7%-i Misirə aid idi. Kanalın gəlirinin xeyli hissəsinə sahib olmaq üçün Misir Süveyş kanalını özünə götürməyi vacib hesab etdi. O bildirdi ki, bu gündən sonra kanal müstəqil Misirin iqtisadi maraqlarına cavab verməlidir. Bu, əlbəttə, İngiltərə və Fransanın, eyni zamanda onları müdafiə edən ABŞ-ın maraqlarına toxunurdu. 1956-cı il avqustun 7-də Böyük Britaniyada keçirilən konfransda "Suveyş məsələsi" adlı məsələni həll etmək üçün 2 plan təqdim edildi. Böyük Britaniya, Fransa və ABŞ kanalın milliləşdirilməsi ilə əlaqədar Dallesin planına baxaraq gəmiçiliyin sərbəstliyi üçün aşağıdakıları vacib bildilər:

a)Kanal Misirə aid olmaqla yanaşı, onun üzərində beynəlxalq idarə qoyulmalıdır. Misir hökuməti razılaşmalıdır ki, Suveyş kanalından gələn gəlirdən ədalətli istifadə etmək hüququ əldə etsin.

b)Suveyş dəniz kanalının ümumi kompaniyasının ədalətli kompensasiyasının ödənilməsi haqqında saziş bağlansın.

SSRİ nümayəndə heyəti öz mənafeyinə uyğun olaraq bildirdi ki, Suveyş kanalının sahibi Misirdir və onun taleyini o, həll edə bilər.

1956-ci ilin sentyabrın 3-ü ilə 9-u arasında Misirdə Böyük Britaniya, Fransa, ABŞ-ın nümayəndələri missiyası yerləşdi. Nasirlə Dalles planı əsasında danışıqlar aparılsa da, nəticəsiz qaldı.

1956-cı ilin sentyabrın 10-da Misir hökuməti Suveyş kanalının gəmiçiliyi ilə əlaqədar dövlətlərə danışıqlar aparmaq üçün xüsusi orqan təşkil etmək təklifi ilə müraciət etdi. Lakin, dövlətlər bunu soyuq qarşıladılar. Elə həmin gün, yəni 1956-cı il sentyabrın 15-də Nasir elan etdi ki, əgər Suveyş kanalından hər hansı bir gəmi keçərsə, bu Misirin suverenliyini pozmaq kimi qimətləndiriləcək və buna qarşı mübarizə aparılacaq. 1956-cı sentyabrın 23-də Böyük Britaniya, Fransa ABŞ-ın dəstəyilə BMT-nin Təhlükəsizlik Şurasına Misir hadisələri ilə əlaqədar məsələ qoyuldu. Misirin hərəkətlərinin BMT-nin nizamnaməsini pozduğu və ümumi sülh üçün təhlükə yaratdığı barədə qətnamə qəbul edildi. Ümumiyyətlə, 1956-cı il sentyabrın 26-dan oktyabrın 13-dək BMT Təhlükəsizlik şurası Suveyş məsələsinə baxsa da, yenə də "Suveyş böhranı" həll edilməmiş qaldı. 1956-cı ilin oktyabrında Dalles planının tərəfdarı olan 18 dövlətin iştirakı ilə müşavirə keçirildi. Böyük Britaniya və Fransa, həmçinin onları müdafiə edən ABŞ yenə də Dalles planı ilə əlaqədar layihə çıxardı.Misir oktyabrın 12-də kompromisə getdiyini bildirsə də, qəbul edilmədi. Bu dövrdə faktiki olaraq mövqeyinin Misirdə zəifləməsi Böyük Britaniyanı narahat edirdi.

"Suveyş böhranı"ndan dərhal sonra Fransa və İngiltərə İsraillə əlaqəyə girdi. İsrailin seçilməsi təsadüfi deyildi. Artıq bu dövrdə İsrailin kifayət qədər silahlı qüvvələri var ildi. İsrailin siyasəti də Yaxın Şərqdə mühüm rol oynayırldı. Çünki İsrail yarandığı gündən "Böyük İsrail" yaratmaq fikrində idi. Ekspansiya İsrailin xarici siyasət kursunun əsas istiqaməti idi. 1950-ci ildə İsrail Yerusəlimin qərb hissəsini rəsmən özünün paytaxtı elan etdi. Artıq 1956-cı il oktyabrın 16-da Misirə hücum etmək üçün, İngiltərə və Fransanın, həmçinin İsrailin birgə hərbi əməliyyat planı hazırlandı. 1956-cı il oktyabrın 29-dan 30-na keçən gecə Misirə ümumi sayı 100 min olan İsrailin qoşunu hücum etdi. Tezliklə İngiltərə və Fransa da Suveyş kanalı zonasında qoşun çıxardı və onun üzərində nəzarəti öz əlinə aldı. 1956-cı il oktyabrın 30-da Fransanın baş naziri Gi Mollin və İngiltərənin bas naziri Antoni İden arasında görüş oldu və Misirə birgə ultimatum verildi. Ultimatumda göstərilirdi ki, 12 saatdan gec olmayaraq Misir hərbi əməliyyatları dayandırmalı və öz qoşunlarını Suveyş kanalından 10

mil uzaqlaşdırmalı idi. Misir İngiltərə və Fransa qoşunlarının Suveyş kanalı zonasına daxil olmasına razılaşmalı idi. Əgər bu tələblər yerinə yetirilməsə idi, İngiltərə və Fransa qoşunları Misirə daxil olmalı idi. Bundan istifadə edən İsrail Şinay yarımadasının xeyli hissəsini tutdu. Lakin bu ərazi Suveyş kanalından hələ 200 km aralıda yerləşirdi. Misir İngiltərə və Fransanın ultimatumunu rədd etdi. 1956-cı il oktyabrın 30-da BMT-nin Təhlükəsizlik Şurası Misirə İsrailin təcavüzünü müzakirə etdi. SSRİ Misirə qarşı təcavüzün dayandırılmasını tələb etdi. Lakin Fransa və İngiltərə bunun əksinə çıxdılar. ABŞ-da onları müdafiə etdi. İngiltərə və Fransa Misirin Qahirə, Port Səid, Suveyş, İsmaliyyə şəhərlərini bombardman etdi. 1956-cı il noyabrın 1-də BMT Baş Assambleyası, İngiltərə, Fransa, İsraildən tələb etdi ki, hərbi əməliyyatları dayandırsınlar. Lakin, onlar bunu qəbul etmədilər. Belə olduqda, SSRİ ABŞ-a Yaxın Şərqdəki vəziyyəti normallaşdırmaq işində əməkdaşlıq etməyi təklif etdi. ABŞ təcavüz əleyhinə çıxış etsə də, SSRİ ilə əməkdaşlıqdan əvvəl imtina etdi. Lakin SSRİ-nin təkidini gördükdə bu təklifə razı oldu. 1956-cı il noyabrın 6-da ABŞ prezidenti Eyzenhauer də hərbi əməliyyatları dayandırmaq tələbi ilə çıxış etdi. 1956-cı il noyabrın 7-də BMT-nin 64 üzvü İngiltərə, Fransa, İsrail qoşunlarının Misir ərazisindən çıxarılması lehinə səs verdi. 1956-cı il noyabrın 15-də Misirə BMT qoşunlarının ilk dəstələri gətirildi. Tezliklə təcavüzkar qoşunlar Misirdən çıxarıldı Misirdə BMT-nin nəzarəti qoyuldu. Misir bu müharibədə SSRİ və ABŞ-ın köməyi ilə qalib gəldi.

**Eyzenhauer doktrinası və ABŞ-ın Yaxın Şərq siyasəti.**

1956-cı il Süveyş böhranından sonra ABŞ-ın Yaxın Şərq siyasəti daha da fəallaşdı.

1957-ci ilin yanvarın 5-də ABŞ prezidenti D. Eyzenhauer Yaxın və Orta Şərq ölkələrində Birləşmiş Ştatların siyasəti haqqında xüsusi məktubla konqresə müraciət etdi. Euzenhauerin bu məktubu Sovet İttifaqının və beynəlxalq kommunizmin təcavüzünə qarşı yönəldilmişdi. Bu regionda böhranlı vəziyyətin olduğunu, həmin dövrdə dünyada neft ehtiyatlarının 2/3-sinin burada yerləşməsini və Yaxın Şərqin Avropa, Asiya və Afrika arasında qapı rolu oynamasını və üç səmavi dinin yarandığı yer olduğunu

qiymətləndirən prezident lazım olan vaxtda Yaxın və Orta Şərqdə ABŞ hərbi qüvvələrini tətbiq etməyə icazə verilməsini konqresdən xahiş etdi.

Doktrinanın məzmunu aşağıdakı kimi idi:

D. Eyzenhaur 1957 – ci ilin yanvarın 5 –də konqresə göndərdiyi məktubda göstərirdi ki, "Hər hansı bir ölkə digər dövlət tərəfindən hər hansı bir təcavüzə məruz qalarsa, o ABŞ – ın iqtisadi və hərbi köməyindən istifadə edə bilər". Eyzenhauer öz doktrinasında Sovet təhlükəsini xüsusilə qeyd edirdi. O, göstərirdi ki beynəlxalq kommunizmin nəzarət etdiyi istənilən millət öz ərazi bütövlüyünü və siyasi müstəqilliyini təmin etmək üçün hərbi yardıma ehtiyac hiss edərsə ABŞ, ona kömək etməyə hazırdır.

Qlobal siyasi səpkidə Doktrina irimiqyaslı hərbi münaqişələrə cavab olaraq irəli sürülmüşdü. Bu SSRİ – nin Süveyş böhranı ilə əlaqədar olaraq Misirə soxulmaq cəhdinin qarşısının alınmasına yönəldilmişdi. Böyük Britaniya və Fransanın uğursuzluğu nəticəsində regiona ağalıqda bir boşluq yaranmışdı. Ona görə də prezident regionda ABŞ – ın təsirinin gücləndirilməsini vacib hesab edirdi. Vəziyyəti mürəkkəbləşdirən amillərdən biri Misir lideri Kamal Əbdül Nasirin SSRİ ilə ABŞ – ın maraqlarının toqquşmasına imkan yaradan mövqeyi idi. Kamal Əbdül Nasir bu dövrdə kömək aldığı üçün "müsbət bitərəf" mövqedə dururdu. Eyzenhauer Konqresə göndərdiyi məktubda yazırdı ki, "mən məktubumda ölkədəki vəziyyət haqqında ümumi beynəlxalq şəraitin xülasəsini verirəm. Bütün dünya ümid bəsləyir ki, biz azadlığı təmin etməyi ilk növbədə öz şəxsi işimiz hesab etməliyik. Orta Şərqdə vəziyyətin xeyli mürəkkəbləşdiyini ilk növbədə mən sizə izah etmək istəyirəm. İlk növbədə xatırlatmaq istəyirəm ki, bizim əsas milli məqsədimiz beynəlxalq işlərdə bütün dünyada sülhü təmin etməkdir. Bu sülh hüquqa əsaslanmalıdır. Bu sülh dünyanın bütün xalqlarını əhatə etməli və möhkəm olmalıdır. Həm də bu böyük və ya kiçikliyindən asılı olmayaraq dünyanın bütün dövlətlərinə aid edilməlidir. Sülh proqramının əsas hissələrindən biri dövlətlərin bir – birinə inamı və qarşılıqlı etibarıdır. Bu inam bahalı silahlarla yaradılmış hamiləlikdən qurtarmağın əsas yoludur. Bizim hökumətimiz bu məqsədə çatmaq üçün yorulmaz iş aparır,

lakin biz o zaman müvəffəqiyyət qazana biləcəyik iki, bütün dövlətlərdə sülhün mövcudluğu ilə bizim səylərimizin birləşməsi təmin edilsin.

I.Orta Şərqdə vəziyyət öz mürəkkəb və uzun tarixində ən kəskin nöqtəsinə çatmışdır. Son onilliklərdə əksər dövlətlər burada tam öz idarələrini təmin etməyi bacarmamışlar. Başqa dövlətlər regionda əhəmiyyətli nüfuz qazansalar da, ancaq onların təhlükəsizliyi ilk növbədə güclərin nə dərəcədə olması ilə müəyyən edilirdi. Birinci Dünya müharibəsindən sonra bu ölkələrdə özünüidarəyə və müstəqilliyə doğru inkişaf müşahidə edilməyə başladı. Hadisələrin belə gedişini ABŞ alqışladı. Bizim ölkəmiz Orta Şərqin bütün dövlətlərinin tam suverenliyini, müstəqilliyini dəstəkləyir. Müstəqilliyə təkamül yolu ilə nail olmaq sülh prosesinin əsasında dayanır. Ancaq regionda tez – tez həyəcanlar baş verir. Daim qarşılıqlı etimadsızlıq və qorxu sərhədlərin pozulması ilə müşahidə olunur. Bu isə gərginliyi artırır. Orta Şərqin müəyyən ərazilərində qeyri-sabit şərait yaradır. Tamamilə bu yaxınlarda orada hərbi əməliyyatlar başlamış, Qərbi Avropa dövlətlərinin işə qarışması ilə nəticələnmişdir. Həmin Avropa dövlətlərinin regionda təsiri güclü olsa da, hadisələrin gedişi indi onların nüfuzunun bu regionda aşağı düşdüyünü göstərdi. 1956 – cı ilin oktyabr ayında İsrailin Misirə hücumu zamanı bu ölkələrlə Ərəb ölkələri arasındakı ziddiyyətlər bir daha aşkar olundu. Bu qeyri-sabitliyin hökm sürməsindən və dərinləşməsindən beynəlxalq kommunizm hər an faydalana bilər.

II. Rusiya hökuməti çoxdan öz ağalığını orta şərqdə bərqərar etməyə cəhd edir. Bu həm Çarizm dövründə olmuş və həm də bolşeviklərin dövründə davam edir. Onun səbəbini tapmaq çətin deyildir. Rusiyanın təhlükəsizliyini heç nə qorxutmur. Heç kim Rusiya əleyhinə təcavüz üçün Orta Şərqdən bir meydan kimi istifadə etmək fikrində deyildir. ABŞ–da da belə bir fikir qətiyyən olmamışdır. SSRİ – nin şərqdən - ABŞ tərəfdən təhlükəsi üçün heç bir əsas yoxdur. Mən bunu tam ciddi və qətiyyətlə elan edirəm. Rusiyanın öz xüsusi iqtisadi maraqları onu bu regiona diqqət yetirməyə sövq edir. Rusiya Süveyş kanalından, demək olar ki, istifadə etmir və ondan asılı deyildir. 1955- ci il kanaldan keçən

yüklərin cəmi 1%-i SRRİ – nin yüklərinin payına düşürdü. Regionun əsas təbii sərvəti olan neft ehtiyatlarına SSRİ – nin ehtiyacı yoxdur. İş ondadır ki, SSRİ özü ən böyük neft ixrac edən ölkələrdən biridir. Buradan belə bir nəticə çıxır ki, Rusiyanın bu regiona marağı sırf siyasi xarakter daşıyır. Onun bütün dünyanı kommunistləşdirmək haqqında plan elan etdiyini əsas götürsək, onun Orta Şərqə ağalığa nail olmaqla nəyə ümid etdiyini aydın etmək olar. Bu region kontinentin şərq yarımkürəsinin kəsişdiyi bir nöqtədə yerləşir. Süveyş kanalı Asiya və Avropa dövlətlərinə bütün ticarətlərini aparmaq imkanını verir. Bunun üçün vacib şərt isə onların hərtərəfli inkişafını, çiçəklənən iqtisadiyyatını dəstəkləmək üçün tədbirlərin görülməsidir.

III. Orta Şərq özünü Avrasiya və Avropa üçün darvaza kimi təqdim edir. Bu ərazidə dünya neft ehtiyatlarının 2/ 3 hissəsi yerləşir. bu region Avropa, Asiya, Afrikanın bir çox dövlətlərinin neftə olan tələbatını ödəyir. Xüsusilə Avropanın bir çox ölkələri üçün Orta Şərq həm onların neftə olan tələbatını ödəyir, həmdə onlar üçün nəqliyyat yoludur. Bu fakt Süveyş kanalı və neft kəmərləri bir müddətə bağlandıqda bir daha sübut edildi. Belə olan təqdirdə alternativ nəqliyyat yolları və neft mənbələri axtarmaq zərurəti meydana çıxır. Lakin bunlar yaxın gələcək üçün hələ mümkün deyildir. Bütün bunlar isə Orta Şərqin çox mühüm əhəmiyyət kəsb etdiyini bir daha yəqin edir. Əgər bu regionun dövlətləri öz müstəqilliklərini itirsələr, əgər onların üzərində yad güclərin dominatlığı təmin edilərsə, azadlığa münasibətə düşmən əhval – ruhiyyə bu region və bir sıra başqa azad dövlətlər üçün faciə yaradar. İqtisadi həyat da aşağı səviyyəyə düşər. Əgər Marşal planı və NATO olmasa idi, təhlükə Qərbi Avropanı da əhatə edəcəkdi. Asiya və Afrikanın müstəqil dövlətləri üçün ciddi təhlükə yaranmış olardı. Orta Şərqdə də onlar iqtisadiyyatlarının asılı olduğu bazarlarını itirmiş olardı. Bu ABŞ üçün də, onun iqtisadiyyatı üçün də gələcəkdə xoşagəlməz hallara səbəb ola bilər. Başqa amillər də vardır ki, bunlar maddi səbəblərdən irəli gəlmir. Orta Şərq üç mühüm dinin - islam, xristian və yəhudi dinlərinin meydana gəldiyi mərkəzdir. Məkkə və Yerusəlim o qədər də böyük şəhərlər deyildir. Lakin bu şəhərlər dini rəmz daşıyırlar.

Heç bir despot hökumət onları dini baxışlarından məhrum edə bilməz. Əlbəttə, Orta Şərqin bu müqəddəs yerləri ateist materializm dünya görüşünü əsas götürən quruluşun zülmünü götürməz və rədd edər. Doğrudur beynəlxalq kommunizm öz əsas məqsədini pərdələməyə çalışaraq dünyaya xeyirxah məqsədlə təsir göstərmək istədiyini bildirir. SSRİ cəlbedici cümlələrlə öz siyasi, iqtisadi və hərbi köməyini əsirgəmədiyini bildirir. Lakin istənilən azad dövlət sistemin obyektidir. Onun maska altında gizləndiyini aşkara çıxarmaq üçün adi bir müdriklik kifayətdir. Estoniya, Latviya və Litvanı xatırlayın. Sovet ittifaqı 1939 – cu ildə bu dövlətlərlə qarşılıqlı yardım haqqında müqavilə bağladı. O zaman bu dövlətlər hələ müstəqil idilər. SSRİ xarici işlər naziri 1939 – cu ilin oktyabrında Ali Sovetin növbədənkənar birinci sessiyasında öz müraciətində bütün dinləyicilərə təntənəli surətdə bildirdi ki, "biz dəqiq və diqqətlə bu pakta əməl edəcəyik, elan edirik ki, Pribaltika Respublikaları haqqında bütün mənasız danışıqlar bizim ümumi düşmənlərimizin və bütün antisovet fitnəkarların maraqlarını ifadə edir". Lakin 1940 – cı ildə Pribaltika Respublikaları zorla SSRİ – yə birləşdirildi. Şərqi Avropanın satellit dövlətləri üzərində güclü Sovet nəzarəti davam edir, halbuki İkinci dünya müharibəsi zamanı təntənəli surətdə başqa vədlər verilmişdir. Stalinin ölümü bu taktikanı dəyişdirmək ümidini doğrultdu. 1955 – ci ildə Varşava Müqaviləsi Təşkilatı yaradıldı. Onun prinsipi onların müstəqilliyinə və suverenliyinə hörmət və daxili işlərinə qarışmamaq olsa, SSRİ yenə satellit ölkələr üzərində öz nəzarətini davam etdirdi. Biz Macarıstana kobud silahlı müdaxilənin şahidi olduq. Macar faciəsi nəticəsində dünyanın Sovet vədlərinə olan inamı sarsıldı. Beynəlxalq kommunizm keçmiş müvəffəqiyyətlərini qorumağa çalışır. Biz sadə və mübahisəyə ehtiyacı olmayan faktlarla qarşılaşırıq: 1)Orta Şərq həmişə Rusiya üçün özünü cəlbedici şəkildə təqdim edir. Bu gün isə o, beynəlxalq kommunizm üçün daha çox arzu edilən mükafat kimidir. 2)Sovet hökuməti arzu edilən məqsədinə çatmaq üçün mübarizəsini nümayiş etdirməkdə davam edir. 3)Orta Şərqin müstəqil dövlətləri əlavə müdafiəyə ehtiyac hiss edirlər, onlar müstəqil dövlət kimi qalmağa çalışırlar.

IV. Mənim sizə ifadə etdiyim bütün bu vəziyyət ABŞ – ın qarşısında böyük məsuliyyət qoyur. Biz nümayiş etdirdik ki, Orta Şərqin dövlətlərinin müstəqilliyi, toxunulmazlığı pozulmaz qalmalıdır və beynəlxalq miqyasda hər hansı bir təcavüzə məruz qala bilməz. Bu prinsipə biz sadiqik, buna heç bir şübhə də ola bilməz. Tarix sübut edir ki, dövlətin öz prinsipindən üz döndərməsi onu necə amansız sınaqlara məruz qoyur. Təkcə Orta Şərqdə deyil, ABŞ digər adamlar üzərində də siyasi və iqtisadi ağalığa çalışmır. Bizim arzumuz dünyada quldarlıq deyil, azad mühit yaratmaqdır. Bu dövrdə Orta Şərqin hamısı olmasa da, xeyli dövlətləri beynəlxalq kommunizmdən gələn təhlükəni anlayaraq ABŞ – la daha sıx əlaqəni alqışlayırlar. Onlar özləri üçün BMT – nin müsəqillik, iqtisadi uğurlar və mənəvi yüksəliş məqsədini reallaşdırmağa çalışırdılar. Əgər Orta Şərq əvvəlki Qərblə Şərq arasında əlaqələndirici halqa rolunu yerinə yetirirsə, əgər onun geniş iqtisadi resursları öz xalqına məxsusdursa, əgər onun mədəniyyəti, dini və başqa adət - ənənələri öz xalqına xidmət edirsə, onda ABŞ bu azadlıqsevən dövlətlərin müstəqilliyini müdafiə etməyə hazır olduğunu bildirməlidir.

V. Bu şəraitdə mən konqresə əməkdaşlıq üçün müraciət etməyi vacib hesab etdim. Ancaq belə bir əməkdaşlıq əsasında biz təcavüzü dəf etmək üçün bütün vacib işləri görə bilərik. Azadlıq uğrunda igidlik və inam göstərə bilərik. Nəticədə isə ciddi təhlükə qarşısında azad dünya qoya bilərik. Əvvəllər ABŞ Orta Şərqə aid bir sıra prezident bəyanatları vermişdir. Bu və ya digər dərəcədə beynəlxalq kommunizmdən irəli gələn mürəkkəbləşən qeyri – müyyən situasiya və təhlükənin artması məni inandırır ki, konqresin və icra hakimiyyəti başçılarının birgə fəaliyyəti ilə ABŞ – ın prinsipial siyasəti öz ifadəsini tapmalıdır. Həm də bizim qətiyyətimiz bu qaydada rəsmiləşməlidir ki, onda heç bir şübhəyə əsas qalmasın. Bizim sözümüz əməlimizlə möhkəmləndirilməlidir.

VI. Mənim məsləhət görülən təkliflərim aşağıdakı fərqləndirici cəhətləri özündə birləşdirməlidir. Birinci, bu hərəkətin nəticəsində ABŞ Orta Şərqin istənilən dövlətinə və dövlətlər qrupuna kömək etmək hüququ əldə edir. Bu isə onların iqtisadi qüdrətinin inkişafına, milli müstəqilliyinin qorunmasına yönəl-

dilmişdir. İkincisi, bu hərəkətin nəticəsində icraedici hakimiyyət başçıları bu regionda hərbi kömək və bu köməyi istənilən dövlət və dövlətlər arzu edən qrupu ilə əməkdaşlıq, proqramını reallaşdırmaq üçün səlahiyyət alacaqlar. Üçüncü, bu hərəkət nəticəsində beynəlxalq kommunizmin nəzarət etdiyi hər hansı dövlətin açıq silahlı təcavüzü zamanı Orta Şərq regionuna daxil olan dövlətlərin ərazi bütövlüyünü və siyasi müstəqilliyini təmin etmək məqsədilə ABŞ – ın silahlı qüvvələrindən istifadə edilə bilər. Bu formada kömək və əməkdaşlığa ABŞ tərəfindən sanksiya veriləcək. Bu tədbirlər BMT – nin nizamnaməsinə daxil edilmiş ABŞ – ın müqavilə öhdəliyi əsasında BMT – nin zəmanəti əsasında həyata keçirilməlidir. Silahlı hücum zamanı bu tədbirlər yenə də BMT TŞ – nın nəzarəti altında olmalıdır. Dördüncü, iqtisadi və hərbi müdafiə məqsədilə 1954 – cü ildə qəbul edilmiş qarşılıqlı təhlükəsizlik haqqında Qanuna və ona edilmiş əlavədə göstərilmiş müəyyən məhdudiyyətlərdən asılı olmayaraq istifadə edilmək üçün konqres vəsait ayırsın. Təklif edilən qanunvericilik aktına yenidən baxılmalı, cari ilin 30 iyununa qədər bu məsələ həll edilməlidir. Mən belə hesab edirəm ki, hələlik bu məqsədə 200 milyon dollar pul ayrılsın, 1958 və 1959 – cu illərin növbəti qanun layihələrində regionun tam istifadəsi üçün əlavə vəsaitlər ayrılsın və bu konqres tərəfindən təsdiq edilsin.

VII. Bu proqram Orta Şərqin bütün problemlərini həll etmir. Bu regiona aid bütün siyasi qərarlar burada öz əksini tapmır. Fələstin və İsraillə ərəb dövlətləri arasında qarşılıqlı münasibətlər problemi qalmaqda davam edir. Ərəb qaçqınlarının taleyi məsələsi də öz həllini tapmışdır. Süveyş kanalının gələcək statusu məsələsi də gündəmdədir. Bu çətinliklər dünya kommunizmini tamamilə bu təhlükədən bir qədər uzaq olduğuna görə daha da kəskinləşdirir. Mənim təklif etdiyim bu layihə bu problemlərin hamısının həllini nəzərdə tutmur. Bu məsələlərlə BMT məşğul olur və biz onu dəstəkləyirik. ABŞ dəqiq elan etmişdi ki, (həmçinin dövlət katibi Dallesin 1955 – ci il 25 avqust tarixli müraciəti də bunu nəzərdə tuturdu) biz əsas problem olan Fələstin probleminin həllində BMT – yə hərtərəfli kömək göstərməyə hazırıq. Təklif edilən proqram əsasən kommunist təcavüzünə qarşı dura bilmək üçün tərtib

edilmişdir. Son dərəcə vacibdir ki, region həm xarici, həm də düşmən qüvvələrə qarşı, kifayət qədər hərbi güclə doldurulsun. bununla həm də regionun müstəqil dövlətlərinin özünü müdafiə qabiliyyəti gücləndirilsin. Bu həmçinin enerji artımına da səbəb olar. Mən artıq gedim ki, biz həm də regionun bu dövlətlərinin və ya dövlətlər qrupunun güclənməsi işində iqtisadi köməyimizi əsirgəməməliyik. Hansı dövlətlərin hökumətləri kənar təsirlərə müqavimət göstərərək qətiyyətlə öz müstəqilliklərini saxlamağa çalışırlar, biz onları dəstəkləyirik. Bu kommunist təhlükəsindən qorunmağın ən yaxşı təminatıdır. Təkcə sözlər kifayət deyildir.

VIII. Regionun istənilən dövlətinin siyasi müstəqillik və ərazi bütövlüyünün müdafiəsində ABŞ silahlı Qüvvələrindən kömək üçün istifadə edilməsində prezidentin səlahiyyətlərinin qadağan edilməsi məsələsinə təkrar müraciət etmək üçün icazə istəyirəm. Əgər hücuma məruz qalan dövlət arzu etməsə, bu səlahiyyətdən istifadə edilməyəcək. Mən ümid edirəm ki, heç vaxt bu səlahiyyətlərdən istifadə etmək lazım gəlməyəcək. Böyük və ya kiçikliyindən asılı olmayaraq bütün dövlətlərin müstəqilliklərinə və hüquqlarına bizim dərin hörmətimizi bildirmək və azadlığın müdafiəsində milli birliyimizi yenidən nümayiş etdirməyimizin zamanı gəldi. Biz zorakılıq deyil, sülh istəyirik. Biz indi bütün gücümüzü bu məqsədə həsr etməliyik, bizim qətiyyətimiz və bütövlüyümüz buna imkan verəcək. Qlobal siyasi kontekstdə doktrina SSRİ-nin Suveyş böhranından (1956-cı ilin iyulun 26-da Misir prezidenti Camal Əbdul Nasirin Suveyş kanalını milliləşdirməsindən sonra ona qarşı İsrail, İngiltərə və Fransadan ibarət koalisiyanın müharibə aparması) istifadə etməklə gələcəkdə Misirə müdaxilə etməklə yaranacaq qlobal münaqişəyə (SSRİ tərəfindən yaradılmış) cavab kimi hazırlanmışdı. Fransa və İngiltərənin bu regionda uğursuz siyasətindən sonra yaranan “vakuumu” (boşluq) Eyzenhauerin fikrincə, məhz ABŞ doldurmalıdır. Mövcud vəziyyəti qəlizləşdirən əsas amillərdən bir isə Misir prezidentinin “Süveyş böhranı” zamanı və ondan sonra “***müsbət(+)neytralitet”*** siyasətindən istifadə etməklə “soyuq müharibə” də SSRİ-nin siyasətini dəstəkləməklə bərabər onu ABŞ-a qarşı qoymaq idi.

“Sovet kommunizmi”ndən Yaxın Şərq ölkələrini “xilas etmək” adı ilə Eyzenhauer konqresdən 3 istiqamətdə hərəkət etməyə razılıq verilməsini xahiş etmişdi:

1)“milli müstəqilliyi qorumaq üçün iqtisadiyyatın inkişaf etdirilməsində” ərəb ölkələri ilə əməkdaşlıq etmək;

2)”hərbi güc və əməkdaşlıq sahəsində proqram hazırlamaq” (Yaxın Şərq siyasətində)

3)Yaxın Şərq ölkələrinin “ siyasi müstəqilliyini və ərazi bütövlüyünü qorumaq” üçün ABŞ hərbi qüvvələrindən istifadə etmək

“Eyzenhauer doktrinası” SSRİ-yə hərbi təzyiq göstərmək və Dalles diplomatiyasının əsasını təşkil edən “mühasirə” (bu diplomatiya SSRİ-nin sərhədlərinə yaxın ərazilərdə ona qarşı hərbi bloklar yaratmağı nəzərdə tuturdu) siyasətini reallaşdırmaq üçün bir vasitə idi. Bundan əlavə bu doktrina bu regionda ABŞ-ın siyasətinə maneə olan “neytralizm baryeri” ni aradan qaldırmaq öhdəçiliyini də öz üzərinə götürmüşdü.

ABŞ  konqresi Eyzenhauerin məktubunu müzakirə etdikdən sonra 1957-ci ilin mart ayında məktubda öz əksini tapan məsələləri bu regionda yerinə yetirmək üçün dövlət büdcəsindən 200 milyon dollar vəsait ayırdı. Bu vəsait əsasən bu reginda sosial genişlənməyə və təcavüzkarlara qarşı (İngiltərə, Fransa və İsrail) baş qaldıran milli hərəkata qarşı yönəldilmişdi.

Eyzenhauerin bu məktubu sonra onu göndərənin adı ilə adlanaraq rəsmi ədəbiyyatlarda “Eyzenhauer doktrinası” kimi tanındı. Lakin bu doktrina bu regionda xoş qarşılanmadı. İlk olaraq buna etiraz bildirən Yaxın Şərq ölkələrindən Misir və Suriya oldu.

ABŞ hələ 1955-ci ildə Suriyada baş verən hərbi çevrilişlər seriyasında sonda özünü Ərəb Sosialist İntibah Partiyası adlandıran (Baas partiyası) hakimiyyətə gəlməsini bilirdi. Bu partiyanın təşkil etdiyi hökumətə kommunistlər daxil olmuşdu. Misirə qarşı üçlər ittifaqının müdaxiləsi zamanı isə Suriya bu üç dövlətlə (Fransa, İngiltərə, İsrail) diplomatik əlaqələri kəsib elan etmişdi ki, o Misirə könüllü dəstələr göndərməklə Misirə köməklik edəcəkdir.

ABŞ isə bunun qarşılığında Suriyanı “beynəlxalq kommunizmin bazası” adlandırdı ABŞ 1957-ci ilin avqustunda yerli

amerikanpərəst qüvvələrdən istifadə edərək Dəməşqdə siyasi çevriliş etməyə cəhd etdi. Lakin bu çevriliş baş tutmadı. Belə olan təqdirdə ABŞ Suriyanın timsalında bu regiona hərbi müdaxilə təşkil etməyə çalışdı. Hücuma dəstək vermək üçün isə Aralıq dənizində olan ABŞ-ın 6-cı hərbi donanması Suriya sahillərinə doğru hərəkətə gətirildi. Müdaxilə təhlükəsi SSRİ-nin məsələyə qarışması nəticəsində aradan qalxdı.

1957-ci ilin oktyabrın 19-da SSRİ elan etdi ki, Suriyaya hər hansı bir müdaxilə təşkil edilərsə, o, BMT-nin bəyannaməsi və özünün təhlükəsizliyini təmin etmək prizmasından çıxış edərək təcavüzün qurbanına hərtərəfli yardım etmək üçün lazımı tədbirlər görəcəkdir. Moskva artıq rəsmi şəkildə Türkiyənin Suriyaya qoşun yeritməsinə cavab olaraq Suriyaya yardım edəcəyini bildirdi. Bununla bərabər SSRİ Qafqaz sərhədi boyu öz ordusunu cəmləşdirdi. Bundan sonra Türkiyə öz ordusunu sərhəddən çəkdi.

Suriyaya qarşı çevrilmiş imperialist xarakterli təhlükə onu Misir ilə yaxınlaşdırdı. 1958-ci ilin fevralın 1-də Suriya və Misiri birləşdirən Birləşmiş Ərəb Respublikası yaradıldı ki, onun ilk prezidenti Misir prezidenti Camal Əbdül Nasir oldu. Bu respublikaya Misir və Suriyanın torpaqları daxil idi. Məhz bundan sonra bütün ərəb ölkələrində milli-azadlıq hərəkatları güclənməyə başladı. Livanda "Eyzenhauer doktrinası"nı qəbul etmiş prezident Şumana qarşı xalq etiraz dalğaları başlandı.

Ən mühüm tarixi hadisə isə o dövrdə Yaxın Şərq ərazisində 1958-ci ilin iyulun 14-də İraqda olmuş inqilab idi. Başda 44 yaşlı briqada generalı Əbdül Kərim Qasem olmaqla vətənpərvər zabitlərdən ibarət olan "azad zabitlər" xalqın köməkliyi ilə hərbi çevriliş edərək ölkədə olan monarxiyanı devirdi. Kral II Feysəl və ingilis agenti olan baş nazir Nuri Səid öldürüldü. İraq respublika elan olundu və onun ilk prezidenti elə general Qasem oldu. Qasem prezident seçildikdən sonra İraqın Bağdad paktından çıxdığını elan etdi. Ölkədən ingilis qoşunlarını çıxardıqdan sonra SSRİ ilə dostluq və qarşılıqlı əməkdaşlıq haqqında müqavilə bağladı. Bu isə Qərbin İraqda eləcə də Yaxın Şərq regionunda həm siyasi nüfuzuna həm də neft sahəsində olan monopoliyaya böyük təhlükə törədirdi.

Buna cavab olaraq ABŞ İngiltərə ilə birgə Yaxın Şərqə hərbi müdaxilə etməyə qərar verdilər. 1958-ci ilin iyulun 15-də Livan sahillərinə ABŞ-ın 6-cı hərbi donanmasının gəmiləri yan aldılar və quruya hərbi-dəniz süvari ordusu çıxarıldı. Həmin ilin iyulun 17-də isə ingilis hava desant qüvvələri İordaniyanın paytaxtı olan Amman şəhərini tutdu. İngilis-amerikan təcavüzkar bloku Livan və İordaniya ərazisindən İraqa müdaxilə etmək üçün istifadə etmək niyyətində idi.

Lakin SSRİ-nin yenə də məsələyə müdaxilə etməsi onları İraqda inqilabı devirməyə və Suriyada amerikansayağı hakimiyyət təşkil etməyə imkan vermədi. Hələ iyulun 16-da SSRİ rəsmi şəkildə İraq respublikasını tanıdığını elan etmişdi. Sovet İttifaqı dərhal Livandan ABŞ ordusunun və İordaniyadan ingilis ordusunun çıxarılmasını tələb etməklə bərabər, SSRİ, ABŞ, İngiltərə, Fransa və Hindisdanın iştirakı ilə Yaxın Şərq məsələsinin tənzimlənməsinə dair konfransın çağrılmasının təklif etdi. Türkiyədə baş verən hadisələrlə əlaqədar olaraq Suriya sərhədində yenidən öz ordusunu cəmləşdirdi. Lakin SSRİ Türkiyəni ciddi şəkildə xəbərdarlıq etdikdən sonra Türkiyə öz fikrindən əl çəkdi.

ABŞ tərəfi SSRİ-nin bu təklifini qəbul etmədi. Belə olduqda SSRİ-nin müraciəti əsasında BMT-nin Baş Məclisinin fövqəladə sessiyası çağırıldı. Məclis Yaxın Şərqdə baş verən prosesləri müzakirə edərək yekunda Livan və İordaniyadan tez bir zamanda ingilis və amerikan ordusunun çıxarılması haqqında qərar qəbul etdi. ABŞ və İngiltərə uzun müddət konfransın işini uzatsalar da, sonda öz hərbi qüvvələrini regiondan çıxarmağa başladılar. Bundan sonra Livan hökuməti "Eyzenhauer doktrinası" na qoşulmaqdan imtina etdiyini bildirdi və SSRİ ilə yaxınlaşdı. Məhz SSRİ-nin maddi və mənəvi dayağı nəticəsində ABŞ buna qarşı hər hansı tədbir görmədi. Bundan sonra Livanın ardınca İraq da bu doktrinadan imtina etdiyini rəsmi şəkildə bildirdi.

Beləliklə, Misirə "3-lər təcavüzü" kimi bu doktrina da müvəffəqiyyətsizliyə düçar oldu. Lakin ABŞ özünün Yaxın Şərq siyasətindən əl çəkmirdi 1959-cu il martın 24-də İraq Bağdad paktından çıxmasını elan etdi. Paktın digər üzvləri olan İngiltərə, Türkiyə, Pakistan və İran 1959 –cu ilin iyulun 25-də SENTO

(Mərkəzi Müqavilə Təşkilatı) adlanan hərbi blok təşkil etdilər. Onun baş qərargahı Bağdaddan Ankaraya köçürüldü. Bu hərbi blokun vasitəsi ilə ABŞ bu bloka daxil olan ölkələrin ərazisində gələcəkdə, lazım gələrsə, hərbi-strateji tədbirlər planı həyata keçirməyi və bu ərazilərdən "soyuq müharibə" və Yaxın Şərq siyasəti ilə əlaqədar olaraq bir plasdarm (meydan) kimi istifadə etməyi planlaşdırdı.

## 1967-ci il "Altı günlük" müharibə və ABŞ-ın ona münasibəti

1964-cü ildə Fələstin Azadlıq Təşkilatı yaradıldı. İsrailə qarşı partizan müharibəsi başladı. Öz doğma yurd-yuvalarından çıxarılan və ya qaçıb canını qurtaran fələstinlilər, bu vəziyyətin günahkarı yəhudiləri görürdülər.

1966-cı il noyabr ayının 13-də İsrail ordusu tank və zirehli avtomobillərlə İordaniya sərhədini keçərək 4000 sakini olan Samu kəndinə hücum etdi və kənd əhalisini qırğına məruz qoydu. 1967-ci ildə aprel ayının 7-də Suriya topçularına havadan təcavüzə Suriya təyyarələri də qarışdı. Hava müharibəsində Suriyaya məxsus 6 təyyarə partladıldı.

Misirə ingilis-fransız-İsrail təcavüzündən sonra mütəmadi olaraq İsrailin Misir və Suriya ilə olan sərhədində sərhəd pozuntuları baş verirdi ki, bu hal 1967-ci ildə o dərəcədə kəskinləşdi ki, silahlı münaqişəyə səbəb oldu. İsraillə Suriya və Misir sərhədində qoşunların yerləşdirilməsi baş verdi. 1967-ci il mayın 16-da Misir və Suriya bəyanat verdi ki, İsrail hücum etdiyi təqdirdə ona müqavimət göstərəcəklər. 1967-ci il mayın 20-də bu ölkələrdən hər hansı birinə üçüncü bir ölkə hücum edərdisə, bir-birinə kömək etmək haqqında bu ölkələr arasında müqavilə bağlandı. 1967-ci ildə İordaniya da Misir və Suriya ilə belə bir müqavilə bağladı. Ərəb ölkələri arasında yaranan müdafiə ittifaqı İsrailin siyasətinə qarşı ərəb ölkələrinin birliyini möhkəmləndirmək məqsədi daşıyırdı. 1967-ci ilin mayın 16-da Birləşmiş Ərəb Respublikasının silahlı qüvvələri Baş ştabının rəisi BMT qoşunlarının komanda rəisinə müraciət etdi ki, barışıq xəttindəki qoşunları geri çəksinlər.

çünki onlar hərbi əməliyyatlar zamanı zərər çəkə bilər. 1967-ci il mayın 18-də BMT qoşunları öz yerlərindən köçürüldülər. 1967-ci il mayn 23-də Nasir Birləşmiş Ərəb Respublikasının prezidenti Camal Əbqül Nasir elan etdi ki, Misir Bərzə və Akap körfəzini gəmilər üçün bağlı elan edir. Bu əslində İsrailin Eylat limanının mühasirəyə alınması demək idi. Buna cavab olaraq İsrail 1967-ci il mayın 20-də ölkədə səfərbərlik elan etdi. Həmin vaxt Qahirəyə vasitəçi missiyası ilə BMT-nin baş katibi U. Tan gəldi və Misir prezidenti ilə bu məsələ müzakirə edildi. Bu məsələnin BMT TŞ-nin müzakirəsinə verilməsi haqqında 1967-ci il mayında qərar qəbul edildi. Mayın 29-da TŞ yenidən toplandı. Yaxın Şərqdə vəziyyət daha da kəskinləşirdi. ABŞ başda olmaqla SSRİ, Fransa İngiltərə danışıqlar prosesini sürətləndirməyə cəhd etsələr də, nəticəsiz qaldı. 1967-ci il iyunun 5-də İsrail qonşu ərəb dövlətlərinə silahlı basqın etdi. İsrailin əlində əsas bəhanə beynəlxalq su yollarının bağlanması və İsrailin mühasirəyə alınması idi. Bu zaman İsrailin ixtiyarında 50 min, İordaniyada 55 min, Suriyada isə 75 min qoşun var idi. İsrail birinci Misirə zərbə vurdu. Misir qoşunları Sınay yarımadasında İsrail qoşunları ilə birinci gün qarşı-qarşıya dayandılar. Lakin İsrailin hava qüvvələri hücuma keçdikdə Misir aciz qaldı. 1967-ci il iyunun 9-da İsrail qoşunları hücuma keçərək Suveyş kanalına gəlib çatdılar. Misirə zərbə endirdikdən sonra İsrail qoşunları hücumlarını İordaniyaya yönəltdilər. 1967-ci il iyunun 7-də İordaniya qoşunlarını geri çəkməyə məcbur oldu. İyunun 9-da İsrail qoşunları Suriyaya girdilər və onları sərhəddən xeyli uzaqlaşdırdılar. Nəticədə bir neçə gün ərzində İsrail öz ərazisini xeyli genişləndirdi. Onun ərazisi 68,7 min $km^2$ oldu. İsrail tərəfindən İordan çayının qərb sahili, Yerusəlimin Şərq hissəsi işğal olundu, həmçinin İsrail Misirə tabe olan Sinay yarımadası və Suriyaya məxsus olan Holan təpələrinə nəzarəti öz əlinə aldı. Bununla da, Yaxın Şərqdə mürəkkəb vəziyyət yaranmış oldu. 1967-ci il iyunun 5-də SSRİ hökuməti hərbi əməliyyatları dərhal kəsmək tələbi ilə çıxış etdi. ABŞ əvvəlcə İsraili müdafiə etdi və İsrailin təcavüzkar kimi tanınmasına qarşı çıxdı. 1967-ci ilin 6,7,9 iyununda BMT-nin TŞ İsraildən tələb etdi ki, atəşi dərhal dayandırsın və tutduğu ərazilərdən qoşunları çıxarsın. 1967-ci il iyunun 10-da İs-

railin Moskvadakı səfirinə SSRİ nota göndərərək İsraillə diplomatik münasibətləri kəsdiyini bildirdi. Həmin gün SSRİ Nazirlər sovetinin sədri Kosıgin telefonla ABŞ prezidenti Consonla əlaqə saxladı və onu İsraili danışıqsız hərbi əməliyyatları dayandırmağa məcbur etməyə çağırdı və xəbərdarlıq etdi ki, əks- təqdirdə SSRİ müşahidəçi kimi qalmayacaqdır. Bir saat 15 dəqiqədən sonra ABŞ xəbər verdi ki, İsrail hərbi əməliyyatları dayandırmağa hazırdır. Beləliklə, “6 günlük” müharibə başa çatdı (5-10 iyun).

Altı gün çəkən müharibə tarixə “Altı günlük müharibə” adı ilə düşdü. BMT-nin 1967-ci il noyabr ayının 10-da “ATƏŞKƏS” elan etməsi ilə müharibəyə son qoyuldu. İordaniya 1967 – ci il Ərəb-İsrail müharibəsində 1948-ci ildə qazandığı torpaqları itirdi. 6000 insan həlak oldu. İsrail ərazisi bu müharibədən sonra iki dəfə artdı. İsrail Qəzzə bölgəsini, Sinay yarımadasını, Şərqi Qüdsü, İordan çayının qərb sahilini və Suriyanın Holan təpəliklərini işğal etdi.

Müharibənin nəticələri İsrail üçün əlverişli idi. 1967-ci il iyunun 17-dən 23-dək BMT-nin Baş Assambleyasının Vaşinqtonda Yaxın Şərqə dair xüsusi sessiyası oldu. SSRİ-nin təkidinə baxmayaraq İsrailin işğalçılıq hərəkətlərini göstərən və onun tutduğu əraziləri tərk etməsini tələb edən qətnamə qəbul edilmədi. Ancaq 1967-ci il noyabrın 22-də BMT-nin TŞ-sının 242 saylı qətnaməsinə əsasən İsrail təcavüzkar hesab olunur və tutduğu ərazilərdən dərhal çıxması tələb olunurdu. Lakin İsrail bu qətnaməyə əməl etmədi. 1968-ci ilin martında İsveç səfiri Hummar Yarınqin Yaxın Şərqlə əlaqədar İsrail, Misir, Suriya, İordaniya nümayəndələri ilə danışıqları bir nəticə vermədi. Beləliklə də, “6 günlük” müharibə Yaxın Şərqdə unikal şərait yaratdı. Bunu bu cür qiymətləndirmək olar: “Nə müharibə, nə də sülh” 1968-ci ildə “yorğunluqla müharibə” gedirdi ki, hansı ki, İsraillə Misir sərhədlərdə çərçivədən çıxmayaraq bir-birlərinə zərbələr endirirdilər. SSRİ 1968-ci ilin sonunda TŞ-nın 242 saylı qətnaməsini həyata keçirmək üçün ABŞ, Böyük Britaniya və Fransaya təkliflərini təqdim etdi. Fransa bunu dəstəklədi. Yuxarıdakı dövlətlərin iştirakı ilə Yaxın Şərqdə ədalətli və möhkəm sülh yaratmaq məsələsi 1969-cu il yanvarın 16-da keçirilən görüşdə müzakirə edildi. Lakin ABŞ belə hesab edirdi ki,

Yaxın Şərqdə ancaq birgə sülh yaradıla bilər. 1969-cu ildə ABŞ-ın dövlət katibi Rocers bəyan etdi ki, ABŞ Yaxın şərq prosesinin nizamlanmasında birbaşa rol oynamaq qərarına gəlib. "Rocers planı" adlı plan meydana çıxdı ki, burada ilk növbədə Misir və İsrail arasındaa sülh və hərbi əməliyyatları dayandırmaq əsas yer tuturdu. Planda nəzərdə tutulmuşdur ki, İsrail TŞ-nin 242 saylı qətnaməsini yerinə yetirməlidir, ancaq bu şərtlə ki, Yaxın Şərqdə vəziyyət normalaşdırılsın. Lakin İsrail bu planı yerinə yetirmədi. 1972-ci ildə iyulun 22-də Misirin Xarici İşlər Naziri isə öz cavabında ABŞ-ın təklifinə razı olduğunu bildirdi.

**1973-cü il oktyabr müharibəsi və ona ABŞ-ın münasibəti**

"Altı günlük" müharibədən bir neçə il keçdikdən sonra ərəb ölkələri, ilk növbədə Misir və Suriya itirdikləri mövqelərini bərpa etmək üçün 1973-cü ilin oktyabr ayının 6-da İsrailə qarşı yenidən müharibəyə başladılar. Bu tarixdə "Oktyabr", "Mühakimə günləri", "Ramazan müharibəsi" kimi də məşhurdur. Hələ 1973-cü ilin yanvarında Misir və Suriya ümumi hərbi komandanlıq təsis etdilər. Sonrakı aylarda isə onlar digər ərəb ölkələri ilə, ilk növbədə İraqla ərəb həmrəyliyi nümayiş etdirərək birgə əməliyyatın planını işləyib hazırladıqları 1973-cü il oktyabr müharibəsində iştirakçıların qüvvələr nisbəti aşağıdakı kimi idi. İsrailin 415 min quru qoşunu, 1500 tank, 3000 bron maşını, 945 artilleriyası, 561 təyyarəsi, 84 vertolyotu, Misirin 830 min piyada qoşunu, 2200 tankı, 2400 bron maşını, 1120 artilleriyası, 690 təyyarəsi, 161 vertolyotu, 104 gəmisi, Suriyanın 332 min piyada qoşunu, 1350 tankı, 1300 bron maşını, 655 artilleriyası, 321 təyyarəsi, 36 vertolyotu, 21 gəmisi var idi. Bu müharibədə İraqın vertolyotu və gəmisi deyil, ancaq 20 min qoşunu, 310 tankı, 300 bron maşını, 54 artilleriyası, 73 təyyarəsi iştirak edirdi.

1973-cü il oktyabrın 6-da Misir və Suriya eyni zamanda İsrail qoşunlarının mövqelərinə hücum etdilər və ilk anda uğur qazandılar. Müttəfiqlərin məqsədi o idi ki, İsrailin işğal etdiyi əraziləri (1967)geri qaytarsınlar. Bu dövrdə SSRİ Misir və Suriyaya maddi və hərbi cəhətdən kömək edirdi. Lakin ərəb ölkələri uğurlarını davam etdirə bilmədilər. Tezliklə vəziyyət dəyişdi. İsrail qoşunları ərəb ölkələrinin irəli hərəkətini dayandıraraq Misir və

Suriyaya qarşı hücuma keçdi. Bu dövrdə ABŞ İsrailə hərbi köməyi genişləndirməklə əlaqədar təcili tədbirlər görməyi qərara aldı. Həmçinin ABŞ-ın təşkil etdiyi hava körpüsü ilə İsrailə kütləvi qaydada silahla və hərbi materiallar atılmağa başlandı. Bu isə İsrailin ərəb ölkələri ilə mübarizəsində tələbatını ödəmək üçün kifayət idi. Bu dövrdə dünya ictimaiyyəti Yaxın Şərqdə atəşi kəsmək məsələsini kəskin şəkildə qarşıya qoydu. Bu məsələnin müzakirəsi zamanı İsrail hökuməti tələb etdi ki, xüsusi yerdə onun təhlükəsizlik problemi dayanmalıdır. Bu dövrdə ABŞ 1973-cü ilin oktyabrın 8-də BMT-nin TŞ-nın iclasında tələb etdi ki, ərəb ölkələri tutduqları mövqedən çəkilməlidirlər ki, atəşkəs elan edilsin. SSRİ və ərəb ölkələri buna qəti etiraz etdilər. 1973-cü ilin oktyabrın 12-də İsrail hökuməti cəbhədəki vəziyyətlə əlaqədar olaraq razılaşdığını bildirdi. SSRİ-nin təşəbbüsü ilə 1973-cü ilin oktyabrın 20-21-də SSRİ Xarici İşlər naziri Qromiko ilə ABŞ-ın dövlət katibi Kissincer arasındakı görüşdə Yaxın Şərqdəki mürəkkəb vəziyyət müzakirə edildi və onun nizama salınması vacibliyi vurğulandı. 1973-cü il oktyabrın 22-də BMT-nin 338 saylı qətnaməsi qəbul edildi. Bildirildi ki, 12 saatdan gec olmayaraq atəşkəs təmin edilsin. Lakin, atəşkəs elan edilsə də, 3 saat keçməmiş yenidən hərbi əməliyyatlar başlandı. Ərəb-İsrail münaqişəsi ancaq 1973-cü ilin oktyabrın 25-də 2 fövqəl dövlətin - SSRİ və ABŞ-ın fəal müdaxiləsi ilə dayandırıldı. Bu sahədə ilk təşəbbüsü isə Avropa birliyi göstərdi. Buna səbəb o idi ki, 1973-cü il oktyabr müharibəsi zamanı ərəb ölkələri ilk dəfə neft faktorundan istifadə etdilər. 1973-cü il oktyabrın 17-də neft çıxaran ərəb ölkələrinin nümayəndələrinin Küveytdə görüşü keçirdi. Qərara alındı ki, neft satışını azaltsınlar, bir neçə ölkəyə neft göndərilməsi üzərinə embarqo qoysunlar. Bundan məqsəd işğal edilmiş Fələstindəki ərəb torpaqlarından İsrail qoşunlarının çıxarılmasını təmin etmək idi. İlk növbədə ABŞ-a və onun Avropadakı müttəfiqlərinə (Niderland, Portuqaliya) neft göndərilməsi dayandırıldı. O cümlədən, CAR-a da neft göndərilmədi. Bu energetika böhranı yaratdı. O dövrdə ABŞ-ın dövlət katibi Kisincer idi. ABŞ-ın təkidi ilə BMT TŞ-sı 1973-cü ilin oktyabrın 22-də 338, oktyabrın 29-da 339, oktyabrın 25-də 340 saylı qətnamələr qəbul etdi. Neftə qoyulan

embarqo 1974-cü il martın 17-dən təxirə salındı. Lakin neftin yüksək qiyməti saxlanıldı. Bu isə ABŞ-ı və onun yaxın müttəfiqlərini Yaxın şərq münaqişəsinə daha diqqətlə yanaşmağa məcbur etdi. 1973-cü ilin dekabrın 5-6-da AİB-nin üzvlərinin Xarici İşlər Nazirliyinin Brusseldəki müşavirəsində onun 9 üzvü Yaxın Şərq üzrə xüsusi qətnamə qəbul etdi. "Yaxın Şərq bəyənnaməsi" adlanan həmin bəyannamədə Yaxın Şərqdə sülhə güc yolu ilə deyil, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət əsasında nail olmaq nəzərdə tutulurdu. AİB elan etdi ki, onlar Yaxın Şərq probleminin həllinə istər tək, istər kollektiv kömək etməyə hazırladılar.

Eyzenhauerdən başlayaraq bütün ABŞ rəhbərləri, o cümlədən Nikson Ərəb-İsrail probleminin həllinə ciddi vaxt, enerji və danışıqlar sərf etmişlər.

1973-cü il Ərəb-İsrail müharibəsindən sonra ABŞ bu münaqişənin həllində öz diplomatik fəaliyyətinin davamlı xarakter almasına qərar verdi. Elə buna görədir ki, ABŞ dövlət katibinin Yaxın Şərq və Cənubi Asiya məsələləri üzrə köməkçisi Q.Sonders 1978-ci ilin iyununda Konqresin nümayəndələr palatasındakı çıxışında qeyd edirdi ki, "bu problemə artıq sadəcə qaçqın problemi kimi baxılmır. Bu Fələstin xalqıənın qanuni hüquqlarının təmin edilməsi məsələsidir. Bu fələstinlilərə gələcək müqəddəratını həll etmək imkanı verməklə, onun sabit və təhlükəsiz olmaqla İsraillə yanaşı inkişaf etməsini əsaslandıracaq".

1973-cü ildə Cenevredə İsrail və ərəb dövlətlərinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. Bu konfransda SSRİ və ABŞ həmsədr kimi iştirak etdilər. Cenevrə konfransının birinci mərhələsi 1973-cü il dekabrın 21-də başlandı və burada işlək hərbi qrup təşkil edildi. Bu qrup ilk növbədə qoşunların ayrılması məsələsini müzakirə etdi. Məhz bu qrupun ilk "müsbət" işi o idi ki, o İsrail, Misir və Suriya silahlı qüvvələrinin ayrılması məsələsində razılığa gəldi. Nəticədə İsrail, Misir və Suriya arasında bufer zonası yaradıldı. 1974-77-ci illər ərzində hər 2 tərəf arasında danışıqlar getdi ki, 338 saylı qətnaməyə əməl edilsin.

**Fələstin problemi və onun 70-ci illərdə aktuallaşması**

70-ci illərdə Fələstin probleminin aktuallaşmasına səbəb bu vaxta qədər ona ancaq Fələstin qaçqınlarının problemi kimi yanaşılması idi. Əslində bu Fələstin ərəb xalqının taleyi məsələsi idi və o, bu vaxta qədər nəzərə alınmırdı. 70-ci illərdə Fələstin probleminin siyasi səpgidə həlli məsələsi ön plana keçdi. Bu məsələnin ön plana keçməsində Fələstin müqavimət hərəkatı xüsusi rol oynamışdır.

Fələstin müqavimət hərəkatı 1948-1949-cu illərdə meydana gəlmiş, bu dövrdə Fələstin ərəblərinin ilk təşkilatları yaranmışdır. 1967-ci ildə Y.Xabaşın başçılığı altında Fələstin azadlıq Xalq Cəbhəsi, 1969-cu ildə N.Xavanın başçılığı altında Fələstin Azadlıq Xalq Demokratik cəbhəsi yaradıldı. Hələ bundan əvvəl 1966-cı ildə "As-Sanka" təşkilatı Suriyada İ. Af Kadinin başçılığı altında yaradılmışdır.

1969-cu ildə A. A. Əhmədin başçılığı altında Ərəb Azadlıq Cəbhəsi yaradıldı. 1976-cı ildə T. Yaqubun başçılığı altında Fələstin Azadlıq Cəbhəsi, Fələstin Milli Cəbhəsi yaradıldı.

Hələ 1959-cu ildə Qahirədə Y.Ərəfatın başçılığı altında Fələstin miıııi azadlıq təşkilatı (FATX) yaradıldı. 1962-ci ildə onun tərkibində "Əl-Asif" (Tufan") təşkilatı da yaradıldı. 1963-cü ildə Əhməd Şükeyrənin başçılığı altında "Fələstin birliyi təşkilatı" meydana gəldi.

Bu hərəkatın uzun sürən inkişafı nəticəsində 1964-cü ilin sentyabr ayında Ərəb ölkələrinin İsgəndəriyyədə keçirilmiş müşavirəsində FAT yaradıldı FAT-a əvvəlcə A. Şükeyri başçılıq edirdi. FAT əsas məqsədi müstəqil Fələstin dövlətinin yaradılması idi. FAT-ın qəbul etdiyi milli xartiyada aşağıdakılar nəzərdə tutulurdu:

Maddə 1. Fələstin-Fələstin ərəblərinin vətəninin ayrılmaz tərkib hissəsidir, Fələstin xalqı isə ərəb millətinin ayrılmaz tərkib hissəsidir.

Maddə 2. İngiltərə mandatında olan Fələstin ərazisi Fələstinin ərazi bütövlüyünü təmin edir.

Maddə 3. Fələstin xalqı öz müqəddəratını təyin etmək hüququna malikdir.

Maddə 6. Ancaq o, yəhudilər fələstinli sayılır ki, onlar həmişə Fələstində yaşamışlar.

Maddə 9. Silahlı mübarizə Fələstin xalqının azadlığının yeganə vasitəsidir.

Maddə 21. Fələstin xalqı Fələstinin tam azadlığına qədər mübarizəni davam etdirəcəkdir.

1969-cu ilin fevralından FAT-a Y. Ərafat başçılıq etməyə başladı.

İordaniya qoşunları ilə 1970-ci ilin sentyabrında olan toqquşma zamanı demək olar ki, on minlərlə fələstinli öldü, 100 minə yaxın isə yaralandı. 1970-ci ilin sentyabrın 27-də Qahirədə İordaniya ilə FAT arasında bağlanan sazişə əsasən fələstinlilər İordaniyadan tədricən Livana axışmağa başladılar. Fələstinlilərə qarşı İsrail hökuməti tez-tez terror metodundan istifadə edirdi.

1970-ci ilin sentyabrın 6-da fələstinlilər Qahirə, 2 İordaniya, bir London aeroportunda 4 təyyarə tutub saxladılar. Ümumiyyətlə, sentyabrın 9-19-u arasında fələstinlilər İordaniyada 3 təyyarə tutdular. 1970-ci ilin sentyabrı "Qara sentyabr" kimi tarixə daxil oldu. Fələstinlilər əsasən İordaniyanın ərazisində yerləşirdilər. Həmçinin burada FAT-ın rəhbərliyi və fələstinlilərin silahlı dəstələri yerləşdilər, 1970-ci ildə İordaniya onları ərazisindən çıxarmağa cəhd göstərdi və qismən buna nail oldu. Bu hadisədən sonra fələstinlilər İordaniyadan sıxışdırılmağa başladı. Onlar Livanda yerləşirdilər. Ələ keçirilmiş girovlar ancaq 1970-ci il sentyabrın 30-da azad edildilər. 1970-ci ilin noyabrın 28-də fələstinlilər İordaniyanın baş naziri B.Telli qətlə yetirdilər. 1970-ci ilin mayın 30-da İsrailin hava limanlarının birində İsrailin 26 vətəndaşı öldürüldü. Fələstinlilərin Qırmızı Ordu təşkilatı da bu terrorda iştirak etdi. 1972-ci il sentyabrın 5-də Münhendə keçirilən yay olimpiada oyunları zamanı "Qara sentyabr" adlı Terror təşkilatının üzvləri İsrailin yığma komandasının üzvlərini girov götürdülər, onların 11 nəfəri öldürüldü. 1973-cü il martın 2-də onlar Sudanda ABŞ səfirini öldürdülər. Beləliklə, fələstinlilər tərəfindən baş verən terrorlar nizamsız xarakter aldı və Yaxın Şərqin hüdudlarından kənara çıxmağa başladı.

Fələstin problemi 1974-cü ildə də BMT-nin baş assambleyasının 29-cu sessiyasında təkrar müzakirə olundu. 1974-cü ilin noyabrın 22-də BMT-nin Baş assambleyası 3236 saylı qətnamə qəbul etdi. Yasir Ərafat 1974-cü ildə Fələstin azadlıq təşkilatına əmr verdi ki, İsraildən başqa Qəzzə bölgəsində, İordan çayının qərb sahilində olan ərazilərdə zorakılıq aksiyalarını dayandırsınlar, Fələstin xalqının hüquqlarını müdafiə edən, o cümlədən öz müqəddəratını təyin etmək hüququnu, milli müstəqillik və suverenliyini, öz doğma yerlərinə qayıtması hüququnu təsdiq edən BMT-nin Baş Assambleyasının qətnaməsində öz əksini tapmışdı. Qətnamədə göstərildi ki, Fələstin xalqının nümayəndəsi kimi FAT BMT-nin bütün orqanlarının işində müşahidəçi statusu ilə iştirak edə bilər. Bu hadisədən sonra Fələstin Azadlıq Təşkilatı beynəlxalq miqyasda tanındı və tezliklə dövlətlərin bir çoxunun paytaxtlarında FAT nümayəndəliyi açıldı. Fələstin məsələsi ilə əlaqədar BMT-nin 1975-ci ildə qəbul edilmiş 3375 saylı qətnaməsində göstərilirdi ki, FAT Yaxın Şərqə dair bütün konfranslarda başqa iştirakçılarla bərabər hüquq əsasında iştirak edə bilər. Həmçinin BMT-nin nəzdində fələstinlilərin hüquqları üzrə komitə təşkil edildi. Yenə həmin ildə qəbul edilən BMT-nin 3379 saylı qətnaməsinə əsasən sionizm müzakirə edilərək rasizmin və irqi ayrı-seçkiliyin forması kimi qiymətləndirildi.

FAT-ın rəhbərliyi və silahlı dəstələri Livan ərazisinə və İsrail sərhədi ətrafına yerləşdikdən sonra İsrail dövləti bundan qorxuya düşərək FAT-ı məhv etmək planları hazırlamağa başladı. 1972-ci ilin əvvəllərində İsrail-Livan sərhədində vəziyyət gərginləşdi. İsrail Fələstin partizanlarının onun ərazisinə soxula biləcəyindən ehtiyat edərək Livandakı qaçqın düşərgələrinə basqın etdi. 1972-ci ilin aprelində BMT Livanın xahişi ilə Yaxın Şərqdə barışıq şərtlərinin yerinə yetirilməsini müşahidə etmək üçün oraya müşahidəçilər göndərdi. Livan 1972-ci ilə qədər münaqişədən kənarda qalsa da, 1972-75-ci illərdə Livanda vəziyyət dəyişildi. Faktiki olaraq Livan ictimaiyyəti iki hissəyə bölünmüş oldu:

1. Sol cinah – bunlar Milli-vətənpərvər qüvvələr adlanırdı ki, onun tərkibi müsəlman – şiələr, müsəlman sünnilər və mütərəqqi sosialist partiyası, kommunistlər və s. idi.

2. Sağ cinah – onun tərkibi isə xristianlar idi.

1969-cu il Qahirə sazişinə əsasən Livanda 300 min fələstinli yerləşmişdi. Bu hal Livanda etnos-dini şəraiti daha da dərinləşdirdi.

Falankistlər xristianların maraqlarını qorumaq üçün iri silahlı dəstələr təşkil etdilər.Xristianlardan təşkil edilmiş milislər fələstinliləri Livan sərhədlərindən qovmağa başladılar. Beləliklə də, Livan fələstinlilərlə İsrail arasında döyüş səhnəsinə çevrildi. Belə bir milis dəstəsini müsəlman şiə və sünnilər də təşkil etdilər. Nəticədə Livanda vəziyyət mürəkkəbləşdi, açıq mübarizə həddinə çatdı. Açıq mübarizə üçün ancaq bəhanə lazım idi. 1975-ci ilin aprelin 13-də Livanın paytaxtı Beyrutun ətrafında falanqistlərin qrupları avtobusu saxladılar, onun 27 sərnişinini güllələdilər. Beləliklə, Livanda qanlı vətəndaş müharibəsi başladı və 15 ilə qədər, yəni 1990-cı ilə qədər davam etdi. Bu hadisə regionda vəziyyətin inkişafına əhəmiyyətli təsir göstərdi. Ərəb ölkələrinin Livanda qan tökülməsinin qarşısını almaq cəhdləri bir nəticə vermədi. 1976-cı ilin oktyabrın 21-də ərəb ölkələrinin müşavirəsində qərara alındı ki, ərəb ölkələrindən yığılan 30 min nəfərlik qoşun Suriya ilə Livan arasında yerləşdirilsin.

1978-ci ilin mart ayının 15-də - fələstinli partizanların İsrail ərazisinə soxulmasından dörd gün sonra İsrail qoşunları terrorizmlə mübarizə pərdəsi altında Cənubi Livan ərazisinə soxuldular. Litani çayına qədər olan Livan ərazisini işğal etdilər. “Litani” əməliyyatı nəticəsində “Təhlükəsizlik zonası” adlı zona təşkil edildi. Bu zona Livanın cənubunda İsraillə sərhəddə təşkil edildi. Livandakı xristianlar - İsraili müdafiə etdilər və “Cənubi Livan qoşunu”nda birləşdilər.

BMT-nin Təhlükəsizlik Şurasının 1978-ci il 19 mart tarixli 425 saylı qətnaməsinə əsasən Cənubi Livandan İsrail qoşunları çıxarılmalı, Livanın ərazi bütövlüyünə, suverenliyinə, siyasi müstəqilliyinə hörmət edilməli idi. Həmçinin Livan ərazisində BMT-nin qüvvələri yerləşdirilməli idi.Bütün bunlar ABŞ-ın göstərdiyi səy nəticəsində mümkün oldu.

70-ci illərin birinci yarısında bütövlükdə ABŞ diplomatiyası, ilk növbədə dövlət katibi H. Kissincer çalışırdı ki, Yaxın Şərqdə

hərbi əməliyyatların geniş miqyasda başlaması təhlükəsini azaltsın. ABŞ SSRİ və BMT ilə birlikdə Cenevrə sülh konfransının sponsorlarından biri oldu. ABŞ ərəb-İsrail qoşunlarının ayrılması haqqında sazişin bağlanması üçün cəhdlər göstərməyə başladı.

1974-cü ilin yanvar ayının 18-də ABŞ və BMT-nin vasitəçiliyi ilə Misir və İsrail qoşunlarının ayrılması haqqında saziş bağlandı. Bu Yaxın Şərqdə ABŞ-ın sülh təşəbbüsünün ilk nəticəsi idi. Kisincerin "Mövcümi diplomatiyası" öz səmərəsini verdi. ABŞ Kissincerin "Addımbaaddım" yanaşma planını reallaşdırdı, Tərəflərin mövqeyini tədricən yaxınlaşdırmağa çalışaraq məsələnin birindən digərinə keçilməyə başladı. Lakin ABŞ-ın fəaliyyəti göstərdi ki, İsrail və Ərəb dövlətləri birinci dəfə həlledici addımı atmadılar və münaqişənin dinc yolla həllinə tərəfdar olmadılar. Əksinə, regionda vəziyyət daha da kəskinləşdi. 1976-cı ilin noyabrında ABŞ inzibati idarəsinə Cimmi Karter başçılıq etməyə başladı.

1980-ci ildə Fələstin probleminin ədalətli həlli haqqında Venesiya bəyannaməsi qəbul edildi.

### C. Karterin prezidentliyi dövründə ABŞ-ın xarici siyasətində Yaxın Şərq problemi

Karterin fikrincə, regionda vəziyyətin mürəkkəbliyini göstərən cəhət burada nə sülh, nə də müharibənin olmaması idi. Bu proses isə uzun sürə bilməzdi, yeni qarşıdurmanın olması vacib idi. Bundan başqa, ABŞ inzibati idarəsi başa düşürdü ki, xaricə neft göndərilməsi üzərində ərəb dövlətləri yenidən embarqo qoya bilərlər, yeni müharibə baş verə bilər. Bu isə milli təhlükəsizlik üçün çox ciddi potensial təhlükə yaradırdı. 1977-ci ilin fevralında belə bir qərar qəbul edildi ki, ABŞ 1977-ci ilin ikinci yarısında Cenevrədə sülh konfransı çağırılmasına cəhd göstərsin. Konfrans Yaxın Şərq məsələsinin müzakirəsinə həsr edilməli idi. 1977-ci ilin iyunun ortalarında Karter hökuməti BMT-nin TŞ-nin 242 saylı qətnaməsi əsasında sülh təşəbbüsü ilə çıxış etdi. Karter şəxsən özü sülh danışıqlarının bərpasına hazırlıqda iştirak etdi. Mübahisəli məsələlərin həlli yolları axtarıldı. 1977-ci ilin payızına yaxın Ce-

nevrə konfransını çağırmaq üçün SSRİ-dən də razılıq alındı. Lakin Suriyanın etirazı bu planın baş tutmamasına səbəb oldu.

1978-ci ilin qışında Vaşinqtonda Misirlə İsrail arasında seperat danışıqlar başlandı. 1978-ci ilin bütün yarım ili ərzində ABŞ tərəflərin mövqeyinin yaxınlaşması üçün bütün diplomatik səyləri fəallaşdırdı. Lakin irəliləyiş hiss olunmadı. Belə olan şəraitdə ABŞ prezidenti Misir prezidenti Ənvər Sadata və İsrailin baş naziri Beginə təklif etdi ki, Kemp-Deviddə birbaşa danışıqlara başlasınlar. Bu danışıqlar nizamasalma işlərini görməkdə mühüm addım olmalı idi. Karter vasitəçi rolunu öz üzərinə götürdü. Danışqlar çox kəskin şəraitdə gedirdi və hər an pozulmaq qorxusu var idi. Karter çox böyük zəhmət bahasına İsrailin baş nazirini güzəştə getməyə razı sala bildi. Nəticədə 1978-ci ilin sentyabrın 17-də ABŞ nümayəndə heyəti həm ərəblərə, həm də yəhudilərə əlverişli olan layihə ilə çıxış etdi. Bir çox tədqiqatçılar belə hesab edirdilər ki, bu saziş ərəblərin mənafeyinə ziddir, sülhün bağlanması işini ləngitmişdir. Tədqiqatçılar ABŞ inzibati idarəsinin bu məsələdə günahkar hesab edirlər. Onların fikrincə, bu sənəd İsrailin maraqlarına uyğundur və ərəblərin birliyini pozur. Lakin ABŞ prezidentinin yazılarını oxuyarkən məlum olur ki, onun fikrincə, bu sənəd qonşu dövlətlərin barışmasında ilk addımdır. Prezident göstərirdi ki, gec-tez digər ərəb dövlətləri də bu addımı atmalıdırlar.

Kemp-Devid müqaviləsi isə 1979-cu ilin martında bağlandı. ABŞ çalışırdı ki, "Kiçik addımlar" diplomatiyasına əməl edilsin. Bu isə o deməkdir ki, əvvəlcə İsraillə ərəb dövlətlərindən biri ikitərəfli qaydada sülh bağlasın. 1978-ci il sentyabrın 6-7-də ABŞ-ın təşəbbüsü ilə Kemp-Deviddə ABŞ prezidenti Karterin vasitəçiliyi ilə İsrailin baş naziri Begin və Misir prezidenti Ənvər Sədat arasında görüş keçirildi. Bu görüş nəticəsində iki mühüm sənəd imzaladı. Bu tarixə Kemp Devid sazişi kimi düşdü. Sənədlərdən biri "Yaxın Şərqdə sülhün çərçivəsi" adlanırdı ki, burada aşağıdakı məsələlər öz əksini tapmışdır:

- Qəzzə bölgəsində və İordan çayının qərb sahilində yaşayan fələstinlilərə məhdud özünü idarə hüququ verilməsi;
- 242 və 338 saylı qətnamələrə uyğun olaraq ərəb-İsrail münaqişəsini qəti şəkildə nizama salmaq;

- beş il ərzində fələstinlilərə muxtariyyət təqdim etmək;

- İsraillə Misir, İordaniya, fələstinlilər arasında İordan çayının qərb sahili və Qəzzə bölgəsinin gələcəyi haqqında danışıqlar aparmaq.

İkinci sənəd "Misirlə İsrail arasında sülh müqaviləsi bağlamağın çərçivəsi" adlanırdı ki, burada yaxın üç ay müddətində bu işə hər iki tərəfin hazırlaşması tələb olunurdu.

Bu dövrdə Dəməşqdə keçirilən ərəb ölkələrinin dövlət başçılarının müşavirəsində Misirlə diplomatik münasibətləri kəsmək haqqında qərar qəbul edildi. Ona qarşı iqtisadi baykot başlandı. Ərəb ölkələri liqasının ştab-mənzili Qahirədən köçürüldü. Müşavirədə həmçinin "Siyasi bəyanat" qəbul edildi. Bəyanatda bildirilirdi ki, ərəb dövlətləri Kemp-Devid sazişlərini tanımır. Ərəb dövlətləri bunu "təslimolma" kimi qəbul etdilər. Ərəb ölkələrinin yüksək dairələrinin müşavirəsində (1978-ci il noyabr, Bağdad) Kemp-Devid sazişləri mühakimə edildi, qəbul edilmədi, Misir əleyhinə sanksiya tətbiq etmək qərara alındı. 1979-cu ilin martın 8-dən 13-nə qədər ABŞ prezidenti C. Karter və dövlət katibi Vens Misir və İsraildə oldular. Bu dövrdə ABŞ "kiçik addımlar diplomatiyası" yeridirdi.

1979-cu ilin mart ayının 26-da Kemp-Deviddə Misirlə İsrail arasında sülh müqaviləsi bağlandı ki, onun şərtləri aşağıdakılar idi:

1. Misirlə İsrail arasında müharibə vəziyyətinin qurtarması
2. Qarşıdan gələn ilin üç ayı ərzində İsrailin Sinay yarımadasında öz qoşunlarını çıxarması haqqında öhdəlik götürməsi
3. Misirlə İsrail arasında tam həcmdə diplomatik münasibətlərin yaradılması öhdəliyinin Misirin öz öhdəsinə götürməsi. Misirlə İsrail arasında ticarət əlaqələrinin yaradılması, Suveyş kanalından İsrail gəmilərinin keçməsinə icazə verilməsi, həmçinin bunun Tiran bərzəxinə və Akab körfəzinə də aid edilməsi

Sinay yarımadasından İsrail qoşunları 1982-ci ilin aprelin 25-nədək çıxarıldıqdan sonra oraya müşahidəçi kimi ABŞ, Böyük Britaniya, İtaliya və Niderlandın qoşun kontingentləri yerləşdirildi.

Bütün bunlar yenə də Yaxın Şərq problemini həll edə bilmədi. Bu problem yenə də dünyanın mədəsində həzm edilə bilməyən

bir tikə kimi qaldı. Bu məsələyə görə Misir Ərəb dövlətləri liqasından çıxarıldı.

Bu dövrdə Kemp-Devid müqaviləsinə görə SSRİ ilə ABŞ arasındakı münasibətlər gərginləşdi, ərəb dövlətlərindən münaqişədə iştirak edənlərin digərləri də ABŞ-dan narazı qaldılar. Bütün bunlarla bərabər, Yaxın Şərq problemi ABŞ rəhbərliyinin yenə də maraq dairəsi olaraq qaldı.

## Amerika-İsrail strateji ittifaqı

1981-ci il noyabrın 30-da ABŞ-ın və İsrailin müdafiə nazirləri Vaşinqtonda «strateji əməkdaşlıq sahəsində qarşılıqlı anlaşmaya dair memorandum» imzalamışdı.

Həmin sənədin giriş hissəsində hər iki tərəf «Birləşmiş Ştatlarla İsrail arasında ümumi dostluq telləri» olduğunu və «qarşılıqlı təhlükəsizliyi təmin etmək sahəsində hər iki ölkə arasında münasibətlərin mövcudluğu»nu təsdiq etmişdi.

Vaşinqtonun Təl-Əvivə «meyli»nin səbəbi ərəb xalqlarının milli-azadlıq hərəkatına qarşı mübarizə üçün ondan istifadə etmək və ən mühüm strateji dayaq məntəqəsində Amerika imperializminin mövqelərini möhkəmlətmək niyyətləri idi.

Amerika Birləşmiş Ştatlarının hegemonluq planları ilə dövtələb İsrail ekspansiyaçılığının uzlaşdırılmasına o əsas təşkil etmişdir ki, hər iki ölkə arasındakı «xüsusi» münasibətlər qırx ilə yaxın bir müddətdə onun üzərində dayanır. Londonda çıxan «Tayms» qəzeti həmin münasibətləri xarakterizə edərək hələ 1971-ci ildə yazmışdı ki, ABŞ ilə İsrail arasındakı münasibətlərin «Amerika tarixində misli-bərabəri olmamışdır… Bütün sahələrdə – müdafiə, iqtisadi əməkdaşlıq, kəşfiyyat məlumatları mübadiləsi, ikili təbəəlik və qarşılıqlı diplomatik yardım sahələrində olan bu əlaqələr, məsələn, Birləşmiş Ştatlarla Böyük Britaniya arasındakı əlaqələrdən çox-çox sıx olmuşdur». Axı məlumdur ki, Vaşinqtonla Londonun beynəlxalq meydanda siyasi xətlərinin eyniliyini bir çoxları uzun zaman az qala «ailə ittifaqı» kimi təsəvvür edirdilər.

Bu dövrdə həmişə olduğu kimi, Birləşmiş Ştatların siyasi həyatında İsrail lobbisi olduqca mühüm rol oynayır, burada sionist yuxarı təbəqə ağalıq edirdi. İsrail lobbisi xeyli hissəsini öz nəzarəti

altında saxladığı kütləvi informasiya vasitələrinin köməyilə rəsmi siyasətin və ictimai rəyin formalaşmasına fəal təsir göstərirdi. Londonda çıxan «Middl İst interneşnl» jurnalı yazırdı ki, «Bunu inkar edən bir adam çətin tapılar ki, xüsusi mənafeli heç bir qrup Kapitoliya təpəsinə təsir göstərməkdə və hökumətdə həlledici xadimlərə yol tapmaqda İsrail lobbisinə çata bilməz. Məsələn, 1975-ci ilin mayında sionist lobbisinin qazandığı təsirli qələbə kimi bir qələbə qazanmaq hələ heç bir lobbiyə, - nə etnik, nə siyasi, nə də korporativ lobbiyə müyəssər olmuşdur; o zaman o… 76 senatoru İsrailə yardımı artırmaq tələbi ilə prezidentə məktubu imzalamağa inandırdı».

Yaxın Şərqdə Amerika imperializminin təcavüzkarlıq hərəkətlərinin xeyli fəallaşması, irticaçı üsul-idarələrin silahlı qüvvələrin iştirakı ilə regionda indiyədək misli görünməmiş geniş miqyasda hərbi manevrlərinin keçirilməsi, qonşu ərəb dövlətlərinə qarşı İsrailin cəza tədbirlərinin gücləndirilməsi – yuxarıda adı çəkilmiş sənədin meydana gəlməsinin fonu idi. Əlbəttə, onu Vaşinqtonun Yaxın və Orta Şərqdəki bütün strategiyasından, İsrail ilə Misir arasında ABŞ-ın himayəsi altında bağlanmış seperat sövdələşmədən, regionda Pentaqonun hərbi qüvvəsinin olmasını möhkəmləndirmək, ərəb dünyasında təfriqəni dərinləşdirmək məqsədinin güclənməsindən kənarda nəzərdən keçirmək olmaz. Eyni zamanda bəzi ərəb ölkələrini Amerika – İsrail hərbi strategiyası məcrasına cəlb etmək məqsədilə bu ölkələrə güclü təzyiq göstərilirdi. ABŞ Səudiyyə Ərəbistanına «AVAKS» aviasiya kəşfiyyat sistemləri və başqa növ silahlar verməklə neft krallığını ilk növbədə Vaşinqtonun hərbi partnoyruna çevirməyi nəzərdə tuturdu. Səudiyyə Ərəbistanına «AVAKS» sistemləri satılması qərarını İsrail qarşısında müdafiə etmək vəzifəsini ABŞ-ın keçmiş prezidenti R. Nikson öz öhdəsinə götürmüşdür. O demişdir: «İsrailin dostu kimi mən belə hesab edirəm ki, indiki mərhələdə bu sövdanın bəyənilməsi nəinki Birləşmiş Ştatların, həm də İsrailin özünün mənafeyinə uyğundur». O, prezident R. Reyqanı «bütün ehtimala görə, Ağ evdə Harri Trumendən sonra İsrailin ən qızğın tərəfdarı» kimi xarakterizə etmişdir.

Amerika-İsrail memorandumu Vaşinqtonun Yaxın Şərqdəki siyasətini daha da hərbiləşdirmək yolunda yeni bir mühüm addım idi. Amerika-İsrail rəsmi təhlükəsizlik paktı haqqında fikir prezident Reyqanın belə bir əqidədə olmasından irəli gəlmişdir ki, hərbi cəhətdən güclü olan İsrail sadəcə ABŞ-ın təkcə emosiyalarla bağlı olduğu müttəfiqi deyil, həm də strateji fəalı hesab edilməlidir. Reyqan hökuməti çalışırdı ki, İsraili, habelə qərbərəst ərəb dövlətlərini Yaxın Şərqdə yeni antisovet «strateji partnyorluğuna» cəlb etsin.

Amerika-İsrail memorandumuna görə, ABŞ-ın məqsədi bu memorandumu imzalamaqla «həmin regionda Sovet İttifaqının nəzarəti altında olan, bu regiona gətirilib çıxarılan qüvvələr tərəfindən sülh və təhlükəsizlik üçün təhlükəyə qarşı durmaq idi. Bu cür bəyanatlar elə bir şəraitdə verilirdi ki, ABŞ-ın və İsrailin hərbi nazirlərinin «sovet hərbi təhlükəsindən qorumaq» dərdinə qaldıqları xalqlar belə bir təhlükənin mövcud olduğunu qəti rədd edirdilər. Məsələn, İordaniyanın kralı Hüseyn «Nyu-York tayms» qəzetinin müxbiri ilə müsahibəsində qeyd etmişdi ki, «İndi elə bir ərəb çətin tapılar ki, gecələr Şərqdən təhlükə baş verə biləcəyini fikirləşib gözünə yuxu getməsin. Ərəblərin böyük əksəriyyəti belə hesab edirdilər ki, ərəb regionu üçün başlıca təhlükə xəyali «sovet təhlükəsi» deyildir. Bu təhlükə daha artıq dərəcədə İsrail tərəfindən irəli gəlir, bu isə habelə Birləşmiş Ştatların yardımının nəticəsidir. Mərakeşdə çıxan «Əl-Bəyan» qəzeti qeyd etmişdir: «Bir çox ərəb ölkələri sual verirlər: Sazişin müəllifləri doğrudan-doğruya həmin regionun ərəb ölkələrindən hər hansı birinə SSRİ-nin basqın etməyə hazırlaşdığına dair heç olmasa bircə misal gətirə bilərlərmi? Belə misal yoxdur.

Memoranduma görə, tərəflərin strateji əməkdaşlığı tam bir sıra məsələlər kompleksini əhatə edir. Bunların arasında «döyüş hazırlığını təmin etmək üçün tərəflərin razılaşdırılmış birgə fəaliyyətini təşkil etmək və ona kömək etmək» məsələsi vardır. Regionda Amerikanın hərbi qüvvələrinin olmasını möhkəmləndirmək və İsrailin onsuz da böyük olan hərbi qüvvəsini daha da artırmaq sahəsində qarşılıqlı tədbirlər nəzərdə tutulurdu. Həmin sənəd Aralıq dənizinin şərq hissəsində hərbi-dəniz və hərbi hava

təlimləri də daxil olmaqla gələcəkdə birgə hərbi təlimlər keçirilməsini nəzərdə tuturdu. Məlum olduğu kimi, amerikalılar Sovet İttifaqının və digər sosialist ölkələrinin bilavasitə sərhədləri yaxınlığındakı rayonlarda artıq çoxdan bəri müxtəlif qəbildən olan manevrlər düzəldirdilər. 1981-ci ilin noyabrında onlar «Brayt star» («Parlaq ulduz»)şərti adə ilə çox iri manevrlər keçirtdilər; bu manevrlərdə ABŞ-ın sılahlı qüvvələrindən əlavə Misirin, Sudanın, Somalinin və Osmanın da döyüş bölmələri iştirak edirdilər. Memorandum İsrailə Amerikanın «sürətlə əməliyyat qüvvələri» üçün dayaq bazası rolunu ayırırdı. ABŞ-İsrail starateji birliyinin əsl məqsədi Yaxın Şərq ölkələrinin daxili işlərinə Amerika imperializminin qarışmasından, siyasəti Reyqan hökümətinin planlarına uyğun gəlməyən ərəb dövlətinə qarşı hərbi qüvvədən istifadə etmək hüququ qazanmaqdan ibarət idi.

Sənəd hər iki tərəfin hərbi-strateji planlarını daha sıx uzaqlaşdırmaq məqsədilə müdafiə nazirləri tərəfindən xüsusi əlaqələndirmə şurası və «texniki xidmət, təmir vasitələrindən və digər infrastrukturdan istifadə etmək hüququ da daxil olmaqla döyüş hazırlığının təmin edilməsi sahəsində birgə fəaliyyətin təşkil ilə… elmi tədqiqat və təcrübə-konstruktur işlərində, habelə hərbi ləvazimat ticarəti sahəsində…» məşğul olmalı birgə işçi qrupları yaradılmasını da nəzərdə tuturdu. Beləliklə, burada söhbət ərəb dövlətləri barəsində İsrailin bütün təcavüzkar hərəkətləri üçün Amerika Birləşmiş Ştatlarının üzərinə tam məsuliyyət qoyan, İsraili isə Vaşinqtonun əl ata biləcəyi hərəkətlərin bilavasitə iştirakçısına çevriən ittifaqdan gedirdi.

Hər iki ölkənin xüsusi xidmət idarələrinin, o cümlədən Amerikanın MKİ ilə İsrailin «Mossad» kəşfiyyat idarəsinin birgə fəaliyyəti hələ 1950-ci illərdən başlanmışdır. ABŞ Yaxın Şərqə aid məlumat toplamaq işində «Mossad»a geniş səlahiyyətlər vermişdir.1959-cu ildən başlayaraq MKİ-nin bütün Yaxın Şərq əməliyyatları «Mossad»la əlaqələndirilmişdir. Hər iki kəşfiyyat xidməti idarəsinin Afrikadakı «kooperasiyası» yaxşı məlumdur. 1981-ci ilin yayında Təl-Əvivin İraq nüvə reaktoru üzərinə basqını haqqında dünya mətbuatında xəbər verilərkən yazılmışdı ki, bu basqında da MKİ-nin iştirakı olmuşdur.

İkitərəfli memorondumun hələ rəsmi imzalanması ərəfəsində İsrailin müdafiə naziri və onun əməkdaşları etiraf edirdilər ki, İsrail Aralıq dənizinin şərq hissəsində və Yaxın Şərqdə Amerika silahlı qüvvələrinin irəliləməsini havadan himayə altına almalıdır. İsrail Amerika silahlı qüvvələrinə imkan verəcəkdi ki, öz ərazisində olduqca çoxlu hərbi texnika saxlasın. Belə texnikanın bəzi növləri ABŞ-ın sifarişi ilə İsrailin özündə istehsal edilməli idi. M. Beginin dediyinə görə, Amerikanın 6-cı donanması İsrailin Aralıq dənizində olan iki limanından istifadə edə bilərdi.

Tamamilə aydındır ki, regionda ABŞ-ın hərbi əməliyyatlarında İsrailin fəal iştirakı onun silahlarının daha da artmasına səbəb ola bilərdi. Basqın edəcək qoşunların maddi cəhətdən təchiz edilməsi üçün xüsusi strateji ehtiyat yaradılmalı idi. 1982-1983-cü illər ərzində ABŞ İsrailə əlavə olaraq 500-ə qədər tank və 80 döyüş təyyarəsi verməli idi. Bütün bu texnika «böhranlı vəziyyət» əmələ gəldiyi təqdirdə ondan istifadə olunmaq üçün saxlanılmalı idi. Aralıq dənizi və Qırmızı dəniz rayonlarında casusluq uçuşları keçirtmək məqsədi ilə İsrailə Amerika kəşfiyyat təyyarələri göndərilməsi nəzərdə tutulurdu. «Sürətli əməliyyat qüvvələri» üçün İsraildə Amerika ərzaq və dərman ehtiyatları toplanması da nəzərdə tutulmuşdu. Məlum olduğu kimi bütün bu tədbirlər hələ 1978-1979-cu illərdə Kemp-Devid prosesi çərçivəsində müzakirə edilmişdi və bu tədbirlərin bəziləri hələ o zaman razılaşdırılmışdı.

Yaxın Şərq regionunda İsrailin Vaşinqton üçün rəsmi sürətdə hərbi partnyora çevrilməsi hər iki ölkənin hakim dairələrinin militarist siyasətini yeni pilləyə qaldırmaq, İsrailin hərbi potensialını daha da artırmaq demək idi.

İsrailin silahlanması 80-ci illərdə olduqca yüksək dərəcədə idi. Əhalinin hər 1000 nəfərinə görə hərbi qüvvələrin sayı cəhətdən məhz İsrail dünyada birinci yeri tuturdu. Bundan əlavə, İsrail ehtiyatda olanlardan 250 min nəfərlik ordu yaratmışdır. İsrail nəinki xaricdən külli miqdarda hərbi texnika satın alır, həm də özü yüksək inkişaf etmiş hərbi sənayeyə malik idi, bu sənaye həm öz ordusu üçün, həm də ixrac edilmək üçün silah istehsal edirdi. 1978-ci ildə ixrac üçün 425 milyon dollar məbləğində silah istehsal edilmişdisə, bu rəqəm artıb 1980-cı ildə 1 milyard 450 milyon,

1981-ci ildə isə, bəzi məlumatlara görə, 2 milyard dollara çatmışdı. Dünyada silah satan ölkələr arasında İsrail yeddinci yeri tuturdu, o, 40 ölkəyə hərbi məhsul ixrac edirdi. İsrail üçün xammalın xeyli hissəsi, habelə silah üçün bəzi hissələr ABŞ-dan gətirilirdi. Vaşinqton İsrailin silah ixracına nəinki müqavimət göstərmir, hətta əksinə, birinci növbədə xalqa zidd rejimli ölkələrə (Çili, ÇAR, Qvatemala və s. )silah ixracını hər vəchlə şirnikdirirdi.

Ərəb dövlətləri ABŞ-ın İsrail ilə hərbi ittifaqının dərinləşməsini regionda vəziyyətin daha da kəskinləşməsinin ərəfəsi hesab edirdilər.

Beləliklə, Vaşinqton Təl-Əvivin təcavüzkar hərəkətlərini öz müdafiəsi altına alaraq bütün dünyaya göstərdi ki, kim İsrail təcavüzkarlarının qəyyumu və himayədarıdır, Yaxın Şərqdə hadisələrin təhlükəli inkişafı üçün bilavasitə məsuliyyət daşıyır.

## Ərəb-İsrail münaqişəsinin 1980-ci illərdə inkişafı və ABŞ

1980-ci ildə Yerusəlimin İsrailin vahid və bölünməz paytaxrtı elan edilməsi Yaxın Şərqdə şəraiti daha da gərginləşdirdi. 1981-ci ilin dekabrın 14-də İsrail knesseti Holan təpələrinin İsrail tərəfindən ilhaq edilməsinə səs verdi.

Bu ABŞ-ı məcbur etdi ki, sülhsevərlik fəaliyyətini daha da fəallaşdırsın. Bu dəfə yeni plan meydana gəldi ki, bu 1981-ci ilin sentyabrın 1-də təsdiq edilmiş "Reyqan planı" idi. Reyqan Fələstin məsələsini həll etmək üçün işğal edilmiş ərazilərdə, yəni İordan çayının Qərb sahilində və Qəzza bölgəsində muxtariyyət təşkil edilməsini və gələcək 5 il ərzində onun İordaniyanın tərkibinə daxil edilməsini təklif edirdi.

Bu plan da baş tutmadı. Bütün bunlarla bərabər, ABŞ Yaxın Şərqdə öz müttəfiqi olan İsraili tam müdafiə edə bilmədi. Reyqan inzibati idarəsi faktiki olaraq bu mürəkkəb problemin həllinə hazır olmadığını göstərdi.1987-ci ilin əvvəllərinə, yəni ərəblərin intifadına qədər regionda fələstinlilərin terror fəallığı davam etdi. ABŞ məcbur oldu ki, bu regionda çox ehtiyatlı siyasət yeritsin. Yenə də çalışırdı ki, ikitərəfli danışıqlara daha çox üstünülk verilsin. 1982-ci ildə İsrailin Livana soxulması bir daha göstərdi ki, Yaxın Şərqdə vəziyyət sabit deyildir.

1987-ci ilin dekabrında fələstinlilərin birinci intifadı, yəni üsyanı başlandı. Bu Vaşiqtonu məcbur etdi ki, yeni sülh təşəbbüsü hazırlığını surətləndirsin.

1988-ci ilin martın 4-də ABŞ-ın dövlət katibi Corc Şults problemi nizama salmaq üçün yeni plan təklif etdi. Plan elə onun adı ilə də adlandırıldı.Bu sənədə BMT-nin Təhlükəsizlik Şurasında da baxıldı. Xüsusi konfrans çağrılmalı və İsraillə qonşu ərəb dövlətlərinin hər biri sülh danışıqlarına başlamalı idi. Reyqan çalışırdı ki, bu plan ilk növbədə İsraildə bəyənilsin. ABŞ burada FAT-ın iştirakını zəruri saymasa da, hadisələrin inkiaşfı göstərirdi ki, FAT-ın iştirakı olmadan bu mümkün deyildir. "Şults planı" tam reallaşa bilmədi. Amma Yaxın Şərq siyasətində müsbət rol oynadı. Bu plan İsrailə anlatdı ki, Yaxın Şərqdə status- kvonu saxlamaq mümkün deyildir.

Bu dövrdə Fələstin problemi ilə əlaqədar qəbul edilmiş Vyana bəyannaməsində (1980-ci il)göstərilirdi ki, Fələstin probleminin "ədalətli həlli" vacibdir. Xüsusilə "qaçqınlar problemi" nə daha ciddi yanaşılmalıdır.

BMT-də məsələ qaldırılsa da, Fələstin məsələsi üzrə 1981-ci ildə benəlxalq konfrans çağırılması baş tutmadı. Həmin konfrans 1983-cü ilin avqustun 29-dan sentyabrın 7-nə qədər Cenevrədə çağırıldı. Orada 137 ölkədən nümayəndə iştirak edirdi. Konfrans "Fələstin haqqında bəyanat" qəbul etdi. Konfrans göstərdi ki, Yaxın Şərq məsələsi ilə əlaqədar beynəlxalq sülh konfransı çağırılsın. Səudiyyə Ərəbistanının kralı Fahdın müəllifliyi ilə ərəb-İsrail münasibətlərini nizama salmaq üçün plan hazırlandı. Həmin planın məzmunu aşağıdakılardan ibarət idi: 1967-ci ildə zəbt edilmiş ərazilərdən İsrail qoşunları çıxarılsın, İordan çayının qərb sahilində və Qəzzə bölgəsində olan yəhudi məskənləri ləğv edilsin. Fələstin qaçqınlarının qayıtmaq hüququ və onlara dəymiş zərərin ödənilməsi təmin edilsin; Müstəqil Fələstin dövləti yaradılsın və onun paytaxtı Şərqi Yerusəlim olsun, BMT-nin İordan çayının Qərb sahili və Qəzzə bölgəsində "keçid dövrü" adlanan bir neçə aylıq nəzarəti təşkil edilsin, bütün region dövlətlərinin, o cümlədən İsrailin sülh şəraitində yaşaması, bütün dinlərə itaət edənlərin dini azadlığı təmin edilsin. BMT, onun üzvləri, ilk növbədə TŞ

üzvlərinin bu prinsiplərin təminatçısı kimi çıxış etməsi də bu planda nəzərdə tutulurdu.

"Fahd planı" ərəb dövlətləri tərəfindən irəli sürülmüş birinci sülh təşəbbüsü idi.

**İsrail-Livan müharibəsi**

1982-ci ilin iyunun 6-da İsrailin Livana qarşı təcavüzü başladı. Bu əməliyyat "Qaliley üçün sülh" adlanırdı.

İsrailin 1982-ci ildə Livana təcavüzü zamanı iştirakçıların qüvvələr nisbəti aşağıdakı şəkildə idi.

| | **İsrail dövləti** | **FAT** | **Suri<br>ya** |
|---|---|---|---|
| Quru qoşunları | 76000 | 1500<br>0 | 2260<br>0 |
| Tanklar | 800 | 300 | 352 |
| Tank əleyhinə vasitələr | 200 | 2300 | - |
| Artilleriya | - | 350 | 300 |
| Zenit silahı | - | 250 | 100 |
| Təyyarələr | 1273 | 0 | 771 |
| Vertalyotlar | 42 | 0 | 16 |
| "Torpaq-Hava raketi" | - | - | 125 |

1982-ci ilin aprelin 21-dən İsrail Livanın paytaxtı Beyrutu bombalamağa başladı. İyunun 5-də İsrail Livan sərhədinə – Livanın cənub hissəsinə zərbə endirdi. Bununla əlaqədar, BMT-nin TŞ iyun 5-də 508 saylı qətnaməni qəbul etdi ki, atəş kəsilsin. Lakin İsrail iyunun 6-da da hücumu davam etdirdi və geniş miqyaslı əməliyyata başladı. 1982-ci ilin iyulun 3-də İsrail qoşunları Beyrutun qərbini mühasirəyə aldılar. İyulun 6-da BMT TŞ 508, 509 saylı qətnamələri qəbul etdi. Yenə də İsrailin Livanı tərk etməsi tələb edilirdi. 1982-ci ilin avqustunda İsraildən Beyrutun mühasirəsindən əl çəkməsi tələb edildi.

1982-ci ilin avqustun 21-də ABŞ, Fransa və İtaliyadan təşkil edilən 2200 nəfərlik əsgər və zabitlər sentyabrın 1-i ilə 14-ü

arasında Beyrutda olub fələstinliləri evakuasiya etdilər. Bundan sonra fələstinlilər tam müdafiəsiz qaldılar.

İsrail tərəfindən Beyrut dağıdıldı, Sabra və Satil düşərgələrində əhaliyə divan tutuldu. Burada 700-dəən 3500 qədər adam öldürüldü.

İsrailin Livanda təcavüzü - nəticə etibarilə Yaxın Şərqdə Amerikanın hərbi-siyasi nüfuzunu genişləndirməyə yönəldilmiş olan bu təcavüz Kemp-Devid sövdələşməsinin və Amerika-İsrail «strateji əməkdaşlığı»nın birbaşa nəticəsi idi. İsrail qoşunlarının Livana girməsi İsrail və ABŞ tərəfindən qabaqcadan planlaşdırılmış tədbir idi. Bu tədbir İsrailə ən müasir Amerika silahının külli miqdarda verilməsi, İsrail qoşunları Sina yarımadasında «millətlərarası qüvvələr» adı altında Amerika qoşunları tərəfindən əvəz edildikdən sonra onların İsrailə qaytarılması ilə hazırlanmışdır. İsrail işğalçılarının Livandakı qanlı avantürasının maddi əsasını Amerikanın çox böyük yardım göstərməsi, ildə 2,5 milyard dollar verməsi təşkil edirdi.

Prezident R. Reyqan Livanın faciəsində siyasi kapital qazanmağa çalışaraq Yaxın Şərqdə nizamasalnaməyə aid geniş elan edilmiş «yeni təşəbbüs»lə çıxış etdi. Əslində «Reyqan planı» nın mənası bundan ibarət idi: Livandakı Amerika-İsrail təcavüzünün nəticələrini siyasi cəhətcə möhkəmlətməyi təmin etmək və yeni-yeni ərəb ölkələrini, ən əvvəl İorandiyanı Kemp-Devid prosesinə cəlb etmək. Amerikanın təkliflərində İsrail qoşunlarını Livandan çıxarmaq barədə heç nə deyilmir, BMT-nin mövcudluğu yada salınmır, Fələstin dövlətinin yaradılması ideyası qəti sürətdə rədd edilirdi.

Livanda hadisələrin qızğın vaxtında - 1982-ci ilin sentyabrın 9-da yeni "Reyqan planı" ortaya çıxdı. Onun müəllifi ABŞ prezidenti R. Reyqan idi. Planda göstərilirdi ki, İordan çayının Qərb sahilində və Qəzzə bölgəsində İordaniya ilə assosiya hüququnda muxtariyyət çərçivəsində fələstinlilərə müstəqilik verilsin. ABŞ-ın bu təşəbbüsü faktiki olaraq "Sülh müqabilində torpaq" formuluna əsaslanırdı. Bu BMT TŞ-nın 242 və 338 saylı qətnaməsində də öz əksini tapmışdır.

1982-ci ilin sentyabrın 9-da Ərəb Dövlətləri Liqasının Mərakeşin şəhəri Fəsin adı ilə Fəs bəyannaməsi qəbul edildi. Burada BMT-nin Təhlükəsizlik Şurasına müraciət olunurdu ki, Yaxın Şərqdə regionun bütün dövlətləri arasında təminatlı sülh yaratsınlar.

1982-ci ilin sentyabrın 15-də SSRİ "Yaxın Şərqdə sülhün altı prinsipi" adlı plan hazırladı.

İsrail özü Livana təcavüz zaman 675 adam itirdi. Ümumiyyətlə, "bu təcavüz" zamanı Livandan isə 17825 adam öldürüldü. Qərbi Beyrut isə dağıdıldı. Müharibə Livana 2 milyard dollara başa gəldi. İsrail cüzi müvəffəqiyyət qazandı. İsrail ona nail oldu ki, FAT-ın rəhbərləri və silahlı dəstələri Livandan çıxarıldılar. Suriya qoşunu zəiflədi. Digər tərəfdən isə, fələstinlilərin Livandan çıxarılması heç də təhlükəni aradan qaldırmadı. Sadəcə boşluq yarandı. Burada İranın fəal müdafiə etdiyi Hizbullah təşkilatının üzvləri onun üçün yenidən təhlükə təşkil etdilər. İsrailin Cənubi Livanda "Cənubi Livan" adlı saxladığı qoşun da bu təhlükəni aradan qaldırmağı bacarmadı. 1983-cü il mayın 17-də Livanda İsraillə sülh haqda danışıqlar başlandı. Müharibədə vəziyyəti aradan qaldırıldı. Sülhün şərtləri aşağıdakılar idi:

1. Cənubi Livanın xeyli hissəsi İsrailin təhlükəsizlik zonası adı ilə İsrailə keçirilirdi. Həmin sərhəddə məhdud sayda Livanın silahlı qüvvələri yerləşdirilə bilərdi.
2. İsrail qoşunlarının iştirakı ilə Cənubi Livanda İsrailin hakimiyyəti altında təhlükəsizlik zonası formalaşmalı idi.
3. Livan ərazisində Livan hökumətinə onun hakimiyyətinin möhkəmlənməsinə kömək üçün beynəlxalq qüvvələr yerləşdirilməli idi.
4. Livandan fələstinlilərin İsrailə qarşı olan bütün təşkilatları çıxarılmalı və fəaliyyəti qadağan edilməli idi.
5. Livanın cənubuna aid bütün qərarların Livan və İsrailin birlikdə qəbul etməsi zəruri idi.

Bütövlükdə bu saziş Livanın müstəqilliyi, suverenliyini və ərazi bütövlüyünü pozmaq demək idi. Ona görə bu qeyri-hüquqi xarakter daşıyırdı. Bu saziş Livanda sabitliyi pozdu.

Livanın milli vətənpərvər qüvvələr hərəkatının fəallığı nəticəsində 1983-cü ilin iyununda, sülh haqqında müxalif olan qüvvələr Livanın müsəlman icmalarının iştirakı ilə Suriya tərəfindən dəstəklənən "Livanın milli xilası" komitəsini təşkil etdilər. 1982-ci il sentyabrın 20-də İordaniya kralı Hüseyn Yaxın Şərqdə münaqişəni nizamlamaq üçün İordaniyanın iştirakı ilə İordan çayının qərb sahilində yaşayan fələstinlilər də daxil olmaqla konfederasiya təşkil edilməsi haqqında bir plan təklif etdi. Bu məqsədlə 1985-ci il fevralın 11-də Y. Ərəfatla Hüseyn arasında müqavilə bağlandı. Müqavilədə İsraillə birgə bəyannamə hazırlamaq nəzərdə tutulurdu. 1986-cı il fevralın 19-da İordaniya öz fəaliyyətini dondurduğunu elan etdi.

Livanla İsrail arasındakı münasibətlər kəskinləşdi. Bu sazişə görə Livanda geniş hərəkat başladı. Suriya parlamenti bu sazişi təsdiq etmədi. 1984-cü il martın 5-də hökumət bitərəfli qaydada ondan imtina etmək haqda qərar qəbul etdi. Bu dövrdə artıq fələstinlilər Livanın şimal hissəsindəki Tripol şəhərində müxtəlif fraksiyalarla toqquşmalı oldular. Tripoldan FAT-ın üzvləri çıxarıldı. Onlar Yunanıstana gəldilər. 1983-cü il dekabrın 20-də FAT-ın rəhbərliyi Tunisdə yerləşdi. Fələstinlilərin qalan hissəsi Yəmən və başqa ərazilərə səpələndilər. 1985-ci ilin yanvarında İsrail hökuməti elan etdi ki, İsrailin müdafiə ordusunun üzvləri Livanın cənubundakı təhlükəsizlik zonasında fəaliyyətini davam etdirəcək və Cənubi Livan ordusunun məsləhətçisi kimi çıxış edəcək. Məqsədinə azda olsa çatan İsrail 1985-ci ildə Təhlükəsizlik zonası istisna olmaqla öz qoşunlarını Livandan çıxardı. Onun nəzarət etdiyi Təhlükəsizlik ordusunun yerləşdiyi ərazinin uzunluğu Cənubi Livanın 10 km$^2$-dən 25 km$^2$-ə qədər ərazisini əhatə edirdi. Lakin Cənubi Livan ordusunda israilpərəst əhval- ruhiyyə qalırdı. Bu dövrdə BMT-nin çoxmilli qüvvələri də Livanı tərk etdilər. 1983-cü il oktyabrın 23-də Beyrutun qərbində ABŞ və Fransa kontingentlərinin ştatı yanında güclü partlayış oldu. 1983-cü ilin dekabrında isə daha 2 terror aktı törədildi. Terror aktlarından biri Qərbi Beyrutda, digəri isə Kuveytdə ABŞ və Fransa səfirliyinə qarşı törədildi. Bu, çoxlu insan itkisinə səbəb oldu. 1983-cü ilin fevralında Livanda yenidən vətəndaş müharibəsi başladı. BMT

qüvvələri məcbur oldu ki, ölkədəki şəraitə birbaşa müdaxilə etməsinlər, onlar 1984-cü il fevralın 8-dən martın 31-dək ölkəni tərk etdilər. Fransa 1984-cü ildə Yaxın Şərq məsələsilə əlaqədar beynəlxalq konfransa çağırmaq ideyasını irəli sürdü. SSRİ-nin fikrincə, bu konfransda maraqlı tərəflərlə yanaşı BMT təhlükəsizlik şurasının 5 daimi üzvü də iştirak etməli idi. 1985-ci ildə İordaniya ilə Fələstin arasında ABŞ-ın bilavasitə rəhbərliyi ilə bağlanmış sazişdən sonra ABŞ təkid edirdi ki, növbəti mərhələdə İsraillə Fələstin və İordaniya nümayəndələri görüşsün. Bu görüşdə ABŞ-da öz iştirakını tələb edirdi. ABŞ-ın fikrincə, fələstinlilər İsrailin hüquqlarını rəsmən tanımalı idilər. Digər tərəfdən isə, Fələstinin öz müqəddəratını təyin etmək hüququ tanınmalı idi. ABŞ belə hesab edirdi ki, ABŞ-la Fələstin-İordaniya nümayəndələri arasında gedən danışıqların 2-ci mərhələsində BMT-nin TŞ-nın üzvləri və FAT nümayəndələri də iştirak etməlidir. 1981-ci il sentyabrın 1-də İsrailin hərbi qüvvələrinin Tunisdəki FAT-ın ştat mənzilini bombalaması bu planın pozulmasına səbəb oldu. Bundan sonra, FAT-da başlanan böhran 1987-ci ildə aradan qalxdı. 1987-ci ilin dekabrın 7-də fələstinlilərin İordan çayının qərb sahili və Qəzzədə kütləvi və yaxşı təşkil edilmiş vətəndaş itaətsizliyi kampaniyası başladı. Bu intifad ilk dəfə 24 saatlıq tətillə özünü nümayiş etdirdi.1987-1993-cü illərdə mindən çox fələstinli öldürüldü, on minlərlə isə yaralandı. Bu dəfə daha radikal mövqe tutan fələstinlilərin İslam müqavimət hərəkatı və ya Həmas və İslam cihadı təşkilatları möhkəmləndi. Artıq 90-cı illərdə onlar İsrailə qarşı mümkün mübarizə metodlarından biri olan terrora keçdilər. Məqsəd islamyönümlü Fələstin dövlətinin yaradılması və İsrailin məhv edilməsi idi.

FAT uzun müddət 1947-ci il noyabrın 29-da Yaxın Şərqdə münaqişəni nizama salmaq üçün qəbul edilmiş 181 saylı qətnaməni qəbul etmək istəmirdi. 1987-ci ilin dekabrın 22-də BMT-nin TŞ-nın qəbul etdiyi 605 saylı qətnaməyə, 1949-cu ilin avqustun 12-də qəbul etdiyi "Müharibə dövründə mülkü əhalinin müdafiəsi haqqında" Cenevrə konvensiyasına uyğun olaraq işğal edilmiş ərazilərdə fələstinlilərin təhlükəsizliyi və müdafiəsini təmin etmək qarşıda dururdu. Qətnamədə göstərilirdi ki, İsrail işğalçı dövlətdir,

işğal edilmiş ərazidəki Fələstin xalqının insan hüquqlarını pozur və İsrail ordusunun açıq atəş açması nəticəsində köməksiz Fələstin sakinləri içərisində mülkü əhali öldürülür və yaralanırdı. Bundan sonra BMT-nin TŞ-si 1988-ci il yanvarın 5-də 607, yanvarın 14-də 608, 1989-cu ilin iyulun 6-da 636, 1989-cu ilin avqustun 30-da 641 saylı qətnamələri qəbul etdi. Həmin qətnamələrdə deportasiya olunmuş fələstinlilərin işğal edilmiş ərazilərə qaytarılması tələb edilirdi.

1988-ci il noyabrın 15-də Əlcazəirdə (FAT-ın)Fələstinin növbədənkənar sessiyasında Müstəqil Fələstin dövlətinin yaradılması elan edildi. Onun ərazisi İordan çayının qərb ərazisi (5869 $km^2$) və Qəzzə bölgəsi olmalı idi. Paytaxtı Şərqi Yerusəlim olmalı idi. 1989-cu ilin martından Yasir Ərafat Fələstin dövlətinin prezidenti elan edildi. 1989-cu ilin aprelin 2-də isə Fələstin Milli Soveti Yasif Ərafatı prezident seçdi. 100 dövlət Fələstin dövlətini tanıdı. Fələstin dövləti bundan sonra 1947-ci il noyabrın 29-da qəbul edilmiş BMT Baş assambleyasının 181 nömrəli qətnaməsini rəsmən tanıdı və terrorizmi mühakimə etdi. FAT-ın İsrail ilə yaxınlaşması baş verdi. O, İsrail dövlətini faktiki olaraq tanıdı. Fələstin dövlətinin yaradılmasına İsrail mənfi reaksiya verdi. FAT-ı terrorçu təşkilat adlandırdı.

1973-cü ildə Ərəb-İsrail müharibəsindən sonra ABŞ öz diplomatik fəaliyyətinin davamlı xarakter almasına qərar vermişdi. ABŞ belə hesab edir ki, Fələstinlilərə gələcəkdə müqəddəratını həll etmək imkanı vermək vacibdir. Çünki bu, regionun sabit və təhlükəsizliyini təmin etmək üçün əsas vasitələrdən biridir. 80-ci illərin sonunda FAT-ın tamamilə yeni keyfiyyətdə çıxış etməsi ilə Yaxın Şərqdə sülh probleminin həllində yeni mərhələ başlanmış oldu. İsaq Rabinin İsraildə hakimiyyətə gəlməsi istər İsrail-ABŞ münasibətlərini, istərsə də İsrail probleminin həllinin yeni müstəviyə keçməsinə səbəb oldu. Rabın torpaqların bir hissəsinin verilməsi ilə razılaşdığını bildirdi. O, yəhudi məskənlərinin tikintisinin dayandırılması mövqeyində çıxış edirdi. İsrail baş nazirinin ABŞ-a səfəri 2 ölkə arasındakı münasibətlərdəki soyuqluğunun aradan qaldırılmasına və vasitəçilik missiyasının ABŞ-a keçməsinə şərait yaratdı. “Soyuq müharibə”nin başa çatması SSR-in Yaxın

Şərq rayonundakı satilelilərinin bir-birilə yaxınlaşmasına şərait yaratdı. Ona görə İsrail – FAT qarşıya qoymuş olduğu balans və paritetə nail olmaq məqsədilə Suriya və Livanla yaxınlaşmağı ön plana çıxartdı. Qlobal dəyişikliklər İsrailə taktiki üstünlük versə də, beynəlxalq münasibətlərdə yeni tendensiya, yəni böyük münasibətlərin arxa plana keçirilməsi əvəzində lokal münaqişələrin ön plana çıxması tendensiyası fələstinlilərdə öz mövqelərinə yeni yanaşmanı vacib edirdi. Qlobal səviyyədə hərbi-siyasi dəstəkdən məhrum olan bəzi ərəb ölkələri, eləcə də fələstinlilər yaranmış vəziyyətdə terroru mübarizənin yeganə təsir vasitəsi kimi qəbul etdi və sonrakı proseslərdə terror, İsrailə qarşı mübarizədə elan olunmamış müharibə xarakter aldı. Yeni şəraiti nəzərə alaraq ABŞ-ın Yaxın Şərqlə əlaqədar fəaliyyəti gücləndi. Fələstin dövləti yaradılarkən ABŞ bu məsələni kəskin qarşıladı. Lakin bir ay keçməmiş ABŞ-ın mövqeyi dəyişdi. 1988-ci il dekabrın 14-də ABŞ prezidenti Reyqan FAT ilə dialoqa başlamaq barədə əmr verdi. Bunun üçün FAT terrordan əl çəkməli, İsrailin yaşamaq hüququnu tanımalı idi. Həmçinin 1989-cu ilin mayın 2-də onun Fransaya rəsmi səfəri zamanı FAT-ın rəhbəri Yasir Ərəfat bəyanat verdi ki, Fələstin milli Xartiyasının (1968)bir neçə maddələri köhnəlmişdir. 1989-cu ildə Fələstin-İsrail münaqişəsini nizama salmaq üçün İsrail, Misir, ABŞ bir sıra təkliflər verdilər. 1989-cu il mayın 14-də "Şamir planı" adlı plan meydana çıxdı ki, onun müəllifi İsrailin baş naziri İ. Şamir idi. İsrail sülh təklifini bəyənir və onun İordan çayının qərb sahilində və Qəzza bölgəsində yaşayan fələstinlilərlə bağlanmasını məsləhət görürdü. 1989-cu ilin iyununda kompromis axtarışına Misir prezidenti Hüsnü Mübarək də qoşuldu. O, təklif edirdi ki, işğal edilmiş Fələstin ərazisində sülh prosesi ilə əlaqədar olaraq seçkilər keçirtsin. 1989-cu il dekabrın 6-da ABŞ-ın dövlət katibi Beyker "Beyker planını" qarşıya qoydu ABŞ Yaxın Şərqdə sülhün inkişafı üçün TŞ-nın 242 saylı qətnaməsinə əsaslanır və təklif edirdi ki, İsrail bu ərazilərdə nəzarət hüququnu saxlamalı, həm də müstəqil Fələstin ərazisi təşkil edilməli idi. Onun həmin ərazilərdə seçkilər keçirmək təklifi Yasir Ərafat tərəfindən etirazla qarşılandı. Yaxın Şərqdə vəziyyəti öyrənən ABŞ mərhələlərlə sülhü təmin etmək məsələsini irəli sür-

dü və təklif etdi ki, mövqeyə "addım-addım" yaxınlaşmaq lazımdır. Birinci mərhələdə hər iki tərəf qarşıdurma siyasətindən imtina etməli və kompromisin müvəffəqiyyəti üçün konkret tədbirlər görülməlidir. Bunun üçün bir-birini qarşılıqlı surətdə anlamaq lazımdır. ABŞ-a görə kompromis "Torpaq müqabilində sülh" prinsipinə əsaslanmalı idi. Bu beynəlxalq ictimaiyyət tərəfindən də müdafiə olunurdu.

**Yaxın Şərqdə sülh prosesi (1991-ci ildə)**

80-ci illərin sonu 90-cı illərin əvvəllərində beynəlxalq münasibətlər sisteminin inkişafında keçid dövrü başladı.

ABŞ-da Ata Corc Buş hakimiyyətə gələndən sonra İsrailə qarşı sərt xətt götürüldü. Tələb və təzyiq cəhdləri, o cümlədən iqtisadi halqalardan istifadə edildi. Bu cəhd Amerika siyasətinin 80-ci illərdə Ərəb-İsrail münasibətlərini nizama salmaqda istifadə etdiyi vacib ünsür idi. 1990-cı illərin birinci yarısına qədər Fələstin rəhbərliyi tərəfindən danışıqların baş tutmaması Amerika rəhbərliyində Yaxın Şərq işində sülhə nail olmaq məsələsində inamsızlıq və pərtlik doğururdu. 1990-cı ilin iyununda Amerika-İsrail münasibətlərinin paralel soyuması ilə əlaqədar olaraq Vaşinqton FAT ilə dialoqu dayandırmaq haqqında qərar qəbul etdi. Çünki bu dövrdə sülh prosesi küncə dirənmişdi. Heç bir tərəf buna cəhd göstərmədiyinə görə ABŞ tərəfindən də vasitəçilik etmək mənasız idi. Sülh prosesinin dirçəlməsi üçün imkan ancaq 1990-91-ci il Kuveyt böhranından sonra yarandı. Həqiqətən bu böhran regionda şəraiti kökündən dəyişdi. Ərəb-İsrail münaqişəsinin nizama salmaq prosesini sürətləndirdi. XX əsrin 90-cı illərində ABŞ bu sahədə müəyyən uğur qazandı. Amerika inzibati İdarəsi əlverişli imkandan istifadə edərək Suriya ilə əlaqələr yaratdı, FAT və İordaniyada zəifləmiş mövqelərini bərpa etdi. Sülh prosesini dirçəltmək üçün Madriddə konfrans təşkil edildi.

Bu dövrün başlamasının səbəbi yeni Dünya Qaydasının formalaşması ilə əlaqədar idi. Bu dövrdə dünyada qüvvələrin düzülüşündə mahiyyətcə dəyişiklik baş verdi. Yalta-Postdam sisteminin iflası beynəlxalq münasibətlərdə iki qütblüyə son qoydu. İki fövqəl dövlətin hegemonluğunun səyləri şəraitində SSRİ-nin

dağılması qlobal miqyasda ABŞ-ın liderliyini bir daha təsdiq etdi. ABŞ yeganə super dövlətə çevrildi və onda hegemonluq meyli gücləndi.

1991-ci ilin başlanğıcından Yaxın Şərqdə sülh prosesində aparıcı rol ABŞ-a məxsus oldu.1990-91-ci illərin Küveyt böhranından yəni İran körfəzində müharibə qurtardıqdan sonra 1991-ci ilin martın 6-da ABŞ prezidenti Corc Buş BMT çərçivəsindən kənarda Yaxın Şərq problemini qaydaya salmağı təklif etdi. “Soyuq müharibə” başa çatdıqdan sonra Yaxın və Orta Şərqlə əlaqədar ABŞ prezidenti Corc Buş administrasiyası “yeni beynəlxalq qaydalar” doktrinasını bəyan etdi.

XX əsrin 80-cı illərinin sonu 90-cı illərinin əvvəllərində “Soyuq müharibəsinin” qurtarması dünyada baş verən dəyişikliklər, ona gətirib çıxardı ki, Ərəb-İsrail münaqişəsi ABŞ-SSRİ səviyyəsində qarşıdurmadan çıxdı Ərəb-İsrail münaqişəsinin həllinin siyasi yoldan başqa digər yolu olmadığı aydın oldu.  Bu dövrdən ABŞ-ın vasitəçiliyi ilə Madrid konfransı bu işi himayəyə götürdü. Bu mənada, regionun vahid siyasi mənzərəsini əks etdirən dörd məsələni qeyd etmək olar:

Regional münasibətlərdə tam qarşılıqlı etimadsızlıq yaranması, regionun malik olduğu potensialdan maksimal istifadə olunmasını arxa plana keçməsi, kollektiv sülh və təhlükəsizliyə olan ehtiyac və tələbatın daha da artması, zorakılıq, təzyiqin gündəlik həyatda tələbata çevrilməsi ABŞ-ın Yaxın Şərqə diqqətini daha da artırmağa məcbur edirdi.

Yaxın Şərq ABŞ-ın xarici siyasətində hərbi, iqtisadi, siyasi, ideoloji spektrləri vahid bir şəkildə özündə cəm edən region kimi qəbul olunur.  ABŞ siyasətçi və strateqlərinin strateji təyinatına əsasən, Yaxın Şərqin dünya sistemindən kənarda qalması beynəlxalq münasibətlərdə qüvvələr nisbətindəki balansın pozulmasına səbəb ola bilər.

“Dünyanın heç bir regionu Yaxın və Orta Şərq qədər ABŞ üçün böyük əhəmiyyət və prioritet kəsb etmir”.  Çünki bu region həm zəngin təbii sərvətlərə malikdir, həm də beynəlxalq əhəmiyyətli su, quru və hava yolları burada keçir.  Dünyanın üç aparıcı

dinlərinin iudizmin, xristianlığın və islamın müqəddəs məkanları burada yerləşir.

Üç qitənin kəsişdiyi yerdə yerləşən Yaxın Şərq, eyni zamanda Vaşinqton üçün fəal rəqabət meydanı kimi də qəbul edilir. Müasir dövrdə bu rəqabət ABŞ-ın Avropa birliyi, Asiya tərəfdaşları və rəqibləri arasında gedir. Bu da ABŞ-ın regional münasibətlərində 3 amillə aydın büruzə verir: Regional-iqtisadi əməkdaşlıq və inteqrasiya; Neft amili; Dini amil. Corc Buş (Ata) həmçinin "Kiçik addımlar" diplomatiyasını da irəli sürdü. Bununla əlaqədar ABŞ-ın dövlət katibi Beyker Yaxın Şərq regionuna səfər etdi. Nəticədə ABŞ yenə də "Kiçik addımlar" diplomatiyasından istifadə edərək Beyker "Mövsümi əməliyyat" planını irəli sürdü. Con Beyker 1991-ci ilin martın 8-dən oktyabrın 18-nə qədər aparılan danışıqlar nəticəsində həm İsrail dövlətini, həm də Ərəb dövlətlərini beynəlxalq konfrans çağırılmasına razılaşdırırdı.

1991-ci ilin oktyabrın 30-dan noyabrın 1-nə qədər Madriddə Yaxın Şərqə dair beynəlxalq konfrans keçirildi. 1991-ci ildə Y.Ərəfat başda olmaqla FAT rəhbərliyi Madrid konfransında iştirak etdi. 90-cı illərdə Ərəb-İsrail münaqişəsi yeni mərhələyə qədəm qoydu. SSRİ ilə Yaxın Şərqdə sülh yolu ilə məsələləri nizama salmağa razılıq əldə edildi. Bu konfransın ən böyük əhəmiyyəti o idi ki, o, ərəb-İsrail danışıqları üçün yol açdı. Konfransın iştirakçıları "Torpaq müqabilində sülh" prinsipi əsasında məsələyə yanaşmağı dəstəklədilər. Bundan sonra sülh prosesi ikitərəfli əsasda həyata keçirilməyə başladı. Sülh prosesinin çərçivəsi dörd istiqamətdə müəyyənləşdirildi: 1)İordaniya; 2)Suriya; 3)Livan; 4)Fələstin-İsrail. Gələcəkdə sülh prosesi çoxtərəfli əsasda davam etdirilməli idi.

1991-93-cü illərdə bu problem dəfələrlə müzakirə edildi. Yenə də İsrail fələstinlilər əleyhinə kütləvi təqibləri davam etdirirdi. 1992-ci ildə İsraildə Əmək Partiyası hakimiyyətə gəldi. Onun lideri baş nazir İsaak Rabin dialoqlara cəhd etdi. İsrail rəhbərliyi FAT-a münasibətdə mövqeyini dəyişdirdi, onu "terrorçu təşkilat" adlandırmaq fikrindən əl çəkdi. Lakin İsrail onu da bildirdi ki, Fələstin ərəb xalqının nümayəndəliyini vahid və qanun hesab edə bilməz.

1992-ci ilin yanvar ayının 28-29-da Moskvada ərəb-İsrail danışıqlarının birinci raundu keçirildi. Nəticədə aşağıdakı məsələlərə aid işçi qrupu təşkil edildi:

1)regional təhlükəsizlik və silahlar üzərində nəzarət üzrə

2)Su təchizatı üzrə

3)Ətraf mühit üzrə

4)İqtisadi və regional inkiaşf üzrə

5)Qaçqınların vəziyyəti üzrə

ABŞ FAT-la İsrail arasındakı münasibətlərin yumşalmasına xüsusi səy göstərirdi. 1993-cü ilin sentyabrında Osloda İsraillə-FAT bir-birlərini tanımaq haqda məktub mübadiləsi etdilər. Bu işdə Norveçin xarici işlər naziri Yohanna Yorqana Host vasitəçilik etdi. 1993-cü il sentyabrın 13-də FAT-ın nümayəndələri "Müvəqqəti özünü idarənin təşkili prinsipləri haqqında" bəyənnaməni imzaladılar. Buna Oslo sazişi də deyirlər. Bu bəyənnamədə aşağıdakı müddəalar var idi:

1. İordan çayının qərbi və Qəzzə bölgəsində İsrail tərəfindən tutulmuş ərazidə fələstinlilərə muxtariyyət vermək və oradan İsrail qoşunlarını evakuasiya etmək;

2. Fələstinlilərə təhsil, mədəniyyət, sosial təminat, səhiyyə, birbaşa vergilər sahəsində səlahiyyət vermək;

3. Fələstin muxtariyyəti çərçivəsində hərəkət edən polis qüvvələri təşkil etmək.

Bütün bunlar həmin ərazidə İsrail qoşunları getdikdən sonra, 4-5 illik keçid dövründə başlamalı idi. Daimi statuslu sazişin bağlanmasına hazırlıq 3 mərhələdə həyata keçirilməli idi:

a)Qəzza bölgəsi və İordan çayının qərb sahilindəki – İsrixon şəhərində fələstin milli inzibati idarəsi təşkil ediləcəkdi;

b)II mərhələdə bu ərazidə Fələstin və İsrail milli idarəsi birgə fəaliyyət göstərməli idi;

c)Bu vilayət daim İsrailin hakimiyyəti altında olmalı idi.

Fələstin muxtariyyətini idarə etmək üçün Fələstin özünüidarəsi müvəqqəti orqanları sovetinə ümumi seçkilər keçirilməsi təşkil edilməli idi. İsrail hakimiyyəti ilə İsraillə Fələstin xalqının nümayəndələri arasında keçid dövrünün ilk 3 ilində daimi status haqqında danışıqlar aparılması, bu danışıqların hələ də qalan həll

edilməmiş məsələləri əhatə etməsi nəzərdə tutulurdu. Sazişdə qaçqınlar, təhlükəsizlik tədbirləri, sərhədlər, qonşu dövlətlərlə əməkdaşlıq və onlara münasibət və s. də öz əksini tapmış oldu.

80-ci illərin sonunda İsrailin işğal etmiş olduğu ərazilərdə İntifadın başlanması, eləcə də Fələstin Azadlıq təşkilatının tamamilə yeni keyfiyyətdə çıxış etməsi, Yaxın Şərq sülh prosesində də yeni mərhələnin başlanmasını səciyyələndirirdi.

1991-ci ilin oktyabrında Helsinki razılaşmasına uyğun olaraq Vaşinqton və Moskva Yaxın Şərq sülh prosesinə dair növbəti sammitin çağırılmasını reallaşdırdılar. Konfransda əldə olunmuş razılığa əsasən Yaxın Şərq sülh prosesinin aparılması üçün iki istiqamətdə - ikitərəfli və çoxtərəfli danışıqların aparılması qərara alındı.

Madrid sammitindən sonra çoxtərəfli danışıqlar istiqamətində ilk konfrans Moskvada keçirildi. Moskva görüşü münaqişənin həllində çoxtərəfli müzakirələrin başlandığına start versə də, faktiki olaraq bu müzakirələr 90-cı illərdə mütəmadi və intensiv olaraq keçirilmədi. Buna səbəb isə ABŞ-ın ikitərəfli danışıq və görüşlərin keçirilməsi istiqamətindəki vasitəçilik missiyasında yenidən təşəbbüsü ələ alması oldu.

İshaq Rabinin hakimiyyətə gəlməsi, istər ABŞ-İsrail münasibətlərinin, istərsə də Fələstin probleminin həllinin yeni müstəviyə keçirilməsini əsaslandırırdı. Çünki Rabin torpaqların bir hissəsinin verilməsi ilə razılaşır, yəhudi məskənlərinin tikintisinin dayandırılması mövqeyindən çıxış edirdi.

Vaşinqton Strateji Tədqiqatlar Mərkəzinin Yaxın Şərq üzrə məruzəsinə əsasən, "soyuq müharibə"nin başa çatması SSRİ-nin regiondakı satellitlərinin bir-biri ilə yaxınlaşmasına obyektiv şərait yaratdı. Ona görə də, İsrail ilə FAT qarşıya qoymuş olduğu mübarizədə balans və paritetə nail olmaq məqsədilə, Suriya və İranla yaxınlaşmanı ön plana çıxartdı. Qlobal dəyişikliklər İsrailə taktiki üstünlük versə də, beynəlxalq münasibətlərdə özünə yer almağa başlayan yeni tendensiya – böyük müharibələrin arxa plana keçməsi əvəzində lokal münaqişələrin ön plana çıxması tendensiyası Təl-Əvivə də öz mövqelərinə yeni yanaşmanı vacib edirdi. Qlobal səviyyədə hərbi-siyasi dəstəkdən məhrum olan bəzi ərəb ölkələri,

eləcə də fələstinlilər, yaranmış vəziyyətdə terroru mübarizənin yeganə təsir vasitəsi kimi qəbul etmiş oldu və sonrakı proseslərin axarında terror İsrailə qarşı mübarizədə elan olunmamış müharibə xarakteri aldı.

FAT-ın fəaliyyətində özünə yer almış ikili istiqamət - Şeyx Yasinin rəhbərlik etdiyi, qanad terror fələstinlilərin mübarizə hərbi istiqaməti, FAT-ın fəaliyyətində siyasi qanada rəhbərlik edən Yasir Ərafatın fəaliyyəti isə mübarizənin siyasi tərəfi kimi qəbul edildi. Bu amil fələstinlilərin problemə yanaşmasında vahid mövqelərinin olmadığını da göstərirdi.

1993-cü ildə Norveç hökumətinin vasitəçiliyi sayəsində bütün tərəflərin iştirakı ilə birgə Bəyannamə imzalandı. Oslo planının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu. Birinci mərhələdə İsrail Qəzzə bölgəsindəki İyerixon şəhərindən çıxmalı və burada idarəetmə hüquqlarını FAT-a verməli; ikinci mərhələdə Fələstin hakimiyyət orqanlarına seçkilər keçirilməli; üçüncü mərhələdə işğal olunmuş ərazilərdəki 140 yəhudi məskəninin gələcəyi və Qüdsün gələcək statusunun müzakirəsinə başlanılmalı idi.

1993-cü ildə Oslo görüşündən sonra ərəb ölkələrinin siyasəti ziddiyyətli xarakter aldı. Bunun ən bariz nümunəsi kimi son 10 ildə ərəb dövlətlərinin yalnız bir dəfə tam tərkibdə Fələstin məsələsinə dair toplanmasını göstərmək olar.

Vaşinqtonda 1993-cü ilin sentyabrın 13-də Klintonun iştirakı ilə İsrail baş naziri Rabın ilə FAT rəhbəri Y. Ərəfat arasında görüş oldu. Bu faktiki olaraq Fələstinin özünüidarəsi üçün yol açdı. Bu görüş zamanı imzalanan Müvəqqəti özünüidarə təşkilatının “Prinsipləri bəyannaməsi”.Bəyannamə 8 maddədən ibarət idi. Qərb ölkələri tərəfindən bəyənildi.Amma Yaxın Şərqdə güclü reaksiya doğurdu. İsraildə bu birmənalı qəbul edilmədi. Onun əleyhinə “Liku” sağ bloku çıxış etdi. Fələstinlilər arasında bu sənəddən narazılar da tapıldı. Fələstinlilər arasında iki qrup yarandı. FAT rəhbərliyi kursunun tərəfdarları, hansı ki, onlar prinsiplər bəyannaməsini Yaxın Şərqdə sülhə doğru gedən yol hesab edirdilər. İkinci qrup radikal əhval-ruhiyyədə olan Fələstin demokratik qüvvələrinin iştirakçıları isə bunu İsrailə növbəti güzəşt və

fələstinliləri təslimçiliyə aparan yol hesab edirdilər. 1993-cü ildə Fələstin demokratik qüvvələri, "HƏMAS" (İslami müqavimət hərəkatı təşkilatı) "İslam cihadı" və digər təşkilatlar elan etdilər ki, "Rədd etmək cəbhəsi" adlı qrup yaradırlar və bu qrup "Prinsiplər bəyannaməsi"nin həyata keçirilməsinə qarşı çıxırdı.

1993-cü ilin aprelin 30-da İsraillə FAT arasında Paris sazişi bağlandı.

1994-cü ilin mayın 4-də Misirin paytaxtı Qahirədə ABŞ, Rusiya və Misir Xarici siyasət iarələri başçılarının iştirakı ilə İsrailin baş naziri İ. Rabinlə FAT sədri Y. Ərəfat arasında şərti olaraq "Qəzzə-Ərinə" adlanan saziş bağlandı. Həmin sazişə görə işğal edilmiş Qəzzə və Ərihə vilayətlərində Fələstin muxtariyyəti yaradıldı. ABŞ-ın vfsitəçiliyi ilə İordaniya ilə İsrail arasında 1992-ci ildə dalışıqlar bağlandı və 1994-cü ilə qədər davam etdi. 1994-cü il iyulun 25-də İsrailin baş naziri İ. Rabinlə İordaniya kralı Hüseyn arasında "Müharibə vəziyyətinin dayandırılması haqqında" Vaşinqton bəyannaməsi imzalandı. 1994-cü ilin oktyabrın 25-də isə hər iki dövlət arasında bağlanmış sülh müqaviləsi ilə 46 ildən bəri davam edən İsrail-İordaniya arasındakı müharibə vəziyyətinə son qoyuldu.

1996-cı ildə ABŞ-ın vasitəçiliyi ilə İsraillə FAT arasında bağlanan Oslo sülhünə görə İsrail işğal etdiyi ərazilərin 30%-ni boşaltmağı öhdəsinə götürdü. Keçid dövrü adlanan mərhələdə İordan çayının bütün qərb sahilinin və Qəzzə bölgəsinin idarə olunması Fələstin muxtariyyətinə verildi. Lakin İsrail 1997-ci ildə Qüdsün ərəblər yaşayan hissəsində yəhudi məskənləri salmağa başlamaqla bütövlükdə Yaxın Şərqdə sülh prosesini təhlükə altında qoydu. 2000-ci ilin yanvarın 31-də Moskvada keçirilən görüşdə onların fəaliyyəti yenidən bərpa edildi.

Münaqişənin həllində birinci mərhələ son 50 ilə nisbətdə xeyli irəliləyişlərlə başa çatdı: Fələstin danışıqlarda bərabər-hüquqlu tərəf kimi tanındı; Fələstin muxtariyyatının yaranması üçün iqtisadi və siyasi şərait tam reallaşdırıldı; Fələstinin özünü-idarə hüquqları müəyyənləşdirildi; Münaqişənin nizama salınması prosesi ərəb birliyi arasındakı ziddiyyəti üzə çıxardı.

Münaqişənin həlli istiqamətindəki yeni mərhələ 1994-cü il may ayının 4-də Qahirədə FAT və İsrail arasında imzalanmış beşillik müvəqqəti razılaşma ilə başlanmışdır.

Qahirə müqaviləsinə əsasən Qəzzə bölgəsi və İyerixonda Fələstinin müstəqil muxtariyyat rejimi tətbiq olunur, İsrail ordu hissələri üç həftə ərzində bu ərazilərdən çıxarılır və 24 nəfərdən ibarət Fələstin Şurası yaradılırdı. Yaradılan administrasiya keçid dövrü üçün ərazi məsələlərini həll etmək səlahiyyətinə malik olurdu.

İkinci mərhələnin əhəmiyyətli tarixi hadisələr sırasında İordaniya və İsrail arasında müharibə vəziyyətinə son qoyulması və 1994-cü il oktyabrın 26-da ABŞ-ın vasitəçiliyi ilə İordaniyanın Akaba limanı rayonunda İsrail və İordaniya arasında “Sülh və Əməkdaşlıq haqqında” tam miqyaslı müqavilə imzalanması oldu.

Madrid konfransından 1994-cü ilin fevralınadək İsrail və Suriya arasında 12 raundda danışıqlar aparılmış və heç bir nəticə verməmişdir. Lakin buna baxmayaraq 1994-cü ilin ortalarında Cenevrədə Suriya prezidenti Hafiz Əsədlə ABŞ prezidenti B. Klinton arasında görüş keçirildi.

1995-ci il 28 sentyabr tarixli Vaşinqton müqaviləsi ilə İsrail və FAT arasındakı danışıqların ikinci mərhələsi başa çatdı. Aralıq razılaşmasının əsas obyekti olan Fələstinin İordan çayının Qərb sahilində idarəçiliyinin genişləndirilməsi nəzərdə tutulurdu. Razılaşmanın əsas hissəsinə 7 əlavə edilmişdir. Bunlar aşağıdakılardan ibarətdir: “1- təhlükəsizlik tədbirləri, 2- seçkilər, 3- mülki işlər, 4- hüquqi məsələlər, 5- iqtisadi əlaqələr, 6- İsrail-Fələstin əməkdaşlığı, 7- Fələstin əsirlərinin buraxılması”.

Münaqişənin həlli istiqamətində proses 1997-ci ildə Aralıq razılaşması çərçivəsində Xevrona dair imzalanmış sazişlə davam etdirildi. Bununla da, 90-cı illərdə ABŞ-ın vasitəçilik missiyası çərçivəsində Uay razılaçmasınadək davam edən üçüncü mərhələnin sonu yaxınlaşmış oldu. Yuxarıda sözügedən saziş 1997-ci il yanvarın 17-də imzalandı. Əldə olunmuş razılaşma Xevronda Fələstin və İsrail idarəçiliyini əsaslandırırdı.

## Uay-River razılaşması

1996-cı ildə İsrail qoşunları ilə fələstinlilər arasındakı toqquşma zamanı vəziyyətin gərginləşməsinə əsas səbəb yəhudi məskənlərinin tikintisinin sürətlənməsi idi. 1996-cı ilin sentyabrın 27-29-u arasında Yerusəlimdə yeraltı tunel açıldı. Bu zaman güclü toqquşma baş verdi. TŞ 1996-cı ilin sentyabrın 28-də 1073 saylı qətnaməni qəbul etdi və bu məsələni mühakimə etdi. Bütün bu hadisələrə baxmayaraq Yaxın Şərqdə sülh prosesi davam edirdi. ABŞ-ın Merlend ştatında yerləşən Uay-Riverdə 1998-ci il oktyabrında ABŞ-ın təzyiqi altında İsraillə Fələstin arasında saziş bağlandı və memorandum imzalandı. Memorandum ABŞ prezidenti Bil Klintonun və İordaniya kralı Hüseynin iştirakı ilə bağlandı və aşağıdakılardan ibarət idi:

1)İsrail 13,1% sahəsi olan İordan çayının qərb sahili - əyalət A-ya, 14,2% sahəsi olan qərb sahili əyalət B-yə ayrılır. A əyalətində İsrail öz qoşunlarını saxlayır B əyalətində isə Fələstin muxtariyyatı ilə birgə əyalət təşkil edir;

2)Daimi status haqqında dərhal hər iki tərəf arasında danışıqlanr başlayır.

3)Fələstin qanunverici soveti terrorizmə qarşı mübarizə ilə əlaqədar səmərəli tədbirlər görməyi qərara alır;

4)750 Fələstin məhbusunun buraxılması məsələsinə baxılır. Hansı ki, onlar İsrail dövlətinə qarşı düşmən münasibətinə görə tutulmuşdur.

Münaqişə tərəfləri arasında birbaşa danışıqların bərpa edilməsi məqsədilə ABŞ prezidenti Bill Klinton tərəflərin səlahiyyətli nümayəndələrini oktyabrın ortalarında ABŞ-a dəvət etdi. Bir həftə çəkən danışıqlardan sonra tarixə River (çayı) razılaşması kimi düşən, Uay Plantşeyn (Plantasiya) razılaşması imzalandı.

ABŞ-ın təklif etdiyi varianta əsasən İsrail İordan çayının Qərb sahilindəki 13% ərazidən öz qoşunlarını çıxarırdı. İsrail üç mərhələdə öz qoşunlarını çıxarmalı, bundan sonra Fələstin administrasiyası Qərb sahilinin 18% ərazisində öz nəzarətini tətbiq etməli idi. Razılaşma noyabr ayının 2-də qüvvəyə minirdi.

Bütün əvvəlki dövrlərlə müqayisədə 1998-ci il Yaxın Şərq sülh prosesində ən uğurlu il olmuşdur. Bu baxımdan 1998-ci ilin dekabrında Bill Klintonun Yaxın Şərqə, o cümlədən İsrailə və Fələstin muxtariyyatına səfəri xüsusi qeyd edilməlidir. Həmin səfər zamanı ABŞ prezidenti Qəzzə bölgəsində beynəlxalq hava limanının açılışında iştirak etmişdi. 1999-cu il sentyabrın əvvəllərində Misirin vasitəsilə Klinton administrasiyası tərəfləri yenidən danışıqlar masası arxasına keçməyə məcbur etməyə müvəffəq oldu. Sentyabrın 5-də Şarm-əş-Şeyxdə memorandum imzalandı. Memorandumu ABŞ dövlət katibi Madlen Olbrayt və İordaniya kralı Hüseynin iştirakı ilə İsrail tərəfdən baş nazir Ehud Barak, Fələstin tərəfindən Yasir Ərafat imzalamışlar.

Memoranduma əsasən İsrail öz hərbi hissələrinin İordan çayının Qərb sahilindən tamamilə çıxarılmasını 2000-ci il yanvarın 20-nə kimi başa çatdırmalı idi. Bu istiqamətdə birinci mərhələ sentyabrın 10-da başa çatdırılmalı idi

1999-cu ilin noyabrında ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi Fələstin rəhbərliyinin neqativ fəaliyyətinə dair, xüsusilə İrandan silah və digər yardımlar almasına dair faktları FAT rəhbərliyinin nəzərinə çatdırdıqdan sonra, onlar razılaşmalara əməl edəcəyinə İsrail və ABŞ tərəflərini əmin etdi. Məhz bu dövrdən etibarən, 1999-cu ildə əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində sonuncu hərtərəfli danışıqlar başlandı.

Kemp-Deviddə aparılmış həmin danışıqlarda İsrail Fələstinə aşağıdakı güzəştləri edirdi ki, bunların sırasında 1948-ci il qaçqınlarının İsrailə qaytarılması formulu da var idi.

Yaxın Şərq sülh prosesinin uzanmasına ərəb birliyində olan ziddiyyət və onun bu problemə təsiri də az rol oynamamışdır. Əgər İsrailə münasibətdə onun Fələstin torpaqlarını işğal etməsi irəli sürülürdüsə, Fələstinə münasibətdə İsrailin dövlət təhlükəsizliyinin təminatı məsələsi ön plana çəkilirdi ki, bu məsələdə də nə Fələstin tərəfi, nə də ərəb dövlətləri yekdil fikirdə deyildirlər.

## Fələstin müxtariyyətinə iqitsadi yardım

Fələstin muxtariyyətinin sosial və iqtisadi cəhətdən inkişaf etməsinə kömək üçün 1993-cü il oktyabrın 1-də Vaşinqtonda

qərara alındı ki, ABŞ yaxın illərdə ona 600 mln., sonrakı 5 ildə isə 2 mlrd, dollar pul ayırsın.

Belə bir köməyi Avropa Birliyi də edirdi. Avropa Birliyinin təşəbbüsü ilə 1987-cu ildə Fələstinlilər 4 mln. avro, 1989-ci ildə isə 9 mln. avro vəsait ayırmışdı. İran körfəzində müharibə qurtardıqdan sonra Avropa Birliyi ölkəsi Yaxın Şərqdə öz siyasətlərini mərkəzləşdirməyə başladılar. Bu məqsədlə 1991-ci il aprelində Luksemburqda Avropa Şurasının növbədənkənar sammiti çağlırdı. Həmin şurada qərara alındı ki, Yaxın Şərqdə sülh prosesini nizama salmaq üçün fəallıq gücləndirsin. 1996-cı ilin yanvarın 9-da Parisdə fələstinlilərə iqtisadi kömək məsələsinə həsr edilmiş konfrans çağırıldı. Bundan məqsəd əvvəl bağlanmış müqavilələrin reallaşması üçün iqtisadi şərait yaratmaq idi. Qərara alındı ki, bütün terror aktları pislənilsin və danışıqlar prosesi davam etdirilsin.

Regional-iqtisadi əməkdaşlıq və inteqrasiya istiqamətində atılacaq addımların əsası 1993-cü ilin noyabrında Kopenhagendə regional iqtisadi inkişafın təmin edilməsi məqsədilə yaradılan İşçi Qrupu ilə qoyulmuş oldu. 1994-cü il oktyabrın 30-dan noyabrın 1-dək ABŞ prezidenti Bill Klinton, Rusiya prezidenti Boris Yeltsin və Mərakeş kralı II Həsənin təşəbbüsü ilə Kasablankada birinci Yaxın Şərq-Şimali Afrika İqtisadi Sammiti keçirildi. Qeyd edək ki, 90-cı illərdə dörd analoji sammit keçirilmişdir. "Sammitin keçirilməsində məqsəd regionda özəl mülkiyyətin genişləndirilməsini asanlaşdırmaq, investisiya imkanlarını artırmaq, özəl sektorda əməkdaşlığın əlverişli imkanlarına inam və etimadı formalaşdırmaq, regional iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə stimul yaratmaqdır".

Sammitin işində ərəb dövlətləri ilə birgə İsrail də iştirak edirdi və ona qarşı tətbiq olunmuş boykot aradan qaldırılırdı. Bu onun göstəricisi idi ki, "ərəb dövlətləri İsrail ilə əməkdaşlıqda maraqlıdır, lakin ərəb birliyində mövcud olan ziddiyyət buna imkan vermirdi".

**ABŞ xarici siyasətində neft amilinin rolunun artması**

Neft amilinin ABŞ xarici siyasətində əhəmiyyəti 70-ci illərdən başlayaraq daha da artmışdır. 1985-ci ildən başlayaraq artan tələbat 90-cı illərin əvvəllərində 43% təşkil edirdi. İdxal

olunan neftin 30%-ə qədəri isə həmin dövrdə münaqişə zonalarından, xüsusilə Yaxın Şərqdən gətirilirdi. Əslində isə ABŞ-ın özü dünyanın ən güclü neft istehsal edən ölkələrindən biri idi.

Körfəz müharibəsindən sonra, əsasən monarxiya rejimli ölkələrdən nefti idxal edən ABŞ üçün İran və İraqdakı rejimlərin dəyişilməsi, ümumi sabitlik və beynəlxalq təhlükəsizliyin Vaşinqtonsayağı təminatı kimi qəbul olunurdu. Körfəz müharibəsi ərəfəsində və ondan sonra regionun Qətər, Oman, Bəhreyn və Səudiyyə Ərəbistanı kimi müasir dövrün anoxranizm rejimləri bu sahədə ABŞ və Avropadan müasir silah, texnika və texnologiya alınmasına önəm verdilər.

## ABŞ-ın xarici siyasətində islam faktoru

Dini amilə gəldikdə isə qeyd edək ki, 80-ci illərin əvvəllərinə qədər isə islam faktoru ABŞ xarici siyasətində xüsusi yer tutmamışdır. Bunun başlıca səbəbi İslamın bir din kimi Yaxın Şərq ölkələrinin xarici siyasətində əsas yer tutmamasıdır. Buna səbəb isə islam ölkələrinin müharibədən sonrakı dövrdə əsasən ölkənin sosial-iqtisadi inkişafı, milli azadlıq hərəkatı, həmçinin bu dövrdə əsasən dövlətçiliyin dirçəldilməsi və möhkəmləndirilməsi istiqamətindəki fəaliyyəti olmuşdur ki, bu prosesdə də islam bir din kimi arxa plana keçmişdir.

70-ci illərin sonları 80-ci illərin əvvəllərində Yaxın Şərq ölkələrinin ictimai-siyasi həyatında islamın mühüm rol oynaması, Vaşinqtonu xarici siyasətində islam amilini nəzərə almağa və yeni siyasi strategiyanı hazırlamağa vadar edirdi. Yeni siyasi strategiyaya uyğun olaraq Vaşinqton müsəlman ölkələri, xüsusilə Yaxın Şərqin İslam dövlətləri ilə münasibətlərinə ciddi dəyişikliklər etməyə başladı. Nəticədə, müsəlman cəmiyyətinə xarakterik olan ənənəvi tezislər gündəmə gətirildi.

## Suriya ilə İsrail arasında danışıqlar

Suriya ilə İsrail arasında da danışıqlar ABŞ-ın vasitəçiliyi ilə 1992-ci ildən davam etsə də, İordaniyadan fərqli olaraq Suriya İsraillə kompromisə gəlməyi bacarmadı. Suriya prinsipcə İsraillə danışıqlar aparmağa hazır idi. Lakin şərti bu idi ki, Holan təpələri ona qaytarılsın. İsrail isə Kolan təpələrini qaytarmaq fikrində deyildi. Çünki, Çolan təpələri mühüm strateji əhəmiyyət kəsb

edirdi, oradan real imkan vardır ki, Suriyanın paytaxtı Dəməşq artilleriya atəşinə tutulsun, İordan çayının sualtı resurslarına nəzarət edilsin. Bununla yanaşı, həm də Ölü dənizə, Tveriad gölünə nəzarət etmək də buradan mümkün idi. Lakin İsrail bu ərazini 1967-ci ildə işğal etmiş və qaytarmaq fikrində deyildi. Bəhanə gətirirdi ki, guya öz təhlükəsizliyini təmin etmək üçün bunu edir. Danışıqlar 2000-ci ildə də bir nəticə vermədi.

Yaxın Şərq probleminin həllində 1995-ci ildən başlayaraq "Avropa üçlüyü" – ("Fransa, Almaniya, İspaniya") , başda Fransanın xarici işlər naziri A.Juppe olmaqla böyük fəallıq göstərdi.

1991-ci ilin may ayının 20-də Suriya və Livan arasında qardaşlıq, əməkdaşlıq, koordinasiya haqqında müqavilə bağlandı.

## 1996-cı il İsrail-Livan münaqişəsi

1996-cı il aprel ayının 16-30-da İsrail dövlətinin silahlı qüvvələri Livanın cənub hissəsini "Dəhşətli nifrət" əməliyyat adı altında bombardman etdilər. Ancaq beynəlxalq ictimaiyyətin təzyiqi, ABŞ və Türkiyə Respublikasının fəallığı sayəsində Livan tərəfdə atəşi dayandırmaq oldu. İyulun 2-dən 15-dək İsrailin hava qüvvələri yenidən Livanın cənub hissələrindəki Fələstin bazalarına hücum etdi. 1990-91-ci illərin Kuveyt böhranı zamanı Y. Ərəfat İraqı müdafiə edirdi. Buna görə də Səudiyyə Ərəbistanı və Kuveyt fələstinliləri müdafiədən imtina etdi. 1992-ci ildə FAT tam iflas həddinə çatdı. İordan çayının qərbində və Qəzzə bölgəsində İntifad tam dayandı.1994-cü ildə İsrailin Xarici işləri Peres Nobel mükafat aldı. ABŞ Yaxın Şərq problemi ilə məşğul olarkən həm iqtisadi, həm siyasi məsələləri öz əlində cəmləşdirmək istəyirdi. 1994-cü il oktyabrın 31-dən noyabrın 1-dək Kasablankada ABŞ-ın rəhbərliyi ilə Aralıq dənizi ölkələrinin iqtisadi probelmlərinə həsr edilmiş konfrans keçirildi. Aİ formal şəkildə iştirak edirdi. ABŞ və İsrail birgə Yaxın Şərq ölkələrinin inkişafı üçün maliyyə vəsaiti qoymaq planını təklif etdi. Bu planı həyata keçirmək üçün Yaxın Şərq üzrə İnvestisiya bankı təşkil edildi. 90-cı illərdə fələstinlilərin sayı 7-8 milyon nəfər idi. Onların 50%-i isə qaçqın idi. Onlar İordan çayının qərbində, Qəzzə bölgəsində, Şərqi Yerusəlimdə və digər qonşu ərəb ölkələrində - Suriya-Livan, İordaniyada yaşayırdılar. Fələs-

tinlilərin əksəriyyəti indi üç ərəb ölkəsində yerləşmişlər: İordaniyada 718767, Suriyada 409662, Livanda 391679 nəfər yerləşmişdir. Bundan başqa İordaniyanın qərb sahilində və Qəzzə bölgəsində faktiki surətdə qaçqın kimi 654971 və 907221 adam yaşayırdı. Hazırda 370 min yaxın yəhudi İordan çayının qərbində və Qəzza bölgəsində yaşayır, onlar həmçinin Holan təpələrində də yaşayırlar. İsrail 1970-cı ildən 1967-ci ildə işğal etdikləri ərazilərdə məskənlər salmağa başlamışdır. 1 milyon Fələstin qaçqını 50 il bundan əvvəl təşkil edilmiş düşərgələrdə indi də yaşayır.

BMT-ın nəzdində onlara kömək üçün xüsusi komitə yaradılmışdır ki, bu YNPBA adlanır.

**Fələstində 1996-cı il seçkiləri**

1996-cı ilin yanvarın 20-də Fələstin Muxtariyyəti ərazisində Fələstin Qanunverici sovetinə 5 il müddətinə 88 yerlik seçki keçirildi. Qanunverici sovetin sədri Yasir Ərəfat seçildi. O səslərin 88%-ni aldı. Elə o vaxtdan o, “rəis” titulunu daşımağa başladı. Fələstin Müqavimət hərəkatında 2 təşkilat – “Həmas” və “İslam Cihadı” təşkilatı terroru yenə də davam etdirirdi.

**B.Netenyahonun 4 sazişi**

1995-ci ilin noyabrın 4-də İsrailin baş naziri İsaaq Rabin bir yəhudi dindar fanatik tərəfindən öldürüldü. 1996-cı ilin martın 13-də Şarm-El-Şeyx də (Misir) antiterrora həsr edilmiş sammit toplaşdı. 1996-cı il mayın 20-də İsraildə keçirilən parlament seçkilərində “Lukud” bloku və onun lideri B. Netanyaho qələbə çaldı və baş nazir rolu. O, 1996-99-cu ildə İsrailə rəhbərlik edərkən öz baxışlarında aşağıdakı 4 tezisi irəli sürdü:

1)Müstəqil Fələstin dövləti təşkil edilməməli

2)Vahid və bölünməz Yerusəlim İsrailin paytaxtıdır

3)Holan təpələri İsrail qoşunlarının nəzarəti altında qalmalıdır

4)İordan çayının qərbində və Qəzzə bölgəsində yəhudi məskənlərinin tikintisini sürətləndirmək lazımdır.

1996-cı ildə İsraildə hakimiyyətə sağların gəlişindən sonra da ABŞ sülh prosesinin pozulmasına yol vermədi. ABŞ 1994-cü il İsrail-İordaniya sülh müqaviləsinin təminatçısı kimi çıxış etdi.

Vaşinqton Suriya məsələsində fəal rol oynadı. əvvəlki ləngliyi aradan qaldıraraq 1999-cu ildə Cenevrə konfransına hazırlıq prosesində Suriya rəhbərliyinin etibarını qazanmağa çalışdı. Qeyd etmək lazımdır ki, 90-cı illərin ortasında ABŞ öz vasitəçilik fəaliyyətinə yanaşmanı dəyişməyə məcbur oldu. Əgər 90-cı illərin birinci yarısında Vaşinqton əsasən dialoq aparılmasını təmin edirdisə, İsraildə hakimiyyətə Bünyamin Netanyaho gəldikdən sonra onlar tərəflərə sülh təşəbbüsü irəli sürməkdə təzyiq edirdilər. XXI əsrin əvvəllərində ABŞ-ın bu məsələnin həlli sahəsindəki fəaliyyətində keyfiyyət dəyişikliyi baş verdi. Vaşinqton səyinin tərəfləri güc işlətməni dayandırmaq üçün inandırmağa deyil, münaqişənin sosial və iqtisadi bazasını ləğv etməyə yönəltdi. Ona görə də, həmin ərazilərdə demokratik islahatların keçirilməsinə xüsusi diqqət yetirilməyə başlanıldı. Bu əslində missioner xarakteri daşıyırdı. ABŞ və onun müttəfiqlərinin bu müqəddəs borcu elan edilməsə də, demokratiya istənilən daxili və xarici böhranı aradan qaldırmaqda universal vasitə idi və onu regionda yaymaq nəzərdə tutulurdu. Regionda kompromis axtarışına hamıdan əvvəl ABŞ qoşuldu Vaşiqton terrorizmlə fəal mübarizəyə başladı. ABŞ bütün gücü ilə İsraili, fələstinliləri pozucu ekstremist təşkilatlarının təcavüzkar hərəkətlərindən qorumağı öhdəsinə götürdü. HƏMAS-ın hakimiyyətə gəlməsi Fələstin milli muxtariyyatında daxili-siyasi vəziyyəti xeyli dəyişdirdi. ABŞ bu dövrdə Fələstin Milli Muxtariyyət hökumətini radikal mövqedən çəkinməyə inandırmağa çalışırdı. HƏMAS buna o şərtlə razı idi ki, onun tələblərini beynəlxalq təşkilatlar yerinə yetirsin.

## Şarm-El-Şeyx sazişi və memorandum

1998-ci il dekabrında Klintonun Yaxın Şərqə səfəri zamanı Fələstin Soveti 1968-ci ildə İsrail dövlətini ləğv etmək haqqında qəbul etdiyi xartiyanı ləğv etdi.

Hələ 1998-ci ilin noyabrın 30-da Vaşinqtonda 50 ölkənin nümayəndələrinin görüşündə qərara alındı ki, 3 mlrd dollar Fələstinə yardım edilsin. 1998-ci il mayın 17-də İsrailin baş naziri Edmund Barak oldu. O, “Əmək” partiyasından idi. 1999-cu il sentyabrında Şarm-Əl-Şeyxdə Barakla Yasir Ərəfat arasında danışıqlar üçün yol açılmış oldu. Bu tarixə Şam-El-Şeyx sazişi kimi daxil

oldu. 1999-cu ilin sentyabrın 13-də onların arasında daimi status haqqında danışıqlar başlandı ki, onun mərkəzində aşağıdakı ciddi problemlər dururdu:

1. Yerusəlimin statusu
2. Fələstin qaçqınlarının problemi
3. Qəzzə bölgəsində və İordan çayının Qərb sahilində yəhudi məskənləri məsələsi
4. Təhlükəsizlik tədbirləri
5. Gələcək sərhədlər haqqında məsələ

Onların arasında "Şarm-el-Şeyx memorandomu" bağlandı.

**2000-ci il Kemp Devid görüşü**

2000-ci ilin iyunun əvvəllərində ABŞ prezidenti Bill Klinton İsraillə Fələstin arasında sülh müqaviləsinin bağlanmasına ümid edərək daha bir addım atdı və 3 tərəfli sammit çağırılmasını təklif etdi. 2000-ci ilin iyunun 11-24 arasında Yasir Ərəfatla Barakın Kemp Deviddə görüşü oldu. Orada ərazi məsələsi müzakirə olundu. Barak Yasir Ərafata təklif etdi ki, İordan çayının qərb sahilində və Qəzzə bölgəsində müstəqil Fələstin dövləti yaradılsın. Amma O, Şərqi Yerusəlimi paytaxt etmək fikrindən daşınsın və 10% ərazi İsrailin əlində qalsın. Yasir Ərəfat bir şərtlə buna razılaşacağını bildirdi ki, onun əvəzində İsrail Neqev Çölü rayonundakı torpağından versin.Fikir müxtəlifliyi Fələstin qaçqınları məsələsində də üzə çıxdı. Yasir Ərafata Ehud Barak təklif etdi ki, Fələstin qaçqınlarının məhdud sayı hələlik Vətənə qayıtsın. Qalanlara isə kompensasiya verilsin. Yerusəlimin statusu məsələsinə gəldikdə isə bu kəskin xarakter aldı. Çünki Yerusəlim 3 dinin-iudaizm, xristianlıq və islamın mərkəzləşdiyi şəhər idi. Məsələnin kəskinliyi bunda idi ki, 1948-49-cu illər müharibəsi zamanı Yerusəlimin qərbini İsrail, şərqini isə İordaniya tutmuşdu. 1949-cu ildə Yerusəlim bölünmüşdü. 1967-ci il "6 günlük" müharibə zamanı bu vəziyyət dəyişdi. İsrail Şərqi Yerusəlimi də işğal etdi. 1980-ci ilin iyunun 30-da BMT TŞ 476 saylı qətnamə qəbul etdi ki, İsrail orada işğalçı dövlət kimi tanınırdı və tələb edilirdi ki, Müqəddəs şəhər Yerusəlimin statusu dəyişilməmiş qalsın. İsrail bu qətnaməni qəbul etmədi. Yeri-səlimin İsrailin nəzarəti altında qalması ona imkan verdi ki, o, burada tikinti işləri aparsın. Burada demoqrafik

dəyişikliklər də baş verdi. 1998-ci ilin iyunun 21-də Natenyaho hökuməti “Böyük Yerusəlim” adlı plan qəbul etdi. Plandan məqsəd Yerusəlim İsrail dövlətinin əbədi paytaxtı olması ideyasını həyata keçirmək idi. 2000-ci ilin iyulun 24-dəı Yasir Ərafatla Barak Kemp-Deviddə yenidən görüşsələr də, nəticəsi olmadı Yaxın Şərqdə vəziyyət xeyli kəskinləşdi.

## XX əsrin sonu XXI əsrin əvvəllərində İsrail-Livan münasibətləri

XXI əsrin əvvəllərində də Livanla İsrail arasında danışıqlar da nizama salınmamış qalırdı. Çünki Livan bildirirdi ki, o ancaq o şərtlə İsraillə sülh müqaviləsi bağlayacaqdır ki, Suriya da bunu etsin. Livan 1991-ci ildən Suriyaya “xüsusi” münasibət bəsləyirdi.

İsrail də öz növbəsində tələb edirdi ki, “Hizbullah” və digər yəhudilər əleyhinə olan təşkilatlar buraxılsın. Bu təşkilatlar Cənubi Livanda yerləşirdi, və onlar fasiləsiz olaraq – 1993, 1996, 2000-ci illərdə İsrail qoşunları əleyhinə aksiyalar həyata keçirmişdilər. Livan ancaq 2000-ci ildə İsrailin ondan aldığı Cənubi Livan ərazisini ona qaytarılmasına nail oldu. 2005-ci ildə Livandan Suriya qoşunları getdi. Lakin Fələstin problemi yenə də həll edilməmiş qalırdı.

## Al-Aksa intifadı və onun nəticələri (2000-ci il)

1996-cı ilin sentyabrında İsrail dövləti arxeoloji məqsəd üçün Yerusəlim şəhərinin müsəlman məhəlləsində ikinci çıxışdan ötrü tunel açmağı qərara aldı. Güya bunun əsas səbəbi təkcə Yerusəlimdə deyil, həm də, İordan çayının qərb sahilində və Qəzzə bölgəsində baş verən nümayişlər idi.

Burada İsrail qoşunu və fələstinlilər arasında baş verən toqquşmalarda onlarla adam öldü, yüzlərlə adam yaralandı. 1996-cı ilin sentyabrın 27-si ilə 29-u arasında Yerusəlimdən Al-Aksa məscidinin altından tunel açıldı. Onunla əlaqədar BMT TŞ-nın 1073 saylı qətnaməsi qəbul edildi.

2000-ci ildən Ərəb-İsrail münaqişəsi daha da kəskinləşdi. 2000-ci ilin sentyabrın 28-də İsrailin siyasi xadimi Şeronun Yerusəlimin Şərqində olan Məbəd dağına getməsi vəziyyəti yenidən kəskinləşdirirdi. Çünki orada müsəlmanların müqəddəs Al-

Aksa məscidi yerləşirdi. Bu ərəblərin üsyanına səbəb oldu. Bu tarixdə 2-ci intifad - Al-Aksa intifadı adlanır. Tezliklə intifad İordan çayının qərbinə və Qəzzə bölgəsinə yayıldı. 2000-ci il oktyabrın 4-də Parisdə ABŞ-ın dövlət katibi Madlen Olbraytın vasitəçiliyi ilə Barak və Yasif Ərəfat arasında başlayan danışıqlar bir nəticə vermədi. 2000-ci il noyabrın 27-də Yaxın Şərqə ABŞ konqresinin keçmiş üzvü Con Miçelinin başçılığı altında gələn komissiya vəziyyəti yerində təhdiq etməyə başladı.Təkliflər "Etibar tədbirləri" adlandı.

**B.Klintonun 2000-ci ildə sülh planı**

Klinton 2000-ci ilin dekabrında özünün Fələstin-İsrail münaqişəsinin nizama salmaq üçün aşağıdakı sülh planını təqdim etdi:

1)Fələstinlilərin İordan çayının Qərb sahilində və Qəzzədə suverenliyi o şərtlə təmin olunur ki, ərazi mübadiləsi olsun;

2)Fələstin qaçqınlarının qayıtmaq hüququ elan edilsin

3)Yaxın Şərqdə ancaq sülh sazişi bağalmaqla münaqişəni həll etmək lazımdır.

2000-ci ilin dekabrın 19-23-ü arasında Vaşinqtonda Edmund Barakla Yasir Ərafat arasındakı danışıqlar nəticə vermədi. Klintonun Fələstin-İsrail münaqişəsinin nizama salmaqda uğurlu vasitəçi kimi tarixə düşmək istəyi həyata keçmədi. ABŞ-ın vasitəçiliyi ilə Misirin Tabe şəhərində kiçik Corc Buşun başçılığı ilə Respublikaçıların iştirakı ilə keçirilən danışıqlar da nəticəsiz qaldı. Yaxın Şərqdə hadisələr daha da kəskinləşdi. Şarm-El-Şeyxdə üç mühüm sahədə münaqişəli tərəflər bir-birinə anlamağa nail oldular:

1. Təhlükəsizlikliklərini təmin etmək işində əməkdaşlıq və qarşıdurmanı qurtarmağa çalışmaq
2. Yaxın zamanlarda olmuş faciəvi hadisələri təhqiq etmək məqsədilə komissiya təşkil etmək
3. Sülh prosesini canlandırmaq və təkrar etmək üçün tədbirlər görmək. Bu prosesdə tərəflər kopromisə gələnə qədər danışıqları davam etdirmək

**"Torpaq müqaviləsində sülh" və "dünya ölkələrinin təşəbbüsü" planı**

2002-ci ilin iyunun 16-da İsrail hökuməti İsraillə İordan çayının Qərb sahili sərhədində və Qəzzə bölgəsində 100 km-lə uzanan sahədə "təhlükəsizlik divarları" adlanan tikinti işlərinə başladı. 2003-cü il yanvarın 28-də Şaron İsrailin baş naziri vəzifəsinə yenidən təyin edildi. Fələstin muxtariyyətinin baş naziri Mahmud Abbasla Şaron arasında 2003-cü il mayın 17-18-si ilə arasında birinci görüş oldu. 2004-cü ilin mayın 28-də isə ikinci görüş oldu. Lakin bu dövrdə Əl-Aksa intifadı davam edirdi. 2005-ci il yanvarın birinə qədər hər iki tərəfdən 4540 nəfər həlak olmuşdu. Bu dövr ərzində BMT-nin TŞ-nin 10 növbədən kənar sessiyası keçirilmiş, 1397, 1402, 1403 saylı bu məsələ ilə əlaqədar qətnamələri qəbul edilmişdi. Hələ 2002-ci ilin fevralın 17-də Fələstin-İsrail münaqişəsini nizama salmaq üçün Səudiyyə Ərəbistanı təklif irəli sürmüşdü. Bu məqsədlə varis şahzadə Abdullah Ben Abduləziz Nyu Yorka gəlmişdi. Tezliklə Səudiyyə Ərəbistanı ərəb ölkələrinə öz təkliflərini təqdim etdi. 2002-ci ilin mart ayının 27-si ilə 28-i arasında Beyrutda keçirilən Ərəb ölkələrinin liqasının sammitində bu plana baxıldı.Planın mərkəzində "Torpaqla mübadilədə sülh" prinsipi dayanırdı . Plan bəyənildi və "dünya ölkələrinin təşəbbüsü" adlandı. Onun maddələri aşağıdakılar idi:

1. Sülh müqabilində 1967-ci ilin "Altı günlük" müharibəsi nəticəsində işğal etdiyi Fələstin ərəb torpaqlarını qaytarmaq İsrailə təklif edilsin.
2. İordan çayının qərb sahilində və Qəzzə bölgəsində mərkəzi Şərqi Yerusəlim olan müstəqil Fələstin dövləti yaradılsın.
3. Fələstin qaçqınlarının probelmi məsələsi həll edilsin.

**"Dördlük və onun sülhü"**

2002-ci ildə Yaxın Şərqdə vəziyyəti normalaşdırmaq işində beynəlxalq əsasda yeni əməkdaşlıq forması yarandı ki, bu "dördlük" adlanırdı. Onun üzvləri BMT, ABŞ, Rusiya və Aİ oldu. 2002-ci il aprelin 10-da Madriddə "Dördlüyün" çərçivəsində birinci müşavirə çağırıldı. Məzmununu təcili surətdə zorakılığı dayandırmaq təşkil edən birgə bəyənat qəbul olundu. 2002-ci ilin iyulun 16-da "Dördlüyün" ikinci müşavirəsi keçirildi. Burada Müstəqil Fələstin dövlətinin 2005-ci ilin sonuna qədər reallaşması üzrə təqvim qəbul olundu. 2003-cü ildə "Dördlük" 2003-cü il aprelin

30-da nəşr olunan Yaxın Şərqdə münaqişəni nizama salmaq üçün "Qiymətli kartlar" adını alan plan irəli sürdü. Bu plan həyata keçirilərkən "Qiymətli kartlar"ın reallaşması üçün BMT TŞ-nin 242,338 və 1397 saylı qətnamələrinə əməl edilməli idi. Plan üç mərhələdə həyata keçirilməli idi.Birinci mərhələdə terror və zorakılığın dayandırılması, təbiət və həyat şəraitinin normallaşması, Fələstin institutlarının yaradılması nəzərdə tutulurdu. Bu mərhələ 2003-cü il mayına qədər davam etməli idi. İkinci mərhələ 2003-cü iyunundan – dekabrına kimi davam etməli idi. Üçüncü mərhələ 2004-2005-ci illəri əhatə etməli, Fələstin-İsrail münaqişəsi qurtarmalı və daimi status üzrə saziş bağlanılmalı idi.

2003-cü ilin may-iyun aylarında münaqişəli tərəflər Yaxın Şərq problemini nizama salmaq üçün "Qiymətli kartlar" əsasında hərəkət etməyi lazım bildilər. Lakin 2009-cu il oktyabrın 1-də İsrail hökuməti buna məhəl qoymayaraq təhlükəsizlik divarlarının tikintisi işini fəallaşdırmaq haqqında qərar" qəbul etdi. BMT İsrailə bu hərəkətini dayandırmağı təklif etdi. İsrail Beynəlxalq məhkəməyə verildi. Beynəlxalq məhkəmədə 2004-cü ilin fevralın 23-dən 25-dək bu məsələ müzakirə olundu və onun beynəlxalq hüquq normalarına zidd olduğu göstərildi. 2004-cü il iyulun 20-də BMT bu məsələ ilə əlaqədar xüsusi qətnamə qəbul etdi. 2004-cü il fevralın 2-də İsrail hökuməti Şaronun təşəbbüsü ilə "Birtərəfli məsafənin götürülməsi" adlanan yeni təşəbbüs irəli sürdü. Planda tikilmiş Qəzzə bölgəsində 21, İordan çayının qərb sahilində 4 yəhudi məskənin ləğv edilməsi nəzərdə tutulurdu. Lakin sağ blok olan "Lukud" müxalifətdə dayansa da, 2004-cü il oktyabrın 26-sı İsrail knesseti (parlamenti)planı bəyəndi.

**Fələstin muxtariyyəti Y.Ərəfatın ölümündən sonra**

2004-cü il noyabrın 4-də Parisdə hərbi hospitalda Yasir Ərafat vəfat etdi. Yasir Ərafat Ramal şəhərinin Mukata qəbristanlığında dəfn edildi. Y.Ərafat 1929-cu ilin avqustunda Qahirədə anadan olmuşdu. O, Əbu Əmmar adı ilə məşhur idi. 4 yaşında anası olmuş, atası onu Yerusəlimə gətirmişdir. Atası varlı tacir idi. O, bir neçə dəfə evlənmiş, 1937-ci ildə ailəsi yenidən Qahirəyə qayıtmış, burada Y.Ərəfat "Müsəlman qardaşlığı" təşkilatına daxil olmuşdu. 1952-56-cı illərdə o, Fələstin tələbələrinin liqasına baş-

çılıq etmişdi. Misir tərəfində leytenant kimi müharibədə iştirak etmişdi. 1957-ci ildə Kuveytə gəlmiş, 1959-cu ildə burada FATX yaratmışdır. Bu təşkilat tezliklə FAT-ın nüvəsinə çevrilmişdi. Fələstin Milli Sovetinin sessiyasında (1969-cu il fevralın 1-4-ə qədər Qahirədə keçirilmişdi) o FAT-ın başçısı seçilmiş və FAT icraiyyə komitəsinin sədri postunu tutmuşdur. Onun ölümündən sonra Fələstin muxtariyyatına Triumvurat başçılıq edirdi. Bunlar "köhnə qvardiya" adlanır və "Yasir Ərəfatın Yaxın silahdaşları idilər. Fələstinin müvəqqəti prezidenti olan Fərrux Qaddumi və Mahmud Abbas isə onun üzvləri oldular. Tezliklə Yasir Ərəfatın yerini Mahmud Abbas tutdu. 2005-ci il yanvarın 9-dan o, Fələstin muxtariyyətinin prezidenti oldu. Prezident seçkilərində 62,3% səs topladı. Yenə də Şarm Əl Şeyxdə Misir və İordaniyanın iştirakı və ABŞ-ın dəstəyi ilə Şaron və Mahmud Abbas arasında görüş oldu. Görüşdə nəzərdə tutulurdu ki, 4 il ərzində Yaxın Şərqdə zorakılığa son qoyulsun. Bu hadisədən sonra Al-Aksa intifadı başa çatmış oldu. Tezliklə İordan çayının qərb sahilində və Qəzzə bölgəsindəki Fələstin məskənlərindən geri çəkilmə baş verdi. Lakin fələstinlilər yenə də terroru davam etdirdilər.

2005-ci il mayın 5-də İsrail və Fələstin arasında danışıqların davam etdirilməsi ilə əlaqədar beynəlxalq konfrans çağırıldı. Beynəlxalq ictimaiyyət 2005-ci ildə Fələstin Muxtariyyətinin yeni rəhbərliyinə vəd etdi ki, 1,2 mlrd dollar, o cümlədən ABŞ-ın özündən 350 mln, Aİ-dən isə 330 mln dollar vəsait verəcəklər. Bununla yanaşı, Mahmud Abbas ərəb ölkələrindən də 500 mln dollar götürəcəyini güman edirdi.

## "Şaron planı"

2005-ci il avqustun 17-dən sentyabrın 12-dək "Şaron planı" əməli olaraq reallaşmış oldu. Şaron göstərirdi ki, aralığın götürülməsi üçün daxili problemləri həll etmək vacibdir.

Bununla yanaşı, Şaron bildirdi ki, İsrail vəziyyəti diqqətlə izləyəcək, fələstinlilər tərəfindən İsrailə qarşı hər hansı hücum dəmir çomaqlarla itələnəcəkdir. BMT-in baş katibi Kofi Annan İsrailin bu addımını "cəsarətli qərar" kimi qəbul etdi və bildirdi ki, Yaxın Şərqdə sülhün bərpası üçün böyük uğur naminə hər iki tərəfin liderlərindən, hər hansı bir qurban vermək tələb olunur və

onları əməkdaşlığı genişləndirməyə çağırdı. Lakin Şaronun 2006-cı ilin yanvarında xəstələnməsi və əmək qabiliyyətini itirməsi bu məsələləri böyük sual altına qoydu. Onun vəzifəsini icra edən Olmert elan etdi ki, o, Fələstinlilərlə çox mürəkkəb məsələ olan barışıq siyasətini davam etdirmək fikrindədir. Seçkilərdə onun partiyası ("Qadima")qələbə çatdı və o, baş nazir oldu. 2006-cı il yanvarın 25-də olan Fələstinin qanunverici orqanına seçkilərdə "Həmas" partiyası (yəni İslam müqavimət hərəkatı)132 yerdən 76-sını aldı. Hakim partiya olan FATX cəmi 43 yer tutdu. Bu zaman "HƏMAS"ın liderləri 2006-cı il mart 3-5-də Rusiyaya səfər edərək RF-nin Xarici İşlər naziri S.Lavrovla görüşdülər. Bu təcridlilikdən qurtarmaq üçün atılan ilk addım idi. 2006-cı martın 20-də "Həmas"ın üzvlərindən hökumət təşkil edildi. Hökumətin tərkibində FATX üzvzəri yox idi. Həmas öz barışmamazlıq mövqeyindən əl çəkəcəyini bildirdi.

**"Vaşinqtonun Yaxın Şərq siyasətinə lobbizmin təsiri"**

ABŞ-ın Yaxın Şərq siyasətinə təsir edən əsas amillərdən biri olan yəhudi lobbisi təkcə Vaşinqtonun xarici siyasətinə deyil, həmçinin bütövlükdə regionda cərəyan edən hərbi-siyasi proseslərə kifayət qədər öz təsirini göstərməkdədir.

ABŞ-da mövcud olan və öz dövlətlərinin milli maraqlarını müdafiə edən lobbilər sırasında heç bir ölkənin lobbisi yəhudilərin lobbisi ilə müqayisə oluna bilməz. Sionist lobbisinin ABŞ-ın icra və qanunverici orqanları ilə geniş əlaqələrinin yaradılması, formalaşdırılması və tədricən inkişaf etdirilməsi Vudro Vilsonun ABŞ-da prezidentlik illərinə təsadüf edir. Bu gün artıq ABŞ milyonçularının 20%-i yəhudi mənşəli sahibkarlardır. "Aparıcı siyasi partiyaların seçki fondlarına yəhudi ödəmələrinin həcmi respublikaçılarda 40%-ə, demokratlarda isə 60%-ə çatır. İllik büdcəsi 1 milyard dollar təşkil edən filantropik qrumların şəbəkəsinə nəzarət də yəhudi icmasının əlindədir".

Bir sıra faktorlar vardır ki, həmin faktorlar yəhudilərə ABŞ-ın siyasi həyatına kifayət qədər təsir etməyə imkan verir. Bunlar aşağıdakılardır:

- Amerika yəhudi kapitalistlərinin yuxarı təbəqəsinin ABŞ iqtisadiyyatında güclü maliyyə və iqtisadi mövqelərə malik olması; Ölkə həyatında xüsusi əhəmiyyət daşıyan regionlarda yerləşməsi. ABŞ əhalisinin cəmi 3%-ni təşkil edən yəhudilərin 89%-i faktiki olaraq ABŞ-ın 12 ən mühüm ştatında yaşayırlar. "Məhz bu ştatlarda prezident və senat seçkilərində həlledici səsə malik olmaq vacib əhəmiyyət kəsb edir. Nyu York, Kaliforniya, Pensilvaniya, İllinoys, Massaçusets kimi ştatlarda faktiki olaraq yəhudilərin səsi həlledici əhəmiyyətə malikdir". Prezident seçkilərində hər iki rəqibin - demokratların və respublikaçıların seçki kampaniyalarına küllü miqdarda maliyyə sərf edən yəhudi lobbisi, nəticə etibarilə seçkinin nəticələrindən asılı olmayaraq Ağ Evdə öz mövqeyini qoruyub saxlamaq imkanı əldə edir; Kütləvi informasiya vasitələrində yəhudilərin güclü mövqeləri, Sionist və sionizmyönlü təşkilatların geniş şəbəkəsinin ABŞ-da fəaliyyət göstərməsi.

Ərəb lobbisinin bir sıra təşkilatlarda təmsil olunmasına kifayət qədər maliyyə potensialının mövcudluğuna baxmayaraq ABŞ-ın Yaxın Şərq siyasətinə kifayət qədər təsir edə bilmir. Ərəb lobbisinin əsas təsir vasitəsi təbii ki neft və neft embarqosudur. Ərəb lobbisinin vahid fəaliyyət mexanizmi işlənib hazırlanmamışdır ki, buna səbəb də ərəbdaxili ziddiyyət və qarşıdurmadır. Məhz bu faktor da yəhudi lobbisinin nəinki regionda uğurla manevr etməsinə, həmçinin rəsmi Vaşinqtonun Yaxın Şərq siyasətinə güclü və hiss ediləcək təsir göstərməsinə əlverişli imkan yaradır.

### ABŞ və ərəb dünyasının bəzi ölkələri. ABŞ-İraq münasibətləri

1990-cı il avqustun 1-dən 2-nə keçən gecə 150 min nəfərlik İraq ordusu Küveytə hücum etdi. İraqın Küveytə təcavüz etməsi ilk gündən beynəlxalq etiraz dalğası ilə qarşılandı. Bu təcavüz dünya bazarlarında neftin qiymətinin qalxmasına, maliyyə bazarlarında dərin böhrana səbəb olduğundan, təcavüzün kollektiv olaraq aradan qaldırılmasında ABŞ-ın liderliyi ön plana çıxdı. ABŞ İraqa qarşı tətbiq olunan BMT qətnamələrinin qeyd-şərtsiz olaraq həyata keçirilməsini tələb edirdi. 1991-ci ilin əvvəllərində ABŞ-ın

öz müttəfiqlərinin köməyi ilə İraqa İraqa hücumu “Shrada tufan” əməliyyatı adlanır. İraq məğlub oldu.

İraqın Küveytdən çıxarılmasından sonra Körfəzin ərəb dövlətlərinin yeni təhlükəsizlik sistemi yaratmaq cəhdinin boşa çıxması həmin dövlətləri rəsmi Vaşinqtonla ikitərəfli müqavilələr bağlamaq variantı ilə üz-üzə qoydu ki, bu da ABŞ üçün iki cəhətdən əlverişli idi. ABŞ bununla Avropadan çıxarılan hərbi birləşmələrinin yerləşdirilməsi və regionda möhkəmlənmək kimi məsələləri həll etmiş oldu.

Körfəzin ərəb dövlətləri ABŞ ilə ikitərəfli hərbi əməkdaşlıq müqavilələri bağladılar ki, bu halda ABŞ-ın regionda mövqeləri daha da güclənmiş oldu. İraqa qarşı sanksiyalar tətbiq edildi.

1992-1996-cı illər ərzində Klinton administrasiyası İraqa münasibətdə yeritdiyi siyasətdə əsas etibarilə BMT TŞ-nm qətnamələrinin həyata keçirilməsi, xüsusilə BMT müfəttişlərinin İraqdakı fəaliyyətinə əlverişli şərait yaradılması istiqamətində siyasi kursu həyata keçirmirdi.

1996-a ilin yanvar ayında Nyu-Yorkda İraqın YUNESKO-dakı nümayəndəsi əl-Ənbərinin rəhbərliyi altındakı nümayəndə heyəti ilə BMT nümayəndələri arasında başlanan rəsmi danışıqlar may ayının 20-də «Qarşılıqlı anlaşma haqqında Memorandum»un imzalanması ilə başa çatdı. İraqa ilk üç ay ərzində 1 milyard dollarlıq neft satmağa icazə verilirdi.

1998-ci ildə ABŞ İraqa münasibətdə bir neçə istiqamətdə konkret mövqedən çıxış edirdi. Bunlar ABŞ prezidentinin çıxışında aşağıdakı kimi əhatə olunmuşdur:

ABŞ və koalisiya qüvvələrinin Fars körfəzində hərbi fəaliyyəti aşağıdakılar idi: «Notern Uotç» və «Sazern Uotç» əməliyyatları; Dəniz gəmilərinin saxlanılması və yoxlanılması; Kimyəvi silahlar; Bioloji silahlar; Uzaq radiuslu raketlər; Nüvə silahları; BMT-nin «neft əvəzində ərzaq» proqramı; İraqın şimalındakı kürd müxalifətinə dəstək; İraq müxalifəti ilə əməkdaşlıq; BMT-nin kompensasiya komissiyası.

BMT-nin Xüsusi Komissiyasının məlumatlarına əsaslanaraq Vaşinqton administrasiyası İraqın 80-ci illərdə 8 min litr sibir

yazvasını istehsal etdiyini, 20 min litr isə botulinus toksininə malik olduğunu bildirirdi.

İraq Baş nazirinin müavini Tariq Əziz noyabrın 11-də BMT Baş Katibi Kofi Annana göndərdiyi məktubunda isə yaranmış vəziyyətə İraqın münasibət və mövqeyini açıqlayaraq qeyd edirdi ki, «İraq hökuməti Xüsusi Komissiyanın və Atom üzrə Beynəlxalq Nümayəndəlikdən İraqı tərk etməyi tələb etməmişdir. Belə ki, İraq hökumətinin 31.10.1998-ci il tarixli qərarı ilə Atom Enerjisi üzrə Beynəlxalq nümayəndəliyin nəzarət çərçivəsində öz işini davam etdirməsinə icazə verilirdi.

ABŞ «Səhrada tülkü» əməliyyatı (1998-ci 11 dekabrın 16-da qrinviç üzrə saat 22:00 da başlamışdı)ilə hərbi məqsədlərinə nail olsa da, siyasi məqsədlərinə tam nail ola bilmədi.

Misir, Suriya, eləcə də Fars körfəzinin altı ərəb dövləti İraqı onun ekspansionist siyasətinə görə ittiham edirdilər. Onların fikrincə, Səddam Hüseyn regionda sabitliyi pozmaqla bərabər, onların rejimləri üçün də sabitliyə potensial təhlükə yaradırdı. Bağdad ABŞ ilə separat danışıqlarının aparılmasını məqsədəuyğun hesab etdi. 1999-cu ilin oktyabrında İordaniya kralı Abdulla Vaşinqton və Bağdad arasında məxfi qasid rolunu həyata keçirdi.

Vaşinqton administrasiyası İraq prezidentinin belə bir təkliflə çıxışını soyuq qarşıladı. ABŞ-ın belə bir separat danışıqlara getməsi onun dövlət və milli maraqlarına zidd idi.

**«ABŞ - Misir yaxınlaşması».** ABŞ-ın hakim dairələri Misiri həmişə ərəb dövlətləri arasında güc mərkəzi kimi qəbul etmiş və bu ölkənin istər geostrateji, istərsə də iqtisadi potensialından maksimum olaraq yararlanmağı rəsmi Vaşinqtonun milli və dövlət maraqları çərçivəsində qəbul etmişlər.

Əsası hələ ötən əsrin 70-ci illərində Ənvər Sədat hökuməti tərəfindən qoyulmuş «açıq qapılar» siyasəti çərçivəsində iki ölkə arasında iqtisadi-siyasi əlaqələr inkişaf etdirilməkdə idi. ABŞ isə öz növbəsində Misirin regionda aparıcı dövlətə çevrilməsində mühüm rol oynamışdır.

90-cı illərin əvvəllərində Misir ölkə iqtisadiyyatının dirçəldilməsi istiqamətində ABŞ ilə hələ 70-80-ci illərdə bağlanmış müqaviləni əsas götürərək 1991-ci ildən etibarən Beynəlxalq Valyuta

Fondu və Dünya Bankının proqramı çərçivəsində makroiqtisadiyyatı sabitləşdirməyə başlamışdı.

Qahirə ABŞ ilə münasibətlərini də daim yeniləşdirmə kursu mövqeyindən çıxış etmiş və buna müvəffəq olmuşdur. Bu məqsədə nail olmaqda isə ABŞ-ın Kemp-Devid sövdələşməsi çərçivəsində Qahirəyə hər il etdiyi 1 milyard dollar həcmindəki maliyyə yardımı müstəsna rol oynamaqdadır.

ABŞ ilə iqtisadi və kommersiya sahəsindəki birgə və sıx əməkdaşlıq nəticəsində Mİsir daxili sosial-iqtisadi sahələrin əksəriyyətində mühüm uğurlar əldə etmiş, 90-cı illərin Körfəz böhranından irəli gələn maliyyə və iqtisadi çətinliklərə baxmayaraq regionda Səudiyyə Ərəbistanından sonra əsaslı nailiyyətlər əldə edən ikinci dövlət olmuşdur.

Ökədaxili siyasətdə "Müsəlman Qardaşları" təşkilatına və hökumətin fundamentalistlərə qarşı mübarizəsi də ABŞ-ın daim dəstəyi və nəzarəti altında idi.

Məhz xarici siyasət istiqaməti Misirə milyard dollarla yardım edilməsinə imkan vermişdir. Körfəz müharibəsindən sonra Misir ABŞ-dan və onun rəhbərlik etdiyi beynəlxalq maliyyə qurumlarından hər il 4 milyard dollar həcmində maliyyə yardımı alırdı.

**"ABŞ-Səudiyyə Ərəbistanı əməkdaşlığı".** Səudiyyə Krallığını hakimiyyəti belə uzun müddət əlində saxlamasının başlıca səbəblərindən biri məhz rəsmi Vaşinqtonun bu sülalə ilə münasibətlərində müəyyən etdiyi və qoruduğu dövlət və milli maraqlarıdır.

ABŞ-la münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində quran Səudiyyə Ərəbistanı ilk növbədə regionun ən iri neft hasil və ixrac edən, eləcə də enerji ehtiyatlarına malik olan dövləti kimi ABŞ üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Təkcə onu demək kifayətdir ki, XX əsrin 90-cı illəri ərzində ABŞ neft idxalının 25-32%-ni Səudiyyə Ərəbistanı nefti təşkil etmişdir". 90-cı illərin ortalarında bu rəqəm hətta 40%-ə qədər yüksəlmişdi.

Səudiyyə Ərəbistanında 60-dan çox neft yatağını kəşf edən ARAMKO neft şirkəti 300 milyard barrel həcmində neft, 180 trilyon kubmetr isə qaz ehtiyatına malikdir.1990-cı ildə bu şirkətdə 2600 amerikalı, 1700 nəfər isə ingilis mütəxəssisi çalışırdı.

ABŞ-Səudiyyə Ərəbistanı münasibətlərinin dinamikasını izlədikdə iki ölkə arasında münasibətlərin kifayət qədər yüksək səviyyədə olduğunu söyləməyə əsas yaranır.Belə ki, 1990-cı ildə İraqın Küveyti işğal etməsi ilə bağlı ABŞ-ın bütün tələb və tədbirlərini Səudiyyə Ərəbistanı dəstəkləmiş və strateji müttəfiq kimi mövqe nümayiş etdirmişdi. Bununla yanaşı, ABŞ-Səudiyyə Ərəbistanı münasibətlərində ticarət və kommersiya əlaqələri də əsas diqqət mərkəzində olan məsələlərdən biri idi.

90-cı illərin əvvəllərində, xüsusilə də, 1993-1994-cü illərdə Səudiyyə Ərəbistanı təkcə regional məsələlərə deyil, həm də beynəlxalq miqyasda davam edən münaqişələrə qəti şəkildə reaksiya vermişdir. Ər-Riyadın əsas tələblərindən biri bu idi ki, BMT TŞ-ı Bosniya müsəlmanlarının silah almasına qarşı çıxarmış olduğu qətnamə ilə bəyan olunan embarqonu aradan qaldırsın. 1994-cü ildə Səudiyyə Ərəbistanı rəsmilərinin ABŞ-a iki rəsmi səfərindən sonra, ABŞ-ın Balkanlardakı siyasətində etmiş olduğu dəyişikliklər qeyd olunmalıdır: “Vaşinqtonun Balkan siyasətində etmiş olduğu dəyişiklik, həm Qərb, həm də Şərq müttəfiqlərinin ümumi maraqlarının ortaq məxrəcidir. Deyton razılaşması buna rəsmi sənəddir”.

İki dövlət arasında münasibətləri soyuqladan amillər də istisna deyildir. Bu ilk növbədə ABŞ-ın Yaxın Şərq sülh prosesindəki vasitəçilik missiyası ilə birbaşa bağlıdır. İstər Vaşinqton, istərsə də Ər-Riyad bu problem ətrafında qarşılıqlı olaraq iddia və ittiham mövqelərindən çıxış edirdilər.

90-cı illərdçə Səudiyyə Ərəbistanının regionda fəaliyyət göstərən terrorçu qruplaşmaları maliyyələşdirməsinə dair Ağ Ev ilə rəsmi Ər-Riyad arasında fikir ziddiyyəti də mövcud idi. İsrail rəsmiləri iddia edirdilər ki, “Həmas” terror təşkilatının büdcəsinin 50%-ini (bu 10 milyon dollar təşkil edir) hər il Səudiyyə Ərəbistanı tərəfindən ödənilən maliyyə təşkil edir.

Ər-Riyadın Ağ Evə qarşı irəli sürdüyü ittihamlar sırasında isə ABŞ-ın İsrailə ən müasir silah və texnikanı göndərməsi əsas yer tutur. İki ölkə arasında bu məsələ mübahisə obyekti olaraq qalmaqdadır. Əslində ABŞ-ın Səudiyyə Ərəbistanına ən müasir texnika satmasına qarşı İsrail hökumətinin də etiraz etməsi, rəsmi Vaşinqtonu bir tərəfdən dilemma qarşısında qoyurdu. Bu amil

digər tərəfdən isə faktiki olaraq ABŞ-a regiona münasibətdə, xüsusilə də bu məsələdə ikili standart siyasətindən çıxış etməyə əlverişli şərait yaradırdı.

ABŞ prezidenti Corc Buş administrasiyasının "yeni beynəlxalq qaydalar" doktrinasını da regionun vahid siyasi mənzərəsini əks etdirən dörd məsələyə xüsusi diqqət edilirdi.

Bunlar regional münasibətlərdə tam qarşılıqlı etimadsızlıq yaranması, regionun malik olduğu potensialdan maksimal istifadə olunmasının arxa plana keçməsi, kollektiv sülh və təhlükəsizliyə olan ehtiyac və tələbatın daha da artması, zorakılıq, təzyiqin gündəlik həyatda tələbata çevrilməsi idi. Bütün bunlar ABŞ-ın Yaxın Şərqə diqqətini daha da artırmağa məcbur edirdi.

Yaxın Şərq ABŞ-ın xarici siyasətində hərbi, iqtisadi, siyasi, ideoloji spektrləri vahid bir şəkildə özündə cəm edən region kimi qəbul olunur. ABŞ siyasətçi və strateqlərinin strateji təyinatına əsasən, Yaxın Şərqin dünya sistemindən kənarda qalması beynəlxalq münasibətlərdə qüvvələr nisbətindəki balansın pozulmasına səbəb ola bilər.

Üç qitənin kəsişdiyi yerdə yerləşən Yaxın Şərq, eyni zamanda Vaşinqton üçün fəal rəqabət meydanı kimi də qəbul edilir. Müasir dövrdə bu rəqabət ABŞ-ın Avropa İttifaqı, Asiya tərəfdaşları və rəqibləri arasında da gedir. Bu da ABŞ-ın region münasibətlərində 3 amillə aydın büruzə verir: Regional-iqtisadi əməkdaşlıq və inteqrasiya; Neft amili; Dini amil.

Regional-iqtisadi əməkdaşlıq və inteqrasiya istiqamətində atılacaq addımların əsası 1993-cü ilin noyabrında Kopenhagendə regional iqtisadi inkişafın təmin edilməsi məqsədilə yaradılan İşçi Qrupu ilə qoyulmuş oldu. 1994-cü il oktyabrın 30-dan noyabrın 1-dək ABŞ prezidenti Bill Klinton, Rusiya prezidenti Boris Yeltsin və Mərakeş kralı II Həsənin təşəbbüsü ilə Kasablankada birinci Yaxın Şərq-Şimali Afrika İqtisadi Sammiti keçirildi. Qeyd edək ki, 90-cı illərdə dörd analoji sammit keçirilmişdir. Sammitin keçirilməsində məqsəd regionda özəl mülkiyyətin genişləndirilməsini asanlaşdırmaq, investisiya imkanlarını artırmaq, özəl sektorda əməkdaşlığın əlverişli imkanlarına inam və etimadı formalaşdır-

maq, regional iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə stimul yaratmaq idi.

Sammitin işində ərəb dövlətləri ilə birgə İsrailin də iştirakı ona qarşı tətbiq olunmuş boykotun aradan qaldırılırması demək idi. Bu onun göstəricisi idi ki, "ərəb dövlətləri İsrail ilə əməkdaşlıqda maraqlıdır, lakin ərəb birliyində mövcud olan ziddiyyət buna imkan vermir.

Neft amilinin ABŞ xarici siyasətində əhəmiyyəti 70-ci illərdən başlayaraq daha da artmışdır.1985-ci ildən başlayaraq artan tələbat 90-cı illərin əvvəllərində 43% təşkil edirdi. İdxal olunan neftin 30%-ə qədəri isə həmin dövrdə münaqişə zonalarından, xüsusilə Yaxın Şərqdən gətirilirdi. Əslində isə ABŞ-ın öz dünyanın ən güclü neft istehsal edən ölkələrindən biri idi.

Körfəz müharibəsindən sonra, əsasən monarxiya rejimli ölkələrdən nefti idxal edən ABŞ üçün İran və İraqdakı rejimlərin dəyişilməsi, ümumi sabitlik və beynəlxalq təhlükəsizliyin Vaşinqtonsayağı təminatı kimi qəbul olunurdu. Körfəz müharibəsi ərəfəsində və ondan sonra regionun Qətər, Oman, Bəhreyn və Səudiyyə Ərəbistanı kimi müasir dövrün anoxranizm rejimləri bu sahədə ABŞ və Avropadan müasir silah, texnika və texnologiya alınmasına önəm verdilər.

Dini amilə gəldikdə isə qeyd edək ki, 80-ci illərin əvvəllərinə qədər isə islam faktoru ABŞ xarici siyasətində xüsusi yer tutmamışdır. Bunun başlıca səbəbi İslamın bir din kimi Yaxın Şərq ölkələrinin xarici siyasətindən asılı yer tutmaması deyildir. Buna səbəb islam ölkələrinin müharibədən sonrakı dövrdə əsasən ölkənin sosial-iqtisadi inkişafı, milli azadlıq hərəkatı, həmçinin bu dövrdə əsasən dövlətçiliyin dirçəldilməsi və möhkəmləndirilməsi istiqamətindəki fəaliyyət olmuşdur ki, bu prosesdə də islam bir din kimi arxa plana keçmişdir.

70-ci illərin sonlarında 80-ci illərin əvvəllərində Yaxın Şərq ölkələrinin ictimai-siyasi həyatında islamın mühüm rol oynaması, Vaşinqtonu xarici siyasətində islam amilini nəzərə almağa və yeni siyasi strategiyanı hazırlamağa vadar edirdi. Yeni siyasi strategiyaya uyğun olaraq Vaşinqton müsəlman ölkələri, xüsusilə Yaxın Şərqin İslam dövlətləri ilə münasibətlərinə ciddi dəyişikliklər et-

məyə başladı. Nəticədə, müsəlman cəmiyyətinə xarakterik olan ənənəvi tezislər gündəmə gətirildi.

**2003–cü İraq müharibəsi**

İraqın zenit, raket kompleksində kütləvi qırğın silahların olmasının yoxlamaq üçün TŞ-nın 687 saylı qətnaməsinə əsasən BMT-nin xüsusi komissiyası yoxlama aparmalı olsa da, 1998-ci ildə İraqda heç nə tapmayıb geri qayıtdı.

1998-ci ildə ABŞ-ın İraqda apardığı əməliyyat "Səhrada tülkü" adlanırdı. 2001-ci ilin 11 sentyabr terror aktından sonra ABŞ Əfqanıstanda Talıban rejimini devirmək üçün hərbi əməliyyata başladı. 2002-ci ildə Taliban rejimi devrildi. ABŞ İraqa yenidən beynəlxalq müfəttiş göndərilməsini tələb etdi. 2002-ci ildə Səddam Hüseyn buna razılıq verdi: Lakin axtarış heç bir nəticə vermədi. Hadisələrin gedişi göstərirdi ki, İraqla sülh mümkün deyil. ABŞ dünyaya sübut etməyə çalışırdı ki, İraqda S. Hüseyn rejiminin qalması planetdə sülh üçün təhlükəlidir. ABŞ-ın özünün bir sıra komissiyası təsdiq etdi ki, İraqda bakterioloji silah yoxdur.

2003–cü ildə C. Buş öz hökumətinə, "qlobal sürətli zərbə" konsepsiyasının hazırlanması haqqında sərəncam verdi.

2003–cü ilin fevralı 5–də ABŞ–ın dövlət katibi K. Pauell BMT Təhlükəsizlik Şurasına İraqın silahları haqqında məruzə təqdim etdi. Məruzədə İraqın kütləvi qırğın silahları hazırlaması haqqında təkzibolunmaz sübutlar öz əksini tapmışdı. ABŞ İraqa qarşı hərbi qüvvədən istifadə olunmasını tələb edirdi. Lakin MAQATE–nin baş katibi Əl Baradeinin məruzəsində deylirdi ki, İraqda nüvə silahı yoxdur. BMT Təhlükəsizlik Şuarsında Çin, Rusiya, və Fransa İraqa qarşı hərbi qüvvə tətbiqinin əleyhinə çıxış edirdi. ABŞ–la BMT Təhlükəsizlik Şurası arasında ziddiyyətlər kəskinləşdi və ABŞ İraqa qarşı müharibəyə başlamaq üçün BMT Təhlükəsizlik Şurasının mandatını ala bilmədi.

1991–ci il müharibəsinin başqa uzun müddətli nəticələrindən biri də 687 saylı qətnamədə nəzərdə tutulduğu kimi İraqda döyüş aviasiyasının uçuşunu qadağan edən hava zonasının yaradılması idi. Bu zonalar ölkənin cənubu və şimalında Səddam rejimi tərəfindən kütləvi təqiblərə məruz qalan kürdləri və şiələri qorumaq

üçün təşkil edilmişdi. Zonanın qorunması işi ABŞ və Böyük Britaniya aviasiya tərəfindən həyata keçirilirdi.

1990–cı illər ərzində kütləvi qırğın silahlarının ləğvi prosesi dövrü olaraq çətinliklərlə qarşılaşırdı. Bu isə İraq hakimiyyətinin, xüsussi komissiya ilə əməkdaşlıq etməyi arzulaması idi. Digər problemlər də mövcud idi. 1993–cü ilin yanvarında ABŞ, Böyük Britaniya və Fransanın Hərbi Hava Qüvvələri ölkənin cənubunda yerləşən hava - raket kompleksinin mövqelərini üzrə iki raket bomba zərbəsi vurdular. Halbuki müttəfiqlərin aviasiyası üçün təhlükə uçuş olmayan zonalardan ola bilərdi.1998–ci ilin dekabrında İraqın əməkdaşlığa etirazından sonra ABŞ və Böyük Britaniyanın beynəlxalq müfəttişləri İraqa qarşı "Səhrada tülkü" hərbi əməliyyatını həyata keçirdi. O qurtardıqdan sonra İraqın müdafiə sistemlərini ABŞ–Böyük Britaniya təyyarələri müntəzəm olaraq bombalamağa başladı. Bu yerli əhali içərisində xeyli itkilərə səbəb oldu. İraq səmasında silahlı pozuntular mütamadi olaraq 1998–ci ilin dekabrında 2003–cü ilin mart ayına qədər davam etdi. Bu pozuntular 2002–ci ilin ortalarından sonra daha da artdı.

Birinci dəfə İraqa qarşı ABŞ–ın hərbi əməliyyatının mümkünlüyü haqqında 2001–ci il 11 sentyabr terror aktından sonra kütləvi informasiya vasitələrində təkliflər irəli sürülməyə başladı. Bununla belə terror aktından sonrakı birinci aylarda C.Buş(kiçik) inzibati idarəsində Əfqanıstandakı Taliban hərəkatına qarşı hərbi əməliyyata başlamaq düşünülürdü. 2002–ci ilin əvvəllərində talibanlar məğlubiyyətə düçar oldular və hakimiyyətdən kənar edildilər. ABŞ 2002–ci ilin ortalarında İraqa beynəlxalq müfəttişlərin qayıtmasını tələb etdi.

Böyük Britaniyanın baş naziri E. Bller 2002–ci ilin aprelində artıq öz ölkəsinin İraqa qarşı gələcək müharibədə iştirakını ilə razılaşdığını bildirdi.İrqa müfəttişlərin gəlməsi ətrafındakı vəziyyəti yay–payız aylarında ABŞ–İraq böhranını daha da kəskinləşdirdi. ABŞ–ın təzyiqi altında BMT TŞ–nın qəbul etdiyi 1441 saylı (2002, noyabr)qətnaməsi ilə Səddam Hüseyn nəhayət, ölkəyə beynəlxalq müfəttişlərin gəlməsi ilə razılaşdı. Komissiya İraqda müharibə başlandığı dövrdəki vəziyyət haqqında dinləyicilərə məlumat verərkən Böyük Britaniya kəşfiyyatçısı Con Sours elan etdi ki, İraq

münaqişəsinin sülh yolu ilə həlli nəticədə Rusiyanın mövqeyinin nəticəsi olaraq mümkün deyildi. Rusiyanın İraqla əlaqədar ticarət maraqlarından irəli gələn narahatlıq Rusiyanın BMT–nin TŞ–da Səddam Hüseyn rejiminə qarşı "ağıllı sanksiya" irəli sürmək təklifini verməsi ilə əlaqədar idi.

2002–2003–cü ililərdə ABŞ administrasiyası böyük səy hesabına Səddam Hüseyn rejiminin beynəlxalq ictimaiyyət üçün təhlükə yaratdığını sübut etməyə çalışırdı.İraq kütləvi qırğın silahları istehsalı etməkdə və beynəlxalq terrorçu təşkilatlarla ilk növbədə " Əl - Qaida" ilə əməkdaşlıqda günahlandırıldı.

ABŞ kəşfiyyatının verdiyi məlumatlar bir–birinə zidd idi. 2002–ci ilin sentyabrın 18–də MKİ–nin (Mərkəzi Kəşfiyyat İdarəsi) direktoru C. Tenet C.Buşa məlumat verirdi ki, Səddam Hüseynə yaxın dairələrin məlumatına görə İraqda kütləvi qırğın silahları yerləşdirilməmişdir.Bu məlumat konqresə verilmədi və bəyənimədi. 2002–ci ilin əvvəllərində MKİ Nigeriyada ABŞ–ın keçirmiş səfiri Cozef Reidson belə bir məlumat təhqiq etməyə başladı ki, guya İran Nigeriyadan uran alır. Təhqiqat apararaq Uilson belə bir nəticəyə gəldi ki, bu müqaviləni təsdiq edən heç bir fakt yoxdur. Bütün bunlara baxmayaraq C. Buş mütəmadi olaraq qeyd edirdi ki, İraq Nigeriyadan uran alır.

2004–cü ildə isə Pauel etiraf edirdi ki, onun söylədiklərinin çoxu dəqiq deyildir və hərdən saxtalaşdırılmış idi. O deyirdi :"Mən 2003–cü ilin fevralında MKİ–nin mənə verdiyi ən yaxşı məlumatı təqdim edirdim. Çox təəssüf ki, müəyyən müddət keçdikdən sonra mənbələr düzgün və dəqiq deyildir. Bu əvvəlcədən planlaşdırılmışdı və səhv idi. Mən buna dərindən kədərlənirəm və təəssüf edirəm".

Təhlükəsizlik Şurası İraqa qarşı silah işlədilməsinə sanksiya vermədi. ABŞ və müttəfiqləri BMT Nizamnaməsini pozdular.

Böyük Britaniyanın 2002–ci ilin iyulunda Böyük Britaniyanın leyborist hökumətinin müşavirəsinə həsr edilmiş və 2005–ci ildə nəşr edilmiş "Dauninq–Strit" memorandumunda göstərilirdi ki, "Buş Səddamı hərbi yolla yıxmaq istəyirdi, lakin o bunu terrorizm və kütləvi qırğın silahı ilə əlaqələndirirdi.2002–ci ilin oktyabrında ABŞ konqresi bu məsələ ilə əlaqədar qətnamə qəbul

etdi. Eyni zamanda ABŞ hərbi hissələri İran körfəzi regionunda yerləşdirildi.Hərbi əməliyyatların 2003–cü ilin yanvar və fevralında başlanması nəzərdə tutulurdu.Eyni zamanda İraqda komissiya qadağan edilmiş silahların axtarışını davam etdirildi. Missiyanın rəhbəri Hans Blinks şikayət edirdi ki, İraq axtarışların keçirilməsində xoşagəlməz hallar yaradır. Gözlənilən hərbi əməliyyatlar bir sıra ölkələrin ictimai və siyasi xadimləri, o cümlədən Fransa prezidenti J. Şirak, AFR kansleri Herhard Şröder və RF prezidenti V. Putin tərəfindən qəti pislənilirdi. Müxtəlif ölkələrdə müharibə əleyhinə kütləvi nümayişlər keçirilirdi.

ABŞ–ın mülki məsuliyyət mərkəzi jurnalistikanın müstəqilliyi uğrunda Fondla birlikdə apardıqları tədqiqatın gedişində hesablamışdılar ki, 2001–ci ilin sentyabrından 2003- cü ilin sentyabrına qədər İraq haqqında ABŞ rəhbərliyi 935 məlumat elan etmişdir. Bundan başqa, Rusiya kəşfiyyatı öyrənmişdir ki, 2001–ci ilin 11 sentyabrından İraq müharibəsinə qədər İraq hakimiyyət orqanları ABŞ əleyhinə yönəldilmiş terror aktı həyata keçirməyi planlaşdırmışdılar. Həmçinin ABŞ da İraqda dövlət çevrilişinə və S. Hüseynin qətlinə hazırlaşırdı.

Bir sıra ölkələrdən, o cümlədən NATO xətti ilə İngiltərə, İspaniya və s. kimi müttəfiqlərdən yardım alan ABŞ 2003–cü ilin martın 20 də İraqa qarşı müharibəyə başladı. Mərkəzi Kəşfiyyat İdarəsinin Yaxın Şərq üzrə keçmiş məsləhətçisi Kennt Pollak 2002 ci ildə nəşr olunmuş “ Tufanın yaxınlaşması: İraqa müdaxilənin əsaslandırılması” adlı kitabında yazmışdı:”Əgər indi S. Hüseynin kütləvi qırğın silahını yaratmasının qarşısı alınmasa, tezliklə İraq əlçatmaz olacaq. Diktatorun təhlükəsizliyi İraqın nüvə bombası və ya digər kütləvi qırğın silahı ilə təmin ediləcək”.

Aparıcı Qərbi Avropa ölkələri əvvəlcə İraqa qarşı müharibədə NATO xətti ilə əsas müttəfiq olan ABŞ–ın müdafiə etmədilər.ABŞ–ı müdafiə etməməsində hər bir Avropa ölkəsinin öz səbəbləri var idi. Lakin tədricən Avropa ölkələri ilə ABŞ arasında müharibə ilə bağlı mübahisə aradan qalxdı.

ABŞ dövlət katibi K. Pauell “İraq problemi” üzrə öz tərəfdarlarını “arzu edilənlərin koalisiyası” (the colaition of illing) adlandırmışdı. 49 ölkə ABŞ–ın İraqdakı müharibəsini müdafiə et-

mişdi. ABŞ əhalisinin 70%-i (respublikaçıların 93%, demokratların 50% - i) hökumətin siyasətini dəstəkləyirdi.ABŞ–ı dəstəkləyən ölkələrdən biri Azərbaycan Respublikası idi.Azərbaycan həm də Əfqanısatndakı antiterror koalisiyasına qoşulmuşdu.

S. Hüseyn rejimi qısa müddətə və asanlıqla darmadağın edildi. 2003–cü ilin aprelin 9–da antiterror koalisiyasının qoşunları Bağdada daxil oldu, mayın 1–də ABŞ prezidenti C. Buş San–Diyeqo rayonunda yerləşən "Avraam Linkoln" adlı aviasiya daşıyan gəmidə çıxış edib İraqda müharibənin əsasən başa çatdığını bildirdi. İraq prezidenti S. Hüseyn həbs və edam edildi.

İraq müharibəsi (2003–cü ilin martın 20–dən 2010–cu ilin sentyabrın 1–dək)ABŞ silahlı qüvvələrinin və onun müttəfiqlərinin Səddam Hüseyn rejimini devirmək üçün İraqa soxulması ilə başlamışdır.

İraqda hərbi əməliyyat 2003–cü ilin mart ayının 20–də başladı. "Onun kodu", "İraqın azadlığı" adlanırdı. Hərdən onu səhv olaraq "Şok və əsmə" də adlandırırlar. Lakin bu ad daha çox hərbi doktrinaya aiddir. Bu doktrina 1996–cı ildə İraqla bağlı olaraq verilmişdir.

Dəniz piyadAları Bağdadın darvazasında Səddam Hüseynin saraylarından birinə 2003–cü ilin aprelin 9 –da daxil oldular.

1991–ci il İran körfəzindəki müharibədən fərqli olaraq bu hadisədən 12 il keçdikdən sonra, demək olar ki, ABŞ və onun müttəfiqləri quruda hücuma başladılar.Onlar uzunmüddətli hava kompaniyası aparmadılar. Bunun üçün plasdarm Küveyt oldu. Koalisiya komandanlığı şimal cəbhəsi də təşkil etməyi məsləhət görürdü. Lakin buna əhəmiyyətli dərəcədə Türkiyə parlamentinin etirazı da mane oldu. Parlament ABŞ qoşunlarının ölkədə yerləşdirilməsinə icazə vermədi. ABŞ və Böyük Britaniyanın beş diviziyası İrqaın 23 divizyası tərəfindən ciddi müqavimətlə qarşılaşdı. İraq Hərbi Hava Qüvvələri tam hərəkətsiz idi. Aprelə yaxın ABŞ qüvvələri Bağdadın yaxınlığında yerləşdilər. Aprelin 9 –da İraqın paytaxtı döyüşsüz tutuldu. Səddam Hüseynin bütün heykəlləri dağıdıldı. Bütün bunlar çoxlu dünya telekompaniyaları tərəfindən efirdə göstərildi. Şimal istiqamətinə hərəkət başlandı. Aprelin 15–də ABŞ–ın qoşunları Tiqriti tutdular, hərbi əməliyyatların aktiv fazası başa

çatdı. Tədricən Bağdad və İraqın digər şəhərlərini tüfeylilik dalğası bürüdü. Müvəqqəti hakimiyyətsizlik şəraitində çoxlu şəxsi evlər, mağazalar və dövlət idarələri qarət edildi. Ayyarım ərazisində koalisiyanın itkisi 172 nəfər oldu. Onlardan 139 nəfəri amerikalı, 33 nəfəri Böyük Britaniyalı idi. Bu dövrdə İraqın itkisi haqqında dəqiq məlumat verilmirdi.Tədqiqatçı Karl Konnetanın verdiyi məlumata görə, hücum zamanı 920 İraq hərbi qulluqçusu və 7300 mülki şəxs həlak olmuşdur.1991–ci ildə verilən itkidən bu müharibədəki itki iki dəfə çox idi.Londonda çıxan "Hardian" qəzeti 2008–ci ildə yazırdı ki, təkcə müharibə başlayandan keçən 10 gün ərzində ABŞ hərbi əməliyyatlara 5 mlrd dollar vəsait sərf etmişdi. Dolayı və birbaşa hərbi xərclər isə bu müharibədə bəşəriyyətə 6 mlrd. dollara başa gəlmişdir ki, onun yarısı ABŞ–ın payına düşür.

2003-cü ilin yazında İraqa hücum zamanı əməliyyatın mərkəzi Doxa (Qatar)şəhərində yerləşirdi. Hərbi əməliyyat sahəsində bütün qüvvələrə ABŞ Mərkəzi komandanlığının komandanı general Tommi Frenks başçılıq edirdi. İyulda onu general Con Abisaid əvəz etdi.

Sonra çoxmilli silahlı qüvvələrə fasiləsiz olaraq aşağıdakı şəxslər komandanlıq etmişdilər: Rikardo Sançes (2003, iyun–2004, iyun).

Corc Keysi (2004, iyun–2008, fevral)

Devid Petrues (2007, fevral–2008, sentyabr)

Reymond Odierno (2008 sentyabrından)

Müharibə ərəfəsində İraqda ABŞ–ın hərəkətlərinə qarşı müxalifət yarandı. 2003–cü ilin yanvarın 20–də Fransanın xarici işlər naziri Dominik de Vilper elan edirdi ki, "Biz belə hesab edirik ki, İraqa hərbi hücum ən pis qərar olacaqdır". Bu dövrdə bütün dünyada İraqda müharibəyə qarşı güclü etirazlar başladı. Fransız alimi Dominik Peinyenin hesablamasına görə 2003–cü ilin yanvarın 3–dən aprelin, 12–dək müharibə əleyhinə çıxışlarda 36 milyon adam iştirak etmişdir. Bütün dünya üzrə 300 iri nümayişlər baş vermişdir. 2003–cü ilin fevralın 15–də ən böyük nümayiçlər keçirilmişdir.

Böyük Britaniya cəmiyyətində də müharibəyə kifayət qədər güclü müxalifət formalaşmışdı. Kütləvi məlumat vasitələrində Toni Bleer və ABŞ–ın siyasəti qətiyyətlə pislənirdi.2003–cü ilin fevralın 15–də Londonda kütləvi antimüharibə nümayişləri keçirilirdi.Müxtəlif məlumatlara görə, çıxışlarda 750 mindən 2 milyona qədər adam iştirak etmişdi.2003 –cü ilin martında Londonda keçirilən sülh xalq assambleyasının konfransında baş nazirin dərhal istefası tələb edildi. Toni Bleerin reytingi 35% - ə qədər düşdü. Ölkə üzrə rəyi soruşulanlardan 62% - I Toni Bleerin İraqdakı siyasətini müdafiə etmədiklərini bildirdilər.

ABŞ prezidenti C. B uş "S- 3" təyyarəsindən yerə enərək təyyarə daşıyan "Avraam Linkoln" gəmisinin göyərtəsində döyüş əməliyyatlarından qayıdanlar qarşısında çıxış edərək təntənəli şəkildə bildirdi ki, "vəzifə yerinə yetirilmişdir". Burada o faktiki olaraq, İraq müharibəsində ABŞ–ın qələbəsini elan etdi.

İraq bir neçə işğal zonasına bölündü: Bağdad "sünni üçbucağı", İraqın şimal rayonları və Əl–Anbarın qərb əyalətləri. Onların hamısına ABŞ qoşunları nəzarət edirdi. Bağdadın cənubunda yerləşən şiələrin yaşadığı rayonlar çoxmillətli divizyaların məsuliyyət zonası hesab edilirdi. Onun tərkibi Polşa, İspaniya, İtaliya, Ukrayna və bir neçə Mərkəzi Amerika ölkələrindən təşkil edilmişdi.

İraqın ucqar cənubunda yerləşən Bəsrədə Britaniya kontingenti yerləşirdi. Müvəqqəti koalisiya inzibati idarəsinə istefada olan general Cem Qarher başçılıq edirdi. Onu mayda Pol Brener əvəz etdi.

İnzibati idarənin əsas vəzifəsi hakimiyyəti yeni İraq hökumətinə vermək üçün lazimi şəraiti yaratmaq idi. Müvvəqəti inzibati idraənin birinci vəzifəsi İraq ordusu və polisini buraxmaq idi.

Müharibə qurtardıqdan sonra İraqı öyrənmək üçün İşçi qrupu fəaliyyətə başladı. O, ilk növbədə kütləvi qırğın silahlarının axtarışına başladı. 2004–cü ildə bu qrupa öz işini qurtardı, yekun hesabatda göstərdi ki, hərbi əməliyyatların başlandığı gündən İraqda kütləvi qırğın silahları tapılmamışdır.

Döyüş əməliyyatları başa çatdıqdan sonra ölkədə partisan müharibəsi başlandı. May ayı ərzində partiyadakılar koalilisiya

qoşunlarına qarşı hücuma keçdi. İyun aylarında ABŞ silahlı qüvvələri birinci əhəmiyyətli əməliyyat həyata keçirdilər. Bu Səddam rejimi devildikdən sonra ilk hərbi əməliyyat idi.O "Yarımada üzrə zərbə" əməliyyatı adlandı. Əvvəllər partizanlar əsasən Səddam Hüseyn tərəfdarlarından və BƏƏS partiyasının fəallarından təşkil edilirdi. Bu qruplaşmalar çoxlu sayda silah və döyüş vasitələri ələ keçirdilər.

Koalisiyaya qarşı partisan hərəkatının təşkili 2003–cü ilin payızında başa çatdı. Bu hərəkat müsəlmanların bayramı Ramazan şərəfinə oktyabr–noyabr aylarında "Ramazan hücumu" adını aldı. Bu dövrdə bir neçə ABŞ təyyarəsi vuruldu. 2003–cü ilin noyabrında koalisyanın 110 hərbi qulluqçusu həlak oldu. Üsyançılar tipik partizan taktikasından–minomyotlardan, sinayperlərdən, ölüməməhkum olanların hücumlarından istifadə edirdilər. Mübarizə vasitələrindən biri də terror aktlarının törədilməsi idi. İlk belə terror aktı 2003–cü ilin avqustunda İordaniya səfirliyində oldu. Terroristlər sonrakı dövrdə Bağdadda BMT–nin mənzil qərargahını dağıtdılar ki, nəticədə ölənlər arsında BMT–nin İraq missiyasının rəhbəri Serjio Vneyr di Mello da var idi. Ən müvəffəqiyyətli terror aktı Nasiriyyə şəhərində 2003–cü ilin noyabrında İtalyan kontingentinin kazarmasında baş verən partlayış idi.

Bu dövrdə koalisiya qüvvələrinin əməliyyatları uğurla davam edirdi. Bir il ərzində köhnə rejimin bir sıra xadimləri tutuldu. İyulun 22–də Mosulda 101–ci hava–desant əsgərlərlə atışmada Səddam Hüseynin oğlanları Udey və Kusey həlak oldular. Dekabrın 13–də Tikrit rayonunda 4–cü piyada diviziyasının hərbi qulluqçuları S. Hüseynin özünü həbs etdilər. Belə hesab edirdilər ki, o partizan hərəkatının ilhamvericilərindən və təşkilatçılarından biridir. Lakin onun həbsindən sonra da partizan hərəkatı sönmədi.

2004–cü ilin fevral–martında İraqda nisbi sabitlik yarandı. Üsyançların hərbi aksiyalarının azalması nəticəsində beynəlxalq koalisyanın itkisi aşağı düşdü. Lakin bu sabitlik aldadıcı idi. Artıq 2004–cü ilin yazında ABŞ və onun müttəfiqlləri Bağdadı götürdükdən sonra sünni partizan hərəkatı və şiə müxalifəti ilə toqquşma oldu.

2003–cü ilin sonunda şiələrin dini və siyasi liderləri ümumi seçkilər keçirilməsi və hakimiyyətin seçilmiş hökumətə verilməsi tələbi ilə çıxış etdilər. onlar belə hesab edirdilər ki, ənənəvi olaraq hakimiyyətdə olan süni azlıqdan (xüsusiilə S.Hüseynin hakimiyyəti dövrü)yaxa qurtara, ölkədə siyasi hakimiyyəti öz əllərinə ala bilərlər. Müvəqqəti koalisiya inzibati idarəsi seçkilərə qədər ölkəni idarə etmək niyyətində idi. ABŞ–ın mövqeyi şiələrin bir qrupunda narazılıq yaratdı. Onların ən radikal nümayəndələrindən biri olan molla Mukatada–Əs–Sədr xarici qoşunların İraqdan çıxarılması, plüarist demoktarik islam dövlətinin yaradılması tələbi ilə çıxış etdi. Əs–Sədr " Mehdi ordusu" adlanan silahlı dəstə təşkil etdi. Bu qruplaşmanın köməyi ilə o çoxmillətli qüvvələrə qarşı üsyan təşkil etməyi qərara aldı.

Şiələrin üsyanı Falludcadakı hadisələrlə üst–üstə düşdü. Bağdadın qərbindəki bu əhali məntəqəsi 2003–cü ilin ortalarında sünni müqavimət hərəkatının əsas dayağı hesab edilirdi. ABŞ döyüşçüləri İraqda xeyli itki verdilər. yazın əvvəllərində buradan 82–ci hava–desant diviziyası köçürüldü və o, dəniz piyadları hissələri ilə əvəz edildi. Onlarla İraq camaatı arasında güclü toqquşmalar oldu. Falludcaya ABŞ qoşunları nəzarət edə bilmirdilər.

Şiə üsyanı aprelin 4–də başlandı və sonrakı bir neçə gündə İraqın cənub və mərkəzinindəki şəhərlərdə güclü toqquşmalar oldu. Eyni zamanda aprelin 5–dən ABŞ piayda qoşunları Falludcaya hücum etdilər. Lakin məlum oldu ki, əməliyyat üçün qüvvələr kifayət deyildir.

Şiə üsyanlarının gözlənilməzliyi ABŞ silahlı qüvvələrinə müəyyən qədər itki versə də, ABŞ qüvvələri aprelin sonunda müqavimətin əsas ocaqlarını söndürə bildilər. Əs–Sədrdə yerləşən En–Nəcəfdə də döyüşlər getdi. Nəhayət, «Mehdi ordusu» atəşin kəsildiyini elan etdi. Falludcada da qarşıdurmalar dayandırıldı. Xüsusi İraq briqadası təşkil edildi ki, şəhərdə asayişə nəzarət etsin. Falluqca üzərində nəzarəti itirdikdən sonra 2004–cü ilin iyulun 28–də Müvəqqəti koalisiya inzibati idarəsi bir neçə şiə şəhərində öz səlahiyyətlərini başda baş nazir Ayyad Allani olamqla İraq keçid hökumətinə verdi. Kağız üzərində İraqın xariclər tərəfindən işğalına son qoyulmuş oldu. Beynəlxalq koalisiyanın qoşunları BMT TŞ–nın (8

iyun 2004–cü ildə qəbul etdiyi) qətnaməsi əsasında BMT–nin mandatı ilə və yeni İraq hökumətinin xahişi ilə qaldılar.Yeni İraq ordusu və təşkili üzrə iş getməyə başladı. Danışıqlar tezliklə pozuldu. İraq hökumətinin təkbaşına ölkəni idarə etməyi bacarmaması nəticəsində 2004–cü ilin noyabrın 8–də ABŞ İraq qüvvələrinin birgə Falludcaya ikinci hücumu başlandı. ABŞ silahlı Qüvvələri üçün bu Vyetnam müharibəsindəki Hyue döyüşündən sonra ən intensiv döyüş oldu. Falludca bu hücumun gedişində çox güclü əzab çəkdi, lakin ayın axırına qədər onlar bütün koalisiya qoşunlarına nəzarət edə bildilər. Lakin ayın sonunda süni partizan hərəkatı özünün başlıca mərkəzindən məhrum oldu.

2005–ci ilin yanvarın 30-da təhlükəsizlik tədbirlərinin güclənməsi şəraitində İraqda yarım əsr ərzində birinci dəfə olaraq çoxpartiyalı parlament seçkiləri keçirildi. Seçki baş tuta bildi. Birləşmiş Şiə İraq Alyansı seçkilərdə qələbə qazandı və 48% səs topladı. Apreldə keçid hökuməti təşkil edildi. Onun qarşısında ölkənin konstitusiyasını hazırlamaq bir vəzifə kimi qoyuldu. Vəziyyət getdikcə pisləşməyə başladı. 2005–ci ilin payızında İraqa gətirilmiş ABŞ–ın dəniz piyadaları sərhəd rayonlarında bir sıra əməliyyatlar, o cümlədən “Matador”, “Polad pərdə” əməliyyatlarını keçirdilər. Bağdadda terror aktları həyata keçirildi. 700–dən çox insan terror aktının qurbanı oldu. Onların arasında yüksək postlarda əyləşən hərbi və dini İraq liderləri də var idi. Buna cavab olaraq ABŞ komandanlığı Bağdadda iri miqyaslı “İldırım” adlı əməliyyat keçirdi. Bu əməliyyatda 40 min ABŞ və İraq hərbi qulluqçusu iştirak edirdi.

Yeni konstitusiyanın hazırlanması prosesində şiə, kürd, digər tərəfdən isə süni partiyaları içərisində ziddiyyətlər meydana çıxdı. Sünnilər dövlətin federal quruluşu məsələsi ilə razılaşmırdılar. Həmçinin onlar BAAS partiyasının ləğvi və İraqın ərəb dünyasına aid etməklə də razılaşmırdılar.Konstitusiya layihəsi əsasən şiə və kürdlərin baxışlarını özündə əks etdirirdi.

İraq cəmiyyətində parçalanma konstitusiyanın qəbulu ilə əlaqədar 2005–ci il oktyabrın 15–də keçirilən referendumda bir daha özünü aydın çəkildə göstərdi.

Konstitusiyanın qəbulundan sonra dekabrın 15–də yeni parlament seçkiləri keçirildi. Ölkənin daimi hökuməti təşkil edildi. Milli yığıncaqda ölkənin birləşmiş İraq Aliyansı yenidən qələbə qazanaraq 128 yer tutdu. Bütün sünni partiyaları 58 yer, kürdlər isə 53 yer aldılar. .

İraqda şiələrin hakimiyyətə gəlməsi islamın cərəyanlarına etiqad edənlərlə şiələr arasındakı münasibətləri kəskinləşdirdi. Sünnilər azlıq təşkil etsələr də, həmişə ölkənin siyasi elitasının əksəriyyətini ənənəvi olaraq təşkil etmişlər. süniləri bürüyən əsas təhlükə ondan ibarət idi ki, İraq ərazisində Şiələr və kürdlər öz suveren dövlətlərini təşkil etsinlər. Belə olan təqdirdə ölkə özünün əsas neft mənbələrindən məhrum ola bilərdi. 2006–cı ildə beynəlxalq koalisiya qüvvələrinə qarşı mübarizə ikinci plana keçdi. Dinlərarası münaqişə zəminində ölkədə həyəcanlar başladı.Şiə və süni məscidləri dağıdıldı, çoxlu dinc iraqlıları oğurladılar və öldürdülər. İraqda vətəndaş müharibəsi başlandı. C. Bu administrasiyası bu formuldan qaçmağa çalışsa da, bu fakt idi. Daxili münaqişələr nəticəsində 365 min iraqlı qaçqın vəziyyətinə düşdü. Zorakılıq nəticəsində hər ay ölkənin 100–dən artıq vətəndaşı həlak oldu.

2006–cı ilin may ayının 20 də İraq birinci dəfə olaraq S. Hüseyn rejimi devrildikdən sonra daimi milli hökumət təşkil etdi. Baş nazir Nuri Məlik oldu. İyunun 7–də beynəlxalq koalisiya qüvvələri üsyançılarla mübarizədə böyük uğur qazandılar. Nəticədə təyyarə zərbəsi nəticəsində həmin ilin iyulunda Mutanna əyaləti üzərində ilk dəfə İraq ordusu onun təhlükəsizliyinin təmin edilməsinin öz üzərinə götürdü.

2006–cı ilin sonunda ABŞ administrasiyası özünün İran siyasətində məcburi köklü dəyişiklər etdi. 2006–cı ilin yadda qalan hadisələrindən biri də keçmiş İraq prezidenti Səddam Hüseynin edamı idi.

2007–ci illin yanvarın 10–da C. Buş İraqa qarşı ABŞ –ın yeni strategiyasını elan etdi. Bunun qeyri–rəsmi adı "İrəliyə yeni yol" adlandırdı.Lakin bu "Böyük dalğa" kimi məşhur idi.O, öz çıxışında göstəririri ki, əvvəllər İraq məsələsində Böyük səhvlər buraxmışdır.İraqda daha çox müvvəfəqiyyətlər qazanmaq üçün çatışmayan

cəhət həm qoşunun sayının, həm də ABŞ komandanlığının sərbəst hərəkətinin lazımi səviyyədə olmamsaı idi. Sərhədləri qorumaq tədbirləri gücləndirildi. Hərbi qulluqçuların sayı 21, 5 min nəfər artırıldı. Bu tədbirlər uzunmüddətli xarakter daşımalı idi. C. Buş qeyd edirdi ki, bizi ağır və qanlı illər gözləyir. Bu həm İraq əhalisi, həm də bizim hərbi qulluqçular içərisində yeni qurbanlara səbəb olacaq.

İqtisadi böhranla yanaşı, ABŞ hökumətini ciddi narahat edən problemlərdən biri İraqdakı vəziyyət idi. İraqdakı müharibəsinin ABŞ üçün maliyyə, humanitar və beynəlxalq cəhətdən baha başa gəldiyi məlum oldu. 2008–ci ilin sonunda İraq müharibəsi ABŞ-a 1 trilyon dollara başa gəlirdi. ABŞ–ın İraqdakı əsgərlərinin sayı 126 min nəfər idi. İraqda ABŞ–ın 4 min nəfər hərbi qulluqçusu həlak olmuş, 30 min nəfəri yaralanmışdı. Müharibənin uzanması ABŞ–ın beynəlxalq mövqelərinin zəifləməsinə, ona etimadın azalmasına səbəb olmuşdu. Xüsusilə islam dünyasında ABŞ–a nifrət artmışdı. 2008–ci ilin dekabrın 31-də 35 ölkədən olan əsgərlərin İraqda qalmasının müddəti başa çatmışdı. Bu vaxta qədər xarici qoşunların İraqda olması BMT Təhlükəsizlik Şurasının qərarına əsaslanırdı. 2008–ci ilin sonundan isə xarici qoşunların İraqda qalması ikitərəfli sazişlə tənzimlənməli idi. ABŞ–la İraq arasında oradakı Amerika əsgərlərinin statusu haqqında saziş 2008–ci ilin payızında imzalanmışdı.Bu saziş ABŞ hərbiçilərinin İraq şəhərlərindən 2009–cu ilin iyunun 31–dək çıxarılmasını nəzərdə tuturdu. İraq hökuməti xahiş etməsə, 2011–ci ilin dekabrın 31–dək ABŞ qoşunları İraq ərazisini tərk etməli idi. Sazişə görə, ABŞ qoşunları İraq qanunlarına tabe deyildi, əgər qanun pozuntusu əsgərin yerləşdiyi hərbi bazadan kənarda baş versə, istintaqda yerli hakimiyyət orqanları iştirak edə bilərdi.

Əfqanıstandakı antiterror əməliyyatlarının da sonu görünmürdü. 2008–ci ilin oktyabrında buradakı ABŞ əsgərlərinin sayı təqribən 32 min nəfər idi. C. Buş hökuməti əsgərlərinin sayını 20–30 min nəfər artırmaq fikrində idi. İraqda və Əfqanıstanda aparılan hərbi əməliyyatlar böyük xərc tələb edirdi.

ABŞ administrasiyasının yeni strategiyası kifayət qədər birmənalı qarşılanmadı.Respublikaçı–senator Çorc Xahel onu “Vyet-

nam müharibəsi zamanında olduğu kimi bu ən təhlükəli xarici siyasət xətti" adlandırmışdı. 2007–ci ildə bir konqresdə İraqda aid olan yeni işlənib hazırlandı. 48 nəfər bu planın lehinə, 60 nəfər isə əleyinə səs verdi.

Bağdadda ABŞ–İraq əməliyyatı "Qanun və intizam" adlandı və bu əməliyyat fevraldan noyabra qədər davam etdi. Əməliyyatın başlanğıcında ABŞ qüvvələri şəhərin 20% - nə nəzarət edirdi. Döyüşçülər xeyli dərəcədə öz fəaliyyətlərini genişləndirdilər. Yanvarın sonu fevralın əvvələrində onlar bir neşə ABŞ təyyarələrini vura bildilər. Müharibə başlandıqdan sonra İraqda həlak olan hərbi qulluqçuların sayı 2007–ci ildə rekord həddinə çatdı. Onların sayı 901 nəfər təşkil edirdi.

2008–ci ildə İraqda nisbi sabitliyin hökm sürməsinin səbəbi "Mehdi ordusu" nun 2004–cü ildə məğlubiyyətindən sonra İranın təsiri ilə onun 2007–ci ilin ortalarında yarım il atəşi kəsməsini elan etməsi idi. 2008–ci ilin əvvəllərində bu müddət daha da uzadıldı. Bu işdə molla Əs–Sədr Muktada–Əs sədrin böyük rolu olmuşdur. "Əl–Qaida" təşkilatının yerləşdiyi yerlər Bağdad, Bəsrə, Mosul idi. Xüsusilə Mosul, ABŞ Tədqiqat idarəsi direktoru Maykl Heydenin fikrinə görə, ölkədə ən təhlükəli şəhər idi. 2008–ci ilin aprelində koalisiya qoşunlarının komandanı Devid Petrens ABŞ konqresindəki çıxışındada göstərirdi ki, biz hələ bu tunelin axrına gəlməmiş və heç bir işıq görmürük. 2008–ci ildə iraqlılardan hər ay ölənlərin sayı xeyli azaldı, 300 nəfərə yaxın idi. Beynəlxalq koalisiya isə 2008–ci ildə 320 nəfər hərbi qulluqçu itirdi.

2009–cu ilin yayında İraqı ABŞ–la müttəfiq ölkələrin sonuncu qoşun kontingenti tərk etdi. Avqustun 1–dən İraqda ancaq ABŞ qoşunları qaldı.

İraqa müdaxilədə iştirak edən ölkələr aşağıdakılar idi:

1) ABŞ–ın 250 min qoşun daxil olmuşdu. 2010–cu ilin avqustun sonu Barak Obamanın əmri ilə orada cəmi 50 min əsgər qalmışdı.

2) Avstraliya–2000 (2009–cu ilin iyulunda çıxarıldı).

3) Azərbaycan–250 (2008–ci ilin dekabrında çıxarıldı).

4) Albaniya–240 (2003–cü ilin aprelindən 2008–ci ilin dekabrına qədər iştirak etmişdir).

5) Ermənistan–50 (2005–ci ilin yanvarından 2008–ci ilin oktyabrına qədər iştirak etmişdir).

6) Bolqarısatn–490 (əsas hissəsi 2005–ci ildə, qalan hissə isə 2008–ci ilin dekabrında çıxarılmışdır).

7) Bosniya və Hersoqovin–40 (2005–ci ilin iyunundan 2008–ci ilin noyabrna qədər iştirak etmişdir).

8) Böyük Britaniya–45000 (2009–cu ilin iyulunda çıxarmışdır)

9) Macarıstan–300 (2003–cü ilin avqustundan 2005–ci ilin martına qədər iştirak etmişdir)

10) Honduras- 370 (2003–cü ilin avqustundan 2005–ci ilin martına qədər iştirak etmişdir)

11) Gürcüstan–2000 (2003–cü ilin avqustundan iştirak etmiş, Cənubi Osetiyadakı münaqişə ilə əlaqədar olaraq2008–ci ilin avqustunda çıxarılmışdır)

12) Danimarka–550 (2003–cü ilin aprelindən 2007–ci ilin dekabrına qədər iştirak etmişdir)

13) Dominikan respublikası - 300 (2004–cü ilin mayında çıxarılımışdır)

14) İslandiya–2 (2003–cü ilin mayında çıxarılmışdır)

15) İspaniya–1300 (2003–cü ilin apreldən iştirak etmiş, 2004–cü ilin 11 mart terror aktından sonra çıxarılmışdır)

16) İtaliya–3200 (2003–cü ilin iyulundan 2006–cı ilin noyabrına qədər iştirak etmişdir)

17) Qazaxıstan–30 (2003–cü ilin sentyabrından 2008–ci ilin oktyabrına qədər iştirak etmişdir)

18) Latviya 140 (2004–cü ilin aprelindən iştirak etmiş, 2008–cü ilin aprelində tamamilə çıxarılmışdır)

19) Litva–120 (2003–cü ilin iyunundan 2007–cü ilin avqustuna qədər iştirak etmişdir)

20) Makedoniya–80 (2003–cü ilin iyulundan 2008–cü ilin noyabrına qədər iştirak etmişdir)

21) Moldaviya–20 (2003–cü ilin sentyabrından 2008–cü ilin dekabrına qədər iştirak etmişdir)

22) Monqolustan–180 (2003–cü ilin avqustundan 2008–cü ilin sentyabrına qədər iştirak etmişdir)

23) Niderland–1350 (2003–cü ilin iyulundan 2005–cü ilin martına qədər iştirak etmişdir)

24) Nikaraqua–230 (2003–cü ilin sentyabrından 2004–cü ilin fevralına qədər iştirak etmişdir)

25) Yeni Zelandiya–60 (2003–cü ilin sentyabrından 2004–cü ilin sentyabrına qədər iştirak etmişdir)

26) Norveç–150 (2003–cü ilin iyulundan 2006–cü ilin avqustuna qədər iştirak etmişdir)

27) Polşa–2500 (2003–cü ilindən, 2008–cü ilin oktyabrına qədər iştirak etmişdir)

28) Portuqaliya–130 (2003–cü ilin noyabrından 2005–cü ilin fevralına qədər iştirak etmişdir)

29) Koreya respublikası–3600 (2003–cü ilin mayınadan 2008–cü ilin dekabrına qədər iştirak etmişdir)

30) Ruminya–730 (2003–cü ilin iyulundan 2009–cu ilin iyuluna qədər iştirak etmişdir)

31) Salvador–380 (2003–cü ilin avqustundan 2009–cu ilin yanvarına qədər iştirak etmişdir)

32) Sinqapur–160 (2003–cü ilin dekabrından 2004–cü ilin sonunadək iştirak etmişdir)

33) Slovakiya–110 (2003–cü ilin avqustundan 2007–cu ilin yanvarına qədər iştirak etmişdir)

34) Tailand–420 (2003–cü ilin avqustundan 2004–cu ilin avqustuna qədər iştirak etmişdir)

35) Tonqo–60 (2004– cü ilin dekabrından 2008–cü ilin dekabrına qədər iştirak etmişdir)

36) Ukrayna–1650 (2003–cü ilin avqustundan 2008–cü ilin dekabrına qədər iştirak etmişdir)

37) Filippin–50 (2003–cü ilin iyulundan 2004–cu ilin iyuluna qədər iştirak etmişdir)

38) Çexiya–300 (2003–cü ilin dekabrından 2004–cü ilin iyuluna qədər iştirak etmişdir)

39) Estoniya–40 (2005–cü ilin iyulundan 2009–cu ilin fevralına qədər iştirak etmişdir)

40) Yaponiya–600 (2003–cü ilin yanvarından 2006–cu ilin iyuluna qədər iştirak etmişdir)

Ümumiyyətlə, 2003–cü ilin martın 27–də təşkil edilmiş koalisiyada 49 ölkə iştirak etmişdir.

2010–cu ilin dekabrın 6–na qədər İraq müharibəsində ABŞ–dan 4432 nəfər ölmüş, 32 min nəfər yaralanmışdı. O cümlədən ABŞ 2003–cü ildə 486, 2004–cü ildə 849, 2005–ci ildə 846, 2006–cı ildə 822; 2007–ci ildə 804, 2008–ci ildə 314, 2009–cu ildə 149, 2010–cu ildə 52 nəfər hərbi qulluqçu itirmişdi.

Koalisiyada iştirak edən 21 ölkənin hərbi kontingentindən 1sə 137 hərbi qulluqçu həlak olmuşdu ki, onlardan 179–u İngiltərədən idi.

Hesablamalara görə bu müharibə nəticəsində İraqda həlak olmuş 733 158 nəfərdən 1446 063- ə qədəri dinc sakin idi. Ailələrin 20,21 % - I həlak olmuşdur. İraqda isə o zaman 405 milyon ailə var idi. Digər bir hesablamaya görə isə İraqdan 89 612–dən 97 840–a qədər dinc sakin həlak olmuşdu. Ümumdünya səhiyyə təşkilatının hesablamasına görə isə 2006–cıı ilə qədər İraqdan 10400–dən, 223000 - ə qədər dinc əhali həlak olmuşdur. ABŞ–ın İraqdakı əməliyyatına dair sənədlərdə isə göstərilir ki, 2010–cu ilə qədər İraqdan 66000 dinc sakin həlak olmuşdur.

İraq müharibəsi zamanı fosforlu aşılayıcı bombalardan və digər kimyəvi silahlardan istifadə edilmişdir. Bu silahlar 150 metr radiusda bütün canlıları məhv etmək gücünə malik idi. Təkcə Əf–Fəlludca əməliyyatı zamanı 1200 partizan öldürüldü.Halbuki BMT–nin qəbul etdiyi konvensiyaya əsasən bu silahlardan istifadə qadağan edilmişdi.

2004–cü ilin əvvələrindən 2005–ci ilin ortalarına qədər 12 min iraklı terror aktı nəticəsində öldürülmüşdür. İraqda BMT–nin ştab–mənzilindəki partlayış nəticəsində 2 Əlcazair və Misir vətəndaşı, beş Rusiya diplomatı həlak olmuşdur.

Bu müharibə nəticəsində İraq regional dövlət kimi öz əhəmiyyətini itirsə də, ABŞ–ın da qələbəsi o qədər də ürək açan deyildi. Bu qələbə ABŞ–a böyük hərbi xərclər və xeyli insan itkisi hesabına başa gəldi. ABŞ İraqda Səddam Hüseyn rejimini devirsə də, sülhə nail olmağı bacarmadı.

## III. ABŞ-ın Qafqaz siyasəti

Dünyadüzəninin geosiyasi strukturundakı dərin keyfiyyət dəyişikliklərinə ən güclü stimul olan dünya sisteminin dağılması kimi geosiyasi dəyişikliyi müasir dövrdə geosiyasi iqnilab da adlandırırlar.

SSRİ-nin dağılması, dünyanın ikiqütblükdən çoxqütblülüyə keçməsi; yeni dünya quruculuğunda ABŞ-ın vahid mərkəzi qüvvə olmağa can atması; dünyanın siyasi arenasında transformasiya (yerdəyişmə) proseslərinin sonrakı inkişafı; ölkədaxili etnik və digər münaqişələrin qlobal və milli təhlükəsizliyə qorxu törətməsi müasir geosiyasi inqilabın əsas parametrləri hesab edilir.

Məhz bu baxımdan müasir dövrdə Qafqaz regionu beynəlxalq münasibətlərin əsas subyektlərindən birinə çevrilmişdir. Bu regiona Rusiyanın imperiya nəzarətindən çıxıb müstəqilik qazanmış Azərbaycan, Gürcüstan, Ermənistan və hələ də Rusiyanın hakimiyyəti altında olan Şimali Qafqazın çoxlu xırda etnik anklavları daxildir. Regionda müxtəlif mədəniyyətlərin, dil qruplarının, konfessiaların (dini məzhəblərin), mədəni-tarixi cəmiyyətlərin çoxluğu və s. kimi Qafqazın spesifik xüsusiyyətləri onu ən narahat, ziddiyyətli qarşüdarmalar və münaqişələr bölgəsinə çevirir.

Qafqazın sakinləri: gürcülər, Dağıstanın dağlı xalqları, vayxanalar, adıgeylər – qafqaz-iber dil ailəsinə; azərbaycanlılar, kumuklar, noqaylar, qaraçaylar və balkarlar – türk dil ailəsinə; esetinlər, talışlar, ermənilər – hind-avropa dil ailəsinə aid edilir. Gürcülərdə - provoslavlığa; ermənilərdə - xristianlığın monofizit qoluna;  Dağıstan xalqlarında, vayxanalarda və adıgeylərdə islamın sünni məzhəbinə, azərbaycanlılarda şiəliyə və sünniliyə, tatlarda iudaizmə ibadət olunur. Bu rəngarənglik bölgənin siyasi ab-havasının kənar qüvvələrin təsiri altında tez-tez dəyişilməsinə imkan yaradır. Həmçinin bu müxtəliflik daim etnoslar arasında qarşıdurmalarla, ziddiyyətlərlə xarakterizə olunaraq regionun bütövlüyünə zərbə vurur.

“Kəskin etnik və dini qarşıdurmalar nəticəsində daxildən parçalanmış  bu region daim Rusiyanın, Türkiyənin və İranın təsir dairəsi uğrunda mübarizə mərkəzinə çevrilmiş hazırda bu köhnə

mübarizəyə Xəzər dənizinin enerji resurslarının bölünməsi ətrafında intensiv rəqabət də əlavə olunmuşdur”.

Qafqaz məsələsində ABŞ Türkiyənin müdafiəçisi kimi göstərilsə də, əslində Türkiyə ABŞ-ın Qafqaz siyasətinin ən fəal oyunçusu kimi çıxış edir. Bu siyasət əslində Rusiya və İranı regiondan uzaqlaşdırmağa istiqamətlənmişdir.

Hazırda bu regiona ididaçı olan dövlətlərin heç biri təklikdə bu regionu öz iradəsinə tabe etmək gücündə deyildir. Bu dövlətlərin ikisi (Rusiya və İran) digərinə qarşı birlikdə çıxış etmək istəsələr də belə, bu mümkün deyildir. Çünki ABŞ dərhal Türkiyəni müdafiə edəcəkdir. Kənardan müdaxilə Qafqazda sosial, siyasi, etnik və dini münaqişələrin 1990-cı ildən bəri bir neçə dəfə baş verməsinə gətirib çıxarmışdır. Bu vəziyyət Rusiyanı Qafqazı daha sabit və inkişaf etmiş bir regiona çevirmək istiqaməti götürmüş avroatlantik qurumla birilkdə hərəkət etməyə məcbur edir.

Qafqazın siyasi xəritəsinin konturları, tarixi keçmişdə onunla qonşu olan müxtəlif imperiyaların arasındakı onun üstündə mübarizəsi nəticəsində Qafqaz anlayışı bütövlükdə heç bir zaman siyasi məzmun daşımamışlar.

Qafqaz həmişə gah İran, gah Türkiyə, gah da Rusiyanın təsiri altına düşmüşdü. Hər iki və ya hər üç dövlətin ərazi vahidinə çevrilirdi.

Qafqazda inzibati-ərazi sərhədlərinin əsassız təyini bu regionda çoxlu münaqişələrə yol açmışdır. Bu özünü indi də birüzə verməkdə davam edir. XX əsrin sonlarından başlanmış erməni-azərbaycan, gürcü-abxaz, gürcü-cənubi osetin ziddiyyətləri əvvəl münaqişələrə, sonra isə qanlı müharibələrə çevrildi. İki çeçen-rus müharibəsi, osetin-inquş qarşıdurması çoxlu insan itkisinə və dağıntılara gətirib çıxartdı.

Tarix göstərir ki, mərkəzi hakimiyyət zəifləyən zaman ölkədə mərkəzdənqaçma meylləri sürələnir. Digər tərəfdən də ölkənin bu və ya başqa regionda milli münaqişələr gərginləşir. Məhz Sovet imperiyasının zəifləyib çökməsi də bu təzahürlərlə müşayiət olundu.

Lakin özünü SSRİ-nin varisi hesab edən Rusiya onun üçün geosiyasi əhəmiyyət daşıyan bir çox regionları əldən verməmək üçün həmin əraziləri öz təsir dairəsində saxlamağa çalışır.

XX əsrin sonu XXI əsrin əvvəllərində Qafqaz regionunun geosiyasi əhəmiyyətinin artmasının səbəbləri ilk növbədə Qafqazın (geniş mənada Qafqaz-Xəzər-Qara dəniz regionu) zəngin təbii sərvətlərə (ən çox karbohidrogen xammalı) malik bir bölgə olması, bu bölgənin gələcəkdə "Şərq-Qərb" və "Şimal-Cənub" xətti üzrə mühüm transmilli nəqliyyat qovşağına çevrilib və fars körfəzinin neft emalı öklələrinə alternativ təşkil edə bilməsi, geosiyasi nöqteyi-nəzərdən Qafqazın Rusiyanın ən kövrək yeri və "yumşaq qarınaltısı" olması ilə əlaqədardır. Bu həm də Qafqazın dünya siyasətinin lokal, regional və qlobal maraqlarının hökm sürdüyü və toqquşduğu ən mühüm mərkəzlərdən birinə çevrilməsi ilə əlaqədardır. Burada təsir dairələri uğrunda Rusiya, ABŞ, Qərbi Arvopa ölkələri, Türkiyə və İran mübarizə aparması.

Bütün bunlarla yanaşı Qafqaz regionu "Rusiya Balkanları"na və "qeyri=-sabit Avrasiya qurşağı"nda möhkəmlənmiş həlqəyə çevrilə bilər.

Xəzər ətarfında oyun 1992-ci ildə beynəlxalq neft konsorsiumu AMOKO-nun Xəzər neftinin dünya bazarına nəqlini (ildə 68 mln.ton) reallaşdıracaq Tbilisi-Bakı-Ceyhan neft kəmərinin tikintisi ilə başlandı. Bu kəmərin Rusiyadan yan keçərək Qərbə uzanmasına Moskva heç vəchlə rəvac verə bilməzdi, ona görə də kəmərin səmtini Novorossiyskə tərəf dəyişmək planı cızırdı. Lakin bu vaxt Rusiyanı Xəzər dənizi ilə birləşdirən yeganə Kizlar-Qroznı-Novorossiysk neft kəməri Çeçen-İskeriyanın ərazisindən keçirdi (Qrodenski).

Bildiyimiz kimi, Yaxın Şərqdən sonra ən zəngin və keyfiyyətli neft yataqları Xəzər zonasında yerləşir. Ekspertlərin fikrincə, Xəzər regionu yaxın gələcəkdə neft və qaz emalına görə Yaxın Şərq və Sibirdən sonra üçüncü yerəə çıxacaqdır.

Ümumiyyətlə, dünya neftinin yarıdan çoxu "böyük beşliyə aiddir. Onlardjan bəzisi Qərbdən tam asılıdır (Küveyt), bəzisi isə sərbəst və nəzarətsiz neftini sata bilmir (İraq)".

Neft bazarı iqtisadiyyatının yazılmış və yazılmamış qanunlarına tabe olmayan yeganə bazardır.

Neft qədər siyasiləşən, qloballaşan ikinci strateji məhsul yoxduur. II Dünya müharibəsindən sonra baş verən müharibələrin çoxunun təməlində neft faktoru durur.

Geosiyasətdə belə bir prinsip fəaliyyət göstərir ki, rəqibini mümkün qədər pis vəziyyətə salmalı və əgər o belə bir vəziyyətdədirsə ona kömək göstərməməlisən. İran, İraq, Livan – dünyanın 20% neft və qaz ehtiyatlarının cəmləşdiyi bu ölkələr ABŞ-ın tərəfində olmadığı üçün "terrorizmi dəstəkləyən", insan haqlarının və demokratiyanın pozulduğu ölkələr hesab edilir. BƏƏ, Küveyt, Səudiyyə Ərəbistanı – ABŞ-ın tərəfdaşı olduqları üçün bk öklələrdə münaqişə ocaqları yoxdur.

İndi ABŞ-ın planının dünya neft ehtiyatlarını ələ keçirmək və onun birinci növbədə ABŞ-ın maraqları üçün istifadəsini təmin etmək olduğu aydındır. Bu şübhəsizdir.

Rusların fikrincə, Rusiya ABŞ-ın subyekti yox, obyektidir. ABŞ Rusiyanı İslam dünyasından, Qərbi Avropa isə ABŞ-dan xammal cəhətdən asılı olmamaq üçün təminatçı kimi görür. Deməli, Avropa, Rusiyadan ABŞ-ın üstünlüyünü, ABŞ isə Aİ-nin və Aİ-də Almaniyanın üstünlüyünü ləğv etmək üçün istifadə etmək niyyəti güdür.

Bu "qlobal oyun"da Rusiya da öz konsepsiyaları ilə çıxış edir. Rus siyasətçilərinin bəzilərinin fikrincə, Rusiya öz kiçik oyununu oynamalıdır. Digər neft xammalçılarını ağır ticarət müqavilələrindən qorumalı, OPEK-lə birləşib bütün neft ixracatçılarını onun ətrafında birləşdirməli, İraqla Səudiyyə Ərəbistanını yaxınlaşdırmalı, İranla əlaqələri möhkəmləndirməlidir. Bu işdə Rusiya Qafqazda özünün ən yaxın müttəfiqi Ermənistandan istifadə etməlidir.

Deməli, Qafqaz həm Rusiyanın, həm də ABŞ-ın həm siyasi, həm də iqtisadi maraqlar sferasına daxildir.

Rusiya bu regionda Qərbin təsirini azaltmaq və Xəzər neftinin daşınmasına nəzarət etməklə burada öz mövqelərini möhkəmlətmək niyyəti güdür. Rusiya üçün Qafqaza nəzarət radikal müsəlman ideyalarının hərəkət təhlükəsizliyini təmin edir.

ABŞ üçün isə bu, iki mühüm məsələnin həllinə imkan yaradır. Birincisi, Qərbin ərəb neftindən asılılığını azaldacaq Xəzərin iri neft rayonları onun nəzarəti altına keçir; ikincisi isə Rusiyanı iqtisadi və siyasi cəhətdən zəiflədir, neft tranziti sayəsində Rusiyanın ərazisindən istifadə etməməklə Ukraynada Rusiyanın təsirini zəiflədilməsini təmin etməyə imkan yaradır (Ukrayna, tamamilə rus enerjidaşıyıcılarından asılı vəziyyətdədir).

Qafqaz Rusiyanın "Axilles dabanı"dır: onu hədəfə almaq Rusiyanı məğlub etmək deməkdir.

Bunun üçün ABŞ ilk növbədə Türkiyə kartından geniş istifadə edir. Rusiya Türkiyəni onun |mumi təhlükəsizliyinə qorxu tXrədən, onõn c˙nub regionunu nəzarətə almaa can atan bir q|vvə kimi görür. Türkiyə isə öz din və dil qardaşlarını Rusiya zülmündYn azad edəcək bir xilaskar kim çıxış edir. Rusiya isə "ilanı Seyid Əhməd əli tutmaq" istəyərək İranı Türkiyəyə qarşı qıcıqlandırır. Türkiyə, Qafqazda və Mərkəzi Asiyada təsir dairəsinin genişlənməsinə şərait yaradan bir sıra amillərə sahibdir ki, digər rəqiblərində bu yoxdur. Etnolinqvistik nöqteyi-nəzərdən bu regionun türkdilli xalqları ilə kökləri dərinə gedən qohumluğu mövcuddur. Türkiyə özünü qeyri-müəyyən şəkildə səpələnmiş türkdilli ölkələrin potensial lideri kimi görür. Deməli, göstərilən regionda ideoloji cəbhədə Türkiyə həm ABŞ, həm də Rusiyanı qabaqlayır. İranda məzhəb fərqi, Səudiyyə Ərəbistanında isə dini radikolizm onları bir addım geri atır.

Türkiyənin müasir inkişaf səviyyəsi, dil qohumluğu, cəlbedici iqtisadiyyatı, xüsusi iqtisadi imkanları şərait yaradır ki, göstərilən regionda türk millətinin formalaşması prosesinə güclü təsir göstərsin. Bu isə nəinki Rusiyanı, İranı, Avropa ölkələrini, hətta ABŞ-ı da düşünməyə vadar edir. Türkiyəni "Avropa süfrəsi"nə buraxmamaqla Qərb, onun şərqə doğru meylini artırır. Məhz son zamanlaarda Türkiyənin Yaxın Sərqdə getdikcə fəallaşması buna sübutdur. Almaniya və Fransadan sonra artıq Türkiyə də geosiyasi məkanda özünə sərbəst mövqe axtarışındadır.

Yaxın Şərqin iri neft ehtiyatlarına çıxışı təmin edən müsəlman və xristian mədəniyyətlərinin sərhədində yerləşən Qafqaz regionunda nəzarəti bərqərar etmək uğrunda mübarizə artıq öz fəal

fazasına çatmışdır. Bu mübarizə iri hərbi münaqişələrə də gətirib çıxara bilər.

## ABŞ-ın Cənubi Qafqaz siyasəti

Beynəlxalq münasibətlər sistemində Cənubi Qafqazın oynadığı rol müasir dünyanın siyasi və iqtisadi sferalarında Qafqaz amilinin mühüm əhəmiyyətini önə çıxardır. Ayrıca bir region kimi Cənubi Qafqaz dünyanın siyasi xəritəsinə SSRİ dağıldıqdan sonra daxil olmuşdur. Belə ki, regionu təmsil edən Azərbaycan, Gürcüstan və Ermənistan müstəqililk qazanaraq beynəlxalq cəmiyyətin tam hüquqlu üzvünə çevrilmişdir. o dövrdən etibarən çox da böyük əraziyə malik olmayan bu region aparıcı dünya və regional dövlətlərin diqqət mərkəzindədir.

Cənubi Qafqaz mühüm geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyan bir regiondur. o öz coğrafi vəziyyətinə görə regionl siyasi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Rusiya ilə ABŞ və Qərbi Avropa ittifaqları arasında siyasi mübarizə meydanlarından biridir. Cənubi Qafqaz ABŞ başda olmaqla NATO-nun Rusiya ətrafında yaratdığı hərbi-siyasi "təhlükəsizlik qurşağı" ərazisinin əsas zonalarından biridir. Rusiyanın ABŞ və Böyük Britaniyadan da əsas qorxduğu coğrafi istiqamət məkanları mövcuddur ki, bunlardan birincisi Şərqi Avropa, ikincisi Cənubi Qafqazdır. Cənubi Qafqaza Qara dəniz bölgəsini də əlavə etmək olar.

Rusiya əgər Sərqi Avropa istiqamətindən daha çox iqitsadi təzyiqlərə görə ehtiyat edirsə, Cənubi Qafqaz Rusiyanın parçalanmasına dəstək vermək baxımından ABŞ və Avropa dövlətləri üçün ən əhəmiyyətli coğrafi məkandıır.

Qafqaz bölgəsi öz etnik tərkibinə və siyasi fəallığına görə Rusiya üçün ən təhlükəli bir bölgədir. Rusiya Şərqi Avropa üçün keçirmədiyi narahatçılığı burada keçirir. Buna bazmayaraq, Rusiya özünü Qafqaz dövləti sayır və hesab edir ki, onun iştirakı olmadan bu bölgədə təhlükəsizliyin təmin edilməsi mümkün deyildir.

ABŞ-ın Qafqazdakı maraq dairəsi ildən-ilə genişlənir və bu regionun dövlətləri amerikan siyasətinin daimi obyektinə çevrilirlər. SSRİ dağıldıqdan sonra Vaşinqtonun Qafqaz siyasəti regiondan Rusiya və İranı uzaqlaşdırmağa istiqamətləndirilmişdir.

Son inililklərdə Cənubi Qafqazda siyasi vəziyyət gərgin olaraq qalır. Bu regiona daxil olan qeyri-stabilliyin üç əsas amili xarakterikdir: qlobal (müxtəlif xarici qüvvələrin təzyiqi) regionlararası (ərazi münaqişələri və milli azlıqların vəziyyəti) və daxili (siyasi inkişafın neqativ dinamikası).

Qloballıq əsasən bu bölgədə regiondankənar "oyunçuların" hər şeydən əvvəl Rusiya, ABŞ, Aİ, NATO, İran və s. güclərin bilavasitə təsiri ilə ölçülür.

ABŞ-ın Qafqazda hərbi təsirinin artması rus siyasətçilərini ciddi narahat edir. bunun qarşısını almaq üçün o bir sıra tədbirlər planı hazırlayır. Bu, bölgədə Rusiya hətta özünün "parçala, hökm sür!" prinsiplərindən də əl çəkməyə razıdır.

Bunun əvəzində isə Cənubi Qafqazda uzunmüddətli kollektiv təhlükəsizlik sistemini qurmaq niyyətindədir. Çünki, Rusiya anlayır ki, ABŞ bu bölgədəki regional münaqişələrin həllinə kömək göstərə bilər və keçmiş Rusi imperiyasının sərhədlərində öz sabitliyini və təhlükəsizliyini bərpa edə bilər.

ABŞ-ın Cənubi Qafqazla bağlı siyasətini bu regionun siyasi-iqtisadi inkişafına görə üç mərhələyə bölmək olar:

Birinci mərhələ 1990-cı ildən 1994-cü ilədək olan dövrü əhatə edir. Bu mərhələdə ABŞ-ın Cənubi Qafqazın ölkələrinə münasibəti bir qədər ləng xarakter daşıyırdı. Onu bu bölgədəki fəaliyyəti Rusiyanın "qarşısını almaq" üçün Türkiyənin imkanlarından istifadə etməklə məhdudlaşırdı.

Bu dövrdə ABŞ-ın qarşısında duran əsas məsələ regiona daxil olan bu üç respublikanı Avroatlantik məkana inteqrasiya etməkdən "Rusiya rudimentlərini" bu ərazidə tamamilə yerləşdirməkdən ibarət idi. Belə ki, 1990-cı ildə Cənubi Qafqaz respublikalarının NATO ilə əlaqələrinin əsas qoyuldu. 1991-ci ilin dekabrında Şimaliatlantika Əməkdaşlıq Şurası yaradıldı. NATO-nun daxilindəki təşkilati dəyişiklik VMT-nin üzvü olmuş ölkələrlə və Cənubi Qafqazın müstəqililik qazanmış respubilkaları ilə sıx siyasi əlaqələr yaradılmasına gətirib çıxartdı. 1992-ci ildə Azərbaycan, Gürcüstan və Ermənistan NATO Əməkdaşlıq Şurasının üzvü oldular. 1994-cü ildə Cənubi Qafqaz ölkələri NATO-nun « Sülh Naminə Tərəfdaşlıq» layihəsinə qoşuldular. 1994-2001-ci illəri əhatə edən

ikinci mərhələ daha əlamətdardır. 1994-cü ilin sentyabrında “Əsrin Müqaviləsi” adını almış neıt müqaviləsinin imzalanması ABŞ-ın bu bölgədəki siyasətini fəallaşdırdı. Bununla belə, Cənubi Qafqazın ayrı-ayrı dövlətlərinə münasibətdə ABŞ-ın siyasəti bir-biri ilə uzlaşmayan, ziddiyyətli xarakter daşıyırdı. Bu isə ABŞ-da müxtəlif qrupların bir-birinə zidd maraqları, Azərbaycan və erməni lobbisinin ABŞ Konqresinin qətnamələrinin qəbuluna göstərdiyi müxtəlif təziyiqlərlə izah olunurdu.

2001-ci ildən müasir günümüzədək davam edən üçüncü mərhələdə 2001-ci il 11 sentyabr hadisələrindən sonra Cənubi Qafqazdaa ABŞ-ın strateji məqsədləri dəyişikliyə uğradı. İndi ABŞ bu bölgəyə Yaxın və Orta Şərqdə yeritdiyi siyasətin tərkib hissəsi kimi baxmağa başladı. Bu siyasətin əsasını Yaxın və Orta Şərqdə ABŞ-ın nüfuzunun möhkəmlənməsi və terrorizmə qarşı mübarizədə ümumi məsələlərin birgə həlli təşkil edir.

Artıq bu mərhələdə Xəzər hövzəsinin enerji ehtiyatları əlavə xammal mənbəyi kimi deyil, dünyada neft qiymətlərinin minimum həddini tənzimləyən bir vasitə kimi böyük əhəmiyyət daşıyır.

2001-ci ilin oktyabrında konqresin dinləmə materiallarına əsasən müəyyən etmək olar ki, ABŞ-ın strateji maraqalrı, onların Fars körfəzinə alternativ olaraq NİDB-nin üzvü olmayan Xəzər regionunun enerji tədarükü ilə məşğul olan ölkələrinin fəaliyyət dairəsini genişləndirmək, Cənubi Qafqaz dövlətlərinin müstəqilliyinə dəstək verərək onların demokratiya yolunda irəliləyişini genişləndirmək proqramı ilə üst-üstə düşür.

ABŞ hazırda Cənubi Qafqaz siyasətinə Balkanlardan Mərkəzi Asiyaya qədər geniş ərazini əhatə edəcək sabitlik zonasının yaradılması və NATO-nun Mərkəzi və Şərqi Avropaya doğru genişlənməsinə göstərdiyi geniş strateji səyin bir hissəsi kimi baxır. Bunu Ermənistana və Gürcüstana göstərilən maliyyə dəstəyinin miqyası bir daha təsdiqləyir. Bu ölkələr dünya üzrə ən böyük maliyyə dəstəyi alan ölkələr sırasındadırlar.

NATO-nun tədricən regiona müdaxiləsi həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin mühafizəsi məsələsi ilə əlaqəlidir. 2004-cü ildən başlayaraq Gürcüstanda həyata keçirilən “Təlim və təchizat” proqramının dəyəri 64 mln. dollar təşkil edir.

## Gürcüstan

1990-cı ildə dünyanın iki super gücündən birinin çökməsi, tək qütblülüyün yaranması Rusiya ilə ABŞ arasında soyuq yelləri yenidən əsdirdi. Bunun əsasında Rusiyanın ABŞ-ın dünya hegemonluq siyasəti ilə barışmaması, keçmiş SSRİ respubilkalarında və Şərqi Avropada öz əvvəlki iqtisadi və siyasi nüfuzunu bərpa etmək siyasəti dururdu. Belə ki, SSRİ dağıldıqdan sonra Rusiya keçmiş postsovet respublikalarını əldən verməmək, onların Qərbə inteqrasiyasının qarşısını almaq üçün MDB-ni yaratdı. Çünki Rusiya keçmiş SSRİ dövlətlərinin Qərbi nteqarsiyasını qısqanclıqla qəbul edir və bu dövlətlərin, xüsusilə NATO ittifaqı ilə hərbi-siyasi əməkdaşlıqlarını öz dövləti üçün təhlükə hesab edirdi. Bu baxımdan NATO-nun Rusiya ətarfında yaratdığı "təhlükəsilik qurşağı"na qarşı bir çox keçmiş postsovet respublikalarından ibarət yaratmış olduğu "sərhəd təhlükəsizliyi zonası"nı genişləndirmək istəyirdi Rusiya harada bu istəyini həyata keçirə bilməyəndə oraya müxtəlif iqtisadi və siyasi təzyiq metodlarından və hərbi gücdən istifadə edir. Rusiya ilk növbədə Cənubi Qafqazı öz siyasi və hərbi nəzarəti altına almaq istəyir və bu regionun Qərbdə əməkdaşlığının baş tutmasına çalışır.

Gürcüstan keçmiş postsovet məkanında Rusiya ilə münasibətləri kəskinləşdirən ilk respublikalardandır. Onun Qərb yönümlü siyasət götürməsi Rusiyanı narahat etməyə bilməzdi.

Gürcüstan Rusiya ilə sərhəddə yerləşdiyinə görə Rusiya üçün coğrayi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu respubilkanın Qara dəniz sahillərində yerləşməsi Cənubi Qafqazın Türkiyə və Qərbə, xüsusilə də ABŞ-a inteqrasiyasında mühüm rol oynayır. Eyni zamanda bu region Mərkəzi Asiyanın gələcək regional layihələrinin Qərbə inteqarsiyasında həlledici tranzit mövqeyə malikdir.

Gürcüstanın Qərbyönümlü siyasət götürməsi respublikada Rusiya tərəfindən etnosiyasi gərginliyin qızışdırılmasına, rus-gürcü müharibəsinə səbəb oldu.

SSRİ dağıldıqdan sonra dünya dövlətləri onun tərkibindəə olmuş müttəfiq respublikaların ərazilərini olduğu sərhədlərdə qəbul edərək bu respubilkaların müstəqililiyini tanıdılar. Bu prizmadan yanaşanda həm Abxaziya, həm də Cənubi Osetiya Gürcüstanın

hüquqi əraziləridir. 1992-ci ildən başalyaraq neçə illərdir ki, Gürcüstan öz ərazi bütövlüyünü bərpa etməyə çalışır. Bu onun konstitusiya hüququdur. Bu hüququnu təmin etmək üçün güc tətbiq etməsi də normal haldır.

Abxazlar Şimali Qafqazın qərb hissəsində məskunlaşmış çərkəzlərlə, kobardinlərlə və adıgeylərlə qohum xalqdır. Avropa və Asiyanın qovuşuğunda yerləşən abxazlar dünya ticarət və strateji yollarının kəsişdiyi, xüsusi əlverişli təbii şəraiti olan ərazidə məskunlaşmışlar. Rus imperiyası dağıldıqdan sonra Abxaziya 1918-ci ilin mayından Gürcüstan Respublikasının tərkibinə daxil edilmişdir. 1921-ci ilin martın 4-də "Qızıl" ordunun köməyi ilə Abxaziyada Gürcüstanın hakimiyyəti ləğv edildi. 1921-ci ilin martın 31-də Abxaziya müstəqil Sovet Sosialist Respublikası elan edildi. 1921-ci ilin dekabrında RSFSR-də milli siyasətin həyata keçirilməsinə rəhbərlik edən İ.Stalinin təkidilə GSSR və ASSR arasında hüquqi-dövlət münasibətlərinin əsası qoyuldu. 1931-ci ildə Abxaziya Gürcüstan SSR-in tərkibində muxtar respublikaya çevrildi. Bundan sonra gürcülər Abxaziyada demoqrafik vəziyyəti dəyişmək siyasəti həyata keçirməyə başladılar. Bu iki üsulla: məcburi assimilyasiya və gürcü millətinin Abxaziyaya kütləvi köçməsi ilə həyata keçirilirdi.

Lakin SSRİ ağıldıqdan sonra Rusiya bu muxtar qurumu öz təsir zonasına aid etməyə çalışdı. Buna nail olmaq üçün isə SSRİ-nin federasiya subyektləri hesab olunur. Bundan məqsəd SSRİ dağıldığı təqdirdə bu subyektlərdə Rusiyanın təsirini saxlamaqdan ibarət idi. Abxaziya bundan istifadə edərək 1990-cı ilin avqustun 25-də dövlət suverenliyi haqqında Bəyənnamə qəbul etdi. Bu isə Gürcüstan ilə Abxaziya arasında münasibətləri gərginləşdirdi.

Z.Qamsakurdiyanın hakimiyyətə gəlişilə Gürcüstanın dövlət müstəqililyi əldə edilməsi uğrunda mübarizəsi genişləndi. 1991-ci ilin aprelində Gürcüstunda referendumun nəticələrinə əsasən Gürcüstanın dövlət müstəqililyi haqqında Akt qəbul edildi. Gürcüstan 1918-1921-ci illərdəki GDR-in qanuni varisi elan edildi. Lakin Rusiya tərəfindən qızışdırılan Abxaziya SSR-in Ali Sovetinin sədri V.Ardzinba bununla razılaşmayaraq BMT-yə müraciət etdi. 1992-ci ilin fevralında hərbi çevriliş nəticəsində hakimiyyəti zəəbt etmiş

Müvəqqəti Hərbi Şura GDR-in 1921-ci il Konstitusiyasını qəbul etdi. Amma orada Abxaziya ilə münasibətlər təyin edilməmişdi. Gürcüstan hökuməti qeyd edirdi ki, tezliklə Abxaziya ilə əvvəlki prinsiplər əsasında münasibətlər tənzimlənəcək. Bunu qəbul etməyən Abxaziya Ali Soveti 1992-ci ilin iyulun 23-də 1978-ci il Konstitusiyasını ləğv etdi, 1925-ci il Konstitusiyasına keçdi. Çünki bu Konstitusiyasının II bölməsində Abxaziya beynəlxalq hüququn subyekti kimi öz suverenliyini elan edirdi. Bunu özünün torpaq bütövlüyünə qəsd kimi qiymətləndirən Gürcüstan 1992-ci ilin avqustun 14-də Abxaziyaya hərbi güc tətbiq etdi. 1992-1993-cü il müharibəsi çoxlu insan ölümü ilə müşayət olundu.

BMT, RF və ATƏT-in vasitəçiliyi lə Abxaziya və Gürcüstan arasında danışıqlar başlandı və 1994-cü ilin aprelin 4-də « Gürcü-abxaz münaqişəsinin siyasi cəhətdən nizamlanması tədbirləri haqqında» Bəyanat imzalandı. BMT Abxaziya və Gürcüstana yeni ittifaq dövləti yaratmaq təklif etdi. Bəyənatdan keçən üç il ərzində tərəflər arasında hüquqi-dövlət münasibətlərini bərpa etmək üçün danışıqlar aparıldı. 1997-ci ildə "Gürcü-abxaz münasibətlərini qaydaya salmaq barədə Protokol" imzalandı. Ona əsasən iki bərabərhüquqlu tərəflər ümumdövlət yaradırlar. Amma gürcü tərəfi bu sənədi imzalamaqdan imtina etdi.

E.Şevardnadzenin hakimiyyəti dövründə Gürcüstanın XXI əsr milli inkişaf strategiyası hazırlanması başlandı. Bu strategiyanın əsas prinsipləri tarixi rus-gürcü əlaqələrinin və münasibətlərinin məhdudlaşdırılmasına, özünün xarici maraq dairəsini Qərb dövlətlərinə, onların hərbi-siyasi və iqtisadi təşkilatlarına yönəltməkdən ibarət idi.

Gürcüstan XX əsrin 90-cı illərinin sonlarından başalyaraq NATO-nun genişlənməsində və ABŞ-la ikitərəfli hərbi əlaqələr əsasında Cənubi Qafqazda yeni qüvvələr balansının formalaşmasında aktiv iştirak edir.

Yeni milli strategiyanın seçilməsini iki cür izah etmək mümkündür: birincisi, artıq Rusiya bir dövlət kimi gürcü elitasının marağından düşmüşdü. Gürcüstan Moskvaya onu parçalamağa yönəlmiş milli-etnik münaqişələri qızışdıran bir şimal qonşusu kimi baxırdı. İkincisi təklənmiş Şevardnadze və onun tərəfdarları

özlərinə arxa tapmaq üçün başqa azimuta üz tutmalı idilər. Bu da Qafqazda özünün xüsusi geosiyasi maraqları olan Qərb idi.

Gürcüstanın bir tranzit ölkə kimi Asiya və Avropanı birləşdirən "İpək yolu" marşrutunda mühüm strateji mövqe tutması Qərbin maraq dairəsindən kənarda qala bilməzdi. Bundan başqa E.Şevardnadze məhz "Gürcüstanın xüsusi geostrateji vəziyyətindən" və onun Rusiya ilə ümumi sərhədlərinin olmasından bir kart kimi istifadə etməsi də ABŞ və NATO-nun XXI əsrdə qlobal strategiyasında nəzərə alınmaya bilməzdi. Gürcüstanın bu dövrdəki xarici siyasəti ABŞ-ı tam qane edirdi. ABŞ xarici siyasət idarəsinin yeni doktrinasında Rusiyadan asılı olmayan yazad dövlətləri dəstəkləmək, Xəzər neftini beynəlxalq bazara çıxartmaq, keçmiş Sovet İttifaqının cənub cinahının güclənməsinə yol verməmək, Rusiya və İranın Qara dəniz və Xəzər regionunda hərbi və siyasi təşəbbüslərinin qarşısını almaq məsələsi ön planda idi.

1998-ci ilin ortalarında ABŞ konqresində "Qafqazda və Mərkəzi Asiyada ABŞ-ın rolu" mövzusunda dinləmələr oldu. Bu dinləmələrdə Qafqazın ABŞ-ın qlobal siyasətində xüsusi çəkisi olduğu qeyd edilirdi. Həmçinin burada rəqiblərinin Qafqaza buraxılmaması və rus faktorunun bölgədən sıxışdırıb çıxarılması açıq-aydın vurğulanırdı. Bunun üçün ABŞ birinci növbədə Gürcüstanı MDB ölkələrinin kollektiv təhlükəsizlik sistemindən ayırıb atlantik təhlükəsizlik sisteminə cəlb etməyi nəzərdə tuturdu.

Gürcüstanda yardım üçün NATO-ya ilk müraciət ideyası 1989-cu il Tbilisi hadisələri zamanı yarandı. NATO ilə yaxınlıq E.Şevardnadze hakimiyyəti dövründə olmuşdur. Gürcüstanın mərhələlərlə NATO-ya inteqarsiya edilməsi üçün NATO üzvləri, xüsusən ABŞ və AFR xüsusi hazırlıq işləri aparırlar.

1994-cü ilin martın 23-də Brüsseldəə Gürcüstanın "Sülh" naminə tərəfdaşlıq" proqramına qoşulması haqqıda çərçivə sazişi imzalandı.

1995-ci ilin dekabrında « Sülh naminə tərəfdaşlıq » çərçivəsində Gürcüstanın NATO ilə əməkdaşlığının fərdi proqramı rəsi şəkildəə imzalandı.

Bu proqrama əsasən Gürcüstanın müdafiə nazirliyi alyansın tələbinə uyğun yenidən quruldu. 1999-cu ilin aprelində Gürcüs-

tanda beynəlxalq hərbi məsləhətçilər Şurası yaradıldı. Onun tərkibinə NATO-nun istefada olan generalları Q.Conson, Xenninq fon Ondorsa və Devid Okmans daxil oldular. Şura 2004-cü ilə qədər nəzərdə tutulan Proqram hazırladı. Proqramla 4 əsas istiqamətə baxılırdı: milli təhlükəsizlik siyasəti, dövlət təhlükəsizlik sisteminin strukturu, müdafiəni təkmilləşdirmək və demokratiyanı möhkəmləndirmək.

ABŞ-ın məhz bu regionda Rusiyaya qarşı ardıcıl və məqsədyönlü siyasəti keçmiş dövlət katibi Henri Kissincerin Tbilisiyə səfəri zamanı özünü açıq şəkildə biruzə verdi. O deyirdi ki, bizim strateji maraqlarımız üçün Rusiyanın Qafqazda rolunun artmasına yol verməmək xüsusilə vacibdir. Bunun üçün E.Şevardnadzenin Rusiyanı uzaqlaşdırmaq istiqamətinə yönəlmiş səylərini müdafiə etmək zəruridir.

« Dövlət sərhədlərinin birgə müdafiəsi haqqında » rus-gürcü sazişinin ləğv olunması və rus sərhədçilərinin Gürcüstan ərazisindən çıxarılmasından sonra 1999-cu ildə ABŞ hökuməti Gürcüstana onun dövlət sərhədlərinin infrastrukturlarının yaranması və inkişafı üçün 12000378000 dollar vəsait ayırmışdı.

NATO hər vəchlə rus hərbi bazalarını Gürcüstanın ərazisindən çıxarmağa çalışırdı. 1998-ci ildə NATO-nun Baş katibi X.Solana Gürcüstanda olarkən qeyd etmişdi ki, Gürcüstan təhlükəsizliyini qorumaq üçün ATƏT-in adi silahların məhdudlaşdırılması haqqında sazişinə qoşularaq rus hərbi bazalarını Gürcüstandan çıxarmalıdır. Bundan istifadə edən E.Şevardnadze NATO-nun abxaz münaqişəsinin həllinə kömək göstərməsini istəmişdi.

Gürcüstanın NATO ilə əməkdaşlıq proqramı intensiv şəkildə və müxtəlif formalarda həyata keçirilir:

1999-cu ilin noyabrında NATO-nun "Sülh naminə əməkdaşlıq" proqramı əsasında çoxmillətli orduda təlimin planlaşdırılması haqqında konfransa keçirildi. Həmçinin eyni vaxtda İstanbulda Qafqaz ölkələri, ABŞ və Türkiyənin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikinti layihəsi haqqında sənədlər paketi imzalandı ki, bu da NATO-nun Cənubi Qafqaza müdaxiləsinin tezləşməsinə imkan yaratdı. Gürcüstanla bağlı nəqliyyat layihəsinə

QUAM üzvü olan Ukrayna da qoşuldu. Odessa (İliçevsk) ilə Poti arasında yük gəmilərinin keçidinin tikintisi başa çatdırıldı.

Aİ bu tikintiyə 20 mln. dollar xərclədi. Məhz bu keçid gələcəkdə Rusiyadan yan keçməklə neftin Qərbə çatdırılmasına ikinci alternativ marşrutun meydana gəlməsi demək idi. Bütün bunlar Rusiyanın geosiyasi mövqeyi üçün mənfi nəticələr törədəcəkdi.

1999-cu ildə Türkiyə Gürcüstana 2 mln. dollar dəyərində hərbi kadrlara hazırlıq keçmək üçün hərbi vəsait göndərmişdi. Məhz Qərb Türkiyənin köməyi ilə hərbi-əməli xarakterli infrastrukturların inkişafını həyata keçirirdi.

1999-cu ilin yanvarında Gürcüstan AŞ-ya üzv qəbul edildi.

Bu təşkilatın üzvləri dəfələrlə Gürcüstanın geosiyasi mövqeyinin Avropa üçün böyük əhəmiyyət daşıdığını qeyd etmişdir.

NATO ilə hərtərəfli əməkdaşlığın inkişafı fonunda Rusiya ilə hərbi əlaqələrinin sürətlə məhdudlaşdırılması Gürcüstan üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Gürcüstanda rus hərbi bazalarının ləğvi Rusiyanın imkanlarını zəifləsaid. Bu imkanlar NATO-nun cənub cinahında lazım gələrsə güclü rus hərbi qüvvələrinin "bufer" yaratmasına, rus nəzarətindən çıxmaş mühüm infrastrukturların vacib obyektlərinin istifadəsinə, MDB ölkələri ərazisində (PRO  və PVO) vahid sisteminin yaradılmasına geniş şərait yarada bilərdi.

Bu bazarların ləğvi, şübhəsiz, Rusiyanın bu regiondakı hadisələrin gedişinə təsir göstərmək imkanlarını azaltmış, gürcü-abxaz, gürcü-osetin münaqişələrinə Rusiyanın hərbi müdaxiləsini məhdudlaşdırdı.

Rus ordusunun çıxarılması həm Gürcüstan,  həm də bütövlükdə Cənubi Qafqazda Qərbin (ABŞ və Türkiyənin) mövqelərini güclədirmiş, Rusiyanın regiondan sıxışdırılmasına və NATO-nun şərnqə doğru genişlənməsinə şərait yaratmışdı.

Rusiyanın Qafqazdakı siyasətinin "yubanması"nın əsas səbəblərindən biri yerlərdəki gerçəkliyin real mənzərəsinin olmaması və regionda, formal da olsa, öz iştirakının "çəkisini danma"masıdır. Məsələn, ABŞ demokratiyanı günişləndirmək bayrağı altında Qafqazda fəaliyyət göstərir (Bəzən isə öz iqitsadi maraqlarının təmin edilməsi naminə demokratiyanın boğulmasına

göz də yumur). Bəs Rusiya kimi böyük bir dövlət xırda xalqlarla münasibətini niyə tənzimləyə bilmir?

Tanınmamış Abxaziyadakı biabırçı seçkilərdə Rusiyanın “balta siyasəti” özünü göstərdi. Hələ seçkilərə qədər Abxaziyada vətəndaş cəmiyyəti formalaşmamışdır. Onlar prezident Ardzinba və onun tərəfdarlarının özbaşınalığından cana doymuşdular. Bunu bilə-bilə rus təbliğatçıları abxazlara ona səs verməyə çağırır, əks təqdirdə Xadjibayevə səs versələr, onları Acarıstanın taleyi gözlədiyini və sərhədləri bağlayacaqları ilə hədələyirdilər. Bu kövrək Qafqaz məsələsinə Rusiyanın “baltalı” yanaşması idi.

Gürcü-osetin münaqişəsi gürcü və osetinlər arasında milli dözümsüzlüyün nəticəsidir. Hər iki xalq provoslavdır. Cənubi Osetiyada etnik qrup olan kudarlılar, Şimali Osetiyada isə ruslaşdırılmış iranlılar məskunlaşmışlar. Cənubi Osetiyada millətçiliyin əsas mənbəyi Aristraxa görə Balkariya ilə sərhəddə yaşayan və Şimali Osetiyanın siyasi və təsərrüfat həyatında vacib rol oynayan etnik qrup-diqorlar hesab olunurlar. Belə ki, diqorların əksər hissəsi müsəlmanlardırlar. Məhz separatçılıq təşəbbüsləri onlardan çıxır. Diqorlar antirus əhval-ruhiyyəli Şimali Qafqazın mürtəce islam təşkilatları ilə əməkdaşlığa səy edirlər. Əslində isə müasir münaqişənin kökləri çar Rusiyada dövrünə gedib çıxır. O dövrdə Gürcüstan hakimiyyəti və kilsə osetinlərə qarşı assimilyasiya siyasəti yürüdürdü. Rusiyanı vətəndaş müharibəsi zamanı Cənubi Osetiya üsyan qaldıraraq menşevik Gürcüstanından ayrılıb Sovet Rusiyasının tərkibinə keçmək istədi.

Osetinlər qeyd edirlər ki, 1774-cü ildən onlar Rus imperiyasının tərkibinə daxil olmuşlar. Qış dövründə Osetiyanın cənubi və şimalı arasında dağ keçidi vasitəsilə kommunikasiyaların olmaması Valdıqafqazda onun idarəsini çətinləşdirirdi. Bunu nəzərə alan çar Rusiyası Cənubi Osetiyanı 1801-ci ildə Rusiyanın tərkibinə qatılan Şərqi Gürcüstanun ərazisində yeni yaradılmış Tiflis quberniyasının tərkibinə daxil etdi. O dövrdən gürcülərin bu ərazilərə siyasi müdaxiləsi davam etməyə başladı.

Gürcü mənbələri təsdiq edirlər ki, osetinlər alanların varisləridir və onların tarixi əsasən Şimali Qafqazla bağlıdır.

1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra Cənubi Osetiya yeni yaranmış Gürcüstan  Deokratik Respubilkasının tərkibində qaldı. Şimali Osetiya isə Terek Sovet Respublkasının tərkibində idi.

Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Cənubi Osetiya onun tərkib hissəsi oldu. Əslində Moskva Osetiyanın cənub hissəsini Gürcüstanın tərkibinə daxil etməkdən ikitərəfli faydalandı. Bir tərəfdən, gürcüstan ərazisində mərkəzi sovet hakimiyyətinə loyal münasibət bəsləyən və tamamilə ondan asılı olan əhali qrupu sakin olurdu. Digər tərəfdən isə, Gürcüstan rəhbərliyinin bu əraziyə olan çoxdankı iddiaları təmin olunurdu. Sonralar 1922-ci ildə Cənubi Osetiya Muxtar vilayəti yaradıldı.

Beləliklə, osetinlər SSRİ-nin milli-ərazi təşkili nəticəsində süni surətdə iki hissəyə ayrıldı. Lakin 1990-cı ilin iyunun 20-də qəbul edilmiş Gürcüstan Ali Sovetinin qərarına əsasən 1922-ci il İttifaq sazişini və 1921-ci ilin 25 fevralından bu yana qəbul edilmiş bütün hüquqi aktlar və sazişləər qanundankənar və etibarsız hesab olundu.

XX əsrin 80-ci illərinin sonlarında Gürcüstanda qeyri-gürcü əhalinin diskriminasiyası ilə müşayət olunan millətçilik hərəkatı, Gürcüstanın tərkibindəki muxtar qurumların ləğvi uğrunda çıxışlar başlıdı. Belə bir şəraitdə Cənubi Osetiya siyasətçiləri təşkilatlanmağa başladılar, 1989-cu ildə gürcü dilinin dövlət dili elan edilməsindən istifadə edən osetin siyasətçiləri Gürcüstandan ayrılmağa və Rusiya ilə birləşməyə cəhd edirdilər.

Bütün bunlar gürcü-osetin münaqişəsini labüd etdi və bu münaqişə silahlı müdaxiləyə çevrildi. Belə girgin vəziyyət iki il davam etdi və 1992-ci ilin iyunun 24-də Rusiya, Gürcüstan və Osetiya müqaviləsi ilə başa çatdı. 1992-ci ildən 1995-ci ilə qədər Cənubi Osetiya faktiki olaraq “dondurulmuş” vəziyyətdə oldu. 90-cı illərin II yarısından başlayaraq Gürcüstanın geosiyasi mövqeyinin armtası, regionun dünyanın “güc mərkəz”ləri olan dövlətlərin strateji maraq dairəsinə daxil olması, bu münaqişəni yenidən qızışdırdı və gürcü-rus müharibəsinə çevirdi.

Belə ki, Rusiya SSRİ dağıldıqdan sonra digər respublikaları əldən verməmək və onların birtərəfli olaraq Qərbə inteqrasiyasının

qarşısını almaq üçün, Pribaltika respublikalarını çıxmaq şərtilə, digər respublikaların daxil olduğbu MDB qurumunu yaradaraq bu yolla özünün postsovet məkanında təsirini saxlamağa çalışır. Nəzərə almaq lazımdır ki, digər bölgələrə nisbətən Qafqaz-Xəzər dənizi bölgəsi öz etnik tərkibinə görə Rusiya üçün cənub sərhədlərində ən təhlükəli bir zonadır. Bu baxımdan da Rusiya öz gələcək ərazi bütövlüyünün saxlanması naminə Cənubi Qafqazda tam hərbi və siyasi nəzarəti ələ keçirməyə çalışır. Məhz ona görə də Rusiya öz sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində iqitsadi və hərbi-siyasi cəhətdən Qərbə üz tutmuş Gürcüstana təzyiq vasitəsi olaraq sərhəd bölgələrində yerləşən Abxaziya və Cənubi Osetiyanı dəstəkləməklə, bu qurumlara maddi və hərbi kömək etməklə strateji əhəmiyyət kəsb edən ərazilərə nəzarəti öz əlinə almağa çalışır. Həmçinin son zamanlarda bu qurumların əhalisinin əksəriyyətinə Rusiya vətəndaşlığı verərək öz gələcək təsirlərini, bölgəyə müdaxilə etmək niyyətini qanuniləşdirmək siyasəti yeritdi. Gürcüstanın Cənubi Osetiyaya hücumları Rusiyanı adekvat tədbirlər görməyə sövq etdi. Bundan başqa, Gürcüstanın son zamanlarda regionda Rusiya amilini nəzərə almayaraq bu dövlətin əleyhinə olaraq birtərəfli siyasət yeritməsi, Qərblə, xüsusilə ABŞ-la müttəfiqlik etməsi və NATO-ya daxl olmaq istəyini Rusiya öz təhlükəsizliyinə zidd hesab edirdi.

Deməli rus-gürcü müharibəsini yetişdirən əsas amillər kimi biz məhz Gürcüstanın NATO ilə, ABŞ-la sıx strateji müttəfiqlik siyasətini, gürcü hərbi hissələrinin NATO tərəfindən yenidən qurulmasını, bir çox hərbi obyektlərin və bazaların NATO-nun istifadəsinə verilməsini, Rusiya hərbi hissələrinin ölkə ərazisindən çıxarılmasını, Gürcüstan rəhbərliyinin Rusiya əleyhinə yönəlmiş xarici siyasətini və Rusiyanı düşmənçilikdə ittiham etməsini və s. göstərmək olar.

Bütün bunlar 2008-ci ilin avqustun 8-də Gürcüstanın Cənubi Osetiyaya qoşun yeritməsinə gətirib çıxartdı.

SSRİ dağıldıqdan sonra dünya dövlətləri Rusiyadan ayrılmış müttəfiq respubilkaların ərazilərini olduğu sərhədlərlə qəbul etdilər. Deməli, həm Abxaziya, həm də Cənubi Osetiya Gürcüstanın hüquqi əraziləridir. 1992-ci ildən başlayaraq neçə

illərdir ki, Gürcüstan öz ərazi bütövlüyünü bərpa etməyə çalışır və bu onun konstitusiya hüququdur. Bundan ötrü güc tətbiq etməsi də normal hal sayılmalıdır.

Gürcüstan 1990-cı illərin əvvəllərindən bu məqsəd üçün bir çox hərbi və siyasi cəhdlər göstərsə də, uğursuzluğa düçar olmuşdur. Lakin indi Qərb yönümlü Gürcüstan hakimiyyəti bunu özünün xarici siyasətinin əsas prioritetinə çevirmişdir. Acarıstan Muxtar qurumunun mərkəzi hakimiyyətə tabe edilməsi məhz Gürcüstanın müvafiq siyasətinin bir sübutu idi. Acarıstan Gürcüstanın mərkəzində yerləşdiyinə görə Rusiyanın xüsusi maraq dairəsində deyildi. Ona görə də Saakaşvili ABŞ-dan dəstək alaraq asanlıqla onu tabe edə bildi.

Cənubi Osetiya və Abxaziya qurumları isə Rusiya ilə sərhəddə yerləşdiyinə görə ondan birbaşa hərbi və iqtisadi yadım ala bilirlər. Bu da separatçı qüvvələri şirnikləndirir. Məhz bütün bunlar 2008-ci il avqustun 8-də Gürcüstanı Cənubi Osetiyaya hərbi güc tətbiq etməyə vadar etdi və bir neçə saat ərzində Sxinvali şəhərini ələ keçirtdi.

Rusiya Cənubi Osetiyaya və Abxaziyaya istər regional səviyyədə, istərsə də beynəlxalq səviyyədə dəstək verərək bu yolla Gürcüstana daim təzyiq göstərir. Qondarma qurumların vətəndaşlarının böyük əksəriyyətinə hətta Rusiya vətəndaşlığı da verir. Rusiya bundan istifadə edərək öz vətəndaşlarını müdafiə etmək hüququnu əsas gətirərək Şimali Osetiya ərazisindən Cənubi Osetiyaya hərbi dəstək verdi. Abxaziya da bu dəstəyə qoşuldu. Tez bir zamanda Sxinvali azad olundu. Hərbi əməliyyatlar Cənubi Osetiyanın sərhədlərini keçərək Gürcüstan ərazisinin böyük bir hissəsini əhatə etdi.

Avqustun 8-də Rusiyanın və Gürüstanın təklifləri ilə BMT-nin Təhlükəsizlik Şurasının iclasları keçirilsə də, hər hansı bir sənədin qəbuluna nail olunmadı. Çünki Gürcüstan Rusiya tərəfindən işğal olunduğunu bəyan edirdi.

Rusiya isə Gürcüstanın hərbi müdaxiləsini Cənubi Osetin xalqının soyqırımı kimi qələmə verir və öz diplomatiyasında bu amildən geniş istifadə edirdi.

ABŞ və bir çox Avropa dövlətləri Rusiyadan Gürcüstan ərazisindəki qoşunlarının çıxarlmasını tələb etdilər. Fransanın vasitəçiliyi ilə avqustun 12-də Rusiya ilə Gürcüstan arasında gücdən istifadə etməmək, qəti olaraq bütün hərbi əməliyyatları dayandırmaq, humanitar yardım üçün azad çıxışın təmin edilməsi, Gürcüstan hərbi qüvvələrinin daimi diskolasiya olunduqları yerə qayıtması, Rusiya hərbi qüvvələrinin əvvəlki xəttə qaytarılması, Respublikaların təhlükəsizliyi üçün beynəlxalq zəmanətin yaradılması məsələləri öz əksini tapan sənəd imzalandı.

Bu müharibə Rusiyanın təkrar olaraq Gürcüstana hərbi və siyasi təsirini gücləndirdi. Rusiya Cənubi Osetiyaya və Abxaziyaya qoşun yeridərək Gürcüstana hərbi zərbələr endirməklə, əslində Qərbə, xüsusilə də ABŞ-a öz hərbi və siyasi gücünü göstərmiş olduğunu nümayiş etdirdi. Rusiya həmçinin Qərbə göstərdi ki, Rusiyadan yan keçməklə Mərkəzi Asiyanın enerjisinin Qərbə inteqarsiyasında layihələrin qarşısını almaq üçün tranzit rolunu oynayan Gürcüstana hər zaman təzyiq göstərə bilər.

## ABŞ-ın Şimali Qafqaz siyasəti

Şimali Qafqazı Rusiya özünün ayrılmaz hissəsi hesab edir. Bu bölgə Rusiyanın ərazisinin 2,1%-ni, əhalisinin 12%-ni təşkil edir. Şimali Qafqaz ərazisində RF-nın subyektlərini – Adıgey, Dağıstan, İnquşetiya, Kabarda-Balkar, Qaraçay-Çərkəz, Şimali, Osetiya-Alaniya, Çeçenistan Respublikaları yerləşir. Şimali Qafqaz özünün geosiyasi, geostrateji vəziyyətinə görə mühüm əhəmiyyət kəsb edir. O, Rusiyanın cənub sərhədlərində onun milli maraqlarının müdafiəsində forpost kimi çıxış edir. Həmçinin bütün Qafqazı, Orta və Yaxın Şərqi, Mərkəzi Asiyanı əhatə edən geniş bir məkana təsir edəcək vəziyyətdədir.

İndi Şimal Qafqaz Rusiyanın ən münaqişəli ərazisi sayılır. Bu regionda münaqişələr, separatçılıq, əkstermist əhval-ruhiyyə daha kəskin formada təzahür edir. Ona görə də, çoxlarının təsdiq etdiyi kimi müasir rus dövlətinin möhkəmliyi məhz bu bölgədə sınaqdan keçirilir.

Şimali Qafqazdakı gərginlik və qarşıdurmalara səbəb olanfaktorlardan biri: onun əhalisinin çoxmillətli olmasıdır. Burada hər

bir millətin özünün tarixi taleyi, mədəniyyəti və mentaliteti vardır. Bundan başqa, 1944-cü ildə çeçenlərin, inquşların, qaraçayların, balkarların və kalmukların Orta Asiyaya və Sibirə deportasiya olunması haqqındakı tarixi yaddaşda münaqişə törədən əlavə amil kimi ortaya çıxır.

Şimali Qafqazda narahatlıq yaradan səbəblərdən digəri həll olunmamış çoxlu sosial-iqtisadi problemlərin olmasıdır. Belə ki, iqitsadi inkişaf cəhətdən bu bölgə RF-nin ən geridə qalmış regionlarındandır. Şimali Qafqaz Ümumrusiya sənaye istehsalının 4%-ni verir, real əməkhaqqı bütövlükdə Rusiyadan 3 dəfə aşağıdır. Neft və qazçıxarma, neft-kimya, maşınqayırma, kənd təsərrüfatı, turizm biznesi böhran keçirir. İşsizlik, yaşayış səviyyəsinin aşağı düşməsi, cinayətkarlıq bu regionda kütlə hala çevrilmşidir. “Çirkli seçki”lər, bir çox rəhbərlərin qohumlarının cinayətlərdə əli olması, əhalinin təhlükəsizliyinin təmin olunmaması hakimiyyət uğrunda mübarizə və s. regionda sabitliyə ciddi əngəl törədir.

Milli ideyasızlıq Rusiyadakı etnosların birliyini çətinləşdirir. İmperiya və kommunizm ideallarından məhrum olmuş Şimali Qafqaz xalqları ideya boşluğuna düşmüşlər. İndi onlar özlərinin milli-dövlət quruculuğuna dair yeni ideya və proyektlər axtarışındadırlar.

Şimali Qafqazdakı geosiyasi vəziyyəti təyin edən ən mühüm amillərdən biri də islam faktorudur. o region xalqlarının dini ideologiyası olmaqla yanaşı, ondan milli ideologiya və millətçilikdə də baza komponenti kimi heç də az istifadə olunmur.

Dünyanın iri dövlətləri öz sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün ətraflarında yerləşən xırda dövlətləri öz tərəflərinə çəkərək hərbi siyasi və iqtisadi birliklər, ititfaqlar yaratmağa çalışırlar. Bu birliklərə daxil olan dövlətlər böyük dövlətlər üçün təhlükəsizlik zonaları, qurşaqları rolunu oynayır.

Xırda dövlətləri öz tərəfinə çəkmək üçün iri dövlətlər müxtəlif metodlardan istifadə edirlər. Rusiya əvvəlcə özünün “parçala, hökm sür!” siyasətini həyata keçirərək ətrafındakı xırda dövlətlərdə milli, etnik münaqişə ocaqları yaradır, onu alovlandırır, sonra isə bölgədə sülhün təminatçısı kimi çıxış edərək kollektiv təhlükə-

sizlik sistemi yaradaraq həmin dövlətləri o sistemə cəlb etməyə çalışır.

ABŞ-ın ənənəvi metodu isə, "əvvəl yemək, sonra dəyənək"dır. Bunu başqa sözlə həvəsləndirici və təzyiq üsulları da hesab etmək olar. Həvəsləndirici üsula olaraq maddi yardım etmək, güzəştli əsaslarla iqitsadi əlaqələr yaratmaq, elmi-texniki, hərbi-texniki yardımlar göstərmək və s. amillər daxildir.

Cəlbetmə siyasətində bu üsul fayda vermədikdə təzyiqetmə üsullarından istifadə olunur. Təzyiq vasitəsi olaraq hərbi güc tətbiqetmə, etnik amillərdən istifadə etmək, münaqişələri dəstəkləmək, viza rejimini çətinləşdirmək, iqitsadi güzəştləri ləğv etmək və digər bu kimi metodlardan istifadə edilir.

Bir çox tədqiqatçıların fikrincə, Şimali Qafqazda baş verən proseslər geosiyasi faktorlara əsaslanır. Bu isə Qərblə Şərq arasındakı tarixi mübarizə meydanında dünya dövlətlərinin öz hökmranlığını təmin etməyə və təbii resurslar üzərində nəzarəti ələ keçirməyə cəhdlə əlaqələndirilir.

Şimali Qafqaz – sosial-iqtisadi vəziyyət, dövlət idarəçiliyi və Rusiyanın milli təhlükəsizliyinin təmini nöqteyi-nəzərindən həm ən mürəkkəb, həm də ən mühüm regiondur. Bu region bir sıra silahlı toqquşmalarla müşahidə olunur ki, bunlardan biri Çeçen müharibəsidir. Məhz bu zonada baş verən hadisələr Rusiya Federasiyasının milli təhlükəsizliyinə, onun suverenliyinə, ərazi bütövlüyünə real təhlükə törədir.

SSRİ dağıldıqdan sonra – Şimal Qafqaz xalqları da azadlıq uğrunda müharibəyə qalxdılar. Çeçen-İnquş MSSR-da vəziyyət daha gərgin idi. 1990-cı ilin noyabrın 27-də Çeçenistan və İnquşetiya respublikasının Ali Soveti respublikasının dövlət müstəqilliyi haqqında bəyannamə qəbul etdi. 1991-ci ilin may-iyun aylarında çağırılmış ikinci konqres Çeçen Respublikasının müstəqilliyini, RSFSR və SSRİ-nin tərkibindən çıxdığını, Çeçen-İnquş Respublikasının RSFSR-in tərkibində iki suveren respublikaya – Çeçen-İnquş Respublikalarına ayrıldığını elan etdi. C.Dudayev Çeçenistan Respublikasının prezidenti seçildi. 1992-ci il martın 31-də imzalanan Federasiya müqaviləsinə qoşulmaşdan imtina edərək Çeçenistan Federasiyadan çıxmaq, hərbi vəziyyət

elan etmək hüququ, respublika konstitusiyasının Federasiyanın əsas qanunundan aliliyi haqqında qərarlar qəbul etdi. 1992-1993-cü illərdə Çeçenistan Federasiyanın büdcəsinə vergi ödənişini dayandırdı. C.Dudayev parlamenti buraxdı. Respublikada 15 minlik nizami ordu yaradıldı. Çeçenistanın hərəkətləri RF tərəfindən separatizm kimi qiymətləndirildi. 1994-cu ilin noyabrın 31-də RF prezidenti B.Yeltsin "Çeçen Respublikasının ərazisində konstitusiya qanunçuluğu və qaydalarının bərpası üzrə tədbirlər haqqında" gizli fərman imzaladı. Birinci Çeçenistan müharibəsi başlandı. Dudayevi başlıca maneə hesab edən Rusiya hökuməti onun aradan götürülməsinə nail oldu. Vitse-prezident Z.Yandarbayev onu əvəz etdi. Avqust ayında Çeçen qüvvələri Qorznını azad etdilər. 1996-cı ilin sentyabrında Rusiya ilə Çeçenistan arasında imzalanmış Xasavyurd razılaşmasına əsasən Rusiya qoşunları Çeçnistanı tərk etdi. Lakin hadisələrin sonrakı gedişi Çeçenistanı öz müstəqilliyini möhkəmləndirməyə imkan vermədi. 1999-cu ilin noyabrında keçirilən ATƏT-in İstanbul sammitində RF-nin Çeçenistandakı hərəkətləri böyük dövlətlər, xüsusilə ABŞ tərəfindən kəskin tənqid edildi. Rusiya bu məsələyə qarşı qəti mövqeyini sammitdə bir daha nümayiş etdirdi. 1999-cu ilin sonlarında Rusiya yenidən Çeçenistana təcavüz etdi. İkinci Çeçenistan müharibəsi başlandı. Qanlı döyüşlər nəticəsində Qroznı şəhəri ruslar tərəfindən işğal edildi. Çeçen xalqı amansız soyqırımına məruz qaldı. Bu dünya dövlətləri, xüsusilə ABŞ tərəfindən ciddi tənqidə məruz qaldı.

Bəs, Çeçenistandakı vəziyyət kimlərə sərf edir? Rus tədqiqatçılarının bəziləri, bu ərazidəki qeyri-stabil vəziyyətə ABŞ-ın Qafqazdakı siyasətinin əsas fiquru kimi Türkiyənin nəzarət etdiyini bildirir. Qeyd edilir ki, ABŞ-la Qərb Bakı-Tbilisi-Ceyhan neft kəmərini çəkməklə Xəzər neftini Rusiyadan yan keçməklə Qərbə axıtmaq, özlərinin rus kəmərlərindən və Yaxın Şərq regionundan enerji asıldığını heçə endirmək istəyir. Rusiyanın isə alternativ neft xəttləri Şimali Qafqaz ərazisindən (Dağıstan və Çeçen-İçgeriya) keçir və münaqişələrin bu regionda gərginləşməsində ABŞ-ın və Qərbin əli olduğu iddia edilir. Məsələyə başqa prizmadan baxanda Şimali Qafqazda teokratik

rejimlərin yaranmasını nə ABŞ-ı, nə də Qərbi qane etmədiyi aydın olur. Bu ən çox siyasiləşmiş islam fundamentalizminin nümayəndələrinə, ərəb neft şeyxlərinə, Fars körfəzi ölkələrinin maliyə oliqarxiyalarına sərf edir ki, onlar öz neftlərini Novorossiyski vasitəsilə Xəzərdən Qərb bazarına ötürə bilsinlər (Tranzit xətti Şimali Qafqazdan keçir). Qərbi Avropaya və Rusiyaya narkotiklərin daşınmasının mümkünlüyünü genişləndirməklə bu vəziyyət beynəlxalq narkomaniya üçün də əlverişlidir. Həmçinin Qərb ölkələri, Yaxın və Orta Şərqdə, Şimali Qafqazda Rusiyanın təsirini azaltmaqla strateji maraqlarını burada təsdiqləmək imkanları qazanmaq istəyirlər. Məhz bu qüvvələr Rusiyanın Qafqazı parçalamaq siyasətini indi onun özünə qarşı yeridərək Şimali Qafqazda etnik münaqişələri qızışdırır və Rusiyanı parçalamağa çalışırlar.

Çeçen-rus müharibdəsi nəinki ətraf regionlarda islami dirçəlişi stimullaşdırır, həm də islam intibahının yüksək siyasiləşmə dərəcəsini müəyyənləşdirir. Bu müharibə rus tədqiqatçılarının fikrincə, İslam faktorunu Rusiyanın cənubunda və hətta bütün Qafqazda sabitliyi pozan əsas amilə çevirir. Çeçenlərin dini dövlət yaratmaq istəyi Moskva üçün yolverilməzdir. Bəs islamı siyasiləşmə nədir?

Bu münaqişədə Moskva Şimali Osetiyanın tərəfində idi. Rusiya, Osetiya Respubilkasını özünün Qafqazdakı dayağı saymaqla yanaşı, Moskva həm də qorxurdu ki, inquşlar ərazilərini genişləndirib müstəqillik tələb edəcəklər. Həmçinin Moskva osetinləri əli ilə vayxanaları sarsıtmaq, yəni inquşlarla yanaşı çeçenlərin də müqavimətini qırmaq istəyirdilər. Osetinlər qeyri-müsəlman xalqları olduqları üçün Şimali Osetiya güclü olmalı idi ki, gələcəkdə Rusiya Gürcüstan və Cənubi Osetiya arasında münaqişələrdə ondan istifadə etsin.

1980-ci ildə Səudiyyə Ərəbistanı kralı Fəhd elan etmişdi ki, Müqədəds cihad – kommunizm kimi sərhəd bilməyən bir inqilabdır. İndi bu inqilabın təsiri Yaxın və Orta Şərqi, Qafqazı, Orta, Mərkəzi, Cənub və Cənub-Şərqi Asiyanı, Avropanı (Balkanlar), Şimali Afrika, Uzaq Şərqi (Çində uyqur seperatçıları) əhatə edir.

Onların əsas vəzifəsi – bu ərazilərdə qərbyönümlü rejimləri devirmək və qlobal cihadı genişləndirimək üçün plasdarm yaratmaqdan ibarətdir.

Bundan ötrü onlar hər vasitədən: populist şüarlardan, terror aktlarından, partlayışlardan istifadə edirlər.

Müsəlman dünyasının professional inqilabçıları – mücahidlərdir. Onlar qarşısına islam inqilabını bütün dünyaya yaymaq məqsədini qoymuşlar. Müasir mücahidizmin əsas mənbəyində 1928-ci ildə Britaniya xüsusi xidmət orqanları tərəfindən yaradılmış "Müsəlman qardaşları" cəmiyyəti durur. Bu cəmiyyəti yaratmaqda Londonun məqsədi Britaniya müstəmləkə siyasətinə qarşı çıxan müsəlman dünyasınn milli və dini birliyini parçalamaqdan ibarətdir.

"Soyuq müharibə" zamanı Britaniya estafeti ABŞ-a ötürdü. ABŞ isə Qafqazda və Orta Asiyada dini narazılıqları süni surətdə qızışdıraraq əvvəl SSRİ-də, indi isə Rusiyada vəziyyəti gərginləşdirir. "Müsəlman qardaşları"nın idarə mərkəzlərinin böyük hissəsi Münhendə, Hamburqda, Parisdə, Londonda və b. Avropa mərkəzlərində yerləşir.

Mücahidlərin əsas ideologiyası – islamçılıqdır. İslamçılığın iki əsas cərəyanı mövcuddur. Bu cərəyanlardan biri ağlar – gizli sufi təşkilatlarının üzvləridir. Bu cərəyan daha çox liberal elitanı və ziyalıları özündə birləşirən bir cərəyandır. Onun öz təsirini daha çox göstərdiyi ölkə Türkiyədir. Berə ki, müasir Türkiyə üçün səciyyəvi cəhət məhz yeni dünya düzənində "Türkiyə" dinindən daha çox etnik  səpgidə çıxış edir. İkinci cərəyan olan -  qırmızılar - əsasən "müsəlman qardaşları" cəmiyyətinin əsasında meydana çıxan qurumlardır. Onların "mayakı" vəhabizm adını almış siyasi islamçılıqdır. Vəhabizm qlobal cihadın avanqardı hesab olunur. İslamda bu ideya cərəyanı xristianlıqda protestantlıq, sosializmdə bolşevizmlə eynilik təşkil edir. Onun əsas maliyyə dəstəyi narkotik ticarət kontrobandası və həmçinin Səudiyyə Ərəbistanı, Pakistan və başqa ölkələrdir.

İndiki dövrdə "qırmızı"ların dayaq bazası, generatoru Əfqanıstandır. Hansı ki, cihad burada vəhabizmin övladlarından sayılan talibanizm bayrağı altında aparılır.

Çeçenistan hadisələrinin ilk dövrü "ağlar"ın, sonrakı dövrləri məhz "qırmızılar"ın təsiri altında baş vermişdi. Çeçnistan inqilabının "Dudayev" dövrü (1991-1996-cı illər) "mədəni oyanış", "azadlıq əldə etmə" istiqaməti götürmüşdü və ona "mədəni", "ziyalı" C.Dudayev rəhbərlik edirdi. O, terrorizmdənkənar, terrorçu fondlarından ehtiyat edən adam idi. Onun xarici işlər naziri Ş.Beno deyirdi ki, C.Dudayev respublikaya daxil olan çekləri yoxlatmağı əmr etmişdi. O əmin olmaq istəyirdi ki, bu pullar ölkəyə terrorçulardan daxil olunmur. Amma C.Dudayevin ölümündən bir neçə il sonra 1999-cu ildə Çeçen cihadının siması "Ərəb Çe-Gevarı" Xəttab oldu. Simvolu isə terror aktları və şəhidlər, əsas himayədarı isə "Müsəlman qardaşları" oldu.

Yaxın Sərq terrorçularına qarşı müharibədə qələbə qazanmaq üçün gücü əsasən iki istiqamətə yönəltmək, yəni terrorçuluğu məhv etməklə yanaşı onları yaradan səbəbləri də aradan qaldırmağa yönəlmiş siyasi prosessləri qaydaya salmaq lazımdır. Məhz rusların Çeçenistandakı hərəkətləri bu istiqamətdədir.

Son dövrlər dünyada əsas qaynar nöqtələrin İslam dininə mənsub xalqların yaşadığı bölgələrin olduğunu da nəzərdən qaçırmaq olmaz.

Eyni zamanda müsəlman azadlıq hərəkatında, sözsüz ki, əlahiddə əhəmiyyətə malik, bir çox hallarda həmin hərəkatın əsas stimulu və ideoloji bazası olan İslamın rolunun, potensial imkanlarının dərk edilib qiymətləndirilməsi baxımından da çeçen azadlıq hərəkatının öyrənilməsi son dərəcə zəruridir.

Şimali Qafqazda ilk münaqişə çeçenlərlə inquşlar arasında baş verdi. Tarix boyu bu iki xalq bir-birinə o qədər qaynayıb-qarışıb ki, onlar özlərinə "vazkar" yəni "bizim xalq" deyirlər. Lakin Rusiyanın ənənəvi "Parçala, hökm sür!" siyasəti "Vaynax Respublikası"nı Çeçenistana və İnquşetiyaya parçaladı.

1990-cı ilin noyabrında RF xalq deputatları qurultayının qərarına əsasən Çeçnistan və İnquşetiya ayrılan zaman regionların sərhədləri müəyyənləşmədi. 1992-ci ildə "Çeçen-İsgeriya"nın parlamenti İnquşetiya ilə sərhəd xəttini 1934-cü ildə olduğu kimi qəbul etdi. 1993-cü ildə R.Auşev və C.Duduayev arasında separat müqavilə imzalandı ki, buna əsasən Sunjenski rayonu İnquşetiya-

ya, Çernovodsk və Assinovski yaşayış məntəqələri Çeçenistana verildi. Amma Dudayevin ölümündən sonra Çeçenistan, İnquşetiyaya qarşı torpaq iddiası qaldırdı. İndi həm inquşlar, həm də çeçenlər Sunjenski rayonunu özününkü hesab edir. 2001-ci ilin yanvarında Çeçenistanda inzibati mərkəzi Sernovodsk olan Sunjenski rayonu yaradılmışdı. İnquşların Sundenski rayonunun çahəsi 881 $km^2$-dir. Burada neft yataqları mövcuddur.

Repressiyaya uğramış xalqların reabilitasiya problemi, əsasən ərazi reabilitasiyası çox böyük partlayışa səbəb oldu. Şimali Qafqazda ikinci ən böyük etno-siyasi münaqişə osetin-inquş münaqişəsidir. Onun da kökləri 1944-cü ilə gedib çıxır. 1944-cü ilin yanvarın 31-də SSRİ DTK-nın qərarına əsasən Çeçen-inquş MSSR ləğv olunaraq 100 minə yaxın inquş Qazaxıstana sürgün edilmişdir. SSRİ dağıldıqdan sonra RF parlamenti "İrticaya məruz qalmış xalqlar haqqında" qərar qəbul etdi. Həmin qərara əsasən Sibirə, Qazaxıstana sürgün edilmiş Qafqaz xalqlarının təkcə hüquqları deyil, həm də əvvəlki inzibati-ərazi bölgələri də özlərinə qaytarılmalı idi. Bu qərar Şimali Osetiyada narahatçılıq yaratdı. Onların sürgündən sonra sahib olduqları inquşlara məxsus münbit Priqorodik rayonunu qaytarmaq istəməməsi 1992-ci ilin oktyabrın 31-də inquşlarla osetinlər arasında münaqişəyə səbəb oldu. Həmin gün Şimali Osetiyada soyqırım baş verdi.

Rus siyasətçiləri Çeçenistandakı hadisələri Rusiyanın bu regiondakı milli və geosiyasi maraqlarına açıq meydan oxumaq kimi qiymətləndirirlər. Rusiya Geosiyasi Ekspertiza Mərkəzinin direktoru A.Q.Dugin qeyd edirdi ki, müasir Rus dövlətinin efektivliyi bu gün indikatorun bir nöqtəsi ilə - Şimali Qafqazdakı, əsasən Çeçenistandakı vəziyyətlə qiymətləndirilir. Rusiyaya qarşı çıxış edən qüvvələr qarşılarına Rusiyada, xüsusilə Şimali Qafqazda vəziyyəti gərginləşdirmək, postsovet məkanında Rusiyanın təsirini ləğv etmək, sonra isə RF timsalında Avrasiya məkanını bölüşdürmək məqsədi qoymuşdular. Rusiya dilemma qarşısındadır. O siyasi cəhətdən o qədər zəifdir ki, regiona daxil olan xarici qüvvələrin qarşısını ala bilmir. Həm də o qədər kasıbdır ki, öz gücü ilə bu bölgədə fəaliyyət göstərə bilmir. Rus liderlərinin bir hissəsi başa düşürlər ki, indiki yeni dövlətlərdəki demoqrafik proses onu

göstərir ki, iqtisadi inkişafı saxlamaq məsələsindəki uğursuzluq axırda Rusiyanın cənub sərhədlərində (Çeçenistan, Dağıstan və s.) vəziyyəti partlayış səviyyəsinə gətirib çıxara bilər. Bunu başa düşən Rusiya Türkiyə və İranın Qafqazdakı fəaliyyətinin qarşısını almaq, Amerikanın yeni suveren respublikalara geosiyasi təsirini məhdudlaşdırmaqdan ötrü yeni qarşılıqlı münasibətlər sistemi yaratmağa səy edir. Bandan məqsəd Rusiyanın yeni yaranmış dövlətlərdə öz üstün geosiyasi və iqtisadi mövqeyini saxlamaqdır.

Qafqazda inzibati-ərazi sərhədlərinin əsassız dəyişməsi də bu regionda çoxlu münaqişələrə yol açmışdır. XX əsrin sonlarından başlanmış erməni-Azərbaycan, gürcü-abxaz, gürcü-cənubi osetin ziddiyyətləri əvvəl münaqişələrə, sonra isə qanlı müharibələrə çevrildi. İki Çeçen müharibəsi, osetin-inquş qarşıdurması çoxlu insan itkisinə və dağıntılara yol açdı.

Tarixi təcrübə göstərir ki, mərkəzi hakimiyyətin zəifləməsi bir tərəfdən, ölkənin bu və ya başqa regionunda milli münaqişələri gərginləşdirir, digər tərəfdən mərkəzdənqaçma meyllərini surətləndirir.

XX əsrin sonu - XXI əsrin əvvəllərində Qafqaz regionunun geosiyasi əhəmiyyətinin armtasının bir çox səbəbləri vardır. Bunlar əsasən aşağıdakılardır:

1) Qafqaz (geniş mənada – Qafqaz-Xəzər-Qara dəniz regionu) zəngin təbi sərvətlərə (ən çox da krbohidrogen xammalına) malik bir bölgə kimi diqqət mərkəzindədir.

2) Bu bölgə gələcəkdə "Şərq-Qərb" və "Şimal-Cənub" xətti üzrə mühüm transmilli nəqliyyat qovşağına çevrilə və Fars körfəzinin neft emalı ölkələrinə alternativ təşkil edə bilər.

3) Geosiyasi nöqteyi-nəzərdən Qafqaz Rusiyanın ən kövrək yer və "yumşaq qarınaltısı"dır. Burada milli münaqişələr daim közərməkdə və alovlanmaqdadır. Qafqazın müstəqilik qazanmış ölkələri «Qərbə meyl edərək Rusiyadan ayrı düşürlər».

4) Bir çox tədqiqatçılar hesab edirlər ki, Qafqaz regionu "Rusiya Balkanlarına" və "Qeyri-sabit Avrasiya qurşağı"nda möhkəmlənmiş həlqəyə çevrilə bilər.

5) Qafqaz dünya siyasətinin lokal, regional və qlobal maraqların hökm sürdüyü və toqquşduğu ən mühüm mərkəzlərdən birinə

çevrilməkdədir. Burada təsir dairələri uğrunda Rusiya, ABŞ, Qərbi Avropa ölkələri, Türkiyə və İran mübarizə aparırlar.

Neft bazarı elə bazardır ki, o bazar iqitsadiyyatının yazılmış və yazılmamış qanunlarına tabe olmur. Məsələn, son onilikllər ərzində dünyada bütün xammal məhsulları ucuzlaşsa da, neftə bunu aid etmək olmaz. Demək olar ki, neft qədər siyasiləşən, qloballaşan, imicli strateji məhsul yoxdur. II dünya müharibəsindən sonra baş vermiş müharibələrin əksəriyyətinin təməlində neft faktoru durur. Gələcəkdə neft istehlak edən ölkələrin neft istehsal edən ölkələrə qarşı müharibəsi mümkündür. Bunun üçün motiv, güc və vəsait də vardır. Nə İngiltərə, nə də ABŞ həmişə ideoloji cəhətdən əsaslandırmaqdan müharibə aparmırlar. Belə bir deyim var ki, heç vaxt ovdan sonra və müharibədən qabaq danışılan qədər yalan danışılmır.

## ABŞ-ın Dağıstan siyasəti

Rusiyanın cənubunda etnosların daha çox məskunlaşdığı bölgə Dağıstandır. İki milyondan çox əhalisi olan Dağıstanda 40-a qədər yerli etnoslar yaşayır.

Müasir Avrasiya geosiyasi sistemində Dağıstan həm regional, həm də ümumdünya xarakterli maraqların kəsişdiyi bir zonadır. Respublikanın geosiyasi mövqeyinin mühümlüyü onun Avropanı Yaxın və Orta Şərqlə və həmçinin, Mərkəzi Asiya ilə birləşdirən əsas kommunikasiyaların kəsiyində yerləşməsidir.

Dağıstan bir tərəfdən Cənubi Qafqaz ölkələri ilə, digər tərəfdən İran və Türkiyə ilə həmsərhəddir. Bundan başqa bu bölgə Xəzər və Qara dəniz regionunu birləşdirən mühüm coğrafi bir məkandır.

Rusiya üçün Dağıstan Cənubi Qafqaz ölkələri ilə iqitsadi və digər əlaqələri yaratmağa imkan verən ən cənub sərhəd zonasıdır. Bundan başqa, Dağıstanın donmayan dəniz limanları Rusiyaya Xəzər dənizi vasitəsilə xarici ölkələrlə əlaqə yaratmağa imkan verir. Beləliklə, Dağsıtanın, Rusiyanın strateji və geosiyasi maraqlarının qorunmasında, cənub sərhədlərindəki siyasi və sosial-iqitsadi sabitliyin təminində, Qafqazdan tutmuş Mərkəzi Asiyayadək

geniş bir regionda öz təsirini möhkəmləndirməkdə böyük rolu vardır. Onu da unutmaq olmaz ki, bu bölgənin Xəzər dənizi şelfindəki karbohidrogen yataqlarının yaxınlığında yerləşməsi XXI əsrdə Dağıstanın mühüm neft emalı rayonuna çevriləcəyini ehtimal etməyə əsas verir. Xəzər nefti və qazını Arvopa bazarına daşınması üçün ən qısa yolun gələcəkdə buradan keçməsi mümkündür.

Məhz Xəzər neti Cənubi Rusiyanı dünya regional dövlətlərinin rəqabət zonasına çevirir.

Geosiyasi yerdəyişmə nəticəsində Dağıstanın həm ümumrus, həm də Qafqaz geosiyasi regionunda mövqeyi dəyişilmiş oldu. Bu isə respublikada geosiyasi vəziyyətin dəyişkən və zididyyətli xarakter almasına gətirib çıxardır. Münaqişə törədici faktorlar Dağıstanın geosiyasi sabitliyinə təsir etməklə yanaşı, həm də Rusiyanın cənubu, həm də digər dövlətlər üçün real və potensial təhlükə mənbəyidir. Dağıstanın  sosial-mədəni xarakteristikasının əsasını təşkil edən etnosiyasi və siyasi-dini faktorlar, həm də xarici təsirlər respublikada münaqişələri, zididyyətləri, etno-siyasi təhlükəni daha da artırır.

Dağıstan Respubilkasında sabitlik ən çox Qafqaz, Xəzər və Asiya regionunda Rusiyanın hərbi və iqitsadi iştirakının saxlanmasından asılıdır. Yuxarıda qeyd etdiyimiz kimi bu sabitilk həm də bölgədə etno-siyasi vəziyyətlə xarakterizə olunur. Belə ki, 1990-cı illərdən başalyaraq Dağıstanda etnik separatizm geniş vüsət almışdır. XX əsrin 90-cı illərində artıq əhalinin etnik özünüdərkində və dindarlığında artım müşahidə olunur. Milli və dini radikalizmin artması Dağıstanda etnoslararası qarşıdurmaları, münaqişələri qızışdırır.

Dağıstandakı daxili-siyasi proseslərin birinci mərhələsi 1980-ci illərin sonundan – 1993-cü ilə qədər olan dövrdə dini cəmiyyətlərin yaranması və onların ictimai xarakterli ilk aksiyları ilə başlamışdır.

1993-1995-ci illəri əhatə edən ikinci mərhələdə milli münasibətlər kəskinləşir, milli hərəkatlar yaranır və fəallaşır, milli əlamətlərə görə dindarların və onlar idarə orqanlarının parçalanması prosesi baş verir.

1995-1999-cu illəri əhatə edən üçüncü mərhələdə vəhabilərin siyasi fəallığının artması müşahidə edilirdi.

1999-cu ildən başlayan dördüncü mərhələ isə vəhabilərin hərbi məğlubiyyəti və onların fəaliyyətinə siyasi qadağanın qoyulması ilə əhlavətdardır.

Dağıstandakı proseslərə xarici qüvvələrin də təsirinin az olmadığını da nəzərdən qaçırmaq olmaz. 1990-cı illərin ikinci yarısından başlayaraq xarici qüvvələrin respublikada baş verən daxili siyasi proseslərə təsiri güclənməyə başlamışdır. Bununla yanaşı etno-elitanın regionda mülkiyyətin bölüşdürülməsi, hakimiyyət və siyasi nüfüz uğrunda mübarizəsi də müşahidə edilməyə başlandı.

Rusiya bu məsələnin həllinə MDB-ni təşkil etməklə başladı. Bu sistem Rusiyaya MDB-yə daxil olan respublikaları bir mərkəzdən idarə etməyə imkan yaratdı. MDB-də liderlik qazanan Rusiya həmçinin "Birliyin xarici sərhədlərinə vahid mərkəzdən nəzarətini təmin etməyə səy göstərirdi. Məqsəd isə əvvəlki neft kəmərlərinin çəkilişini genişləndirmək və Rusiyadan yan keçən yeni kəmərlərin çəkilişinə yol verməmək idi.

Tipoloji olaraq Dağıstandakı sabitliyi təhlükə altına alan etno-siyasi, sosial-iqtisadi, ideoloji və geosiyasi amilləri xüsusi qeyd etmək vacibdir.

Geosiyasi amil respubilkada müasir etno-siyasi, etno-dini proseslərin təsiri altında münaqişə və ziddiyyətlərin törətmə qabiliyyətini yüksəldir. Radikal millətçilik, siyasi və dini ekstremizm, həll olunmamış hərbi münaqişələr, sosial-iqitsadi inkişafın çətinlikləri və s. amillər Şimali Qafqaz respubilkalarında gərginliyi daha artırır. Bu isə Rusiyanın geosiyasi rəqiblərinə bölgədə qeyri-sabit vəziyyət yaratmaq üçün imkan vermiş olur. NATO-nun öz təsir zonalarından kənarda hərbi əməliyyatlar aparmaq səlahiyyətləri əldə etməsi və 1993-cü ildə bu blokun qəbul etdiyi proqram sənədi əsasında Qafqazda "sülhməramlı əməliyyatların aparılma mexanizmlərinin işlənməsi" ideyası əsasında fəaliyyət proqramının hazırlanması məhz bu məqsədə xidmət edirdi.

Geosiyasi amil ölkələrin etno-konfessional vəziyyətinə də açıq təsir göstərir. İdeoloji boşluq bu bölgədə dini idleyalarla doldurulmuşdur.

Bu gün Dağıstanda islam hərəkatı yekcins deyildir. 2001-ci ildə Şimali Qafqazda  mövcud olan 1499-müsəlman cəmiyyətlərinin 1099-u Dağıstanda fəaliyyət göstərirdi. Dağıstan islamın sünni məzhəbi üzrə Qafqazın forpostudur. Dağıstan Respubilkası Şimali Qafqazda radikal islam hərəkatının genişlənməsində mühüm yer tutur. Məhz ilk dəfə 1999-cu ilin avqustunda onun ərazisində cihad şüarları altında mövcud hakimiyyət devirmək və konstitusiyalı quruluşu dəyişdirmək məqsədi güdən hərbi qiyam baş verdi. Bu qiyam çeçenistanda vəziyyəti kəskinləşdirdi.

Buradan belə bir nəticəyə gəlmək olur ki, məhz Dağıstan "Radikal islamçılığın" real "təzyiq" dərəcəsini  göstərən  dəqiq barometrldir. Dini-estremist cərəyan olan vəhabiliyin təmsilçilərinin Dağıstana gəlişi ildən-ilə dəyişir. Belə ki, buraya 2001-ci ildə 2538 nəfər, 2002-ci ildə 864 nəfər, 2003-cü ildə - 957 nəfər, 2004-cu ildə 1004 nəfər onların nümayəndələrindən gəlmişdir.

Lakin Dağıstanda məscidlərin, dini tədris müəssisələrinin dini partiya və təşkilatlarının və ədəbiyyatlarının artmasına baxmayaraq dini düşüncə aşağı səviyyədədir. Bu isə iqitsadi və siyasi faktorlarla birilkdə bölgədə dini ekstremizm üçün münasib şərait yaradır.

Dağıstanda milli ekstemizm isə respubilka ərazisini milli tərkibə görə parçalamağa cəhd göstərən terrorçu təşkilatlar və ya qüvvələrin timsalında özünü büruzə verir. Əgər belə olarsa, Dağıstan ərazisində ən azı 11, ən çoxu 30 respubilka yarana bilər. Bu prinsipi bölgədə irəli sürən terrorçu «Sadval» təşkilatıdır.

1992-ci ilin noyabrında Dağıstan xalqlarının II qurultayı keçirildi. Belə nəticəyə gəlindi ki, Dağıstan bölünməzdir və bölgədə əmin-amanlığa burada yaşayan xalqların maraqlarındakı bərabərlik hesabına nail olmaq olar. əgər millətlər "öz problemlərini" ayrılıqda həll etmək istəsələr, bu region üçün faciəli sonluğa gətirib çıxara bilər.

"Sadval" isə öz fəaliyyətini genişləndirməklə bütün Qafqazda terror küləyi əsdirir. Bu təşkilatın cızmış olduğu xəritəyə Azərbay-

canın Şimal əraziləri də daxil edilmişdir. Tarixən Azərbaycanla Dağıstan arasında sərhəd olmamışdır. Yeni münaqişə ocağı yaratmaq üçün Rusiya 1992-ci ilin yayında ciddi sərhəd rejimi yaradılması fikrini irəli sürdü.

## IV. ABŞ və Rusiyanın Şərqi Avropa və keçmiş Sovet məkanında nüfuz dairəsi uğrunda mübarizəsi

İkinci Dünya müharibəsindən sonra Şərqi və Cənubi-Şərqi Avropanın bir sıra ölkələrində SSRİ-nin təsiri nəticəsində sosializm cəmiyyəti quruldu. Lakin bu ölkələrdə (Polşa, Çexoslovakiya, Macarıstan, Pribaltika ölkələri) “sovet modeli”nin tətbiqi, milli xüsusiyyətlərin nəzərə alınmaması əhali içərisində böyük narazılığa səbəb oldu. Hələ XX əsrin 50-ci illərində ADR, Polşa və Macarıstanda SSRİ-nin siyasəti və sosializm quruluşuna qarşı olan çıxışlar, 1968-ci il Çexoslovakiyada, 70-ci illərdə Polşada baş verən hadisələr bunun əyani sübutu idi. O zaman bu çıxışlar SSRİ tərəfindən yatırıldı.

XX əsrin 70-ci illərinin sonunda dünyada sağa doğru dönüş baş verdi. “Firavanlıq dövləti” anlayışından əl çəkilməyə başladı. “Dünyanın böyük dövlətlərində” yeni mühafizəkarlığı müdafiə edən qüvvələr hakimiyyətə gəldilər. Məlum oldu ki, artıq dünyada vahid status-kovu saxlamaq mümkün deyildir. SSRİ xarici siyasətdə “yeni siyasi təfəkkür tərzi” doktrinasını irəli sürdü ki, bunun mahiyyəti inzibati-amirlik metodlarından əl çəkmək, ən kiçik dövlətin də mənafeyi ilə də hesablaşmaq demək idi. SSRİ ilə ABŞ arasındakı münasibətlərdəki mülayimləşmə dünya hadisələrinin gedişinə də öz təsirini göstərdi. Şərqi Avropanın sosialist ölkələri SSRİ-də yaranan vəziyyətdən məharətlə istifadə edərək, demokratik inkişaf yolunu seçdilər, çoxpartiyalılığı tətbiq etdilər. bazar iqtisadiyyatına keçdilər. SSRİ dağılmağa başladı. onun tərkibindən 1990-cı ilin martında Pribaltika ölkələri çıxdıqlarını bildirdilər. 1991-ci ilin dekabrın 8-də Rusiya, Ukrayna və Belarusiya 1922-ci il SSRİ-nin təşkili haqqında İttifaq müqaviləsindən imtina etdilər və MDB-nin (Müstəqil Dövlətlər Birliyinin) yaradılması haqqında saziş bağladılar. 1991-ci ilin dekabrın 27-də SSRİ-nin mövcudluğuna son qoyuldu.

B.Yeltsinin baş məsləhətçisi Dmitri Ryurikov “İnterfaks”da (20 noyabr 1996-cı il) Ukraynanı “müvəqqəti fenomen” kimi göstərir. Moskvada çıxan “Obşaya qazeta” (10 dekabr 1996-cı il) yazırdı ki, Ukraynanın Şərq hissəsi Rusiya üçün gələcəkdə çətin bir məsələ ola bilər. Təzahür edən ümumi narazılıq...belə bir

çağırış, hətta tələblə nəticələnə bilər ki, Rusiya bu regiondan tamamilə əlini çəksin. Moskvada da bu "planla razı olanlar kifayət qədərdir". Qərb dövlətləri Rusiyanın Krıma və Sevastopola qarşı irəli sürdüyü iddialardan narahat olduğunu da açıqca bildirməkdən çəkinmir.

Rusiya üçün yeganə geostrateji seçim Avropanın timsalında öz cəmiyyətini yeni dəyişikliyə uyğun surətdə qurmaq və modernləşdirmək yolu ilə maksimum imkanlar qazanmaq, nəticədə beynəlxalq aləmdə real rolunu oynamağı bacarmaq idi. Həm də bu sadəcə Avropa deyil, Aİ və NATO-nun genişlənməsi ilə müşayiət olunan transatlantik Avropası ola bilər. Belə Avropa isə ABŞ-la sıx əlaqədar idi. Rusiyanın təhlükəli geosiyasi təcrid olunmadan qurtarmaq üçün yeganə çıxış yolu bu ola bilərdi.

Amerika üçün Rusiya o qədər zəifdir ki, partnyor ola bilməz. Lakin əvvəlki kimi Rusiya yenə də hərbiyə görə güclü rəqib olaraq qalırdı. Amerika üçün Rusiyanın diqqətini mühüm geosiyasi seçimdən yayındırmaq vacid idi. Ona görə də ABŞ-ın Çin və İranla münasibətləri də bu müstəvidə qurulmalı və bu vəziyyət ABŞ məqsədinə çatana qədər davam etdirilməli idi. Rusiya öz ağır xəstəliyindən xilas almaq üçün böyük geostrateji variant haqqındakı xəyallarının saxlanmasını tarixin seçimi üçün təxirə salmağa məcbur idi.

Sovet İttifaqının mövcudluğuna son qoyulması, onun ərazisində yeni müstəqil dövlətlərin yaranması dünyada, geopolitik şəraiti köklü surətdə dəyişdirdi. İki çox qüdrətli dövlətdən birinin, eyni zamanda dünyada nüfuzlu cazibə qüvvəsi olan dövlətin siyasi meydandan getməsini dünya ictimaiyyəti yeni keyfiyyət dəyişikliyi kimi başa düşdü. Rusiyanın və MDB-nin üzvü olan digər ölkələrin keçirdiyi ciddi çətinliklərin – iqtisadiyyatın dağılmasının, əhalinin əksəriyyətinin yaşayış səviyyəsinin pisləşməsinin, siyasi mütərəddidliyin, etnik qruplar arasındakı münaqişələrin və cinayətkarlığın artmasının dərk edilməsi bu baxışın təsdiq olunmasını tamamladı.

Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində yeni rejimlərin qurulması və VMT-nin özünü buraxması ilə əlaqədar olaraq sosialist birliyi adlanan çərçivə daxilində fəaliyyət göstərən beynəlxalq münasibətlərin əvvəlki sistemi öz mövcudluğunu dayandırdı. Şərqi

Avropa ölkələrinin ticarət-iqtisadi əlaqələrinin inkişafının Qərbə istiqamətlənməsi və Rusiyanın onlarla dünya qiymətləri üzrə valyuta haqq-hesabına keçməsi ənənəvi dostluğun müxtəlif sahələrdə zəifləməsinə səbəb oldu. Gündəlikdə Rusiyanın keçmişdə SSRİ-nin Varşava Müqaviləsi üzrə müttəfiqləri və QİYŞ üzrə partnyorları olan dövlətlərlə qarşılıqlı münaqişələrin yeni əsasda hüququ müqavilə şəklində rəsmiləşdirilməsi vəzifəsi dururdu. Dərhal dərk olundu ki, Rusiyanın xarici siyasətində birinci istiqamət yaxın xarici ölkələrlə - MDB-yə daxil olan və onun işində iştirak etməkdə bitərəf qalan ölkələrlə qarşılıqlı əlaqə yaratması idi. SSRİ-nin dağılması həllini təcili surətdə tələb edən mürəkkəb problemlər doğurdu. Bunlar Rusiyanın milli təhlükəsizliyinin təmin edilməsi, SSRİ-nin silahlı qüvvələrinin taleyi, İttifaqın xarici borclarının ödənilməsi və iqtisadi islahatların aparılması üçün kredit alınması, SSRİ-nin xarici mülkiyyətinin bölünməsi, yaxın xarici ölkələrdə yaşayan rusdilli əhalinin qanuni hüquq və azadlıqlarının müdafiə edilməsi, Rusiyanın və MDB-nin bir sıra ölkələrinin sərhədlərində baş verən, bəzi hallarda dövlətlərarası münaqişələrə çevrilən və böyük insan itkisinə səbəb olan, qanlı toqquşmalara gətirib çıxaran münaqişələrin nizama salınması idi.

Uzunmüddətli amillərin ölçülüb-biçilmiş hesabının olmaması xarici iqtisadiyyat və xarici siyasətin inkişaf etmiş Qərb ölkələrinin xeyrinə birtərəfli qaydada yerini dəyişməsinə gətirib çıxartdı. Rusiyanın xarici siyasətini yüksək səviyyədə təmin etmək üçün onun tarazlaşdırılması, rus diplomatiyasının lüzumsuz qorxaqlığının aradan qaldırılması, müdafiə mövqeyindən və başqa dövlətlərin fəaliyyət tərzini təqlid etməkdən imtina edilməsi, böyük cəsarət və sərbəstlik göstərilməsi vacib idi. lakin XX əsrin 90-cı illərinin ortalarına qədər Rusiya hələ özündə güc tapmaqda çətinlik çəkirdi. Bu fürsətdən Qərb dövlətləri, ilk növbədə ABŞ məharətlə istifadə edir, keçmiş postsovet məkanında yaranan respublikalara iqtisadi müdaxiləni gücləndirirdi.

Byezinski yazırdı ki, "Rusiya...böyük geosiyasi təsirə malik olaraq qalır, baxmayaraq ki, hazırda zəifləmiş dövlətdir və ola bilsin ki, xəstəliyi uzun çəkəcək. O, geosiyasi məqsədlər iddiasında üzür, qonşularına gec-tez mühüm təsirini göstərəcəkdir".

Dünya sosializm sistemi iflasa uğradıqdan sonra keçmiş sosialist ölkələri əvvəl heç bir nüfuz dairəsinə daxil olmadılar. Elə bil ilk anlar Avropanın mərkəzində bir boşluq, "qara dəlik" yaranmış oldu. SSRİ-nin varisi olan Rusiyanın ilk anlar başı daha çox öz daxili problemlərinə qarışdığına görə artıq dünyanın yeganə güclü super dövləti olan ABŞ Avrasiya onun xarici siyasətinin əsas istiqamətlərindən biri olduğu üçün bu fürsətdən məharətlə istifadə etməyə başladı. Çünki, ABŞ üçün Avrasiya materikinə sahib olmaq dünyaya sahib olmağın açarı idi. bir çox Amerika siyasətçiləri "Yerin ürəyi" konsepsiyasını irəli sürürlər. Bu konsepsiyaya görə Şərqi Avropa Yer kürəsinin ürəyiditr. Ona görə də Şərqi Avropaya sahib olmaq Avrasiyaya sahib olmaq, Avrasiyaya sahib olmaq isə dünyaya sahib olmaq deməkdir. Ona görə də Şərqi Avropadakı boşluğu doldurmaq, "qara dəliyi" işıqlandırmaq ABŞ-ın xarici siyasətində mühüm yer tutmağa başladı. ABŞ əvvəllər də Şərqi Avropaya qarşı laqeyd olmamışdı. Belə ki, hələ Lindon Consonun prezidentliyi dövründə" ""Körpülər salma", "Quruculuq" doktrinası, R.Reyqanın prezidentliyi dövründə "Kütləvi diplomatiya və demokratiya" doktrinası məhz Şərqi Avropa ölkələri ilə əlaqədar verilmişdir. Lakin o zaman, onun SSRİ, XX əsrin 90-cı illərində isə onun varisi olan Rusiya qarşısında dururdu. Hərbi cəhətdən bir qədər zəifləsə də, Rusiya Avrasiya kontingenti ilə əlaqədar şahmat lövhəsində özünün bir sıra parçalarını itirsə də,öz geosiyasi məqsədində iddialıdır və yenə də bir sıra əsas mövqeləri öz əlində saxlamaq iqtidarında idi. Almaniya, Fransa və Rusiya arasında yaxınlıq olmamaq üçün Şərqi Avropa onları ayıran başlıca ərazi olduğuna görə də ABŞ-ın diqqətini cəlb etməyə bilməzdi.

Şərqi Avropanın keçmiş sosialist ölkələri SSRİ-nin təsir dairəsindən çıxdıqdan sonra. Avropa qurumları və NATO ilə əməkdaşlığa öz xarici siyasətlərində xüsusi üstünlük verirdilər.

Hələ 1991-ci ilin iyun ayında Şərqi Avropa ölkələrinin gərgin hərbi-siyasi və iqtisadi strukturlarına inteqrasiyası başlandı.

1994-cü ilin yanvar ayında NATO-nun Brüsseldə keçirilən sessiyasında qəbul edilən "Sülh naminə tərəfdaşlıq proqramı"nı Şərqi Avropa ölkələri də imzaladılar. 1994-cü ilin may ayında VMT-nin keçmiş üzvü olan Polşa, Çexiya, Slovakiya, Macarıstan,

Rumıniya, Bolqarıstan və Baltikyanı ölkələr Lüksemburqda Qərbi Avropa İttifaqının assosiativ üzvlüyünə qəbul edildilər.

Əvvəllər Rusiya buna öz maraqlarına zidd olmayan bir hadisə kimi baxırdı. Hətta 1993-cü ilin avqustunda RF prezidenti B.Yeltsin bunu öz çıxışında da bir daha təsdiq etdi. Lakin bundan iki il keçməmiş Rusiya "valı dəyişdirdi" və bu məsələyə başqa münasibət bəsləməyə başladı.

Sovet hərbi təhlükəsi və kommunizmin Qərbə doğru genişlənməsi qorxusu aradan qalxdığı üçün NATO potensial rəqib və mümkün ola biləcək münaqişənin xarakteri barədə əvvəlki təsəvvürlərdən məhrum oldu. Buna görə də dünyada baş verən dəyişiklikləri nəzərə alan doktrinanın hazırlanmasına kəskin ehtiyac duyulurdu. Bu yolda birinci addım 1992-ci ildə ATƏM-in HElsinkidə keçirilən sammitində atıldı. Helsinki sammitində NATO qüvvələrindən ATƏM-in sülhməramlı əməliyyatlarında istifadə edilməsi haqqında qərar qəbul edildi. Həmin ilin dekabr ayında NATO regional münaqişələrin Avropanın təhlükəsizliyi üçün əsas qorxu olmasına dair qərar qəbul etdi. Bu iki qərar blokun yeni konsepsiyası üçün təməl rolunu oynadı. NATO-nun yeni konsepsiyası blokun 1999-cu ilin aprel ayında Vaşinqtonda keçirilən yubiley sessiyasında rəsmi olaraq qəbul edildi. Doktrinaya görə xarici təcavüzdən müdafiə tələbinə kütləvi qırğın silahının yayılmasına və terrorizmə qarşı mübarizə aparmaq tələbi də əlavə edildi. Potensial düşmən tərəfindən kütləvi qırğın silahından istifadə təhlükəsi yarandıqda NATO bloku birinci olaraq atom zərbəsi endirə bilərdi. NATO həmçinin 19 dövlətin ərazisindən kənarda baş verən münaqişələrin nizama salınması üçün silahlı qüvvələrdən istifadə edəcəyini bəyan etdi. Beləliklə, NATO özü üçün suveren dövlətlərin daxili işlərinə qarışmaq hüququ əldə etdi. NATO bununla da regional hərbi-siyasi təşkilatdan qlobal güc strukturuna çevrilərək münaqişələrin tənzimlənməsində əsas rol oynamağa başladı.

1994-cü ildə NATO-nun Şərqə doğru genişlənməsi haqqında qərar qəbul edildi.ABŞ 1996-cı ildə NATO-nun Şərqə doğru genişlənməsi məsələsini mərkəzi vəzifələrindən biri kimi irəli sürdükdə Rusiya bu məsələni çox sərt qarşıladı.

1989-cu ilin noyabr ayında Berlin hasarlarının sökülməsi, "soyuq müharibə"nin qurtarması, Varvara müqaviləsi təşkilatının buraxılması, SSRİ-nin süqutu Avropada parçalanmanın sonundan xəbər verirdi. 1990-cı ilin oktyabrında AFR və ADR-in birləşməsi nəticəsində keçmiş Şərqi Almaniya NATO-ya daxil oldu. Öz azadlıqlarına təminat almaq üçün Şərqi Avropanın digər ölkələri də bu quruma girmək qərarına gəldilər.

NATO-nun Şərqə doğru genişlənməsi məsələsinin müzakirəsi hələ 1990-cu ildən Almaniyanın birləşdirilməsi məsələsi ilə əlaqədar başlamışdı. Lakin o zaman bu fikirlər sənədlərlə möhkəmləndirilmədiyindən Rusiya buna kifayət qədər əhəmiyyət vermirdi.

NATO-nun fasiləsiz genişlənməsi prosesi hər hansı bir ölkə üçün özlüyündə təhlükə təşkil etmir. O, sabitlik və əməkdaşlığa, vahid, sülhsevər, demokratik Avropanın qurulmasına, ümumi dəyərlərin qorunmasına doğru yönəldilmişdir.

1995-ci ildə Şimali Atlantika İttifaqı "NATO-nun genişlənməsi haqqında tədqiqatlar" haqqında nəticəni nəşr etdirdi.

Tədqiqatdan belə bir nəticə çıxarılırdı ki, "Soyuq müharibə"nin qurtarması ilə bağlı bütün Avroatlantik regionda təhlükəsizliyi möhkəmləndirmək üçün nadir imkanlar meydana gəlmişdir və NATO-nun genişlənməsi ümumi sabitliyin və təhlükəsizliyin möhkəmlənməsini təmin edir. Həmçinin bu proses demokratik islahatların keçirilməsinə təsir edəcək, o cümlədən silahlı qüvvələr üzərində demokratik və mülki nəzarətə imkan verəcək. NATO-nun genişlənməsi əməkdaşlığın, məsləhətləşmənin, konsersusun nailiyyətlərinin model və ənənələrinin yenidən təkmilləşməsinə səbəb olacaq, NATO-nun genişlənməsi həmçinin transatlantik tərəfdaşlığının möhkəmlənməsinə və dərinləşməsinə gətirib çıxaracaqdır. NATO-nun üzvlüyünə daxil olmaq istəyən dövlətlərdə demokratik siyasi sistem fəaliyyət göstərməli və o, bazar iqtisadiyyatına əsaslanmalı, milli azlıqlara ədalətli münasibət bəsləməli, münaqişələri dinc yollu həll etməyə çalışmalı, NATO-nun əməliyyatlarında bacarıq və hazırlığı ilə öz hərbi gücünü nümayiş etdirməli, demokratik hərbi-mülki münasibətlərə və institutlara etimad göstərməli idi.

1997-ci ilin mayın 27-də Parisdə "Rusiya Federasiyası ilə NATO arasında qarşılıqlı münasibətlər, əməkdaşlıq və təhlükəsizlik haqqında əsas akt" imzalandı. Bu sənəddə tərəflərin məqsədinin demokratiya və təhlükəsizlik prinsipləri əsasında Avroatlantika məkanında uzun müddətli və hərtərəfli sülhün təmin edilməsi olduğu bildirildi. NATO ölkələri bloka daxil olan dövlətlərin ərazisində nüvə silahı yerləşdirməmək, hərbi fəallığı məhdudlaşdırmaq, Avropada silahlanmanın əvvəlki səviyyəsini saxlamaq haqqında öhdəlik götürdülər. NATO-nun 16 üzvü və Rusiya birgə daimi şura yaratdılar. Birgə daimi şuraya daxil olanların hamısı təhlükəsizlik təmin edilməsində, o cümlədən sülhsevər qüvvələrdən istifadə edilməsində Veto hüququna malik idilər. Lakin bu, ancaq BMT-nin və ya ATƏT-in razılığı ilə ola bilərdi. Daimi şura bununla belə böhran vəziyyətində kollegial qərar qəbul edən bir orqana çevrilmədi.

Rusiya Federasiyası sənədi imzalamaqla Avropada hərbi-siyasi qüvvələrin yeni nisbəti ilə razılaşmış oldu.

Macarıstan, Polşa və Çexoslovakiya NATO-ya 1999-cu ilin martında "dördüncü genişlənmə" zamanı daxil oldu. 1997-ci ildə ölkədə keçirilən referendum nəticəsində seçicilərin 85%-i Macarıstanın NATO-ya girməsi lehinə səs verdilər. Macarıstan, Çexiya Polşanın NATO-ya girməsində çətinlik ondan ibarət idi ki, bu ölkələr alyansa uyğun olaraq öz ordularını yenidən silahlandırmalı idilər. Onlarda sovet-hərbi-texniki bazası üstünlük təşkil edirdi. Bunları yeniləşdirmək üçün isə kifayət qədər imkanları yox idi. Bu vaxta qədər onların büdcəsinin cəmi 1,6%-i orduya xərclənirdi. Onların şəxsi heyəti də lazımınca yüksək səviyyədə deyildi. Ordunun sayı bu ölkələrdə NATO-ya girmək ərəfəsində 40-45 min nəfərə yaxın idi.

1999-cu ilin mart ayının 12-si həm Çexiya, Polşa, Macarıstanın həyatında, həm də bütün Avropanın həyatında məşhur tarixi günə çevrildi. "Soyuq müharibə" qurtardıqdan sonra Şimali Atlantika alyansının Şərqə doğru genişlənməsinin birinci dalğası başa çatdı. Həmin gün yuxarıda qeyd etdiyimiz ölkələr NATO-nun üzvü oldular. Bu ölkələr NATO-ya girməklə ilk növbədə ABŞ-a rəğbət bəslədiklərini və onun Şərqi Avropa ölkələrinə münasibətini

bəyəndikləri göstərmək istəyirdilər. Təsadüfi deyildir ki, 2003-cü ilin martında ABŞ İraqa qarşı müharibəyə başladıqda bu üç dövlət "razılaşmış koalisiya"nın tərkibində İraqa qarşı müharibəyə girdilər. Halbuki İraqa qarşı əməliyyat heç də Əfqanıstandan fərqli olaraq NATO-nun missiyası deyildi. Ona görə də bu üç dövlətin bu müharibədə iştirakı Vaşinqton tərəfindən razılıqla qarşılandı. O, zaman Pentaqonun başçısı olan Donald Ramsfeld bu hadisə ilə əlaqədar Avropanı "yeni" və "köhnə" hissələrə bölmüşdü. O, deyirdi ki, çoxları Avropa dedikdə, Almaniya və Fransanı dərhal göz önünə gətirirlər. Lakin bu artıq köhnə Avropadır. Əgər NATO-nun xəritəsini nəzərdən keçirsək, görərik ki, Avropanın ağırlıq mərkəzi artıq onun Şərq hissəsinə düşür.

Vaşinqtona sədaqət Polşa və Çexiyanın öz ərazilərində ABŞ-ın raket əleyhinə müdafiə sistemlərinin yerləşdirilməsinə razılıq verməsində də özünü göstərirdi.

Polşa, Çexiya və Macarıstan NATO-nun bütün müasir əməliyyatlarında iştirak edirlər. Macarıstan ərazisində NATO-nun əsas döyüş qüvvələri keyfiyyətində olan Hərbi Hava Qüvvələri bazalarının yerləşdiyi ölkələrindən birinə çevrildi.

Bu məsələ ilə əlaqədar Rusiya ilə münasibətlərin kəskinləşməsi bu dövlətləri o qədər də narahat etmirdi. Varşava və Praqanı narahat edən səbəblər başqa idi. ABŞ-da Barak Obamanın hakimiyyətə gəlməsi ilə bu məsələyə münasibət də dəyişdi. Barak Obama Rusiyaya münasibətdə ehtiyatlı olmağı vacib hesab edərək bu məsələdən yayınmalı oldu. Bundan başqa NATO-nun üzvü olan dövlətlərin xarici işlər nazirlərinin 2009-cu ilin mart ayının 5-də olan görüşündən sonra alyans yenidən üzünü Rusiyaya çevirməli oldu. Xarici işlər nazirləri razılığa gəldilər ki, NATO-nun Strasburq və Keldə olan sammitlərindən sonra mümkün qədər tezliklə NATO-Rusiya birgə işinin rəsmi statusunu bərpa etmək lazımdır.

Polşa, Çexiya, Macarıstanı ən çox qorxudan cəhət odur ki, Alyans Moskva ilə dialoqda onların maraqlarını qurban verə bilər. Bu həyəcan ABŞ-ın dövlət katibi Hillari Klintonun çıxışında da hiss edilirdi. H.Klinton bildirirdi ki, biz NATO üzrə bütün müttəfiqlərimizlə əməkdaşlıq etmək və onları bütün hallarda müdafiə etmək fikrindəyik. Bizə həm də bəzi Şərqi Avropa ölkələrinin

narahatlığı da yaxşı məlumdur. Onlar Rusiya ilə münasibətdə böyük təcrübəyə malikdirlər. Bu səbəbdən də onlar NATO ilə Moskva, ABŞ-la Rusiya arasında istənilən dialoqdan ehtiyat edirlər. H.Klintonun bu etirafına baxmayaraq, təəccüblü deyildir ki, geosiyasi oyunda xəritələrin ölçüsündə Şərqi Avropa ölkələrində yenə də qorxu yaşamaqda davam edir.

Çexiya respublikasında belə hesab edirlər ki, ölkənin əsas nailiyyətlərindən biri onun NATO-ya qəbul edilməsidir. Çexiyanın xarici işlər naziri Karl Şvartsenburq öz çıxışında qeyd edirdi ki, 90-cı illərdə regionda demokratik dəyərlərin bərpa edilməsində NATO-nun rolu "son dərəcə mühüm" rol olmuşdur. Onun fikrincə, Avropada dəmir pərdə götürüldükdən sonra da NATO-nun öz fəaliyyətini davam etdirməsi onların ən böyük uduşlarından biridir və bu yeni təhlükələrə əks-təsir göstərir.

Çexiya, Polşa və Macarıstan NATO-ya qəbul edildikdən dərhal sonra NATO-nun əsas hərbi əməliyyatlarından birində-Kosovo böhranının aradan qaldırılmasında da iştirak etdilər. Bu onu sübut edirdi ki, alyans müvəffəqiyyətlə yeni eraya uyğunlaşır.

ABŞ həmçinin belə hesab edir ki, raket əleyhinə müdafiə sistemlərinin obyektlərini də Şərqi Avropada yerləşdirə bilər. O, on (10) ədəd raketi əvvəlcədən saxlayan qurğunu Polşada yerləşdirməyi nəzərdə tutmuşdur. Çexiyada isə radar qurğuları yerləşdirmək qərarına gəlmişdir. Vaşinqton bunu İran tərəfindən təhlükənin gözlənilməsi ilə motivləşdirsə də, bunun Rusiya ilə əlaqədar olması şübhəsizdir. Bu sistemlərin 2011-2013-cü illərdə yerləşdirilməsi nəzərdə tutulmuşdur. Aydındır ki, Rusiya bu məsələyə kəskin etirazını nümayiş etdirməyə bilməzdi.

Söhbət geosiyasət haqqında getdikdə bəzən situasiyanın qəbuledilməzliyi haqqında fikir söyləyirlər. Lakin beynəlxalq reallıq sübut edir ki, heç bir geosiyasətin xarakterik xüsusiyyətlərini özündə əks etdirən uzunmüddətli strategiyadan söhbət gedə bilməz. Ona görə də ən böyük dövlət belə tam şəkildə geosiyasi mənliyə malik deyildir və yaxın gələcək üçün də onun belə qalması ehtimal olunur. Avropa və ABŞ-da siyasi mərkəzlərin maraqları göstərir ki, ABŞ-Rusiya münasibətlərinin yüklənməsi nə az, nə də çox, hər şeydən əvvəl, Şərqi Avropada yeni geosiyasi situasiya

yaranmasına səbəb olur. Buraya həmçinin Mərkəzi və Cənubi-Şərqi Avropanı da aid etmək məqsədəuyğun olardı. Ona görə də bu ölkələrin liderləri Barak Obamadan xahiş edirlər ki, ABŞ onların maraqlarını qorusun, onları Rusiyaya "təhvil verməsin". Həqiqətənmi, Rusiya NATO-nun həqiqi üzvləri üçün də mühüm təhlükə mənbəyi olaraq qalır? ABŞ-ın Şərqi Avropa siyasəti bütövlükdə götürüldükdə səmərəli xarakter daşıyır və Rusiyanı Şərqi Avropadan kənarlaşdırmağa xidmət edir. Şərqi Avropa dövlətləri də Fransa, Almaniya, Böyük Britaniyaya etibar etmədiklərini bildirir, ancaq ABŞ-a söykəndiklərini etiraf edirlər. Bu isə ABŞ-a imkan verir ki, yuxarıda adlarını qeyd etdiyimiz dövlətlərin Şərqi Arvopaya təsirini məhdudlaşdıran istənilən layihəni irəli sürsün. Lakin Almaniya və Fransa tezliklə ABŞ-ı yeni keyfiyyətdə - "xarici" siyasət məsuliyyətini məhdudlaşdıran bir dövlət kimi təqdim etdilər. Şübhəsiz ki, ABŞ Rusiyanın Şərqi Avropaya təsirinin məhdudlaşmasında kifayət qədər böyük rol oynamışdır. Lakin N.Sarkozi də Avropanı Rusiya təcavüzündən qoruyan "xilaskar" kimi tanındı. Məhz Sarkozinin fəal mövqeyi Merkelin Rusiyapərəst mövqeyi ilə birləşərək Avropada anti-amerikan ictimai rəyinin formalaşmasına təkan verdi. ABŞ-ın Qafqazda məğlubiyyəti ABŞ-ın qüdrətinin tənəzzülünün güclü siqnalı idi. Avropada ABŞ üçün təhlükəli olan proseslər baş verməyə başladı. ABŞ özünün əvvəlki mövqeyini qaytarmaq üçün bütün siyasi resurslarını təqdim etməli oldu. Şübhəsiz, Avropa müxtəlif regionlarda gözlənilməz hadisələr gözləyir. Hər halda istənilən layihədə ABŞ və Aİ birlikdə çıxış etdikləri zaman dünya siyasətinin iki sahəsi arasında mübarizə baş verir. Hər bir partnyor digər partnyoru sıxışdırmağa cəhd edir.

Dünyanın iki güc mərkəzi olan ABŞ və Rusiya dövlət sərhədlərinin yenidən düzəldilməsində maraqlıdırlar. Lakin əməli olaraq ancaq ABŞ fəal regional siyasət həyata keçirmək imkanlarına malikdir. Bu doktrina ABŞ-ın xarici siyasətində avanqard rol oynayır. ABŞ təkcə Yaxın Şərq və Cənubi Asiyanın deyil, həmçinin Avropanın da bölünməsini istəyir. Avropalılar bu meylin əleyhinə olsalar da, hələlik onun qarşısını almağa tam hazır deyillər. Mahiyyət etibarilə ABŞ çalışırdı ki, partnyorların yeni sırasını

təşkil etsin və daha adekvat regional idarəetmə üçün yeni şərtlərin zəruriliyini onlara təqdim etsin. Avropanın sülh təşəbbüsünə münasibətdə ABŞ-ın siyasəti ziddiyyətli və ikili xarakter daşıyırdı. ABŞ-ın bu konsepsiyası Şərqi Avropa üçün xüsusi rol oynayırdı. ABŞ bu regionun Rusiyadan əlavə, Almaniyanın geo-iqtisadi imperiyasına daxil olmasından da ehtiyat edir.

Pribaltika ölkələri SSRİ və RSFSR tərəfindən müstəqilliyi 1991-ci ildə tanınandan dərhal sonra Şimali Atlantika əməkdaşlıq şurasının işində iştirak etməyə başladılar. NATO ilə münasibətlərin fəallaşması Pribaltika ölkələri üçün, hər şeydən əvvəl, müstəqillikləri üçün təminat, Qərbyönümlü kursa sədaqəti nümayiş etdirmək demək idi. 1994-cü ildən 1997-ci ilə qədər Pribaltika ölkələri partnyor ölkədən Bosniya ə Herseqovinada NATO-nun hərbi missiyasının iştirakçısına qədər yol keçmişdilər. Onlar 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını imzaladılar. 1999-cü ilin aprelində NATO-nun Vaşinqtonda keçirilmiş sammitində Pribaltika ölkələri NATO üzvlüyünə namizəd kimi göstərildilər və NATO-nun Yuqoslaviyada keçirdiyi əməliyyatlarda iştirak etdilər.

2002-ci ildə NATO-nun Praqada keçirilən sammitində Pribaltika respublikaları Bolqarıstan, Rumıniya, Slovakiya və Sloveniya ilə birlikdə alyansa daxil olmaq üçün danışıqlarda iştirak etmək təklifini aldılar, 2004-cu ildə isə rəsmən NATO-nun üzvü oldular. Pribaltika ölkələri bunu onunla izah edirlər ki, alyansın üzvü olmaq onların şərq sərhədlərinin təhlükəsizliyinə təminat verir. Məsələyə bu tərzdə yanaşma isə Rusiya tərəfindən çoxlu sayda xoşagəlməyən reaksiyalarla qarşılanmışdır. Baltik səmasının genişliyi monitorinq proqramlarında mühüm rol oynayır. Pribaltika ərazisi üzərində ABŞ-ın Hərbi Hava Qüvvələrinin 4 qırıcı təyyarələri və 100 nəfərdən çox hərbi kontingenti uçuşlar həyat keçirirlər. ABŞ-ın qırıcı təyyarələri 2005-ci ilin sonunda Tallin aerodromuna endilər. 2008-ci ildə isə Baltik ölkələri səması üzərində ABŞ Hərbi Hava qüvvələrinin kütləvi miqyasda təlimi keçirildi. Lakin Pribaltika xalqlarının ancaq az hissəsi özölkələrinin NATO-da iştirakını dəstəkləyirlər.

NATO-nun yuxarı dairələrinin 2008-ci ilin aprelində Buxarest görüşündə NATO ölkələrinin rəhbərləri Şimali Atlantika İttifaqını gələcəkdə daha genişləndirmək üçün mühüm addımlar atdılar.

Bir sıra qərarlar Balkan ölkələrinə də toxunurdu. NATO-nun üzvləri belə hesab edirdilər ki, Qərbi Balkan ölkələrinin Avroanlantik institutlarının işində iştirakı onlar üçün səmərəli ola bilər. Albaniya və Xorvatiya NATO-ya daxil olmaq üçün danışıqlara başlamaq üçün təklif aldılar və 2009-cu ilin aprelində bu təşkilatın üzvü oldular.

Keçmiş Yuqoslaviyanın tərkibində olan Makedoniya respublikasına bildirildi ki, o, ancaq bu şərtlə Şimali Atlantika İttifaqına daxil ola bilər ki, Yunanıstanla birlikdə Makedoniyanın adı haqqında məsələ üzrə düzgün qərara gəlsinlər. Bosniya, Herseqovina və Çernoqoriyaya islahatlarla və təşkilatın üzvü olmaqla bağlı onların görəcəyi tədbirlərlə bağlı güclü dialoqa başlamaq təklif edildi.

Bu pərtlikdən Rusiya o zaman uzaqlaşmağı bacarardı ki, Amerika əvvəllər "Amerika-Rusiya bal ayı" zamanı NATO-nun genişlənməsi konsepsiyasına əsasən eyni zamanda Rusiya tərəfindən inkar edilməsi mümkün olmayan saziş təklif etsin. Bu saziş Rusiya ilə NATO-nun əməkdaşlığına münasibətlə bağlı idi. Əgər ABŞ, NATO-nun genişləndirilməsi konsepsiyasını başlıqsız qəbul etsə idi, yəqin ki, Moskva o qədər də pərişan olmazdı.

1993-cü ilin avqustuna qədər Yeltsin belə hesab edirdi ki, Polşanın NATO-ya daxil olması Rusiya üçün heç bir narahatlıq doğurmur və Rusiyanın maraqlarına zidd deyildir. Buna baxmayaraq B.Klinton administrasiyası Rusiyanı nəzərə almaq "siyasəti yeridərək", iki il daha gözləməli oldu. Bu iki il ərzində Kreml valı dəyişdirdi, baş verənlərə düşmən münasibət bəsləməyə başladı. 1996-cı ildə Vaşinqton NATO-nu genişləndirmək qərarına gəldikdə və Amerika siyasətinin əsas vəzifəsi daha böyük və daha təhlükəsiz Avroatlantik cəmiyyətini təşkil etmək olduğunu bildirdikdə Rusiya məsələyə qarşı qəti müxalifətə keçdi və sərt mövqe nümayiş etdirdi. Bu zaman Rusiya artıq yəqin etdi ki, o, 1993-cü ildəki tarixi imkanı itirmişdir.

Etiraf etməmək olmaz ki, Rusiyanın NATO-nun genişlənməsi məsələsinə münasibət məsələsindəki həyəcan qanuni əsasdan

məhrum idi və xeyirxah səslənmirdi. NATO-nun Şərqə doğru genişlənməsinin əleyhdarları olan rus hərbçilərinin çoxu belə hesab edirdilər ki, bu proses ABŞ və onun rəhbərliyi altında olan NATO-nun Rusiyanın sərhədlərinə yaxınlaşması deməkdir. Rusiya xarici siyasətinin yuxarı elitası isə belə hesab edirdi ki, ABŞ və onun rəhbərlik etdiyi NATO üçün Avroasiyada yer yoxdur. Onlar belə güman edirdilər ki, Rusiya yenidən "düzələcək" və Mərkəzi Avropanı yenidən öz geosiyasi nüfuz dairəsinə salacaqdır.

NATO-nun genişlənməsi Rusiyanın Avropadan kənarda qalmaq qorxusunu da artırdı. Vaşinqtonla Moskva arasındakı uçurumu dərinləşdirən amillərdən biri də Stalinin hakimiyyəti dövründə işğal edilmiş bütün ərazilərdən Rusiyanın imtina etmək arzusunda olmaması idi. Qərb ictimai rəyi, xüsusilə Skandinaviya ölkələrində, o cümlədən ABŞ-da Rusiyanın Pribaltika ölkələrinə ikitərəfli münasibətindən çox narahatlıq var idi. Kreml SSRİ dağıldıqdan beş il sonra da 1996-cı il sentyabrın 10-da rəsmi bəyanat vermişdir ki, Pribaltika respublikaları könüllü surətdə 1940-ci ilə SSRİ-nin tərkibinə daxil olmuşdular. Əslində bu məsələdə, Moskva haqlı idi. Çünki, 1939-cu il SSRİ-Almaniya müqaviləsinə əsasən Pribaltika respublikaları SSRİ-nin təsir dairəsinə daxil edilsə də, 1941-ci ilin iyunun 22-də Almaniyanın SSRİ-yə hücumu ilə həmin müqavilə öz qüvvəsini itirmişdir. Pribaltika respublikaları da SSRİ-nin təsir dairəsindən çıxırdılar. Sonradan onların SSRİ-nin tərkibində qalması ancaq könüllü ola bilərdi.

Rusiyanın postsovet elitası belə hesab edir və gözləyirdi ki, Qərb ona ya kömək edər, ya da heç olmasa, keçmiş postsovet məkanında Rusiyanın rəhbər rolunun bərpa olunmasına maneçilik törətməz Sovet məkanında olub müstəqillik alan ölkələrə ABŞ-ın hərtərəfli kömək etməsi Rusiyanı daha da qıcıqlandırırdı.

ABŞ-ın xarici siyasətini öyrənməklə məşğul olan rus analitikləri göstərirlər ki, ABŞ bütün Avrasiya üzrə dövlətlərarası münasibətləri yenidən təşkil edən bir qurum təşkil etmək niyyətindədir. ABŞ-ın planına görə kontinentdə bir aparıcı dövlət olmalı, bununla yanaşı həmin dövlətin ətarfında çoxlu orta, nisbətən sabit və müəyyən qədər güclü dövlətlər də toplanmalıdır. Lakin onlar

ABŞ-la müqayisədə istər ayrılıqda, istərsə də birlikdə mütləq daha zəif olmalıdırlar”.

1997-ci ilin martın 21-22-də Helsinkidə Yeltsinlə ABŞ prezidenti Bill Klinton arasında görüş keçirildi. NATO-nun Şərqə doğru genişlənməsinə heç cür mane ola bilməyən Rusiya rəhbərliyi, heç olmasa müəyyən imtiyazlar (ilk növbədə NATO-nun qərarları üzərində Veto hüququ) qazanmaq istəyirdi. ABŞ Rusiyanın Veto hüququna iddiasını rədd etdi, lakin NATO ilə Rusiya arasında xüsusi müqavilə imzalanacağına, üzvlüyə yeni qəbul edilmiş dövlətlərin ərazisində nüvə silahı yerləşdirilməyəcəyinə söz verdi.

Təkcə ölkə daxili böhran deyil, həm də beynəlxalq statusunu itirməsi Rusiyaya dəhşətli əzab verən amillərdən idi. 90-cı illərdə Rusiyanın geosiyasi vəziyyəti xoşagələn deyildi. SSRİ-nin dağılması və keçmiş Sovet respublikalarının öz müstəqilliklərini elan etməsi onun sərhədlərinin də dəyişməsinə səbəb oldu. 1700-ci ildən Rusiyanın nəzarəti altında olan Pribaltika respublikalarının onun tərkibindən çıxması Baltik dənizində onun hüquqlarının məhdullaşmasına səbəb oldu. Onun nəzarəti altında olan Şərqi Avropadakı Varşava müqaviləsinin iştirakçısı olan dövlətlər də yüksək sürətlə NATO və Aİ-yə üz tutdular. Onların içərisində SSRİ-yə daha yaxın olan Polşa bu məsələdə birinci yeri tutdu. Ukraynanın itirilməsi Rusiya üçün daha ağır idi. Bu Rusiya üçün böyük geosiyasi uğursuzluq idi. 300 ildən artıq Rusiyanın tərkibində olmuş, etnik və dini baxımdan rus xalqı ilə bağlı olan, sənaye və kənd təsərrüfatı iqtisadiyyatında potensial zənginliyə, 52 milyon əhaliyə malik Ukraynanın itirilməsi Rusiyanı, həqiqətən, böyük və özünə inanan imperiya dövləti olmaqdan məhrum etdi. Ukraynanın öz müstəqilliyini elan etməsi, həm də Rusiyanı Qara dənizdəki imtiyazlarından da məhrum edirdi. Odessa limanı Qara dəniz ölkələri və bütövlükdə bütün dünya ölkələri ilə ticarətdə Rusiya üçün həyati əhəmiyyətə malik idi. Ukraynanın itirilməsi Rusiyanın geositateji seçimini mahiyyət etibarı ilə məhdudlaşdırırdı.

Ukraynanın itirilməsi Rusiya üçün təkcə geosiyasi hadisə olmayıb, həm də geosiyasi katalizator rolunu oynadı.

Hətta Pribaltika respubilkaları və Polşasız da Rusiya Ukrayna üzərində nəzarətini saxlaya bilsə idi, Avroasiya imperiyasına təsir etmək gücünə malik ola bilərdi. 52 milyon əhalisi olan Ukrayna olmadan isə Rusiya hətta öz tərkibində olan qeyri-slavyan əhalisi ilə mübarizədə acizliyini hər an hiss edirdi.

Ukrayna Rusiyanın MDB çərçivəsində hegemonluq iddiasına qarşı çıxır, tamamilə müstəqil siyasət yeridirdi. Rusiyanın imperiya dairələri Ukraynanı asılı vəziyyətə salmaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Ukraynadakı rusdilli əhalini mərkəzi hakimiyyətə qarşı qaldırılır, Krımın Ukraynadan qoparılmasına cəhd edilirdi. Rusiya ilə Ukrayna arasında əsas mübahisə obyekti Qara dəniz donanması, ən çoxu da Sevastopolun statusu barədə idi. Rusiya Sevastopolu və ya heç olmasa, onun bir hissəsini özünün Qara dəniz donanmasının bazası kimi saxlamağa xüsusi cəhdlə çalışırdı. Ukrayna isə Rusiyanın təzyiqinə davam gətirmək üçün ABŞ-la yaxınlaşmağa daha çox meyl göstərirdi.

Nisbi siyasi sabitliyi ilə fərqlənən digər Orta Asiya respublikalarından fərqli olaraq Tacikistanda da müstəqillik qazanan andan hadisələr dramatik axarda davam edirdi. Burada Rusiya, Çin, Pakistan, Əfqanıstan, o cümlədən ABŞ-ın maraqları toqquşurdu. 1992-ci ilin mayında müxalifət zorakılıq yolu ilə hakimiyyəti ələ keçirdi. Lakin onlar Pakistan və Əfqanıstana meyl etdiyindən Rusiya bununla hesablaşmadı. Tacikistanda yerləşən rus qoşunlarının açıq yardımı ilə ruspərəst qüvvələr yenidən hakimiyyətə gətirildilər. O zamandan Tacikistanda fasilələrlə vətəndaş müharibəsi davam edir.

Rusiya üçün yeni şəraitin strateji nəticələrini Rusiyada kommunist rejimi devrildikdən sonra ABŞ-da Rusiyanın ilk səfiri olmuş, sonra isə Dövlət Dumasında xarici işlər üzrə Komitənin sədri işləmiş Vladimir Lukin belə ifadə etmişdir: "Keçmiş Rusiya özünü əvvəl Asiyanın, sonra da Avropanın başında görürdü. Bununla belə, sonra Asiya daha yüksək templə inkişaf etməyə başladı... və biz ancaq "müasir Avropa ilə geridə qalmış Asiya arasında qalan əraziyə sahib ola bildik. Bu iki Avropa arasındakı məsafə idi".

Qısaca desək, bu yaxın zamanlara qədər Rusiya dünyanın ərazi cəhətdən ən böyük dövləti idi. O, həm də satellit dövlətlərin ideoloji blokunun lideri idi. O zaman Rusiyanın ərazisi Avropanın mərkəzindən Cənubi Çin dənizinə qədər uzanırdı. Bu dövlət 90-cı illərin əvvəllərində narahat milli dövlətə çevrildi. Beləliklə, Rusiya post-imperiyasında tarixi və strateji qarışıqlıq dövrü keçirməyə başladı. O, belə bir sual qarşısında durdu ki, "Rusiyada nə var? Rusiya haradadır?", "Rus olmaq nə deməkdir". Bu suallara verilən cavablar həm də, tam geosiyasi məzmunla dolu idi. Belə bir fakt danılmaz idi ki, Rusiya qəfildən təkcə imperiya missioner rolundan məhrum olmadı, həm də özünün şəxsi modernizatorlarının təzyiqi altına düşdü, sosial sahədə geridə qalmış Rusiya ilə inkişafı etmiş Avrasiya ölkələri arasında fərq daha aydın nəzərə çarpmağa başladı. Bu isə tələb edirdi ki, o, istər ölkə daxilində, istərsə də beynəlxalq arenada inqilabi rolunu məhdudlaşdırsın. Postimperiya və postkommunist imperiyasının ilk xarici işlər naziri olmuş Andrey  Kozerev SSRİ dağıldıqdan sonra qeyd edirdi ki, "Bİz artıq missionerlik vəzifəsindən imtina edirik, biz praqmatizm kursunu götürürük, biz tezliklə belə bir anlayışı qəbul etməli olduq ki, geosiyasət ideologiyanı əvəz edir". Beləliklə, SSRİ dağıldıqdan sonra Rusiyada üç himnli geostrateji variant meydana gəldi. Bu ilk növbədə ABŞ-la müqayisədə Rusiyanın statusuna qayğı ilə əlaqədar idi. Bu variantlar aşağıdakılar idi:

1. ABŞ-da "kamil strateji" tərəfdaşlığın prioritet olması və gələcəkdə bunun arxasında qlobal kondominimum şifrələnməsi;

2. "Yaxın xaric" ləhcəsinin Rusiyanın əsas maraq obyekti olması, Avropa ilə ABŞ arasında tarazlıq yaratmaqla bəzi imperiya maraqlarına nəzarəti bərpa etməyə imkan verən dövlət təşkil etmək.

3. ABŞ-ın "Avropada mövqeyini alçaltmaqdan ötrü Avrasiya antiamerikan alyansı təşkil etmək ki, bu NATO-ya qarşı durmağı bacarsın".

Təklif edilən üçüncü variant XX əsrin 90-cı illərinin ortalarında meydana gəldi. SSRİ dağıldıqdan sonra ilk əvvəl Yeltsinin mövqeyi belə idi ki, Rusiya Qərb ölkəsidir, Qərbə daha çox söykənməlidir. Onun mövqeyi aşağıdakı nitqində daha çox öz əksini

tapmışdı. “Rusiya hər hansı formada yeni imperiyanın mərkəzi olmağa çalışmır. Rusiya başqalarından daha yaxşı başa düşür ki, onun bu vaxta qədər oynadığı rol onu xoşbəxt etməmişdir. Tarix bizə öyrədir ki, başqa xalqları idarə edən xalq özü xoşbəxt ola bilməz”. Lakin tezliklə Rusiya məsələ qaldırdı ki, dünya onu da ABŞ-la bərabər səviyyədə olan dövlət kimi görməli və dünyada baş verən bütün hadisələrə münasibət onun iştirakı və icazəsi olmadan həll edilməlidir. Təsadüfi deyildir ki ,Yeltsin 1996-cı ilə Çinə Səfər edərkən elan etdi ki, Rusiya və Çin dünyaya diktə edir. Bu barədə açıq danışılmasa da, üstüörtülü bildirildi ki, Mərkəzi Avropa elə bir region olmalıdır ki, heç olmasa siyasi cəhətdən Rusiyaya yaxın olsun. Lakin belə bir kursun götürülməsi ölkəni daxili və xarici siyasətdə realizmdən məhrum etdi. Çünki bu siyasət xülya idi. ABŞ dünyada hökmranlığını heç vaxt Rusiya ilə bölməyə razı ola bilməzdi. Rusiya dünyada ABŞ-ın partnyoru olmaq üçün hələ sosial və iqtisadi cəhətdən çox zəif idi. Vaşinqtonun fikrincə, Almaniya, Yaponiya və Çin kiçik ərazilərdə yerləşsələr də, Rusiyaya nisbətən daha çox nüfuzetmə qüvvəsinə malikdirlər. Bundan başqa, bir sıra geostrateji məsələlərdə, məsələn, Avropa, Yaxın və Uzaq Şərqdə ABŞ-ın milli maraqları ilə Rusiyanın milli maraqları da toqquşurdu.

Siyasi güc, maliyyə xərcləri, texniki yenilik, mədəni yüksəliş sahəsində bu iki dövlət arasındakı fərqlər dərhal fikir ayrılığının yaranmasına, nəticədə “kamil strateji partnyorluq” ideyasının puç olmasına səbəb oldu.

## Yuqoslaviya hadisələri və ABŞ

Respublikalarda hakimiyyətə yeni hökumətin əvvəlki federasiya sisteminə yenidən baxılması tərəfdarlarının gəlməsi ilə Yuqoslaviyanın parçalanması prosesi başlandı. 1991-ci ilin iyununda Xorvatiya və Sloveniya özlərini müstəqil və suveren respublikalar elan etdilər. YSFR bu qərarı qeyri-qanuni hesab etdi. Sloveniyada yeni düzəldilmiş yerli hərbi hissələrlə Yuqoslaviya Xalq Ordusunun hissələri arasındakı uzun sürməyən münaqişədən sonra YXO onun ərazisindən çıxarıldı. 1991-ci ilin oktyabrında Sloveniya ittifaqdan ayrıldı və bir çox dövlətlər, xüsusilə ABŞ tərəfindən tanındı. Xorvatiyada isə labüd respublikada yaşamaq istəməyən

serblərlə xorvatlar arasında dərhal müharibə dövründəki hadisələrin təkrarlanmağa başladı. Xorvat dövlətində yerli faşistlər "ustaşlar" serbləri amansızcasına təqib edirdilər. Dini amil – provoslav serblər və katolik xorvatlar arasındakı fərq və düşmənçilik üzündən münaqişə daha da dərinləşdi. Serblər Xorvatiya ərazisində iki muxtar serb respublikasının yarandığını elan etdilər və gələcəkdə Serbiyanın tərkibinə cəhd edəcəklərini bildirdilər. serblərlə xorvatlar arasındakı hərbi əməliyyatlar tank, aviasiya, artilleriyanın vasitəsi ilə aparılırdı. Bu əməliyyatda YXO da iştirak edirdi.

Sloveniyanın və Xorvatiyanın ardınca Makedoniya (1991-ci ilin noyabrı) Bosniya və Hersoqovina (1992-ci ilin yanvarı) öz müstəqilliklərini elan etdilər. bundan sonra yerdə qalan iki respublika – Serbiya və Çernoqoriya paytaxtı Belqrad olan Yuqoslaviya İttifaq Respublikasını yaratdılar. Makedoniyanın ayrılması dinc yolla oldu. Bosniya və Hersoqovinada isə üç icma-serb, xorvat, müsəlman icmaları arasında münaqişə başlandı. Müsəlmanlar vahid dövlətin saxlanması uğrunda çıxış etdirdilər. Serblər Bosniya və Hersoqovina Serb respublikasını, Xorvatlar Herseq-Bosniya xorvat respublikasını təşkil etdilər. Rusiya serbləri, ABŞ isə xorvatları müdafiə edirdi.

Amansız xarakter almış silahlı münaqişə Xorvatiya və Serbiyanın işə qarışması nəticəsində daha da kəskinləşdi. Müsəlmanlarla xorvatlar birlikdə çıxış edirdilər. "Misilsiz müsəlman soyqırımı" beynəlxalq aləmdə böyük əks-səda doğurdu. BMT-nin Təhlükəsizlik Şurası və Aİ Yuqoslaviyada vəziyyəti normallaşdırmaq üçün tədbirlər gördülər.

Buraya BMT-nin sülh məramlı qüvvələri göndərildi. Rusiya Serbiyanı müdafiə etsə də, Qərb dövlətləri, ilk növbədə ABŞ Serbiyanı münaqişəsinin günahkarı elan etdi, ona və Çernoqoriyaya qarşı bu respublikaların həyatına ağır təsir edən iqtisadi sanksiyalar tətbiq etdi. ABŞ-ın fəal müdaxiləsi ilə bölgədə sabitliyin və sülhün bərqərar olması üçün 1995-ci ilin dekabrın 17-də Deyton sülh müqaviləsi bağlandı.

Dünya sosializm sistemi dağılandan sonra Yuqoslaviya əsas münaqişə mənbələrindən yenə də birinə çevrildi. 90-cı illərin

sonunda Balkanlarda yeni müharibə başladı. 1998-ci ilin mart ayında Kosovada keçirilən prezident və parlament seçkilərinin nəticələrini Belqrad qəbul etmədi. Kosovalıların gizli Kosovo azadlığı ordusu fəal hərbi döyüşlərə başladı və Qraxovats şəhərini işğal etdi. Şəhəri azad etmək üçün Yuqoslaviya ordusu ağır silah növlərindən istifadə edərək Kosovo azadlıq ordusunu Albaniya sərhədlərinə sıxışdırdı. Münaqişəni dayandırmaq məqsədilə Yuqoslaviya rəhbərliyi ilə BMT, ATƏT, əlaqə qrupu və NATO-nun timsalında beynəlxalq birlik arasında danışıqlar başlandı. Yuqoslaviyanın prezidenti S.Miloşeviç Kosovaya muxtariyyət statusunu qaytarmağa razı olduğu bildirdi. Ancaq Kosovo azadlıq ordusunun komandanlığı müstəqillik tələb edirdi. NATO ölkə ərazisinə öz qoşunlarını yeritməyin zəruri olduğunu bildirərək, siyasi məsələnin həllini gələcəyə saxlamağa təklif etdi. BMT TŞ Yuqoslaviya ordusunun atəşi dayandırması haqqında qətnamə qəbul etdi. 1999-cu ilin fevral ayında Parisdə Rambuye qəsrində danışıqların "sonuncu mərhələsi" başladı. Yuqoslaviya nümayəndə heyəti təqdim olunan müqaviləni imzalamaqdan imtina etdi. Albaniya nümayəndəliyi birtərəfli qaydada müqaviləni imzaladı. Beləliklə, danışıqlar pozuldu. 1999-cu ilin martın 25-nə keçən gecə NATO aviasiyası Yuqoslaviyanın hərbi obyektlərini bombalamağa başladı. NATO öz mövcudluğunun əlli ili ərzində ilk dəfə BMT TŞ-nın sanksiyası olmadan suveren dövlətin ərazisini bombardman etdi. Bu həm BMT və həm də NATO nizamnaməsinə zidd bir hərəkət idi. NATO-nun bu hərəkəti Çin və Rusiya tərəfindən ciddi tənqid edildi. Bombardmanların başlaması nəticəsində yerli əhali öz yaşayış yerlərini tərk etdi. Qaçqınlar dəstəsi Albaniya, Makedoniya və Çernoqoriyada yerləşdilər.. Yuqoslaviya üzərinə 78 gün davam edən hava hücumu nəticəsində Belqradda 1000-ə yaxın hərbi və mülkü obyekt dağıdıldı, dinc əhalidən 2 mini öldü, 7 mini yaralandı.

Hərbi əməliyyatların gedişində dinc nizama salma üçün yollar axtarılmağa başlandı. 1999-cu ilin iyununda BMT Təhlükəsizlik Şurasının qətnaməsinə əsasən Kosovadan serb ordusu çıxarılmalı idi. Həmçinin NATO tərəfindən bombardmanlar dayandırılmalı, ölkəyə sülhməramlı qüvvələr, o cümlədən Rusiya silahlı

qüvvələri daxil olmalı idi. Kosovo azadlıq ordusunun hərbisizləşdirilməsi də nəzərdə tutulurdu. Bu qətnamənin qəbul edilməsi ilə müharibə dayandırıldı.

Kosovo faktiki olaraq Yuqoslaviyanın nəzarətindən çıxsa da, 2008-ci ilə qədər orada gərgin vəziyyət qalmaqda davam edirdi. Ancaq 2008-ci ilin fevralında Kosovo NATO-nun nəzarəti altında olan müstəqil dövlət elan edildi. Rusiya Kosovanın müstəqilliyini tanımadı. Alban qaçqınlarının əsas kütləsi geri qayıtdı. Serblərin sıx yaşadığı rayonlar indiyə qədər NATO-nun sülhməramlı qüvvələrinin güclü nəzarəti altında saxlanılır. Balkanlar yenə də Avropanın "yumşaq qarınaltısı" olmaqla bərabər, dünyanın barıt çəlləyi kimi yenə də qalır.

Sovet hakimiyyətinin əsas institutları zəif də olsa, hələ də qalmaqdadır. Leninin movzeleyinin qalması bunu bir daha sübut edir. Yeni demokratik elitanın siyasi zəifliyi Rusiyadakı kütləvi miqyaslı iqtisadi böhranının daha da dərinləşməsinə səbəb oldu. Geniş islahatlar zəruri idi ki, dövlət iqtisadiyyatdan ayrılsın.

Bunun üçün Rusiya Qərb tərəfindən, xüsusilə ABŞ-dan böyük kömək gözləyirdi. Almaniya və AŞ-dan bu kömək böyük ölçüdə edilsə də, iqtisadiyyatı tezliklə dirçəltmək mümkün olmadı. Tezliklə aydın oldu ki, ABŞ-la partnyorluq yalan bir şey imiş, çünki o, ABŞ üçün əlverişli olsa da, Rusiyaya ancaq itki gətirdi.

Sovet İttifaqının dağılmasından sonrakı ilk illərdə səmərəli qlobal partnyorluq üçün nə obyektiv, nə də subyektiv şərtlər mövcud deyildi. Demokratik əhvali-ruhiyyəli qərbpərəstlər lap çox istəyirdilər, lakin aza da nail ola bilmədilər. Onlar bərabər hüquqlu partnyorluq istəyirdilər. onlar ABŞ-la tezliklə kondominiuma nail olmaq, MDB daxilindəki ölkələrə hərəkət azadlığı verməyi planlaşdırırdılar. Geosiyasi nöqteyi-nəzərindən isə onlar Mərkəzi Avropada "heç bir torpaq" fikrində idilər.

Bununla belə, onların sovet tarixşünaslığına iki baxışı, qlobal hakimiyyət baxışlarında realizmdən uzaqlaşmaları iqtisadi böhranın dərinləşməsi o demək idi ki, onlar sabit, uzunmüddətli demokratik Rusiyanı təşkil edə bilmədilər.

Rusiyanın irəli sürdüyü "Yaxın xaric" doktrinası siyasi cəhətdən yumşaq xarakter daşıyırdı və regional iqtisadi əməkdaşlığı

nəzərdə tuturdu. Onun geosiyasi məzmunu imperiya kontekstində idi. Rusiyanın bərpa olunacağına, Qərblə strateji partnyorluq edəcəyinə, nəticədə Şərqi Avropadakı vəziyyəti nizama salacağına inanırdı. Digərləri isə keçmiş postsovet məkanında Rusiyanın "müstəsna rolunu" göstərirdilər. Rusiyanın hakim dairələri belə hesab edirdilər ki, Rusiya özünün maraq dairəsinə aid olan regionlarda öz hərbi hissələrini saxlamalıdır. "İzvestiya" qəzetinin 1994-cü ilə 8 aprel sayında göstərilirdi ki, Rusiya bu yaxınlarda müstəqillik əldə etmiş ölkələrin ərazisində özünün 28 hərbi bazasını yerləşdirmişdir. Rusiyanın birləşmiş hərbi qruplaşmaları Kalinqrad vilayətində, Moldova, Krım, Ermənistan, Tacikistan və Kuril adalarında yerləşdirilmişdir ki, diqqətlə xəritəyə baxsaq, bunun keçmiş SSRİ-nin sərhədləri daxilində olduğunu görərik.

1995-ci ilin sentyabrında Yeltsin RF-nin MDB-yə münasibəti ilə bağlı rəsmi sənəd qəbul etdi. Orada göstərilirdi ki, MDB-nə münasibətdə Rusiyanın siyasətinin başlıca vəzifəsi iqtisadi və siyasi cəhətdən inteqrasiya olunmuş dövlətlər birliyini təşkil etməkdir. Dünya birliyində Rusiyanın konsildasiyası postsovet məkanında dövlətlərarası iqtisadi və siyasi münasibətlərin yeni sisteminin formalaşmasında onun güc rolunda çıxış etməsinə imkan verəcəkdir.

Ukraynanın öz müstəqilliyini saxlaması tezliklə Qərb tərəfindən müdafiə edilməyə başladı. Baxmayaraq ki, əvvəllər Qərb, xüsusilə ABŞ geosiyasi nöqteyi-nəzərdən çox mühüm olan müstəqil Ukrayna dövlətinin mövcudluğunun əhəmiyyətini başa düşməkdə gecikdilər, lakin 90-cı illərin ortalarında onlar artıq müstəqil Kiyevin möhkəm tərəfdarlarına çevrildilər. 1996-cı ilin iyulunda ABŞ-ın müdafiə naziri elan etdi ki, "Mən bütün Avropanın sabit və təhlükəsizliyi üçün Ukraynanın mövcudluğunun əhəmiyyətini əvvəlcədən qiymətləndirməyi bacarmamışam".

1996-cı ilin sentyabrında isə Almaniyanın kansleri əvvəllər Yeltsini qəti dəstəkləməsinə baxmayaraq bildirirdi ki, "Ukraynanın Avropada möhkəm yer tutduğunu artıq heç kim şübhə altına ala bilməz...Artıq heç kim Ukraynanın ərazi bütövlüyünü və müstəqilliyini poza bilməz". Artıq bu dövrdə ABŞ-Ukrayna münasibətlərini "strateji partnyorluq"da hesab etmək olardı.

Rusiyanın isə Ukraynasız imperiyanı yenidən bərpa etməsi, aydındır ki, qeyri-mümkün idi. Ukraynasız Rusiya bəlkə də, imperiya yarada bilər, lakin bu imperiya daha çox “Asiya tipli” və daha çox Avropa dövlətlərindən uzaqda olan bir imperiya olacaq idi.

Bundan başqa, Avroasiyalılıq ideyası Orta Asiyanın yenicə müstəqillik qazanmış dövlətlərinin vətəndaşları üçün də o qədər də cəlbedici deyildir. Lakin onlardan bəziləri Moskva ilə ittifaq tərəfdarıdır. Özbəkistan xüsusi inadkarlıq göstərərək MDB-nin millətlər fövqündə təşkilinə və Rusiyanın MDB-nin güclənməsinə yönəldilmiş təşəbbüsünə qarşı çıxan Ukraynanı dəstəkləyirdi. MDB-nin digər üzvləri də Moskvanın fikirlərinə narazılıqla yanaşır, Ukrayna və Özbəkistan ətrafında daha çox qruplaşırdılar ki, Moskvanın təzyiqinə davam gətirsinlər. Etnik nöqteyi-nəzərindən Orta Asiya respublikaları ilə yaxın olan Qazaxıstanın da kiril əlifbasından latın əlifbasına keçməsi onun Moskvanın yeritdiyi xətlə razı olmaması əlamətlərindən biri idi. Beləliklə, 90-cı illərin ortalarında Rusiyanın MDB-dən siyasi inteqrasiya üçün bir alət kimi istifadə etmək cəhdləri Özbəkistan, Türkmənistan, Azərbaycan, bəzən də Qazaxıstan, Gürcüstan, Moldovanın da daxil olduğu qeyri-rəsmi formalaşmaqda olan Ukrayna bloku tərəfindən puça çıxdı. Ukraynanın inadkarlığı, heç olmasa məhdud şəkildə iqtisadi inteqrasiyadan imtina etməsi əməli cəhətdən “Slavyan ittifaqı” anlayışını da məhv etdi. Ukrayna suveren dövlət olduqdan sonra bu anlayış geosiyasi cəhətdən əhəmiyyətini itirdi.

Beləliklə, Rusiyanın siyasi cəhətdən kifayət qədər güclü olmaması, iqtisadiyyatının geriliyi ona yeni dövlətləri özünə cəlb etməyə imkan vermədi. əksinə Rusiyanın təzyiqi onların Qərb dövlətləri ilə əlaqələrinin inkişafına kömək etdi. Rusiya NATO-nun genişləndiyini gördükdə onu yeni hərbi blok yaratmaqla hədələdikdə dərhal ona sual verilirdi ki, kimlə yaradılacaq bu blok? Çox qəmli bir cavab verildi ki, olsa-olsa ancaq Belarusiya və Tacikistan bu blokun üzvü olar.

“Keçmiş postsvovet məkanında olan yeni dövlətlərin iqtisadi inteqrasiyaya razı olmamalarının əsas səbəbi onun siyasi nəticələrindən ehtiyat etmələri ilə bilavasitə bağlı idi. Beləliklə, Rusiya

üçün “yaxın xaric” ləhcəsi geosiyasi qərar deyil, geosiyasi yanlışlıq rolunu oynadı.

1996-cı ilin əvvəllərində Yeltsin Qərb meylli xarici işlər naziri Kozerevi vəzifəsindən azad etdi və həmin vəzifəyə daha təcrübəli, ortodoksal mövqeli Yevgeni Primakovu təyin etdi. Bir çox siyasətçilər belə hesab edirdilər ki, bu yeni “antihegemoniya” koalisiyasının təşkili cəhdlərini gücləndirəcək. Bu məsələdə Rusiya ən çox Çin və İrana ümid edirdi. Lakin ancaq nəzəriyyədə nəticə alındı,əməli isə heç bir addım atılmadı. Əlbəttə dünyanın ən böyük slavyan dövləti, dünyanın hərbi cəhətdən güclü islam dövləti, əhalisinə görə dünyanın ən böyük Asiya dövləti ilə belə bir ittifaqın yaradılmasına cəhdlər edildi. Əslində həm Rusiya, həm Çinin siyasi elitası ABŞ-ın dünyada hegemonluq siyasətindən narazı idilər. 1996-cı ilin əvvəllərində Yeltsin Çinə səfər etdi və Pekində imzalanan bəyannamədə qlobal “hecemonluq” meyli mühakimə edilir, hər iki dövlət ABŞ-ı qarşı bir ititfaqda çıxış edirdilər.

1996-cı ilin dekabrında Çinin baş naziri Li Pen Moskvaya rəsmi səfər etdi. Hər iki dövlət təsdiq etdilər ki, dünyadakı mövcud beynəlxalq sistemin əleyhinədirlər. Onlar ABŞ-ın dünyada “dominat” rolunda  çıxış etməsinə qarşı çıxırdılar. Onlar həmçinin birgə alyans təşkil etmək işini sürətləndirməyi vacib hesab etdilər. bu alyans ABŞ-ın NATO-nu genişləndirmək xəttinə qarşı təşkil edilməli idi. lakin bu o halda mümkün idi ki, ABŞ Çin ilə İran arasında antoqonizm yaratmasın. Məhz 1995-1996-cı illərdə ABŞ-ın xarici siyasətinin əsas vəzifələrindən biri Tehran ilə Pekin arasında ziddiyyət yaratmaqdan ibarət idi. Eyni zamanda nə İran, nə Çin zəif və qeyri-sabit Rusiya ilə strateji cəhətdən öz talelərini bağlamağa hazır deyildilər. Hər iki dövlət başa düşürdülər ki, istənilən koalisiya daha inkişaf etmiş dövlətlərin təhlükəsi altında qala bilərdi. Həmçinin bu alyansın təşkil edilməsi həm Rusiyaya, həm də Çinə olan investisiya axınını azalda bilərdi. Həmçinin bu dövlətlər Qərbin kapital və texnologiyasından kənarlaşdırıla bilərdilər ki, bu da  onların iqtisadi inkişafını ləngidə bilərdi.

Rusiya ancaq genişlənən Avropa ilə eksnansionist Çin arasında bufer rolunu oynayan vəziyyətdə idi.

Rusiyanın Ukrayna ilə əlaqədar rolunu belə izah eitmək olardı ki, Ukrayna Avroasiya şahmat lövhəsində yeni və mühüm dövlətlərdən biridir, geosiyasi mərkəzdir. Ona görə ki, o müstəqil dövlət kimi mövcud olduğu gündən Rusiyada dəyişiklik edilməsinə kömək edirdi. Ukraynasız Rusiya Avroasiya imperiyası ola bilməzdi. Ukraynasız Rusiya imperiya statusu uğrunda mübarizə apara bilər, lakin onda ancaq Asiya imperiya dövləti kimi qala bilər.

Ukraynanın itirilməsi mərkəzi geosiyasi hadisə idi, həmçinin SSRİ-nin dağılmasında və Rusiyanın son zəifləməsində "geosiyasi katalizator" rolunu oynadı. Rusiyanın Rusiya və ABŞ-ın kamil partnyorluq  və dünyanı birlikdə idarə etmək siyasəti irəli sürməsi sadəcə bir xülyadır, çünki ABŞ heç vaxt dünyadakı hökmranlığını Rusiya ilə bölüşdürməyə hazırlaşmır. ABŞ birinci və sonuncu fövqəl dövlətdir. Ola bilsin ki, zaman gələcək ki, dünya siyasətinə rəhbərlik bir dövlətin əlində mərkəzləşsin.

Soyuq müharibənin qurtarması  ABŞ-ın "azad dünyanın" lideri kimi mövqeyini əhəmiyyətli dərəcədə mürəkkəbləşdirdi. SSRİ-nin məğlubiyyəti və dağılması artıq iki qütblü dünyanın son final akkordunu vurdu və ABŞ-ın yeganə və həqiqətən birinci qlobal dövlət kimi mövcudluğunu bir daha sübut etdi. Avroasiya həmişə olduğu kimi, ABŞ-ın siyasətində yenə də mərkəzi yer tutdu. Avropanı, həmçinin dünyanın iqtisadi və siyasi qüdrətinin əhəmiyyətli hissəsini Qərb öz əlində saxlamaqdadır. Dünyanın Şərq hissəsi, yəni Asiya da son zamanlar iqtisadi inkişafın və artan siyasi təsirin mühüm mərkəzinə çevrilməkdədir. Bu isə ABŞ-ın dünya ağalığı siyasətində nəzərə alınmalı mühüm cəhətlərdən biridir. Rəqibinin, yəni SSRİ-nin  süqutu ABŞ üçün unikal (yəni nadir) vəziyyəti yaratdı.

ABŞ-ın dünyada öz liderliyini saxlamağın və genişləndirməyin əsas səbəbi yeni elmi kəşflərdən hərbi məqsədlər üçün istifadə edilməsi, silahlı qüvvələrə texniki münasibətdə rəqibsiz olması ilə bağlıdır. Onun informasiya texnologiyası iqtisadiyyatın inkişafı üçün həlledici rol oynayır. ABŞ texnologiyada üstünlüyə görə Qərbi Avropa və Yaponiya kimi rəqiblərini çox qabaqlayır.

Şübhəsiz, Rusiya və Çin ABŞ-ın hegemonluğunu etiraf etməyə bilməzlər. 1996-cı ilin əvvəllərində B.Yeltsin Çində rəsmi səfərdə olarkən Rusiya və Çinin dövlət başçıları öz birgə bəyanatlarında ABŞ-ın mühüm həyati maraqlarını nüvə arsenalı ilə hədələsə də, aydın olan budur ki, onların hər ikisi birləşsə də, bu sahədə ABŞ-a qalib gələ bilməzlər. Bu acı da olsa, həqiqətdir. Hərbi, iqtisadi, texnologiya, mədəniyyət sahəsindəki üstünlükləri onu dünyanın vahid fövqəl dövləti kimi təsdiq edir. Bu isə onun dünyada dominat mövqeyini əsaslandırır.

Harvard siyasətçisi Semyuel P.Hantinston yazırdı ki, "Dünyanın hansı yerində ABŞ-ın rəhbərliyi olmayacaq, orada daha çox zorakılıq, intizamlılıq və daha az demokratiya olacaq. O yerdə iqtisadi artım da müşahidə edilməyəcək. Hansı yerdə ki, ABŞ qlobal məsələlərin həllinə daha çox təsir göstərir, ora əvvəlkindən tamamilə fərqlənir. ABŞ-ın daimi beynəlxalq rəhbərliyi həm amerikanlıların ümumrifah tərzi, təhlükəsizliyi və həm də Yer üzündə gələcək azadlıq, demokratiya, iqtisadi kəşflər və beynəlxalq qayda-qanun, nizam-intizam üçün çox vacibdir".

Arvoasiya kimi yer üzündə ən böyük kontinetlərdən inkişaf etmiş regionlarından birinə nəzarət edən dövlət həm Afrikaya, həm Qərb yarımkürəsinə və həm də okeanlara sahib olmuş olur. Avroasiyada dünya əhalisinin 75%-ə qədəri yaşayır və əmək ehtiyatlarının, yeraltı və yerüstü sərvətləri xeyli hissəsi bu regionda yerləşir. Dünya ümumi milli məhsulunun 60%-ə qədəri Avroasiyanın payına düşür. Dünya enerji ehtiyatlarının ¾ hissəsi də onun ərazisində yerləşir". Avroasiyada siyasi cəhətdən aktiv və dinamik olan dünya dövlətləri də yerləşir. Beləliklə, Avroasiya, üstündə qlobal hökmranlıq uğrunda mübarizəsinin davam etdiyi şahmat lövhəsinə bənzəyir. Bu şahmat taxtasında Lissabondan Vladivostoka qədər "oyunlar" üçün fiqurlar yerləşdirilmişdir. "ABŞ-ın" qlobal hegemonluğunun miqyası böyükdür, lakin dərin deyildir. Onu daxili və xarici məhdudiyyətlər dərinləşməyə qoymur. Geostrateji təsiredici şəxs dedikdə, ilk növbədə mühüm və qüdrətli dövlətlər nəzərdə tutulur. Ərazisinin kiçikliyinə və əhalisinin azlığına baxmayaraq Azərbaycan özünün böyük enerji ehtiyatları ilə geosiyasi planda mühüm əhəmiyyət kəsb edən əsas

ərazilərdəndir. Çünki Azərbaycan Rusiya, Türkiyə, İran üçbucağında, onların strateji maraqlarının toqquşduğu bir müstəvidə yerləşir. Əlbəttə neft və qaz yataqları ilə zəngin olan bu rayon böyük dövlətlərin, ilk növbədə ABŞ-ın diqqətini cəlb etməyə bilməzdi. Bu Xəzər dənizi və Orta Asiyanın sərvətlərini sovurmaq yolunu saxlayan bir tıxacdır. Əgər Azərbaycan Moskvanın nəzarəti altında olardısa, Orta Asiya respublikalarının dövlət müstəqilliyi heç bir əhəmiyyət kəsb etməzdi. Azərbaycanın xüsusi, son dərəcə əhəmiyyətli neft ehtiyatları Rusiyanın nəzarətinə tabe edilərdisə, o ölkələrin müstəqillikləri sıfıra enmiş olardı. Rusiyanın nəzarəti altında olmayan ərazilərdən keçməyən neft kəmərləri ilə Qərbə birləşən müstəqil Azərbaycan, həm də Orta Asiyanın qabaqcıl enerji istehsalı iqtisadiyyatı və enerji sərvətləri ilə zəngin olan respublikaları üçün iri magistraldır. Gələcək Azərbaycanın və Orta Asiyanın da taleyi onun nə dərəcədə Ukrayna kimi Rusiyanın təsiri altında olub-olmamasından çox asılı olacaqdır.

Türkiyə və İran ilk növbədə mühüm geosiyasi mərkəzlərdir. Türkiyə Qara dəniz regionunun sabitləşməsində əsas rol oynayır. Oradan Aralıq dənizinə çıxan yola nəzarət edir, Qafqazda Rusiya ilə bərabər nüfuza malikdir, islam fundamentalizmindən də yeri gəldikdə istifadə edir, NATO-nun üzvlərindən biridir. Türkiyədə sabitliyin pozulması Cənubi Balkan xalqlarına böyük azadlıq verdi. Eyni zamanda Qafqaz respublikalarında öz nəzarətini bərpa etmək üçün Rusiya yenidən cəhdlərini artırmağa çalışmasına baxmayaraq Türkiyə Orta Asiyada yeni siyasi müxtəlifliyin sabitləşməsinə dəstək göstərir. Həmçinin İran Trans körfəzinin Şərq sahilində dominat rolunda çıxış edir. Baxmayaraq ki, onunla ABŞ arasında bu gün düşmənçilik mövcuddur, İran yenə də ABŞ-ın bu regiondakı maraqlarına mane ola biləcək Rusiyanın istənilən gələcək təhlükəsinin qabağını almaq üçün hasar rolunu oynayır.

ABŞ-ın Avroasiya problemi ilə əlaqədar beş əsas məsələ meydana çıxır ki, bunlar hansı Avropanın Amerika üçün uyğun olması, ABŞ-ın maraqlarına cavab verən Rusiyanın necə olması, və bunun üçün nə etmək lazım olduğu, əsas təhlükəni minimuma endirmək üçün Avropada yeni bir "Balkan"ın meydana gəlməsi üçün ABŞ-ın nə etməli olması, Çinin Uzaq Şərqdə hə kimi rol

oynayacağı və bunun nəticələrinin ABŞ və Yaponiya üçün necə olacağı, ABŞ-ın maraqları üçün təhlükə təşkil edən Avroasiya koalisiyasının imkanlarını aşkara çıxarmaqdır.

ABŞ-da vahid Avropanın təşkil edilməsi tərəfdarı olduqlarını həmişə elan etsələr də, bu ancaq sadəcə ritorikadır. Çünki heç vaxt Vaşinqton, məsələn, Yaxın Şərqdə hökmranlığını heç kimlə bölüşmək arzusunda deyildir. Avropanın özündə Vaşinqton heç vaxt Londonun təcridçilik mövqeyinin əleyhinə çıxmamışdır. Həqiqi vahid Avropanın təşkilinin əsas şərtlərindən biri də NATO-nun quruluşunda və fəaliyyətində mühüm dəyişikliklər edilməsidir. NATO hazırda təkcə Avropanın işlərində ABŞ-ın təsirini həyata keçirən başlıca mexanizm deyildir. Kritik hesab olunan hadisələrdə ABŞ hərbçilərinin iştirak etməsi də artıq faktdır. Hazırda, NATO-da ABŞ hakim, onun digər üzvləri isə vassal vəziyyətindədir. Vahid Avropa o zaman mümkün ola bilər ki, NATO-da bərabər partnyorluq təmin edilsin.

Rusiyanın strateji cəhətdən təhlili açıqca bildirir ki, Moskva SSRİ tərkibində olmuş keçmiş Sovet respublikalarına, onlar indi imperiyanın tərkibinə daxil olmasalar da, öz geosiyasi ərazisi kimi baxır. Kreml yeni təşkil edilmiş dövlətlərin ərazilərində öz hərbi iştirakını saxlamağa çalışır. Abxaziyadakı seperativ hərəkatdan istifadə edərək Rusiya Gürcüstanda öz hərbi bazasını yaratdı. Ermənistan torpaqlarında özünün hərbi iştirakını qanunlaşdırdı. Qazaxıstana siyasi və maliyyə təzyiqi göstərdi ki, onun ərazisində hərbi bazalarının yaradılmasına nail olsun. Tacikistanda başlanan vətəndaş müharibəsi onun ərazisində öz qoşunlarını yerləşdirməyə ona imkan verdi.

Moskvanın məqsədlərindən biri Orta Asiya respublikalarının suverenliklərini məhdudlaşdırmaq və gələcəkdə onları MDB xətti ilə özündən asılı vəziyyətə salmaqdır. Bu məqsədə çatmaq üçün Rusiya yeni dövlətlərin özünün xüsusi Silahlı Qüvvələri olmaq fikrindən daşındırmağa çalışır, onları öz doğma dillərindən imtina etdirmək istəyir, birbaşa Səudiyyə Ərəbistanı və Aralıq dənizinə çıxan yeni boru kəmərinin çəkilməsinə qarşı çıxır və xarici dünya ilə sıx əlaqəsinə mane olmağa çalışır. Bu siyasət uğurla aparılır. Rusiya istəyir ki, bu respublikaların xarici əlaqələrində dominat

rolunda çıxış etsin, gəlirlərin bölüşdürülməsində isə həlledici səsə malik olsun. Əslində Orta Asiya ölkələrinə və Qafqaza qarşı Rusiyanın siyasəti Afrikanın fransız dilində danışan ölkələrinə Fransanın münasibətini xatırladır.

Əgər Rusiyanın bərpası regionda maksimum dərəcədə siyasi və iqtisadi nüfuzu gücləndirəcək ümumi məqsədə xidmət edirsə, ancaq MDB-nin möhkəmləndirilməsi Azərbaycan və Qazaxıstanın siyasi cəhətdən Moskvanın ilk növbədə siyasi obyektlərinə tabe edilməsi ilə nəticələnə bilər. Rusiyanın siyasi əks-hücumu müsbət nəticə verə bilər. Moskvanın  məqsədlərindən biri də regionların coğrafi hasarlarını aradan qaldırmaqdır.

Azərbaycan Rusiya üçün prioritet məqsəd olaraq qalır. Azərbaycanın tabe edilməsi Orta Asiyanı Qərbdən, xüsusilə Türkiyədən qoparda bilər. Həmçinin Rusiyanın əsas halqalarından biri hesab etdiyi, hələ ümidini itirmədiyi Özbəkistan və Türkmənistana təsir göstərməsi üçün bu əlverişlidir. Xəzər dənizində quyuların qazılmasına konsensiya vermək haqqında razılıq əslində ancaq bir məqsədə xidmət edir ki, Bakı Moskvanın arzularına cavab verməyə məcbur edilsin. Qazaxıstanın özünün də etnik tərkibi Rusiya ilə münasibətləri kəskinləşdirməyə imkan  vermir. Moskva heç də Qazaxıstanın ona sərhəd olan Çinlə yaxınlaşması ilə barışa bilməz. Ola bilsin ki, Rusiyanın nəzarəti altında Qazaxıstan Qırğızıstan və Tacikistana açıq şəkildə təzyiqini artırsın. Rusiyanın "Avrasiya Balkanı" adlanan Orta Asiyada öz mövqeyini möhkəmləndirmək başlıca məqsədlərindən biridir.

Gürcüstan və Ermənistan öz xarici siyasətlərində daha çox Avropaya qovuşmaq istəyirlər. Orta Asiya respublikalarının və Azərbaycanın təbii sərvətləri hesabına bu bölgəyə qoyulan ABŞ, Avropa, Yapon, Koreya kapitalından yararlanaraq onların köməyi ilə öz iqtisadi inkişaflarını sürətləndirmək siyasəti yeridirlər.

Azərbaycan Türkiyə və ABŞ-la daha çox hesablaşaraq nəinki Rusiyanın onun ərazisində hərbi bazalar yerləşdirməsi təklifini qəbul etmədi, həm də açıqcasına Rusiyanın Qara dəniz limanlarından vahid neft kəməri çəkmək haqqındakı təklifini də rədd etdi. Azərbaycan 1999-cu ilin noyabrında Gürcüstan və Türkiyənin

ərazisindən keçən ABŞ-ın da dəstəklədiyi Bakı-Ceyhan-Tbilisi neft ixrac boru kəmərinin çəkilməsi haqqında müqavilə imzaladı.

2004-cü ildən Bakı nefti xaricə axmağa başladı. Keçmiş “İpək yolu”nun bərpası isə Azərbaycanın strateji əhəmiyyətini daha da artırdı. Cənubdan İran vasitəsilə boru kəmərinin çəkilməsi nəzərdə tutulsa da, mümkün olmadı. Çünki onu ABŞ kampaniyaları maliyyələşdirməli idilər. Lakin ABŞ İranla hər hansı bir müqaviləyə maliyyə embarqosu qoyduğuna görə bu kəmərin çəkilişini də maliyyələşdirməkdən imtina etdi.

1995-ci ildə Türkmənistanı İranla birləşdirən dəmiryolunun açılması Orta Asiyanın Avropa ilə ticarətinə imkan verdi. Rusiyanın ərazisindən keçmədən də Orta Asiya respublikaları artıq dünya ilə ticarət etmək imkanı qazandılar. Özbəkistan da Rusiyanın “inteqrasiya” tərəfinə qarşı bütün gücü ilə müxalifətdə dayanırdı.

1996-cı ilin avqustunda Özbəkistanın xarici işlər naziri birmənalı qeyd etmişdir ki, “Özbəkistan MDB-nin millətlər-üstü institutlarının təşkilinin qəti əleyhinədir, çünki bundan gələcəkdə mərkəzi idarəetmə vasitəsi” səviyyəsində istifadə edilə bilər. Özbəkistanın bu millətçi mövqeyi dərhal Rusiya mətbuatında Özbəkistanın ünvanına kəskin tənqidlə qarşılandı. Mətbuat yazırdı ki, MDB daxilində hətta gömrük ittifaqına da daxil olmaması onların millətçi antirus siyasəti yeritmələrindən xəbər verir. ABŞ üçün Asiya regionunda Rusiyanın zəiflədilməsi siyasi xətti yeridilirdi. Bu mövqe ABŞ üçün xoşagələn idi.

Hətta Qazaxıstan da Rusiyanın təzyiqinə cavab olaraq öz təbii sərvətlərinin axını üçün Rusiya ərazisindən keçməyən yollar axtarırdı. Həmin regiona və Azərbaycana külli miqdarda xarici kapital qoyuluşu Rusiyanın maliyyə imkanlarını məhdudlaşdırır, onu qlobal iqtisadi təzyiq göstərməkdən açıqca kənarda qoyurdu. Rusiya ilə əlaqədar təhlükədən ehtiyat edərək Orta Asiya dövlətləri daha sıx regional əməkdaşlığı inkişaf etdirmək istəyirlər.

Bir faktı da yaddan çıxarmaq olmaz ki, Qazaxıstan, Özbəkistan və Türkmənistan prezidentləri arasında isti münasibətin olmamasından Moskva onları bir-biri ilə toqquşdurmaq üçün

məharətlə istifadə edir. Ancaq 90-cı illərin ortalarında onlar öz səhvlərini başa düşməyə başladılar.

Ən vacib nüanslardan biri də MDB daxilindəki Ukrayna ilə Özbəkistan, Türkmənistan və Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında müqavilənin bağlaması idi. Ukrayna və Özbəkistanın nümunəsində Rusiyaya müəyyən dərəcədə simpatiyaları olan digər respublikaların liderləri ilə də artıq Moskvanın mərkəzləşdirmə cəhdlərinə qarşı çıxmağa başladılar. Moskva o zaman daha da pərişan oldu ki, 1996-cı ilin sentyabrında Gürcüstan prezidenti E.Şverdnadze və Özbəkistan prezidenti Nursultan Nazarbayev bildirdilər ki, əgər onların müstəqilliyi təhlükə altında olarsa, respublikalar MDB-ni tərk edəcəklər.

MDB-yə qarşı Orta Asiya respublikaları və Azərbaycan öz fəaliyyətlərini iqtisadi əməkdaşlıq təşkilatı səviyyəsinə qaldırdılar. Moskva açıq şəkildə bu təşəbbüslərə qarşı çıxdı. Türkiyə daha çox, İran isə bir qədər bu respublikalarla əlaqələri inkişaf etdirsə də, heç biri, etiraf etmək lazımdır ki, Rusiyanı bu regionlara təsirdən məhrum etmək imkanına malik deyildilər. Onlar ancaq çalışırlar ki, bu respublikaların keçmiş sahibləri, indiki şimal qonşuları ilə yenidən inteqrasiya olunmasınlar. Bu da, şübhəsiz, regionun gələcəyinin geosiyasi açıqlığını saxlamağa kömək edir.

ABŞ üçün geostrateji nəticələr aydındır. Amerika çox uzaqda yerləşir. Bu isə onun Avrasiyanın bu regionunda dominat roluna bir qədər maneə törədir. Lakin digər tərəfdən, bu teatrda baş verən hadisələrə müdaxilə etmək üçün o son dərəcə güclüdür. Maraqlı cəhət budur ki, bu regionun bütün dövlətləri də onların yaşaması üçün ABŞ-ın bu regionda iştirakını zəruri hesab edirlər. Rusiya ABŞ-ı bu regiona müdaxilədən kənarlaşdırmaq və əvvəlki mövqeyini bərpa etmək üçün hələlik çox zəifdir. Hadisələrin gələcək inkişafından çox şey asılı ola bilər. Çin kifayət qədər güclü olsa da, Rusiyadan ehtiyat edərək bu regionun hadisələrində iştirak etməkdən çəkinir. Buradan belə bir nəticə çıxır ki, heç bir dövlət bu geosiyasi əraziyə nəzarət edə bilməsin, dünya ictimaiyyəti isə bu regiona maliyyə-iqtisadi dəstək göstərsin. Bununla yanaşı, Rusiyanı regiondan kənarlaşdırmaq arzu edilən deyil, çünki bu Rusiya ilə yeni dövlətlər arasındakı ziddiyyətləri daha da

gücləndirə bilər. Həqiqət budur ki, regionun inkişafında Rusiyanın partnyor kimi fəal iqtisadi inkişafı bu zonanın siyasi sabitliyi üçün çox vacibdir.

Ukrayna respublikasının prezidenti Z.Kuçmanın rəhbərliyi ilə 2004-cü ilin dekabrın 27-də keçirilən Milli Təhlükəsizlik və müdafiə Sovetinin iclasında ölkənin NATO-ya daxil olması bəyənildi və göstərildi ki, Avropanın kollektiv təhlükəsizlik sistemində iştirak üçün bu qurumun üzvü olmaq lazımdır. Qərbin inkişaf etmiş, ölkələri ilə əlaqələri inkişaf etdirməyk təklifini 1997-ci ildə ölkə əhalisinin cəmi 13,8%-i dəstəkləyirdi. Krımda isə əhalinin əksəriyyəti NATO-nu təcavüzkar blok hesab edirdi. Yeni tarixi dövrdə həqiqətən NATO beynəlxalq hüquq qaydalarını tez-tez pozur. Məsələn, onun Yuqoslaviyadakı hərbi əməliyyatları, Belqradı bombardman etməsi, Serbiyada minlərlə dinc sakini öldürməsi buna sübutdur. Burada heç bir Avropanın təhlükəsizliyi məsələsindən bu mənada söhbət gedə bilməz.

Hazırki dövrdə Şimali Atlantika alyansı ölkələrinin liderləri xüsusilə 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra "beynəlxalq terrorizmə" və islam fundamentalizminə qarşı total müharibəyə başladıqlarını elan etdirlər. Bu müharibədə isə NATO bloku əsas instrument rolunu oynamalı idi. Terrorizmlə müharibə vacib olsa da, lakin hər hansı bir bəhanədən istifadə edib hər hansı təcavüzə başlamaq beynəlxalq hüquq normalarını tam ziddir. Ukrayna elan etdiyi dövlət neytrallığına və bloklara qoşulmamaq statusunu pozur, heç bir zərurət olmadan öz xalqın dünyada baş verən münaqişələrdə iştiraka cəlb edir. Ukrayna liderləri belə bir fikir də irəli sürürlər ki, guya NATO bloku Rusiya ilə yaxınlaşır, bu da Ukraynanın bu blokda iştirakına yol açır.

Rusiya özünün hazırkı bütün xoşagəlməz hallarına baxmayaraq əvvəlki kimi yenə də böyük ölkə olaraq qalır, dünyada ikinci nüvə ehtiyatına malik olan ölkədir. O, dünyada baş verən geosiyasi münasibətlərin bütün spektrlərinə nüfuzedici təsirini saxlamaqdadır. NATO ilə Rusiya arasında "19+1" formulu üzrə saziş rus diplomatiyasının çox böyük uğuru hesab edilə bilər. çünki bu, müəyyən dərəcədə alyansın fəaliyyətini bitərəfləşdirməyə, silahlı qüvvələrin, digər təhlükəsizlik institutların modernləşdirilməsinə

xidmət edir. Lakin Ukraynanın NATO-ya girmək istəyinə gəlincə, demək lazımdır ki, bu böyük şahmat lövhəsindəki böyük fiqurların oyununda piyadaların vəziyyətinə bənzəyir. Ukrayna dövləti "Avropaya yol" prinsipini əsas götürür. Lakin Avropanın ziyalı təbəqəsi özlərinin vətənlərini Köhnə dünya adlandırırlar. Hazırkı dövrdə Ukraynanın NATO-ya girməsi ölkənin inkişafının ənənəvi hüququ və mənəvi prinsiplərinin pozulması, öz vətəndaşlarının ümumi rəyinin nəzərə alınmaması, onun yeni qlobal münaqişələrə cəlb edilməsi, ölkənin siyasi müstəqililiyinin itirilməsinə doğru gedilməsi, ölkədaxili parçalanmasının güclənməsi deməkdir.

## V.ABŞ və Ərəb ölkələri 2011-ci ildə

2011-ci ilin fevral-martında Misirdə Hüsnü Mübarək hakimiyyətinə qarşı çevrilən hərəkat ABŞ başda olmaqla böyük dövlətlər tərəfindən dəstəkləndi. Bu hərəkat sonda qələbə çaldı və Hüsnü Mübarək 30 illik hakimiyyətindən əl çəkməli oldu. "Müsəlman qardaşları cəmiyyəti"nin rəhbərlik etdiyi belə hərəkatlar digər ərəb ölkələrində - Tunisdə, Yəməndə, Suriyada da baş verdi. Bu hərəkatların hamısı mövcud quruluşa qarşı çevrilmişdi. Nəticədə Suriyada fövqəladə vəziyyət ləğv edildi. Digər ölkələrdə xalqa bir sıra güzəştlər edildi. Bu ölkələrdəki hərəkatlar liberalizmə, plüralizmə yönəlmiş hərəkatlar idi.

Liviya Afrikanın şimalında yerləşən ərəb ölkəsidir. Ərazisinə görə Afrikanın ən böyük dövlətlərindən biridir. Liviya Afrikada neft ehtiyatlarına görə birinci, qaz ehtiyatlarına görə dördüncü yeri tutur.

Liviyada fevralın 17-nə kütləvi etiraz aksiyaları başladı.

Benqazi şəhərində küçələrə çıxan minlərlə insan 1969-cu ildən ölkəni idarə edən Liviya Ərəb Cümhuriyyətinin lideri, polkovnik Müəmmər Qəddafinin istefasını, həbsdə olan siyasi məhbusların azad edilməsini tələb edirdilər. Lakin, Liviya lideri Müəmmər Qəddafi Misir prezidenti Hüsnü Mübarək devrilməzdən bir həftə əvvəl xalqa müraciət edərək bildirmişdi ki, "qanuni hakimiyyətə qarşı etiraz aksiyalarına dözmək niyyətində deyil".

Əl-Bayda, Əz-Zintan şəhərində də etiraz aksiyası keçirilirdi.

Hökumət əleyhinə aksiyalarla yanaşı, Tripoli, Benqazi və Liviya lideri Müəmmər Qəddafinin doğulduğu Sirt şəhərində hakimiyyətə dəstək xarakterli aksiyalar da keçirilməyə başladı.

Nümayişçilər ölkənin şərqindəki Əl-Bayda şəhərini ələ keçirdilər. Şəhər təhlükəsizlik qüvvələri tərəfindən mühasirəyə alınmışdı.

Liviya liderinin oğlu bildirirdi ki, ordu Qəddafini müdafiə etmək üçün son gülləyədək döyüşəcək: "Mən vətəndaş müharibəsindən ehtiyatlanıram, bu müharibə neft səltənətini məhv edə bilər. Bəziləri Benqazidə hökumət yaratmaq, digərləri isə Əl-Baydada islam əmirliyi təsis etmək istəyir. Hər kəsin öz çevriliş planı var".

Liviyanın Benqazi şəhərində kütləvi etiraz aksiyası keçirən vətəndaşlarla polisin toqquşması nəticəsində 200 nəfər həlak olmuş, 800 nəfər yaralanmışdı.

Liviya Ərəb Cəmahiriyyəsinin lideri Müəmmər Qəddafi dövlət televiziyası ilə xalqa müraciətində demişdi ki, ölkədəki yerli idarəetmə orqanlarının səlahiyyətləri artırılacaq, dövlət büdcəsindən xərcləmələrə nəzarət gücləndirildəcək. "Liviyada baş verənlər "Əl Qaidə" kimi terror təşkilatları və Qərbin idarə etdiyi bəzi dəstələrin işləridir. Şəhərlərimizi xarabazara, xalqımızı zəlil insanlara, dövlətimizi isə parçalanmış ölkəyə çevirmək istəyən bu adamların məqsədləri xain, çirkin və murdardır. Bu murdar köpəklər, əlləri qana batmış cəlladlar bilməlidir ki, Liviya xalqı müstəqilliyi və stabilliyi uğrunda verdiyi qurbanları unutmayacaq. Şəhidlərin qanı yerdə qalmayacaq. Mən Liviya inqilabının lideriyəm. İnqilab lideri isə prezident deyil ki, istefa versin. Hazırda Qərbin mediya vasitələri ölkəmizin dünyadakı imicini korlamağa çalışırlar. Lakin bu insanlar və qüvvələr bilməlidir ki, xaricdən təzyiqlərə boyun əyən, geri çəkilən deyiləm. Amerikaya və Böyük Britaniyaya müqavimət göstərən biz liviyalılar təslim olmayacağıq. Liviya inqilab istəmir. Muzdlu köpəklərin idarə etdiyi insanlar Liviyaya yox, İblisə xidmət edirlər. Mən ölkəni tərk edən deyiləm və burada şəhid kimi dünyamı dəyişəcəyəm".

ABŞ Hərbi Dəniz Qüvvələri dünyanın ən uzun aviadaşıyıcısı olan “USS Enterprise”si Liviya sahillərinə göndərmişdi. Aviadaşıyıcı Liviyadakı vətəndaş müharibəsi ilə əlaqədar, Somali quldurları ilə mübarizə tapşırığından geri çağırılmışdır. Penntaqon fevralın 28-də Şimali Afrika sahillərində Hərbi Hava və Hərbi Dəniz qüvvələrinin yenidən qruplaşdırılacağını bildirilmişdir. ABŞ və Böyük Britaniya liderləri isə Liviyada müxalifəti qorumaq üçün hərbi gücə əl atacaqlarını istisna etməyiblər. Britaniyanın baş naziri Devid Kemeron Müəmmər Qəddafinin nümayişçilərə qarşı təyyarə və vertolyotlardan istifadə etdiyi təqdirdə, onun özünə qarşı da hava zərbələrindən istifadə olunacağını bəyan etmişdi.

ABŞ, Britaniya və Fransa xüsusi təyinatlılarını Liviyaya yeritmişdilər. Bu 3 ölkənin xüsusi təyinatlıları Liviyanın şərq rayonlarında yerləşdirilmişdi.

Qəddafi bildirirdi ki, "Qərb Liviyanı Böyük Britaniya, Fransa və ya ABŞ-ın müstəmləkəsinə çevirmək istəyir. Avropa ölkələri artıq Fars körfəzi və İraqın neft yataqlarına nəzarət edir".

2011-ci ilin fevralın 23-də Liviya iğtişaşları ilə bağlı ilk dəfə şərh verən ABŞ prezidenti Barak Obama demişdi ki, Liviya hakimiyyəti Müəmmər Qəddafi rejimi əleyhinə etiraz edənlərə qarşı zorakılıq işlədilməsinə görə məsuliyyət daşımalıdır. Onlar beynəlxalq qurumlarla birlikdə Liviya böhranına qarşı ümumi cavab yolunu axtarmağı planlaşdırıblar". ABŞ prezidenti göstəriş verib ki, onun milli təhlükəsizlik komandası Liviyada seçkilər üzrə təkliflər hazırlasın. Həmin gün Avropa Birliyinin rəsmiləri də Qəddafi rejiminə mümkün cavab tədbirləri kimi sanksiyalar təklif etmişlər.

Amerika Birləşmiş Ştatları Liviya lideri Müəmmər Qəddafinin öz xalqının inamını itirdiyini hesab edirlər. Liviya hökumətinə qarşı sanksiyalar paketi hazırladıqlarını Ağ Evin mətbuat katibi Cey Karni bəyan etmişdi. O deyirdi ki, «Belə görünür ki, Qəddafi xalqının etimadını itirib. O vətəndaşlara qarşı zorakılıq tətbiq olunmasına sakit baxır, liviyalıların nəzərində onun hakimiyyətinin qanuniliyi sıfıra enib».

ABŞ prezidenti Barak Obama Liviya lideri Müəmmər Qəddafiyə, onun ailə üzvləri və hökumətinə qarşı birtərəfli qayda-da maliyyə sanksiyalarının tətbiq olunması barədə fərman imzalamışdı. «Mən ABŞ prezidenti Barak Obama hesab edirəm ki, polkovnik Müəmmər Qəddafi, onun hökuməti və ən yaxın silahdaşları silahdan, muzdlu əsgərlərdən və əsassız zorakılıqdan istifadə edərək Liviya xalqına qarşı yolverilməz addımlar atıblar. Mən həmçinin hesab edirəm ki, Qəddafi, onun ailəsinin, hökumətinin üzvləri və ən yaxın silahdaşları Liviyanın dövlət əmlakı qorunmasa, onu ələ keçirə bilərlər». Fərmana əsasən, Qəddafi, onun hökuməti və dörd qohumunun bütün əmlakı və bank hesabları dondurulur, Liviya hökuməti ilə bütün bank əməliyyatlarına qadağa qoyulurdu. «Bundan əlavə, ABŞ dövləti Liviyaya müdafiə sənayesi mallarının idxalına və bu ölkəyə müdafiə sahəsində xidmət göstərməyə icazə verən bütün mövcud lisenziyaları dondururdu».

BMT Təhlükəsizlik Şurası 26 fevral 2011-ci il tarixində Liviya rəhbərliyinə qarşı sanksiya tətbiqi təklifi barəsində qətnamə qəbul etmişdir. Qətnamədə Liviyaya qarşı hərbi embarqonun tətbiqi, ölkə rəhbərlərinin xaricdəki hesablarının dondurulması və onların xaricə səfərlərinə qadağa qoyulması təklif edilirdi.

Qətnamədə göstərilirdi ki, dinc Liviya vətəndaşlarına qarşı hücumlar "bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilə bilər". Bu hala isə Haaqadakı Beynəlxalq Məhkəmə tərəfindən baxıla bilər.

Avropa Birliyi Liviyada dinc nümayişçilərə qarşı əsassız güc tətbiqinə görə məsuliyyət daşıyan Müəmmar Qəddafi və onun ailə üzvlərinə qarşı sanksiyalar paketini razılaşdırmışdı.

ABŞ NATO-dakı tərəfdaşları ilə Liviyada Müəmmar Qəddafi rejiminin hərbi müdaxilə ilə devrilməsi imkanlarını müzakirə etmişdir. Birləşmiş Ştatların BMT-dəki nümayəndəsi Syuzan Rays Vaşinqtonun Liviya müxalifəti ilə əlaqələr qurduğunu bildirmişdi. ABŞ-ın BMT-dəki səfiri Syuzan Rays bildirirdi ki, «Biz problemin həlli üçün bütün mümkün variantları müttəfiqlərimizlə müzakirə edirik».

Fransa prezidenti Nikola Sarkozi ilə Böyük Britaniyanın baş naziri Devid Kemeron Avropa Birliyinə üzv olan bütün dövlətləri bu addımı atmağa çağırmışdılar. Fars körfəzi ərəb dövlətlərinin əməkdaşlıq şurası Qəddafi rejimini legitimliyini itirmiş hakimiyyət kimi tanımışdı. ABŞ-ın Liviya müxalifətinin qurduğu Milli Şuranı hökumət kimi tanımağa hazır olduğunu isə Birləşmiş Ştatların dövlət katibi Hillari Klinton da bəyan etmişdi. Eyni mövqeni İtaliyanın xarici işlər naziri Franko Frattini də ortaya qoymuşdur.

Liviyadakı durumla bağlı ABŞ dövlət baçısı Barak Obama bildirmişdi ki, Amerika müttəfiqləri ilə bərabər Liviya lideri Müəmmar Qəddafini cilovlamağa çalışır. Prezident Qəddafinin opponentlərinə qarşı hücumlarına cavab vermək üçün bütün variantların nəzərdən keçirildiyini bəyan etmişdir.

BMT-nin İnsan Hüquqları Şurası Liviyada insan hüquqları sahəsində pozuntuların araşdırılması üçün 3 nəfərdən ibarət komissiya təşkil etmişdi.

BMT-nin Təhlükəsizlik Şurası Liviya üzərində uçuşsuz zonanın yaradılmasına və Liviya rəhbərliyinə qarşı daha sərt sanksiyalara çağırmışdı. Şura bunu Ərəb Liqasının belə bir zonanın yaradılması barədə xahişi ilə əlaqədar etdiyini vurğulamışdı. Bununla belə, Təhlükəsizlik Şurasının daxilində Liviyaya hərbi müdaxilə məsələsində ciddi fikir ayrılığı qalırdı. BMT diplomatları deyirlər ki, qətnamə Liviya üzərində bütün uçuşları qadağan etməli və üzv ölkələr Tripolinin qətnamənin tələbini yerinə yetirməsini təmin etməlidirlər. Onlar deyirlər ki, ilk növbədə belə bir zonanın yaradılmasında ərəb ölkələrinin iştirakı məqsəduyğun sayılır. Məhz bu məqamı vurğulamaq üçün əsasən Britaniya və Fransa tərəfindən cizgilənmiş qətnamə layihəsinin tərtibində Livan da iştirak edirdi. Liviyaya hərbi müdaxiləyə müxalif olanlar var və bunlar heç də təkcə Rusiya və Çin deyildi. Almaniya da bildirir ki, uçuşsuz zona barəsində bir çox suallar açıq qalmışdı.

---

BMT-nin Təhlükəsizlik Şurası Liviya hava məkanında uçuşlara qadağan olunan zonanın yaradılması barədə qərar qəbul etmişdi. BMT Təhlükəsizlik Şurasının qətnaməsində hərbi əməliyyatların mümkünlüyü və Liviya Mərkəzi Bankının və neft şirkətinin hesablarının dondurulması imkanları qeyd olunmuşdu. Bu tədbirlər müxalifətin nəzarəti altında olan şəhərin bombardman olmasının və yerli dinc əhalinin qətlə yetirilməsinin qarşının alınmasına yönəldilimişdi.Təhlükəsizlik Şurasının 15 üzvündən 10-u qətnamənin lehinə səs vermişdi.

Liviyanın səmasının blokadaya alınması barədə BMT Təhlükəsizlik Şurası 1973 saylı qətnaməni qəbul etməsindən sonra ABŞ, Fransa, İtaliya, Kanada və s. ölkələr koalisiya yaratdılar. Fransızlar, amerikalılar və ingilislərin Liviyaya zərbələrinə Səudiyyə Ərəbistanı və Qətər də qoşula biləcəklərini bəyan etdilər. Afrika İttifaqı, Türkiyə, Rusiya, Çin, Hindistan, Ərəb Dövlətləri Liqası bombardmanları qətiyyətlə pislədi. Kanada, İspaniya və Danimarkanın hərbi təyyarələri Liviyaya qarşı yeni zərbələrdə iştirak etmək üçün Aralıq dənizindəki aviabazalara gətirilmişdi.

Qəddafi rejimi hərbi bazalar və nəqliyyyat qovşaqlarının yanında mülki əhalini yerləşdirərək "canlı qalxan"lar yaradırdı. Qəddafinin komanda məntəqəsi Bab əl Əziziyyədə yerləşirdi.

Qəddafi rejiminə qarşı hazırlanmış "Odisseya. Sübh" əməliyyatı ABŞ-ın 1991-ci ildən bəri qatıldığı ən mühüm hərbi əməliyyatların ssenarisi üzrə keçirilirdi. Əməliyyyatın əvvəlində "Tomahavk" qanadlı raketlərindən istifadə edilərək aviasiyaya "yol" açıldı. Liviyadakı 20 hədəfə 110 belə raket buraxılmışdı. Beynəlxalq koalisiyanın başlıca hədəfi Qəddafiyə sadiq qoşunların əlində olan və 300 km məsafədəki hədəfləri vura bilən "SA-5" raket sistemləri oldu. Bundan başqa, Qərbin təyyarələrinin hədəfləri arasında Liviyanın 50 "SA-6" raket sistemləri, 30 "hava-torpaq" sistemi və 15 radar sistemi də var idi. Bu sistemlər Aralıq dənizi sahillərində yerləşirdi. Liviyanın Hava Hücumundan Müdafiə Qüvvələrində 5 zenit-raket alayı və 3 zenit-raket briqadası vardı. Onlar S-200 "Anqara", S-75 "Dvina", "Osa" və "Kvadrat" zenit-raket kompleksləri ilə təchiz olunmuşdular.

Əməliyyatın növbəti mərhələlərində Liviyanın hava səmasında patrul uçuşlarında olan qırıcıların elə səmada yanacaqla təmiantı, pilotsuz təyyarələrlə nəzarət və müşahidənin təminatı, kəşfiyyatçı təyyarələrin uçuşları, radar qurğularının məhv edilməsi nəzərdə tutulmuşdu. Bütün bunlar BMT Təhlükəsizlik Şurasının qərarı ilə Liviyanın qapadılmış səmasının patrul nəzarəti üçün görülməli idi.

Liviyaya qarşı əməliyyatlarda ABŞ, Böyük Britaniya, Kanada, Fransa və İtaliya da iştirak edirdi. Liviyadakı mövqelərə ilk zərbələri Fransa Hərbi-Hava Qüvvələrinin "Miraj" təyyarələri tərəfindən endirilmişdi. Bundan başqa, Liviyanın səmasında uçuşsuz zonanın təminatı üçün Siciliyadakı aviabazada Norveç və Danimarkannın hərbi təyyarələri də yerləşdirilmişdi.

Liviyaya qarşı tərtib edilmiş "Odissey Şəfəq" planının üç mərhələsi müəyyənləşdirilmişdir.

1. İlkin mərhələdə əsasən hava hücumundan müdafiə obyektləri olmaqla 31 hədəf bombalanmalı idi.

2. İkinci mərhələnin hədəfləri Liviyada iki hərbi-hava bazası və Qəddafinin Tripolidəki iqamətgahı idi.

3. Son mərhələdə isə koalisiya qüvələri Qəddafiyə sadiq qoşunlara zərbələr endirməyi planlaşdırırdı.

Liviyaya qarşı əməliyyatlarda 3 "B-2" bombardmançı, 56 qırıcı-bombardmançı təyyarələrdən istifadə olunurdu. Hava zərbələri F-16, F-18, "Rafale", "Tayfun", "Tornado", "Mirag 2000" təyyarələri ilə endirilirdi.

Avropa ölkələri arasında BMT-nin tətbiq etdiyi uçuşa qadağa zonasının təmin olunması məqsədilə ABŞ-ın başçılığı ilə koalisiya qüvvələrinin Liviyaya hava və raket hücumları ilə bağlı fikir ayrılıqları yaranmışdı. Uşuşa qadağa zonasında əməliyyatlara nəzarətin ələ alınması ilə bağlı Brüsseldə keçirilən müzakirələ zamanı NATO-nun 28 üzvü konsensus əldə edə bilməmişdi.

Səudiyyə Ərəbistanında səfərdə olan Rəcəb Tayyib Ərdoğan deyib ki, NATO-nun əməliyyatı işğala çevrilməməlidir. Rusiyanın Baş naziri Vladimir Putin uçuşa qadağa zonasını kəskin tənqid etmişdi. Rusiya prezidenti Dmitri Medvedev isə baş nazirini tənqid edərək, onun şərhlərini qəbuledilməz adlandırmışdı. NATO üzvü Almaniya koalisiyada iştirak etməmək qərarını müdafiə etmişdi.

NATO Liviyaya silah tədarükünə dair embarqonun əməl olunması ilə bağlı əməliyyat aparırdı. NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələr Komandanlığı yanında strateji planlaşdırma üzrə direktoru briqada generalı Pyer Sen-Aman bildirmişdi ki, "NATO artıq əməliyyat aparır".

NATO-nun baş katibi Anders foq Rasmusen Şimali Atlantika Alyansının BMT Təhlükəsizlik Şurasının Liviyaya silah tədarükünə dair embarqoya nəzarətlə bağlı qətnaməsinin icrasının təmin olunmasına dair qərar qəbul etməsi haqqında məlumatı vermişdir.

NATO generalı onu da bildirib ki, "Birləşmiş müdafiəçi" kodu ilə əməliyyat aparılan zaman NATO dənizçiləri Mərkəzi Aralıq dənizindən keçəcək və göyərtələrində silah və muzdluların olması ilə bağlı şübhəli gəmiləri yoxlayacaqlar.

Liviyada həyata keçirdiyi hərbi əməliyyatlara komandanlığı NATO öz üzərinə götürmüşdü. Bunu NATO-nun baş katibi Anders Foq Rasmussen bəyan etmişdi.

Müəmmar Qəddafi ölkəsinə qarşı aparılan hərbi əməliyyatları pisləyərək Liviyaya dair Londonda keçirilmiş konfransın iştirak-

çılarını hərbi əməliyyatlara xitam verməyə səsləyib. “Liviyaya qarşı aparılan barbar və şərəf gətirməyən hücumu dayandırın, Liviyanı liviyaylıların ixtiyarına verin. Siz hər an insan itkisini artıran, insan qırğını ilə nəticələnən əməliyyatlarla məşğulsunuz”.

ABŞ-ın Maliyyə Nazirliyi Liviya dövlətinə və ölkə başçısı Müəmmər Qəddafiyə məxsus 30 milyard dollarlıq vəsaiti - nağd pulu və qiymətli kağızı dondurmuşdur. Bu ABŞ tarixində misli görünməmiş iri həcmdə dondurmadır.

Fevralın 27-də BMT Təhlükəsizlik Şurası Qəddafi, ailə üzvləri və yaxın silahdaşlarının ölkədən çıxmasını yasaqlayan qətnamə qəbul etmişdi. Sanksiyanın başqa bəndlərinə görə, Qəddafi və qohumlarının xaricdəki bütün hesabları dondurulur, Liviyaya bütün növ silahların satışı yasaqlanır, Beynəlxalq Cinayət Məhkəməsinə dinc sakinlərin öldürülməsini araşdırmaq tapşırılırdı.

Avropa Birliyi də fevralın 28-də Qaddafiyə, onun ailə üzvlərinə və ətrafındakı şəxslərə sanksiyalar tətbiq etmişdi ki, sanksiyalar Liviyaya silahın və xüsisi vasitələrin satışına embarqonu, Qəddafi klanı təmsilçilərinin Avropa Birliyi ölkələrinə səfərinə yasağı, onların hesablarının dondurulmasını nəzərdə tuturdu.

NATO alyansda Liviya lideri Müəmmar Qəddafiyə qarşı beynəlxalq hərbi kampaniyaya nəzarətlə bağlı fikir ayrılıqlarına baxmayaraq, BMT-nin Liviyaya qarşı tətbiq etdiyi silah embarqosuna əməl etməyə razı olmuşdu.

Liviya hadisələri zamanı may ayına qədər ölkəni 140 min adam tərk etmişdir.

Alyansın yalnız  6 ölkəsi əslində Liviya hökumət qüvvələrinə qarşı hava zərbələrində iştirak edirdi.

NATO alyansının 3 aparıcı lideri ABŞ prezidenti Barak Obama, Fransa prezidenti Nikola Sarkozi və Britaniyanın baş naziri Devid Kameron birgə bəyanatla bildirmişdilər ki, hələlik söhbət polkovnik Qəddafinin hakimiyyətdən getməsi məqsədi ilə müharibənin başlamasından getmir.

NATO Liviyadakı hərbi əməliyyatların birinci mərhələsinin başa çatdığını və ikinci mərhələnin başlandığını bildirmişdir. İkinci mərhələdə məqsədin Liviya lideri Müəmmər Qəddafinin komanda məntəqələrinin məhv edilməsi olduğunu bildirən NATO təmsil-

çiləri Qəddafinin özünün aradan götürülməsi haqda heç bir söhbət getmədiyini vurğulamışdılar.

Mart ayının 19 –da  saat 20:45 də ABŞ, Böyük Britaniya və Fransa başda olmaqla koalisyon qüvvələr Liviyada müxalif qüvvələrə qarşı silahlı mübarizənin qarşısının alınması "məqsədi" ilə "Odyssey Dawn" (Odisseyin başlanğıcı) adlı hərbi əməliyyata başladılar. Hərbi əməliyyatlar havadan zərbələr endirməklə həyata keçirilirdi, lakin istisna deyildir ki,lazım gəldikdə NATO qüvvələri qurudan da Qəddafi qüvvələrinə qarşı əməliyyatlara başlaya bilər. İlkin məlumatlara görə Liviyanın hava məkanı koalisiya qüvvələrinin nəzarəti altındadır və hələ ki, 4 günlük əməliyyatların nəticəsi olaraq Liviya ordusunun Havadan Hücüm Əleyhinə Müdafiə Sistemləri (HHƏMS) sıradan cıxardılmış, mühim hərbi obyektlər isə bombalanmışdır.

Liviyaya qədər Tunis və Misirdə də inqilabi partlayış baş vermişdir. Lakin bu ölkələrin heç birində açıq şəkildə xarici müdaxilə olmamışdır.Aparıcı dövlətlər rəsmi bəyanatlar şəkilində hakimiyyətin xalqa təhvil verilməsini tələb etmişlər.Diqqət olunası məqam Liviyadakı hadisələrin digərlərindən fərqinin olması və Qərbin maraqlarıdır.

Liviyadakı hadislər Tunis və Misir inqilabından nə ilə fərqlənirdi? Əsas fərq burada tərəflər arasında silahlı toqquşmaların olmasıdır. Eyni zamanda nəzərə alsaq ki, Liviya Tunis və Misirdən fərqli olaraq zəngin neft və qaz ehtiyyatlarına malikdir, onda tam fərqli bir situasiyanın yarandığını görə bilərik.

Əslində ABŞ başda olmaqla Qərbi narahat edən iki məsələ var. Birinci – İnqilabçı qüvvələrin silahlı olması və kimlərdən təşkil olunduğunun qeyri-müəyyənliyidir. Nə qədər qəribə səslənsə də, bu belədir. Fərz edək ki,silahlı inqilabçılar Qəddafi rejimini devirir və ölkədə həmin bu qüvvələrin başçılığı ilə hakimiyyət qurulur. Hadisələrin bu cür gedişatı isə heç də Qərbə sərf edən bir situasiyanın yaranacağını vəd etmirdi. Çünki, inqilabçılar arasında vahid komandanlığın olmaması və silahlı müxaliflərin rejimi devirdikdən sonra bir-biriləri ilə mübarizə aparacaqları istisna olunmur, bu isə xaos və anarxiyanın uzun müddət hökm sürəcəyindən xəbər verirdi. Doğrudur, NATO qüvvələrinin Liviyaya müdaxiləsinə bir

neçə gün qalmış inqilabçılar geri çəkilərək öz mövqelərini təhvil verirdilər. Lakin, inqilabçılar hələ də güclü idilər və onların orduya qarşı əks hücum planı real görünürdü. Digər tərəfdən isə, əgər burada inqilabçılar bir çoxlarının fərz etdiyi kimi Qərbin dəstəyi ilə hərəkət edib mübarizəni davam etdirsəydilər, onda Qərb onları ən sadə üsulla, yəni gizli şəkildə silahlandırmaqla mübarizə meydanına atardı. Hazırkı vəziyyət isə fərqlidir.

İkinci məsələ isə əslində humanitar müdaxilənin pərdə arxası əsas faktordur. Bu amil hərbi müdaxilənin demək olar ki, əsas məqsədlərini ortaya qoyur. Bu  neft amilidir. Liviyadakı qeyri-sabit vəzyyət qara qızılın qiymətinin günü-gündən artmasına və Avropanın enerji sahəsində stabilliyinin pozulmasına gətirib çıxarmışdı.Nəzərə almaq lazımdır ki,hal-hazırda dünya bazarlarında neftin qiyməti rekord həddədir. Liviyada baş verən inqilab isə bunun əsas səbəbidir.Eyni zamanda adı çəkilən ölkə Avropanın əsas enerji təmin edicilərindəndir. Deməli, enerji resurslarının sabit, vaxtında daşınması və çatdırılması BMT TŞ – da qəbul olunmuş qətnamədə lehinə səs vermiş ölkələr üçün daha çox lazımdır. Səsvermədə iştirak edən 15 ölkədən 10 – u bu qətnamənin leyhinə səs vermişdir. Səsvermədə öz səsvermə hüququndan istifadə etməyən ölkələr sırasında isə Rusiya, Almaniya, Çin, Hindistan və Braziliyanı göstərmək olar.

1999 – cu ilin  martın 24-də NATO təyyarələri Yuqoslaviya ərazilərini səmadan bombalamağa başladı.Nəticədə isə serblər Kosovadan sıxışdırlaraq çıxarıldı və burada dominat millət kimi albanlar yer aldılar. Milli zəmində baş verən toqquşmalar sona çatdı və ən nəhayət dünya xəritəsində Kosova adlı bir dövlət yarandı. Oxşar məqamlar təyyarlərlə aviazərbələrin endirilməsi və NATO qüvvələrinin iştirakıdır. Lakin, tam şəkildə oxşar ssenarinin təkrarlanacağı real görünmür. Ehtimal olunan gedişat ondan ibarətdir ki, Liviyada Qəddafi rejimi devriləcək, Qərb isə burada tez bir zamanda sabitliyin yaranmasına çalışacaq və öz maraqlarına cavab verən bir hökümətin qurulmasını təmin edəcək. Doğrudur,  ABŞ–ın Afirkadakı baş komandanı general Karter Hem rəsmi şəkildə Qəddafinin devrilməsinin məqsəd olmadığını və yalnız mülki əhalini müdafiə məqsədi ilə əməliyyatlara start

verildiyini bildirmişdi. Lakin, müdaxilənin elə ilk günlərindən Qəddafinin iqamətgahının bombalanması bu bəyanatın “reallığını” hansı səviyyədə əks etdirdiyini ortaya qoyur .

## Ədəbiyyat siyahısı

1.Baxışov M.Ə. ABŞ-ın müasir tarixi. Bakı, 2006
2.Baxışov M.Ə. NATO-nun şərqə doğru genişlənməsi // Beynəlxalq həyat/, №2, 1999
3.Baxışov M.Ə. Kosova münaqişəsi//Beynəlxalq həyat/№2, 2001.
4.Baxışov M.Ə. Körfəz müharbəsi, onun beynəlxalq münasibətlərə təsiri // Beynəlxalq həyat/, №2, 2001
5.Baxışov M.Ə. Avropa İttifaqının şərqə doğru genişlənməsi // Tarix və onun problemləri/, №4, 2006.
6.M.Qasımlı., M.Fətəliyev. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə, Bakı, 2008.
7.S.Mustafayeva: Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. Bakı 2010.
8.S.Mustafayeva. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi. 1918-2007-ci illər. Bakı, 2009.
9.Латинская Америка в международных отношениях XX века. M., 1988
10. Рейган Р. Жизнь по-американски. М, 1992
11. Эйзенхауэр Д. Крестовый поход в Европу. М, 1980
12. Абрамов Ю.К. Феномен Рональда Рейгана. // Политические портреты. М., 1989
13. Давыдов Ю.П. Политика США в Восточной Европе. // США: экономика, политика, идеология. - 1990. - № 2
14. Иванян Э.А. История США. М., 2004
15. Иванян Э.А. Рональд Рейган: хроника жизни и времени. М., 1991
16. Киссинджер Г. Дипломатия. М., 1997.
17. Кудрявцев В.Б. Военная политика НАТО и европейская безопасность. // США: экономика, политика, идеология. – 1991 №6
18. Д.В.Кузнецов. Арабо-Израильский конфликт: История и современность. Благовешенск, 2006.
19. Мельников Ю.М. Внешнеполитические доктрины США. Происхождение и сущность программы «новых рубежей» президента Кеннеди. М., 1970
20. Никонов В.А. Республиканцы: от Эйзенхауэра к Никсону . М., 1988

21. Позиция руководства США в связи с вводом советских войск в Афганистан в 1979 г. // Новая и новейшая история. - 1997
22. Усачёв И.Г. Джон Фостер Даллес. Политический миф и реальность. М., 1990
23. Уткин А.И. Американская стратегия для XXI века. М., 2000
24. Шальнев А. Билл Клинтон. М., 1993
25. Ближний Восток: проблемы региональной безопасности – М., 2000 – 207 с.
26. Ланда Р.Г. История арабских стран. – М., 2005.
27. Новейшая история арабских стран Азии, 1917-1985 – М.: Наука, 1988, 636 с.
28. Современные международные отношения и мировая политика/Отв.ред.А.В.Торкунов – М.: Изд-во «Дрофа», 2004.
29. Андреев А.Р. История Иерусалима – М.: ЭКСМО/ Алгоритм, 2004, 413 с.
30. Кисилев В.И. Палестинская проблема – М.: Знание, 1987, 63 с.
31. Кутаков Л.Н. «Шестидневная война» 1967 г. На Ближнем Востоке и ООН. М., 1977.
32. аш-Шазли Саад эд-Дин. «Октябрьская война» 1973 г. // Азия и Африка сегодня, 1993, №9, 10, 11
33. Захаров А.М., Фомин О.И. Кэмп-Дэвид: политика, обреченная на провал – М.: Наука, 1982, 234 с.
34. Агарышев А.А. От Кэмп-Дэвида к трагедии Ливана. М.: Молодая гвардия, 1986-224 с.
35. Панкратьев В.П. путь в Мадрид после ликвидации кризиса в Персидском заливе. М., 1997.
36. Аванов В.Л. США и ближневосточная проблема // Вопросы истории, 1979, № 9
37. Борисов Р.В. США: ближневосточная политика в 70-е годы – М.: Наука, 1982, 215 с.
38. Колобов О.А. Политика США по отношению к Израилю и арабским странам на рубеже 80-90-х годов XX века. Нижний Новгород: 1995, 180 с.

# MÜNDƏRİCAT

**I. İkinci dünya müharibəsinin ABŞ üçün nəticələri .................4**

**II. ABŞ-ın Yaxın Şərq siyasəti. ..............................................107**

**III. ABŞ-ın Qafqaz siyasəti......................................................224**

**IV. ABŞ və Rusiyanın Şərqi Avropada və keçmiş sovet məkanında nüfuz dairəsi uğrunda mübarizəsi........................256**

**V.ABŞ və Ərəb ölkələri 2011-ci ildə.......................................288**